

*Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olubdur. Bir daha deyirəm, həm övladlarımızın cəbhədəki qəhrəmanlığı, həm də neft hasilatı, cəbhəyə lazım olan bütün başqa ləvazimatların istehsalı sahəsində Azərbaycan xalqının xidmətləri misilsiz, əvəzsiz, tarixidir.*

*Heydər ƏLİYEV,*
*ümummilli lider*






**Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin xüsusi layihəsi**

**Layihənin rəhbəri:**
akademik Ziyad SƏMƏDZADƏ

**Layihə üzərində işləyiblər:**
Aytən SƏMƏDZADƏ
Yeganə MƏMMƏDOVA
Şəfəq ƏLİXANLI
Şəhla ABDULLAYEVA
Lalə HÜSEYNOVA

**Mətnlərin, fotoşəkillərin və statistik materialların yığılması və işlənməsi:**

Rəşad HACIBALAYEV
Mənsur MƏDƏTOV
Təranə QURBANOVA
Nailə CABBAROVA
Afət ƏHMƏDOVA
Zəbihə ƏSGƏR
Səriyyə ƏHMƏDOVA

**Dizayner və tərtibatçı:**
Lamiyə NƏBİYEVA

**Korrektor:**
Mətanət HÜSEYNOVA

Layihənin hazırlanmasında vətən və xarici ölkə alimlərinin əsərlərindən, arxiv sənədlərindən və internet resurslardan istifadə olunmuşdur (bax: sonuncu səhifəyə).

---

Kitabın ərsəyə gəlməsində redaksiya heyətinə göstərdiyi köməyə görə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin direktoru, t.e.n. Mais Bağırova dərin minnətdarlığımızı bildiririk.

---

«NEOPRİNT» Nəşriyyat Evində çap olunmuşdur.
Format 60x84 1/8, ç.v. 56.5
Kağız 100 qr. Sifariş 7. Tiraj 3000

VETERANLAR BİZİM SƏRVƏTİMİZ VƏ ŞƏRƏFİMİZDİR ........ 11

BAKI NEFTİ DÜNYA SİYASƏTİNİN TƏRKİB HİSSƏSİDİR ........ 29

BAKI NEFTİNİN QƏLƏBƏDƏ ƏVƏZOLUNMAZ ROLU (FAKTLAR VƏ SƏNƏDLƏR) ........ 53

ONLAR VƏTƏNƏ VƏ ELMƏ XİDMƏT EDİRDİLƏR ........ 115

ORDUNU YEDİZDİRİB-İÇİZDİRİR, GEYİNDİRİRDİLƏR ........ 154

XƏZƏR NƏQLİYYAT DONANMASI MÜHARİBƏ İLLƏRİNDƏ ........ 194

PARAD – FAŞİZİM ÜZƏRİNDƏ QƏLƏBƏNİN TƏNTƏNƏSİ ........ 279

AZƏRBAYCAN-RUSİYA: STRATEJİ TƏRƏFDAŞLIQ ........ 297

MƏQSƏD AZƏRBAYCAN İQTİSADİYYATININ DAYANIQLI, GÜCLƏNƏN İNKİŞAFIDIR ........ 327

GÜCLÜ ORDU DÖVLƏT TƏHLÜKƏSİZLİYİNİN QARANTIDIR ... 354

TANI, XATIRLA, FƏXR ET ........ 429

- 19345 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**"1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illik yubileyinin qeyd edilməsinə hazırlıq barədə" Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının 2012-ci il 5 dekabr tarixli Qərarında 1941-1945-ci illər müharibəsində qələbənin 70 illiyinin qeyd olunmasına dair tövsiyəyə uyğun olaraq qərara alıram:

1. "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Tədbirlər Planında göstərilən tədbirlərin icrası üçün tələb olunan xərclərin maliyyələşdirilməsi 2015-ci il Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı orqanlar üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 fevral 2015-ci il**

Qələbənin 70 illik yubileyinin bayram edilməsi ilə bağlı hazırlanmış tədbirlər planına əsasən, Azərbaycan Respublikasının dövlət strukturlarında müharibə veteranlarının və arxa cəbhə nümayəndələrinin iştirakı ilə təntənəli iclasların keçirilməsi, memorial komplekslərin ziyarət edilməsi, həmçinin respublika nümayəndələrinin Moskva şəhərində Qələbənin 70 illiyinə həsr edilmiş paradda iştirakı nəzərə tutulur.

Respublikanın elmi strukturlarına Azərbaycan neftçilərinin, neft-kimya və maşınqayırma sənayesi işçilərinin, dəmiryolçularının, tibb işçilərinin Qələbənin qazanılmasında danılmaz rolu haqqında elmi konfranslar və simpoziumların təşkili; «1941-1945-ci illər müharibəsində qadınların rolu» mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi; Moskvada müharibəyə həsr olunmuş ikinci beynəlxalq elmi-praktik konfransda iştirak; Respublika Mədəniyyət Nazirliyi və KİV-ə televiziya və radio kanallarında müharibənin 70 illiyinə həsr olunmuş sənədli və bədii filmlərin nümayişi; sənədlər, plakatlar, fotomateriallarn sərgisinin təşkili; Təhsil Nazirliyinə təhsil müəssisələrində müharibə iştirakçıları ilə görüş, vahid dərs (gün) keçirilməsi; Müdafiə Nazirliyinə hərbi hissələrdə müharibə veteranları ilə görüşün təşkil edilməsi tapşırılıb. Əmək və Əhalinin Sosial-Müdafiə Nazirliyi və Sosial-Müdafiə Fonduna (veteran təşkilatlarını cəlb etməklə) müharibə veteranlarına, vəfat etmiş müharibə iştirakçılarının dul qalmış qadınlarına və arxa cəbhədə yenilməz əməyə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardımın təqdim edilməsi tapşırılıb.



**Указ о подготовке и проведении празднования 70-й годовщины Победы в Великой Отечественной войне 1941-1945 годов**

Учитывая всемирно-историческое значение победы над фашизмом в Великой Отечественной войне 1941–1945 годов и в целях координации деятельности федеральных органов исполнительной власти, органов исполнительной власти субъектов Российской Федерации, органов местного самоуправления и общественных объединений по подготовке и проведению празднования 70-й годовщины Победы в Великой Отечественной войне 1941-1945 годов, постановляю:

1. Возложить на Российский организационный комитет «Победа» координацию деятельности федеральных органов исполнительной власти, органов исполнительной власти субъектов Российской Федерации, органов местного самоуправления и общественных объединений по подготовке и проведению мероприятий, посвященных 70-й годовщине Победы в Великой Отечественной войне 1941–1945 годов (далее – праздничные мероприятия).

2. Правительству Российской Федерации:

а) разработать с участием Российского организационного комитета «Победа» план подготовки и проведения основных праздничных мероприятий;

б) утвердить план подготовки и проведения основных праздничных мероприятий, предусмотрев в том числе торжественные мероприятия, посвященные 70-летию решающих сражений, другим важнейшим событиям Великой Отечественной войны 1941–1945 годов;

в) принять меры по улучшению социально-экономического положения ветеранов Великой Отечественной войны.

3. Российскому организационному комитету «Победа» совместно с Министерством иностранных дел Российской Федерации:

а) обратиться к правительствам государств – участников Содружества Независимых Государств, государств бывшей антигитлеровской коалиции, других государств, а также к международным и национальным неправительственным организациям с предложением принять участие в подготовке и проведении праздничных мероприятий;

б) принять меры по координации совместных действий с государствами – участниками Содружества Независимых Государств при подготовке и проведении праздничных мероприятий.

4. Министерству иностранных дел Российской Федерации обеспечить необходимое политико-дипломатическое содействие в проведении праздничных мероприятий.

5. Федеральным органам исполнительной власти и органам исполнительной власти субъектов Российской Федерации:

а) принять участие в подготовке и проведении праздничных мероприятий, в том числе торжественных мероприятий, посвященных 70-летию решающих сражений, другим важнейшим событиям Великой Отечественной войны 1941–1945 годов;

б) оказывать всемерную помощь ветеранам Великой Отечественной войны в решении вопросов их социальной защиты;

в) оказывать содействие органам местного самоуправления в приведении в порядок воинских захоронений и мемориальных комплексов, памятников и обелисков, могил партизан, подпольщиков и узников нацистских концлагерей и тюрем, а также в поиске и захоронении останков воинов, погибших при защите Отечества.

6. Настоящий Указ вступает в силу со дня его подписания.

**Владимир Путин,**
**президент Российской Федерации**
**25 апреля 2013 года**



İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə

# Hörmətli oxucu

70 ildən çoxdur ki, Qələbə günü Böyük Vətən müharibəsi cəbhələrində ölüm-dirim savaşından zəfərlə qalib çıxmış döyüşçülər nəslini qırılmaz tellərlə indiki nəslə bağlayır.

İllər su kimi axır. Ötüb keçən illər qəlbimizin dərinliklərində minnətdarlıq, məhəbbət dolu sözlər qalaq-qalaq kitablara köçürülsə də, bizim nəsillər bəşər tarixinin ən qanlı, ən dəhşətli müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları qarşısında daim borclu qalacaq.

Mən müharibənin dəhşətlərini yaşamış nəslə mənsubam. İndi bizi yaşlı nəsil adlandırırlar. Müharibə yer üzünün bütün uşaqlarına məxsus olan o gözəl, qayğısız, şirin məsum illəri, o illərin dadını, xoşbəxtliyini bizim nəslin əlindən aldı. Bu itkinin acısı bütün uşaqlıq xatirələrinin tən ortasından gəlib keçir. Ağrısı, göynərtisi hələ də qalır. Bundan sonra da qalacaq.

Həmin xatirələrdə ailəmizin, qonşularımızın, elə özümüzün də, qeyri-ixtiyari qorxu, həyəcanla dolu həyatı var idi.

Müharibə uşaqları tez böyüyür. Uşaq olsam da, o vaxtları, Qafqaz dağlarının o üzündə qana susamış düşmənlə gedən şiddətli, amansız döyüşləri, böyüklər kimi, aydın və dəqiq təsəvvür edirdim.

Təpədən-dırnağa qədər silahlanmış düşmən qarşısında bizim qoşunlar necə dayanacaqlar, geri çəkilməyəcəklər ki?!

Bu sualların həyəcanı, nigaranlığı ilə cəbhədən gələn xəbərləri gözləyirdik. Axı, hər birimizin həyatı bundan asılı idi!

Vətənpərvərlik anlayışının yüksək mənasını, məhz o vaxtları da, qonşularımıza, qohumlarımıza, dostlarıma baxaraq, tam aydınlığı ilə başa düşdüm.

Onlardan heç biri də məğlubiyyət sözünü ağlına belə gətirməzdi. Düşməndən bir qırıq aman gözləyən də yox idi. Qandan-qadadan başqa.

Müharibənin dəhşətlərini tam təsəvvürə gətirə bilməyən biz uşaqlar onu bütün çətinlikləri, xüsusən gətirdiyi aclığa görə lənətləyirdik.

Atam Bakı yod-brom zavodunda işləyirdi. O, heç vaxt evdə öz işindən danışmazdı. Ancaq görürdüm ki, o, səhər-səhər işə səliqə ilə ütülənmiş köynəyin altından ağappaq toxunma mayka geyinib gedir, axşam evə qayıdanda isə atamın maykası qonur rəngdə olur. Sonradan bildim ki, yodun buxarlanması səbəbindən mayka həmin rəngi alırmış. İndi başa düşürəm ki, həmin şəraitdə işləmək elə özü əsl qəhrəmanlıq imiş. Hər bir azərbaycanlı, təkcə cəbhədə deyil, arxada, öz iş yerində qəhrəman imiş.

Balalarının əziyyət çəkdiyini görən anam bizə toxtaqlıq verər, deyərdi:

- Bax, dava qurtarsın, hər şey qaydasına düşəcək, çətin günün ömrü az olar.

Onda hamı bir arzuyla, bir diləklə yaşayırdı. Dava tezliklə, özü də mütləq bizim qələbəmizlə bitsin.

Nəhayət, müharibə qurtardı. Çoxdan gözlədiyimiz o Qələbə günü gəlib çatdı!

70 ildir ki, döyüş meydanlarında həlak olanların xatirələrini əziz tutaraq, onlara dərin ehtiramla Qələbəni bayram edirik.

Bəs, niyə qəlbim, yaddaşım sakitləşmək bilmir, müharibənin yaddaşımda qoyduğu izlər məni rahat buraxmır?!

Hesab edirəm ki, mənim, elə bizim hamımızın Qələbə naminə döyüşlərdə, arxa cəbhədə həyatlarını, canlarını qurban verənlərin ruhları qarşısında heç vaxt ödəyə bilməyəcəyimiz borcumuz var. Bütün şüurlu həyatımı iqtisadiyyat elminə həsr etmişəm. Bir çox əsərlərin, o cümlədən də çoxcildli Böyük İqtisadi Ensiklopediyanın müəllifiyəm.

Elm və siyasət, bir anlıq da olsa, dayanmağa, dönüb geri boylanmağa aman vermir. Ancaq elmə, elmi işlərə, siyasətə başım nə qədər qarışmış olsa da, müharibəli uşaqlıq illərimin xatirələri, xüsusən də həmin çağlara aid bir epizod tez-tez yaddaşımdan qopub gözümün önünə gəlir.

...Günlərin birində bizim kəndə, Buzovnaya səs yayıldı ki, dənizin sahilinə hərbi təyyarə düşüb. Bunu eşidən uşaqları dayandırmaqmı olardı?! Mən də uşaqlara qoşulub həmin yerə qaçdıq. Ancaq sahilə yaxınlaşar-yaxınlaşmaz hərbçilər bizi saxladılar. Bu xatirələr çoxdankı bir arzumu, müharibə haqqında, daha doğrusu, Böyük Vətən müharibəsi dövrünün iqtisadiyyatı haqqında kitab yazmaq istəyimi qəlbimdə gündən-günə artırır, qüvvətləndirir...

Bu qanlı savaş bizim üçün də vətən müharibəsi idi. Hitler gəlib Qafqaz dağlarının ayağının altında durmuşdu. Ordan isə əl uzatsan, Bakıya çatardı. Bakı ətrafında isə neft yataqları kükrəyib fontan vururdu. Faşistlər Bakıya, Abşeron neftinə can atırdılar.

Bakı neftçilərinin Hitler faşizmi üzərindəki Qələbədə böyük payı, rolu var. Nahaq yerə neftçiləri "arxa cəbhənin qəhrəmanları" adlandırmırdılar ki?! Onları haqlı olaraq ölkənin fəxri sayırdılar. Neftçi peşəsi çox hörmətli, nüfuzlu idi.

Son on ili əhatə edən bir dövr ərzində çoxlu sayda arxiv materialları topladım. Müharibə illərində çap olunmuş bütün qəzetləri gözdən keçirdim. Qəzetlərdəki materiallarla tanış olduqca bizim neftçilərə, onların fədakarlıqlarla dolu əməyinə görə qəlbim qürur hissi ilə döyünürdü. Fəxr edirəm ki, mənim Vətənim - mənim Azərbaycanım o böyük qələbəni qazananların birinci cərgəsində dayanır.

Müharibə illərində Bakı Sovet ordusunu, bütövlükdə ölkəni yanacaq, sürtkü yağları və digər materiallarla təmin edən əsas təchizatçı idi. Ölkədə işlədilən yanacağın 80 faizinə qədərini Azərbaycan neftçiləri istehsal edirdi. Müharibənin birinci ilində 23,5 milyon ton neft göndərildi. Bütövlükdə, Böyük Vətən müharibəsi illərində ölkənin və ordunun ehtiyacları üçün 75 milyon ton neft yollanıldı.

"Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" - şüarı ilə çalışan Azərbaycan neftçiləri 160 dəfə Dövlət Müdafiə Komitəsinin, Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şurasının və SSRİ Neft Sənayesi Xalq Komissarlığının keçici Qırmızı Bayrağını aldı. Bu da həmin dövrdə çəkilən zəhmətin ən yüksək səviyyədə qiymətləndirilməsi idi.

Azərbaycanın paytaxtı SSRİ-nin Şərq rayonlarında "İkinci Bakı"nın yaradılmasında olduqca vacib, müstəsna rol oynadı. Azərbaycan neft sənayesinin bütün istehsal-texniki və intellektual potensialı həmin bölgələrdəki yeni

yataqların mənimsənilməsinə səfərbər edildi. Ən qısa müddətdə, cəmisi bir neçə həftə ərzində, respublikanın neftçıxarma kadr və texniki-istehsal potensialının ziyanına olsa da, 12 min nəfərdən çox ixtisaslı neftçi kadrı, on min tonlarla neft sənayesi avadanlıqları Bakıdan ölkənin Şərqinə yola salındı.

İosif Stalinin, Franklin Ruzveltin, Uinston Çörçillin birgə razılığına əsasən, Bakı və Xəzər vasitəsi ilə, "Lend-lizi"ə görə, hərbi və mülki yüklərin daşınması həyata keçirildi.

Yük dövriyyəsinin 70%-dən çoxu (yanacaq, hərbi texnika və silah-sursat) Zaqafqaziya Dəmir Yolunun Azərbaycan sahəsinin payına düşürdü.

Respublikanın maşınqayırma müəssisələrinin gücünün 95%-i hərbi texnika, silah-sursat istehsalına yönəldi. Beş Sovet hərbi təyyarəsindən dördü Bakı nefti ilə doldurulurdu.

Bu kitab üçün topladığım zəngin materialları, rəsmi sənədləri araşdırdıqca, bu millətin övladı olaraq xalqımızın tarixi zəfərlərinin fərəh, qürur hissi ilə yenidən şahidi oldum.

Xalqımız tarixin bu çətin, olduqca da sərt sınağı qarşısında, mətanətlə durdu, geri çəkilmədi. Əksinə, qorxu bilmədən düşmənin üstünə şığıdı. Ölümü, aclığı, qıtlığı, dözülməz isti, ilik donduran soyuqlu günləri dəf edib, dözümlülük nümayiş etdirdi. Sivilizasiyamızı bu vəbadan xilas etməkdə planetimizin bütün tərəqqipərvər qüvvələri ilə bir sırada dayandı.

Mən bu fikirdəyəm ki, Vətənin o dar günlərində özlərinin rəşadətli əməyi ilə qəhrəmanlıq nümunələri göstərən Bakı neftçilərinin xatirəsini fundamental tədqiqatlarla, sanballı kitablarla əbədiləşdirmək olduqca vacibdir. Onlar bu haqqı canları, qanları bahasına qazanıblar.

O gün mütləq gələcək, bu kitab işıq üzü görəcək! Qələbənin 60-65 illiklərinə həsr edilmiş "Qaliblər", "Bakı nefti olmadan Qələbə mümkün deyildi" adlı xüsusi buraxılışların nəşri böyük məmnunluq gətirdi. Həmin nəşrlərdə topladığım materiallar indi hamının etiraf etdiyi bir fikrə gəlməyə, faşizm üzərindəki Qələbənin qazanılmasında Azərbaycanın oynadığı müstəsna rola lazımi dəyərin verilməsinə kömək etdi. Böyük Vətən müharibəsinin qaliblərinə eşq olsun!..

Oxuculara xatırlatmaq istəyirəm ki, öz torpaqlarının bütövlüyü uğrunda mübarizə aparan Azərbaycan indi də müharibə vəziyyətindədir. Dağlıq Qarabağ heç də dünənin "nifaq alması" deyildi. Bu, "almanın" asıldığı sapdan yapışıb getsək, neçə-neçə əsrləri adlayıb, tarixin daha dərin qatlarına gəlib çıxarıq.

Böyük Vətən müharibəsi başlayar-başlamaz öz maraqlarını güdən ermənilər tarixin bu dönəmində də fürsətdən istifadə etməyi düşündülər. Hələ 1942-ci ilin avqustunda "K" təşkilatçı qərargahın işi haqqında qısa hesabat"da nasistlər Şimali və Cənubi Qafqaz xalqlarının və ərazi vahidlərinin idarə olunması prinsiplərini hazırlamışdılar. Onlar bu sənəddə Dağlıq Qarabağı erməni komissarlığına aid etmişdilər.

İllər ötdü, lakin, təəssüf ki, Cənubi Qafqazda sərhədlərin yenidən bölünməsi ilə bağlı nasistlərin sərsəm ideyaları erməni separatçılarını və onların havadarlarını ruhlandırmaqda davam edir.

Bir daha xatırlatmağı lazım bilirəm ki, sərhədlərin dəyişdirilməsi istəyi ötən əsrdə iki dəfə dünya müharibəsinə gətirib çıxardı. Buna görə də belə münaqişə ocaqları qətiyyətlə, tez bir zamanda söndürülməlidir.

Bəli, bizim dövlətimiz və hökumətimiz beynəlxalq münaqişələrin sülh yolu ilə nizamlanması prinsipinin tərəfdarıdır. Ancaq Böyük Vətən müharibəsinin təcrübəsi göstərdi ki, xalqımızın malik olduğu təbii sərvətləri kimi, onun insan resursları, mərdlik, qəhrəmanlıq, hünər mənbələri də bitib-tükənən deyil.

Xalqımız təəssüflənir ki, Bakı neftçilərinin qəhrəmancasına döyüşünə ümidlə baxan Sovet İttifaqı rəhbərliyi dinc günlərdə bizdən üz döndərdi, xüsusilə Bakı neftçilərinin əməyinə layiqli və ədalətli qiymət vermədi. Azərbaycan xalqının, Bakı neftçilərinin əməyini qiymətləndimək əvəzinə, ələ düşən ilk fürsətdə xalqımızın milli qüruruna toxunaraq, bizə əcdadlarımızdan qalmış ən qiymətli əmanət - dədə-babalarımızın alın təri, qanı ilə suvarılmış torpaqlarımızın işğalında erməni qəsbkarlarına havadarlıq etdi. Statistik və kartoqrafik məlumatlar əsrlərlə, illərlə azərbaycanlıların əzəli-əbədi yurd yerlərindən, doğma torpaqlarından qovulması hesabına yaradılmış, dövlət büdcəsindən ağır yük kimi asıla qalmış nankor dotasiya istehlakçıları ölkəsinin necə bəslənib-böyüdüldüyünü soyuqqanlılıqla sübut edir.

Faktlar və rəqəmlər sərt və gerçəkdir. Bir iqtisadçı kimi məni bu sual düşündürür: görəsən niyə imperiya hələ I Pyotrun vaxtından indiyədək istər dinc, əmin-amanlıq dövrlərində, istərsə də döyüş meydanlarında Azərbaycan xalqının dəfələrlə sübut olunmuş dostluğunu, etibarlılığını inkar edərək, erməni ambisiyası kimi yerdən qaldırılması az qala mümkün olmayan çox ağır bir yükü inadkarlıqla öz ardınca sürükləyir?!

Bizim dövrdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı M.Qorbaçovun tutduğu mövqe ermənipərəstliyin ən yüksək nöqtəsi, apofeozu oldu.

Onun əmri ilə Bakı yanacağı ilə doldurulmuş sovet tankları Azərbaycanın şəhərlərinə - Bakıya, Sumqayıta, Lənkərana, Neftçalaya və s. soxuldular. Sovet əsgərlərinin güllələri o dövrdə SSRİ vətəndaşları olan soydaşlarımızı öldürdü. 1990-cı ilin "Qara Yanvar" günlərində Bakı və onlarla Azərbaycan şəhərlərində baş verənlər Böyük Vətən müharibəsinin ən qızğın çağında Qafqaz müdafiəçilərinin ən dəhşətli yuxularına belə gələ bilməzdi.

Respublikanın torpaqlarının 20 faizinin işğalı, 1 milyon nəfərdən çox insanın qaçqın düşməsi - Böyük Vətən müharibəsi illərində, ondan əvvəl və sonrakı quruculuq dövrlərində Azərbaycan xalqının Sovet cəmiyyətinin qurulmasına çəkdiyi zəhmətə, o qanlı, ölümlü-itimli döyüşlərdə verdiyi qurbanlara, ən nəhayət, Bakı neftçilərinin alın tərinə, əməyinə, xalqımızın dözdüyü əzablara, məhrumiyyətlərə Qorbaçovun, Qorbaçov hakimiyyətinin, ümumən, Sovet rəhbərliyinin real, üzdəniraq "təşəkkürü" idi.

Bu gün, Böyük Vətən müharibəsinin qurtarmasından 70 il ötəndən sonra da Azərbaycan müharibə şəraitində yaşayır. Atəşkəs rejiminin elan edilməsinə baxmayaraq, respublikanın sərhədlərində həlak olanlar, yaralı əsgərlər, mülki vətəndaşlar barəsində hər gün kədərli xəbərlər gəlir.

25 ildən artıqdır ki, Dağlıq Qarabağda sülh və ədalətin gələcəyini, cinayətkarların layiqli cəzalarını alacağını gözləyirik. Lakin hələ də haqq öz yerini tapmayıb. Ancaq xalqımızın səbrinin də bir həddi var. Həddin aşdığı gün onun intiqamı çox güclü olur!

Ötən illər ərzində Azərbaycan çiçəklənən diyara, regionun liderinə çevrildi. Dünya birliyinin ən nüfuzlu üzvlərindən biri oldu.

Neft bizə yeni güc verdi. Azərbaycan oğulları torpaqlarımızın azad edilməsi uğrunda qələbə soraqlı döyüşlərə atılmağa, bu savaşda öz qəti, qəzəbli, haqq sözünü deməyə hazırdır.

Əziz oxucu, bu bayram buraxılışının materialları ilə tanış olarkən inanacaqsınız ki, bu deyiklərimiz heç də boş sözlər deyil.

Lakin bütün bunlara baxmayaraq, kin-küdurət, qəzəb, qisasçılıq hissləri bizim qəlbimizə hakim kəsilməyib. Xalqımız dünya xalqları ilə həmrəylik, birlik-bərabərlik, qardaşlıq, işgüzarlıq şəraitində yaşamaq, yaratmaq, qurmaq istəyir!

BMT nizamnaməsinin, ATƏT-in Helsinki müşavirəsinin Yekun Aktının müddəalarının tərəfdarı olduğumuzu təsdiqləyərək, xalqları dünyada sabitliyi, təhlükəsizliyi möhkəmləndirməkdə fəal birgə fəaliyyətə, beynəlxalq terrorizmə, ekstremizmə qarşı mübarizəni genişləndirməyə, mövcud, yaxud mümkün müharibə və münaqişələrin qarşısını sülh yolu ilə almağa çağırır.

Böyük Vətən müharibəsində Böyük Qələbə - xeyirin, xeyirxahlığın, insanlığın, sülhün qələbəsidir!



*XX əsrin ən dəhşətli səhifələri olan İkinci dünya müharibəsi və Böyük Vətən müharibəsi bizim üçün çoxlu qurbanlarla başa çatdı. Amma eyni zamanda, bu müharibə dünyada misli görünməmiş qələbə ilə başa çatdı və alman faşizminə qarşı müharibəyə qalxmış xalqlar, ordular 1945-ci ildə tarixi bir qələbə çaldılar. Zaman keçdikcə, illər ötdükcə bu qələbənin mənası, mahiyyəti və tarixi əhəmiyyəti daha da aydın olur, bütün dünya üçün daha da açılır.*

*Azərbaycan xalqı da İkinci dünya müharibəsində - Böyük Vətən müharibəsində qurbanlar vermişdir. Böyük Vətən müharibəsinə Azərbaycandan 600 minə qədər insan cəlb olunmuşdu. Onlardan 300 min Azərbaycan vətəndaşı müharibədə həlak olmuş, geriyə dönməmişdir. Azərbaycanın qəhrəman oğulları Böyük Vətən müharibəsində şücaət göstərmiş, xalqımızın qəhrəmanlıq nümunələrini dünyaya nümayiş etdirmişlər və alman faşizmi üzərində çalman qələbədə Azərbaycan xalqının da böyük payı vardır. Biz bu gün - Qələbə günü Böyük Vətən müharibəsində, alman faşizminin qarşısını almaq uğrunda gedən müharibədə həyatlarını qurban vermiş Azərbaycan vətəndaşlarının xatirəsini böyük minnətdarlıq hissi ilə yad edirik. Bu gün biz İkinci dünya müharibəsində həlak olmuş, alman faşizminə qarşı vuruşaraq həlak olmuş insanların hamısının xatirəsini yad edirik. Onların qəhrəmanlığı heç vaxt unudulmayacaqdır. Çünki bəşəriyyəti faşizmdən xilas etmək tarixi bir qəhrəmanlıq nümunəsidir. Biz bütün həlak olanların xatirəsini həmişə yad etmişik və yad edirik.*

*Biz bu gün Azərbaycanın qəhrəman oğlu general Həzi Aslanovun qəbrinin önündə toplaşmışıq. İki dəfə Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun qəbri eyni zamanda Böyük Vətən müharibəsində həlak olmuş bütün Azərbaycan övladlarının, Azərbaycan vətəndaşlarının qəbirlərini təmsil edir. Onların qəhrəmanlığı heç vaxt unudulmayacaqdır. Onların qəhrəman simaları bizim qəlbimizdə daim yaşayacaqdır.*

*Ümummilli lider,*
*Heydər Əliyev*





# Veteranlar bizim sərvətimiz və şərəfimizdir

Hər bir insanın həyatında qəlbini, ruhunu oxşayan, kövrək duyğularını oyadan, həmişə əziz tutduğu, xüsusi hisslərlə qeyd etdiyi bayramlar, tarixi günlər, hadisələr çoxdur.

9 May – Qələbə günü isə xalqlar, ölkələr, ayrı-ayrılıqda milyonlarla insanın ən dərin hisslərlə qeyd etdiyi, müqəddəs saydığı əziz bayramdır. 9 May – Qələbə bayramı bu haqqı milyonlarla insanın həyatı bahasına qazanıb.

Bu əlamətdar yubileyi layiqincə qeyd etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti 23 fevral 2015-ci il tarixdə verdiyi sərəncamla 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinə hazırlıq və bayram edilməsi üzrə tədbirlər planını təsdiqlədi.

Artıq bu gün respublikada veteran təşkilatlarının iştirakı ilə Qələbənin 70 illiyinə həsr edilmiş geniş ictimai-siyasi tədbirlər həyata keçirilir.

Veteran təşkilatları yerli dövlət hakimiyyət orqanları ilə birgə ali və orta ixtisas təhsili müəssisələrində, ümumtəhsil məktəblərində, hərbi hissələrdə, hərbi məktəblərdə, müəssisələrdə, idarələrdə, təşkilatlarda müntəzəm surətdə müxtəlif tədbirlər, elmi konfranslar, veteranlarla görüşlər, sərgilər, xatirə gecələri və s. kimi tədbirlər keçirir. Belə tədbirlərə respublikanın tanınmış ziyalıları, alimlər, Böyük Vətən müharibəsi veteranları dəvət olunurlar.

Yüksək səviyyədə keçirilən bu tədbirlər gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Bu tədbirlərdə Azərbaycanın, Bakı neftçilərinin müharibədə qələbənin qazanılmasında oynadığı müstəsna roldan geniş danışılır, eləcə də Böyük Vətən müharibəsinin nəticələrinə yenidən baxılması cəhdləri ifşa edilir, qətiyyətlə pislənilir.

Böyük Vətən müharibəsində Sovet İttifaqının qələbəsinin 70 illiyinin bayram edilməsi ərəfəsində dünyanın bir çox ölkələrində bəzi qüvvələr tərəfindən bizim əsgərlərin hünərini, qəhrəmanlıqlarını heçə endirmək məqsədi daşıyan ağ yalanlar yenidən təkrarlanır.

Böyük Vətən müharibəsinin tarixinin saxtalaşdırılması böyüməkdə olan gənc nəslə aradan qaldırılması mümkün olmayan ziyan vura bilər ki, bu da ölkəmizin gələcəyi üçün təhlükəlidir.

Veteranlar bunu yaxşı başa düşür.



Dadaş Rzayev,
General-mayor, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri

Odur ki, həyata keçirilən bütün tədbirlərdə istənilən səviyyədəki saxtakarlığa qarşı qəti mübarizə aparılmasına xüsusi diqqət yetirilir.

2014-cü ilin noyabr ayında Respublika Veteran Təşkilatları Azərbaycan Dövlət Tibb və İqtisad Universitetində hərbi vətənpərvərlik mövzularında tədbirlər keçirdi.

2015-ci ilin yanvar ayında isə Respublika Veteran Təşkilatları Ali Hərbi Məktəbin kursantları ilə görüş keçirdi.

2015-ci ilin mart ayında MDB ölkələrinin Parlamentlərarası As-

sambleyasının nümayəndə heyəti 1941-1945-ci illər Böyük Vətən müharibəsindəki Qələbənin 70 illiyinə həsr olunmuş tədbirin keçirilməsi münasibəti ilə Azərbaycana səfərə gəldi.

Səfərin proqramına Qələbə abidəsinin önünə gül qoymaq, Qələbə kompleksinə getmək, Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin heykəlinin qarşısına əklil qoymaq, xatirəsini yad etmək, Respublika Veteranlar Şurasında görüş, Azərbaycan Respublikası Milli Məclisinin rəhbərliyi ilə görüş və s. daxil idi.

Böyük Vətən müharibəsi veteranlarına və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi Dövlət Proqramının yerinə yetirilməsinə böyük diqqət verilir.

Təkcə axırıncı üç il ərzində Azərbaycan Respublikasının Prezidenti Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının birdəfəlik maddi yardımlarının, təqaüdlərinin və digər müavinətlərinin artırılmasına yönəlmiş 10-dan çox sərəncam imzalayıb.

2013-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidentinin göstərişi ilə hər il Böyük Vətən müharibəsi iştirakçılarına 700 manat məbləğində birdəfəlik maddi yardım göstərilir.

Böyük Vətən müharibəsində həlak olmuş hərbiçilərin dul qadınlarına, arxa cəbhə veteranlarına, Leninqrad şəhərinin azad edilməsinə görə orden və medallarla təltif edilənlərə də birdəfəlik maddi yardım verilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 mart 2014-cü il tarixli fərmanına əsasən, Böyük Vətən müharibəsi əlillərinə təqaüdlərdən əlavə I qrup əlillərə 150 manat, II qrup əlillərə 130 manat, III qrup əlillərə isə 100 manat məbləğində vəsait ayrılır.

Son illər ərzində müharibə əlillərinə 863 avtomobil verilib.

Böyük Vətən müharibəsi iştirakçılarının mənzillərlə təminatı, veteranlara pulsuz kurort-sanator xidməti onların ömrünü uzadır.

Xırdalan şəhərində Böyük Vətən müharibəsi veteranları, Qarabağ müharibəsi əlilləri, şəhid ailələri üçün yaşayış evi tikilib.

Azərbaycan hökuməti Qələbənin 70 illiyi münasibəti ilə Moskva şəhərində, məşhur "Monetnıy dvor"da (Manat həyəti) yubiley medalı sifariş verib.

Bu medalların müharibə veteranlarına təqdim edilməsi qaydaları haqqında respublika prezidentinin sərəncamı var.

***Azərbaycan xalqının 720 min oğul və qızı Böyük Vətən müharibəsi cəbhələrində igidliklə vuruşub. Onlardan 320 min nəfərdən çoxu Vətən uğrunda gedən müqəddəs savaşda qəhrəmancasına həlak olublar.***





***Bu birinci ev deyil ki, mən açılışında iştirak edirəm. Bundan əvvəlki illərdə də açılışlar olub, bundan sonrakı illərdə də olacaqdır. Ancaq son vaxtlar daha yaraşıqlı, daha rahat, daha gözəl evlər tikilir. Nəyə görə biz bunu edirik? Ona görə ki, sizin şəraitiniz yaxşılaşsın, məişət problemləriniz həll olunsun. Eyni zamanda, bu gün Azərbaycan dövlətinin imkanları da artıb. Biz indi iqtisadi cəhətdən sürətlə inkişaf edirik. Bizim maliyyə imkanlarımız artıb. Biz ilk növbədə, bu imkanları ehtiyac içində yaşayan, sağlamlığını müharibədə itirən, yaxınlarını, qohumlarını müharibədə itirən insanların şəraitinin yaxşılaşdırılmasına yönəltməliyik. Bu, Azərbaycan dövlətinin siyasətidir. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Bütün sosial məsələlər Azərbaycanda diqqət mərkəzindədir.***

***İlham Əliyev***

Düşmən üzərində qələbədən sonra respublikada zəhmətkeşlərin, gənclərin, məktəblilərin, həlak olmuş, itkin düşmüş əsgərlərin axtarışları ilə bağlı geniş hərəkat başladı. Respublikanın 35 min nəfərdən çox qırmızı ləpirçisi müharibənin marşrutları ilə getdi. Tarixi döyüşlərin iştirakçıları ilə birlikdə onlar naməlum qəhrəmanların adlarını tapıb müəyyənləşdirir, Vətən uğrundakı savaşda canlarını qurban vermiş əsgərlərin qəbirlərini axtarıb tapır, bu barədə onların qohumlarına xəbər verirdilər.

Ləpirçilər, eyni zamanda, döyüş

meydanlarında azərbaycanlı əsgərlərin göstərdiyi qəhrəmanlıqlar haqqında xatirələr toplayırdılar.

Elə indi də Böyük Vətən müharibəsi cəbhələrində, xarici ölkələrdə həlak olmuş Azərbaycan övladlarının dəfn olunduğu yerlərin, abidələrin axtarışları davam edir.

Avropa ölkələrində yaşayan Azərbaycan vətəndaşları, ictimai təşkilatların, səfirliklərin işçiləri geniş surətdə bu işlərə cəlb olunurlar. Onların köməyi ilə 2011-2014-cü illərdə Şimali Osetiyanın "Axtarış" dəstəsi Şimali Qafqaz uğrunda gedən döyüşlərdə həlak olmuş 276 nəfər azərbaycanlı əsgərin dəfn olunduğu yeri müəyyənləşdirib.

Moldova Respublikası ərazisində həlak olmuş və orada dəfn edilmiş azərbaycanlı əsgərlərin siyahısı alınıb.

Leninqrad vilayətinin Tosnenski rayonunun Telman qəsəbəsinin fədakar sakini Antonina Vasilyevna Nazarova həlak olmuş əsgərlərin xatirəsini əziz tutaraq öz vətənpərvərlik borcunu yerinə yetirir, çox böyük axtarış işləri aparır.

Bu işlərin nəticəsi kimi, o, 23 nəfər azərbaycanlı əsgərin dəfn olunduğu yeri tapıb və bu barədə Azərbaycan Respublikası Prezident Aparatına məlumat verib. Onun verdiyi məlumatların, siyahının əsasında daimi komissiya tərəfindən məqsədəuyğun işlər aparılır.

Rusiya Federasiyasının Azərbaycandakı səfirliyindən respublikanın veteran təşkilatına iki nüsxə "Avstriya ərazisində həlak olmuş Sovet vətəndaşları haqda xatirə kitabı" daxil olmuşdur.

Bu kitabda azərbaycanlı əsgərlərin dəfn edildikləri yerlər göstərilir, onlar haqqında geniş məlumatlar verilir.

Azərbaycan Böyük Vətən müharibəsinin ağır illərində Vətənin şərəf və ləyaqətini mərdliklə qoruyanların hər birinin xatirəsini əziz tutur, onların qəhrəmanlıqlarını yüksək qiymətləndirir. Bu döyüşçülərin şərəfinə çoxcildlik "Respublika Xatirə Kitabı" nəşr edilib.

Dövlət orqanları və respublika ictimaiyyəti o illərdə Azərbaycandakı hospitallarda dünyasını dəyişənlərin qəbirlərinin, abidə-





lərinin qorunması, abadlaşdırılması işinə qayğı ilə yanaşmağı, xüsusi diqqət yetirməyi özlərinin müqəddəs borcları hesab edirlər.

Beynəlmiləl qəbiristanlıqların və abidələrin saxlanması üzrə tədbirlər Azərbaycan Respublikasının "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında"kı Qanununa əsasən aparılır, yerli orqanların hesabına və dövlət büdcəsindən maliyyələşdirilir.

Böyük Vətən müharibəsinə aid abidələr, xatirə yerləri, nəhəng memoriallar, əsgər qəbirlərinin üstündəki kiçik obelisklər xalq üçün çox əzizdir, müqəddəsdir, tez-tez ziyarət olunan yerlərdir.

Azərbaycan xalqı öz övladlarının - iki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş general-mayor Həzi Aslanovun, Sovet İttifaqı Qəhrəmanı, Mogilyov şəhərinin fəxri vətəndaşı, polkovnik Aslan Vəzirovun, Minsk şəhərinin küçələrindən birinə adının verildiyi, Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin, eləcə də müharibə illərində Vətən torpaqlarını qorumuş, 1943-1944-cü illərdə düşməndən azad etmiş minlərlə əsgərin qarşısında baş əyir!

Onların adları, xatirələri ölməzdir! Bizim xalq öz qəhrəmanlarına böyük ehtiram və hörmətlə yanaşır, veteranların daha yaxşı, daha firavan yaşamaları, özlərini daha rahat hiss etmələri üçün bütün lazımi tədbirləri görür.

Böyük Vətən müharibəsi veteranlarının hərtərəfli müdafiəsi dövlətimizin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Respublika Prezidenti cənab İlham Əliyevin daimi diqqəti altındadır. Bu siyasət veteranların, onların sağlamlığının qorunmasını önə çəkir. Təqaüdlərin artırılmasını, sosial xidmətlərin genişləndirilməsini, tibbi və sağlamlığa aid xidmətlərə güzəştləri özündə əks etdirir. Vətən qəhrəman övladlarını unutmur. İnsanlar daim onları xatırlayır. Qəhrəmanlara aid xatirə yerlərini ziyarət edən hər kəs mütləq oradan Böyük Qələbə, onun şanlı əsgərləri, onların ölməz igidlikləri haqda qəlbindəki silinməz xatirələrlə geri dönür.









# HƏDƏF BAKIDIR. HİTLER NEFT UĞRUNDAKI DÖYÜŞÜ NECƏ UDUZDU?

***Heydər Əliyev Fondunun dəstəyi ilə çəkilmiş "Hədəf Bakıdır. Hitler neft uğrundakı döyüşü necə uduzdu?" adlı sənədli filmin təqdimat mərasimi keçirildi. Filmin ilk nümayişi Heydər Əliyev Mərkəzində təşkil olundu.***

Faşizm üzərindəki Qələbənin 70 illiyinə həsr edilmiş filmin baş prodüseri Arzu Əliyeva, prodüseri Lui Vodevil (Louis Vaudeville), rejissoru Robert Maqnerotdur (Robert Mugnerot).

Filmdə faşizm üzərindəki Qələbədə Azərbaycan xalqının rolu, müharibə illərində Bakı neftinin kəsb etdiyi strateji əhəmiyyətdən bəhs edilir.

1941-1945-ci illər Böyük Vətən müharibəsinə Azərbaycandan 700 min nəfər gedib. Onlardan 400 min nəfərdən çoxu döyüş meydanlarında həlak oldu.

Azərbaycanın müharibədə iştirakı bununla bitməyib. **Qələbənin qazanılmasında Abşeron nefti əvəzedilməz rol oynadı. Böyük Vətən müharibəsi illərində SSRİ-də çıxarılan neftin 75%-ni Bakı verirdi. Faktiki olaraq bu o deməkdir ki, döyüşlərdə iştirak edən 10 tankdan 7-si, 10 təyyarədən 10-u Bakı nefti ilə işləyirdi.**

- 19345 -

Filmin baş prodüseri Arzu Əliyevanın tamaşaçıya müraciətində deyilir:

9 may 2015-ci ildə 70 illiyi qeyd edilir. Faşizm üzərindəki Qələbənin bu qələbənin qazanılmasında Bakı nefti əvəzedilməz rol oynayıb. Filmin çəkilməsində əsas məqsəd Azərbaycanın qəhrəmanlıq tarixini əbədiləşdirmək, onu böyüməkdə olan gənc nəslə və dünya ictimaiyyətinə çatdırmaqdır.

Bu film müharibənin acılarını dadmış, dəhşətlərini yaşamış bütün insanların, ön cəbhədə vuruşanların, arxada öz ağlasığmaz ağır zəhmətləri ilə qələbəni yaxınlaşdıran fədakar xalqımızın xatirəsinə dərin hörmətin, ehtiramın ifadəsidir.

Filmin çəkilişi "Bakı Media Mərkəzi" və sənədli filmlərin çəkilişi sahəsində tanınmış fransız kompaniyası Clarke Costelle L Co (CCLC) tərəfindən aparılıb.

Filmdə İkinci Dünya müharibəsi tarixinə tamamilə yeni bir bucaq altından - neft uğrunda gedən müharibə nöqteyi-nəzərindən baxılır.

Tamaşaçılar Böyük Vətən müharibəsinin müxtəlif döyüşlərinin əvvəllər heç bir yerdə nümayiş etdirilməmiş kadrlarını yeni formatda, bərpa edilmiş rəngli şəkildə filmdə izləyə bilərlər.






Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



*Müharibə, əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışı (7 may 2015-ci il)*



*Bu gün veteranların həyatında əlamətdar gündür. Çünki veteranlar üçün yeni gözəl inzibati bina istifadəyə verilir. Keçən il veteranlar təşkilatının nümayəndələri mənə müraciət etmişdilər. Dərhal qərar qəbul edildi və gözəl iş yeri tikildi.*
***Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra tarixi ədalət bərpa edildi, 9 May – Qələbə Günü rəsmi bayram kimi təsdiq olundu və o gündən bu günə qədər biz bu bayramı qeyd edirik. Bu, bizim dövlət bayramımızdır, əziz bayramımızdır.***

***İlham Əliyev***





# Bakı nefti dünya siyasətinin tərkib hissəsidir

***Bütün bunlar necə başladı?!***

Bakı və onun ətrafı yer kürəsinin nadir bölgələrindən biridir ki, burada çıxarılan neftdən çox qədim dövrlərdən bəri istifadə olunur.

Abşeronda neftin çıxarılması haqqında Prisk Panivskiy (V əsr), Əbu İşad İstehri (VIII əsr), Əhməd Balaziri (IX əsr), Əbdül Həsən Əbu Əli ibn Hüseyn Məsudi (X əsr), Həmdulla Qəzvini (XIV əsr), Marko Polo (XIII-XIV əsr), Yurden Katalini de Severak (XIV əsr), Oleari (XVII əsr), Kempfer (XVII əsr) və s. kimi dünyanın ən məşhur səyyah və tarixçiləri bəhs etmişlər.

Bu və digər tarixi mənbələrdən məlum olur ki, artıq VIII əsrdə Abşeron nefti Azərbayanın əsas sərvəti imiş və ta qədimdən təsərrüfat həyatının bir çox sahələrində istifadə olunurmuş. Neftin köməyi ilə yerli sakinlər evlərini işıqlandırır, qızdırırdılar. Neft qurudulduqdan, qır şəklinə salındıqdan sonra onunla evlərin damlarını örtürdülər. Ta XVI əsrə, Şərqdə odlu atəş açan silahların yayılmasına qədər neft qorxulu qüvvə, vasitə idi.

Marko Polonun şəhadətinə görə, neft tuluqlara doldurularaq dəvələrlə Şamaxıya, Naxçıvana, Dərbəndə, Həştərxana, həmçinin İrana, Gürcüstana, Orta Asiyaya, hətta uzaq Hindistana daşınırmış.

Zəngin neft mənbələrinə yiyələnmək üçün daim gərgin, qanlı mübarizələr aparılıb. Abşeronun neft mədənləri dəfələrlə əldən-ələ keçib. Azərbaycan Rusiyanın tərkibinə daxil olana qədər Abşeron yarımadasındakı neft və digər sərvətlər müxtəlif vaxtlarda müxtəlif fatehlərin əlinə keçib.

Azərbaycan feodal dövlətlərə, xanlıqlara bölündüyü dövrdə isə Bakı xanlarına və xanlığın xəzinəsinə məxsus olub.

*Bibi-Heybət XX əsrin əvvəllərində*









*XIX əsrdə Bibiheybət yatağında neftin əl çarxı vasitəsi ilə quyudan qaldırılması*



*Bakıda neftin quyu üsulu ilə çıxarılması*


БАКИНСКІЕ
НЕФТЯНЫЕ ПРОМЫСЛЫ
И
ЗАВОДЫ
ВЪ САНИТАРНО-ВРАЧЕБНОМЪ ОТНОШЕНІИ.
Л. Бертенсона.

Marksist dünyagörüşündən uzaq olan, dövrünün, zamanının tanınmış alimi, dağ-mədən elmi komitəsinin üzvü L.Bertenson hələ 1897-ci ildə özünün "Bakının neft mədənləri və zavodları həkim-sanitar baxımından" adlı hesabatında yazırdı ki, neft çıxarılmasından külli miqdarda gəlir götürən neft mədənlərinin sahibləri neft çıxaran fəhlələri qeyri-insani əmək, iş şəraitində işlədirlər.

Sabunçu sahəsinin şimal hissəsi, Balaxanı kəndinin yaxınlığı kəskin antisanitar vəziyyətdədir. Buralar keçilməz, çirkabla dolu bataqlıqdan ibarətdir. Sanitariya baxımından çox təhlükəli ocağa, xəstəliklər mənbəyinə çevrilən Sabunçu gölünün qurudulması məsələsi hələ də açıq qalır. Mədənlərdə sanitar şəraitin yaxşılaşdırılması, assenizasiyası işində irəli atılan ilk addım göllərin, gölməçələrin qurudulmasıdır.

Mədənlərdə assenizasiya idarəsi yoxdur. Buna görə də küçələr zibil, çirkab tayaları ilə doludur.

İçməli suyun keyfiyyətinin çox pis olması əhali arasında mədə-bağırsaq xəstəliklərinin yayılmasına münbit zəmin yaradır.

Hamamların və vannaların çatışmaması, ümumiyyətlə, yuyunmaq üçün suyun olmaması fəhlələrin görünməmiş, dözülməz çirkab, natəmizlik içində yaşamasına səbəb olur. Bir sıra mədənlərdə su o qədər azdır ki, hətta ən adi tələbatların ödənilməsinə belə çatmır. Elə hallar da olur ki, su nəinki əl-üz yumağa, hətta yemək hazırlamağa da kifayət etmir.

Mədən fəhlələrinin mövcud məişət şəraiti onların sağlamlığına olduqca mənfi təsir göstərir. Onlar pis qidalanır, sıx və çirkli yerdə yaşayırlar. Mədənlərin heç birində, heç olmasa, alababat yeməkxana, mətbəx də yoxdur.

Mədənlərin sanitar şəraiti xoşagəlməzdir. Fəhlələrin yaşadığı yerlərdəki, kazarmalardakı gigiyenik şərait bundan da pisdir. İşıq çox azdır, ventilyasiyadan söz gedə bilməz. Kazarmalar taxta-şalbanla doludur. Fəhlələr onların üstündə necə gəldi sərilib yatırlar.









# NEFT BUMU EPOXASI

Bakıda neftin sənaye üsulu ilə işlənməsinə XIX əsrin ikinci yarısında başlanıldı. Həmin dövrdə Bakı Rusiyanın nəhəng neft rayonuna çevrilmişdi.

1848-ci ildə Pensilvaniyada (ABŞ) polkovnik E.Dreykdən də (1859-cu il) qabaq, bakılı dağ-mədən mühəndisi V.Semyonov Bibiheybət qəsəbəsində buruq qazma üsulu ilə quyu qazdı. Ancaq V.Semyonovun bu barədə yazdığı məlumat iki ilə yaxın hökumət instansiyalarında yatıb qaldı. Onun metodu maliyyə cəhətdən dəstəklənmədi.

Neft quyularının qazılmasına 1868-ci ildə ali səviyyədə icazə verildi. İkinci quyu mexaniki yolla, 1871-ci ildə Balaxanı qəsəbəsində qazıldı. Quyunun dərinliyi 164 metr idi.

Həmin ildən başlayaraq Abşeronun hər yerində, mexaniki yolla, buruq qazma üsulu ilə quyuların qazılmasına başlanıldı. Neftçıxarmanın yeni üsulu köhnə metodları vurub aradan tamamilə çıxardı. Nəticədə, hasilatın həcmi 80 barrelə qədər yüksəldi.

Neft sənayesi isə sürətlə inkişaf etməkdə davam edirdi. 1913-cü ilə qədər artıq Bakı ətrafında 3500-ə qədər quyu qazılmışdı.

Bakı xarici kapitalın axın mərkəzinə çevrilmişdi. 1879-cu ildə Bakıda "Nobel qardaşları yoldaşlığı" Səhmdar Cəmiyyəti təsis edildi. Tezliklə bu cəmiyyət dünyanın ən iri neft sənayeşirkətlərindən birinə çevrildi.

XIX əsrin 80-ci illərində fransız kapitalı Bakıya axmağa başladı. Fransız kapitalının ən iri nümayəndələrindən biri də Paris bankiri Rotşild idi.

O, 1888-ci ildə Xəzər-Qaradəniz neft sənayesi və ticarət donanmasının rəhbərliyinə gələrək fəaliyyətini daha da genişləndirdi. 1890-cı ildən Rotşild Bakı neftinin xaricə ixracının 42%-nə nəzarət etməyə başladı.

Britaniya kapitalı Bakıya XIX əsrin axırlarında, 90-cı illərdə gəldi. Bir neçə ingilis maqnatı burada şirkət yaratdı.

1874-cü ildən 1899-cu ilə qədər Bakıda xarici kapitalın 29 səhmdar cəmiyyəti yaradıldı.

1880-ci ildə Avropaya lazım olan neftin böyük hissəsini Bakıya söykənən Xəzər sahilləri verirdi. Həmin ildən başlayaraq Rotşildlər, Nobel qardaşları rus neft sənayesinə nəzarət edirdilər.

Onlar 1895-ci ildə "Standart Oil"la ilkin razılaşma imzaladılar. Razılaşmanın həyata keçiriləcəyi təqdirdə dünya neft sənayesi təsir dairələrinin dəqiq müəyyənləşdirildiyi vahid

**1898-ci ildə Rusiya Azərbaycan neftinin hesabına neft hasilatına görə dünyada birinci yerə çıxdı. ABŞ, İngiltərə və Rusiya arasında "iqtisadi müharibə" başladı. Müharibənin epísentrinə isə neft Bakısı çəkildi.**

**Dinc, sakit əyalət şəhərində bir-birinin ardınca fitnəkarlıqlara rəvac verən inqilabi mitinqlər, tətillər başlandı. Ən dəhşətlisi isə bunlarla yanaşı, ermənilər şəhərin azərbaycanlı əhalisi arasında kütləvi qırğınlar törətdi. Bütün bunların, eləcə də neft mədənlərindəki diversiyaların, yanğınların bir məqsədi vardı - sürətlə artan neft hasilatını dayandırmaq, pozmaq.**

Dünyada ilk dəfə neft quyusunun Bibiheybət yaxınlığında qazılması tarixi bir sənəddə, qraf Vorontsovun 1848-ci ildə, iyul ayının 14-də rus çarına göndərdiyi rəsmi məlumatda öz təsdiqini tapır.

bir sistemdə birləşdiriləcəkdi. Ancaq rus hökuməti buna razı olmadı. Müqavilə imzalanmadı. 1911-ci ildə Rusiya həyəcanlı inqilablarqabağı mərhələyə daxil oldu. "Standart Oil" şirkəti Nobel qardaşlarına, Rotşildlərə məxsus müəssisələri aldı. Nəticədə də, Avropa bazarında elə bir nəhəngə çevrildi ki, onunla hesablaşmamaq qeyri-mümkün idi.

Neft şirkətlərinin sayı 1916-cı ildə 104-ə çatdı (cəd.1).

Bakı neftinin tarixi həm də milli kapitalın tarixidir. Zəngin neft yataqları, torpağın, işçi qüvvəsinin ucuzluğu istehsala irihəcmli sərmayə qoymadan da işləri qurmağa imkan verirdi. Bu da neft sənayesinin ilkin inkişaf mərhələsinin ən başlıca, qabarıq xüsusiyyətlərindən biri idi. Kiçik şirkətlər yerli sahibkarlar tərəfindən yaradılırdı.

XIX əsrin 70-ci illərində kiçik sahibkarlar buruqla qazma quyularının 88 faizini öz əllərində cəmləşdirmişdilər. Onlar neft verən torpaqların ümumi qiymətinin 94,5 faizini ödədilər.

Milli kapitalın nümayəndələri neft emalı sənayesində də öz mövqelərini möhkəmləndirdilər. Bakıda fəaliyyət göstərən 46 neft emalı zavodundan 24-ü, yəni 54%-i azərbaycanlı sahibkarlara məxsus idi.

XX əsrin başlanğıcında milli sahibkarların mövqeləri daha da möhkəmləndi. 1914-cü ilin məlumatlarına görə, mövcud olan 83 şirkət azərbaycanlılara məxsus idi.

Onlardan ən nəhəngi, maliyyə, sənaye və ticarət sahəsindəki ən nüfuzlu şəxsiyyətlərdən biri, Azərbaycanın siyasi-ictimai, iqtisadi həyatında böyük rol oynamış Hacı Zeynalabdin Tağıyev idi.

Xarici kapitalın Bakı neft sənayesinə axını hasilatın, kəşfiyyat işlərinin və neftin qazılmasının, nəql olunmasının inkişafına, artmasına birbaşa təsir göstərdi.

1873-cü ildə Bibiheybət, Bala-

*Neft mədənlərində yanğın. (Bakı XX əsrin əvvəllərində)*







*Quyudan axan neftin yığılması. 1858-ci il*



*Neftin at arabaları ilə daşınması*



## Kerosinin Bakıdan ixrac edilməsi (1879-1903-cü illər)



I Kerosin

## Neft məhsullarının Bakıdan ixrac edilməsi



I Kerosin
II Mazut
III Sürtkü materialları







*Nobel qardaşlarının Bakıdakı neft emalı zavodu (1880-ci il)*

Cədvəl 1

**XIX əsrdə və XX əsrin əvvəllərində Rusiya imperiyasında neft hasilatı (min ton)**

| İllər | Rusiya | O cümlədən, Azərbaycan | Azərbaycandakı hasilatın xüsusi çəkisi |
|---|---|---|---|
| 1872 | 27 | 26 | 96,3 |
| 1888 | 827 | 818 | 97,7 |
| 1901 | 11562 | 10979 | 95,0 |
| 1912 | 9292 | 7799 | 82,7 |

*Bu barədə tanınmış Azərbaycan yazıçısı Məhəmməd Əsəd bəyin "Duru qızıl" kitabında zəngin materiallar, faktlar verilir.*



*Neft məhsullarının daşınması üçün rezervuarlar və sisternlər*

# Milli burjuaziyanın görkəmli nümayəndələri



Hacı Zeynalabdin Tağıyev
(1823-1924)



Şəmsi Əsədullayev
(1840-1913)



Ağa Musa Nağıyev
(1848-1919)



Nobel qardaşları, saat əqrəbi istiqamətində: Robert, Alfred, Lyudviq və yeni doğulmuş Emil. Sankt-Peterburq, 1843-cü il





xanı, Sabunçu, Ramana kəndlərinin ərazisində yerləşən iri neft yataqlarında (5 milyon ton) kəşfiyyat işlərinə və bu mənbələrin mənimsənilməsinə başlanıldı. Bakıda neft emalı, neftayırma zavodlarının sayı artırdı. Onlardan birincisi 1859-cu ildə tikilmişdi. 1867-ci ildə həmin müəssisələrin sayı 15-ə çatmışdı.

Rusiya imperiyasında ilk dəfə olaraq 1878-ci ildə Balaxanıdakı neft mədənlərini Bakıdakı neft emalı zavoduna birləşdirən neft kəməri çəkildi. 1898-ci ilin axırına yaxın Bakıdakı neft kəmərlərinin ümumi uzunluğu 230 kilometrə çatırdı.

Axın gücü isə 1 milyon ton idi. 1896-1906-cı illərdə 833 km uzunluğunda, borularının diametri 200 mm, buraxılış imkanı ildə 900 min ton olan Bakı-Batumi neft kəməri tikilib istifadəyə verildi. Beləliklə, Azərbaycanın neft sənayesinə yatırılan iri kapitallar bu sahədə əsl sənaye inqilabının həyata keçirilməsinə imkan verdi.

Xəzər-Volqa ticarət donanmalarının yanacaq kimi mazutun işlənilməsinə keçməsi, Bakı-Tiflis dəmiryolu xəttinin çəkilib istifadəyə verilməsi bir stimul olaraq neft və neft emalı sənayelərinin inkişafına xidmət edirdi.

1901-ci ildə Bibiheybət buxtasının dibində nəhəng neft yataqlarının tapılması ilə bağlı olaraq onun qurudulması barədə qərar verildi.

Xüsusi layihə əsasında buxtanın qurudulması üçün 23 gəmi hazırlandı. Nəticədə, 1918-ci ilə qədər 193 hektar sahə artıq qurudulmuşdu.

Onu da qeyd etmək yerinə düşərdi ki, Panama kanalının tikintisindən sonra aparılan hidrotexniki işlərin səviyyəsinə görə bu, dünyada ikinci belə bir nəhəng tədbir idi.

1920-ci il aprel ayının 30-dan may ayının 2-nə qədər, Azərbaycanın sovetləşdirilməsindən sonra Rusiyaya ümumi tutumu 1,3 milyon pud neft olan 12 gəmi göndərildi. Artıq həmin

Birinci neft bumu



ilin may ayında Rusiyaya göndərilən neftin miqdarı 15 milyon puda, iyulda isə 21,2 milyon puda çatdırıldı.

Neft sənayesi yenidən tamamilə milliləşdirildi. 1921-ci ildə neft hasilatı özünün ən aşağı həddinə - 2,4 milyon tona çatdı. Sovet hökuməti Azərbaycan neftinin əhəmiyyətini çox yaxşı başa düşürdü. Buna görə də fəal surətdə neft sənayesinin bərpa və inkişaf etdirilməsi üzrə tədbirlər həyata keçirirdi.

1925-ci ildə Bakı-Batumi neft kəmərinin tikintisi, 1927-ci ildə isə Bibiheybət buxtasının qurudulması üzrə işlər başa çatdırıldı. 1930-cu ildə yeni yataqlar açıldı. Dünyada ilk dəfə olaraq dənizdə neft quyusu qazıldı.

Tarixi faktlar sübut edir ki, Amerika milyonçuları öz milyonlarını, kapitalını, iri pullarını həvəslə "rus inqilabına" xərcləyiblər. Bir şərtlə ki, bu pullar xalqın silahlanmasına sərf edilsin. Bu pullar bütün inqilabi partiyalar arasında bölüşdürülməliydi.

"Daşnaksutyun", "Qnçak" və s. kimi partiyaların fəalları o andaca pullara, silahlara əl qoydular. Pulların iyi burunlarına dəyər-dəyməz ermənilər öz çıxışlarında müəyyən qüvvələri açıqca Bakı mədənlərində işlərin baykot edilməsinə çağırırdılar.

Ermənilər başa düşürdülər ki, neft hasilatını pozmaq Rusiyanın iqtisadi gücünü, rəqabətə davamlılığını aşağı salacaq. "Rus" qəzetinin yazdığı kimi: "Neft yanır, milyonlar yanır. Bakı neftinin satışından xəzinəyə hər il 100 milyon rubl gəlirdi".

Neft bazarlarında Rusiyanın itirdiyi yerləri - "Standart Oil" böyük uğurla tuturdu. XX əsrin başlanğıcında neft dünya siyasətində başlıca hərbi məhsul, milli qüdrətin, gücün göstəricisi sayılır, siyasi-iqtisadi inkişafı formalaşdırırdı.

***Buna görə də bir sıra analitiklər hər iki dünya müharibəsinin əsas məqsədinin, hədəfinin məhz neft amili olduğunu hesab edirlər.***

*Neft mədənləri (Bakı)*









*Bakı neft mədənlərində ilk neft fontanı, sentyabr 1887-ci il*

# NEFT VƏ HAKİMİYYƏT UĞRUNDA MÜBARİZƏNİN KƏSKİNLƏŞMƏSİ

Bir çox siyasətçilər, dövlət liderləri bu qənaətdə idilər ki, neftin çatışmazlığı müharibəyə gətirib çıxaracaq. Neftə yiyələnmək, neft mənbələrini ələ keçirmək müharibənin əsas axır hədəflərindən olacaq.

İqtisadi inkişafın gedişi və sənayedəki elmi-texniki inqilablar dünya siyasətində neft amilinin rolunu artırdı. Ayrı-ayrı dövlətlər, xüsusən də özünün müstəmləkə imperiyası ilə birlikdə Böyük Britaniya və ABŞ zəngin təbii ehtiyatlara yiyələnərək texnoloji nailiyyətlərə, sürətli və qeyri-bərabər iqtisadi artıma, yüksəlişə nail oldular və bunların nəticəsində də böyük gəlirlər əldə etdilər.

Uinston Çörçill hər iki dünya müharibəsi ərzində Böyük Britaniyanın hərbi ehtiyaclarının ödənilməsinə lazım gələn neftin əldə edilməsi üçün yorulmadan çalışdı.

XX yüzillik başlar-başlamaz neftə olan tələbatda görünməmiş partlayış baş verdi. Texnoloji inqilablar, bunların başında gedən daxili yanma mühərriki, avtomobillər, hərbi texnikalar israrla yeni neft yataqlarının kəşfini, mənimsənilməsini tələb edirdi.

Yüzilliyin ilk illərində gəmi mühərrikləri üçün neftin və ya kömürün daha sərfəli olması üstündə mübahisələr də gedirdi.

Britaniya parlamentinin gənc üzvü, 1911-ci ildə ölkə admirallığından ilk lord təyin olunan Uinston Çörçill əmin idi ki, neftə keçid kömür yanacağına nisbətən donanmanı daha böyük güclə, sürətlə, manevrlərlə təmin edəcək.

Cəmiyyəti daha aydın şəkildə başa salmağa çalışan Uinston Çörçill deyirdi:

- "Əgər biz dənizdəki üstünlüyümüzü qorumasaq, millətimizin və imperiyanın gələcəyi, əsrlər boyu məhrumiyyətlər, əzablar bahasına əldə edilən sərvətlər - bütün bunların hamısı məhv olacaq!"

***Qələbənin açarı neftdə idi.***

Hamının gözlədiyi, lakin uzun müddət davam etməyəcəyi düşünülən müharibə 1914-cü ildə alovlandı. O, ilk ümumdünya yanğını oldu. Birinci Dünya müharibəsi adlandırılan Böyük Savaş!

Hamı deyirdi ki, çox çəkməz, bir-iki aya qurtarar. Ancaq o qanlı savaş dörd ildən çox davam etdi. 13 milyon insanın həyatını məhv etdi. Bütün Avropa ölkələrinin iqtisadiyyatını dağıtdı. Müstəmləkə dövlətlərinin dünya hökmranlığına çalışan qüvvələrin düzənini həmişəlik dəyişdi.

Birinci Dünya müharibəsi bəşəriyyət tarixinə qanla qazanılan qənimətlər savaşı kimi yazıldı.



***Bakı neftçilərinin ağır günlərindən biri***

## Birinci Dünya müharibəsi 1914-1918-ci illər

Müharibəyə cəlb edilən ölkələrin əhalisinin ümumi sayı 1 000 000 000 nəfər idi ki, bu da Yer kürəsinin sakinlərinin təqribən 60%-ni təşkil edirdi.

Bəşəriyyət müharibənin necə bir "ətçəkən" maşın olduğunu hələ bilmirdi. Eyninə gətirmirdi ki:

- 4 il 3 ay davam edəcək;
- milyonlarla insanın həyatına son qoyacaq.
- çox xalqların taleyini və dünyanın siyasi xəritəsini tanınmaz hala salıb dəyişəcək.












# ALMANİYA

- silahlandırılması, hazırlığına görə daha yaxşı orduya;
- ingilis donanmasından üç dəfə kiçik hərbi dəniz donanmasına;
- strateji dəmir yollarına və təlimləndirilmiş ehtiyatlara malik idi.





II Vilhelm dünyada hegemonluq etmək, "Günəş altında yer" tapmaq, müstəmləkələri yenidən bölmək istəyi ilə müharibəyə başladı

Birinci Dünya müharibəsi ərəfəsində yaradılan hərbi-siyasi ittifaqlar:
* 1879-cu ildə rəsmiləşdirilən, Almaniyanın, Avstriya-Macarıstanın daxil olduğu, sonra 1882-ci ildə İtaliyanın da qoşulduğu ittifaq.
* Antanta 1904-cü ildə yaradılıb.
Onun tərkibinə Böyük Britaniya, Fransa daxil idi. 1907-ci ildə Rusiya da bu ittifaqa qoşuldu.
Əksər alimlər, tarixçilər, politoloqlar, ekspertlər Birinci Dünya müharibəsinin başlanmasının səbəbləri kimi bunları qeyd edirlər:
- iki hərbi-siyasi blok - Antanta və Mərkəzi Dövlətlər ittifaqı arasındakı ziddiyyətlərin kəskinləşməsi;
- xammal mənbələri və yeni bazarlar uğrunda mübarizə;
- yeni ərazilərin ələ keçirilməsi, tutulması.
Birinci Dünya müharibəsinin başlanğıcında Almaniya təşkilinə, silahlandırılmasına, hazırlığına görə daha yaxşı orduya; ingilis donanmasından üç dəfə kiçik Hərbi-Dəniz Donanmasına, strateji dəmir yollarına və təlim keçmiş ehtiyatlara malik idi.

# Osmanlı imperiyasının dağılması və Türkiyə Respublikasının yaranması



Mustafa Kamal Atatürk Cümhuriyyət Xalq Partiyasının banisi və ilk lideri




Osmanlı imperiyası Antanta tərəfindən dağıdıldı. Ərazisi işğal olundu. Sərhəd ərazisinin bir hissəsini Böyük Britaniya öz arasında böldü. General Mustafa Kamal Atatürk işğalçılara qarşı mübarizəyə başçılıq etdi. 1920-ci ildə Türkiyə müstəqilik elan etdi və Yunanısatan ordusunu darmadağın etdi. Türkiyə müstəqillik elan edib, Yunan ordusunu darmadağın etdi. 1923-cü ildə ölkənin ərazisi Antanta ilə razılaşdırıldı. Mustafa Kamal Atatürk Türkiyə Respublikasının ilk prezidenti seçildi.







Böyük Vətən müharibəsinin ayrı-ayrı hərbi hissələrdəki dəhşətləri



# HƏQİQƏTLƏRİN İZİ İLƏ: SƏNƏDLƏR RUSİYA ARXİVLƏRİNDƏKİ ERMƏNİ SAXTAKARLIĞINA ŞAHİDLİK EDİR

Birinci Dünya müharibəsi ərəfəsində erməni radikal millətçiliyi yenidən baş qaldırdı. Hədəfləri azərbaycanlı-osmanlı türklərinin əzəli-əbədi yurd yerlərində öz xülyalarını - "Böyük Ermənistan" dövlətini yaratmaq idi. "Daşnaksutyun" partiyasının fəaliyyətinin özəyində məhz bu fikir, bu ideya dayanır. Bütün fəaliyyətləri həmin ideyanın gerçəkləşdirilməsinə yönəlib. Bu məqsədlə daşnaklar XIX əsrin sonunda Osmanlı imperiyasında ixtişaşlar törətməyə, qarışıqlıq salmağa başladılar. Ermənilər Avropanı inandırmağa çalışdılar ki, bu ölkədə onlar qəddarcasına zülmə, işgəncəyə məruz qalırlar, incidilirlər.



1894-1896-cı illərdə daşnakların, bütövlükdə ermənilərin bu sərsəm arzularının Osmanlı imperiyasında çaxnaşmalar törətməklə gerçəkləşdirilməsi Avropa dövlətləri tərəfindən dəstəklənmədi. Qovulmuş ermənilər Qafqaza yerləşdirildilər.

Erməni fəallarını siyasi-millətçilik, xəyanətkar soyuqqanlıqla qarşılayan Rusiya hökuməti erməni qiyamçılarının axınını dayandırmaq qərarına gəldi. Bu məqsədlə müəyyən addımlar da atıldı. Məsələn, Qafqazdakı erməni kilsəsinin, məktəblərinin bağlanması, erməni tandemində baş rolun ifaçısı erməni-qriqoryan kilsəsinin əmlakının müsadirə edilməsi.

Rusiya hakimiyyət dairələrinin gördüyü bu tədbirlərə erməni millətçiləri, xüsusən də, daşnaklar terrorla cavab verdilər. Rusiyanın Qafqaz canişinliyinin mülki və güc strukturlarının məmurları erməni terroruna məruz qaldılar. Onların arasında Bakının general-qubernatoru M.A.Nakaşidze də vardı.

Daşnak terroru yüksələn xətlə güclənirdi və bütün Rusiyanı alovlandırırdı. O, 1905-1907-ci illərdə, inqilablar dövründə də şiddətlənməyə başladı. Bu illərdə silahlanmağa davam edən "Daşnaksutyun"un planlarına imperator II Nikolaya, Dövlət Şurasının üzvü, stats-katib P.A.Stolıpinə qarşı yönəlmiş terror aktları da daxil idi.

Bunlarla yanaşı, ermənilər öz mifik arzularını, "Böyük Ermənistan" ideyasını da sürəkli təbliğ edir, yeridirdilər. Birinci Dünya müharibəsi illərində yenidən alışıb parlaq alovları ilə hər yeri yandıran erməni terrorizmi özünün xüsusi qəddarlığı ilə vandalizmə çevrildi. Üzündəki bədbəxt, məsum "əzabkeş"lər maskasını kənara atan ermənilər Birinci Dünya müharibəsi illərində yaratdıqları silahlı birləşmələrlə çörəyini yedikləri türk ordusuna qarşı savaşmaqla kifayətlənmədi, partizan dəstələri ilə Egey dənizindən Aralıq dənizinə, Qara dənizdən Qafqaza qədər böyük bir ərazidə yaşayan əhalinin 2 milyon nəfərdən çoxunu məhv etdilər.

*Qaregin Njde*



Bu qırğınlarda Aram, Dro, Njde və Andranikin başçılıq etdikləri quldur dəstələri xüsusi ilə fərqləndi. Axırıncı üç daşnak quldur 1918-1920-ci illərdə Azərbaycanda yerli əhaliyə, Azərbaycan türklərinə qarşı soyqırımını davam etdirdilər. Həmin illərdə "Böyük Ermənistan" mifini şişirdərək əsrlərdən bəri gözlərini dikdikləri əzəli-əbədi yurd yerlərimizə - İrəvan, Qarabağ torpaqlarına yiyələnmək üçün dəridən-qabıqdan çıxır, öz tələblərini daha israrla davam etdirirdilər.

Ermənilər ömür boyu kölgələrinə sığınıb dolandıqları himayədarlarını - rus imperiyasını özlərinə sərf edən, istədikləri tarixi məqamda utanmadan dəyişdilər.

İkinci Dünya müharibəsi ərəfəsində onlar yeni himayədar axtarışlarını davam etdirərək, dünyaya mənəm-mənəm deyən Hitler Almaniyasına sığınmağa qərar verdilər.

Ermənilərin nümayəndələri - Avropa xalqlarının cəlladları olan Dro, Njde və b. daşnaklar İkinci Dünya müharibəsi illərində İmperiya Baş Təhlükəsizlik İdarəsinin (SD) nümayəndələrinə öz xidmətlərini təklif edirdilər. Əvəzində isə ermənilər "köçəri" dövlətlərdən biri, Azərbaycanın əzəli-əbədi torpaqları üzərində süni yolla qurulmuş Ermənistan SSR-in coğrafi ərazisini genişləndirmək istəyirdilər.

Rusiya arxivlərindən əldə edilmiş "Daşnaklar alman kəşfiyyatının xidmətində" adlı kitabda çap olunmuş tarixi bir sənəd - SSRİ Daxili İşlər naziri S.Kruqlovun İ.Stalinə, V.Molotova, L.Beriyaya, Q.Malenkova yazdığı tam məxfi məlumat İkinci Dünya müharibəsi illərində Hitler Almaniyasına xidmət edən daşnakların fəaliyyətini açıq-aydın göstərir, sübuta yetirir.




*"Daşnaklar alman kəşfiyyatının xidmətində", "Azərnəşr", 2014-cü il Layihə Heydər Əliyev Fondunun dəstəyi ilə gerçəkləşdirilib. Buraxılışa məsul A.Ağalarovadır*

***Həcər Verdiyeva, tarix elmləri doktoru***

# YEREVANIN MƏRKƏZİNDƏ HİTLERİN ƏLALTISININ HEYKƏLİ AÇILIB

Ermənistanda 2016-cı il mayın 28-də Hitlerin əlaltısı, hərbi cani, sovet məhkəməsi tərəfindən məhkum olunmuş Qaregin Njdenin heykəlinin açılışı olub.
Faktlar inandırıcı şəkildə göstərir: **"Njde hitlerçilərlə əməkdaşlıq edirdi, açıq-aşkar və çox fəal şəkildə"...** Dronun və Njdenin başçılığı ilə erməni SS-çilər tərəfindən törədilmiş qanlı cinayətlər barədə bu gün də arxivlərdə çoxlu məlumat var. Onlar partizanlara qarşı əməliyyatlar keçirib, yəhudiləri və qaraçıları məhv ediblər. 809-cu erməni piyada batalyonu Ukraynada və Polşada o qədər fəallıq göstərib ki, Vermaxtın Ukraynadakı komandanı Gitsinger və Şərq hissələrinin komandanı general-mayor İgen bu batalyonu tərifləyib. Erməni SS batalyonunun tərkibinə daxil olan "Dromedar" zonderkomandası Şimali Qafqaz cəbhəsi qoşunlarının arxasında kəşfiyyat-təxribat tədbirləri həyata keçirir, fürsət düşdükcə "untermenş"ləri məhv edirdi. Bir sözlə, Qaregin Njdenin hitlerçi hakimiyyətlə münasibətləri Banderanın və Şuxeviçin münasibətlərindən daha yaxın olub. Sözün qısası, bu hadisələrin miqyası "erməni-azərbaycanlı münasibətləri"nin çərçivəsindən kənara çıxır.

*N.Qaregine qoyulmuş abidə (Yerevan)*







Tam məxfi nüsxə №5

Surəti

yoldaş I.V.Stalinə
yoldaş V.M.Molotova
yoldaş L.P.Beriyaya
yoldaş Q.M.Malenkova

SSRİ Daxili İşlər Nazirliyi tərəfindən hərbi əsirlər arasından özünü unter-zabit Karer Petera kimi qələmə verən, 1908-ci ildə Avstriyaya mühacirət etmiş erməni knyazının, rus ordusu generalının oğlu, 1903-cü ildə Tiflisdə anadan olmuş, Avstriya təbəsi, milliyyətcə erməni, alman kəşfiyyatının keçmiş əməkdaşı Peter Kamsarakan müəyyən edilib tapılıb.

Kamsarakan 1940-cı ildə İmperiya Baş Təhlükəsizlik İdarəsinin (SD) VI idarəsinin (xarici kəşfiyyat) əməkdaşları tərəfindən Vyanada kəşfiyyat işlərinə cəlb olunub. Kamsarakanın alman kəşfiyyat orqanları ilə əməkdaşlığı 1944-cü ilin avqustuna qədər davam edib. O vaxt o, SD-nin tapşırığına əsasən Buxarestdə idi. Orada da bizim qoşunlar tərəfindən əsir götürülüb.

Alman kəşfiyyat orqanlarında xidməti zamanı Kamsarakanın əsas tapşırığı erməni emiqrant dairələrində iş aparmaq idi. Yazdığı ifadəsində ətraflı işıqlandırdığı fəaliyyətinin məqsədinin İkinci Dünya müharibəsi dövründə daşnak emiqrantların SSRİ-yə qarşı mübarizə üçün alman kəşfiyyat orqanlarına cəlb edilməsi olduğunu bildirir.

Kamsarakan 1940-cı ilin mart ayında daşnakların Buxarestdə yaşayan rəhbər xadimləri Sərkis Araratyan və Drakonyanla almanlarla əməkdaşlıq etmək barədə razılığa gəlir. Bu danışıqlardan sonra 1940-cı ilin aprelində elə həmin şəhərdə adı göstərilən daşnak liderlərinin SD nümayəndələri ilə görüşü oldu. Bu zaman Araratyan və Drakonyan Qahirədən erməni daşnaklarının Mərkəzi bürosunun almanlarla əməkdaşlıq etməsinə dair razılığı, eləcə də Araratyan və Drakonyana almanlarla danışıqlar zamanı istədiyi kimi hərəkət etmək səlahiyyətinin də verildiyini bildirdilər. Bu görüşdə ermənilərin SD üçün praktiki kəşfiyyat işlərinin aparmaları haqqında razılığa gəldilər. Erməni daşnakları adından Araratyan almanların aşağıdakı arzularının yerinə yetirilməsinə tam razılığını bildirdi.

Daşnaklar öz komitələrinin yerləşdiyi bütün ölkələrdə almanları maraqlandıran informasiyaları toplayırdı. Bu, ən əvvəl Sovet İttifaqına, Mərkəzi Amerika ölkələrinə və İngiltərəyə aid idi. Xüsusi vacib hallarda daşnaklar həmin ölkələrdəki alman nümayəndəlikləri ilə əlaqə saxlamağa borclu idilər.

Daşnaklar almanlara həm də öz arzularını bildirdilər. Bunların mahiyyəti onda idi ki, SSRİ ilə müharibə baş verdiyi halda Almaniyanin köməyi ilə erməni dövləti yaradılsın və o dövlətdə də hökumət partiyası "Daşnaksutyun" olsun. Bu zaman Türkiyənin ermənilər yaşayan rayonlarla yanaşı, Ermənistan Şərqdə Dağlıq Qarabağın, Şimalda isə Gürcüstanın Borçalı rayonunun birləşdirilməsi hesabına genişləndirilsin.

Sonralar daşnaklar sistemli şəkildə kəşfiyyat materiallarını toplayıb almanlara verirdilər. Bu materialların almanlara verilməsi Buxarestdə Araratyan və Drakonyan tərəfindən SD-nin nümayəndəsi Bolşvanq vasitəsi ilə həyata keçirilirdi.

Almanlara ötürülən bu informasiyalarda yerli xarakterli materiallarla yanaşı, 1940-ci ildə Sovet qoşunlarının Çernovitsi rayonundakı konsentrasiyası haqda məlumatlar da əks etdirilir.

SD-nin tapşırığına əsasən, daşnaklar 1940-cı ilin yayı ərzində almanların Hollandiyada şəxsi adamlardan, firmalardan çapıb-taladığı brilyant və başqa daş-qaşların Rumıniyada qeyri-leqal satışı ilə məşğul olurdular.

Fransanın məğlubiyyətindən sonra daşnakların Qərbi Avropa ölkələri üzrə nümayəndəsi Camalyan da SD ilə əməkdaşlığa cəlb olundu.

Almaniya SSRİ-yə hücum etdi. SD tezliklə daşnak liderləri ilə hərbi kəşfiyyat, "Abver" arasında əlaqə yaratdı. Bu, 1941-ci ilin avqustunda Berlində keçirilən, Drakonyanın, Araratyanın, Vahan Papazyanın da iştirak etdiyi müşavirədə rəsmiləşdirildi.

Elə o zaman da daşnak liderlərini Şərq nazirliyinin nümayəndəsi, Qafqaz "canişini" vəzifəsinə nəzərdə tutulan Şikedans Berlində qəbul etdi.

Qəbulda erməni liderləri alman qoşunları Qafqazı tutandan sonra Almaniya qarşısındakı xidmətlərinə görə onların Ermənistanın idarə olunmasına cəlb edilmələri barədəki məsələni yenidən qaldırdılar. "Abver"lə əməkdaşlıq çərçivəsində, əməkdaşlıq qaydalarına uyğun olaraq, 1941-ci ildə Drakonyan tərəfindən Sovet İttifaqı əleyhinə kəşfiyyat və diversiya işləri aparan daşnak dəstələri yaradıldı.

Kamsarakanın ifadəsini və onun daşnakların almanlarla əməkdaşlığa cəlb olunmasındakı rolunu SSRİ Daxili İşlər Nazirliyi tərəfindən dindirilən, hazırda nazirliyin Vladimir həbsxanasında saxlanılan, erməni emiqrantlarının lideri, "Njde" ləqəbli Terartunyan təsdiq etdi.

SSRİ Daxili İşlər Nazirliyi Kamsarakanın öz əli ilə yazdığı ifadəsinin surətini təqdim edir S.Kruqlov, SSRİ daxili işlər naziri.

# XX ƏSR VƏ XXI ƏSRİN BİRİNCİ ONİLLİKLƏRİ

## *Dünyanın siyasi liderləri, nəhəng sərkərdələri*



*Fransanın yanacaq üzrə Baş Komitəsinin direktoru, senator Anri Beranje 1917-ci ildə belə bir fikir söylədi:*
*- Almaniya özünün dəmir, kömürlə bağlı üstünlüklərinə həddindən artıq güvənərək, bizim neftdəki üstünlüyümüzü hesaba almadı.*
*Beranje o vaxt peyğəmbərcəsinə bildirdi:*
*- Neft müharibənin qanı idi, indi isə onun qarşısında sülhün qanı olmaq durur. Kim neftə sahibdirsə, kimin nefti varsa, o da dünyaya yiyələnəcək, dünyanı idarə edəcək. Çünki avtomobil benzinin sayəsində yerdə, aviabenzinin sayəsində göydə, mazutun sayəsində dənizdə hökmran olacaq.*

*"Əgər biz dənizdəki üstünlüklərimizi qorumasaq, millətimizin və imperiyanın gələcəyi, əsrlər boyu məhrumiyyətlər, əzablar, qələbələr hesabına yığılan sərvətlər - bütün bunların hamısı məhv olacaq".*

**Ser Uinston Leonard Spenser Çörçill**
**1911-ci il**





*"Hitler hesab edirdi ki, Leninqradın blokadası, Ukraynanın itirilməsi, Qafqazın təcrid edilməsi Sovet iqtisadiyyatını tamamilə dağıdacaq. Leninqradın tutulması İsveçdən misin ixrac edilməsinə ciddi şəkildə mane olan Baltik dənizindəki Sovet donanmasının hərəkətlərinə son qoya bilərdi. Ukraynanın işğalı almanlara taxıl, ərzaq və ən nəhayət, Rusiyanın cənubundan Qafqaza, Bakının, Maykopun, Qroznının neft yataqlarına birbaşa yol açardı".*

*C.Batler və C.Quferin*
*"Böyük strategiya" kitabından*

## *Qələbədə əsas amil kimi neftin rolu haqqında*

*1941-ci il iyul ayının 16-da fürerin qərargahında keçirilən müşavirədə qeyd olundu ki, "Bakı vilayəti... alman konsessiyası olmalıdır".*
*Almaniya Silahlı Qüvvələri Ali komandanlığı yanında kəşfiyyat və əks kəşfiyyat idarəsinin – "Abver"in rəisi, admiral Fridrix Vilhelm Kanaris təsdiq edirdi ki, SSRİ-nin xammal ehtiyatlarını, ilk növbədə Bakı neftini tez bir zaman ərzində tutmadan, ələ keçirmədən Qələbə mümkün deyil.*
*Artıq 1941-ci ilin yazında Bakının neft mədənlərinin istismarının təşkili məqsədi ilə almanlar xüsusi idarə - Vestfalen qərargahını yaratdılar.*





*Alfred Ernst Rozenberq (rus. Alfred Ernst Voldemaroviç Rozenberq 1893-1946) - Rusiya əsilli, alman dövlət və siyasi xadimi, alman nasional-sosialist fəhlə partiyasının ideoloqlarından və ən nüfuzlu üzvlərindən biri.*
*"Almaniyanın maraqları bütün Qafqazda möhkəm mövqe tutmaq, bununla da kontinentul Avropada təhlükəsizliyin, Yaxın Şərqlə əlaqələrin təmin edilməsindən ibarətdir. Yalnız bu əlaqələr gələcəkdə Almaniyanı və bütün Avropanı dəniz dövlətlərinin koalisiyasından asılı etməz.*
*Bizim siyasətimizin məqsədi Qafqazda və ona cənubdan həmsərhəd ölkələr üzərində istər hərbi, istərsə də siyasi baxımdan üstünlükdür".*

***A.Rozenberq,***
***"Qafqazın yenidən dəyişdirilməsi haqqında" məlumat vərəqindən***

*"İşğal edilməli ərazilərdən istifadə olunması işləri, ilk növbədə ərzaq və neft sahələrindəki təsərrüfatlarda aparılmalıdır. Nə qədər mümkünsə, Almaniya üçün daha çox ərzaq və neft əldə etmək - şirkətin əsas iqtisadi məqsədi belədir. Bunlarla yanaşı, alman sənayesinə işğal olunmuş vilayətlərdən digər məhsullar da çatdırılmalıdır".*

***German Qerinqin SSRİ ərazilərinin nəzərdə tutulan işğalı zamanı iqtisadi talan haqqındakı direktivlərdən***
***Berlin şəhəri, 16 iyun 1941-ci il***





*Daniel Erqin - beynəlxalq siyasət, iqtisadiyyat, energetika sahələrində tanınan, təqdir edilən nüfuzlu mütəxəssis. Energetika sahəsində aparıcı tədqiqat və məsləhət firmalarından biri olan İHS Gambrige Energy Research Assosiatesin (İHS CERA) təsisçisi və direktorlar Şurasının sədridir.*

*- Almaniyanın Rumıniyadakı neft yataqlarını artıq həyatа qaytarmasına baxmayaraq, general Lyudendorf ölkəsinin neftə olan böyük və artan tələbatını ödəyə biləcək "iri qənimət" ələ keçirəcəyinə arxayın idi. Bu halda müharibənin gedişini dəyişdirə də bilərdi.*

*Söhbət Xəzər dənizinin sahilində yerləşən Bakıdan gedir. 1917-ci ildə çar taxt-tacının çökməsi, bolşeviklərin hakimiyyətə gəlməsi, imperiyanın dağılması - bütün bunlar Almaniyaya Bakı neftinə yiyələnməyə bəzi ümidlər verirdi.*

*Almanlar Bakı neftinə yol axtarmağa, bu ümidləri doğrultmaq üçün çalışmağa başladılar. İlk addım Almaniya ilə inqilabçı Rusiya arasındakı hərbi qarşıdurmaya son qoyan, 1918-ci ilin martında Brest-Litovsk sülh müqaviləsinin bağlanması oldu. Lakin o vaxt Avstriya və Almaniyanın müttəfiqi Türkiyə öz qoşunlarını artıq Bakıya yeritməyə başlamışdı.*




*Öz müttəfiqinin hədd bilməyən uğurlarının neft yataqlarını məhv edəcəyini duyan Almaniya bolşeviklərə türkləri dayandıracağına söz verdi. Amma neftin əvəzinə.*

*1918-ci ilin avqust ayının ortalarında Böyük Britaniya özünün kiçik hərbi qüvvəsini İran vasitəsi ilə Bakıya göndərdi. Onların qarşısına qoyulan vəzifə Bakını xilas etmək, nefti qorumaq idi.*

*Hərbi nazirliyin məlumatına görə, onlar lazım gəldiyi halda Bakı zavodlarını, neft kəmərlərini, rezervuarlarını partlatmaqla rumın ssenarisini təkrar etməli idilər.*

*İngilislər bir ay Bakıda qaldılar. Elə bu bir ay neftin Almaniyaya çatmamasına bəs etdi.*

*Bundan sonra general Lyudendorf deməyə məcbur olduğu aşağıdakı sözlərlə öz məyusluğunu büruzə verdi:*

*- Bu, bizim üçün çox ciddi zərbə oldu.*

*1918-ci ilin oktyabr ayında alman ordusu öz neft ehtiyatlarının hamısını işlədib qurtardı. Əldən düşmüş, yorulmuş Almaniya artıq bir aydan sonra məğlub oldu.*

*Daniel Erqin, "Qənimət, neft, pul və hakimiyyət uğrundakı mübarizənin ümumdünya tarixi" kitabından*

*"Bizim mexanikləşdirilmiş əsrimizdə neftin necə böyük əhəmiyyətə malik olduğunu müharibə üzə çıxardı. Müharibə vaxtı ordunun təchizi üçün göndərilənlərin yarısını neft məhsullarının təşkil etdiyini göstərən məlumatlardan daha inandırıcı nə ola bilər?"*

*Bombardımançı və qırıcılar üçün havada, linkorlar üçün dənizdə, tanklar və zirehli avtomobillər üçün yerdə bu və ya digər növ neft məhsulları lazımdır".*

***Maykl Bruks,***
***İngilis publisisti.***
***"Neft və xarici siyasət" kitabından***



*"Qızıl ordu qazandığı çoxlu qələbələrinə, hücum edən hissələrə vaxtlı-vaxtında keyfiyyətli yanacaq göndərdiyinə görə Azərbaycan xalqı və cəsur Bakı neftçiləri qarşısında borcludur.*

*Stalinqrad ətrafında, Donda, Donbasda, Dneprin, Dnestrin sahillərində, Belqradda, Budapeştdə, Vyanada Azərbaycan neftçilərini minnətdarlıqla xatırlayan bizim cəbhənin döyüşçüləri neft Bakısının cəsur zəhmətkeşlərini salamlayırlar".*

*Sovet İttifaqı Marşalı Fyodor Tolbuxin*
*28 aprel 1945-ci il*



*"Müharibədə sizin neftiniz olmasaydı, kavaleriyanın köməkliyi ilə çox çətin ki, uzağa gedə bilərdik".*

*Sovet İttifaqı Marşalı Semyon Budyonnı*



***Məhəmməd Əsəd bəy (Leo Hyussembaum Qurban Səid) (1905-1942-ci il)** – XX əsr Azərbaycan mühacir ədəbiyyatının görkəmli nümayəndələrindən biri.*

*1905-ci ildə Bakıda anadan olub. 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının süqutundan sonra Türkiyəyə mühacirət edib. Oradan da Almaniyaya gedib.*

*Dünyaca məşhur "Əli və Nino" romanının müəllifidir. Ümumdünya şöhrəti qazanmış Məhəmməd Əsəd bəy özünün bütün əsərlərini alman dilində yazıb. Onlardan ən tanınmışları "Şərqdə neft və qan" (1929), "Qafqazın on iki sirri" (1930), "Stalin" (1930), "Qafqaz. Dağlar, xalqlar və tarix" (1931), "Muhəmməd" (1932), "DSİ. Sülh əleyhinə sui-qəsd" (1932), "Ağ Rusiya" (1932), "Rusiya yol ayrıcında" (1933), "Manuela" (1934), "Miloş və neft" (1934), "Lenin" (1935), "Rza şah - müəllim, padşah və islahatçı" (1935), "Nikolay II. Sonuncu çarın əzəməti və qüruru" (1935), "Allah böyükdür".*




*"İslam dünyasının tənəzzülü və inkişafı. Əbdül Həmiddən ibn Səidə qədər" (1935), "Əli və Nino" (1937), "Mussolini" (1937), "Altunsaç" (1938). İtaliyada, Neapol şəhərinin yaxınlığında vəfat edib.*

*Əsəd bəy 1939-cu ildə yazırdı:*

*"Çoxsaylı sülh konfranslarının sayəsində Avropada neft sülhünə nail olundu. Ancaq ürəyinin dərinliyində heç kim bu sülhün uzun çəkəcəyinə inanmırdı. O, dünya iqtisadi böhranının tam bitdiyindən o yana qalmayacaqdı. O, nə vaxt qurtarsa, bizim sizinlə Yer kürəmizin taleyi nazik sapdan asılı qalacaq, sapdan ki, ucundan gözəgörünməz, sirli, ancaq müəyyən məqsədə çalışan əllər tutub".*

*76 il keçdiyinə baxmayaraq, neft uğrunda mübarizə hələ də davam etməkdədir...*



*"Neft haqqındakı məsələ həyat məsələsidir. Ona görə ki, neft kimdə çoxdursa, gələcək müharibədə kimin əmr verəcəyi ondan asılıdır. Kimdə neft çoxdursa, dünya sənayesinə və ticarətinə əmr verilməsi də ondan asılıdır.*
*Neft qabaqcıl ölkələrin donanmalarının motorlu mühərriklərə keçməsindən sonra dünya dövlətlərinin istər müharibə zamanı, istərsə də sülh, əmin-amanlıq zamanı üstünlük, hegemonluq uğrunda gedən mübarizəsində həyati məsələyə çevrilir.*

***İosif Vissarionoviç Stalin,***
***ÜİK (b)P XV qurultayındakı çıxışından***

*1942-ci ilin iyul ayının 1-də İ.V.Stalin N.K.Baybakova əmr edir:*
*"Təcili Qafqaza gedirsiniz və yerli neft mədənlərinin dağıdılmasını təmin edirsiniz. Əgər Hitlerin əlinə 1 ton olsa belə neft keçərsə, biz sizi güllələyəcəyik. Yox, əgər Hitler gələ bilməsə, siz də neft mədənlərini vaxtından qabaq dağıtsanız, onda da biz sizi güllələyəcəyik"!*



*"Bu, ölüm saçan, təhlükəli, ağır sınaqlarla dolu günlərdə Qafqaz xalqları qorxub çəkinmədilər, Sovet xalqları ailəsinin gücünə, qüdrətinə inamlarını itirmədilər. Qafqaz xalqlarının alman-faşist qoşunları gələn kimi Sovet İttifaqından üz döndərəcəklərinə hitlerçilərin inamları dağılıb parça-parça oldu".*

***"Xatirələr, düşüncələr" kitabından***

*"Müharibə ərəfəsində Almaniya işğal etdiyi ölkələrlə birlikdə 31,8 milyon ton polad, özü 257,4 milyon ton, əlaltıları ilə birlikdə 439 milyon ton kömür çıxardı. Sovet İttifaqı isə müvafiq olaraq 18,3 milyon ton, 165,9 milyon ton. Almaniyanın zəif yeri neft hasilatı idi. Bakı neftçiləri Vətənimizin müdafiəsinə, onun düşmən üzərində qələbəsinə nə qədər lazımdırsa, o qədər də yanacaq verirdi".*

***Georgi Konstantinoviç Jukov,***
***Sovet İttifaqı Marşalı***



*"Qorxmaz şahinlərin hər bir döyüş zərbəsində, Sovet tankçılarının hər bir reydində, alman faşist qüvvələri üzərindəki hər bir qələbədə heç də az olmayan uğur payı Bakı neftçilərinə məxsusdur".*
*Konstantin Rokosovski, Sovet İttifaqı Marşalı*

*Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mir Cəfər Bağırova yazdığı məktubundan*





*"Biz rusların Krımda və Dondakı uğurlu müqavimətinin gətirdiyi olduqca böyük yüngüllüyü etiraf etməyə borcluyuq.*
*Üç ay bundan qabaq biz almanların Qafqaz dağlarından Xəzərə, Bakıya neft mədənlərinə tərəf hərəkət etdiklərini gözləməliydik. Bu təhlükənin, demək olar ki, qarşısı alınıb... ancaq bu təhlükə müharibənin axırında yenidən yarana bilər. Artıq Almaniyada və onun işğal etdiyi ölkələrdə ciddi xarakter almış neft qıtlığı Bakının və İranın neft yataqlarının tutulmasını onun üçün həyati vacib məsələ edir".*

*Ser Uinston Leonard Spenser Çörçill*



**U.Çörçill əmin idi ki, əgər Sovet İttifaqı Bakını qoruyub saxlaya bilsə, o, Almaniya qarşısında dayanmağa qadir olacaq. Uinston Çörçillin İosif Stalinə teleqramı. 8 noyabr 1942-ci il.**
**"... Şübhəsiz, Sizə məlumdur ki, Hitler Bakını almağa ümidini itirdiyi halda onu hava hücumlarıyla dağıtmağa çalışacaq. Sizdən xahiş edirəm mənim məlumatıma inanın".**
**İosif Stalinin Böyük Britaniyanın baş naziri Uinston Çörçillə şəxsi məktubundan. 9 noyabr 1942-ci il. "... Sizin Liviyadakı müvəffəqiyyətləriniz və "Məşəl" əməliyyatına uğurla başlamağınız bizi çox sevindirir. Tam qələbə arzulayıram. Bakı haqqındakı xəbərdarlığınıza görə təşəkkür edirəm. Tərəfimizdən dəf etmə tədbirləri görülür".**



*Hər bir aydın düşüncəli insana bəllidir ki, müasir mərhələdə müharibə, həqiqətən, motorların müharibəsidir. Kimin bu motorları hərəkətdə saxlamağa imkanı çoxdur, yəni kim kifayət qədər yanacağa malikdirsə, o da müharibəni udacaq".*

*Nikita Sergeyeviç Xruşşov,*
*Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi*

*"Müharibədən sonrakı illərdə bayramlarda, ildönümlərində Sovet rəhbərlərindən kiminsə Qələbədə Bakı neftinin rolu haqqında durub danışmağını heç xatırlamıram.*
*Bakıya "Qəhrəman şəhər" fəxri adı verilmədi. Yada düşmədi, görmədilər, gözə dəymədi, sənəd çatmadı və sair və ilaxır... Mükafatlarla bağlı bunlar bir qayda olaraq baş verir.*
*Axı, həqiqətin gözünə gərək düz baxasan! Azərbaycan nefti olmasaydı, müharibə uduzulacaqdı. SSRİ-nin taleyi 1941-ci və 1942-ci illərin payızında nazik simdən asılı qaldı. Bakı neftçilərinin sayəsində bu nazik sim qırılmadı.*
*Hər beş təyyarədən, tankdan, avtomobildən dördü Bakının neft mədənlərindən çıxarılan neftlə, Bakının neft emalı zavodlarında alınan benzin və solyarka ilə doldurulurdu".*

*A.Sevastyanov, Rusiya alimi və politoloqu*



# NEFT UĞRUNDA MÜHARİBƏ

## *Tarixin az məlum olan səhifələri, keçmişin dərsləri və gələcəyə çağırış (Birinci Dünya müharibəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans)*

2014-cü il may ayının 23-24-də Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində Birinci Dünya müharibəsinin 100 illiyinə həsr edilmiş "Tarixin az məlum olan səhifələri, keçmişin dərsləri və gələcəyə çağırış" mövzusunda beynəlxalq elmi konfrans təşkil edildi.

Konfransda Fransadan, Türkiyədən, Almaniyadan, Rusiyadan, Azərbaycandan 30-a yaxın tarixçi alim, tədqiqatçı və bir sıra ölkələrin diplomatik missiya nümayəndələri iştirak edirdi.

Konfransın açılışı münasibəti ilə Birinci Dünya müharibəsinə həsr olunmuş zəngin sənədli sərgi də hazırlanmışdı.

İki günlük konfransın gedişində 20-yə yaxın elmi məruzə dinlənildi, dəyirmi masalar təşkil olundu. Tədbir çərçivəsində Birinci Dünya müharibəsi tarixinin müxtəlif problemləri, Qafqaz xalqlarının müharibədəki iştirakı, bu qlobal münaqişənin sonrakı nəsillərdə, Azərbaycan, eləcə də digər xalqların şüurunda, yaddaşındakı yeri kimi məsələlər müzakirə edildi.

Beynəlxalq elmi konfransın iştirakçılarını bir amal, bir məqsəd birləşdirirdi:

- Bəşər tarixinin ən böyük silahlı qarşıdurması olan Birinci Dünya müharibəsi tarixinə nəzər salmaqla müxtəlif problemlərin müzakirəsini keçirmək, müzakirələr zamanı tarixi hadisələrin dərin təhlilini vermək keçmişin səhvlərini alınan nəticə və qənaətlər vasitəsi ilə bəşəriyyətə, gələcək nəslə, gələcəyə bir fəlakət, ibrət dərsi kimi göstərmək.

Birinci Dünya müharibəsi dünyada yeni geosiyasi vəziyyətin yaranıb, təşəkkül tapmasına rəvac verdi. Sosial-siyasi nəticələrinə, insan itkisinin miqyasına görə ona qədərki tarixi dönəmlərdə bu müharibənin tayı-bərabəri olmamışdı.

Birinci cahan müharibəsi qlobal xarakter alaraq daha çox sayda ölkə və xalqları öz kəməndinə saldı, saysız-hesabsız itkilərə səbəb oldu.

Rəqəmlər özü hər şeyi deyir: hərbi əməliyyatlara 38 dövlət qoşulmuşdu, ordu sıralarına səfərbər edilənlərin sayı isə 74 milyon nəfərə çatırdı.

1568 gün (28 iyul 1914 - 11 noyabr 1918-ci il arası) davam edən bu amansız müharibə nəticəsində 10 milyon nəfər əsgər, 12 milyon nəfərə yaxın dinc sakin öldürülüb, 55 milyon nəfər isə yaralanıb.



4 imperiya - Rusiya, Avstriya-Macarıstan, Osmanlı və Almaniya öz varlıqlarını itirdilər.

Belə görünə bilər ki, bəşəriyyət nəinki dünyanın gərdişini, hətta əvvəlki sosial dayaqları, adət-ənənələri, dəyərləri, insanların dünyaya baxışlarını dəyişdirən bu total fəlakəti, ümumbəşəri sivilizasiyanın dönüş məqamını, sadəcə yaddan çıxarmamağa borclu idi.

Ancaq imperiyaları əvəz etmiş totalitar dövlətlər bütün olub-keçənlərdən lazımınca ibrət götürmədi. Bununla da yer üzü yeni müharibəyə - İkinci Dünya müharibəsinə yuvarlanmış oldu.

Bəşəriyyət tarixində ən nəhəng münaqişə sayılan yeni müharibədə həmin tarixi məqamda mövcud 73 dövlətdən 62-si, yəni planet əhalisinin 80%-i iştirak edirdi. Hərbi əməliyyatlar üç qitənin, 40 dövlətin ərazisində və 4 okeanın sularında baş verməkdə idi.

Hərbi xərclər, itkilər 4 trilyon dollar həcmində idi. 110 milyon nəfər insan müharibəyə səfərbər edildi. Ümumi insan itkisi isə 60-65 milyon nəfərə çatdı.

Dəhşətli dağıntılarla, on minlərlə şəhər və kəndlərin yer üzündən silinməsi ilə müşayiət olunan İkinci Dünya müharibəsi bəşəriyyətin taleyinə sarsıdıcı zərbələr vurdu.

Hətta bu ən ağır ümumbəşəri fəlakət, xalqların bədbəxtliyi, zəiflərin daha da istismar edilməsi hesabına "özünütəsdiq" etməyə çalışan və buna nail olmaq üçün dəridən-qabıqdan çıxan "dahilərin" iştahını küsdürə bilmədi.

Belə bir qəddar müharibədən sonra da biz on illər boyunca bəşəriyyətin təkrar edilən səhvlərinin şahidi olduq.

1980-ci il sentyabr ayının 22-dən 1988-ci ilin avqust ayının 20-nədək davam edən İran-İraq müharibəsini, İkinci Dünya müharibəsindən sonra insan itkisinə, istifadə olunan resurslara, müddətinə görə ən iri konfliktlərdən birini xatırlayaq.

Eləcə də ərəb ölkələri ərazisində baş verən digər müharibələri, dövlət çevrilişlərini, İraq müharibəsini (mart 2003-cü il - 15 dekabr 2011-ci il) yada salaq.



Tunisdə, Misirdə, Liviyada, Yəməndə çevrilişlər baş verdi. Suriyada vətəndaş müharibəsi hələ də səngimək bilmir.

Görkəmli Çin iqtisadçısı, professor Şi Tszyansuyun 55 milyard vəsaiti göyə sovurmuş "ərəb baharını" belə xarakterizə edir:

"İkinci Dünya müharibəsindən sonra hələ dünyada belə miqyasda, bu cür geniş başıpozuqluq olmamışdı".

*Azərbaycan İslam ölkələri ilə əməkdaşlığı prioritet hesab edir. Son illər ərzində Bakıda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin 10-a yaxın görüşü olmuşdur. Mən İƏT-in qarşılıqlı dəstək və həmrəylik yolunda fəaliyyətini yüksək qiymətləndirirəm. Bu gün dünyada islamofobiya ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qətiyyətlə pisləyirik. Əslində İslam sülh, mərhəmət, dözümlülük, ədalət dinidir. İslamı terrorla eyniləşdirmək isə səhv və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir. Ermənistan 20 ildən artıqdır ki, Azərbaycana qarşı işğalçılıq siyasəti aparır. Bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal edilmiş, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan Xocalı soyqırımını törətmişdir. Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyən ədalətli qətnamələrə görə İƏT-ə səmimi minnətdarlığımı bir daha ifadə edirəm. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır. Onlardan biri də aprelin əvvəllərində törədilmişdir. Silahlı hücum nəticəsində Azərbaycan hərbçiləri və mülki şəxslər həlak olmuşlar. Azərbaycan Ordusu Ermənistanın təxribatının qarşısını aldı.*

***İlham Əliyev***

Fəlakət xarakterli bütün nümayişlər, qarşıdurmalar iqtisadi itkilərlə yanaşı, insan tələfatı ilə də müşayiət olunurdu.

"Ərəb baharı"nın başlanğıcından bəri qurbanların sayı 1,5 milyon, qaçqınların sayı isə 4,2 milyon nəfər təşkil edirdi.

Bəs, görəsən, nə qədər belə rəhmsiz, amansız savaşlar olmalıdır ki, nəhayət, törədilən faciə və fəlakətlərin, qırğınların miqyasından, nəticələrindən, ibrət götürülsün, belə "oyunların" müsibətlərinə yol verilməsin?!

Sülhün təmin olunması, təhlükə və qlobal itkilərdən qaçmaq üçün müasir dünyada müharibəyə, hərbə yeni baxış tələb olunur:

- Hətta düşmən üzərində qələbəyə tam əmin olduğun halda belə ona, - "müharibəyə yox!", - deməyi bacarmaq gərəkdir.

Gənc, müstəqil Azərbaycan Respublikası məhz bu prinsipə əməl edir. Məlumdur ki, neçə illərdir beynəlxalq təşkilatlar, ən ali qurumlar tərəfindən tanınan ərazilərimiz erməni faşistləri tərəfindən işğal edilib. Azərbaycan torpaqlarının 20%-i düşmən tapdağı altındadır. 1 milyon nəfərdən çox soydaşımız qaçqın və məcburi köçkünə dönüb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanın demokratik ənənələrə sadiq olduğunu dəfələrlə təsdiqləyərək belə söyləyib:

- Biz sülh istəyirik, biz öz ərazilərimizin qaytarılmasını istəyirik! Ermənistan işğal etdiyi Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır".

Biz, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi nəzdində Siyasi Sənədlər Arxivinin təşkil etdiyi elmi konfransın iştirakçıları da dünyanin bütün alimlərinə müraciət edərək, onları birləşməyə çağırırıq. Keçmişin səhvlərini təhlil edib onların nəticələrini bir ibrət, nəsihət kimi, Yer üzünün dinc gələcəyi naminə, yeni nəsillərə, yeni sabahlara çatdırmalıyıq! Militarizm, silahlanma, atom zəmanəsində keçmişin və indiki müharibələrin dərslərini unutmamaq çox vacibdir. Qanlı savaşların başlanmasına məsuliyyət daşıyanlara yalnız və yalnız belə dərslər xatırlada bilər ki, bütün müharibələr onu törədənlərin özlərinin faciəli sonluğu - onların məhvilə nəticələnib.

***Mais Bağırov,***
***Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin direktoru, tarix elmləri üzrə fəlsəfə doktoru***
***Şəhla Abdullayeva,***
***filologiya üzrə fəlsəfə doktoru***







## Faşistlərin «yeni qaydaları»

1941-ci ilin yayında Almaniya və İtaliya 12 Avropa ölkəsini işğal etdi

## Almaniyanın SSRİ ilə müharibəyə hazırlaşması

**Avropada müharibə təcrübəsi nəzərə alınmaqla tərtib edilmiş «Barbarossa» planı «İldırımsürətli müharibə» nəzərdə tuturdu**








3 qrup:

«Şimal» - Leninqrada,
«Mərkəz» - Moskvaya,
«Cənub» - Ukraynaya hücum etməli idi.

6 həftə ərzində Qızıl Ordunu darmadağın edib Arxangelsk - Həştərxan xəttinə çıxmaq nəzərdə tutulurdu

## 1941-ci ilin yay və payız aylarında Qızıl Ordunun məğlubiyyətləri

**Böyük Vətən müharibəsinin dövrləri**
**I dövr (22 iyun 1941 - 18 noyabr 1942-ci illər)**

## Alman-faşist ordusunun güclü hücumları, Pribaltika, Belarus, Ukrayna və Moldovanın işğalı





Əsir sovet əsgərləri yaralı yoldaşlarını daşıyırlar

*SSRİ-də neft və qaz hasilatı 1940-cı il (%-lə)*




*SSRİ üzrə neft hasilatında Azərbaycanın payı*








# BAKI NEFTİNİN QƏLƏBƏDƏ ƏVƏZOLUNMAZ ROLU

1941-ci il iyun ayının 22-si səhər saat 4-də alman-faşist qoşunları müharibə elan etmədən, 930 millik cəbhə boyunca hücuma keçdi.

Adolf Hitler öz niyyətlərini, ümumi və konkret vəzifələri olduqca aydın cəmləşdirib demişdi:

"Biz Rusiyanı nə qədər tez məhv etsək, bir o qədər yaxşıdır".

Əlbəttə ki, SSRİ-yə hücumun əsas hədəfi "Bakının neft yataqlarına çıxmaq idi".

Hitler yaranmış vəziyyəti belə qiymətləndirirdi:

- "Almaniyanın əhalisi o qədər çoxdur ki, ali irq olaraq, dünya miqyasında onunla rəqabətə davam gətirəcək xalq çətin tapıla. Amma o iqtisadi təminatı olmayan məhdud ərazisinə sığmır. Bu darlıqdan qurtulmağın yeganə yolu - təcili sürətdə geniş ərazilərin işğal edilməsidir".

Yaponiya 1940-cı ilin sentyabrında Almaniya və İtaliya İttifaqını möhkəmləndirən üçtərəfli saziş imzaladı (Berlin-Roma-Tokio "oxu").

Fürerin fikrinə görə, ərazilərin sadəcə tutulması kifayət deyildi. O, malik olduğu 180 diviziyadan 120-nə əmr etdi ki, üç istiqamətdə Sovet İttifaqına hücuma keçsinlər. Birinci qrup Kiyev, ikinci qrup Moskva üzərinə yeridi. Sonra da bu iki qrupun birləşməsi planlaşdırıldı.

Üçüncü qrup isə Qafqaz dağlarını aşıb, Bakının neft yataqlarına doğru yerimәli idi.

***Almanlardan qeyri kiminsə silah gəzdirməsinə heç vaxt yol verməyin. Hətta əgər istila edilmiş, ram olunmuş özgə xalqlardan hansısa biri bizə silahlı köməyə gəlmiş olsa, yenə də məsləhət deyil. Günlərin bir günü həmin silahın bizim özümüzə çevriləcəyi labüd və mütləqdir. Nə slavyan, nə çex, nə kazak, nə ukraynalı, yalnız alman silah gəzdirməlidir!***

***Adolf Hitler***



Böyük Vətən müharibəsinə, varlığını qorumağa, öz torpaqlarının müdafiəsinə qalxan Sovet İttifaqı hərbi dövrün tələblərinə uyğun olaraq dövlət idarəetmə qurumlarında məqsədyönlü dəyişmələr apardı.

Ölkənin bütün hakimiyyəti İosif Stalinin sədri olduğu Dövlət Müdafiə Komitəsinin (DMK) əlində cəmləşdi. Bu təşkilat yarandığı gündən hərbi dövrün iqtisadi tələblərinə uyğun olaraq, ölkənin bütün ehtiyatlarını səfərbər etməyə yönələn direktivlər çıxardı.

Dövlət Müdafiə Komitəsi Azərbaycan Respublikası qarşısında da çox vacib öhdəliklər qoydu. Olduqca qısa müddət ərzində hərbi dövrün tələbləri ilə respublika xalq

> **"Deyirlər, müharibənin ilk həftəsində guya İ.V.Stalin özünü necə itiribsə, hətta radio ilə danışa bilməyib. Öz çıxışını oxumağı V.M.Molotova tapşırıb. Bu gümanlar həqiqətə uyğun deyil.**
> **Əlbəttə, müharibənin ilk saatlarında İ.V.Stalin özünü itirmişdi. Ancaq o, tezliklə özünə gəldi. Tükənməz enerji ilə işə girişdi. Doğrudur, ifrat əsəbilik göstərərərək bizi də tez-tez işgüzar vəziyyətdən çıxarırdı".**
>
> **Q.K.Jukov,**
> **"Xatirələr və düşüncələr"**

təsərrüfatının yenidən qurulmasında geniş, əhatəli işlər görüldü. Respublika sənayesinin bütün potensiallı hərbi məhsulların istehsalına yönəldildi. Bütün maşınqayırma zavodları, yüngül və yeyinti sənayesi müəssisələri, toxuculuq fabrikləri, kooperativ təşkilatları orduya lazım olan tələbatı ödəməyə səfərbər edildi.
Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Bakı şəhər Komitəsinin 1941-ci ilin noyabrında keçirilən birgə iclasında neft sənayesi və xalq təsərrüfatı qarşısında duran bütün vəzifələr bir daha konkretləşdirildi.
Müharibənin ilk günlərində almanlar nəzərdə tutduqlarından da xeyli qabağa getdilər. Onlar sürətlə irəliləyirdi. Faşistlərə elə gəlirdi ki, qələbə lap yaxında, bir addımlıqdadır. Bircə o qalır ki, işğal olunan ərazilərin lap göbəyindəcə







# DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİ




mühasirəyə alınan qruplar axıracan məhv edilsin.
Lakin tezliklə həyəcan təbili çalındı. – Yanacaq çatmır!
Əlahəzrət neft, daha doğrusu, onun çatışmazlığı özünü büruzə verməkdəydi. Sovet İttifaqının çətin keçilən bərbad yolları, yol kəsişmələri nəqliyyat vasitələrini ikiqatdan da artıq yanacaq işlətməyə məcbur edirdi. Palçığa batıb qalan, irəliyə güclə gedən texnika at arabaları ilə əvəz olunmağa başladı.
Alman generalları 1941-ci ilin avqust ayında Hitlerə təklif etdilər ki, əsas zərbə Moskvaya yönəlsin. Fürer bundan imtina etdi. Onun 1941-ci ilin avqust ayında verdiyi direktivdə deyilirdi:
- "Qış hücumunun qarşısındakı daha vacib məsələ Moskvanı deyil, Don çayının üzərindəki kömürçıxarma sənayesi rayonunu və Krımı almaq, həmçinin Qafqaz bölgəsindən neftin rus ordusuna göndərilməsinə mane olmaqdır".
Vermaxt Bakını almalıydı. Krıma gəldikdə isə, Hitler onu rumın neft yataqlarına hücum etmək üçün "Sovet təyyarə gəmisi" adlandırırdı.
Sonralar Hitler əvvəlki fikrini dəyişdi. Moskvanı "vurmağı" qərara aldı. Ancaq fürsət əldən verilmişdi. 1941-ci ilin payızının ortalarında almanlar Sovet paytaxtının ətrafındakı şəhərlərə qədər gəlib çıxdılar. Orada qarşılarını palçıq, şaxta, qar kəsdi. Yanacaq çatışmazlığı da bir yandan.
...1941-ci il dekabrın 5-6-da isə Sovet qoşunlarının uğurlu əks-hücumu başladı...


Cəbhəyə könüllü gedənlərin siyahıya alınması


Könüllülərin cəbhəyə yola salınması




Müharibə başlanmasının elan edilməsi


Hərbi hissələrin yaradılması

# Qoy, bizim tankçılar, təyyarəçilər arxayın olsunlar, onların yanacaqları həmişə olacaq!

Hitler özünün SSRİ-yə "Barbarossa" hücum planını genişləndirərək, xüsusi vurğu ilə öz generallarının diqqətinə çatdırdı ki, neft ***Bakısını mütləq tutmalıyıq. O və onun ətrafındakılar yaxşı başa düşürdü ki, Bakı nefti olmadan, Şərq kampaniyasında uğur qazanmağa ümid yox dərəcəsindədir.***

Onlar XX əsri 20-ci illərinin axırından əmin idilər ki, Sovet İttifaqı özünün neft hasilatını intensiv sürətdə artırmaqdadır.

Bütün dünyaya ağalıq etmək iddiasında olan alman strateqləri və onların müttəfiqləri bircə prinsipə güvənirdilər.

"Kim dünyanı idarə etmək istəyirsə, neftə nəzarəti ələ keçirməlidir. Bütün neftə - harada olursa olsun, harada çıxırsa, çıxsın!".

Bütün dünyada neft yataqlarına tam nəzarət etmək

***Azərbaycanlı əsgərlər Qafqaz uğrunda gedən döyüşlərdə özlərinə əbədi şöhrət qazandılar. 1942-ci ilin ağır sentyabr günlərində, düşmənin Bakıya və Volqaboyu istehkamlara hücum çəkdiyi vaxtlarda təyyarəçi Nuri Əliyev Vətənə göndərdiyi məktubunda yazırdı:***

***"Mən inanıram ki, Azərbaycan xalqı heç vaxt alman ağalarına qul olmayacaq. Onlar qanlı pəncələrini Bakıya çatdıra bilməyəcək. Stalinqrad divarları yanında Vətəni qorumaqla, səni qoruyuram, doğma Bakı!".***

***Həmin vaxt igid təyyarəçinin hesabında artıq düşmənin məhv edilmiş 10 tankı, 26 avtomaşını, 5 zenit qurğusu, 2 zirehli avtomaşını, 1 silah-sursat anbarı, 190 əsgər və zabiti vardı.***

***Göstərdiyi igidliklərə görə o, "Qırmızı bayraq" ordeni ilə təltif edildi.***

## 1913-1940-CI İLLƏR ƏRZİNDƏ SSRİ, RUMINİYA VƏ QONŞU ŞƏRQ ÖLKƏLƏRİNDƏ NEFT HASİLATI (min tonla)

| Годы | 1913 | 1917 | 1922 | 1928 | 1932 | 1937 | 1940 |
|---|---|---|---|---|---|---|---|
| SSSR | 10281 | 8800 | 4658 | 11625 | 21414 | 28501 | 31121 |
| **O cümlədən, Azərbaycan** | **7669** | **6646** | **2945** | **7574** | **12181** | **21361** | **22176** |
| **Rumıniya** | **1848** | **724** | **1313** | **4282** | **7348** | **7150** | **5738** |
| Küveyt | - | - | - | - | - | - | 17291 |
| Səudiyyə Ərəbistanı | - | - | - | - | - | 8 | 700 |
| İran | 248 | 953 | 2966 | 5791 | 6549 | 10331 | 8765 |
| İrak | - | - | - | 95 | 122 | 4225 | 2514 |





***SSRİ üzrə neft hasilatında Bakının xüsusi çəkisi (1940-1942-ci illər)***




***SSRİ üzrə neft hasilatında Azərbaycanın payı***



# GEOLOGİYA ELMİNİN İNKİŞAFINA TÖHFƏ VERMİŞ GÖRKƏMLİ GEOLOQ ALİMLƏR


***Əliəşrəf Əlizadə (1911-1985)***


***Əhəd Yaqubov (1908-1979)***


***Mirəli Qaşqay (1907-1977)***


***Musa Əliyev (1908-1985)***


***Şamil Əzizbəyov (1906-1976)***


***Şəfaət Mehdiyev (1910-1993)***


***Qambay Əlizadə (1899-1990)***


***Rəhim bəy Cəfərov (1883-1971)***


***Viktor Xan (1914-2009)***


***Ədham Şıxəlibəyli (1911-1996)***


***Cəlil Xəlilov (1900-1976)***


***Azal Sultanov (1905-1990)***


***Sabit Orucov (1912-1981)***


***Fərman Salmanov (1928-2007)***


***Baba Babazadə (1911-1962)***


***Faiq Bağırzadə (1905-1990)***


***Səid Rza Kərim (1925-1996)***


***Fuad Səmədov (1926-1969)***


***Tofiq İslamzadə (1930-2004)***


***Dəmir Hacıyev (1929-1999)***


***Heydər Əfəndiyev (1907-1967)***


***Tofiq Qasımov (1921-2005)***


***Xoşbəxt Yusifzadə (1930)***


***Akif Əlizadə (1934)***

Hitler Almaniyası və onun müttəfiqlərinin strategiyasında ən öncül məsələdir.

Müharibənin başlanğıcında tədqiqatçı B.Kramer "Bakinskiy raboçiy" qəzetindəki yazısında Birinci Dünya müharibəsi təcrübəsindən qırağa çıxaraq təhlil gücünə aşağıdakı suallara cavab axtarırdı:

- Yeni müharibədə alman strateqlərinin gəldiyi nəticələr nə qədər ciddidir?! Onlar qələbə qazanmaqda nəyə arxayındırlar? Onlar nəyə güvənir?

Bu sözlərdə heç bir şişirtmənin olmadığını bildirən müəllif yazır ki, həqiqətən də, neft Birinci Dünya müharibəsi zamanı Qərb cəbhəsində gedən döyüşlərin sonuna yaxın əsas amil rolunu oynadı. Müharibə gündən-günə daha çox yanacaq "içən" maşınların yarışına çevrildi.

Amerikanın köməyi və Britaniyanın yiyələndiyi torpaqlardan axıb gələn neftin sayəsində ingilis, eləcə də fransız qoşunları Birinci Dünya müharibəsində Almaniyaya öldürücü zərbə endirməyi bacardı.

Sonralar lord Kerzon qeyd edirdi ki, "müttəfiqlər neft arxının səmtiylə qələbəyə sarı üzürdü".

Almaniya ordusu isə Birinci Dünya müharibəsində üçüncü ilin başlanğıcında artıq neft çatışmazlığından boğulmaqda idi. Alman hərbi dəniz donanması və aviasiyanın neft məhsullarına olan tələbatı ancaq yarıya qədər ödəndi.

Yeni işğalçılıq müharibəsinə hazırlaşan faşistlər Almaniyanı hərbi strateji xammalla, əsasən də neftlə təmin etməyi bacarmayan Kayzer Vilhelmin səhvlərini təkrar etməyəcəkləri barədə ağızları köpüklənə-köpüklənə danışır, hay-küy qoparırdılar.

Herinq dönə-dönə and-aman edirdi ki, Almaniya neft məhsulları ilə bağlı bütün ehtiyaclarını tamamilə ödəməyə qadirdir. Lakin Herinqin bəlağəti xəyallardan həqiqəti ayırmaq bacarığını hələ itirməmiş alman hərbi ekspertlərinin önə çəkdiyi rəqəmlərdə öz təsdiqini tapmır. Hərbi ekspertlərin hesablamalarına görə, üzdə olan neft balansı heç də Almaniyanın xeyrinə deyil. Yeni, uzun çəkən müharibə başladığı halda Almaniya 1918-ci ildəki fəlakətin ən başlıca səbəblərindən biri olan kəskin neft çatışmazlığı ilə mütləq üzləşəcəkdir.

Almaniyanın mexanikləşdirilmiş ordusuna lazım gələn yanacağın miqdarı barədə ən dolğun təsəvvürü Hollandiyada, Belçikada və Fransada aparılan əməliyyatlar üzə çıxartdı. Hərbi əməliyyatlar zamanı 45 gün ərzində Almaniya 0,5 milyon ton neft məhsulları işlətdi.

Hələ ən uzaq məsafəyə, ən dərin kommunikasiya əlaqələrinə, yollara malik Şərq cəbhəsində keçirdiyi əməliyyatlara sərf etdiyi yanacağın miqdarı onu fəlakətli sonluğa aparırdı.

Hesablamalar göstərir ki, alman ordusunun yanacağa olan gündəlik tələbatı 65-70 min ton olmuşdur. Bu da bir ay ərzində 2 milyon ton deməkdir.

Ona neft göndərən bütün ölkələrdən, demək olar ki, tam təcrid olunan Almaniya bu gərginliyə uzun müddət dözə biləcəkdimi?! Almaniyaya yalnız Rumıniya neft ixrac edirdi. Almaniyanın xalis neft aldığı bu yeganə mənbə Sovet aviasiyasının öldürücü zərbələri altında idi. Sovet qoşunlarının Poleşti rayonuna ardıcıl hücumları alman ordusunu yanacaqla təmin edən yeganə mənbəyi sıradan çıxardı. İndi alman komandanlığı öz ümidini yalnız müharibədən əvvəl yığıb saxladığı yanacaq ehtiyatlarına və sintetik benzin istehsalına bağlaya bilərdi.

Ancaq hesablamalar göstərdi ki, hər iki mənbə alman ordusunun yanacağa olan tələbatını ödəmək iqtidarından çox-çox uzaqdır.

Almaniya ehtiyat üçün yığdığı, işğal edilmiş ölkələrdən ələ keçirdiyi neft məhsullarını Bremen, Hamburq və b. şəhərlərdəki neft anbarlarının Britaniya aviasiyasının hücumları ilə məhv edilməsi ucbatından, ordunun tələbatına lazımınca yönəldə bilmədi.

Britaniya aviasiyasının dağıdıcı zərbələrinə məruz qalmış sintetik yanacaq istehsalı isə alman ordusunun 20% tələbatını belə ödəməyə qadir deyildi.

Burda bir alman hərbi iqtisadçısının xəbərdarlığını yada salmaq yerinə düşərdi. O, açıq şəkildə bildirirdi ki, belə getsə, "kiçik hərbi birləşmələrə, atlara, at arabalarına qayıtmağın vaxtıdır!"





Sonralar, 1941-ci ilin iyununda, SSRİ-yə hücumdan iki gün qabaq Hitler olduqca aydın ifadə ilə belə bir söz işlətmişdi:
- "Bizə nə çatışmırsa, onu istila edib almalıyıq!".

"...Artıq alman ordusu yanacaq çatışmazlığını kəskin surətdə hiss etməyə başlayıb və bu da onu, digər səbəblər kimi, fəlakət saatına yaxınlaşdırır".

Azərbaycanda isə cəbhəni vaxtlı-vaxtında neft və neft məhsulları ilə təmin etmək üzrə aparılan işlər daha da genişlənirdi. Neftçilər, sözün əsil mənasında, möcüzələr yaradırdı. Onlar yuxu bilmədən, cüzi ərzaq payı ilə kifayətlənərək (çəkdikləri fiziki gərginliyin, ağır zəhmətin müqabilində) gecə-gündüz işləyirdilər.



Cəbhəyə getmiş kişiləri onların həyat yoldaşları, ana-bacıları, yeniyetmələr, təqaüdçülər əvəz edirdi. Bakı neftçilərinin qəhrəmanlığını, göstərdikləri şücaəti arxiv sənədləri, respublika və mərkəzi mətbuatda dərc olunmuş materiallar əyani şəkildə sübut edir.

Ölkənin əsas qəzeti sayılan "Pravda" müharibənin ilk günlərində dərc etdiyi "Nə qədər lazımdır, o qədər də neft verməliyik" başlıqlı məqalədə yazırdı:

"Neft mədənlərində, maşınqayırma, neft emalı zavodlarında başqa müəssisələrdə, təşkilatlarda, elmi idarələrdə fəhlələr, qulluqçular, ziyalılar Sovet hökumətinin siyasətini yekdilliklə dəstəkləyir, Vətənin müdafiəsinə hər an qalxmağa hazır olduqlarını bildirirlər.

Radio ilə ***Molotovun çıxışını dinləmiş qulluqçu Xəlilov Bakıdakı Stalin adına zavoddakı*** mitinqdə dedi ki, "Qızıl Ordunu və Hərbi Dəniz Donanmasını yanacaqla təmin etmək üçün var gücümüzlə işləyəcəyik".

Qoy, bizim təyyarəçilərimiz və tankçılarımız arxayın olsunlar. Onların yağı və yanacaqları həmişə olacaq. Mitinqdə çıxış edən yaşlı neftçilər yüksək vətənpərvərlik və düşmənə qəzəb hissi ilə bildirdilər ki, onlar öz oğullarını Qızıl Ordu sıralarına göndəriblər, lazım gəldiyi halda özləri də cəbhəyə getməyə hazırdırlar".

***Nikolay Baybakov Bakı neftçilərinin qəhrəmanlığını belə xarakterizə edirdi:***

***"Onlar dəbli ayaqqabılarını çıxarıb, kirz çəkmələr geydilər. Bəzəkli şlyapalarını bir qırağa atıb baş-***

***larına qulaqlı, ağır papaq keçirdilər. Qadınlar heç bir işdən qorxmurdu. Hətta buruq qazma işlərində də çalışırdılar!"*** (Bax: M.Slavkina "N.Baybakov", Moskva, "Molodaya qvardiya", 2010, s. 51).

Hətta gücü olmayanlar da neftçıxarma briqadalarında, traktor bazasında, neftötürücü stansiyalarında işləyirdilər. Qadınlarımız yeri gələndə rəhbər vəzifədə də özlərini göstərirdi. Müharibə illərində Abşeron yarımadasındakı iri neft mədənlərinə Mədinə Vəzirova, Suqra Qayıbova, Səkinə Quliyeva, Antonina Bakulina, Anna Pleşko, Sofiya Kryuçkina rəhbərlik edirdi. Bu qadınların öz çiyinlərində hansı ağır yükü daşıdıqlarını hətta təsəvvürə gətirmək belə çətindir!

Köhnə bakılı Nikolay Konstantinoviç tez-tez təkrar edirdi:

"Əgər qadınlar olmasaydı, biz müharibədə qələbə qazana bilməzdik!"

1941-ci ildə vətəndaşlarımızın bu qismi mədənlərdə və zavodlarda çalışanların üçdə birini, bir neçə aydan sonra isə yarıdan çoxunu təşkil edirdi. Onlar qısamüddətli kurs keçib dərhal işə başlayırdılar.

Azərbaycan K(b)P şəhər Komitəsinin plenumları müntəzəm keçirilirdi. Plenumlarda neft sənayesinin yenidən qurulması və bu sahədəki vəziyyətlə bağlı partiya təşkilatının vəzifələri müzakirə olunurdu.

Azərbaycan neftçilərinin qarşısında duran ən vacib vəzifələrdən biri də neft hasilatının səviyyəsini qoruyub saxlamaq idi.

1941-ci ildə kəşfiyyat qazma işlərinin həcmi Azərbaycan neft sənayesi tarixində özünün ən yüksək göstəricisinə - 43.274 tona çatdırıldı.

1942-ci ildə isə tamamilə başqa vəziyyət yarandı. Mariya Slavkina adıçəkilən kitabında yazırdı ki, günlərin birində Bakıda borular tükəndi. Neftçilər Nikolay Konstantinoviç Baybakova müraciət etdilər ki, Artyom adasında (Pirallahıda) dənizdə dalğıc işləri aparılsın. Dənizin dibi ələk-vələk edilib, baxılsın ki, bəlkə orda lazım olan bəzi şeylər tapıldı...

Bir zaman həmin rayonda aparılan işlərdən yaxşı xəbərdar olan Baybakov o saat razılaşır. Dalğıcları da tapır, xüsusi avadanlıq da. "Əməliyyata" başlanır. Heç də əbəs yerə olmadı! Dənizin dibindən o qədər dəmir-dümür çıxdı ki, ən qiymətlisi isə gərəksiz bilinib, bura atılmış boru kəmərləriydi.

**Təsdiq edirik ki, ölkə qarşısında öz məsuliyyətlərini başa düşən Azərbaycan neftçiləri alman işğalçılarının tamamilə darmadağın edilməsi üçün Qızıl Orduya və Hərbi Dəniz Donanmasına nə qədər lazımdırsa o qədər də yanacaq verəcəklər.**

Həmin mürəkkəb dövrdə Azərbaycan xalqının düşmənə qarşı qətiyyətlə ayağa qalxması onun mübarizə, əzmkarlıq ruhunu, birliyini, intellektual və texniki potensialını bir daha üzə çıxarmış oldu.

Alman qoşunlarının SSRİ-yə hücum etməsinin ilk günlərindən ölkənin bütün iqtisadiyyatı hərbi relslər üzərinə keçirildi.

Bakı zəhmətkeşləri leninqradlıların da faciəsinə biganə qalmadı. Mühasirəyə alınmış Leninqrada nə yolla olur-olsun, Bakı nefti çatdırılırdı. 1942-ci ildə Ladoqa gölünün dibindən 28 km uzunluğunda, gecə-gündüz 400 ton yanacaq ötürməyə qadir olan benzin kəməri çəkildi. İki il yarım ərzində Leninqradın özü və Leninqrad cəbhəsi həmin yolla yanacaqla təmin edildi.

Leninqradın mühasirəsi: 8 sentyabr 1941-ci il - 27 yanvar 1944-cü il (871 gün)

Cəbhə necə olursa olsun, neft hasilatı səviyyəsini döyüşən orduya lazım gələn həcmdə saxlamağı tələb edirdi!

***Bakı neftçiləri bütün çətinliklərə qəhrəmanlıqla sinə gərərək hökumətdən gələn istənilən tapşırığın yerinə yetirilməsinə nail olurdu.***

Artıq müharibənin birinci mərhələsi ərzində mühəndis-texniki heyət, fəhlə qüvvəsi neft hasilatını daha da qaldırmağa imkan yaradan bir sıra yeni texniki vasitələrdən faydalanırdı.

Azərbaycan neftçiləri tərəfindən 1941-ci ilə aid illik planın vaxtından əvvəl yerinə yetirilməsi barədə

**Azərbaycanın paytaxtı Bakı cəbhəni və SSRİ-nin xalq təsərrüfatını fasiləsiz olaraq neft və neft məhsulları ilə təchiz edir, havada, yerdə yüz minlərlə mühərriki hərəkətə gətirirdi.**





***Bakı zəhmətkeşləri də leninqradlıların faciəsindən kənarda qalmadılar. Mühasirəyə alınmış Leninqrada Bakı nefti çatdırılırdı. 1942-ci ildə Ladoqa gölünün dibində uzunluğu 28 km, daşıma qabiliyyəti sutkada 400 t olan benzin kəməri çəkilmişdi. Leninqrad və Leninqrad cəbhəsi 2 il yarım müddət ərzində bu yanacaqla təmin edilmişdi.***

## 8 sentyabr 1941-ci il - 27 yanvar 1944-cü il Leninqradın mühasirəsi (871 gün)















Azərbaycan K(b)P MK və Xalq Komissarları Sovetinin verdiyi 1941-ci il 21 dekabr tarixli raportda deyilirdi:

- "Öz işini hərbi dövrün tələblərinə uyğun yenidən quran Sovet Azərbaycanının neftçiləri dekabr ayının 19-da neft və qaz hasilatı üzrə illik planı vaxtından qabaq yerinə yetirmişlər.

Neftayırma sənayesi partiya və hökumətin tapşırıqlarına uğurla əməl edib. Bakının neftayırma zavodları neftin emalı üzrə illik planı dekabrın 6-da, benzin emalı üzrə planı isə noyabrın 27-də yerinə yetirmişlər.

Neft hasilatının builki səviyyəsi Azərbaycan neft sənayesi tarixində qazanılan ən yüksək nəticədir. Hər bir neftçi fəhlənin əmək məhsuldarlığı 1940-cı ilə nisbətən 17,3 faiz artıb. Neft və qazın hər tonu üzrə maya dəyəri planda göstərilənə qarşı azaldılıb. Azərbaycan neftçiləri düşmən üzərində qələbə naminə fədakarlıqla çalışaraq cəbhədəki vəziyyəti gərginliklə izləyir. Ordan gələn hər bir xoş xəbərə, gündəlik qazanılan hər qələbəyə əmək cəbhəsindəki yeni uğurları ilə cavab verirdilər.

***Bakı Sovet İttifaqının neftlə döyünən qəlbi idi. Və Hitler Bakını tutacağına tam əmin idi. Buna görə də üzərində Xəzərin, Bakının konturları olan tortu böyük həvəslə kəsmişdi.***

Ancaq sonrakı hadisələr göstərdi ki, Hitler həmin tortu kəsməkdə çox tələsibmiş. ***Bakını tutmaq almanlara nəsib olmadı, üstəlik faşist Almaniyası Bakı neftinde boğuldu...*** Yanacaqsız qalan almanların tank qoşun birləşmələri Qafqaz dağlarının ətəyindəcə dayanmağa məcbur oldular.

1942-ci il noyabr ayının 19-da Sovet qoşunları Stalinqrad ətrafında əks hücuma keçdi. Fridrix fon Paulyusun komandanlıq etdiyi 6-cı ordu mühasirəyə düşdü. General Maynşteynin mühasirəni yarmaq cəhdləri də uğursuzluğa düçar oldu. 1943-cü il fevral ayının 2-də Vermaxtın ordu salamat qalmış əsgər və zabitləri təslim oldu.

Amansızlığına, davam müddətinə, döyüş texnikasının, vuruşan insanların sayına görə Stalinqrad döyüşü dünya tarixindəki bütün savaşlar ötüb keçdi. Paulyusun təslim olmasından bir neçə gün sonra sovet dağ atıcılarının iki qrupu buz bağlamış və minalanmış sahələri keçərək, çovğunlu, sərt küləkli havada, qırx dərəcəli şaxtada Elbrus dağına qalxdılar.

Qafqaz almanların böyük iştaha ilə tamah saldığı, xəyallarında bəslənən yağlı bir tikədi. Qafqaz - bu qara brilyantdakı neft işğalçılara necə də gərəkmiş! Amma son məqamda əlləri çatmadı ki, çatmadı...

Hələ 1942-ci ildə Hitlerin direktivində deyilirdi ki, cənub cəbhəsindəki əməliyyatların əsas hədəfi Qafqaz sıra dağlarını adlayıb səxavətlə Sovet ordusunu neftlə qidalandıran Bakını ələ keçirməkdir. Faşistlər nəyin bahasına olur olsun, həyat mənbəyinə, neft rayonlarına çıxmağa, neft xəzinəsinə sahib olmağa can atırdılar. Bununla da onlar Sovet Ordusunu, necə deyərlər, "oksigensiz qoymaq", iflasa uğratmaq ümidindəydilər.

Almanlar Qafqazın neft rayonlarını ələ keçirmək uğrunda ən sərt ən qəti qərarlar verir, qələbə naminə bütün güc və ehtiyatlarını səfərbər edirdilər. "Edelveys" əməliyyatının ilk mərhələsində bir neçə uğur

**"Edelveys" əməliyyatı**

*Vermaxtın üzləşdiyi Moskva ətrafındakı uğursuzluqdan, verdiyi böyük itkilərdən sonra Hitler və alman ordusunun ali baş komandanlığı belə qərara gəldi ki, diqqəti Cənuba yönəltsinlər. Eyni zamanda, əsas güc Stalinqrad ətrafında SSRİ-ni parçalamağa sərf olunmalıydı. Bununla da Qafqazı tutub Bakının neft mədənlərinə yiyələnmək məqsədi ön plana keçəcəkdi.*

*Rumıniya nefti və sintetik yanacaq istehsalı Almaniyaya heç cürə bəs eləmirdi.*

*Hitler 1942-ci il iyul ayının 23-də 45 nömrəli direktivi imzaladı. O sənəddə Zaqafqaziyaya girib, Bakını tutmaq, daha sonra isə Yaxın Şərqi, eləcə də Hindistanı işğal etmək nəzərdə tutulurdu.*

*Xəritəyə diqqətlə baxan Fürerin sözü bu oldu:*

*- Axır məqsədimiz Şimali Afrikada Rommelin hissələri ilə birləşməyimizdir. Bax, onda bu əməliyyatla biz dünyanı qarşımızda diz üstə çökdürəcəyik!*

*Generallar:*

*- Biz artıq əməliyyatın kod adını da fikirləşmişik, - deyə raport verdilər.*

*- Nədi ki?*

*- Edelveys".*

*Dağ çiçəyi?, - deyə Hitler gülümsəyərək soruşdu.*

*Sonra da cavab gözləmədən:*

*- Çox gözəl! Qoy, elə "Edelveys" də adlansın, - dedi*

**Dövlət Müdafiə Komitəsinin 1942-ci il 22 sentyabr tarixli "Neft müəssisələri fəhlə və qulluqçuların, mühəndis-texniki işçilərinin müharibə dövründə səfərbərlik vəziyyətinə keçirilməsi haqqında"kı qərarının yerinə yetirilməsi ilə bağlı Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK-nın qərarından**

**1 oktyabr 1942-ci il**

Cəbhənin və xalq təsərrüfatının neft məhsulları ilə təmin olunmasında mühüm vəzifələrdən biri fəhlə və qulluqçuların, mühəndis-texniki işçilərin neft sənayesi müəssisələrinə təhkim olunması haqqında DMK qərarının "Azneftkombinat" işçilərinə geniş izah olunması məqsədi ilə, Azərbaycan SSR XKS və Azərbaycan K(b)P Mərkəzi Komitəsi qərara alır:

1. "Azneftkombinat" rəhbərliyinə, Azərbaycan K(b)P rayon komitə katiblərinə, Qafqaz neft mədənləri Həmkarlar İttifaqına, İttifaqın rayon komitə sədrlərinə tapşırılsın ki, "Azneftkombinat"ın müəssisələrində çalışan bütün fəhlə və qulluqçulara, mühəndis-texniki işçilərə izah edilsin:

a) Müharibə dövründə neft sənayesinin bütün işçiləri səfərbər olunmuş vəziyyətə keçirilir və DMK-nın xüsusi qərarı olmadan onlar Qızıl Orduya çağırıla bilməzlər.

b) SSRİ-nin digər neft rayonlarına gedən mühəndis-texniki işçilərə, fəhlə və qulluqçulara axırıncı üç ay ərzindəki orta əməkhaqqının miqdarında, onların həyat yoldaşlarına həmin məbləğin 4/1-i işləməyən ailə üzvlərinin hər birinə isə ailə başçısının orta əməkhaqqının 8/1-i qədər müavinət verilir.

Fəhlə və qulluqçuların, mühəndis-texniki işçilərin, onların ailə üzvlərinin, eləcə də ailə başçisinin 100 kq, ailə üzvlərinin hər birinin 40 kq-a qədər olan yüklərinin daşınması və yol xərci dövlət hesabına ödənilir. Müavinətlər isə yeni iş yerinə çatanda verilir.

Xüsusən də "Azneftkombinat"ın DMK-nın 22 sentyabr 1942-ci il tarixli 23 nömrəli qərarına əsasən, SSRİ-nin Şərq rayonlarına köçürülən bütün fəhlə və qulluqçuları, mühəndis-texniki işçiləri bu məsələ barədə xəbərdar etmək.

**AR.Pİİ, SSA f 1, op. 103, səh. 82, II14-14-üm. əsli**

da qazandılar.

Sovet ordusu Maykop, Qroznı neftindən məhrum oldu. Bununla da ölkədə xalq təsərrüfatının vəziyyəti ağırlaşdı. Döyüşən ordunun və arxa cəbhənin yanacaqla təmin olunmasında bütün ağırlıq bakılıların üzərinə düşdü. Neft mədənləri olduqca ağır şəraitdə işləyirdi. Müharibənin birinci ilində mümkünsüz görünən bir nəticə əldə olundu. 1941-ci ilin yekunlarına görə, Sovet İttifaqı 33 milyon ton neft hasil etdi. Artım tam 6% oldu.

***Ölkənin baş neft rayonu, Bakı şəhəri rekord göstəriciylə istehsalı 23,5 milyon tona çatdırdı!***

Kəşfiyyat-qazma işləri ilə 1941-ci ildə yeni istismar sahələri hazırlanmalı idi. Lakin avtomobil nəqliyyatı vasitələrinin, fırlanan boruların çatışmaması, eləcə də Xəzər ovalığı və Abşeron yarımadasındakı kəşfiyyat trestlərinin "İkinci Bakı"ya verilməsi qazma işlərinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb oldu. Bu həm də neft-mədənləri avadanlığının Şərq rayonlarına köçürülməsi, respublikanın kənar bölgələrdən gəlmə avadanlıq və materialla təchizatında dayanma ilə də bağlı idi.

DMK-nın qərarına əsasən, 1941-ci ilin ikinci yarısında və 1942-ci ildə "Neftçalatrest"ə məxsus qurumlardan başqa bütün qazma kontorlari Şərqə köçürülmüş oldu.

Azərbaycan neftinə xas yüksək göstəricilər özünü keyfiyyətdə də olduqca aydın büruzə verirdi. Abşeron yataqlarındakı bir sıra quyulardan çıxarılan yüksək oktanlı neft buna sübutdur. Yüksək keyfiyyətli benzin də məhz bundan hazırlanırdı.

Azərbaycan K(b)P MK Bürosunun 1942-ci il aprel ayının 3-12-də keçirdiyi iclasda (Protokol 229) Dövlət Müdafiə Komitəsinin 1942-ci il martın





*Onlar neft uğrunda gedən döyüşləri uduzdular. Müharibənin sonu, axır nəticəsi qabaqcadan həll olundu. Elə o vaxtdan da neft aclığı üçüncü reyxin yenilməzlik planlarını tez-tez pozmağa başladı.*

*Nasist hərbi maşını hələ müntəzəm surətdə, davamlı olaraq təyyarələr, tanklar buraxırdı. Ancaq yanacaqsız qalan motorlar "ölüydü… heç nəyə gərək olmayan dəmir tayasıydı…*

*Bütün müharibə boyu Norveç limanında sahilə bağlı, hərəkətsiz qalan, yalnız 1944-cü ilin noyabrında məhv edilən "Tirnits" linkornu alman hərbi strategiyasının neft iflasını özündə əks etdirən bir rəmzə çevrildi.*

24-də qəbul etdiyi "1942-ci ildə B-78 aviasiya benzini və aviasiya yağlarının istehsalının artırılması tədbirləri haqqında"kı qərarından irəli gələn vəzifələrin yerinə yetirilməsi müzakirə edildi.

Yaranmış tarixi şəraitdə müharibənin ən çətin, ən ağır dövründə, DMK-nın qəbul etdiyi qərarın yerinə yetirilməsində əsas ağırlıq Azərbaycan neft sənayesinin, Bakı neftçilərinin üzərinə düşürdü.

Çox məsuliyyətli məqam, tarixi bir an idi. Cəbhədə Sovet aviasiyasının uğurları bilavasitə Bakı neftçilərinin DMK-nın qərarını necə yerinə yetirməsindən asılı idi.

Azərbaycan K(b)P MK Bürosu, Azərbaycan Xalq Komissarları Soveti yaranmış vəziyyəti nəzərə alaraq xüsusi qərar qəbul etdi. Qərarda bütün maddi-texniki imkanları, mövcud ehtiyatları, elmi potensialı, neft sənayesi kollektivlərinin səfərbər edilməsi ilə Azərbaycan neftçilərinin öhdəsinə düşən vəzifəni şərəflə yerinə yetirəcəyi aydın şəkildə vurğulandı.

DMK 1942-ci ilin ikinci rübü üçün "Azneftkombinat"a 2.304.546 ton yüksək oktanlı neft hasilatı planını verdi.

Azərbaycan Respublikası Xalq Komissarları Soveti və Azərbaycan K(b)P MK isə sözügedən qərarı ilə "Azneftkombinat" trestlərinin gecə-gündüz orta neft hasilatı planını təsdiqlədi.

Beləliklə, DMK-nın müəyyən etdiyi 2.304.546 ton yüksək oktanlı neft çıxarılma planı "Azneftkombinat"ın trestləri arasında bölüşdürüldü.

Yüksək keyfiyyətli neft çıxarmada planın yerinə yetirilməsi məqsədilə "Azneftkombinat"a 1942-ci ilin ikinci rübü üçün 625 quyunun qazılıb istifadəyə verilməsi, işə salınması bir vəzifə olaraq tapşırıldı.

Qərarda trest rəhbərlərinə, baş mühəndislərə, qazma və quyuların əsaslı təmir kontorlarının direktorlarına, Azərbaycan K(b)P rayon komitə katiblərinə tapşırıldı ki, mövcud fondun saxlanması, ilin ikinci rübündə göstərilən saydakı quyuların istismara verilməsini təmin etmək məqsədi ilə 85 qaldırıcı traktorun əsaslı təmiri həyata keçirilsin.

Yüksək oktanlı neft itkisinin qarşısını almaqdan ötrü bir sıra quyularda neftin analizi aparılsın. Yüksək oktanlı nefti digər növ neftlərdən ayırmaq üçünsə fəaliyyətdə olan quyulara baxış keçirilməsi məqsədəuyğun sayılsın.

Qərarda o da xüsusi vurğulandı ki, neftçıxarma və qazma işlərində maddi-texniki tələb və ehtiyaclar daxili ehtiyatlar hesabına ödənilməlidir.

Bu səbəbdən də bir sıra zavodlara öz resursları hesabına müxtəlif avadanlıq, lazımi materiallar, o cümlədən nasos, kanat, laboratoriya, eləcə də maye şüşəsi, rezin və s. istehsalına icazə verildi.

Qərarda həmçinin bir sıra quyuların hermetikləşdirilməsi, bir neçə kompressor stansiyasının təmir olunub istismara verilməsi, yenilərinin tikilməsi də tapşırılırdı.

Neftçilər həm də hərbi işi öyrənirdilər ki, istənilən anda əllərinə silah götürüb Vətənin müdafiəsinə qalxsınlar. Döyüşçü sayıqlığını daha da yüksəltmək, istehsalatda, arxa cəbhədə fərarilərə, tənbəllərə, qorxaqlara, haray-həşir salanlara qarşı amansız mübarizə aparmaq da şərt sayılırdı. Bakını basılmaz qalaya çevirmək də əsas vəzifə idi.

Qafqazın o tayından Hitlerin Bakıya diş qıcadığı bir vaxtda neftçilərimizdə döyüşkənlik, mübarizlik, yüksək vətənpərvərlik ruhunun aşılanması gərəkli mənəvi keyfiyyət idi.

***Bakı neft mədənlərinin dağıdılması məsələsi həm fransız, həm də Britaniya komandanlığının ciddi müzakirə predmeti idi. Kəşfiyyatın çatdırdığı məlumatdan aydın olmuşdu ki, neft mədənlərinin ələ keçirilməsi və sıradan çıxarılması artıq Hitlerin qərargahında işlənib hazırlanmışdı. Bundan başqa, həmin məqsəd üçün Hitlerin xüsusi təxribat bölmələrinin komandiri Otto Skortseninin rəhbərliyi altında qrup yaradılmışdı. Xoşbəxtlikdən, Hitler təxribatının bütün bu planları boşa çıxdı. Bu faktlar professor Çapay Sultanovun İkinci Dünya müharibəsində Bakı neftinin rolu haqqında yazdığı kitablarda ətraflı işıqlandırılmışdır.***

1942-ci ildə, oktyabr qabağı sosializm yarışlarında neftayırma zavodları arasında Andreyev zavodu irəlidə gedirdi. Kollektiv sentyabr ayında öz işində köklü dəyişmələr aparmağa müvəffəq oldu, əsas məhsul istehsalı planını 102% yerinə yetirdi. Belə bir nəticə, həqiqətən də, zavodda sosializm yarışının genişlənməsi, əmək intizamının daha da möhkəmləndirilməsi, fəhlələrin sayında artım normalarının plandan artıq yerinə yetirilməsi hesabına qazanıldı.

Sentyabr ayında DMK-nın Keçici Qırmızı Bayrağını alan Andreyev adına zavodun işçiləri birinciliyi əldə saxlamaq üçün oktyabr ayında da inadla mübarizəyə girişdilər. Zavoddakı işin daha da yaxşılaşdırılmasını təmin edən yeni tədbirlər planı hazırlanıb həyata keçirildi. Kommunistlərin rəhbərlik etdiyi cəbhə briqadaları yaradıldı.

Müharibənin ilk 16 ayı ərzində zavod kollektivi 4 milyon 449 min rubl həcmində dövlət vəsaitinə qənaət etdi.

Bakıdakı neft yataqlarının dağıdılma məsələsi Fransa və Britaniya komandanlıqlarının da apardığı ciddi müzakirələrin predmeti idi.

Kəşfiyyatın verdiyi məlumatlardan bəlli oldu ki, Hitlerin qərargahında Bakının neft mədənlərinin tutulması, sıradan çıxarılma planı artıq işlənib hazırlanıbdır.

Bu məqsədlə, hətta xüsusi təxribatçı bölmənin komandiri Otto Skortseninin rəhbərliyi ilə qrup da yaradılıb.

Xoşbəxtlikdən hitlerçilərin bu təxribat planı da iflasa uğradı.

İkinci Dünya müharibəsi dövründə Bakı neftinin oynadığı həlledici rola, Abşeronun neft yataqları uğrunda beynəlxalq güclərin apardığı gizli-aşkar oyunlara aid belə faktlar barədə professor Çapay Sultanovun kitablarında daha ətraflı bəhs edilir.

Neftçilərin Ümumittifaq sosializm yarışının münsiflər heyəti 1942-ci il avqust ayının nəticələrini müzakirə edib belə qərara gəldi ki, DMK-nın

**Bakının neftayırma zavodları tərəfindən Dövlət Müdafiə Komitəsinin B-78 aviabenzini və aviayağların istehsal edilməsi haqqındakı qərarının yerinə yetirilməsi haqqında**

**2 may 1942-ci il**

Azərbaycan SSR Xalq Komissarları Soveti və K(b)P MK-nın 1942-ci il 7 may tarixli qərarında liqroinlərin, geniş benzin fraksiyalarının təkrar emalının təşkili üzrə müəyyən olunmuş tədbirlərin, Stalin adına, Andreyev adına və b. neftayırma zavodları tərəfindən görülən işlərin nəticəsində apreldə B-78 markalı benzininin istehsalı əhəmiyyətli dərəcədə genişləndi.

DMK-nın qərarına görə Bakının neftayırma zavodları aprel ayında 41.450 ton B-78 aviabenzini istehsal etməliydi. Faktiki olaraq həmin ayda 41.922 ton B-78 benzini istehsal etməklə aylıq plan 101,5% yerinə yetirildi.

B-70 benzini isə planda nəzərdə tutulan 15.000 ton əvəzinə 15.585 ton istehsal edildi.

AR.PII, SSA f 1, op. 192, səh. 83, II.4-6.
əsli

**Azərbaycan K(b) MK-nın "SSRİ Aviasiya sənayesi xalq komissarlığına məxsus müəssisələrin neft məhsulları və xammalla təchizatı barədə" qərarından**

**22 fevral 1943-cü il**

Azərbaycan K(b)P MK katibinə və Azərbaycan XKS sədr müavininə tapşırılsın ki, dərhal Aviasiya Sənayesi Nazirliyinin müəssisələrinə bu və ya digər məmulatlar, xammal və başqa mal-material göndərən komissarlıq, təşkilat ("Başnefttəchizat"ın Azərbaycan şöbəsi, 7 nömrəli zavod, Bakı limanı, Xəzər donanması, dəmir yolu və s.) rəhbərlərinin iclasını çağırsınlar.

İclasda həmin müəssisə və təşkilat rəhbərlərinə bir vəzifə olaraq tapşırılsın ki, DMK-nın 22 fevral 1943-cü il tarixli qərarına uyğun olaraq, neft məhsullarının, xammalın, mal-materialların, eləcə də dəmir və dəniz yolları ilə gedən tranzit yüklərin müəyyən edilmiş müddət ərzində, Aviasiya sənaye komissarlığına məxsus zavodların ünvanına fasiləsiz olaraq göndərilməsini təmin etsinlər.

Həyata keçirilən tədbirlər, bu məsələyə təkliflər barədə arayış mart ayının 3-dən gec olmayaraq Azərbaycan K(b)P MK-ya təqdim edilsin.

AR.PİI, SSA f 1, op. 129, səh. 18, II.55.
əsli

Keçici Qırmızı Bayrağı Andreyev adına zavodun kollektivində saxlanılsın və ona birinci mükafat verilsin. 1942-ci ilin sonuna qədər "Azneftkombinat"ın müəssisələri 14 dəfə DMK-nin Keçici Qırmızı Bayrağını almış oldular.

Zaqafqaziyanın başı üstünə yönəlmiş düşmən təhlükəsi şəraitində Bakı neftçiləri neft hasilatını durmadan artırır, neft məhsullarının emal olunmasını sürətləndirir, cəbhəyə lazımi miqdarda yanacaq göndərirdilər.

Lakin mərdliklə vuruşan Sovet qoşunlarının şiddətli müqavimətinə baxmayaraq, düşmən müəyyən uğurlar qazana bilmişdi. Almanlar bir ara çox vacib iqtisadi rayonları ələ keçirdilər. Bir sıra hərbi dairələrin səfərbərliyi də iflic gününə düşdü. Milyonlarla sovet adamı, çoxlu maddi-mənəvi sərvətlər düşmən əlinə keçdi. Bakının başı üzərində daha ciddi təhlükə yarandı.

Hər vasitə ilə neft hasilatını artırmaqla yanaşı, neft emalı zavodları və neft mədənlərinin düşmən aviasiya hücumuna məruz qalıb, bombardman edilə bilməsini də nəzərə almaq, yanğın təhlükəsizliyini təmin etmək lazım gəlirdi.

Hitlerçilərin paraşütçü təxribatçı-casus qruplarının Azərbaycan ərazisinə, xüsusən də cəbhəni yanacaqla qidalandıran Bakıya tez-tez düşməsi ilə əlaqədar Azərbaycan XKS və Azərbaycan K(b)P MK 1942-ci ilin iyununda "Azərbaycan SSR ərazisində düşmən paraşütçüləri və təxribatçıları ilə mübarizənin gücləndirilməsi haqqında" qərar qəbul etdi.

Məsul şəxslərin bir vəzifə olaraq öhdəsinə qoyuldu ki, "rayon ərazilərində hərbi geyimdə və nabələd görünən bütün insanların şəxsiyyətini müəyyən etmək məqsədilə sənədlərin yoxlanılması ətraflı və diqqətlə aparılmalıdır". Çünki alman kəşfiyyatı paraşütçü-təxribatçıları atanda onlara Qızıl Ordu komandirlərinin formasını geyindirməyi lazım bilir.

Rayon İcraiyyə Komitəsi sədrlərindən, DİXK rayon şöbə rəislərindən tələb edildi ki, təcili sürətdə orduya çağırışdan yayınanlar, ordudan qaçan fərarilər, cinayət-quldur elementləri üzərində nəzarət-müşahidə xidmətinin təşkilini gücləndirsin.

Bu işdə mövcud qırıcı dəstə hissələri ilə yanaşı, Azərbaycan K(b)P MK katibi M.C.Bağırovun göstərişi ilə hər kənd sovetliyində hərtərəfli yoxlanılmış, hünərli, cəsur kənd fəallarından ibarət, öz rayonlarını yaxşı tanıyan, silahla davranmağı bacaran şəxslərin rəhbərlik etdiyi qruplar yaradıldı.

1942-ci ildə İ.Stalinə Hitlerin aşağıdakı sözlərini çatdırdılar:

- "Biz ya Şimali Qafqazın neftini alacağıq, ya da

qələbəni əldən verəcəyik".

***İ.Stalində məlumat vardı. Hitler Bakının işğal olunması üçün konkret plana malikdir.***

1942-ci il iyul ayının 1-də İ.V.Stalin bizim məşhur həmyerlimiz Nikolay Konstantinoviç Baybakovu yanına çağırıb ona demişdi:

- Siz gedirsiniz Qafqaza və yerli neft mədənlərini minalayırsız. Əgər Hitlerə bircə ton da olsa, neft saxlasaz, sizi mən özüm güllələyəcəyəm. Yox, əgər, Hitler gedib Qafqaza çatmasa, siz neft mədənlərini vaxtından əvvəl partlatmış olsaz, onda biz yenə də sizi güllələyəcəyik."

Cavan, otuz yaşını təzəcə adlamış nazir müavini özündə güc, təpər tapıb, asta səslə deyir:

- Yoldaş Stalin, siz mənə heç seçim yolu saxlamırsınız".

Bu epizodu yaxşı xatırlayan N.Baybakov söhbətin davamını belə gətirdi:

- İ.Stalin gəlib yanımda durdu. Əlini astaca qaldırıb ehmalca öz başına vurdu:

- Seçim burdadı, yoldaş Baybakov. Budyonnı ilə uçursuz. Fikirləşin. Məsələni yerində həll edin."

Baybakov mütəxəssisləri yığıb xüsusi üsulla quyuları dağıtmağa başladı. İlk növbədə az məhsul verən quyular partladıldı. Sonra isə alman-faşist hücumlarının genişlənmə tempindən asılı olaraq digər quyulara keçdilər. Axırıncı məqamda, yəni faşistlərin Qroznı və Maykopun neft yataqlarına girhagir vaxtında isə ordakı yaxşı neft verən quyular partladıldı...

N.Baybakovun qrupu təcili olaraq Bakıya yola düşdü. O, bu barədə, demək olar ki, bir söz danışmadı. Ancaq "küləklər şəhərində" də onun qarşısında duran vəzifə eyni idi: düşmənə bir damla belə neft verməmək! Krasnodar, Qroznı... bəli, dəhşətli, ağır və ağrılı...

Ancaq Bakı... burda hər şey o qədər doğma, o qədər əziz idi ki! Buraların qurulması üçün o özü o qədər güc, can qoymuşdu ki! İndisə öz əlləri ilə ...

Bu gün belə çox az adam bilir ki, ölkənin şah neft damarını belə o vaxt - müharibənin ağır günlərində öz əlimizlə kəsməyə hazır imişlər...

M.Slavkina öz kitabında N.Baybakov haqqında yazır:

- Arxiv materialları arasında bizim qəhrəmanın Qroznıdakı, yaxud Krasnodardakı fəaliyyəti ilə bağlı sənədlər axtarırdıq. Axtaran tapar, - deyiblər, Biz də tapdıq. Əlimizə keçən çox mötəbər bir sənəd idi. Dövlət Müdafiə Komitəsinin 14 avqust 1942-ci il tarixli "Bakı neft sənayesi üzrə xüsusi hazırlıq tədbirləri haqqında"kı qərarı. "Tamamilə məxfi" qrifli, yuxarıda isə göy rəngli ştamp: "Məxfilikdən çıxarılıb". Şəxsən İosif Stalin imzalayıb.

- Yaranmış hərbi vəziyyətlə əlaqədar olaraq Dövlət Müdafiə Komitəsi qərara alır:

- SSRİ Daxili İşlər Komissarlığına bir vəzifə olaraq tapşırılsın ki, SSRİ-i Neft Sənayesi Xalq Komissarlığı ilə birlikdə Bakı neft sənayesi obyektlərinin (quyuların, sistemlərin, rezervuarların, müəssisələrin və avadanlıqların) sıradan çıxarılmasına hazırlıq üzrə xüsusi tədbirlər həyata keçirsin.

SSRİ Daxili İşlər Xalq Komissarının müavini yoldaş Merkulov və neft sənayesi xalq komissarının müavini yoldaş Baybakov Bakıya ezam olunsunlar və aşağıdakı tədbirləri həyata keçirsinlər:

a) Hazırlanmış tədbirlərin həyata keçirilməsi üçün hər obyektə üçlükdən – obyektin rəhbəri, partiya təşkilatı rəhbəri və XDİK-nın oper-işçisindən ibarət heyət ayrılsın.

b) Miqdarı əvvəlcədən hesablanmış partlayıcı maddələr lazım gələn vasitələr və alətlərlə birlikdə obyektlərə gətirilsin.

c) Xüsusi tədbirlərin həyata keçirilməsində iştirak etmələri nəzərdə tutulan şəxslərdən hər bir obyektə sutka boyu növbətçilər qoyulsun.

ç) Merkulov və Baybakov yoldaşlar bütün işləri Azərbaycan rəhbərliyi ilə birlikdə aparsınlar.

DMK-nın göstərişinə uyğun olaraq, Zaqafqaziya cəbhəsinin Hərbi Şurası Bakının neft sənayesi obyektlərində həyata keçiriləcək tədbirlərə elə hesabla başlasın ki, həmin tədbirlərin aparılmasına üçlüyün sərəncamında 48 saatdan az olmayaraq vaxt qalsın...

Bunlar ağlasığmaz sətirlərdir, ancaq bunların hamısı reallıq olmuş həqiqətlərdir.





Bu cür şəraitdə cəbhə ilə əlaqələr aravermədən möhkəmlənirdi.

"Orconikidzeneft"in qabaqcıl kollektivlərindən biri 1942-ci ilin avqust, sentyabr, oktyabrında DMK-nın keçici Qırmızı Bayrağını almış 8-ci mədənin neftçiləri Qafqazı müdafiə edən "N" ordusunun döyüşçülərinə, komadirlərinə, komandirlərin siyasi-tərbiyə işləri üzrə müavinlərinə göndərdikləri məktubda yazırdılar:

- Qafqazdakı neft sərvətinin qoruyucuları, bizim əziz keşikçilərimiz! ***Bu gün bakılıların, Sizi lazım gələn nə varsa, hamısı ilə daha yaxşı təmin etməkdən qeyri bir qayğısı yoxdur!***

- Düşmənin neftə doğru gələn yolunu kəsin! - bunu Sovet xalqı sizdən tələb edir.

- Daha çox neft hasil edək! - vətənpərvərlik borcu isə bizə bunu hökm edir!

Ancaq düşmən təslim olmaq fikrində deyildi O, neft-sənaye paytaxtından – Bakını tutmaqdan əlini üzməmişdi.

Belə olduqda DMK yeni, tamamilə məxfi bir qərar qəbul etdi. Öz qərarında DMK elə hesab edirdi ki, Sovet qoşunlarının məcburən geri çəkildiyi halda fəaliyyətdə olan neft quyuları fondu, neft mədən təsərrüfatları, neft emalı zavodlarının partladılmasına hazırlıq işləri aparılmalı, sonra da məhv edilməlidir. Bu məqsədlə 1942-ci ilin avqustunda İttifaq orqanları tərəfindən (neft sənayesi xalq komissarlığı, DİXK) "Bakı neftçıxarma sənayesində xüsusi əməli tədbirlərin aparılması üzrə təlimat" hazırlandı. Təlimata əsasən, trestlərin, mədənlərin hər bir xüsusi qrupu, eləcə də hər bir icraçı briqada qarşısında iki əsas vəzifə qoyulurdu:

1) Əvvəlcədən diqqətlə, hərtərəfli, dəqiq işlənib hazırlanmış ləğvetmə planı əsasında neft sənaye oyektlərinin, ilk növbədə quyuların, sonra da yerdə qalanların müəyyən ardıcıllıqla, ən qısa müddətdə, ən az saydakı iştirakçılarla məhvetmə tədbirlərinin həyata keçirilməsi;

2) Planın yerinə yetirilməsi barədə göstəriş alarkən, istənilən hərbi şəraitdə nəzərdə tutulan obyektlərin sıradan çıxarılması və məhv edilməsinin təsdiq olunmuş plan əsasında 48 saatdan çox olmayan bir müddət ərzində başa çatdırılması.

Bunlara əlavə olaraq, obyektlərin dağıdılmasında ciddi növbəli prinsipin gözlənilməsi də göstərilirdi.

Buraxılan xırdaca bir səhv, ya nöqsan tapşırığın yerinə yetirilməsinə imkan verməz, bu və ya digər obyektlərin sıradan çıxarılmasını mümkünsüz edərdi. İlk növbədə, quyuların, kompressor stansiya və emalatxanaların, bunlara aid avadanlığın məhv edilməsi nəzərdə tutulur:

"Neft sənayesi obyektlərində xüsusi tədbirlərin hazırlanması və aparılması üzrə təlimat" adlı sənəddə deyilir:

- "Lazım gəldiyi halda neft quyularının və digər neft sənayesi obyektlərinin sıradan çıxarılmasını nisbətən qısa müddətdə həyata keçirmək.

Buna uyğun olaraq, bütün quyular 7 qrupa bölünürdü. Bunların hərəsinin öz məhvetmə üsulu vardı.

Azərbaycan K(b)P MK-da partlayıcı maddələrin və buna dair materialların neft rayonlarına, "Azneftkombinat"ın zavodlarına hər cür gətirilmə variantlarına baxıldı. Həmçinin, "Azneftkombinat"ın geoloji-texniki fond materiallarının siyahısı" da tərtib edildi.

Sənədlərdən məlum olur ki, həmin günlərdə feldmarşal Maynşteyn telefonla Hitlerə yalvarır ki, Qafqazdakı alman qoşunlarını onun tabeliyinə keçirsin. O da həmin qoşunla Stalinqrad altında mühasirəyə düşmüş orduya köməklik göstərsin.

Yox, - deyə Fürer cavab verir, - Bakını tutmaq hər şeydən vacibdir. Əgər Qafqaz neftini almasaq, müharibəni uduzmuşuq!"

Sonra Sovet qoşunları Mozdok, Malqobek, Nalçik və başqa şəhərləri geri aldılar. Faşistlər Qafqazdan qovuldu. Hitlerçilərin Qafqaz xalqlarını özlərinə kölə etmək planı tamamilə iflasa uğradı.

Belə ağır günlərdə Uinston Çörçill və İosif Stalin aşağıdakı məzmunda teleqram mübadiləsi apardılar:

Məşhur sərkərdə, Sovet İttifaqı Marşalı Georgi Konstantinoviç Jukov yazır:

"Bu, ölüm saçan, təhlükəli, ağır sınaqlarla dolu günlərdə Qafqaz xalqları qorxub çəkinmədi, sovet

**8 noyabr 1942-ci ildə alınıb**

**U.Çörçil İ.Stalinə:**

**-Heç şübhəsiz, Sizə məlumdur ki, Hitler Bakını almağa ümidini itirən zaman, çalışacaq ki, hava hücumları vasitəsi ilə oranı dağıtsın. Xahiş edirəm mənim məlumatıma inanın!**

**İ.Stalinin baş nazir U.Çörçilə şəxsi məktubu: "Bizi Liviyadakı müvəffəqiyyətləriniz və "Məşəl" əməliyyatının uğurlu başlanğıcı çox fərəhləndirir. Tam uğur arzulayıram! Bakıya aid xəbərdarlığa görə isə təşəkkür edirəm. Tərəfimizdən dəf etmə tədbirləri görülür".**

**9 noyabr 1942-ci il**

xalqları ailəsinin gücünə, qüdrətinə olan inamlarını itirmədilər. Hitlerçilərin, Qafqaz xalqlarının alman-faşist qoşunları gələn kimi Sovet İttifaqından üz döndərəcəklərinə bəslədiyi ümidlər çat verib parça-parça oldu".

Sovet kəşfiyyatının verdiyi məlumata görə, Almaniya ilin axırınadək Qafqazı almağa cəhd göstərəcəkdi. Almanların Rostov istiqamətində 3 tank, 3 motorlu diviziyaları vardı. Bunları da cəbhənin digər sahələrindən çəkib gətirmişdilər. Məqsəd burdakı gücləri tez bir zamanda möhkəmləndirmək, bu istiqamətə yönəltmək idi.

Rostovdan cənubdakı ərazilər tankların hərəkəti üçün ideal şəraitə malik idi. Sürətlə irəliləyən ordu asanlıqla yerli resurslar hesabına özünü ərzaq və yanacaqla təmin edə bilərdi.

Almanlar Qafqaza o halda yetişə bilərdi ki, sovetlərin cənub cəbhəsi dağılaydı. Əgər onlara hər hansı müqavimət göstərilsəydi, hansı ki, bu da yanvardan tez baş verə bilməzdi - ən ciddi çətinliklər ola bilsin o vaxt başlayacaqdı...

Onda Bakı üzərinə hərəkəti dağlar və Xəzər dənizi ilə məhdudlaşdırmaq lazım gələcəkdi. Burda da qarşıya çıxacaq hər hansı müqavimət düşmən hücumunun aylarla ləngiməsinə səbəb olacaqdı. Almanların birbaşa hücumla mövqelərini dağlarda möhkəmlətmələri isə yaza qədər mümkün olan iş deyildi. Qafqaz uğrunda gedən döyüşlərin qızğın çağında müttəfiqlərin köməyə gələcəyi barədəki ümidlərin də boş xülya olduğu üzə çıxdı.

Uinston Çörçill qərargah rəislərinə aşağıdakı məzmunda yaddaş qeydləri göndərmişdi:

- İranda və İraqdakı Britaniya diviziyaları Qafqaza göndərilə biləcək halda deyil. "Kruseyder" əməliyyatının təxirə salınması bizim əl-ayağımızı bağladı. Hansısa konstruktiv plan cızmağa da imkan olmadı. Mən heç bir əsas görmürəm ki, almanların Bakını zəbt etməsinin qarşısı alınacağını, ya da rusların, guya, öz neft mədənlərini dağıdacaqlarını təsdiqləyəm.

Qafqazın müdafiəsində yalnız onu edə bilərik ki, Şimali İranda ağır döyüş təyyarələrindən ibarət 4-5 eskadrilya yerləşdirək. Bununla da Qafqazın müdafiəsində ruslara kömək edək. Əlbəttə, əgər bu da mümkün olsa. Ən pis halda isə biz Bakı neft mədənlərinin bombardman edilməsini həyata keçirərdik. Daha doğrusu, həmin rayonu yandırmağa çalışardıq.

1942-ci il, payızın axırına yaxın düşmənin Qafqaz üzərinə hücumu dayandırıldı. Vermaxtın qoşun birləşmələri Qafqaz dağlarını aşıb neft yataqlarını tutmaq gücündə olmadı. Almaniya neft uğrunda gedən böyük müharibənin ən həlledici mərhələsini uduzdu. Bu strateji məğlubiyyət idi. Məğlubiyyətin nəticələri isə tez bir zamanda özünü büruzə verdi.

Müharibə vaxtı neft mədənlərində, zavodlarda, Bakının küçələrində belə bir şüara tez-tez rast gələrdin:

"Bakılı, yadda saxla, neft hər yerdə lazımdır. Quruda, havada və suda!"

Bu şüar Azərbaycan neftçilərinin zəhmətkeş qəyəsini özündə əks etdirirdi. Əgər "Azneftkombinat" müharibəyə qədər hər il yüz minlərlə metr müxtəlif növ borular alırdısa, müharibə dövründə mədənlərin çoxuna aylarla bir metr də olsun boru gətirilmirdi. Bu sahədəki tələbat fəaliyyətdən qalmış boru kəmərlərinin təkcə işləməyən deyil, hətta işlək quyulardan da "bəndolma" boruların kəsilib, sökülməsi hesabına ödənirdi. İşlənmiş, yararsız borular "əkmə" borular kimi istifadə olunurdu.

Bu işləri qazma kontorlarında xüsusi olaraq kəsici briqadalar görürdü.

Azərbaycan neftçiləri 1942-ci ildə cəbhəni və ölkəni yanacaqla təmin etmək işində misli görünməmiş çətinliklərlə üzləşdilər.

1942-ci ildə neft uğrunda gedən müharibəni həddən artıq çətinləşdirən səbəblərdən biri də qazma işlərinin qəflətən, tamamilə dayandırılması oldu.

Hələ 1941-ci ildə Azərbaycanın bir sıra iri qazma müəssisələri Şərq rayonlarındakı neft yataqlarına, "İkinci Bakıya" göndərilmişdi. Bu müəssisələr bütün avadanlıq ilə çox böyük sayda qazma dəzgahları, alət kompleksləri, o cümlədən də, demək olar ki, sərəncamdakı mövcud səyyar qazma aqreqatları ilə birlikdə Şərqə daşınmışdı. Bu da Bakı bölgəsində qazma işlərinin tamamilə yığışdırılmasına gətirib çıxardı. Belə ki, artıq 1942-ci ilin sentyabrında "Azneftkombinat" qazma işlərini dayandırmaq barədə sərəncam verdi.

Bu sərəncama əsasən, 1942-ci ilin axırında qazma trestlərinin bütün avadanlığı, həmçinin boru bazaları, geoloji-axtarış, kəşfiyyat kontorları, kanat fabriki, "Nefttikinti" tresti mövcud kadrları, işçi qüvvəsi ilə birgə Bakıdan Şərqə göndərildi. Bakıdan şərq rayonlarına 17,6 min sayda dərinlik nasosu aparıldı.

Neftçilər neft hasilatının səviyyəsini saxlamağı, onu artırmağı, başlıca olaraq, dayanmış quyuların yenidən işə salınması hesabına bacardılar. 1943-cü ildə yenidən işə salınan quyuların sayı 1942-ci ildəkinə nisbətdə 123,1% təşkil edirdi.

1943-cü ildə Azərbaycan neft sənayesi kollektivləri 99 dəfə Ümumittifaq Sosializm yarışında qalib çıxdı, 26 dəfə DMK-nın Keçici Qırmızı Bayrağını və 29 dəfə birinci pul mükafatını aldılar.

Neft hasilatı, neft məhsulları istehsalı üzrə hökumətin tapşırıqlarını yerinə yetirən Azərbaycan neftçiləri, 1944-cü ilin yanvar ayında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanına əsasən, SSRİ-nin orden və medalları ilə təltif olundu (502 nəfər).

Ancaq müharibənin axırına yaxın neft istehsalında vəziyyət ağırlaşmış oldu. Buna səbəb işlədilən avadanlığın həddən artıq köhnəlməsi, təzələrininsə çox az, məhdud sayda gətirilməsiydi. Belə bir şəraitdə yalnız neftçilərin səyi, fədakar əməyi sayəsində son dərəcə köhnəlmiş texnikanı işlək vəziyyətə gətirmək, ona yaxşı baxmaqla həmin texnikadan maksimum istifadə etmək mümkün olurdu.

Bütün bu çətinliklərə baxmayaraq, neftçilər daima öz fəaliyyətlərini genişləndirməkdə idilər. Cəbhə fasiləsiz olaraq yanacaqla təmin olunmalıydı. Hərbi vəziyyət respublika rəhbərliyinə bir anlıq da olsa, kresloda əyləşib asudə nəfəs almağa imkan

**Nuri Məcid oğlu Əliyev** - 1920-ci il aprel ayının 2-də anadan olub. Müharibə dövrü "İL-2" hücumçu təyyarələrdə uçub.

Adı SSRİ-nin birinci dərəcəli təyyarəçiləri sırasında olan Nuri Əliyevə "Əməkdar pilot" fəxri adı verilmişdi. Nuri Məcid oğlu Əliyev 1959-cu ildən 1981-ci ilədək Azərbaycan SSR Mülki Aviasiya İdarəsinə rəhbərlik edib və daima havada olan, fəaliyyət göstərən pilot olub.

Nuri Əliyev - cəbhəçi-döyüşçü, qırıcı təyyarəçi, orden və medallara layiq görülmüş insan...



vermirdi. Yalnız özünə, öz gücünə güvənmək lazım gəlirdi.

Azərbaycan K(b)P MK-nın 22 iyun 1944-cü il tarixində keçirilən büro iclasında müzakirə edilən DMK-nin 2 iyun 1944-cü ildə qəbul etdiyi, 59881s nömrəli, "Kəşfiyyat işlərinin gücləndirilməsi və "Azneftkombinat"da dayanmış quyuların istismara buraxılması haqqında"kı qərarından irəli gələn vəzifələri yerinə yetirmək bu baxımdan çox səciyyəvidir.

İllər uzunu elə sanırdıq ki, İ.Stalinə birbaşa tabe olan qurumlarda nümunəvi nizam-intizam, yüksək icraçılıq hökm sürür. Ancaq heç də belə deyilmiş!

Mircəfər Bağırovun acı təəssüf dolu sözləri də bunu sübut edir. Onun çıxışından bəzi məqamları nəzərinizə çatdırırıq:

- "Əgər biz oturub neft komissarlığındakı Dadayan, Yevseyenko və Sedin kimilərinə ümid edib gözləsək ki, onlar bizə nə isə göndərəcək, onda bizə heç nə verən deyillər.

Teleqram vurmaqla bizə ayırılmış fondları almaq fikrindəydik. İndi elə vəziyyət yaranıb ki, hər şeyi yoldaca qapırlar.

Siz mayın 11-də neft üzrə qazma avadanlıqlarının təmiri, çox debitli quyular və his zavodu üzrə üç qərar aldınız. Bu günlərdə müəyyən tapşırıqların yerinə yetirilməsini bir sıra komissarlıqların və təşkilatların öhdəsinə qoyan neçə-neçə yeni qərarlar imzalandı.

Bugünkü reallıq budur ki, kim özünü tez çatdırsa, o da birinci təmin olunur?!... Mən onun tərəfdarıyam ki, Moskvada bizim adamlarımız olsun. Lazım olan kimi onları Qorki şəhərinə və ya hansısa başqa bir şəhərə göndərək. Bizə ayırılan fondlara ancaq bu yolla yiyə durmaq olar.

Beləliklə, Bağırov və Beriya məmur maneələrindən yan keçmək üçün birbaşa əlaqə qurur: Bağırov o günləri belə xatırlayır "Beriya bildirdi ki, bizim özümüzün edə bildiklərimizi heç bir komissiya bacarmaz". Bununla belə Mkrtçyanın rəhbərliyi ilə Bakıya komissiya göndərildi. Yoldaş Beriya mənə dedi ki, Neft Komitəsindən kiminsə bizə gəlməyini məsləhət bilmir. Çünki bakılılar bu işi özləri daha yaxşı bilir, hamıdan yaxşı bacarır. Yoldaş Beriya hətta buna düzəliş edərək dərkənar qoydu:

- "Razılaşdığımız kimi yoldaşları göndərin".



*Neft dolu qatar cəbhəyə göndərilməyə hazırdır*





Mərkəzdəki məmurlarla bakılılar arasında növbəti qarşıdurma DMK-nın iclasında baş verdi. Həmin iclasda Beriya bakılıların hesabatına yüksək qiymət verdi.

Moskvalılar neft hasilatı məsələsini belə başa düşürdülər:

- Madam ki, quyu qazılıb, deməli o, həmişə neft verməlidir. Hasilatın aşağı düşməsi sabotajın nəticəsidir. Bu zaman quyu debitinin aşağı düşmə mümkünlüyü heç hesaba da alınmır.

Bu məsələdə də L.Beriya bakılıların tərəfini saxladı və növbəti iki il üçün neft hasilatı planını təsdiqlədi.

Bundan ürəklənən bakılılar yeni layihə təqdim etdilər. Layihəyə görə:

- Müəyyən edilmiş plandan çıxış edərək, Azərbaycan neft sənayesinin inkişafı üçün yaxın iki il ərzində işçi qüvvəsinin sayını əhəmiyyətli dərəcədə artırmaq lazım gələcək. İşçi qüvvəsinə əlavə tələbat 1944-cü ildə 42 min nəfər, 1945-ci ildə isə 19 min nəfər, o cümlədən, mühəndis-texniki işçilərə illərə uyğun olaraq 4000 nəfər və 1750 nəfərdir.

Kadrlara olan tələbatı ödəmək üçün Azərbaycandakı sənət məktəblərinin, o cümlədən fabrik-zavod peşə təhsili məktəblərinin 1944-cü il buraxılışı, yəni 10 min nəfər tam heyətdə "Azneftkombinat"a işə götürülsün. Əvvəllər Şərq rayonlarına göndərilmiş 7000 nəfər neftçi təzədən Bakıya qaytarılsın. Qızıl Ordu sıralarında döyüşən 15.000 nəfər ixtisaslı neftçi ehtiyata buraxılsın. Başqa diyar və vilayətlərin texniki-peşə, fabrik-zavod peşə təhsili məktəblərini bitirənlərin sırasından 10.000 nəfər gənc fəhləni "Azneftkombinat"a işə göndərmək məqsədəuyğundur.

Göstərilən bütün tədbirlərin görülməsi sayəsində 1944-cü ildə 12,9 milyon ton, 1945-ci ildə isə 15,8 milyon ton həcmindəki neft hasilatı təmin olunacaq. Ən vacibi isə odur ki, bununla Azərbaycan neft sənayesinin bütünlüklə inkişafı üçün real zəmin, münbit şərait yaranardı.

Azərbaycan K(b)P MK Partiya və təsərrüfat fəallarının Büro iclasında qeyd olundu ki, Vətən hər gün döyüş meydanlarında minlərlə gənc döyüşçü itirir, ya da onlar şikəst olur.

Belə bir şəraitdə 15 min nəfərin mədənlərdə işə səfərbər olunması hər bir fəhləyə və onun əməyinə qayğı ilə yanaşmağa, kadr potensialını gələcək üçün tərbiyə etməyə, onun sağlamlığına, mədəni istirahətinə diqqət göstərməyə məcbur edir.

M.C.Bağırov partiya fəallarının razılığı ilə bütün Azərbaycan qarşısında duran əsas vəzifəni belə ifadə etdi:

Biz ölkəmizi darda qoya bilmədiyimiz kimi, xalq təsərrüfatını da çətin vəziyyətə sala bilmərik. Bu gün cəbhə də bunu yerinə yetirməli, bu cür fikirləşməlidir. Bütün bunlarla yanaşı, bizim də yalnız özümüzə xas, ancaq bizə məxsus mənəvi maraqlarımız var. Əgər belə demək mümkünsə, təəssübkeşliyin, respublika vətənpərvərliyinin bir məqamı da mövcuddur. SSRİ neft təsərrüfatı sistemində Bakının qabaqcıl yer tutmasına dəyərmi, yaxud da buna lüzum görmürük?

Əgər sonralar geniş neft-qazma işlərində sənin perspektivin olmayacaqsa, bu gün o, təbii ki, səndə yoxdur, onda sən yüksək zirvədən yavaş-yavaş enəcəksən. Belə getsə o yeri tədricən itirə bilərik. Mən Bakını, Azərbaycanı başqa cür təsəvvür edə bilmirəm. Bakının əvvəlki kimi öncül yer tutacağını düşünə bilmirəm. Bu haqda heç fikirləşmək də istəmirəm. Hətta bu fikir ağlıma da gəlmir. Xüsusən də, heç bir bakılı neftçinin təsəvvürünə də gəlməz ki, neft Bakısı dünyadakı mövqeyini əldən verib geri çəkilə bilər.

Mən Sovet İttifaqının bütün bölgələrində çoxlu, lap çoxlu neft yataqlarının açılmasının tərəfdarıyam. Bunun sayəsində də müharibədən sonrakı on-on beş il ərzində biz neft hasilatını amerikalıların səviyyəsinə, yəni 200 milyon tona çatdıra bilərik.

Əgər Amerika qədər neft çıxara bilməsək də, hər halda ona bərabər olmaq lazımdır. Ancaq bir fikrin də qəti tərəfdarıyam ki, Bakı Sovet İttifaqında birinci yeri tutsun".

Həqiqətən də, bu tarixi vəzifənin yerinə yetirilməsi üçün əmək ehtiyatlarının axtarılmasına başlandı.

Aparılan təhlillər göstərdi ki, Respublika Hərbi Komissarlığının uçotunda dayanan heyət, 1926-cı ildə doğulmuş çağırışçılar nəzərə alınmazsa, 84.912 nəfərdir.

Onlardan bir çoxu Qızıl Orduya xidmət göstərən toxuculuq, yüngül, yeyinti, balıq, konserv, yerli sənaye müəssisələrində çalışanlardır. Kənd ziyalılarını təmsil edənlər, kənd təsərrüfatının müxtəlif sahələrində çalışan aqronomlar, zootexniklər, məktəb müəllimləri və s. mütəxəssislər də bu qəbildən idi.

Respublikadakı mövcud insan resurslarının keyfiyyətinə aid məlumatlar göstərirdi ki, ağır işlərə yalnız 15.000 nəfər yararlıdır. Bu zaman respublikalardan, Dağıstandan həmin şəraitdə çalışa biləcək 10 min nəfər insanın səfərbər olunma zərurəti ortaya çıxdı. Bu miqdarda işçi qüvvəsinin yerləşdirilməsi üçün 125 min kv.m həcmində yaşayış sahəsi lazım idi.

Həmin dövrdə "Azneftkombinat"ın 8.000 nəfəri lazımi şəraitlə təmin etmək imkanı vardı. Mənzilləri köçürülmüş əhalini yerləşdirmək məqsədi ilə kifayət qədər sıxlaşdırmaq, eləcə də yaşayış binalarının inşasını sürətləndirmək yolu ilə maksimum 2000 nəfərə də şərait yaratmaq mümkün idi.

Adambaşına düşən mənzil sahəsi, orta hesabla 4,7 kv. metr idi. İttifaqda isə bir adama düşən mənzil payı 9 kv.m kimi qəbul olunmuşdu. Müharibə dövründə həmin norma müvəqqəti olaraq 7 kv.m-ə qədər endirildi.

Bütün bunlar respublika rəhbərliyi qarşısında yaşayış binalarını, yataqxana tikintisini təcili olaraq sürətləndirmək məsələsini qoydu. Xüsusən də, neft kəşfiyyatı ərazilərində qəsəbələrin inşası öz aktuallığı ilə günün tələbinə çevrildi.

1944-cü ilin 26 iyunundan sentyabrın 10-dək Azərbaycan rayonlarından Bakıya 14.995 nəfər gətirildi. Onlar "Azneftkombinat"ın müəssisələrində çalışacaqdılar. Tibbi-həkim komissiyasından keçəndən sonra onlar əvvəlcədən hazırlanmış bölüşdürmə siyahısına görə trestlərdə işə götürüldülər. Daha çox heyət qazma işlərinə, mədənlərə, tikintiyə göndərildi.

İlk gündən başlayaraq trestlər tərəfindən gənc kadrların daxil olma sayından asılı olaraq, fərdi təlim və xüsusi kurslar şəbəkəsi vasitəsi ilə onların texniki-istehsalat hazırlığı istiqamətində tədbirlər görüldü.

1944-cü il sentyabr ayının 1-də 7270 nəfər təhsilə cəlb edildi ki, bunlardan da 1419 nəfəri istehsalatdan ayrılmaqla, 5851 nəfəri isə fərdi təhkim olunma yolu ilə təhsil alacaqdı.

Tezliklə kadr hazırlığında görülən işlərin ilkin nəticələri özünü göstərdi. Yeni kadrlar uğurla neftçi peşəsinin sirlərinə yiyələndilər. Onlardan bir çoxunun əməkhaqqı daha təcrübəli neftçi kadrların əməkhaqqına yaxınlaşırdı.

Kənd yerlərində böyümüş kadrların işə gəlişi onlara uyğun iş və məişət şəraitinin yaradılmasını tələb edirdi. Gənc fəhlələr yataqxanalarda yataq dəstləri, pal-paltar, xüsusi geyimlər, ayaqqabılarla, gündə üç dəfə qüvvətli yeməklərlə, xüsusən də Şərq mətbəxinin xörəkləri ilə təmin olunurdu.

Yeməklərin gündəlik qiyməti 5 manatdan 10 manata qədər idi. Fəhlələrin payına 700 qramdan 1 kq-a qədər çörək norması düşürdü. Onların mədəni istirahətinə də xüsusi diqqət yetirilirdi.

"Motorların müharibəsi" adlandırılan İkinci Dünya müharibəsində yanacağın oynadığı rola, kəsb etdiyi əhəmiyyətin üstünə qayıdıb yenidən bir də qiymət vermək çox çətindir.

Bu baxımdan üçüncü reyxin hərbi sənaye naziri Albert Şpeerin 1945-ci ilin may ayında dindirildiyi zaman verdiyi ifadələr olduqca maraqlıdır. Şpeer öz ifadəsində aşağıdakı cümləni işlətdi:

- "Rusiya üzərinə hücum qərarının qəbul edilməsində əsas motiv neftə olan tələbat idi".

Albert Şpeer reyxin İtaliyada əməliyyat aparan 10-cu ordusunun qalıqlarına gecə baxışlarının birində Hitler Almaniyasının iflasının əsas səbəblərdən birini olduqca aydın göstərən tragikomik səhnəni müşahidə etmişdi. Belə ki, Vermaxt ordusunun 150 ədəd yük maşınını onlara qoşulmuş öküzlər dartıb aparırdı. Yanacaq tükənmişdi.





# Azərbaycanın müdafiə əhəmiyyəti kəsb edən neft məhsulları istehsalının artımına töhfələr bəxş edən, onu zənginləşdirən görkəmli kimyaçı alimləri



## MƏMMƏDƏLİYEV YUSİF HEYDƏR OĞLU (1905-1961)

Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində dünyaya göz açıb. O, 1923-cü ildə Bakı Ali Pedaqoji İnstitutuna daxil olur. Yusif Məmmədəliyev 1929-cu ildə Moskva Dövlət Universitetinin kimya fakültəsinin ikinci kursunda təhsilini davam etdirir, 1932-ci ildə həmin fakültəni bitirir. Y.Məmmədəliyev tanınmış akademiklər Nikolay Dmitriyeviç Zelinskinin, Aleksey Aleksandroviç Balandinin tələbəsi idi. O, MDU kimya fakültəsi üzvi kimya kafedrasının üzvi kataliz laboratoriyasının ilk məzunlarından sayılır.

1934-cü ildən başlayaraq Yusif Məmmədəliyev S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində ardıcıl olaraq dosent, professor, kafedra müdiri, rektor (1954-1958-ci illər) vəzifələrində çalışaraq nümunəvi pedaqoji fəaliyyət göstərmişdir.

Onu deyək ki, 1933-cü ildə Yusif Məmmədəliyevə dissertasiya müdafiə etmədən elmlər namizədi alimlik dərəcəsi verilmişdi. 1942-ci ildə kimya elmləri doktoru elmi dərəcəsini alan alim, 1943-cü ildə artıq professor titulunu qazanır. 1945-ci ildən də Azərbaycan SSR Elmlər Akademiyasının, (yarandığı ilk gündən) həqiqi üzvü, yəni akademiki seçilir. Azərbaycan SSRİ EA Neft İnstitutunun direktoru olur.

1946-cı ildə SSRİ Neft Sənayesi Nazirliyində işə dəvət olunur. Həmin nazirlikdə Elmi-texniki Şura sədrliyinə irəli çəkilir.

Akademik Yusif Məmmədəliyev 1947-1951-ci, eləcə 1958-1961-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Prezidenti olur.

Onun təşəbbüsü ilə Bakıda Neftkimya Prosesləri İnstitutu yaradılır. 1958-ci ildə Yusif Məmmədəliyev SSRİ Elmlər Akademiyasının müxbir üzvü seçilir. Bir çox ali dövlət və hökumət mükafatlarına layiq görülən Y.Məmmədəliyev müharibə illərində cəbhənin ən vacib neft məhsulları ilə təmin olunması üçün kəşfinə və fəal olan əməli işinə görə "Lenin" ordeni ilə təltif olmuşdur.





# İSMAYILOV RÜSTƏM HACIƏLİ OĞLU (1909-1972)

Bakıda anadan olub. 1928-ci ildə orta məktəbi bitirəndən sonra neft mədənlərində fəhlə işləyib. 1933-cü ildə Azərbaycan Neft İnstitutunun neft-texnika fakültəsini bitirən gənc mühəndis hələ 3-cü kursda ikən növbətçi mühəndis, qurğu briqadiri işlədiyi "Bakıneftqaz" zavodunda əməksevərliyinə görə sex rəisi təyin olunur. Az sonra isə o, yüksək peşəkarlıq savadına görə zavodun direktoru vəzifəsinəcən irəli çəkilir. 1941-ci ildə Sov.İKP sıralarına daxil olur. R.H.İsmayılov 1965-1967-ci illərdə Azərbaycan Respublikasının neft emalı və neft kimya sənayesi naziri işləyir. 1967-1970-ci illər arasında Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti vəzifəsində çalışır.

1961-ci ildən texnika elmləri doktoru elmi dərəcəsini qazanandan sonra professor adını alan R.İsmayılov 1962-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, akademik olub.

2, 3, 6 və 7-ci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı, Sov.İKP XXIII qurultayına nümayəndə seçilib.

Akademik Rüstəm İsmayılovun elmi yaradıcılığının əsasını neft emalı texnologiyasına, neft-kimya sahəsinə aid elmi araşdırmalar təşkil edir. Rüstəm İsmayılovun bir alim kimi respublikamızın neft emalı sənayesində termik krekinq texnologiyasının təkmilləşməsində böyük xidmətləri vardır. O, respublikada neft-kimya sənayesi proseslərinin, o cümlədən Sumqayıt sənaye bölgəsində kimya sənayesinin inkişaf etdirilmə təşəbbüskarlarından biridir.

R.İsmayılovun birbaşa rəhbərliyi altında Bakı termik krekinq qurğularının yenidən qurulması, aşağı oktanlı benzin-liqron fraksiyalarının ətirlənmə tədqiqi, xam neft pirolizinin təkmilləşməsi üzrə çox vacib, gərəkli elmi işlər aparmışdır.

Respublikada neft-kimya sənayesinin inkişafı üzrə karbohidrogen-xammal bazasının yaradılması Rüstəm İsmayılovun adı ilə bağlıdır. Akademik Rüstəm İsmayılov 120 elmi əsərin, o cümlədən 7 monoqrafiyanın müəllifidir.

1948-ci ildə ona Sosialist Əməyi Qəhrəmanı adı verilmiş, Beş dəfə "Lenin", "Şərəf nişanı" ordenlərinə və bir sıra medallara layiq görülmüşdür. O, 1948-ci ildə Stalin adına Dövlət Mükafatını, 1964-cü ildə isə Azərbaycan SSR-in "Əməkdar elm xadimi" fəxri adını almışdır.







# QULİYEV ƏLİ MUSA OĞLU (1912-1989)

Gəncə şəhərində kasıb kəndli ailəsində anadan olmuşdur. 1927-ci ildə orta təhsilini başa vurub Bakıya gəlir, Pedaqoji texnikumda təhsil alır. 1931-ci ildə texnikumu bitirib Qasım İsmayılov (indiki Goranboy) rayonuna qayıdıb, orta məktəbdə müəllim işləyir. 1939-cu ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirir.

Universitetdə təhsil almaqla yanaşı, o, Azərbaycan Elmi-Tədqiqat Neft Sənayesi İnstitutunda əmək fəaliyyətinə başlayır.

Müharibədən əvvəl Azərbaycan alimlərinin qarşısında duran ən vacib məsələ ölkənin yüksək keyfiyyətli yanacaq və sürtkü yağları ilə təminatı idi. Müharibənin ilk illərində tələbat xüsusilə artdı.

Alman-faşist qoşunları sürətlə ölkənin içərilərinə - Moskva, Stalinqrad və Zaqafqaziya üzərinə yeriyirdi. Bəzi neft rayonları artıq işğal altındaydı. Belə vaxtda ölkədə demək olar ki, bütün neft məhsullarına olan tələbatın 80 faizini Bakı ödəyirdi.

Əli Quliyev 1940-1941-ci illərdə Az.ETNİ-nin 1233 nömrəli obyektində rəis, 1941-1945-ci illərdə isə həmin institutun böyük mühəndisi vəzifəsində işləyirdi.

Yeni tip döyüş təyyarələrinin böyük sürət yığması üçün yüksək oktanlı benzin istehsal etmək vacib idi. Ölkədə yaranmış bu ağır şəraitdə Əli Quliyev və onun əməkdaşlarının gərgin əməyi sayəsində sulfat turşusunun katalitik, propilenin isə qarşılıqlı təsiri nəticəsində benzolun alınması üçün təcrübə aparıldı və həmin problem öz uğurlu həllini tapdı.

Ən qısa müddətdə alkilləşdirmə qurğusu tikilib istifadəyə verildi. Bunun sayəsində də ağır müharibə illərində cəbhəni yüksək keyfiyyətli benzinlə təmin etmək mümkün oldu. Bu məsələ ilə yanaşı, ordunun təminatı üçün partladıcı, yandırıcı, zərərverici maddələrin, əl qumbaralarının, dava-dərmanın, yuyucu vasitələrin, quru benzinin alınması və istehsalı tələb olunurdu.

Əli Quliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə tank əleyhinə yandırıcı butulkalar üçün ampulanın tərkibi işlənib hazırlandı və uğurla sınaqdan keçirildi. Yuxarıda adıçəkilən vasitələrin hazırlanmasında neft, kerosin və benzin kimi tezalışan məhsullardan istifadə olunurdu. Yandırıcı maddə kimi xlorlu-xromil adlı yeni kimyəvi birləşmə də alındı. Tank əleyhinə yandırıcı ampula sınaqlarından biri aparılan zaman Əli Quliyev ağır yaralanır, nəticədə sağ əlini itirir.

Əli Quliyev tərəfindən yeni katalitik proses işlənib hazırlanmış, onun birbaşa iştirakı ilə neftdən yüksək oktanlı aviasiya benzini üçün komponent - alkilbenzol məhsulu alınaraq, istehsala buraxılmışdır.





## NAĞIYEV MURTUZA FƏTULLA OĞLU (1908-1975)

Murtuza Nağıyevin elmi-tədqiqat işlərinin başlanğıcı tələbəlik illərinə təsadüf edir. 1933-cü ildə "Azneft" Birliyinin və neftçilərin Həmkarlar İttifaqı Komitəsinin orqanı "Neft texnikası uğrunda" qəzetində dərc olunan "Ölkəyə antidetonasiya keyfiyyətlərinə malik benzin lazımdır" adlı məqaləsində müəllif təklif edirdi ki, benzin daha sərfəli üsulla - onun işləyib hazırladığı yolla alınsın.

Murtuza Nağıyevin bu kəşfi 1934-cü ildə müəlliflik hüququ aldı. O, 1940-cı ildə "Krekinqin təkrar dövr etdirilməsi zamanı benzin alınmanın tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edir. 1941-ci ildə alimin "Krekinq texnologiyaları və aparatların hesabı" adlı monoqrafiyası çap olunur.

Murtuza Nağıyev Yusif Məmmədəliyevlə kimyəvi texnologiyaların müxtəlif proseslərinə aid geniş tədqiqat aparır ki, bu da"Kimyanın müasir vəziyyəti və aviasiya yanacağı texnologiyaları" adlı kitabında (1943-cü ildə işıq üzü görüb) öz əksini tapır.

Murtuza Nağıyev 1944-cü ildə "Krekinq prosesi kinetikası və texnologiyalarında əsas məsələlərin tədqiqi" mövzusunda doktorluq işini müdafiə edib texnika elmləri doktoru, 1945-ci ildə isə professor dərəcəsini alır.

Murtuza Nağıyev kimyəvi proseslərin bütün tərəflərini əhatə edən, kimyəvi reaksiyaların sürəti və mexanizmləri, onların termodinamik cəhətləri, proseslərin minimal xərclə daha əlverişli tətbiqi üçün optimal şərait, riyazi modelləşdirmə və optimallaşdırma problemləri, kimyəvi reaktorların işində dayanıqlığın tədqiqi, istilik və kütlə ötürmə kimi çoxsaylı məsələlərə aid ardıcıl tədqiqat apararaq bunların öyrənilməsi sahəsində geniş fəaliyyət göstərib. Onun gərgin faydalı fəaliyyəti, gələcək nəsillərə əmanət qalan bütün bu tədqiqatları zəngin elmi irsin ən dəyərli nümunələrindən sayılan əsərlərində qorunub saxlanmaqda, istinad edilməkdə və hələ də öyrənilməkdədir.








## ORUCOVA İZZƏT MİRZƏAĞA QIZI (1909-1983)



Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, kimyaçı alim, akademik, ilk azərbaycanlı qadın kinoaktrisası İzzət Orucova çox gənc ikən Azərbaycan sovet dramaturgiyasının banisi, ölməz sənətkarımız Cəfər Cabbarlının eyniadlı əsərləri əsasında çəkilmiş "Sevil" və "Almaz" filmlərində baş rolları oynamışdı. Ancaq o, öz həyatını sənətə, kinoya deyil, elmə bağladı.

Akademik İzzət Orucova 1932-ci ildən 1959-cu ilə kimi B.Kuybışev adına Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutunda, sonralar isə Azərbaycan SSR Elmlər Akademiyasının Elmi-Tədqiqat Kimya Prosesləri İnstitutunda adi laborantlıqdan böyük elmi işçiyə kimi bir yol keçmiş oldu.

İzzət xanım Böyük Vətən müharibəsi illərində müdafiə əhəmiyyətli bir sıra praktiki tapşırıqların yerinə yetirilməsi ilə yaxından məşğul olmuşdur. O, SSRİ miqyasında neft-texnologiyası sahəsində ilk qadın elmlər doktorudur. İzzət Orucova 1967-1971-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası Elmi-Tədqiqat Qeyri-Üzvi və Fiziki-Kimya İnstitutunun direktoru vəzifəsində çalışıb.



*Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov SSRİ hökumətinin ali mükafatını akademik İzzət Orucovaya təqdim edir*

*Müharibə illərində Bakının neft mədənlərindəki açıq yerüstü anbarlarda yığılıb qalan neft və neft məhsullarının kəskin surətdə çoxalması belə anbarlara olan tələbatı da artırırdı. 1942-ci ildə cari neft hasilatı, eləcə də həmin ildə neft məhsullarının su yolu ilə daşınması müddəti nəzərə alınmaqla gözlənilən qalıq 10-12 milyon tona çatacaqdı. Bununla bağlı yaranan vəziyyət sonradan təsəvvürə sığışmayan bir yanğın təhlükəsinə çevrilə bilərdi.*

*Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK "Azərkombinat"ın yer anbarlarında neft və neft məhsullarının saxlanması haqqında qərar qəbul etdi. Qərarda SSRİ Xalq Komissarları Sovetindən xahiş olunurdu ki, "Azneftkombinat"ın 1942-ci ilə aid planına limitdən artıq tikinti işlərinin aparılması da daxil edilsin. Həmin tikintilərə Bakı-Batum neft kəmərinin İzlivnoy rayonunda 7-8 milyon ton həcmində qara neft məhsullarının saxlanılacağı nəzərdə tutulan anbar, neft ötürmə stansiyası, neft kəməri də aid idi.*

*Həmçinin, SSRİ Xalq Komissarları Sovetindən Dəniz Donanması, Dəmir Yolları Xalq Komissarlıqlarından 1941-1942-ci illərdə naviqasiyalar arası müddətdə yığılıb qalan neft və neft məhsulları qalıqlarının daşınması, beləliklə də Bakının (neft və neft məhsullarından ibarət) bu ağır yükdən maksimum azad edilməsi xahiş olunurdu.*

*Qərarda ən qısa vaxt ərzində mövcud yer anbarlarında təmir işlərinin aparılması da vacib sayılırdı.*

*Bununla yanaşı, Azərbaycan Xalq Komissarları Soveti belə anbarların yanğından müdafiəsini gücləndirməyi də xüsusi vurğulayırdı. Bunun üçün Xalq Komissarları Soveti Azərbaycan SSR XDİK-nın Yanğından Mühafizə İdarəsinə bir vəzifə olaraq tapşırdı ki, anbarlarda gecə-gündüz gözətçilər qoyulsun.*

*1942-ci il mart ayının 20-dək "Azneftkombinat" sistemində 6 milyon tondan artıq neft və neft məhsulları yığılıb qalmışdı. Bundan da 4 milyondan artığı Bakı mədənlərində yerləşən yerüstü açıq anbarlara aid idi ki, həmin məhsullar yanğın təhlükəsi ilə bərabər; həm də neft emalını, neftçıxarma müəssisələrinin işini çətinləşdirirdi.*







## AZƏRBAYCAN K(B)P MK-NIN BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ CƏBHƏNİN NEFT VƏ NEFT MƏHSULLARI İLƏ TƏMİNATINA DAİR VERDİYİ BİR SIRA QƏRARLARIN SİYAHISI

### 1941-ci il

**28 yanvar** - Azərbaycan neft sənayesinin yerli barıtla təminatı haqqında

**12 mart** - Neft məhsullarının istehsalında xərclərin azaldılması üzrə görülən tədbirlər haqqında

**12 aprel** - "Neftçalaneft" trestinin işinin yaxşılaşdırılması haqqında

**27-30 sentyabr** - "Azneftkombinat"ın müəssisələrində və neft trestlərində materiallardan, avadanlıq və daxili ehtiyatlardan israf istifadə haqqında.

### 1942-ci il

**21 mart** - Neft və neft məhsullarının saxlanılmasında yaxşılaşdırma tədbirləri haqqında

**3-12 aprel** - Aviasiya benzini istehsalının yüksəldilməsi tədbirləri haqqında

**24-29 aprel** - Traktorlar üçün kerosin, liqorin və s. istehsalı haqqında

**1-11 avqust** - Neft və neft məhsulları istehsalı planında Dövlət Müdafiə Komitəsinin 2047 nömrəli qərarının yerinə yetirilməsi tədbirləri barədə

**1-2 oktyabr** - İxtisaslı fəhlələrin neft sənayesinə qaytarılması barədə

**1-15 oktyabr** - Budyonnı adına zavodda toluol istehsalı planının yerinə yetirilməsi haqqında

**9-19 dekabr** - Aviasiya benzininin keyfiyyəti və istehsalının yüksəldilməsi tədbirləri haqqında

### 1943-cü il

**16 yanvar** - Dövlət Müdafiə Komitəsinin 2702 nömrəli qərarının yerinə yetirilməsi haqqında

**10 fevral** - "Azneftkombinat"da neft hasilatının yaxşılaşdırılması barədə

**11-17 iyun** - Kənd rayonlarında yerləşən neft bazalarındakı yanacaq zavodları haqqında

**15 iyun** - "Azneftkombinat"da quyuların yenidən istismara qaytarılması üzrə işlərin aparılması haqqında

**14-23 iyul** - Qızıl Ordu üçün neft məhsullarının göndərilməsi planını yerinə yetirmək haqqında

**20-28 noyabr** - Neft sənayesinin müəssisələri, neftçıxarma sahələri üçün neftçi kadrlarının hazırlanması barədə.

### 1944-cü il

**17-24 fevral** - Neft sənayesi komitəsi üçün Bakıdan neft məhsullarının göndərilməsi haqqında

**29 fevral - 1 mart** - "Azneftkombinat" enerji təsərrüfatının vəziyyəti və işlərin yaxşılaşdırılması haqqında

**7-13 mart** - Qızıl Ordu və Hərbi Dəniz Donanması üçün neft məhsullarının göndərilməsi barədə

**23-27 mart** - Dövlət Müdafiə Komitəsinin 5228 nömrəli qərarının yerinə yetirilmə tədbirləri haqqında

**25 aprel - 5 may** - Neft hasilatı və neft məhsullarının istehsalı haqqında

**13-14 may** - "Azneftkombinat" qazma kontorlarında işlərin yaxşılaşdırılması barədə

**25-29 may** - Dövlət Müdafiə Komitəsinin 5856 nömrəli qərarının yerinə yetirilməsi haqqında

**25-29 may** - Dərinlik nasosları vasitəsi ilə quyularda istismarın yaxşılaşdırılması haqqında

**6-10 iyun** - Dövlət Müdafiə Komitəsinin 5857 nömrəli qərarının yerinə yetirilməsi haqqında

**19-21 iyun** - Dövlət Müdafiə Komitəsinin 5855 nömrəli qərarının yerinə yetirilməsi haqqında

**22 iyun** - Dövlət Müdafiə Komitəsinin 5981 nömrəli qərarının yerinə yetirilməsi haqqında

**20 oktyabr - 1 noyabr** - Neftçilərin maddi-məişət şəraitinin və onlara göstərilən mədəni xidmətin yaxşılaşdırılması haqqında

**23 noyabr - 5 dekabr** - Dövlət Müdafiə Komitəsinin qərarının yerinə yetirilməsi haqqında

**6-14 dekabr** - Dövlət Müdafiə Komitəsinin qərarının yerinə yetirilməsi haqqında.

### 1945-ci il

**2-9 yanvar** - Azərbaycan neft emalı sənayesində işin yaxşılaşdırılması haqqında

**25 may** - Dövlət Müdafiə Komitəsinin qərarının yerinə yetirilmə tədbirləri haqqında

**15-17 sentyabr** - "Azneftkombinat"da siyasi tərbiyə işləri barədə.

# MÜHARİBƏ İLLƏRİNDƏ NEFT SƏNAYESİNİN VƏ İQTİSADİYYATIN SƏMƏRƏLİ FƏALİYYƏTİNİ TƏMİN ETMİŞ GÖRKƏMLİ ALİMLƏR, İSTEHSALAT RƏHBƏRLƏRİ VƏ TƏŞKİLATÇILARI



## BAĞIROV MİRCƏFƏR ABBAS OĞLU (1895-1956)

Quba qəzasının Quba şəhərində anadan olub. 1913-cü ildə ibtidai məktəbi bitirərək, ikiillik pedaqoji kurslarda təhsilini davam etdirmək üçün Petrovska gedib.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Qarabağ vilayəti İnqilab Komitəsinin sədr müavini olur. Sonralar Azərbaycan atıcı diviziyasının komissarı, sonra həmin diviziyada hərbi tribunalın sədri, Azərbaycan SSR Baş Siyasi İdarəsinin rəisi vəzifələrində işləyir.

O, 1932-ci ilin oktyabr ayında Azərbaycan SSR Xalq Komissarları Sovetinə başçı təyin edilir. 1933-cü ilin dekabrında isə Azərbaycan K(b)P MK-nın birinci katibi seçilir. İyirmi il bu vəzifədə çalışır.

M.C.Bağırovun bütün çıxışlarında, dərc olunmuş yazılarında məhz faşizm üzərində qələbə çalınmasında müstəsna əhəmiyyət kəsb etmiş, misilsiz rol oynamış bir məsələ - cəbhənin fasiləsiz olaraq neft və neft məhsulları, silah-sursat, ərzaq, pal-paltar, bir sözlə, lazım gələn hər şeylə təmin olunmasında respublika rəhbərliyinin fəaliyyəti əsas istiqamət kimi göstərilir.

M.C. Bağırov öz fəaliyyəti boyunca Azərbaycanın ərazi bütövlüyünü sarsıtmaq istəyən erməni millətçilərinə qarşı həmişə sərt olmuş, öz barışmaz mövqeyini bildirmişdir. Bunun da bariz nümunəsini onun Marietta Şaginyanın yazdıqlarına münasibətində görmək olar.

M.Şaginyan 1946-cı ildə "Sovet Zaqafqaziyası" adlı kitab nəşr etdirir. Onun Dağlıq Qarabağ məsələsinə toxunduğu bu kitab Mircəfər Bağırovun kəskin qəzəbinə səbəb olur.

M.C.Bağırov Şaginyanı səhvə yol verməkdə, tarixi faktları təhrif etməkdə təqsirləndirir. O, bu barədə xüsusi məktubla ÜİK(b)P MK-nın katibi A.A.Jdanova müraciət edir. Nəticədə, həmin bədnam kitab aradan götürülür. Şaginyandan isə lazımi izahat alınır.

Sonradan bu məsələ M.Bağırovun məhkəmə prosesində üzə çıxır. Prokuror Rudenkonun:

- Nəyə görə M.Şaginyanı qəbul etməmisən? Niyə onu təhqir etmisən? - suallarını M.C.Bağırov belə cavablandırır:

- "O, istədi ki, mənimlə görüşsün. Ancaq o, öz əsərlərində Naxçıvan və Qarabağ torpaqlarına şəxsi torpaqları, dədə-babasından qalma mülkü kimi yanaşırdı. Bu səbəbdən də Şaginyanı qəbul etmədim və onu qovdum".

1935-1950-ci illərdə Azərbaycanda enerji, sənaye və elmi potensialın yaranma və inkişaf prosesi gedirdi. Çoxsaylı müəssisələr – Azərbaycan SSR Elmlər Akademiyası, universitetlər, Azərbaycan SSR Kənd Təsərrüfatı Elmləri Akademiyası, institutlar fəaliyyətə başladı, Bakı Dövlət Universiteti bərpa edildi.

Müharibədən sonrakı illərdə qara və əlvan metallurgiya kimi yeni sənaye sahələri tərəqqi etməyə başladı. İstilik və su elektrik stansiyaları tikildi. Dənizdən neft çıxarılmağa başlandı. Yüngül və yeyinti sənaye müəssisələri şəbəkəsi genişləndi. Daşkəsən, Əli Bayramlı (indiki Şirvan), Mingəçevir, Sumqayıt kimi yeni sənaye mərkəzləri yarandı.

M.C.Bağırov 1935, 1942-ci illərdə, 1943-də isə iki dəfə - ümumilikdə isə beş dəfə "Lenin" ordeni ilə, 1946-cı ildə isə birinci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edildi.

M.C.Bağırov 1954-cü ilin mart ayının 13-də Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsinin qərarı ilə vəzifəsindən azad edildi. 1954-cü il oktyabrın 29-da isə "Beriya işi" ilə bağlı olaraq şahid kimi dindirildi və həbs edildi.







## ƏLİZADƏ ƏLİƏŞRƏF ƏBDÜLHÜSEYN OĞLU (1911-1985)

Azərbaycan Sovet alimi. Neft və qaz yataqlarının geologiyası sahəsində çoxşaxəli elmi tədqiqatlar aparmış, həmin mövzuda olduqca dəyərli əsərlər ərsəyə gətirmişdir. Görkəmli pedaqoq, bacarıqlı alim, təşkilatçı, rəhbər kimi tanınıb. 1945-ci ildə geologiya-mineralogiya elmləri doktoru, professor elmi dərəcələrini alıb, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, akademiki seçilib.

1940-cı ildən respublikanın partiya, dövlət, neft sənayesi strukturlarında rəhbər vəzifələrdə, müharibə illərindən həm də partiya işlərində çalışıb. 1944-cü ildən 1946-cı ilə kimi Azərbaycan K(b)P MK-nın ikinci katibi vəzifəsində işləyərək, neft və neft məhsullarının vaxtında cəbhəyə çatdırılmasına məsuliyyət daşıyıb.

Ə.Əlizadə 1945-ci ildə yaradılan Azərbaycan SSR Elmlər Akademiyasının təsisçilərindən biri idi. 1946-cı ildə "Azneft" və "Azneftkəşfiyyat" birliklərinə rəhbərlik də ona tapşırılıb. 1948-ci ildən Türkmənistanda işləyib. 1949-1950-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Neft Hasilatı İnstitutunun Türkmənistan filialının əməkdaşı kimi fəaliyyət göstərib.

Akademik Əliəşrəf Əlizadənin rəhbərliyi ilə bölgənin neft və qeyri-neft geologiyasına aid mühüm əhəmiyyət kəsb edən çoxsaylı nəzəri və praktiki məsələlər vaxtında öz həllini tapmışdır.




*Vətən Müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış abidə (Gəncə)*



# ƏLİYEV ƏZİZ MƏMMƏDKƏRİM OĞLU
## (1897-1962)

1897-ci il dekabr ayının 20-də İrəvan quberniyasının İrəvan şəhərində Məmmədkərim Kərbəlayi Qurbanəli oğlunun və İbrahimbəy Süleymanbəyovun qızı Zəhra xanımın ailəsində anadan olub. Orta təhsilini gimnaziyada aldıqdan sonra Sankt-Peterburqdakı Hərbi-tibbi akademiyada təhsilini davam etdirib.
1918-ci ildə Əziz Əliyevin ailəsi əvvəlcə Naxçıvana, 1920-ci ilin əvvəlində isə oradan Bakıya köçüb. Əziz Əliyev həkim kimi fəaliyyətə başlayıb. Bununla yanaşı, pedaqoji və elmi-tədqiqat işləri ilə də məşğul olub. Namizədlik, doktorluq dissertasiyaları müdafiə edib. 1926-cı ildə ÜİK(b)P-nın üzvlüyünə qəbul edilib.
1935-1938-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetinin, sonra da Azərbaycan Dövlət Universitetinin rektoru kimi fəaliyyət göstərib. Daha sonra isə Azərbaycan SSR Səhiyyə xalq komissarı vəzifəsində çalışıb.
Əziz Əliyev 1938-ci il iyul ayının 21-də Azərbaycan SSR Ali Soveti I-ci çağırış I-ci sessiyasının qərarı ilə respublika Ali Soveti Rəyasət Heyətinin katibi vəzifəsinə təyin olunub.
1941-ci il aprel ayının 7-də Azərbaycan SSR Ali Soveti I çağırış IV sessiyasının qərarı ilə respublika Ali Soveti Rəyasət Heyətinin sədri seçilir. Həmin ilin sentyabr ayında Dövlət Müdafiə Komitəsinin qərarı ilə o, Təbrizdə yerləşən 47-ci Ordu Hərbi Şurasının üzvü təyin edilib.
1941-1942-ci illərdə Əziz Əliyev Azərbaycan K(b)P MK-nın 3-cü katibi vəzifəsində çalışıb. 1942-ci il sentyabr ayının 27-də Əziz Əliyev ÜİK(b)P Dağıstan Vilayət Komitəsinin XIV plenumunun qərarı ilə 1-ci katib vəzifəsinə təyin edilib.
1948-ci ildən isə Moskvada, əvvəlcə SSRİ Səhiyyə Nazirliyində, sonra da SSRİ Nazirlər Sovetində işləyib. 1948-1949-cu illərdə o, ÜİK(b)P MK yanında Təkmilləşdirmə kurslarını keçib.
1949-1950-ci illərdə ÜİK(b)P MK-da təlimatçı vəzifəsində çalışıb.
1950-ci ildə həmin vəzifədən azad edilərək, Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutuna direktor təyin olunur. 1954-cü ilədək burada işləyir.
Bu vəzifədən onu qəfil çıxararaq Sabunçu qəsəbəsindəki xəstəxanaya, sıravi həkimliyə göndərirlər. Üç ilə yaxın burada işlədikdən sonra onu yenidən Ortopediya və Bərpa Cərrahiyəsi İnstitutunun direktoru vəzifəsinə qaytarırlar.
Sonrakı illərdə Əziz Əliyev yenidən dövlət vəzifəsində çalışır. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi təyin edilir. SSRİ Ali Sovetinin deputatı seçilir.







# VƏZİROV SÜLEYMAN AZAD OĞLU
## (1910-1995)

Görkəmli dövlət xadimi, keçmiş SSRİ neft sənayesinin təşkilatçılarından biri.
Süleyman Vəzirov rotmistr Azad bəy Vəzirovun ailəsində doğulub. 1918-ci ildə Şuşadakı realnı məktəbini bitirib. Sonra Bakı Sənaye Texnikumunda oxuyub.
Texnikumu bitirəndən sonra Bibiheybətdə neftölçən işləyib. 1928-ci ildə Azərbaycan Politexnik İstitutunun dağ-mədən fakültəsinə qəbul olunub. 1932-ci ildə həmin institutu bitirib.
1954-cü ildə Azərbaycan SSR neft sənayesi naziri təyin edilib və 1959-cu ilədək bu vəzifədə işləyib. 1959-cu ildən 1965-ci ilədək Xalq Təsərrüfatı Şurasının sədri vəzifəsində çalışıb. 1965-1970-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini, 1970-1973-cü illərdə isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədr müavini vəzifələrində işləyib.
Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət Mükafatı laureatı fəxri adlarına layiq görülüb.

# ƏZİZBƏYOV ƏZİZAĞA MƏŞƏDİ OĞLU
## (1903-1966)



Əzizağa Əzizbəyov müharibə illərində Xalq Komissarları Sovetinin rəhbərlərindən biri ticarət komissarı kimi əhalinin ərzaq və sənaye malları ilə təmin olunmasında çox böyük işlər görmüşdür.
Təcrübəli təsərrüfatç. həmin illərdə arxa cəbhədən ön cəbhəyə göndərilən silah-sursatın, avadanlığın, ərzağın qəbulu və yüklənib yola salınmasını tənzimləyib.
O, ehtiyat qoşun hissə və birləşmələrinin ərazidə yerləşməsi və təminatına kömək göstərməklə yanaşı, Qızıl Ordunun ehtiyacına uyğun xammal və ərzaq ehtiyatlarının tədarükü, hərbi sifarişlərin vaxtlı-vaxtında yerinə yetirilməsinə nəzarət edir, bu işlərə yüksək məsuliyyətlə yanaşırdı.
General-mayor Əzizağa Əzizbəyov müharibə dövründə ordu hissələrinin fasiləsiz təminatına görə yüksək dövlət mükafatlarına, SSRİ-nin "Lenin", "Qırmızı bayraq", "Qırmızı Əmək Bayrağı", "Qırmızı ulduz" ordenlərinə və medallara layiq görülüb.
Müharibədən sonra o, Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifəsində çalışıb. Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib. Həyatının axır illərindəsə "Azəravtotraktorsənayetəchizat" İdarəsinin rəisi vəzifəsində çalışıb.



## ƏLİYEV MUSA MİRZƏ OĞLU
## (1908-1985)

Neft geologiyası və paleontologiya üzrə məşhur alimdir. Biostiqrafiya və sistematika, təbaşirin inoseramik faunası sahəsində dəyərli tədqiqatların müəllifidir. Qərbi Sibirdə, Orta Asiyada, Qafqazdakı neft-qaz komplekslərinin stratiqrafik tədqiqi ilə məşğul olub. Bunlarla yanaşı, Yaxın və Orta Şərqdə, Əlcəzairin Saharasında və Atlasda bölgələrin neftliyi, geologiyası da onun araşdırma sahəsidir. Bakıda paleontologiya və mezazoy üzrə stratiqrafiya məktəbinin yaradıcısıdır.

Musa Əliyev müharibə illərində Azərbaycan K(b)P MK-nın şöbə müdiri vəzifəsində çalışıb. O, Neft Daşları layihəsinin gerçəkləşdirilməsi və istehsalata buraxılması üzrə təşkilatçılardan biri kimi yadda qalıb. "Lenin", "Qırmızı Əmək Bayrağı" (iki dəfə), "Şöhrət" ordenlərinə, bir sıra medallara layiq görülüb.

Akademik Musa Əliyev 210 elmi əsərin, o cümlədən 15 monoqrafiyanın müəllifidir. YUNESKO-nun təşəbbüsü ilə 2009-cu ildə görkəmli alimin anadan olmasının 100 illiyi münasibəti ilə Parisdə xüsusi simpozium keçirilib.

Akademik Musa Əliyev Dövlət Plan Komitəsinin sədri vəzifəsində də çalışıb. 1950-1958-ci illərdə isə Azərbaycan SSR Elmlər Akademiyasının Prezidenti olub. İyirmi ildən artıq bir müddət ərzində respublika Elmlər Akademiyasının Geologiya və Yanacaq Faydalı Qazıntılarının Kəşfiyyatı İnstitutunun direktor müavini vəzifəsində çalışıb.



## QUTIRYA VİKTOR STEPANOVİÇ
## (1910-1983)

Viktor Stepanoviç Qutırya neft kimyası üzrə tanınmış sovet alimidir. 1949-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, akademiki seçilib. 1953-cü ildə Ukrayna SSR Elmlər Akademiyasının müxbir üzvü, 1961-ci ildə isə həmin akademiyanın həqiqi üzvü, akademiki olub.

V.S.Qutırya 1932-ci ildə Azərbaycan Neft İnstitutunu bitirmişdi. 1959-cu ilə qədər Azərbaycan SSR Elmi Tədqiqat Neft Emalı Sənayesi İnstitutunda, sonra isə Ukrayna SSR Elmlər Akademiyasında çalışıb. 1963-cü ildən Ukrayna SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsini tutub.

Alimin əsərləri əsasən Azərbaycan və Ukrayna neftinin tədqiqinə, həm də karbohidrogenlərin dəyişdirilməsində katalitik prosesə həsr olunub.

V.Qutırya 1942-ci ildə SSRİ Dövlət mükafatına layiq görülüb, iki dəfə "Lenin" və başqa orden və medallarla təltif edilib.

O, neft emalı, neft-kimya sahəsində çalışmış görkəmli alimlərdən biri sayılır.







## BABAZADƏ BABA QURBANQULU OĞLU
## (1911-1962)

SSRİ Dövlət Mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, "Azneft"in baş geoloqu. Baba Babazadənin rəhbərliyi ilə müxtəlif vaxtlarda Buzovna, Maştağa, Zirə, Qaradağ, Qum adası, Girovdağ neft yataqları açılıb.

Azərbaycanın sovet neft-qaz geoloqu, "Azneftkombinat"ın "Əzizbəyovneft" trestinin baş geoloqu, Sosialist Əməyi Qəhrəmanı B.Babazadə 25 aprel 1911-ci ildə Bakıda anadan olub. O, Nəriman Nərimanov adına Bakı Sənaye Texnikumunu, 1934-cü ildə isə Məşədi Əzizbəyov adına Sənaye İnstitutunu bitirib. 1939-cu ildə ÜİK(b)P-nin sıralarına qəbul edilib.

Müharibə öncəsi və müharibə illərində B.Babazadənin rəhbərliyi ilə Azərbaycanda bir sıra neft və qaz yataqları açılmış oldu. 1936-cı ildə Qala, 1940-cı ildə Buzovna, 1944-cü ildə Maştağa yataqlarının, eləcə də Qala yatağındakı neft layının kəşf edilib istismara verilməsi onun adı ilə bağlıdır.

1944-cü il yanvar ayının 24-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Neft hasilatının artırılması, neft məhsullarının istehsalında, yeni yataqların kəşfində və neft quyularının qazılmasında göstərdiyi görkəmli xidmətlərə görə" Baba Qurbanqulu oğlu Babazadəyə "Lenin" ordeni (№ 18294) "Oraq və çəkic" medalı (№ 193) təqdim olunmaqla Sosialist Əməyi Qəhrəmanı adı verildi. Buzovna, Maştağa neft yataqlarının kəşfinə görə "Azneft" Birliyinin baş geoloq müavini Baba Babazadə 1947-ci ildə I-ci dərəcəli Stalin mükafatına layiq görüldü.

O, 1953-cü ildən ömrünün axırınadək "Azneft" Birliyinin baş geoloqu vəzifəsində çalışmışır. 1959-cu ildə isə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

*Baba Babazadənin işlədiyi "Əzizbəyovneft" tresti (1942-ci il)*



**Böyük Vətən müharibəsi illərində Azərbaycandan 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. MÜHARİBƏ QƏHRƏMANLARINA ƏBƏDİ EŞQ OLSUN!**



## MƏMMƏDOV İSRAFİL MƏHƏRRƏM OĞLU (1919-1946)

### *İlk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı*

1919-cu il mart ayının 16-da Azərbaycan Respublikasının Şamxor (indiki Şəmkir) rayonunun Qapanlı kəndində kəndli ailəsində anadan olub. Kirovabaddakı (Gəncə) Sənaye Texnikumunda oxuyub. Təhsilini bitirdikdən sonra toxuculuq fabrikində işləyib. 1939-cu ildə Qızıl Ordu sıralarına çağrılıb. Müharibənin elə ilk saatlarından cəbhəyə döyüşə yollanıb. 1941-ci il dekabr ayının 3-də baş serjant İsrafil Məmmədovun başçılıq etdiyi dəstə Novqorod ətrafında, İlmen gölü ətrafında xüsusi əhəmiyyətli məntəqəni müdafiə edirdi.

İsrafil Məmmədovun rotası Pustınka kəndinin arxasındakı təpəlikdə, bataqlıq yerdə mövqe tutmuşdu.

Faşistlər qəfil hücuma keçib, civə kimi İ.Məmmədovun dəstəsi ilə rota arasına girə bildi. Beləliklə, dəstə ilə əsas qüvvənin əlaqəsi kəsildi.

İsrafil Məmmədovun iyirmi nəfərlik dəstəsi düşmənlə qeyri-bərabər döyüşə girdi. Döyüşçülər on saat ərzində bir batalyon faşist əsgərinin ardıcıl davam edən hücumlarını dəf edərək, mövqelərini əsas qüvvə gəlib çıxana qədər qorudular. Bu döyüşdə 300-ə qədər düşmən əsgəri məhv edildi. İsrafil Məmmədov təkbaşına düşmənin 70 əsgərinin və 3 zabitinin öhdəsindən gəldi.

1941-ci il dekabr ayının 11-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə cəbhədə alman-faşist işğalçılarına qarşı mübarizədə komandanlığın döyüş tapşırığını nümunəvi yerinə yetirdiyinə və bu zaman göstərdiyi igidliyə, qəhrəmanlığa görə İsrafil Məmmədova "Lenin" ordeni və "Qızıl ulduz" (№ 554) medalı təqdim edilməklə Sovet İttifaqı Qəhrəmanı adı verildi. İsrafil Məmmədov Azərbaycandan olan ilk Sovet İttifaqı Qəhrəmanı idi. Döyüşdə aldığı yaralar fəsadsız ötüşmür. Gənc leytenant İsrafil Məmmədov 1943-cü ildə xəstəliyinə görə ehtiyata buraxılır. Kirovabad (Gəncə) şəhərində yaşayır. Azərbaycan Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsində işləyir. 1944-cü ildə yenidən cəbhəyə gedən 27 yaşlı gənc qəhrəman 1946-cı il may ayının 1-də əbədi olaraq gözlərini yumur... Gəncədə, şəhər parkında dəfn edilib.



*Xalq şairi Səməd Vurğun ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovla birlikdə*





# Fərdi təqaüdçü Xosrov Ağayevin Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov haqqında xatirələrindən

1935-ci ildə hərbi xidməti başa vurandan sonra, basketbol və voleybol üzrə idman ustası olduğuma görə məni Kirovabad (Gəncə) şəhər Sovetinin Bədən Tərbiyəsi İdarəsinə sədr vəzifəsinə təyin etdilər. 1941-ci ilin mayında isə mən artıq Kirovabad (Gəncə) şəhər Komsomol Komitəsinin birinci katibi seçilmişdim.

1941-ci il iyun ayının 22-dən, yəni Böyük Vətən müharibəsi başlanan ilk gündən cəbhəyə kömək məqsədi ilə bütün partiya, sovet, komsomol təşkilatlarının fəaliyyəti səfərbər edildi. Biz çox gərgin şəraitdə işləyirdik.

1941-ci ilin dekabrında "İzvestiya" qəzetində İsrafil Məhərrəm oğlu Məmmədova göstərdiyi igidliyə və qəhrəmanlığa görə "Lenin" ordeni və "Qızıl ulduz" medalı təqdim edilməklə, Sovet İttifaqı Qəhrəmanı fəxri adının verilməsi haqqında fərman dərc olundu. Şəhər Partiya komitəsinin 2-ci katibi məni yanına çağırıb bildirdi ki, bu fərmanla Sovet İttifaqı Qəhrəmanı adı verilən şəxs bizim həmyerlimizdir. Gedin, arayın, onun ailəsinin yaşadığı ünvanı tapın, şəraitləri ilə maraqlanın.

Şəhər partiya komitəsi qeydiyyat uçot şöbəsinin müdiri ilə birgə İsrafil Məmmədov haqqında bütün məlumatları ətraflı yoxladıq. Onun müharibəyə qədər yaşadığı, "Tovarnaya" küçəsindəki evini tapdıq. Bu, yarı samandan tikilmiş, çox da böyük olmayan sadə bir ev idi. Qapını döydük. Bizi İsrafilin anası, çox mehriban insan, Gülsüm xala qarşıladı. Taleyin işinə bax ki, oğlunun fəxri ad alması xəbərini ilk dəfə ona biz çatdırdıq.

Xəbəri Gülsüm xala çox adi qarşıladı. Ailədəki təvazökarlıq və Vətən, torpaq qarşısındakı borcun aliliyi çox aydınca seçilirdi.

Mərkəzi Komitə İsrafil Məmmədovun ailəsinə yeni mənzil verilməsi məsələsini qaldırdı və çox çəkmədi ki, ailə təzə mənzillə təmin olundu.

Qəhrəman yerlimizin obrazı, igidliyi gəncəlilərdə faşizm üzərində qələbə inamını artırdı və bütövlükdə xalqımızı daha da ruhlandırdı.

1942-ci ildə xəbər çıxdı ki, İsrafil Məmmədova məzuniyyət verilib. O, yaxın günlərdə doğmaları ilə görüşmək üçün Kirovabada (Gəncəyə) gələcək. Biz də komsomol komitəsində bu görüşə çox ciddi hazırlaşdıq.

İsrafil Məmmədov böyük şairimiz Səməd Vurğunun müşayiəti ilə təyin olunmuş gündə Kirovabada (Gəncəyə) gəldi. Vağzala əvvəlcədən yığılmış insanlar onları böyük izdiham və sevinclə qarşılayıb, hərarətlə salamladı.

Şəhərin mərkəzi meydanında Səməd Vurğun özünəməxsus tərzdə alovlu nitqlə çıxış edərək, İsrafil Məmmədovun əlini yuxarı qaldırdı. İnsan seli onu alqışlarla qarşıladı.

İsrafil Məmmədov doğma şəhərdə olarkən ayrı-ayrı müəssisə, təşkilat, idarə kollektivləri ilə görüşür, gənc nəslə cəbhədə gördüklərini danışırdı. Bu görüşlər zamanı biz İsrafil Məmmədovla tez-tez ünsiyyətdə olurduq. Elə o vaxtdan da bizim dostluğumuz başladı.

İsrafil Məmmədov 1943-cü ilin əvvəlində Bakıya qayıtdı. O, fabrik, zavod, komsomol və pioner təşkilatlarının dəvəti ilə keçirilən görüşlərə getməkdə davam edirdi. Aldığı yaralara baxmayaraq, İsrafil yenidən cəbhəyə, faşistlərlə döyüşə can atırdı. Müəyyən müddətdən sonra onun cəbhəyə qayıtmaq arzusu gerçəkləşdi.

1944-cü ildə İsrafil yenidən cəbhəyə yola düşdü. Getməmişdən qabaq öz şəklini mənə bağışlayıb dedi ki: "Xosrov", həyatdır da, kim bilir başımıza nələr gələcək"...

Müharibənin adını çəkməsə də, bizi müharibə ayırdı. Çox təəssüf ki, bir daha onunla görüşə bilmədik...

Gəncə şəhərində onun şərəfinə abidə ucaldılıb. Ev muzeyi açılıb. Qəhrəmanın yaşadığı binanın divarına xatirə lövhəsi vurulub, adına küçə, məktəb var. Doğma kəndi Qapanlıdakı məktəb də İsrafilin adını daşıyır. Onun və bütün azərbaycanlı qəhrəmanların əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaq.



# HƏZİ ASLANOV ƏHƏD OĞLU
## (1919-1945)

***Tank üstündə - Fin sərhəddindən, Stalinqraddan Baltikyanı ölkələrə qədər***

Həzi Aslanov 1910-cu il yanvar ayının 22-də Lənkəran şəhərində, fəhlə ailəsində anadan olub. 1924-cü ildən ordu sıralarında qulluq etməyə başlayıb. Zirehli tank qoşunları Hərbi Akademiyası nəzdindəki kursu bitirib. 1933-cü ilin iyun ayında əlahiddə tank rotasının taqım komandiri təyin edilib. Sonra 2-ci atıcı diviziyası tank rotası komandirinin texniki hissə üzrə müavini vəzifəsində qulluq edib. Baş leytenant rütbəsində 60-cı atıcı diviziyası əlahiddə tank batalyonunun rota komandiri vəzifəsinə keçirilib. Sonra məktəb rəisi təyin edilib. 1937-ci ildə ÜİK(b)P-yə üzv qəbul olunub. 1939-cu ildə Kiyev Hərbi Dairəsində öz xidmətini avtonəqliyyat batalyon rəisi vəzifəsində davam etdirib. Həmin ilin fevralında kapitan rütbəsi alıb. Sovet-Fin müharibəsində, eləcə də Polşa yürüşündə iştirak edib.

H.Aslanov müharibəni mexanikləşmiş 15-ci korpusa aid 10-cu tank qoşunları diviziyasının tərkibində qarşıladı. Onda Avtonəqliyyat batalyonuna komandirlik edirdi. 1941-ci ilin avqustunda müvəqqəti olaraq tank batalyonuna komandir təyin olunur. Kiyevin müdafiəsində iştirak edir. 1941-ci ilin sentyabrından 10-cu atıcı diviziyası komandirinin texniki hissə üzrə müavini vəzifəsində xidmət göstərir. Həmin il noyabrın 22-23-də qısa bir zaman içində döyüş şücaəti cəbhə yoldaşlarına da nümunə olan Aslanovçular hücumu genişləndirərək, Yuxarı Kumsk qəsəbəsini və Abqanerova stansiyasını tuturlar.

1942-ci ilin dekabrında 55-ci əlahiddə alay F.Paulsun 6-cı ordusunu mühasirədən çıxarmağa can atan E.Maynşteynin "Don" qrupunun qabağını kəsdi. Aslanovçular Yuxarı Kumsk rayonunda düşmənin 30 tankını, 26 topunu, 50 avtomobilini və 2 min nəfərə yaxın əsgər və zabitini darmadağın etdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 22 dekabr tarixli fərmanı ilə "Alman-faşist işğalçılarına qarşı cəbhədə mərdlik, igidlik göstərdiyinə, komandanlığın tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə, tabeliyindəki hissələrə bacarıqla rəhbərlik etdiyinə görə" podpolkovnik Həzi Əhəd oğlu Aslanova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi. 55-ci əlahiddə tank alayı isə "Qvardiyaçı" adını aldı.

1943-cü ilin yanvarında Həzi Aslanova polkovnik rütbəsi verildi və o, 35-ci "Qvardiyaçı"

*Bakıda H.Ə.Aslanovun dəfni*





tank briqadasının komandiri təyin olundu. Aslanovun tankçıları Belqrad, Sumı, Axtırka, Poltava, Libedin, Mirqorod şəhərlərinin azad olunmasında iştirak etdi.

1944-cü il mart ayının 13-də Həzi Əhəd oğlu Aslanova tank qoşunları general-mayoru rütbəsi verildi. H.Aslanovun briqadası yay və payız ərzində Vileyka, Minsk, Molodçeno, Vilnus, Şaulyay, Yelqava və b. şəhərlərin azad olunmasında mərdliklə vuruşdular.

Briqada səkkiz dəfə Ali Baş Komandanın təşəkkür məktubunu aldı. 1944-cü il iyul ayının 27-dən "Qvardiyaçı" 35-ci tank briqadası "Şaulyay" fəxri adını daşımağa başladı.

1945-ci ilin yanvar ayında Qırmızı Bayraqlı "Şaulyay" - 2-ci dərəcəli Suvorov ordenli, qvardiyaçı 35-ci tank briqadası Baltik dənizi sahillərinə çıxdı. 1945-ci il yanvar ayının 24-də Liepaya rayonunda, Prikul məntəqəsi yaxınlığında kəşfiyyatla təhqiqat işləri apararkən qvardiya tank qoşunları general-mayoru Həzi Aslanov ağır yaralandı, qəhrəmancasına həlak oldu.

1990-cı ildə 3-cü Belarus cəbhəsinin komandanı, ordu generalı İ.D.Çernyaxovskinin 1944-cü il iyul ayının 4-də Sovet İttifaqı Qəhrəmanı, qvardiya general-mayoru Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi haqda yazdığı təqdimata yenidən baxıldı.

Sovet İttifaqı Qəhrəmanı, qvardiyaçı tank qoşunları general-mayoru Həzi Əhəd oğlu Aslanova "Baqration" əməliyyatının gedişində briqadanın döyüş fəaliyyətinə uğurla rəhbərlik etdiyinə, göstərdiyi şəxsi igidliyə görə ikinci dəfə, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Həzi Aslanov iki "Lenin", üç "Qırmızı bayraq", 2-ci dərəcəli "Vətən müharibəsi", iki "Qırmızı ulduz" ordenləri və çoxsaylı medallarla təltif olunmuşdur.

Həzi Aslanov Bakıda Dağüstü Parkda (indiki Şəhidlər Xiyabanında) dəfn edilib.







**Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun tank hissələri komandanlığının Azərbaycan K(b)P MK-ya məktubu**

Şanlı Qızıl Ordunun düşmənin şiddətli müqavimətini qıraraq, qalibiyyətlə Qərbə tərəf irəlilədiyi və doğma şəhər və kəndləri azad etdiyi bu əlamətdar günlərdə bizim bütün düşüncə, istək və cəhdlərimiz bir məqsədə - düşmən üzərində tezliklə qələbə qazanılmasına yönəlib.

Biz, qəhrəman Qızıl Ordunun döyüşçüləri Stalinqrad döyüşlərinin başa çatması ildönümündə sizin şəhərə və respublikaya atəşin salamlarımızı yetiririk. Vətənimiz Azərbaycan üçün ən çətin sınaqlarda iradəsi əyilməyən, döyüşçü borcunu yerinə yetirməkdə həmişə nümunə olan, düşməni aman vermədən məhv edən minlərlə qəhrəman tərbiyə edib, yetişmişdir.

Bizim qəlbimiz Qızıl Ordunu yanacaqla, qələbənin qazanılmasına lazım olan hər şeylə təmin etmək üçün fədakarlıqla çalışan Azərbaycan xalqına bitib-tükənməyən məhəbbət və minnətdarlıq hissləri ilə doludur.

1942-ci ilin noyabrında Volqa sahillərində başladığımız hücum artıq doğma Ukraynanın sağ sahillərinə yetişib. Hissəmiz Sovet İttifaqı Qəhrəmanı, qvardiyaçı polkovnik H.Aslanovun komandanlığı altında Stalinqrad divarlarından Mius sahillərinə, Kursk ətrafından Dnepr sahillərinədək döyüşə-döyüşə keçərək minlərlə kəndləri, şəhərləri azad edibdir.

Paytaxt Moskvada bu zəfərlərə görə üzərində təkrar-təkrar toplardan açılan yaylım atəşlərinin hər biri sovet döyüşçüsünün, sovet silahının şərəfli qələbələrindən, güc və ustalığından xəbər verir. Bu zəfərlərin hər biri Hitler Almaniyasının məğlubiyyət zəncirinin həlqələridir.

Əsası Saritsın ətrafında qoyulmuş döyüş strategiyası özünün bütün əzəməti ilə Stalinqrad yaxınlığında açıldı. Müharibə tarixində, hərb sənətində ilk dəfə olaraq 330 min nəfər insandan ibarət şəxsi heyətə malik alman qoşunu mühasirəyə alınaraq məhv edildi, əsir götürüldü.

Göstərdiyi igidliyə, mərdliyə, yüksək döyüş qabiliyyətinə görə bizim hissə "Qvardiyaçı Stalinqrad" adını aldı. Vətən uğrunda gedən döyüşlərdə böyük şöhrət qazanmış hissəmizdəki qəhrəmanların adları da Sovet xalqının azadlıq və müstəqillik uğrunda apardığı mübarizə tarixinə qızıl hərflərlə yazılacaqdır.

Vətən, xalq qarşısında qvardiya bayrağını qəbul edərək, bir daha and içdik ki, müqəddəs torpaqlarımızda son alman əsgəri qalana qədər qəlbimiz rahatlıq nə olduğunu bilməyəcək.

Vətənimizin yüksək şərəfini bir bayraq kimi bütün çətinliklərdən, ağır sınaqlardan keçirərək başımız üstündə daşıdıq. Biz bu gün daha artıq cəsarətlə, inamla irəli baxaraq, döyüşlərin şəfəqində yaxınlaşmaqda olan qələbəni görürük.

Lenin bayrağı altında qələbəyə doğru irəli!

Yaşasın SSRİ xalqlarının sarsılmaz dostluğu!

Sovet İttifaqi Qəhrəmanı,
qvardiya-polkovniki İ.H.Aslanov
qvardiya-polkovniki İ.M.Lnitsın
qvardiya-polkovniki İ.F.Zaynulin

"Bakinskiy raboçiy",
11 dekabr 1943-cü il

# Uzaq sahillərdə...

*Azərbaycanlı döyüşçülərin 1941-1945-ci illərdəki dəhşətli müharibədə misilsiz igidlik göstərdikləri, ölümü gözlərinin altına alaraq müqəddəs savaşa girdikləri indi bütün dünyaya bəllidir. Onlar təkcə keçmiş Sovet İttifaqının ərazisində deyil, Müqavimət Hərəkatı sıralarına qoşularaq Avropa boyunca mərdlik, qəhrəmanlıq nümayiş etdirmişlər. Avropanın Müqavimət Hərəkatı müharibə dövründə faşizm köləliyinə, onun müdhiş ideologiyasına etiraz bildirən xalqların öz ölkələrinin ərazi bütövlüyü, milli azadlıq, demokratiya naminə, ümumi ideallar uğrunda mübarizə aparan cərəyan kimi meydana gəlmişdi.*

*Avropadakı bu nadir antifaşist, beynəlmiləl hərəkatda nasist düşərgələrindən qaçmış çoxsaylı azərbaycanlılar da iştirak edirdi. Azərbaycanlı döyüşçülər hərb meydanında ağır yaralanıb, kontuziya alaraq əsir götürülür, hitlerçi rejimin həbs düşərgələrinə atılırdılar. Ancaq onların əksəriyyəti möcüzə sayəsində sağ qalaraq, gec-tez gizli antifaşist hərəkatına üzv olur, Avropa ölkələrində saxlandıqları əsir düşərgələrindən meşələrə, dağlara qaçaraq, partizan dəstələrinə qoşulurdular.*

*Taleyin hökmü ilə işğal olunmuş torpaqlarda azadlıq eşqi sönməyən azərbaycanlı antifaşistlər fransız, yuqoslav, italyan, yunan, polşa vətənpərvərləri ilə çiyin-çiyinə vuruşaraq diversiyalar törədir, şəhərlərin, kəndlərin, həbs düşərgələrinin azad olunmasında iştirak edirdilər. Alman həbsxanalarında insanlıq ləyaqətlərini qoruyan azərbaycanlı hərbi əsirlər gizli antifaşist təşkilatlarında öz mərdlikləri, cəsurluqları ilə həm soydaşları, həm də qeyri-millətlərdən olan məhbusları faşizm üzərindəki qələbəyə gücləndirir, qaçışların təşkilində, düşmən infrastrukturlarını sıradan çıxarmaqda və digər aksiyaların yerinə yetirilməsində köməklik göstərirdilər.*

*Bizim soydaşlarımız özgə torpaqlarında, uzaq sahillərdə unudulmaz ad-san, şöhrət qazanaraq Cənubi Qafqaz oğullarının iradəsini, ruhunun əyilməzliyini nümayiş etdirmişlər.*

*Hərbi fəlakət illərində Avropa ərazisində qəhrəmanlıq və igidlik möcüzəsi göstərənlər arasında bizim qorxubilməz yerlilərimiz də çox idi. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə, İtaliyanın ali hərbi mükafatları olan "Haribaldi ulduzu" və "Əsgəri igidliyə görə" qızıl medallar kavaleri Məmməd Bağırov, Fransanın "Fəxri legion" ordeninə, fransız hökumətinin digər orden və medallarına layiq görülmüş Əhmədiyyə Cəbrayılov və onlarla başqa soydaşımız belə əfsanəvi qəhrəmanlar sırasındadır.*

*Ruqiyyə Əliyeva,*
*politoloq-publisist,*
*Azərbaycan Jurnalistlər*
*Birliyinin üzvü*







## HÜSEYNZADƏ MEHDİ HƏNİFƏ OĞLU (1918-1944)

***Yuqoslav və italyan partizanı Mixaylo. Onun başına 400 min reyxsmarka mükafat qoyulmuşdu.***

Mehdi Hüseynzadə 1922-ci il dekabr ayının 22-də Bakının Novxanı kəndində anadan olub. 1936-cı ildə Bakı rəssamlıq məktəbini bitirib. Leninqrad Xarici Dillər İnstitutunda oxuyub. Sonra V.İ.Lenin adına Pedaqoji İnstitutda təhsilini davam etdirib. 1941-ci ilin avqustunda orduya çağırılır. Tiflis ümumqoşun məktəbini bitirdikdən sonra 1942-ci ildə - döyüşlərin qızğın çağında cəbhəyə göndərilir. Minamyot taqımının komandiri kimi Stalinqrad uğrunda gedən çox ağır döyüşlərdə iştirak edir. 1942-ci ilin avqust ayında Kalac şəhəri yaxınlığında ölümcül yaralanır. Əsir götürülərək, Almaniyaya aparılır. Berlində alman dilini öyrənir.

1943-cü ilin ortalarında almanlar çoxsaylı Sovet hərbi əsirlərini, o cümlədən azərbaycanlıları da Almaniyanın Ştranse hərbi düşərgəsindən Yuqoslaviyaya və İtaliyaya, Triyest şəhərinə aparırlar.

Sovet hərbi əsirləri hələ Almaniyada olarkən gizli antifaşist təşkilatı yaradaraq yuqoslav və italyan partizanları ilə əlaqə qura bilmişdilər.

Mehdi Hüseynzadə bu təşkilatın ən fəal üzvlərindən idi. Azərbaycanlı hərbi əsirlərin düşərgəsi Şimali İtaliyada, Udine şəhəri yaxınlığındaydı. 1943-cü ilin oktyabrında Mehdi alman qərargahında hitlerçilərin "Haribaldiçilər" partizan dəstəsinə



qəfil hücum planını ələ keçirə bilir.

Partizanların yanına qaça bilən antifaşistlər - Rəşid Rəhimov və Həsən Cabbarov həmin plan barədə onları xəbərdar edirlər. Bunun sayəsində də Tolmin-Kaborido rayonunda partizanlara hücum edən düşmən alayı xeyli itki verərək, geri çəkilməyə məcbur olur. Antifaşistlər isə faşistlər tərəfindən tutularaq qətlə yetirilitlər.

1944-cü ilin əvvəllərində Mehdi Hüseynzadə öz yoldaşları ilə birgə İtaliyadakı düşərgədən qaçıb, Sloveniyanın Adriatik dənizi sahillərində fəaliyyət göstərən yuqoslav partizanlarına qoşulur. Əsirlikdən qaçan azərbaycanlılar İvan Qradnik adına italyan-yuqoslav birgə partizan diviziyasının tərkibindəki ayrıca sovet partizanları rotasında cəmləşmişdilər. Rotanın komandiri Cavad Həkimli, komissarı isə Mehdi Hüseynzadə idi.

Yanvar ayının ortalarında Mehdi öz döyüşçüləri ilə birgə düşmənin mühüm əhəmiyyət kəsb edən topoqrafik xəritəsini ələ keçirir. Bir ay sonra isə Mehdi alman zabiti formasında düşmən kazarmasına daxil olub, yanğınsöndürən məlzəməyə mina qoyaraq mərkəzi otağı partladır.

Vaxt ötdükcə Mehdi Hüseynzadə düşməndə qorxu, səksəkə yaradırdı. Aprel ayının 2-də Mehdi Hüseynzadə Mirdaməd Seyidovla birgə Triyest şəhərindəki "Opçina" kinoteatrında film zamanı zala girib kresloların altına gec açılan mina qoyur, sezilmədən oranı tərk edir. Bir azdan güclü partlayış baş verir. Partlayış nəticəsində 80 nəfər düşmən əsgəri həlak olur, 60 nəfəri ağır, 200 nəfəri isə yüngül yaralanır. Yaralılardan 40 nəfəri də elə xəstəxanada ölür.

Həmin ay Mixaylonun həyata keçirdiyi əməliyyat nəticəsində Triyest şəhərində, Via Qeqa küçəsində yerləşən "Soldaten xeym" əsgər evi də partladılır.



Bir müddətdən sonra Mehdi öz yoldaşları Əli Tağıyev və antifaşist Hans Fritslə birgə Postyano dəmiryolu stansiyası yaxınlığındakı körpünü partladır. Almanların 24 vaqondan ibarət yük qatarı pərən-pərən olur.

Partizan qərargahının qərarı ilə Mixaylo və Mirdaməd Seyidov gestapo mayoru N.Kertneri edam edirlər. Yayın axırlarında diviziya komandanlığının tapşırığına əsasən, Mehdi Hüseynzadə taqımına rəhbərlik edən Əkbər Ağayevlə birgə geri çəkilən alman hissəsinə qarşı əməliyyat keçirdilər. Döyüşdə çox sayda alman əsgər və zabiti məhv edilir. Düşmənin 10-dan çox yük maşını yararsız hala salınır. 1944-cü ilin 16 noyabrında Vitovle adlı Sloven kəndindəki alman ambarlarında müxtəlif ləvazimat, silah-sursat götürmək məqsədilə aparılan uğursuz əməliyyatdan sonra faşistlər Mehdinin izinə düşüb olduğu yeri mühasirəyə alır. Kənd camaatı qəhrəman Mixaylonu gizlədir. Mixaylo isə yerini faşistlərə xəbər vermək istəməyən kəndlilərin həyatını xilas etmək üçün atəş açır və son gülləsinəcən döyüşür. 25 düşmən əsgərini məhv edib, sonuncu patronu isə öz köksünə sıxır…

Onun cəsədi yerli sakinlər tərəfindən torpağa tapşırılır. Sonra Çepovanidəki qəbiristanlıqda yenidən dəfn edilir. Mehdinin qəbri üstünə qoyulmuş daşın üzərində yazılıb:

"Yat, bizim sevimli Mehdi, ey Azərbaycan xalqının qəhrəmanı! Sənin azadlıq naminə göstərdiyin əbədi igidlik dostlarının qəlbində həmişə yaşayacaq!"

Mehdi Hüseynzadənin Müqavimət Hərəkatındakı rolu və fəaliyyəti Sovet İttifaqında uzun müddət üstüörtülü qaldı. Bu barədə ilk işartı Qələbədən on bir il sonra göründü.

Belə ki, "Krasnaya zvezda" qəzeti 1959-cu ilin 31 may tarixli sayında keçmiş partizan V.Sokolovun xatirələrinə əsasən, "Mixaylonun" qəhrəmanlığına həsr olunmuş "Partizanın igidliyi" adlı material çap etdi.

Çox keçmədən, həmin ilin oktyabrında başqa bir partizan Q.A.Jilayev "Mehdi Hüseynzadə (Mixaylo) haqqında xatirələr"ini qələmə aldı. Əlyazmasını isə Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutuna göndərdi. İnstitut qısa bir müddət ərzində cəsur partizanın igidliyi haqqında saysız qiymətli materiallar toplamağa nail oldu.

Azərbaycan SSR DTK-sı İkinci Dünya müharibəsi zamanı Yuqoslaviya və İtaliya ərazisində leytenant Mehdi Hüseynzadənin qəhrəmanlıqlarının təsdiqi üçün araşdırmalara başladı. Bu araşdırmalar Sovet Ordusu leytenantının qəhrəmanlığını sübut edən faktların ortaya qoyulması ilə nəticələndi. Həmçinin, Yuqoslaviya tərəfindən də əlavə sənədlər təqdim olundu.

Beləliklə, 1957-ci il aprel ayının 11-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Mehdi Hənifə oğlu Hüseynzadəyə, ölümündən xeyli sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.






*"Tarixi nə yenidən yazmaq, nə də silmək olar. Birinci Dünya müharibəsində Sloveniya ərazisində 40 min, İkinci Dünya müharibəsində isə təkcə Maribor şəhərindəki əsir düşərgəsində Qızıl Ordunun 5 min hərbiçisi olub. Buradan qaçanlar isə partizan dəstələrinə qoşulurdular. Onlardan biri - Mixaylo ləqəbli əfsanəvi partizan Mehdi Hüseynzadə Yuqoslaviya Xalq Azadlıq ordusunun sıralarında döyüşürdü. Unudulmaz qəhrəmanın şərəfinə Sloveniyada abidə də ucaldılıb".*

***Rusiyanın "Birinci kanalı"***







**YUQOSLAVİYA MİLLİ AZADLIQ ORDUSU 9-CU KORPUS 31-Cİ DİVİZİYASININ KEÇMİŞ QƏRARGAH RƏİSİ STANKO PETELİNA-BOYKONUN XATİRƏLƏRİNDƏN:**

May 1944-cü il

1944-cü ildə 31-ci diviziya tərəfindən aparılan uğurlu təxribat fəaliyyəti barədə söhbət düşəndə, Tadek Sadevski-Tomo*nun və Yevgen Mateyk Pemtsin** adları ilə yanaşı, diviziyanın daha iki minaçısını - Mark Kalişniki və Mixaylonu - Mehdi Hüseynzadəni yada salmamaq ədalətsizlik olardı.

Qradnikovo briqadası 1-ci batalyon 1-ci rotasından Mixaylo misilsiz uğurlar qazanıb. O, alman zabiti geyimində düşmənin zabit və əsgərləri toplanan məkanlara girərək, partladıcı maddə dolu paketlər qoyurdu.

1944-cü il aprel ayının 2-də də Triyest şəhəri ətrafındakı Opçina qəsəbəsindəki kinoteatrda film göstəriləndə (tamaşaçıları əsasən alman zabitlərindən ibarət olan) Mehdi gecəçılan minaları kreslələrin altına yerləşdirməklə zalı tərk edir.

Zalda 350 nəfər tamaşaçı vardı. Partlayış dəhşətli dağıntı törətdi. Sonra məlum oldu ki, partlayış zamanı 80 nəfər elə yerindəcə qalmışdı. Hospitalda isə 40 nəfər alman zabiti aldıqları yaralardan dünyasını dəyişmişdi.

Partlayış bağlı binada baş verdiyindən bu, tamamilə ağlabatan məsələ idi.

Həmin təxribatla yanaşı, Mixaylo heç də ondan asan olmayan qeyri-tapşırıqları da uğurla yerinə yetirirdi. Hesablamalara görə, onun apardığı əməliyyatlar nəticəsində əksəriyyəti zabitlər olmaqla, min nəfərə yaxın faşist məhv edilmişdi. Odur ki, almanların onu istənilən yolla öz əllərinə keçirmək cəhdində təəccüblü heç nə yox idi. Faşistlər öz məqsədlərinə 1944-cü ilin iyulunda çatdılar. Onda Mixaylo döyülmüş vəziyyətdə onlardan qaçaraq partizanlara qoşulur.

Yalnız bir neçə aydan sonra, 1944-cü il noyabr ayının 2-də almanlar onu Vipav vadisində, Vitovle kəndində mühasirəyə aldılar. Xilas olmağın heç bir yolu yox idi. Faşistlər onu gizlətdiklərinə görə camaatı sırayla qırmağa başlayanda, Mehdi özü meydana çıxıb son güllləsinə qədər vuruşdu. Son gülləsini isə özünə sıxdı.

Mənbə:

"Sovet adamları yuqoslav xalqının 1941-1945-ci illərdəki azadlıq mübarizəsində",
Materiallar, sənədlər və xatirələr,
M., 1973, səh. 189-190

* Tadek Sadevski-Tomo - 1943-cü ildən sloven partizanlarının sırasında döyüşmüş Polşa antifaşisti.

** Yevgen Mateyk Pemts Yuqoslaviyanın Xalq Qəhrəmanı. 1944-cü ildə Sloveniya Milli Azadlıq Ordusu və Partizan Dəstəsinin Kəşfiyyat Mərkəzinin rəisi.

*** Söhbət Yuqoslaviya Milli Azadlıq Ordusu 9-cu korpusunda 31-ci diviziyanın İvan Qradnik adına 3-cü Sloveniya briqadasının rus rotasından gedir.



## RİXARD ZORGE
## (1895-1944)

1895-ci il oktyabr ayının 4-də Bakının Sabunçu qəsəbəsində, alman neftçi ailəsində anadan olub. 1899-cu ildə xeyli sərvət toplayan Zorgenin atası ailəsini də götürüb Almaniyaya qayıdır.

Rixard Berlində yüksək dərəcəli orta məktəbi bitirir. Lap erkən çağlarından tarix, fəlsəfə, siyasətlə maraqlanan Zorge 1914-cü ildə könüllü olaraq cəbhəyə gedir. Yaralanır. Almaniyaya dönüb Berlin Universitetinə qəbul olunur. Lakin təhsilini yarımçıq qoyub, Şərq cəbhəsinə yollanır. 1916-cı ildə sol sosialistlərlə yaxınlaşır və möhkəm əqidəli kommunist olaraq yetkinləşir.

Şərq cəbhəsində üç dəfə yaralanır. Axırıncısı onu ömürlük şikəstə çevirir. Bir ayağı 2,5 sm qısalır. Həmin ildə də unter-zabit Zorge müharibədə iştirak etdiyinə görə 2-ci dərəcəli Dəmir xaç nişanı alaraq ordu sıralarından təxris olunur.

Zorge təhsilini davam etdirməkdən ötrü Kil Universitetinə keçir. 1918-ci ilin noyabrında Kildə baş qaldıran üsyana - Kil dənizçilərinin etiraz hərəkatına qoşulur.

Fəhlə sinfinin yaşadığı şəraitini öyrənmək məqsədi ilə Rur kömür hövzəsinin şaxtalarında işləməyə gedir. Bir ilə qədər şaxtada çalışır.

1919-cu ilin dekabrında Almaniya Kommunist Partiyası sıralarına daxil olur. Universiteti siyasi elmlər doktoru dərəcəsi ilə bitirir. Müəllimlik edir. Bir sıra kommunist yönümlü qəzetlərdə redaktorluq edir. Xüsusi institutda çalışır. Siyasi fəaliyyətinə görə repressiyalara məruz qalır.

1929-cu ildə Rixard Zorge Sovet İttifaqına gəlir və bu ölkənin vətəndaşlığını qəbul edir. Sovet təşkilatlarında çalışır.

Beynəlxalq münasibətlərə aid bir sıra əsərlər yazır. 1925-ci ildə ÜİK(b)P-yə üzv qəbul edilir. 1925-1929-cu illərdə Marksizm-Leninizm İnstitutunda elmi işlə məşğul olur.

1929-cu ildə R.Zorge Sovet hərbi kəşfiyyatının rəhbəri U.K.Berzin tərəfindən kəşfiyyata cəlb edilərək, Almaniyada və Çində bir sıra mühüm tapşırıqları yerinə yetirir.

1930-cu illərin birinci yarısında "Ramzay" ləqəbi altında Şanxayda işləyir. Çində işlədiyi illərdə alman jurnalisti və özünü ali irqin "əsl nümayəndəsi" kimi göstərərək nasist dairələrində yüksək etimad, nüfuz qazanır. 1933-cü ildə isə nasist partiyasına "qəbul" edilir. Elə həmin ildə Zorge alman qəzetinin əməkdaşı kimi Yaponiyaya gəlir.

Bir çox cəhətdən qeyri-adi şəxsiyyət, dərin analitik, istedadlı jurnalist olan Zorge qiymətli informasiya mənbəyinə çevrilir. Onun Yaponiyada yaratdığı antifaşist təşkilatı yapon militaristləri və alman faşistlərinin müharibəqabağı, eləcə də onun ilk mərhələlərini əhatə edən işğalçılıq planları barədə çox vacib, həm də ən gizli məlumatlar toplayırdı.

Zorge qrupunun əsas məqsədi Yaponiya və SSRİ arasında baş verə biləcək müharibə təhlükəsinin qarşısını almaq idi ki, bunu da onlar çox əla bacardılar. 1941-ci ilin payızında Zorgedən xəbər gəldi. Yaponiya Sakit okeanda ABŞ-la döyüşəcək, SSRİ-ilə müharibəyə isə girməyəcək. Bu məlumat SSRİ-yə öz qoşunlarını Qərbə çəkməyə imkan yaratdı.

Rixard Zorge 1941-ci il oktyabr ayının 18-də Yapon hökuməti tərəfindən həbs edildi. 1943-cü ildəsə ona ölüm hökmü kəsildi. Zorgeni SSRİ-dəki yapon rezidenti ilə dəyişdirmək cəhdinə də məhəl qoyulmadı. Rixard Zorge 1944-cü il noyabr ayının 7-də Suqamo həbsxanasında edam edildi. Onun qəbri Tokiodadır.

1964-cü il noyabr ayının 5-də SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Rixard Zorgeyə, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.





# CƏBRAYILOV ƏHMƏDİYYƏ MİKAYIL OĞLU
## (1920-1994)

Ə.M.Cəbrayılov 1920-ci ildə Şəki rayonunun Oxud kəndində anadan olub. 1938-ci ildə Şəki Kənd Təsərrüfatı Texnikumunu zootexnik və aqronomluq ixtisasları üzrə bitirir. Müharibə başlayanda könüllü olaraq cəbhəyə getmək istəyir, lakin onu Novinnomıskadakı aviasiya məktəbinə oxumağa göndərirlər.

1942-ci ilin aprel ayında məktəbi bitirən Əhmədiyyə Donbas rayonunda 150-ci alaya kiçik siyasi rəhbər götürülür.

1942-ci ilin yayında 350-ci alay İzyum rayonunda, Şimali Donets çayının sahilindəki döyüşlərdə mühasirəyə düşür. Əhmədiyyə Cəbrayılov həmin döyüşdə ağır yaralanır, huşunu itirən Əhmədiyyə almanlara əsir düşür. Ukrayna, Polşa, Almaniyadakı faşist həbs düşərgələrində, o cümlədən, ən dəhşətli konslagerdə - Dahauda saxlanılır.

Sonralar Elzas-Lotaringiyadan hərbi əsirləri daşıyan eşalonla Əhmədiyyə Fransanın cənubuna, Podezə göndərilir. Podezdəki hərbi əsir düşərgəsindən qaçmağa cəhd göstərən Əhmədiyyəni tutan almanlar onu qəddarcasına döyür, işgəncə verirlər. Sinəsinə 4167 nömrəsi yazılmış yarımcan Əhmədiyyəni hər gün məcburi işə çıxarırdılar.

Növbəti dəfə amansızcasına döyülən, çoxlu qan itirən Əhmədiyyənin öldüyünü zənn edən almanlar onu dəfn etmək üçün əsir düşərgəsinin xidmətçisi Madam Jannanı çağırırlar. Xidmətçi Janna əsirin ölmədiyini anlasa da, dəfn mərasimini təqlid edir və gecədən xeyli keçmiş yerli vətənpərvərlərin köməyilə yarımcan Əhmədiyyəni tabutdan çıxarıb öz evinin zirzəmisində gizlədir.

Müalicə olunub ayağa qalxan Əhmədiyyə günahsız insanlar adına faşistlərdən alacağı qisas hissi ilə alışıb yanır. O, partizanların yanına gedir və qəti, cəsarətli əməliyyatlara başlayır. Dəmiryol xətlərini, körpüləri partladır, ərzaq daşıyan eşalonları, faşist anbarlarını, alman tanklarını yandırır. Gizli antifaşist hərəkatında onun "Xarqo", "Rjus Armed", "Frajı", "Kuraje" və s. kimi ləqəbləri vardı.

Bu cəsur azərbaycanlının igidliyi haqqındakı xəbər Fransa Müqavimət Hərəkatının lideri, şanlı general Şarl de Qollacan gedib çatır. O, Əhmədiyyə ilə şəxsən görüşmək, tanış olmaq istədiyini bildirir.

Görüş zamanı general ona bir sıra məsuliyyətli tapşırıqlar verir. Ə.Cəbrayılov onların hamısını diqqətlə hazırlayıb, dəqiqliklə həyata keçirir.

Hitlerçi işğalçı hakimiyyət "Xarqo"nun başına 70 min alman markası təyin edir, onu tutana iki təzə avtomobil verəcəyini vəd edir.

1944-cü ilin avqustunda Ə.Cəbrayılov Parisin azad olunması münasibəti ilə təşkil edilmiş banketdə fəxri qonaq kimi iştirak edir (bunu fotoşəkillər də təsdiq edir).

Ə.Cəbrayılov 1947-ci ildə general Şarl de Qollun köməkliyi ilə SSRİ-yə qayıdır. Moskvada siyasi yoxlama "süzgəcindən" keçərkən fransız hökumətinin bu igid azərbaycanlı balasına verdiyi mükafatların hamısı onun əlindən alınır.

Azərbaycana qayıdan Ə.Cəbrayılov ailə qurur, ali təhsil alır. Kolxozda baş aqronom kimi çalışır.

1966-cı ildə Fransanın prezidenti seçilən Şarl de Qoll SSRİ-yə rəsmi səfərə gəlir. O, SSRİ-yə səfər proqramına Şəkiyə də getməyi, özünün əfsanəvi kəşfiyyatçısı ilə görüşməyi də daxil edir. Ancaq Sovet hökuməti bunu məqsədəuyğun saymır və Ə.Cəbrayılovu şəxsən Moskvaya dəvət etməyə üstünlük verir.

General de Qollun təkidi ilə Əhmədiyyə onun Moskvadakı iqamətgahına gətirilir.

1972, 1975, 1982-ci illərdə Ə.Cəbrayılov özünün keçmiş döyüş yerlərinə, Paris, Rodez, Montaban, Tuluza, Albi, Lion, Dijon, Marsel və b. şəhərlərə baş çəkir (əlbəttə ki, bu səfərə rəsmi Moskvanın izni və dəstəyi ilə gedir) və həmin yerlərdə sağ qalmış antifaşist dostları ilə görüşür.

Parisdə Ə.Cəbrayılovu Fransa Senatının üzvü Jak Düklo qəbul edir və ona görüşə həsr olunmuş xatirə medalını təqdim edir.





Əhmədiyyə Cəbrayılov fransızların dəvəti ilə 1990-cı ilin noyabrında general Şarl de Qollun anadan olmasının 100 illiyi münasibətlə keçirilən tədbirlərdə iştirak etmək üçün Parisə yola düşür. Həmin təntənələrdə ona ayrı-ayrı dövlət başçıları ilə yanaşı oturmaq, görkəmli sərkərdə və dövlət xadiminin məzarı üstünə əklil qoymaq, kürsüdən şanlı general barədə öz xatirələrini bölüşmək imkanı da verilir. Ən maraqlısı budur ki, Fransanın milli qəhrəmanı – soydaşımız Əhmədiyyə küçə ilə gedərkən belə insanlar ona təzim edir, qəhrəmanını qürurla salamlayırdı. Ə.Cəbrayılov müsahibələrində bu barədə ayrıca söz açırdı. Qeyd edək ki, elə həmin il Əhmədiyyə Cəbrayılovun oğlu Mikayıl da Qarabağ müharibəsində qəhrəmancasına həlak oldu!... Şəhidlik zirvəsinə ucaldı.

Əhmədiyyə Cəbrayılov 1994-cü ilin oktyabrında doğma Şəki rayonunda avtomobil qəzasında haqq dünyasına qovuşdu. O, Oxud kənd qəbiristanlığında, oğlu Mikayılın yanında torpağa tapşırıldı.

Ə.Cəbrayılovun vəfatının ildönümündə onun məzarı üstündə Azərbaycan hökumətinin rəsmi sifarişi ilə heykəltaraş M.Salikovun hazırladığı bürünc abidə ucaldıldı. Bu əfsanəvi qəhrəmanın xatirəsini əziz tutan insanlar axın-axın gəlib anım mərasiminə toplaşdılar və həmin mərasimdə Fransanın Azərbaycandakı ilk səfiri Jan Perren çıxış edərək, qəhrəmanın qəbri üstünə tər çiçəklərdən əklil qoydu.

Əhmədiyyə Cəbrayılovun döyüş dostu, Mantaban şəhərində yaşayan Rene Şambar 1998-ci ildə Bakıya səfər edərkən Oxud kənd qəbiristanlığına gedərək, silah dostunun ruhu qarşısında baş əydi və Əhmədiyyənin qəbrinin üstünə payız çiçəkləri düzdü.

Rene Şambar Əhmədiyyə haqqında xatirələrində yazırdı: - «Armed Mişelin qələbələri qeyri-adi idi. O, ən cəsur, ən mərd döyüşçü idi. Əhmədiyyə Müqavimət hərəkatında öz missiyasını çox dəqiq və aydın bilirdi. O, həyatın çətinliklərindən, keçdiyi sınaqlardan, çəkdiyi olmazın əzablardan bir dəfə də olsun gileylənməzdi. O, bənzərsiz insan idi. Bizim nəslin hamısı onun qəhrəmanlığını həmişə xatırlayacaq, qəlbində yaşadacaq. Armed Mişel indi aramızda yoxdursa da, onun ruhu daim bizimlədir. Qoy, bu payız çiçəkləri onun ruhu kimi məzarına ətir saçsın».

Fransanın respublikamızdakı səfiri, digər fransız qonaqlar da hər il payızda Oxuda gəlir, Fransa torpağının faşist vəbasından qurtuluşu uğrunda döyüşmüş igid bir insanın qəbri üstünə tər çiçəklər düzürlər.



*Azad olunmuş Parisdə general Şarl de Qollun şöhrətli kəşfiyyatçı ilə görüşü. Üzərində "1944-cü il avqust" tarixi qeyd olunan nadir fotoşəkildə Parisin qurtuluşu münasibəti ilə təşkil olunmuş ziyafətdə qəhrəman soydaşımız de qollçularla birlikdə əks olunub. Banket süfrəsinin başında Fransa Müvəqqəti Milli Hökumətinin sədri, briqada generalı Şarl de Qoll oturub. Onun sağ tərəfində isə Əhmədiyyə Cəbrayılov, Madam Jannanın qızı, tərcüməçi Sara əyləşib.*



# BÜNYADOV ZİYA MUSA OĞLU
## (1921-1997)

Ziya Bünyadov 1921-ci il dekabr ayının 24-də Astara şəhərində Birinci Dünya müharibəsi veteranı, hərbi tərcüməçi Musa Mövsüm oğlu Bünyadovun ailəsində dünyaya göz açıb. Musa Bünyadovun soy-kökü xalq arasında çox böyük nüfuza malik Bibiheybət şeyxlərinin üləmalar nəslindəndir.

Ziya Bünyadov uşaqlıqdan Azərbaycan dilindən başqa, rus dilini də mükəmməl bilirdi. Atası ona ərəbcəni və "Quran" oxumağı da öyrətmişdi.

Orta məktəbi 1939-cu ildə bitirən Ziya Bakıdakı hərbi piyada məktəbinə daxil olur. 1941-ci ilin mayında məktəbi bitirib, leytenant rütbəsi alır və Moldaviyanın Benderı şəhərindəki hərbi hissəyə göndərilir. Bu hissədə atıcı taqımın komandiri vəzifəsində qulluq etməyə başlayır.

1942-ci ilin avqust ayından Böyük Vətən müharibəsinin ön cəbhəsində vuruşur. Ukrayna, Moldova, Qafqaz (Mozdok, Tuapse), Belarus, Polşa uğrunda gedən döyüşlərdə iştirak edib. Savaş meydanında mərdlik, qəhrəmanlıq nümunələri göstərib. Döyüşlərin birində cəbhə xəttini keçərək alayın bayrağını xilas edib, mühasirədən çıxarmışdı.

Ziya Bünyadov Böyük Qafqazın dağ ətəklərində gedən müdafiə döyüşlərində 120 nəfərlik rotaya komandirlik edirdi. Saratovdakı Volqa donanmasının 50 nəfər matrosu da bu rotanın şəxsi tərkibindəydi.

Növbəti döyüş zamanı 17 əsgərlə birlikdə almanların 17 ədəd zirehli texnikasını məhv edən Ziya bu döyüşdə başından qəlpə yarası alır.

Təbiətən çılğın olan Ziya Bünyadovun komandanlıqla sözü düz gəlmir. Odur ki, Diviziya komandiri onu 1945-ci ilin yanvarında yanına çağırıb, cərimə rotasına komandir göndərir. Beləliklə, kapitan Ziya Bünyadov 1-ci Belarus cəbhəsi, 5-ci hücumçu ordunun 123-cü cərimə rotasının komandiri təyin edilir.

Yanvar ayının 14-də Palçek kəndi yaxınlığında, Visla-Oder əməliyyatının gedişində kapitan Bünyadovun rotası Politsa çayı üzərindən keçən minalanmış körpünü tutub bir neçə saat, əsas qüvvələr gələnə qədər əlində saxladı. Döyüşdə düşmənin 100 əsgərini məhv edib, 45 nəfərini əsir götürdülər. 5 ədəd 6 lüləli minamyot, 3 top ələ keçirildi. Təbii ki, çox böyük itki hesabına. Rotanın 670 əsgərindən yalnız 47-si salamat qalmışdı.

Ziya Bünyadovun komandiri olduğu rotanın bu qəhrəmanlığı sayəsində Sovet qoşunları Visla-Oder çayları arasındakı genişliyə çıxaraq, Berlinə doğru 90 km-ə yaxın bir məsafədə sürətlə irəliləyə bildi.



*Heydər Əliyev və Ziya Bünyadov*

1945-ci il fevral ayının 27-də Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Berlin uğrunda gedən döyüşlərdə Bünyadov faşistlərin metro tunelinə su buraxdıqları zaman orada gizlənən dinc sakinləri xilas etdi. Almaniyanın təslim olması anına qədər Ziya Bünyadov döyüşərək, gedib Sileziya vağzalına yetişdi. Fəqət onun 700 nəfərlik rotasından ancaq 7 nəfər əsgəri salamat qalmışdı.







Ziya Bünyadov 1945-ci ilin mayından 1946-cı ilin mayına qədər Berlin şəhərinin Pankov rayonunda hərbi komendantın köməkçisi işləyir. Bu vəzifədə o, dağıdılmış şəhərin təsərrüfat və mədəni həyatını bərpa etməkdə əlindən gələni əsirgəmədən çalışır, almanların da hörmətini qazanır, xoş xatirələrlə onların qəlbində qalır...

Podpolkovnik Ziya Bünyadov 1946-cı ildə ehtiyata buraxılır.

Vətənə dönən Ziya 1950-ci ildə Moskva Şərqşünaslıq İnstitutunu, 1954-cü ildə isə Moskva Dövlət Universitetinin aspiranturasını bitirdi. "İtalyan imperializmi Afrikada" mövzusundakı namizədlik dissertasiyasını 1954-cü ilin may ayında tamamlandı. Həmin ilin avqustunda isə Azərbaycan SSR Elmlər Akademiyasının Elmi-Tədqiqat Tarix İnstitutunda baş elmi işçi vəzifəsinə işə götürüldü. 1964-cü ildə "Azərbaycan VII-IX əsrlərdə" adlı doktorluq işini müdafiə etdi. Professorluq dərəcəsini 1965-ci ildə aldı. 1967-ci ildə isə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1976-cı ildən isə həqiqi üzvü, akademik seçildi. 1981-ci ildə Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinə təyin edildi, 1990-cı ildən isə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti idi. Böyük şərqşünas alim müstəqillik illərində akademik Vasim Məmmədəliyevlə birlikdə "Qurani Kərimin" Azərbaycan dilinə mənaca tərcüməsini işləyib hazırladı.



Ziya Bünyadov 1997-ci ildə, Bakıda öz evinin qarşısında xain əllərlə güllələndi. Onun məzarı Fəxri Xiyabandadır. Bakının ən böyük prospektlərindən biri xalqımızın qəhrəman övladının, böyük insanın, elm xadiminin, akademik Ziya Bünyadovun adını daşıyır.



# O, DAHİLİK ABİDƏSİ İDİ



Hər xalqın, hər millətin özünü dərk etməsində, tərəqqisində nadir şəxsiyyətlərin həlledici rolu olur. Onların hər biri tarixin səhifələrinə öz möhürünü vurub, imzasını qoyub. Bu şəxsiyyətlər tarixin ayrı-ayrı dövrlərində yaşasalar da, məqsədləri, amalları bir olub – Vətənə, xalqına, millətinə təmənnasız xidmət etmək.

Belə Vətən oğulları arasında Ziya Bünyadovun da parlaq yeri var. Böyük şəxsiyyət. Sadə və gözəl insan. Bütün bunlar bir adama mənsub olsa da, hamısı böyük hərflə yazılmalıdır... Çünki Ziya Bünyadov, sözün əsl mənasında, böyük insan, qeyrətli vətəndaş idi.

Ziya Bünyadov ensiklopedik biliyə malik alimlərimizdən idi. Onu haqlı olaraq, bilik xəzinəsi adlandırırdılar. O, orta əsrlər və mənbəşünaslıq üzrə elmi məktəbin banisidir və şübhəsiz ki, onun tədqiqatları dünya şərqşünaslıq elminin zənginləşməsinə uzun müddət xidmət edəcəkdir.

Ziya Bünyadov 50-ci illərin ortalarından ömrünün sonuna qədər ictimai elmlərin inkişafı, onun qorunması sahəsində əsl mübariz kimi çalışıb. O, Elmlər Akademiyasının vitse-prezidenti kimi respublikada ictimai və humanitar elmlərin inkişafı, onun inkişafının təkmilləşməsi, bu sahədə formalaşan alimlərin əsl vətənpərvər, əsl ziyalı kimi yetişməsi üçün çox səy göstərirdi.

Onun ilkin orta əsrlər və orta əsrlər tariximizlə, dini dayaqlarımızla bağlı ən möhtəşəm əsərlərin işıq üzü görməsində hədsiz xidmətləri olub.

"Qurani-Kərim"in ana dilimizə çevrilməsində də Ziya Bünyadovun əvəzsiz xidməti olmuşdur. O bu işi akademik Vasim Məmmədəliyevlə başlayanda çox əziyyətlərə üzləşməli olmuşdur.

Bu müqəddəs kitabı yalnız mükəmməl, ensiklopedik biliyə malik olan intellektlər tərcümə edə bilərdi. Bu vəzifəni yerinə yetirmək üçün Şərq aləmini, islam tarixini dərindən öyrənmək, ərəb dilini səlis bilmək lazım idi. Bütün bunlar isə Ziya Bünyadovda var idi ki, bu da islam dünyasının müqəddəs kitabının ana dilimizdə yüksək səviyyədə çap olunmasına səbəb oldu.

Təkcə bu fakt, yəni müqəddəs kitabımız – "Qurani-Kərim"in Azərbaycan dilinə tərcüməsi Ziya Bünyadovun adının Azərbaycan xalqının tarixində əbədiləşdirilməsinə kifayət edərdi.

Ziya Bünyadov vətənpərvər, ana torpağına bağlı bir insan idi. Həm də bu müqəddəs bağlılıq onun dərin elmi tədqiqatlar aparması, Azərbaycan xalqının tarixinin düzgün araşdırılması ilə qırılmaz vəhdət təşkil edirdi.

Ziya Bünyadov keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda da erməni millətçilərinin, erməni daşnaklarının iftira və haqsız iddialarına qarşı prinsipial mübarizə aparırdı. Böyük alim konkret, zəngin tarixi faktlar gətirməklə, Azərbaycan xalqının ədalətli mövqeyi barədə beynəlxalq məclislərdə alovlu və əsaslı çıxışlar edirdi.

Ziya Bünyadov erməni millətçiləri üçün çox təhlükəli şəxsiyyət idi, onun əsərlərində, hətta erməni mənbələrinə əsaslanaraq apardığı tədqiqatlarda ermənilərin yeritdikləri çirkin siyasətin mahiyyəti aşkar olunurdu. Tarixi saxtalaşdırmaqda, özlərini başqa millətlərdən üstün tutmaqda ad çıxarmış erməni tarixçiləri Ziya Bünyadov səddini aşa bilmir, yarı yolda ifşa olunurdular.

Bir hadisəni yada salmaq istəyirəm. 1966-cı ildə Elmlər Akademiyasının partiya konfransının iclası keçirilirdi. O vaxtlar mən, Ziyad Səmədzadə EA İqtisadiyyat İnstitutunda işləyirdim, eyni zamanda, EA komsomol komitəsinin katibi idim. Partiya konfransında Azərbaycan KPMK-nın birinci katibi Vəli Axundov da iştirak edirdi. Yaxşı yadımdadır, iclas zalına qalxarkən, pilləkənlərin üstündə Vəli Axundovla Ziya Bünyadovun səmimi və ciddi söhbətinin şahidi oldum. Ziya Bünyadov Vəli Axundova deyirdi ki, ermənilər məni rahat buraxmır, məni təhqir edir, mənə hücumlar edirlər, ancaq mən özümü başımla da, silahla da qorumağa hazıram... V.Axundov ona diqqətlə qulaq asdıqdan sonra yanındakı yoldaşlara nə isə tapşırdı...

Həmin il Ziya Bünyadovun böyük marağa səbəb olan "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiyası çapdan çıxmışdı. Kitabda gətirilən faktlar, çıxarılan elmi nəticələr erməni millətçilərinin Azərbaycana qarşı bir sıra fitnəkar fikirlərini alt-üst edirdi. Ona görə də, erməni millətçiləri Ziya Bünyadova qarşı hər cür xəyanətə əl atırdılar. Amma Ziya Bünyadova bata bilmirdilər.

Ziya Bünyadovun nəhəngliyi respublikamız müstəqillik əldə etdikdən sonra özünü daha qabarıq büruzə verdi. Həmin dövrdə respublikada ictimai-siyasi hadisələr çox gərgin inkişaf edirdi. Belə bir vəziyyətdə çoxları özünü itirir, tez-tez fikirlərini, mövqelərini dəyişirdi, necə deyərlər, külək əsən yerə səmt götürürdülər. Amma Ziya Bünyadov ömrünün son dəqiqələrinə qədər fikrindən dönmədi, heç kimin qarşısında əyilmədi. O, başa düşürdü ki, Azərbaycanın müstəqilliyini qorumaq üçün xalqın taleyilə oynamaq olmaz. O, meydana çıxan saxta "siyasətbazlar"ı millətin tərəqqisinə zidd olan əməllərdən çəkinməyə çağırırdı.

90-cı illərin əvvəllərində Azərbaycan Elmlər Akademiyasının dağılmaq təhlükəsi var idi. Ziya Bünyadov bu müqəddəs elm məbədinin dağılmasını irəli sürən üzdəniraq, elmdən xəbəri olmayan adamlara, elmə təsadüfən gələn, antimilli, antivətən mövqeyində duran bu "ziyalı"lara kəskin, tutarlı cavablar verirdi. Onu da unutmayaq ki, o illər çox çətin illər idi.

Ziya Bünyadov Azərbaycanı ən mötəbər, yüksək səviyyəli məclislərdə təmsil edirdi. O, Milli Məclisin deputatı kimi də böyük işlər görürdü. Ziya Bünyadovun tariximizin ağ ləkələri olan işləri açmaqda xidməti əvəzsizdir. O, Dövlət Təhlükəsizlik Komitəsinin arxivini araşdıraraq, onun materiallarından istifadə etməklə, repressiya qurbanları haqqında respublika mətbuatında silsilə məqalələr dərc etdirir...

Ziya Bünyadovun alovlu çıxışları, çox təsirli məqalələri Sovet dövrü tariximizin müəyyən bir mərhələsinə işıq saçırdı.

Bu böyük insan arabir də olsa, istirahət etməyi xoşlayardı. Ancaq onun istirahəti də ənənəvi istirahət normalarından uzaq idi. Ziya Bünyadov çox gərgin, məhsuldar, bəzən də əsəblə keçən iş günlərinin əzab-əziyyətini ömür yoldaşı Tahirə xanımın diqqəti, qayğısı sayəsində bir qədər unudurdu.

Ziya Bünyadovla Xəzərin sahilində gəzdiyim günləri xatırlayıram. O, dənizin ləpədöyənində xəyala dalmağı çox xoşlayardı. Saatlarla söhbət edərdik. Azərbaycanın ictimai, sosial-iqtisadi problemlərinə dair məsələlərdə yorulmadan danışardıq. Mən Mərkəzi Komitədə, Dövlət Plan

Komitəsində, Ali Sovetdə çalışdığım zamanlarda onunla tez-tez təmasda olur, məsləhətlər alırdım.
O, bizim Buzovnadakı evimizdə, necə deyərlər, ata yurdumuzda da çox olub. O gələndə bütün məhəllə bilirdi ki, Ziya Bünyadov bizim qonağımızdır və onu görmək üçün hamı evimizin ətrafında yığışardı. Hər gəlişi böyük sevinclə qarşılanırdı. Ailəmiz onu çox sevirdi. Uşaqla uşaq, böyüklə böyük idi Ziya Bünyadov. Sadəliyi böyüklüyündən irəli gəlirdi.
İlk baxışdan sadə görünən bu insan bəzən olduqca sərt, hətta bir qədər kobud, zəhimli olurdu. Amma bəziləri bilmirdi ki, bu böyük insanın körpə kimi saf, tərtəmiz qəlbi var. Hərdən uşaq kimi ərköyünlüyü də bundan irəli gəlirdi. Belə idi Ziya Bünyadov, ömrü boyu mübarizə aparmaq üçün doğulmuşdu elə bil. Heç nəyə biganə qala bilmirdi.
Sərt çıxışları ilə Azərbaycan xalqının taleyilə oynayanları, xalqın sərvətini talayanları, müstəqilliyinə biganə olanları həmişə qamçılayırdı. Bəlkə də elə bütün bunlar - onun mübarizliyi, liberal olmaması, Azərbaycanın gələcəyinə qəti inamı, bu istiqamətdə onun yorulmaz fəaliyyəti Azərbaycan xalqının düşmənlərini narahat edirdi... Bəlkə ona tuşlanan silahın da səbəbi bu idi?!.
Ziya Bünyadovdan danışanda onun əsl qəhrəmanlığını qeyd etməmək ən azı günah olar. Bəli, Ziya Bünyadov, hər şeydən əvvəl, qəhrəman idi. Təkcə ona görə yox ki, Böyük Vətən müharibəsindən qalib kimi qayıtmışdı. Həm də ona görə ki, sonralar da, həmişə, son nəfəsinə qədər Vətəninin keşiyində durub, onun azadlığı uğrunda mübarizə aparıb, tutduğu mövqedən dönməyib!..
Bütün Avropanı diz çökdürmüş faşist Almaniyasının apardığı müharibədən Ziya Bünyadov qələbə ilə qayıtmışdı. İnanmaq çətin olsa da, Ziya Bünyadov öz vətənində qətlə yetirildi. Namərd gülləsinə tuş oldu. Vəhşicəsinə susduruldu.
Ziya Bünyadova dəyən güllə bütün Azərbaycana, onun xalqına dəyən güllə idi. Bunu adi terror aktı kimi qiymətləndirmək ən azı mənəviyyatsızlıqdır. Onun ölümü ölümsüzlüyü oldu!..
Akademik Ziya Bünyadovun itkisi Azərbaycan xalqı üçün, Azərbaycan elmi üçün ən ağır itki oldu. Ziya Bünyadovun yoxluğu həmişə hiss ediləcək. Vətənin layiqli oğlu olan Ziya Bünyadovun adını xalqımız həmişə minnətdarlıqla yaşadacaqdır. Onun adı həmişə kamillik, ədalət, cəsarət rəmzi kimi nəsillərə nümunə olacaqdır.

**Akademik ZİYAD SƏMƏDZADƏ**










# MAHMUD ƏBİLOV (1898-1972)

***Moskvanın yaylım atəşfəşanlığı ilə qarşıladığı, sıravi əsgərdən generaladək ucalan həmyerlimizin keçdiyi ömür yolu...***

Oqusarlıların fəxri, sayılıb-seçilən tanınmış insanlarından idi. Mahmud Əbilov (1898-1972) Qusar rayonunun Ukur kəndində anadan olub. Vətəndaş müharibəsi illərində XI Qızıl Ordu sıralarında sıravi döyüşçüdən Böyük Vətən müharibəsi illərində hərb meydanındakı generala qədər yol keçib.
General-mayor Mahmud Əbilovun komandirlik etdiyi qoşun birləşmələri müdafiə, eləcə də hücum əməliyyatlarında komandanlığın verdiyi döyüş tapşırıqlarını dəfələrlə uğurla yerinə yetirib. Və bu, o vaxt Ali Baş komandan I.V.Stalinin əmrlərində öz layiqli əksini tapıb.
General Əbilovun döyüşçülərinin şərəfinə Moskvada yeddi dəfə yaylım atəşfəşanlığı açılıb.
Mahmud Əbilov batalyon komandiri kimi 1938-ci ildə Xasan gölü ətrafında yapon qoşunları ilə döyüşüb. Öz briqadası ilə birlikdə 1942-ci ildə Şimal-Qərb cəbhəsinin 34-cü ordusunun sərəncamına verilib. Smolensk, Yelena, Roslavl şəhərlərinin azad olunmasında iştirak edib. 1944-cü ildə Belarusda çoxsaylı şəhər və kəndlərin, dəmiryolu qovşaqlarının faşist işğalçılarından azad olunmasında mərdliklə vuruşub.
Sonra 250-ci atıcı diviziyasının komandiri kimi Demyanskdan Berlinin özünə, Elba çayına, antihit-



*Mahmud Əbilov adına mərkəzi meydan (Qusar)*

ler koalisiyası - ingilis-amerikan qoşunları ilə görüş yerinədək şərəfli bir yol keçib.

Berlinə hücumqabağı SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə 1945-ci il aprel ayının 27-də 47 yaşlı Mahmud Əbilova general-mayor rütbəsi verildi. O, Böyük Vətən müharibəsində bu rütbəyə layiq görülən Həzi Aslanovla yanaşı, Azərbaycandan olan iki döyüş generalından biridir.

1945-ci ilin may ayının 2-də Berlinin cənub-şərqində mühasirəyə alınmış faşist qoşunları qruplarını məhv edən Sovet hərbi hissələrinin şərəfinə Moskvada və bütün İttifaq respublikalarının paytaxtlarında yaylım atəşfəşanlığı açıldı. Bu böyük hadisə ilə bağlı verilən əmrdə general-mayor Mahmud Əbilovun da adı çəkildi.

Mahmud Əbilovun 250-ci diviziyası müharibə illərində Qızıl Ordu tarixinə çoxsaylı parlaq səhifələr yazıb. Onun döyüş xidmətləri yüksək qiymətləndirilib. O, ikinci dərəcəli Suvorov, ikinci dərəcəli Kutuzov, Boqdan Xmelnitski, Qırmızı Ulduz, Amerikanın zabit legionuna aid Birinci dərəcəli Şərəf xaçı ordenlərinə və 14 müxtəlif medala layiq görülüb.

SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri Mixail İvanoviç Kalinin və ABŞ prezidenti Harri Trumen öz şəxsi məktubları ilə general-mayor Mahmud Əbilovu salamlamışlar.

Azərbaycan Prezidenti Heydər Əliyevin 1998-ci il 22 avqust tarixli fərmanı ilə general Mahmud Əbilovun anadan olmasının 100 illiyi münasibəti ilə respublika səviyyəsində bayram tədbirləri keçirildi. Doğma kəndi Ukurun, indiki Qusarın mərkəzi meydanı və küçəsi, eləcə də Bakı küçələrindən biri igid soydaşımızın adını daşıyır. Həmçinin, Qusarın mərkəzi meydanında hündür postament üzərində onun büstü ucaldılıb. Generalın büstünün ucaldılması ilə Qusarda xoş bir ənənə də yaranmış oldu. Toy karvanları əvvəlcə gəlib generalın meydandakı abidəsini ziyarət edir, önünə tər gül dəstələri düzərək sədaqət andı içirlər.



*Mahmud Əbilov adına mərkəzi meydan (Qusar)*





## Onlar vətənə və elmə xidmət edirdilər



### Əliyev Şıxbala Əbülfəs oğlu (1910-1960)

Bakının Binəqədi qəsəbəsində fəhlə ailəsində doğulub. Orta təhsilini 18 saylı məktəbdə alıb. 1926-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kimya fakültəsinə qəbul edilib. İnstitutu bitirəndən sonra üç il ərzində (1931-1934-cü illərdə) Leninqrad Dövlət Universitetinin aspirantı olub. Sosialist Əməyi Qəhrəmanı, akademik A.E.Favorskinin sədri olduğu LDU-nun elmi şurasında Ş.Əliyev namizədlik dissertasiyasını uğurla müdafiə edib.

Ş.Əliyev 1941-ci ildə 31 yaşında SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında Kimya İnstitutunun direktoru təyin edilib.

Ölkənin direktiv orqanları tərəfindən verilən tapşırığa əsasən, Ş.Əliyevin rəhbərliyi altında ən qısa müddət ərzində turş və davamlı zəhərləyicilərə qarşı işlədilən kimyəvi maddələrin yerli gillə əvəzlənməsi, Quba rayonunda yanar şistlərin, lay suxurlarının tədqiqi, toluol fraksiyalarının yerli gil vasitəsi ilə təmizlənməsi, B-70 markalı benzinin buxar formasındakı alüminium xloridlə katalizi məsələlərinə aid xüsusi işlər görülüb.

Ş.Əliyevin elmi əsərləri siyahısında bu saydığımız işlər "məxfi" qrifi ilə qeydə alınıb. Ş.Əliyevin elmə, elmin inkişafına verdiyi töhfələr, göstərdiyi xidmətlər SSRİ XKS yanındakı ixtira və kəşflər üzrə Komitənin, istər müharibə illərində, istərsə də ondan sonrakı dövrdə müxtəlif təltif və şəhadətnamələrlə təsdiqlənib.

Ş.Əliyev 1943-cü ildə Azərbaycan SSR Elmi-Tədqiqat Neft Emalı İnstitutunun "Xüsusi yanacaq" laboratoriyasının rəhbəri idi. O, 1950-1960-cı illərdə yorulmaz ictimai xadim kimi də ölkəmizin ictimai həyatında fəal rol oynayıb. D.İ.Mendeleyev adına Ümumittifaq Kimya Cəmiyyəti Azərbaycan filialının sədr müavini olan Ş.Əliyev bir çox beynəlxalq konfransların, simpoziumların iştirakçısı idi.

Görkəmli alimin həyatı 1960-cı il iyul ayının 9-da bədbəxt hadisə nəticəsində, rəhbərlik etdiyi laboratoriyada aparılan təcrübə zamanı baş verən partlayış və yanğın nəticəsində sona yetmiş oldu.

Cəmi əlli il yaşayan Şıxbala Əbülfəs oğlu Əliyevin elmi fəaliyyəti Azərbaycan kimya elmi tarixinin ən parlaq səhifələrindən sayılır. Azərbaycanın elmi ictimaiyyəti 2010-cu ilin aprel ayında görkəmli kimyaçı alim Şıxbala Əliyevin anadan olmasının 100 illiyini qeyd etdi.

# BAKI HƏRBİ SİLAH İSTEHSALI MƏRKƏZLƏRİNDƏN BİRİ İDİ

Böyük Vətən müharibəsi ərəfəsində Sovet hökuməti ölkənin müdafiə qabiliyyətinin artırılması və möhkəmləndirilməsi üçün geniş plan işləyib həyata keçirməyə başladı.
Həmin plan çərçivəsində Qızıl Ordunun və Hərbi Dəniz Donanmasının texniki təchizatı, müasir silah-sursatın istehsalına nəzarət üçün Müdafiə Sənayesi Xalq Komissarlığı yanında döyüş sursatı üzrə Xalq Komissarlığı yaradıldı.
Hərbi sənayenin bütün sahələrində müharibənin əsas gücü kimi artilleriyaya daha çox üstünlük verilirdi.
Döyüş sursatı komissarlığı tərəfindən təsdiq edilmiş struktur əsasında iki böyük qurum yaradıldı: aviabomba, mina, artilleriya mərmi korpusları, gilizlər, kapsul-pirotexniki məmulat və partladıcı istehsalı üzrə Baş idarə; bir də partladıcı maddələrin hazırlanması, döyüş sursatı tədarükü, təchizatı üzrə Baş idarə.
Çoxsaylı zavodlar, sınaq poliqonları, elmi-tədqiqat institutları, tikinti trestləri, təchizat kontorları, ali məktəblər, texnikumlar və s. bu kimi qurumlar Komissarlığın ixtiyarına verildi.
Xalq komissarlığı aparatında onun funksional bölmə kimi fəaliyyətinə lazım olan hər cür şərait yaradılmışdı.
Döyüş sursatı üzrə Xalq Komissarı təcrübəli hərbiçi İ.P.Sergeyev oldu. Onu 1941-ci ilin martında əvvəllər silah üzrə xalq komissarının müavini vəzifəsində çalışmış P.N.Qoremıkin əvəz etdi. 1942-ci ilin fevralında bu vəzifəyə Bakıda fəaliyyət göstərmiş gizli inqilabi təşkilatın fəal üzvlərindən biri, Vətəndaş müharibəsinin iştirakçısı, istedadlı təşkilatçı B.L.Vannikov təyin edildi.
B.L.Vannikov öz silahdaşları, zavod, elmi-tədqiqat institutları və sahə konstruktor büroları ilə birgə yeni döyüş sursatı növlərinin, ayrı-ayrı elementlərin yaradılması, kütləvi istehsalı, eləcə də bu sahədə sənayenin artımı üzrə olduqca çətin və mürəkkəb problemlərin öhdəsindən lazımınca gələ bildi.
Onu da qeyd etmək lazımdır ki, müharibədən əvvəlki illərdə zavodlarımızda uzaqvuran mərmilər də daxil olmaqla 47 yeni, əsas təyinatlı döyüş sursatının istehsalına başlandı.



*Bakı maşınqayıranları hərbi texnika və silah hazırlanması üçün yenidən qurulmuş fabriklərdə hərbi istehsala cəlb edilmişdilər*







***Katyuşa Moskvada Qələbə paradında***

Uzaqvuran mərmilərin yaradılması və istehsala buraxılması topları və atəşin digər elementlərini dəyişmədən mərmilərin uçuş məsafəsini 20 faiz uzatmaqla yanaşı, onların intensivliyini və hədəfdəki fəaliyyət gücünü də yüksəltmiş oldu.
Buna görə də 1939-cu ildə sənayenin ixtisaslaşmış zavodlarında tətbiq edilə biləcək mərmi korpuslarının istehsalı müstəsna əhəmiyyət kəsb edirdi.
Müharibənin ilk günlərindən Bakının bütün müəssisələri 12 saatlıq iş gününə keçdi. Məzuniyyət və istirahət günləri ləğv edildi.
Neftmaşınqayırma zavodları cəbhə üçün döyüş sursatı buraxmağa başladı.
Azərbaycan K(b)P MK 1941-ci il iyun ayının 25-də büro iclası keçirdi. İclasda Azərbaycan XKS və K(b)P MK "Paris Kommunası", "Zaqfederasiya" gəmi təmiri zavodlarının və leytenant Şmidt adına mexaniki zavodun döyüş sursatı istehsalı üzrə səfərbərlik planının yerinə yetirilməsinə keçməsi barədə qərar qəbul etdi.
Sənəddə qeyd olunurdu ki, SSRİ XKS və ÜİK(b)P MK 23 iyun 1941-ci il tarixli qərara əsasən, Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK "Xəzərtanker"in rəisi yoldaş Matyuşevə və "Zaqfederasiya", "Paris Kommunası" zavod direktorlarına tapşırdı ki, təcili surətdə qarşıya qoyulan tapşırıqların icrasına başlasınlar.
Qeyd etmək lazımdır ki, döyüş sursatlarının hazırlanma planı 6 iyun 1941-ci ildə SSRİ XKS və ÜİK(b)P MK-nın qərarı ilə təsdiq olunmuşdu.
Adları çəkilən zavodlara planı yerinə yetirmək



üçün səfərbərlik ehtiyatlarının üzrə çıxarılmasına, xüsusi vasitə və avadanlıqdan, alətlərdən istifadə olunmasına icazə verildi. Bundan başqa, zavodlara istirahət günləri daxil olmaqla gündəlik iş vaxtından üç saat artıq işləmək həvalə olundu.

"Xəzərtanker"in, "Paris kommunası", "Zaqfederasiya", Leytenant Şmidt adına zavodların, "Azneftkombinat", "Azneftmaş" trest rəhbərlərinin, eləcə də Azərbaycan K(b)P Keşlə, Şaumyan, Voroşilov rayon komitələrinin katiblərinə təcili surətdə döyüş sursatı istehsalı ilə məşğul olan müəssisələrin kadr heyətini möhkəmləndirmək, zavodları siyasi cəhətdən etibarsız, şübhəli görünənlərdən təmizləmək də bir vəzifə kimi tapşırıldı. Səfərbərlik planlarının yerinə yetirilməsi ilə məşğul olan sexlər xüsusi müşahidə və gərəkli mühafizə altında idi. Respublika rəhbərliyinin göstərişi ilə onlar lazım gələn bütün alət, material və işçi qüvvəsi ilə təmin olunmuşdu.

Bu müəssisələrin rəhbərləri hər on gündən bir planın yerinə yetirilməsi işinin gedişatı barədə Azərbaycan SSR XKS və K(b)P MK-ya hesabat təqdim etməli idilər.

SSRİ Müdafiə Xalq Komissarlığının naryadları əsasında döyüş sursatlarının yüklənməsi üçün Zaqafqaziya dəmir yolunun 5-ci şöbəsinin rəisinə "L.Şmidt", "Paris kommunası", "Zaqfederasiya" zavodlarını ən qısa müddətdə növbədənkənar vaqonlarla təmin etmək tapşırıldı.

Yaranmış obyektiv səbəblər ucbatından Dəniz Donanması Xalq Komissarlığı döyüş sursatlarının hazırlığı üçün lazım olan xüsusi avadanlığın, alət və müxtəlif materialların Bakıya, ("Paris kommunası", "Zaqfederasiya" zavodlarına) göndərilməsini ləngidirdi. Buna görə də Azərbaycan K(b)P MK-nın məsul əməkdaşları T.Quliyev, A.Zaytsev və Ə.Əliyevə bu müəssisələrin tələbatının yerli vəsait hesabına vaxtında ödənilməsini və zavodların gecikmədən səfərbərlik planına qoşulmasını həvalə etdi.

## ƏFSANƏVİ "KATYUŞA"NIN MƏRMİLƏRİ BAKIDA İSTEHSAL OLUNURDU!

Böyük Vətən müharibəsi ərəfəsində Elmi-Tədqiqat Reaktiv İnstitutunun konstruktorları ilk Sovet yaylım atəşinin reaktiv sistemini (YARS) yaratdılar. Sistemin rəsmi adı isə "Qvardiyaçı minamyot M-13" oldu. Silah kimi çox effektli idi. Sonradan Böyük Vətən müharibəsi cəbhələrində geniş istifadə olundu.

Döyüş sınağından isə ilk dəfə 1941-ci ilin 14 iyulunda Belarusda, Orş ətrafında çıxdı. Dəmir yolu qovşağına atılan yaylım atəşi zamanı düşmən üzərinə bir dəfəyə 100-dən çox mərmi yağdı. İri dağıntılar, yanğınlar törəndi. Sursat dolu eşalonlar partladıldı. Düşmənə güclü psixoloji təsir göstərildi. Alman əsgər və zabitləri arasında qorxu və çaşqınlıq yarandı.

Atəşin dəqiqliklə bir yerə, hədəfə yönəldilməsi və özü hərəkət edən qurğunun yüksək mobilliyi sayəsində qvardiya minamyotunun çox yüksək səmərəsi oldu. Bu da düşmən üzərinə bir göz qırpımında yüzlərlə mərmi yağdırmaqla ona öldürücü zərbə endirməyə, həm də cavab həmləsindən cəld yayınmağa imkan qazandırmış olurdu. Belə gücə malik silah nə Almaniyada vardı, nə də o vaxtkı müttəfiqlər sayılan - ABŞ və İngiltərədə. Özünün bənzərsiz döyüş keyfiyyətlərinə görə yaylım atəş sistemi Sovet əsgərləri tərəfindən zərif bir adla -"Katyuşa" adlandırıldı.

Bakıda, 1942-ci ilin iyul ayında rekord bir müddət ərzində "Katyuşa" üçün M-13 mərmiləri istehsal edən, Hərbi Sursat Xalq Komissarlığının 610 saylı yeni zavodu yaradıldı. Zavod elə bu cür də adlanırdı - mərmi hazırlayan zavod. Reaktiv sistem mərmilərinin korpusu, detalları, ayrı-ayrı hissələri müharibənin ilk günündən istehsal yönünü dəyişən yerli sənayenin müxtəlif profilli zavodlarında istehsal olunurdu. Beləliklə, Dövlət Müdafiə Komitəsinin 1942-ci ilin birinci rübünə aid M-8, M-13 mərmilərinin istehsalı haqqındakı 1941-ci il 25 dekabr tarixli, 1060 saylı qərarına əsasən, Azərbaycan K(b)P MK M-13 mərmi korpuslarının fasiləsiz istehsalını Bakı zavodları, "L.Şmidt" adına, "S.M.Kirov" adına, "Zaqfederasiya", "Oktyabr İnqilabı", "Paris kommunası", 458 nömrəli zavod, "Budyonnı" adına, "Bakinskiy raboçiy", "1 May", "Montin", "Be-



*Bakıda yığılan UTİ-4 təyyarələri*





### KOVALYOV VALENTİN FYODOROVİÇ (1914-1972)



Bakı şəhərində anadan olub. Onun şöhrət payı Böyük Qələbədən sonra gəldi. Özü də "Sınaqçı-təyyarəçi" şöhrəti! Bu təhlükəli sahədə qazandığı bənzərsiz uğurlara görə! Dünyada ilk dəfə olaraq ağır təyyarələrdə səsin sürətini o artırdı. O, çətin rejimlərdə maşınları nadir sınaqlardan keçirdi. 20-dən çox dünya rekordu qazandı. Bütün bunlara qədərisə Kovalyov Böyük Vətən müharibəsində faşist qoşun və obyektlərini bombaladı. Dəfələrlə düşmən arxasına, partizanların yanına uçdu. Tapşırığı yerinə yetirib, geri qayıdarkən, onun təyyarəsi Kursk ətrafında vuruldu. Ancaq Kovolyov yanan təyyarəni yerə endirə bildi və çətinliklə də olsa xilas olundu, bununla da öz təyyarəsini xilas etdi. Valentin Kovalyova SSRİ Ali Soveti Rəyasət Heyətinin 1960-cı il 5 oktyabr tarixli fərmanı ilə yeni aviasiya texnikasının sınaqlardan keçirilməsi zamanı göstərdiyi qəhrəmanlığa görə "Lenin" ordeni və "Qızıl Ulduz" medalı təqdim edilməklə Sovet İttifaqı Qəhrəmanı adı verildi.



*Bakıda yığılan "YAK-3" qırıcıları*



*Məşhur Valentayn-III tanklarinin boşaldılması*

riya", "Lenin" adına avtomobil təmiri zavoduna, Hüsü Hacıyev adına, Volodarski adına zavoda, Kirov adına "Əzizbəyovneft" Zavodunun emalatxanasına, Dmitrov adına "Molotovneft" trestinin emalatxanasına "Azprosovet"ə tapşırdı.

Xüsusi tapşırığın yerinə yetirilməsi üzrə texniki rəhbərliyin təmin edilməsi üçün mühəndis-texniki işçilərin və məxfi səfərbərlik şöbəsinin ştatları 10 nəfər artırıldı. Həmçinin, 1941-ci ilə aid yeni avadanlığın mənimsənilməsi planına yenidən baxıldı və maksimum azaldıldı. Sənəddə yalnız müharibə şəraitində lazım olan obyektlərin siyahısı qaldı.

Xüsusi olaraq ayrıca sınanmış insanlardan 30 nəfər yüksək ixtisaslı çilingər və 50 fəhlə zavoda köçürüldü.

Şmidt zavodunda fövqəladə vacib və xüsusi tapşırığın yerinə yetirilməsinə başlamaqla əlaqədar adi növbətçilik hərbiləşdirilmiş mühafizə ilə əvəzləndi. Buna uyğun olaraq, postların sayı artırıldı və zavodun smetasında uyğun dəyişmələr aparıldı.

Müəssisənin ştat cədvəlinə yeni vəzifə - hava hücumundan müdafiə, hərbiləşdirilmiş və yanğından mühafizə üzrə direktor müavini də əlavə olundu.

1941-ci il avqust ayının 14-də Azərbaycan K(b)P MK-nın növbəti Büro iclasında "Azneftymaş" trestinə aid zavodlarda döyüş sursatı istehsalını daha da artırmaq məsələsinə baxıldı.

Trestin rəhbərinə şəxsən həvalə olundu ki, təcili surətdə Bakının sənaye müəssisələrində müxtəlif silahlar üçün hissələrin istehsalı, Dzerjinski adına zavodda isə mərmi korpusunun yığılmasını təşkil etsin.

DMK-nın tapşırığına əsasən, trestin kollektivi yüksək keyfiyyətli məhsul istehsalı sahəsindəki planı operativ şəkildə yerinə yetirməli idi. Azərbaycan K(b)P MK-nın birinci katibi M.Bağırov bu tapşırığın yerinə yetirilməsini öz şəxsi nəzarətinə götürdü.

Bakı şəhər Partiya Komitəsinin katibi E.Mehdiyev Dzerjinski adına zavoda təhkim olunmuşdu. Azərbaycan XKS-nin sədr müavini İ.Vahabova isə zavodda mərmi korpuslarının yığılmasına gündəlik nəzarət etmək tapşırılmışdı.

***"Başnefttəchizat"ın Azərbaycan kontorunun dövlət sifarişinin yerinə yetirilməsi üçün respublikanın Yerli Sənaye Xalq Komissarlığına ayırdığı yanacağın miqdarı***

| | oktyabr | noyabr |
|---|---|---|
| Avtomobil benzini | 13,0 t | 87,0 t |
| Təmizlənmiş neft skipidarı | 5,0 t | 20,0 t |





Azərbaycan XKS-nin sədr müavini İslam İslamzadənin üzərinə isə Azərbaycan Respublikası Meşə Xalq Komissarlığına aid mebel fabriklərində Dzerjinski adına zavodun işinə gərəkli xüsusi detalların hazırlanması və vaxtlı-vaxtında ünvana çatdırılması məsuliyyəti qoyulmuşdu.

Sovet İttifaqı rəhbərliyinin tapşırığına əsasən hərbi texnika üçün detallar, döyüş sursatı istehsal edən müəssisələrə DMK-nın tapşırıqlarını yerinə yetirdikləri müddət ərzində məsul partiya işçiləri təhkim olunurdu.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Bakı şəhərinin Lenin, Stalin, Orconikidze, Kirov, Keşlə və digər rayon partiya təşkilatlarına DMK-nın sifarişlərini yerinə yetirən zavodlara hərtərəfli maddi və təsərrüfat köməyi göstərməyi tapşırdı.

Respublika XKS-nin sədri Teymur Quliyevə, eyni zamanda, tapşırıldı ki, lazım gəldiyi halda respublika fondları hesabına "Azneftkombinat" alət və materialla təmin olunsun.

1941-ci il sentyabr ayının axırından DMK-nın tapşırıqları daha konkret xarakter daşımağa başladı. 30 sentyabr 1941-ci ildə DMK "1941-ci ilin oktyabr ayı üçün M-13 mərmi korpuslarının istehsal planı barədə xüsusi qərar qəbul etdi.

Bu qərarın yerinə yetirilməsi ilə bağlı Azərbaycan K(b)P MK-nın Büro üzvləri oktyabrın 1-də növbəti iclasa toplaşdı. İclasın yekununda "Azneftkombinat"ın, "Azneftmaş"ın, L.Şmidt adına zavodun 1941-ci ilin oktyabr ayında 10 min M-13 mərmi korpusunun yığılmasını, istehsalını təşkil etmək, "müəssisənin fasiləsiz işini təmin etmək məqsədi ilə məsul partiya işçilərinə tapşırıqları vaxtında və dəqiq yerinə yetirmək üçün tabeliyindən asılı olmayaraq, bütün digər müəssisə və təşkilatlardan işçi qüvvəsi və avadanlığı səfərbərliyə almağa icazə verilirdi. Bir şərtlə ki, bu səfərbərlik digər növ silah-sursat, tank və təyyarə istehsalına xələl gətirməsin.

Döyüş sursatının hazırlanması üzrə proqramı yerinə yetirmək məqsədi ilə (DMK-nın 1941-ci il oktyabr ayının 2-də qəbul etdiyi qərara əsasən) praktiki tədbirlərin həyata keçirilməsinə başlandı.

Azərbaycan K(b)P MK Kirov adına, Dzerjinski adına, Zaqfederasiya, Oktyabr inqilabı, Paris kommunası adına zavodların və b. müəssisələrin direktorlarına təklif etdi ki, oktyab ayında qrafik üzrə M-13 mərmi korpusu üçün detalların fasiləsiz istehsalını və müntəzəm surətdə Şmidt zavoduna ötürülməsini təmin etsinlər.

Lazım olan 4 min ədəd ehtiyat hissəsi hazırlanıb respublika XKS-nin müəssisələrində yerləşdirildi. XKS-nin sədr müavini İ.İslamzadəyə şəxsən M-13 qurğularının mərmiləri üçün 6000 xüsusi qapağın hazırlanmasına nəzarət tapşırıldı.

Oktyabr ayının planı və gündəlik qrafik yerinə yetirilmədiyi təqdirdə zavod direktorlarının ciddi məsuliyyətə cəlb olunacağı barədə "1 May", Zaqfederasiya, "Paris kommunası" rəhbərlərinə xəbərdarlıq edildi. Digər məsul partiya işçilərinə tapşırıldı ki, ölkənin qeyri-bölgələrindən detallar vaxtında çatdırılmayanda lazımi tədbirlər görsünlər və mal göndərən zavodlarda materialların vaxtında yüklənməsinə nəzarəti gücləndirsinlər.

DMK-nın 1941-ci il 30 sentyabr tarixli qərarına əsasən, M-13 istehsalında işlədilən avadanlığı, alətləri, işçi qüvvəsini istehsal prosesindən ayırıb başqa məqsədlər üçün istifadə etmək qəti qadağan edildi.

Qəbul edilən qərarda M-13 mərmilərinin istehsalı ilə məşğul olan Bakı zavodlarında işçi qüvvəsinin, avadanlıq və alətlərin saxlanması haqda ayrıca maddə də vardı.

Azərbaycan K(b)P MK-nın Bürosu, rayon partiya komitə katiblərinə bir vəzifə olaraq tapşırdı ki, mərmi istehsalı ilə məşğul olan zavodlarda işçi qüvvəsinin, avadanlığın, alətlərin bu işə təhkim olunmasında müəssisə rəhbərlərinə hərtərəfli köməklik göstərsinlər.

Oktyabrın ikinci yarısında Bakıya SSRİ-nin qərb zonalarından bir sıra hərbi zavodların, sənaye müəssisələrinin köçürülməsinə başlandı.

Oktyabrın 16-23-də Azərbaycan K(b)P MK-nın növbəti Büro iclası keçirildi. İclasın gedişində SSRİ Aviasiya Xalq Komissarlığının tabeliyində olan 31 nömrəli zavodun Bakıda yerləşdirilməsi məsələsinə də baxıldı.

DMK əvvəlcə həmin zavodu Tiflisə köçürməyə qərar vermişdi. Odur ki, bütün işçi personalı, avadanlığı ilə birlikdə zavod eşalonla Tiflisə gətirildi. Lakin az sonra DMK göstəriş verdi ki, zavod mütləq Bakıya köçürülsün.

Azərbaycan K(b)P MK Bürosu

Bakıya gələn insanların yerləşdirilməsi, zavodun 25-30 gün ərzində istismara buraxılmasını təmin edən tikinti-quraşdırma işlərinin aparılması və məhsul istehsal etməsi ilə bağlı məsul işçilərə ciddi tapşırıq verdi.

Bundan başqa, iclasda "Aviasiya" Xalq Komissarlığının 458 nömrəli zavodunun yerləşdirilməsi haqqında ayrıca qərar da qəbul edildi. Xalq Komissarları Sovetinin və Mərkəzi Komitənin məsul işçilərinə təcili surətdə Bakıya köçürülmüş fəhlə və qulluqçular, onların ailələri üçün ayrılmış yaşayış sahələrinin təmir olunub qaydaya salınması, məişət avadanlığı ilə təmin edilməsi tapşırıldı.

Təxliyə olunanları yerləşdirmə planı göstərilən müddət ərzində yüksək operativlik və dəqiqliklə yerinə yetirildi. Köçürülmüş 458 N-li zavodun 446-cı zavodla konservasiya işlərinin sona çatdırılması ilə əlaqədar olaraq 1941-ci il oktyabr ayının 10-da, zavodların birləşdirilməsi və müəssisənin gecikdirilmədən istismara verilməsi qərarına uyğun olaraq, sexlərin, digər köməkçi binaların tikintisi genişləndirildi. Tikinti işləri ilə paralel, gətirilən avadanlıq quraşdırma işlərinə də başlandı. Zaqafqaziya Cəbhəsi Komandanlığı "Azdövləttikinti" trestinin sərəncamına 1000 nəfərlik inşaat alayı da göndərdi.

Zaqafqaziya Dəmiryolunun 5-ci Azərbaycan sahəsində köçürülən zavoda dair bütün yüklərin qəbulu vaxtlı-vaxtında və dəqiq keçdi. Büro iclasında, həmçinin ilin dördüncü rübündə Zaqafqaziya Cəbhəsinin Kimya şöbəsində Azərbaycan sənayesi tərəfindən 250 min ədəd yandırıcı butulka və digər ləvazimatın istehsalı və təminatına dair məsələyə də baxıldı.

Büro üzvləri bu məsələ barədə müvafiq plan qəbul etdilər və həmin sifariş istehçsalçı zavodlar arasında bölüşdürüldü. Qeyd edək ki, bütün Zaqafqaziya cəbhəsini yandırıcı qarışıqla dolu butulkalarla təmin edən baş təchizatçı da elə Azərbaycan SSR Yerli Sənaye Xalq Komissarlığı idi. Fitilləri, rezin halqaları isə Avtomobil Nəqliyyatı Xalq Komissarlığı göndərirdi.

Digər zavodlar isə yandırıcı butulkaların ayrı-ayrı detallarını hazırlayıb baş təchizatçıya təhvil









verirdilər. İstehsalçı zavodlar istehsal etdikləri detalları hər beş gündən bir eyni sayda partiyalarla baş təchizatçıya göndərməyi öhdəliyə götürmüşdülər. Öz növbəsində, Baş təchizatçı da hazır məhsulu istehlakçıya on gündən bir göndərməliydi və bu qrafikə ciddi əməl olunurdu.

Fitilin hazırlanması üçün müəssisəyə lazım olan bertolet duzunu Zaqafqaziya Cəbhəsinin kimya şöbəsi göndərirdi. "Azneftkombinat" sənaye müəssisələrini 50 ton miqdarında parafinli neftlə təmin etdi. Fitillərin hazırlanma işi Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutuna tapşırılmışdı ki, elmi-texniki rəhbərlik də ona aid idi. Bu məqsədlə zavodlara yüksəkixtisaslı mütəxəssislər göndərildi.

1941-ci il oktyabr ayının 24-də Azərbaycan K(b)P MK-nın növbəti Büro iclası keçirildi. İclas iştirakçıları Bakı şəhərinin müəssisələrində ("Azneftkombinat", yerli sənaye Xalq Komissarlığının, Dəniz Donanması Xalq Komissarlığının, Bakı şəhəri İcraiyyə Komitəsinin, Azərbaycan Sənaye Şurasının, Xalq Torpaq Komissarlığının, Su təsərrüfatı Xalq Komissarlığının, Ticarət Xalq Komissarlığının müəssisələri, Vaqon təmiri zavodu) Şpagin konstruksiyalı tapança-pulemyotların, əl qumbaralarının, minamyotların və onlara aid patron-mərmilərin, partlayıcı maddələrin, tank əleyhinə butulka istehsalının genişləndirilməsi, hərbi hissələrin ehtiyaclarını ödəməkdən ötrü traktorların lazımi avadanlıqla yenidən quraşdırılması kimi məsələləri müzakirə etdilər.

Bu silah-sursat növlərinin istehsalı üçün istifadə olunacaq avadanlıqların, detalların zavod və emalatxanalarda yer almasına, DMK-nın qərarı üzrə yerinə yetirilən başqa sifarişlərə maneçilik törətməməsi iclasda xüsusi vurğulandı.

Azərbaycan K(b)P MK "Bakı müəssisələrində Şpagin tapançapulemyotunun, əl qumbaraları, minamyot və onlar üçün mərmilərin, partlayıcı maddələrin və tank əleyhinə butulkaların istehsalına dair qərar qəbul etdi.

Bundan başqa, "1941-ci ilin IV rübündə FOQ-1, ROKS-2 cihazları və onların ayrı-ayrı detallarının Azərbaycan sənaye müəssisələrində hazırlanması və Zaqafqaziya Cəbhəsinin Kimya



## ŞEVERDYAYEV NİKOLAY PETROVİÇ (1922-1986)

1922-ci il mart ayının 24-də Şamaxının Çuxuryurd kəndində anadan olub.

Əngin səmalarda uçmaq arzusu müharibəyə bir il qalmış onu kənddən Bakı aeroklubuna gətirdi. Oradan da Stalinqrada, aviasiya məktəbinə yollandı. Sonra isə Zapolyarye səmasında faşist quzğunları ilə döyüşdü. Leninqrad yaxınlığında, Polşa torpağında, Almaniyada faşist batareyalarını bombaladı. Ancaq bir dəfə onun "İl-2" təyyarəsi düşmənin zenit mərmiləri ilə deşik-deşik edilir. Nikolay özünü itirmədən "yaralı" maşınını doğma aerodroma çatdırmağa müvəffəq olur. Az sonra Qvardiya kapitanı N.P.Şeverdyayevə SSRİ Ali Soveti Rəyasət Heyətinin 18 avqust 1945-ci il tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı verilir.

şöbəsinə göndərilməsi planı haqqında"kı qərarın yerinə yetirilməsi üçün Büro üzvləri yuxarıda adları çəkilən cihazların 2500 ədəd miqdarda istehsal sifarişini təsdiq etdilər. Həmin sifariş istehsalçı zavodlar arasında bölüşdürüldü.

Qərarda qeyd olunurdu ki, Zaqafqaziya Cəbhəsi Kimya şöbəsinin FOQ-1 cihazı üzrə baş təchizatçısı "Azneftkombinat", ROKS-2 cihazı üzrə isə "Qafqazenerjitikinti" tresti, sıxlaşdırılmış hava balonları üzrə "Azneftzavodları" trestinin tikinti kontorlarıdır.

Oktyabrın birinci öngünlüyündə Xalq Komissarlığının 610 nömrəli zavodu da Bakıya köçürüldü. 1941-ci il oktyabr ayının 29-da Azərbaycan K(b)P MK-nın Büro iclası keçirildi. Büroda Bakıya gətirilən müəssisənin yerləşmə məsələsi gündəlikdə idi. Komissar müavini Klyuyevin 1941-ci il 15 oktyabr tarixli teleqramına əsasən, respublika XKS və K(b)P MK "Azərsənayeşurası" və "İttifaqutil" Birliyindən iki həftə ərzində "Qırmızutilizator" və "İttifaqutil"in bazalarında olan binaları boşaldıb, 610-cu zavodun sərəncamına verməyi tələb etdi. 610 nömrəli zavodun istismara buraxılması isə noyabr ayının 7-nə təyin olunmuşdu.

"Azneftkombinat"a zavodun yerləşməsi üçün lazımi şəraitin yaradılması, binaların, mənzillərin hazırlanması, istilik təsərrüfatının bərpası, dar dəmiryolu qolunun, həmçinin çınqıl döşənmiş yolun salınması tapşırıldı. "Azneftkombinat"ın səyyar elektrik stansiyası müvəqqəti olaraq, zavoda verildi.

Bakı şəhər İcraiyyə Komitəsi 610 nömrəli zavodla birgə təxliyə olunmuş mühəndis-texniki heyəti, fəhlə və qulluqçuları, ailələri ilə birlikdə zavod ərazisinin yaxınlığındakı bina və mənzillərdə yerləşdirdi. Onlar üçün bir sıra məişət obyektləri, dükan və yeməkxanalar açıldı.

Mir Cəfər Bağırovun 1942-ci il mart ayının 5-də ÜİK(b)P MK-nın katibi Q.M.Malenkova göndərdiyi teleqramdan: - "Azərbaycan hökuməti Bakıdakı səfərbərlik bazasında yerləşən 235 ədəd metalkəsən dəzgahın, kabel məhsullarının, elektrik avadanlığının 458 nömrəli zavoda verilməsi barədə İttifaq hökuməti qarşısında məsələ qaldırmışdır. Həmin dəzgahlardan çoxu artıq təmir olunub. Bizim zavodda işlədilir. Köçürülmüş müəssisələrin bir hissəsi Bakıdan artıq təyin edilmiş yerə yola salınıb, digərləri də yüklənməkdədir və bu səbəbdən dəzgahlarının qaytarılmasını tələb edirlər. Odur ki, həmin avadanlıqların 458 nömrəli zavodda saxlanması barədə İttifaq hökumətinin qərarı əlimizdə olmasa, biz məcburuq ki, həmin dəzgahları sahibinə qaytaraq. Əgər yaxın günlərdə İttifaq hökumətinin müvafiq qərarı olmazsa, avadanlıq əlimizdən alınaraq zavodla birgə gedəcəkləri yerə göndəriləcəkdir. Xahiş edirəm, təcili surətdə bu məsələni həll edəsiniz."

1942-ci ildə Bakıda "doğulmuş" "YAK-3" qırıcıları cəbhəyə uçmağa başladı.

Azərbaycan K(b)P Bakı şəhər Komitəsi katibinə və zavod direktoruna 5 gün ərzində müəssisəni səbatlı və ixtisaslı kadrlarla komplektləşdirməyi tapşırdı.

Ertəsi gün, oktyabrın 10-da Azərbaycan K(b)P MK-nın Bürosu növbəti iclasına yığışdı. İclasda "Partlayıcı maddələr istehsalının təşkili haqqında" qərar qəbul edildi.

Sənədə əsasən, Azərbaycan rəhbərliyi noyabr ayının 5-dən gec olmayaraq, Sumqayıtdakı tuk xəlitələri hazırlayan zavodun bazasında partlayıcı maddələrin istehsalını və buraxılışını təmin etməli idi. Sumqayıtdakı müəssisələrdə partlayıcı maddə istehsalı üçün lazım gələn ammonyak selitri, "Azneftkombinat"da isə kifayət qədər his vardı.

MK "Azneftkombinat"a 1941-ci il noyabr ayının 1-dək tuk xəlitələri zavoduna gərək olan bütün avadanlıq və materialları "Azneftzavodlar" trestinin daxili ehtiyatları hesabına nizama salmağı və partlayıcı maddə emalı zamanı neft məhsullu qalıqlarını, naftalin Sumqayıtdakı müəssisəyə göndərməyi tapşırdı.

"Aznefimaş" tresti 1941-ci il noyabr ayının 3-dək maşınqayırma zavodlarında dəyirman-daşəzən maşınların buraxılması üzrə sifarişi yerinə yetirməli və sonra da onları tuk xəlitələr zavoduna verməli idi.

Həmin dövrdə Torpaq Xalq Komissarlığı respublikanın kənd rayonlarında mövcud ammonyak selitri ehtiyatlarını qoruyub saxlamaq haqqında serkulyar əmr verərək, onun sərf olunmasını qadağan etdi. 1941-ci ilin dekabr ayının 1-dək rayonlardakı 600





tona yaxın xammal Bakıya, "Azneftkombinat"a və Sumqayıtdakı tuk xəlitələr zavoduna göndərilmiş oldu.

Əvvəllər "Azərpartlayışsənaye" Birliyində çalışmış M.Buxantsev Sumqayıt tuk xəlitələr zavodunun direktoru təyin edildi:

Sumqayıt tuk xəlitələr zavodunda trotil istehsalı üzrə ayrıca, müstəqil sex yaradıldı. Sexin tikilməsi, onun bütün avadanlıqla, vacib materiallarla təchizatı "Azneftkombinat"a tapşırıldı. Trotil sexinin inşası "Azneftlayihə"nin işləyib hazırladığı layihə əsasında həyata keçirilirdi. Ancaq hərbi şərait nəzərə alınaraq, həmin tikinti işlərinə smeta sənədləri, layihə təsdiq edilmədən başlanıldı.

Sexin inşasında fəaliyyəti dayandırılmış 7 saylı Tikinti Kombinatının, boru-prokat zavodunun tikinti materiallarından, "Azneftkombinat"ın neft zavodlarında fəaliyyətsiz qalmış cihazlardan istifadə olundu. "Azneftlayihə"nin əməkdaşları tərəfindən 5 noyabrda layihə işləri tamamlandı. Artıq 1941-ci ilin dekabrında sex istismara verildi. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı Zaqafqaziya Cəbhəsinin nümayəndələri ilə birlikdə partlayıcı maddələrin qorunub saxlanması və istehsalı üzrə texniki təhlükəsizlik qaydalarını müəyyən etdi.

Bundan əlavə, noyabrın ortalarında M.V.Frunze adına zavodda trotil sexinin işinə görə fərdi məsuliyyət Sumqayıt şəhər Partiya Komitəsinin üzərinə qoyulmuşdu.

1941-ci il payızın axırlarında yaxın döyüş sursatı komissarlığında qəribə vəziyyət yaranmışdı. Zaqafqaziya Cəbhəsinin və digər hərbi dairələrin müxtəlif qoşun hissə nümayəndələri Azərbaycan XKS-nin və K(b)P MK-nın, eləcə də İttifaq və respublika komissarlıqlarının, təsərrüfat birliklərinin icazəsi alınmadan, müəssisələrin direktorları ilə birbaşa əlaqəyə girir, orduya təcili gərək olan müxtəlif növ silah-sursat, geyim və başqa malların sifarişini onlarla razılaşdırırdılar.

Bunun nəticəsində də istehsal olunmuş mallar anbarlarda yığılıb qalır, müəssisənin işində fasilə yaranmasına səbəb olurdu.

Azərbaycan K(b)P MK-nın Bürosu yaranmış vəziyyətlə bağlı Zaqafqaziya Cəbhəsi qoşunları komandanı, general-leytenant Kozlova tapşırdı ki, cəbhənin idarə və şöbə rəislərinə, hərbi birləşmə komandirlərinə xəbərdarlıq etsin ki, sifarişlə bağlı yuxarı qurum və orqanların icazəsi olmadan, direktorlara birbaşa müraciət etməsinlər. Bu barədə uyğun göstəriş olmalıdır.

Büro üzvləri bu məsələlərdə səlahiyyətli təşkilat rəhbərləri ilə birgə xüsusi qaydalar işləyib hazırladılar. Bu qaydalara əsasən, Zaqafqaziya Cəbhəsinin şöbə və idarələri, eləcə də digər hərbi hissə və birləşmələrin bütün sifarişləri yalnız Azərbaycan XKS-dan keçəndən sonra sənədləşdirilir və respublika müəssisələrində yerləşdirilirdi.

Belə bir təcrübə DMK-nın tapşırıqlarını, hərbi idarələrin sifarişlərini yerinə yetirməkdə məsuliyyəti artırır, müəssisələrin işlərinə ciddi nəzarət olunması üçün şərait yaradır, fabrik və emalatxanaların, zavodların normal işini təmin edir, ayrı-ayrı müəssisə rəhbərlərinə sui-istifadə hallarından



Bakının zavodları müharibə dövründə müdafiə məhsulları istehsalı üzrə dövlət planını hər il artıqlaması ilə yerinə yetirirdi. Bu da aşağıdakı rəqəmlərdə öz əksini tapıb.

| İllər | Plan | Fakt | Faiz |
|---|---|---|---|
| 1940 | 161,9 | 167,2 | 103,3 |
| 1941 | 167,8 | 195,0 | 116,3 |
| 1942 | 286,8 | 341,8 | 119,6 |
| 1943 | 298,0 | 309,4 | 103,9 |
| 1944 | 224,3 | 230,1 | 102,6 |
| 9 ay ərzində 1945 | 124,8 | 136,8 | 109,5 |

**ARPİİ SSA, f.1, op. 280, s. 5, l. 130.**

yararlanmağa imkan vermirdi.
Respublikadakı təşkilat rəhbərlərinə, xalq komissarlarına, "Azneftkombinat"ın rəisinə bildirildi ki, İttifaq miqyaslı Komissarlıqların, Azərbaycan SSR XKS-nin, K(b)P MK-nın göstərişi olmadan hərbi və digər qurumların istehsalata sifarişlərini qəbul etmək müəssisə direktorları üçün qəti qadağandır.
Bakı müəssisələrində silah, döyüş sursatının istehsalı üzrə sifarişlərin qəbulu iş prosesinə nəzarət və fabriklərdə, zavodlarda, emalatxanalarda, artellərdəki mövcud ehtiyatlardan, material və avadanlıqdan səmərəli istifadə olunması ilə bağlı bütün məsələlərin həlli vacibdir və bu məqsədlə respublika XKS Azərbaycan K(b)P MK yanında, MK-nın ikinci katibi P.Çeplakovun sədrliyi ilə komissiya yaradıldı. Büroda partlayıcı maddələrin, döyüş sursatının, silahların istehsalı ilə məşğul olan müəssisələrin maliyyə məsələsinə də baxıldı. XKS-nin sədr müavinlərindən birinə, Maliyyə Xalq Komissarlıqlarına, "Qosbank"ın Azərbaycan şöbəsinin sədrinə belə müəssisələrin maliyyələşmə mənbələrini tapıb müəyyən etmək tapşırıldı.
1941-ci il dekabr ayının əvvəlində hərbi təyinatlı məhsul buraxan respublika müəssisələrinin işi dayanmadan, tam gücü ilə gedirdi. Fəhlə və qulluqçular, mühəndis-texniki işçilər gecə-gündüz 18-19 saat fasiləsiz işləyir, istehsal olunan müxtəlif cür silah və döyüş sursatını operativ surətdə hərbi birləşmələrə, hissələrə göndərirdilər.
Həmin vaxt Azərbaycan XKS-nə və K(b)P MK-ya Zaqafqaziya Cəbhə qoşunları komandanı, general-leytenant Kozlovdan məktub, Cənub Cəbhə qoşunları komandanı, general-polkovnik Y.Çereviçenkodan teleqram gəldi. General-leytenant Kozlov məktubunda bildirirdi ki, Zaqafqaziya Cəbhəsinin Kimya şöbəsi tank əleyhinə yandırıcı butulkaların hazırlanması üçün yeni resept işləyib tapıbdır.
Cənub Cəbhəsi qoşunlarının komandanı general-polkovnik Y.Çereviçenko isə öz teleqramında respublika rəhbərliyinə müraciətlə Azərbaycan SSR müəssisələrində ona tabe qoşunlar üçün müxtəlif növ silah və döyüş sursatlarının istehsal olunmasını xahiş edirdi.
L.Şmidt adına zavodun kollektivi əlaqədar müəssisələrlə birlikdə planda nəzərdə tutulduğu kimi 40 gün ərzində deyil, cəmi 16 gün sərf edərək ağır aviasiya bomba korpuslarının kütləvi istehsalını qaydaya saldı.
"Zaqfederasiya" adına gəmi təmiri zavodu isə altı ay əvəzinə üç aya ağır aviabomba və aviaxizəklərin kütləvi istehsalını mənimsədi. Bakı avtomobil təmiri zavodu da M-13 minamyotunun, PPS avtomatına lazım olan detalların istehsalına, həm də tanklara aid müxtəlif hissələrin təmirinə başladı.
1941-ci ilin sonunda hərbi məhsul istehsal edən zavod sexləri planı 200% yerinə yetirdilər. Artıq ilin axırına yaxın Azərbaycanda 130 növdə silah, döyüş sursatı, hərbi ləvazimat, mal-material istehsal olunurdu. Bunlara əlavə, onu da qeyd edək ki, yerli sənaye Xalq Komissarlığının, eləcə də "Azərsənayeşurası"nın xətti ilə Bakıda (Leninqraddan sonra) "Molotov kokteyli" adında yandırıcı butulka istehsalına başlandı. 1941-ci ilin 8 noyabrında 35 min ədəd yandırıcı butulka və 14 min ehtiyat patron istehsal olunaraq, yeşiklərə yığıldı. Müəssisənin istehsal gücü isə sutka ərzində 10 min ədədə çatdırıldı.









*Bu mərkəzin işində 59 alman təyyarəsini vurmuş, üç dəfə Sovet İttifaqı Qəhrəmanı adını almış A.İ.Pokrışkin də fəal iştirak etmişdir*

***Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının rolu böyük idi.***
***Bir daha təkrar edirəm, bizim insanların cəbhədəki mərdliyi, həmçinin Azərbaycan xalqının neft hasilatı, cəbhəyə lazım olan bütün məhsulların istehsalı sahəsindəki xidmətlərinin qədri-qiyməti yoxdur. Bu, böyük tarixi əhəmiyyətə malikdir.***

***Heydər ƏLİYEV,***
***Azərbaycan xalqının ümummilli lideri***



*Müharibə illərində Bakıda Sovet təyyarəçilərinin yenidən öyrədilməsi və texniki heyətin hazırlanması mərkəzi yaradıldı*

# İBRAHİMOV ƏLİHEYDƏR ƏLİQULU OĞLU
## (1906-1953)



O, Cənub-qərb cəbhəsində vuruşub. Qafqaz uğrunda gedən döyüşlərin iştirakçısı idi. Odessanı, Bresti, Brest qalasını faşistlərdən azad edib. Tank əleyhinə qvardiya qırıcı diviziyasının 4-cü korpus komandiri, Qızıl Ordunun qvardiya mayoru olub.

Əliheydər Əliqulu oğlu İbrahimov 1906-cı ildə Bakının Bilgəh qəsəbəsində anadan olub. Qafqaz hərbi məktəbini, sonralar isə hərbi süvari məktəbini bitirib. Qərargah rəisi olmaqla, 1926-1937-ci illərdə hərbi məktəblərdə, hissələrdə, bölmələrdə xidmət göstərib.

1941-ci ildə alman-faşist qoşunları SSRİ-yə hücum edəndə Ə.İbrahimov könüllü cəbhəyə gedir. Vətənin azadlığı uğrunda əsl igidliklə döyüşə atılır. Müharibənin ilk günündən Cənub-qərb cəbhəsində vuruşur. 1941-ci ildə Poltava yaxınlığında gedən döyüşlərdə kontuziya alır. Şimali Qafqaz cəbhəsində qoşunların şimal qrupunun tərkibində Qafqaz uğrunda gedən döyüşlərin iştirakçısı olur. 4-cü əlahiddə tank əleyhinə qırıcı diviziyanın komandir müavini, qvardiya kapitanı Əliheydər İbrahimovu həmişə döyüşün ən qızğın mövqelərində görmək olardı. 1944-cü ildə isə 4-cü Ukrayna cəbhəsinin tərkibində Odessanı faşistlərdən təmizləyir.

1944-cü il mart ayının 10-da Baştanka rayonunda gedən döyüşlərdə Ə.İbrahimovun başçılığı ilə düşmənin hücumları dəf edildi. Bu əməliyyatda düşmən öz sıralarından 60-dan çox əsgər və zabitini itirdi.

Mart ayının 14-də Ə.İbrahimov Kuban kazak eskadronu və beş tankı ilə birlikdə artilleriya-ya, özü yeriyən toplara malik alay gücündəki düşmən kalonuna qəfil hücum etdilər. Ə.İbrahimovun dəstəsi düşməni darmadağın etdi. Döyüş zamanı 170 nəfər alman əsgər və zabiti məhv edildi. Həmin döyüşdə göstərdiyi igidliyə, şəxsi heyəti bacarıqla idarə etdiyinə görə 4-cü qvardiyaçı kazak süvari korpusunun komandiri, qvardiya general-leytenantı Pliyevin təqdimatı əsasında Ə.İbrahimov "Aleksandr Nevski" ordeni ilə təltif edildi.

Ə.İbrahimov 1945-ci ilin mayında artıq artilleriya diviziya komandiri kimi Brestin, Berlinin və Brest qalasının azad olunmasında iştirak etdi. Qvardiya mayoru Əliheydər İbrahimov son döyüşlərdə ağır yaralandı, on yeddi yara alaraq, görmə qabiliyyətini də itirmiş oldu. Ona Qələbənin sevincini yaşamaq nəsib oldu, lakin 1953-cü ilin noyabr ayında isə müharibənin yaraları qəhrəmanın həyatına son qoydu.

Ə.İbrahimov iki "Aleksandr Nevski", "Döyüş Qırmızı Bayrağı", "Qırmızı Ulduz", "Şərəf nişanı" ordenləri, "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif edilmişdir.





## RESPUBLİKA ZAVODLARININ DMK TAPŞIRIQLARINI YERİNƏ YETİRMƏK HAQQINDA ÜİK(B)P MK-NIN AZƏRBAYCAN K(B)P MK-YA GÖNDƏRDİYİ TELEQRAMDAN:

- "Azərbaycn Respublikasının zavodları 1944-cü ildə elektrik stansiyası üçün ehtiyat hissələrinin hazırlanması üzrə Dövlət Müdafiə Komitəsinin tapşırıqlarını 105,4 faiz yerinə yetirib. Bununla da energetika avadanlığının əsaslı təmirinə əhəmiyyətli dərəcədə kömək göstərdilər. Azərbaycan Respublikası zavodlarının 1944-cü ildə elektrik stansiyasının sifarişlərini yerinə yetirməsi elektrik avadanlıqlarının əsaslı təmirinin vaxtında aparılmasına imkan verdi. Nəticədə, fəaliyyətdə olan elektrik stansiyasının işinə etimad yüksəldi, işgüzarlıq dərəcəsi artdı. Qarşıda duran, olduqca vacib tapşırıq isə sizin müəyyən etdiyiniz 1945-ci ilə aid elektrostansiya üçün ehtiyat hissələrinin hazırlanması planını yerinə yetirməyiniz və elektrik avadanlıqlarının təmirinin aparılmasıdır".

ARPİİ SSA, f. 1, op. 192, s. 216, *l* 12
Nüsxə



*Muxtar Vilayətin Nehrəm kəndində Böyük Vətən müharibəsi qəhrəmanlarının şərəfinə ucaldılan abidə (Naxçıvan, Azərbaycan)*

# TEHRAN KONFRANSI

Stalinqrad ətrafında gedən döyüşlərin 1943-cü ildə Sovet İttifaqının xeyrinə başa çatması, Kursk ətrafında Sovet Ordusunun hucumu, döyüş-döyüşə Dneprin o biri sahilinə çıxması, Kiyevin azad olunması qarşı-qarşıya dayanmış koalisiyaların yalnız silahlı mübarizəsinə təsir göstərməklə bitmədi. Sovet Ordusunun hərb meydanındakı zəfəri xarici siyasət arenasında gedən mürəkkəb və gərgin mübarizədə həlledici rola malik idi.

Almaniya ilə 1943-cü ildə də təkbətək döyüşən Sovet qoşunları öz uğurları ilə (o vaxtkı ABŞ və İngiltərə hələ ki, ikinci cəbhəni açmağa tələsmirdi) Hitler müttəfiqlərinin düşərgəsində çaxnaşma və parçalanma yaratdı.

Hitlerçilərin 1943-cü ilin payızında Sovet-alman cəbhəsində məğlub olması ingilis-amerikan qoşunlarının İtaliya sahillərinə çıxmasına rəvac verdi. İtaliya çox tez təslim oldu. Faşist dövlətlər bloku dağılmağa başladı.

Qızıl Ordunun qələbələri Almaniyanın işğal etdiyi ölkələrdə, xüsusən Yuqoslaviyada, Polşada, Çexoslovakiyada milli-azadlıq hərəkatını gücləndirdi.

Bu məsələdə Almaniyaya qalib gəlmək gücünə, Avropa xalqlarını Hitler istibdadından xilas etməyə qadirliyini göstərən Sovet Silahlı Qüvvələrinin çaldığı parlaq qələbələr Qərbin hakim dairələrinə həlledici təsir göstərməyə bilməzdi.

Bundan sonra İkinci cəbhənin açılmasını ləngitmək müttəfiqlər üçün siyasi cəhətdən əlverişli olmazdı. Əks halda, onlar hərbi teatrın Avropa finalına gecikə bilərdilər. Sovet dövlətinin beynəlxalq aləmdə nüfuzunun artması, güclü diplomatik səyləri 1943-cü ilin axırında Tehranda üç böyük dövlətin - SSRİ, ABŞ və İngiltərə başçılarının, müharibə dövründə baş tutan ilk konfransının çağrılmasına imkan yaratdı. Antihitler koalisiyasının üç aparıcı dövlət liderlərinin - İosif Stalin, Franklin Ruzvelt, Uinston Çörçillin iştirak etdiyi konfrans-müşavirə 1943-cü il noyabr ayının 28-dən dekabr ayının 1-dək İranın paytaxtı Tehranda keçirildi. Elə tarixə də "Tehran konfransı" adı ilə düşdü. ABŞ və İngiltərə SSRİ hökumətinə təntənəli surətdə vəd verdilər ki, Avropada İkinci cəbhə 1944-cü ilin may ayının 1-dən gec olmayaraq açılacaq. Konfrans antihitler koalisiyası üzərində qələbə çalınması üçün qüvvələrin birləşdirilməsində, insan və maddi ehtiyacların səfərbər edilməsində, həqiqətən, böyük rol oynadı. Tehran konfransından sonra ABŞ və İngiltərənin söz verdikləri həqiqi fəaliyyətə keçməkdən başqa əlacları qalmadı. Onlar Şimali Fransada aparılacaq desant əməliyyatına ("Overlord") hazırlığı sürətləndirdilər. Müttəfiq qoşunların Fransanın cənubuna çıxarılma əməliyyatı ("Envil") başlandı.



*Tehran, 1943-cü*

Ekspedisiya qoşunlarının Britaniya adalarında cəmləşməsi daha da sürətləndi. İngilis-amerikan aviasiyası tərəfindən Hitler Almaniyasının strateji bombardmanı gücləndi. İngilis-amerikan qoşunlarının Normandiya desant əməliyyatı (6 iyun-24 iyul 1941-ci il) Kannın şimal-şərqinə və Sent-Mer-Egliz rayonuna dəniz - hava qüvvələrinin çıxarılması ilə başlandı. Həmin əməliyyatın birinci mərhələsində Şimali Fransa sahillərinə 1,6 milyon əsgər və zabit çıxarıldı. Müttəfiqlər tank və təyyarələrin sayına görə düşməndən qat-qat üstün idi. Dənizə nəzarət də onların ixtiyarında idi.

Öz sıralarında 500 min insanı birləşdirən Fransız Milli Müqavimət hərəkatı da müttəfiq qoşunlarına yaxından kömək göstərirdi. Çox keçmədi ki, Paris və Fransanın digər şəhərləri almanlardan azad edildi. Avqust ayının 15-də amerikan və fransız hərbi birləşmələri Fransanın cənubuna çıxdı.

Hitler Almaniyası öz qoşunlarını Cənubi Fransadan geri çəkməyi qərara aldı.

Faşist Almaniyası Avropada, İkinci cəbhədə mübarizə aparmaq məcburiyyətində qaldı. Nəticədə, almanların strateji manevr etmə imkanları xeyli məhdudlaşdı.

Beləliklə, Tehran konfransı sayəsində İkinci Dünya müharibəsinin ən vacib hərbi-siyasi məsələlərindən birinə, yəni 1944-cü ilin yazında Avropada İkinci cəbhənin açılmasına rəvac verildi.

Sovet ordusu da öz müttəfiqlik borcuna sadiq qalaraq, sovet-alman cəbhəsində nəzərdə tutulan vaxtdan da qabaq güclü hücumlara başladı.



The New York Times.

ROOSEVELT, STALIN, CHURCHILL AGREE ON PLANS FOR WAR ON GERMANY IN TALKS AT TEHERAN; 1,500 MORE TONS OF BOMBS DROPPED ON BERLIN

SOLDIER-VOTE BILL SHIFTED BY SENATE TO LET STATES RULE

1,000 BIG BOMBERS, 7,130 OTHER PLANES BUILT IN NOVEMBER

AIR BATTLES SHARP

...sh Army Drives 6 Miles Up Coast Toward San Vito

DECISIONS VARIED

OLIVE OIL IMPORTS ARE BANNED BY U.S.

SOUTH BERLIN HIT

WALKER OPPOSES POSTAL RATE RISES

Red Army Tightens Noose

# CAHANGİR BAĞIROVUN İGİDLİYİ

*İkinci Dünya müharibəsi bir-biri ilə vuruşan dövlətlərin tarixində və minlərlə, milyonlarla insanın həytında silinməz izlər buraxdı. O cümlədən siyasi xadimlərin də taleyinə qanlı, sağalmaz yaralar vurdu. Bu mənada Sovet dövlətinin rəhbərləri də istisna deyildi.*

*Biz hamımız İosif Vissarionoviç Stalinin dillər əzbərinə çevrilmiş bir ifadəsini yaxşı xatırlayırıq. Onun böyük oğlu Yakov əsir düşür. Almanlar Yakovu Qızıl Xaçın vasitəsi ilə general-feldmarşal Paulyusla dəyişmək istəyir. Bu barədə İ.V.Stalinin yanında söhbət gedəndə, o, - "mən əsgəri marşala dəyişmərəm!", - deyir.*

*Nikita Xruşşovun da oğlu cəbhədən qayıtmadı. Bu mənada Mircəfər Bağırovun böyük oğlu Cahangir (Vladimir) Bağırovun da taleyi maraq doğurur.*

Cahangir Bağırov 1919-cu il, oktyabr ayının 6-da Həştərxanda anadan olub. 1938-ci ildə Bakı aeroklubunu, sonra Yeysk aviasiya, daha sonra isə Daşkənd hərbi məktəblərini bitirib. Cahangir təhsil illərində tez-tez atası ilə məktublaşırdı. Məktubların birində yazırdı:

- "Əzizim, ata! Səndən ötrü çox darıxmışam, səninlə danışmaq, sənin söhbətinə qulaq asmaq istəyirəm! Hələ ki, Moskvadasan, deməli, səninlə danışmağa imkan var. Daşkəndlə Moskva arasında telefon rabitəsi mümkündür. Bura ilə Bakı arasındasa belə əlaqə yoxdur...



Fevralın 23-dək zaçotları, yoxlama işlərini uğurla verdim... Deməli, mənə zəng vuracaqsan, mütləq gözləyəcəyəm. Bərk-bərk öpürəm. Oğlun Volodya. 17 fevral 1941-ci il".

Müharibə başlayanda qırıcı-təyyarəçi Cahangir qvardiya-leytenantı rütbəsindəydi. O, Moskva uğrunda gedən döyüşlərdə iştirak etdi. 1942-ci ildə holundan yaralandı. Bakıda, hospitalda müalicə olundu.

Cahangir 1943-cü il fevral ayının 4-də qospitaldan atasına yazırdı:

- "Əzizim, ata! Artıq iki ay yarımdır ki, özümə yar tapmıram. Vətənin darda qaldığı, onun minlərlə oğlunun odlu-alovlu Vətən müharibəsi cəbhələrində öz qanını, canını əsirgəmədən vuruşduqları bir vaxtda burada oturub, indi çox baha olan havayı çörək yeyirəm.

Qızğın döyüşlər harda gedirsə, mən xüsusilə orada olmalıyam". Çünki mən Vətənimizin, partiyamızın oğluyam, sənin oğlunam. ...Cavan, artıq sap-sağlam ola-ola, arxada oturub qalmışam. Ata, kaş biləydin ki, gözümü qaldırıb insanların gözünün içinə baxmağa necə də utanıram!



*Cahangir Bağırovun məzarı (Bakı)*





Здравствуй папа!

Я очень соскучился по тебе и хочу услышать тебя, поговорить с тобой, и пока ты в Москве это можно будет с тобой поговорить. Телефонная связь Ташкент–Москва есть, а с Баку нету.

*Cahangirin atasına yazdığı məktub*

Səndən xahiş edirəm, cəbhəyə qayıtmağımı tezləşdir. Mənə onların iki ay yarım gözlədiyim tərifli təyyarələri lazım deyil. Nədə olursa olsun, hətta "U-2"-də uçmağa belə hazıram, təki döyüşüm, boş dayanmayım.

Bir həftə də birtəhər dözərəm, sonra qarşıma çıxan ilk hərbi hissəyə qoşulub özümü cəbhəyə çatdıracağam.

Cəbhəyə qayıdacağım günü səbirsizliklə gözləyirəm, orada sübut edəcəm ki, sənin oğlun öz atasına, Vətəninə layiq bir oğuldur! Bərk-bərk öpürəm. Sənin Vladimirin! 4.02.1943-cü il".

Qospitalda aldığı müalicədən sonra Cahangir Voronej cəbhəsində 2-ci Hava Ordusu, 8-ci qırıcı-aviasiya diviziyası, 40-cı qvardiya qırıcı-aviasiya alayının tərkibində vuruşdu.

1943-cü il iyun ayının 5-də alman təyyarələri ilə qeyri-bərabər döyüşdə, Oboyan şəhəri yaxınlığındakı hərbi aerodroma yönələn düşmən hücumunu dəf edərkən alman təyyarələrindən birini vurur.

Rəsmi məlumata görə, Cahangir Bağırov ikinci düşmən təyyarəsini, döyüş sursatının tükənməsi səbəbindən taran zərbəsi ilə vurur və özü də həlak olur. Hər iki təyyarə havadaca yanıb, kül olur...

Cahangirin sonuncu döyüşü barədə aviasiya marşalı Stepan Krasovski öz kitabında belə yazır:

-"Çoxsaylı hava döyüşlərindən ən çox yadımda qalanı, tez-tez xatırladığım komsomolçu-pilot Volodya Bağırovun Oboyan şəhəri rayonundakı savaşıdır. O, döyüş sursatının xeyli hissəsini işlədib qurtardığı vaxtda, görür ki, sağdan hərəkət edən iki "Yu-88" onu qaralayıb. Volodya onlardan birinin sol motorunu hədəfə alır. Motor yanır və "Yunkers" sola dönərək ikinci təyyarənin quyruq hissəsinə dəyir. Belə tarandan sonra hər iki bombardmançı yerə düşür.

Döyüş sursatı tükənmiş Volodyanın qarşısında "Fokke Vulf-190" uçurmuş. O, taranla ağır alman qırıcısının üstünə şığıyır. Onların hər ikisi elə havada partlayır..."



Cahangir (Volodya) Bağırov



Mir Cəfər Bağırov

Volodya Bağırovun son döyüşü, qəhrəmanlığı, onun "Lenin" orden ilə təltif olunması barədə o vaxt cəbhə qəzetlərində ətraflı bəhs olundu...

Respublikamızda isə yerli qəzetlər Cahangir Bağırovun igidliyi barədə 8 iyulda xəbər tutdular. Mətbuat onun həlak olması barədə nekroloq və şəklini dərc etmişdi. Azərbaycanlılar ilk dəfə idi ki, M.C.Bağırovun oğlunun şəklini və onun necə bir övlad olduğunu oxuyub görürdülər.

Cahangirin ölümündən sonra mükafatın təqdim olunma tarixçəsi də çox maraqlıdır. Alman-faşist işğalçılarının törətdiyi cinayətlərin araşdırılması üzrə Fövqəladə Dövlət Komissiyasının sədri N.M.Şvernik M.C.Bağırova zəng vuraraq oğlunun qəhrəmancasına həlak olmasına görə başsağlığı verəndən sonra bildirir ki, Cahangir Bağırova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilməklə "Qızıl ulduz" medalına layiq görülüb.

M.C.Bağırov isə Svernikə belə cavab verir ki, onun oğlu Cahangir də minlərlə sadə sovet vətəndaşlarının övladlarından biridir. Onun "Lenin" ordeni ilə təltif edilməsi kifayətdir və üstəlik M.C.Bağırov xahiş edir ki, müharibə dövrünün reallıqlarını nəzərə alaraq, oğlu həlak olduğu yerdəcə torpağa tapşırılsın.

N.M.Şvernik deyir ki, M.C.Bağırovun xahişinin birinci hissəsi yerinə yetirilə bilər, xahişin ikinci hissəsinin yerinə yertirilməsi isə qeyri-mümkündür. Qəhrəmanın cəsədini Vətənə daşıyan təyyarə artıq yoldadır...

Cahangir Bağırov Bakıda, Yasamal qəbiristanlığında torpağa tapşırıldı.

Və sözümüzün sonunda tarixin kifayət qədər gerçək ayrıntısı, həyatınsa acı bir kinayəsindən söz açaq. 1956-cı ildə M.C.Bağırovun məhkəməsindən sonra onun axırıncı xahişi yerinə yetirildi.

Bir zamanlar çox şeyə qadir olan rəhbər məhkəmədən sonra oğlunun məzarını ziyarət etmək istədiyini bildirdi. Şahidlərin dediyinə görə, dövlət təhlükəsizliyi xidmətinin əməkdaşlarının mühafizəsi altında M.C.Bağırov Yasamal qəbiristanlığına gətirilir. Azərbaycanlı "konvoylar" rus komandirlərindən xahiş edirlər ki, kənara çəkilib Mircəfərin öz oğlu ilə rahat vidalaşmasına şərait yaratsınlar. Vidalaşma 1 saat 26 dəqiqə çəkir. Bu günə qədər heç kəsin qarşısında əyilməyən, dosta düşmənə çox güclü görünən M.C.Bağırovun göz yaşları ara vermədən Cahangirin qəbrinin üzərinə damlayır, sinə daşını yuyurdu... Mir Cəfər qurumuş dodaqları ilə qəbirüstü abidəni son dəfə öpməkdən doymurdu!

***L.D.Hüseynova,***
***tarix elmləri üzrə***
***fəlsəfə doktoru***





## *Sizin qəhrəmanlığınız əbədidir!*



# ABDULLAYEV YUSİF MİRZƏ OĞLU (1902-1977)

Atıcı diviziyanın komandiri Abdullayev Yusif Mirzə oğlu 1920-ci ildə Qızıl Ordu sıralarına hərbi xidmətə yollanıb və kursant kimi Azərbaycan Qarışıq Qoşunlar Hərbi Məktəbinə qəbul edilib. 1922-ci ilin mayından 1930-cu ilin mayına qədər Azərbaycan Qarışıq Atıcı diviziyasının artilleriya divizionunda taqım komandiri olub. 1930-cu ilin mayında M.Frunze adına Hərbi Akademiyaya dinləyici kimi daxil olub. 1933-cü ilin mayında Hərbi Dairə Qərargahının Kəşfiyyat məntəqəsinə rəis təyin edilir. 1938-ci ildə Hərbi Dairə Qərargah Kəşfiyyat şöbəsinin rəis müavini vəzifəsinə irəli çəkilir.




1939-cu ilin oktyabr ayında Yusif Abdullayev Qızıl Ordu Baş Qərargahının Hərbi Akademiyasında oxumağa göndərilir.

1941-ci ilin iyul ayında podpolkovnik Y.Abdullayev Şimal-Qərb Cəbhəsi Hərbi Şurasının sərəncamına daxil olur. Tezliklə orada bölmə rəisi təyin edilir. Sonra cəbhə qərargah kəşfiyyat şöbəsi rəisinin kadrlar üzrə köməkçisi, oktyabr ayında Novqorod ordu əməliyyat qrupunda kəşfiyyat şöbəsinin rəisi olmuş, 1942 və 1943-cü illərdə Demyanskdakı hücum əməliyyatlarında iştirak etmiş, 34-cü ordu qərargahında əməliyyat şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

1943-cü ilin mart və avqust aylarında ordu 2 cəbhədən sonra düşmənin Starorus əməliyyatını məhv etmək haqqında qərar qəbul etdi. Şəhəri ələ keçirmək məqsədi ilə iki dəfə hücuma keçməyə cəhd göstərilir. Şəhərin alınması zamanı yaranmış hərbi şəraitdə Y.Abdullayevin rəhbərlik etdiyi əməliyyat şöbəsi qarşiya qoyulan tapşiriqlari əhatə edə bilmədi. Odur ki, 1943-cü il iyun ayının 23-də Y.Abdullayev vəzifəsindən azad edilərək cəbhə Hərbi Şurasının sərəncamına göndərilir. 1943-cü il avqust ayının 17-dən oktyabr ayına qədər Şimal-Qərb cəbhə komandaninin tabeliyində olan 96-cı atıcı korpusun qərargah rəisi vəzifəsinə təyin olunur.

Oktyabr ayında 34-cü ordunun qərargah rəisi vəzifəsini tutur. Dekabrda isə eyni vəzifəni 6-cı qvardiyaçı orduda daşımağa başlayır.

6-cı ordu Nevel rayonunda müdafiə döyüşləri aparırdı. Y.Abdullayev də düşmənin Neveldə darmadağın edilməsi üzrə aparılan hərbi əməliyyatlara rəhbərlik edirdi. Elə o ərəfədə polkovnik Y.Abdullayev ələ hərbi fəaliyyətə görə "Qırmızı bayraq" ordeni ilə təltif olundu.

1944-cü ilin oktyabrında o, 38-ci qvardiyaçı atıcı diviziyanın komandiri təyin edilir. Diviziya Şərqi Prussiya, Şərqi Pomeransk və Berlin üzərinə hücum əməliyyatlarında iştirak edir. Y.Abdullayevin komandanlığı altında diviziya Bromberq (Bıdqoş) şəhərinin şimal-qərbində döyüşə-döyüşə Visla çayını keçir, həmçinin düşmənin Dansiq qrupunun məhv edilməsində, Qdınya şəhərinin azad olunmasında, Varşava uğrunda, Pomeraniyada gedən döyüşlərdə mərdliklə iştirak edir.

Diviziyanın apardığı hərbi əməliyyatlara bacarıqla rəhbərlik etdiyinə görə Yusif Mirzə oğlu Abdullayev İkinci dərəcəli Suvorov və eyni dərəcəli "Kutuzov" ordenləri ilə təltif olunur.

SSRİ Silahlı Qüvvələr naziri, Sovet İttifaqı Marşalı Bulqaninin 16 iyun 1948-ci il tarixdə verdiyi əmrə əsasən polkovnik Y.Abdullayev Orduya Könüllü Yardım Cəmiyyəti Mərkəzi Komitəsinin sədri vəzifəsində işləmək üçün Azərbaycan SSR Nazirlər Sovetinin sərəncamına göndərilir.

Y.Abdullayev 1951-1979-cu illər ərzində müxtəlif vəzifələrdə, Azərbaycan K(b)P MK-nın katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, Azərbaycan SSR sosial təminat nazirinin müavini, Dəniz Gəmiçiliyi İdarəsinin ("Kaspar"), sonra isə Bakı Metropoliteninin rəis müavini vəzifələrində çalışır. 1970-ci ildən ömrünün sonuna qədər Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyində işləyib.

1972 və 1977-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev Y.Abdullayevə şəxsən zəng vuraraq, onu anadan olmasının 70 və 75 illik yubileyləri münasibəti ilə təbrik etmişdi.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin polkovniki Abdulla Qurbani onun haqqında "Dəmirçi oğlunun taleyi" adlı kitab yazıb.

Polkovnik Abdulla Qurbani 1956-cı ildə anadan olub, ixtisasca teatrşünasdır. Uzaq Şərq Hərbi Dairəsində hərbi xidmət keçib. Könüllü olaraq Qarabağ müharibəsinə gedib. Əvvəlcə sıravi əsgər, sonra isə zabit kimi qulluq edib. Qarabağ müharibəsi veteranıdır. Əməkdar incəsənət xadimidir. 70-dən çox kitabın, 100-dən artıq məqalənin, bir sıra hərbi marş və mahnının, rekviyem-oratoriyanın, simfonik-vokal poemanın müəllifidir.

A.Qurbani Respublika Veteranlar Şurası Rəyasət Heyətinin üzvüdür. Qarabağ döyüşlərində, hərbi xidmətdə fərqləndiyinə görə 9 medala layiq görülüb. Hazırda Azərbaycan Respublikası Müdafiə Nazirliyində şöbə rəisi vəzifəsində çalışır.



*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin polkovniki Abdulla Qurbani*





# Sizin qəhrəmanlığınız ölməzdi

## Süleymanov İdris Həsən oğlu (1915-1986)



O, 1915-ci il fevral ayının 12-də Yelizavetpol quberniyasının Goranboy-Əhmədli kəndində anadan olub. Orada böyüyüb boya-başa çatıb. İdris Süleymanovun döyüş yolu o qədər uzun çəkməsə də, həmin yol xalqımızın Böyük Vətən müharibəsi tarixindəki qəhrəmanlıq salnaməsinin ən parlaq səhifələrindən biridir.

Müharibə başlayan kimi könüllü cəbhəyə getdi. 1942-ci ilin noyabr ayında Mozdok ətrafındakı İşşersk stansiyasında kiçik leytenant İ.Süleymanovun başçılıq etdiyi atıcı taqım düşmən tanklarının hücumuna məruz qalır... Komandir özünü itirmədən döyüşçülərini hücuma səsləyir. Gözündən və ayağından yaralanmasına baxmayaraq, döyüşə davam edən atıcı taqımın komandiri Süleymanov əsgərləri son nəfəsə qədər igidliyə ruhlandırırdı. Düşmənin tank "seli"nə sipər çəkildi. 1942-ci il dekabr ayının 13-də İdris Süleymanova Sovet İttifaqı Qəhrəmanı adı verildi. O, müharibədən sonra 1969-cu ilə qədər Qasım İsmayılov rayonunun sosial-təminat şöbəsində işləyir.



## Məmmədov Qafur Nəsir oğlu (1922-1942)

***Öz həyatı bahasına komandirini xilas etdi***

Bakıda 1922-ci il mart ayının 5-də fəhlə ailəsində anadan olub. Böyük Vətən müharibəsi başlayanda 19 yaşlı Qafur da cəbhəyə birinci gedənlərin sırasına qoşuldu.

İgid bakılı balası 8 ay torpağı müdafiəçilərinin "qanı ilə yuyulmuş" Sevastopol şəhərində döyüşdü. Sonra dəniz piyada batalyonu tərkibində Tuapse uğrunda gedən vuruşların iştirakçısı oldu. Qafur hərbi hissədə onun xətrini doğma qardaşı qədər istəyən komandirin rabitəçisi idi.

Bir dəfə almanlar rotanın nəzarət məntəqəsinə girə bildi. Faşist əsgərin tüfəngi komandirinə tuşladığını görən Qafur silahının tətiyini çəkdi. Amma atəş açılmadı. Avtomatının güllədanı boşalmışdı. Faşistlər atəş açanda isə bir anın içində fikirləşmədən sinəsini qabağa verib, özünü komandirinə sipər etdi.

İgidliyinə görə Qafur Məmmədov 1943-cü il mart ayının 31-də, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Qafurun adı əbədi olaraq qulluq etdiyi hərbi hissənin siyahısına salındı. Bakı Dənizçilik Məktəbinə, Dəniz Balıqçılıq Donanmasının gəmisinə, Bakı parklarından birinə onun adı verilib. Xəzər Gəmiçilik İdarəsi gəmilərindən biri də Qafur Məmmədovun adını daşıyır.

# Hər şey cəbhə üçün, hər şey Qələbə üçün! Azərbaycan zəhmətkeşləri Sovet İttifaqının Hitler Almaniyası üzərində qələbəsi naminə yorulmadan çalışırdılar

*Zamanın saraltdığı arxiv sənədləri, müxtəlif qəzet materialları təkcə neft mədənlərində bir an belə dayanmadan çalışan, öz fədakar əməyi ilə Qələbəni yaxınlaşdıran Bakı neftçilərinin deyil, həm də cəbhəni lazım olan hər şeylə təmin edən Azərbaycanın şəhər və kənd zəhmətkeşlərinin qəhrəmanlıqlarına da şahidlik edir.*

## BAKI YERLİ SƏNAYESİNİN 1941-1944-CÜ İLLƏR ƏRZİNDƏKİ İŞİ HAQQINDA

1945-ci il

Müharibədən öncəki dövrdə Bakı şəhər İcraiyyə Komitəsi yerli sənayenin aşağıdakı əsas sahələrini əhatə edən yeddi müəssisəni özündə birləşdirirdi. Həmin müəssisələr kimya, trikotaj, metal emalı, ağac işləmə, yeyinti və toxuculuq sahələrinə aid məhsul istehsal edirdi.

1941-ci ilin əvvəlində yerli sənaye Bakı şəhər əhalisinin çoxişlənən mallarla təminatı və zəhmətkeşlərə daha yaxşı xidmət sahəsindəki fəaliyyətini genişləndirmiş oldu.

Bütün müəssisələr, rayon və sənaye kombinatları Böyük Vətən müharibəsi başlanan ilk günlərdən istehsal yolunu dəyişərək, əsasən müdafiə tipli məhsulların buraxılmasına keçdi. Qızıl Ordu üçün döyüş sursatı detalları, qoşqu-araba hissələri, hospitallar üçün mebel, yataq dəstləri, hava hücumundan müdafiə sığınacaqlarında quraşdırılan avadanlıq və bir sıra xüsusi ləvazimatlar həmin məhsullara aid idi.

Müəssisələrdə iş profilinin qəfil dəyişmə prosesi yeni istehsal növlərinin axtarışı, öyrənilməsi və mənimsənilməsi işçi kollektivlərinin gərgin, gücləndirilmiş iş rejimi ilə müşayiət olunurdu.

Qızıl Ordu üçün paltarların tikilməsi və təmiri məqsədilə yerli sənaye müəssisələrinə sistemli şəkildə sifarişlər, tapşırıqlar verilirdi. Belə işlərdə evdə çalışan qadınlar, qızlar, gəlinlər də fəal iştirak edirdi. Onlar verilən tapşırıqları xüsusi ruh yüksəkliyi ilə, canla-başla, yüksək keyfiyyətlə, vaxtlı-vaxtında yerinə yetirirdilər.

Yerli sənaye idarəsinin mebel fabriki işini yenidən qurmaqda xüsusi çətinlik çəkirdi. Müharibədən əvvəl məktəblər üçün mebel, əhalinin çox işlətdiyi müxtəlif növ məhsullar buraxan fabrikə davanın ilk günlərindən hərbi tipli arabaların, qoşquların hazırlanması kimi məsuliyyətli tapşırıqlar verildi.

Metal məmulatları zavodu müdafiə tipli məhsulların hazırlanmasını və buraxılmasını tez bir zamanda mənimsədi. Əsgər ayaqqabıları, çəkmələr üçün mallar, ordu dəbilqələri, araba detalları, qoşqu ləvazimatı, yəhərlər, kənd təsərrüfatı inventarı və başqa məhsullar, əsasən, yüksək dəyəri olmayan metalların, digər növ qalıqların bazasında hazırlanırdı.

Müharibəyə qədər əsasən kənardan gətirilən, az tapılan xammalla işləyən kimya zavodu son dərəcə böyük işlərin öhdəsindən gəldi. 1942-ci ildən isə məhsul istehsalında yerli xammal və sənaye tullantılarından istifadəyə başlandı. Müharibə illərində xüsusi məhsullar buraxan yeni sex quruldu. Ətriyyat sexi işə düşdü. Başqa sexlər də iş yönünü dəyişdi.

Hərb illəri ərzində rezin məmulatları fabriki əhəmiyyətli döyüş sursatları, neft sənayesinə gərəkli məhsullar, eləcə də traktor hissələrinin istehsalını mənimsəmiş oldu.

SSRİ XKS müharibə şəraitində yerli sənayenin əhəmiyyətini və rolunu yüksək qiymətləndirərək, 1942-ci il 28 avqust tarixli qərarında istehsal planını artıqlaması ilə yerinə yetirdiyinə görə mühəndis-texniki işçilərin əməyini mükafatlandırmaqla tənzimlədi.

Zaqafqaziyanın başı üzərində müharibə təhlükəsi olduğu halda Bakı şəhərinin müəssisə, ev-mənzil və idarələrinin təcili surətdə yanğın əleyhinə avadanlıqla təmin olunmasının vacibliyi ilə bağlı kimya zavodu direktorunun təşəbbüsü ilə yanğına qarşı inventar buraxılışı nizama salındı.

Bu məqsədlə tələsik təşkil olunmuş dəmirçi sexində zavod fəhlələrindən ibarət briqada "Qarametaltəchizat"dan alınan dəmir kütləsindən xeyli miqdarda inventar hazırladı.

Kimya zavodunun rəng, ayaqqabı mazları üçün xırda qablar düzəldən basma sexi cəbhə üçün silahlarda selluloid detalların hazırlanmasına keçdi.

Kimya zavodu cəbhəni həmçinin kifayət qədər təkər və çəkmə mazları ilə təchiz etməkdə idi.

Zavod hopdurma sexində propitkalar - xüsusi dəridən hazırlanmış üst geyimlərinin, kombinezonların, çəkmələrin və s. istehsalında da böyük işlər gördü. Sexdə alova qarşı kisələrin də istehsalına başlandı. Zavod on minlərlə belə geyim hazırladı.

Hökumətin tapşırığına əsasən kimya zavodunda ərzaq məhsullarını zəhərləyici maddələrin təsirindən qorumaq üçün xüsusi pasta və duru məhlul da hazırlanıb istehsala buraxıldı.

Müəyyən bir dövrdə, Azərbaycanın, eləcə də qonşu respublikaların bir sıra zavodları olduqca vacib bir silahın istehsalını dayandırmaq təhlükəsi ilə qarşılaşdı. Səbəbsə həmin silahın istehsalı zamanı lazım gələn xüsusi lakın yoxluğu idi. Müharibəyə qədər Mərkəzi Rusiyadan gətirilən həmin lakı hazırlamaq üçün Azərbaycanda lazımi xammal tapılmırdı. Texniki rəhbər sutkalarla çalışaraq həmin xammalın əvəzedicisini tapdı. Bundan sonra kimya zavodu həm Azərbaycanın, həm də qonşu respublikaların zavodlarında bu xüsusi laka olan tələbatı tamamilə ödəmiş oldu.

Kimya zavodunun istehsalı olan belə çoxişlənən yeni malların sırasına duru sabun, yuyucu məhlul və buna bənzər məhsullar: diş tozu, üz kremi, vazelin, üz qırxmaq üçün köpüklü şampun, səpməyə qarşı toz və s. məhsullar daxil idi.

Yerli Sənaye İdarəsinə məxsus, hələ müharibəyə qədər bağlanmış dulusçuluq sexi də kimya zavodu tərəfindən istismara buraxıldı.

Rezin məmulatlar fabriki 1941-ci ilin axırında Rostov-Dondan Bakıya köçürüldü.

Köçürülmədən sonra ağır, çətin şəraitdə bərpa olunmasına, ixtisaslı kadrların, avadanlıq çatışmazlığına baxmayaraq, fabrik Bakıda 25 günün içində istismara buraxıldı. 1942-ci ilin əvvəlində fabrikdən neft sənayesinə gərəkli rezin məmulatın istehsalına nail olmaq tələb edildi. Xüsusi çətinliklərə baxmayaraq, həmin istehsal prosesi çox qısa müddətdə mənimsənildi. "Azneftkombinat"ın rezin məmulatlarına olan tələbatı da təmin edilmiş oldu.

1942-ci ilin çətin günlərində, cəbhənin Qafqaza yaxınlaşdığı bir vaxtda fabrik təkcə neft sənayesi üçün deyil, həm də Zaqafqaziya cəbhə komandanlığının sifarişi ilə yandırıcı butulkalar üçün rezin halqaların kütləvi istehsalına başladı.

1943-cü il fabrikin kollektivi üçün yeni qələbə - ebonitdən hazırlanan 1 nömrəli xüsusi detalın istehsalına öyrəşmək məqamı oldu. Bu detal əvvəllər İttifaqın bütün zavodlarında metaldan hazırlanırdı. İstehsal prosesi də çox sayda avadanlıq və işçi qüvvəsi tələb edirdi.

Müdafiə Xalq Komissarlığı bu təklifin müəlliflərini mükafatlandırdı. Eyni zamanda, həmin detalın metaldan hazırlanmasını dayandıraraq, Bakı şəhər İcraiyyə Komitəsi Yerli Sənaye İdarəsinin rezin məmulatları fabrikində tamamilə ebonitdən hazırlanması barədə qərar verdi.

Həmin il fabrik tərəfindən keyfiyyəti xeyli dərəcədə yüksəldilmiş, istifadə müddəti uzadılmış pambıq qarışıqlı ayaqqabı altı, padoş rezinin istehsalı da mənimsənildi. Metal məmulatları zavodu müharibəyə qədər, əsasən tam dəyərli xammalla işləyərək, çox istifadə olunan mallar və kommunal təsərrüfatı üçün inventarlar, zibil qutuları, xakəndaz, tas, vedrə, çarpayı, dəmir çəlləklər və s. hazırlayırdı.

Müharibənin ilk günlərindən zavodun istehsal səmti dəyişilərək, əsgər dəbilqələrinin, dəmir təbəqədən hazırlanmış qızdırıcıların, kerosin lampaların kütləvi buraxılışına istiqamətləndirildi. Çarpayı sexi çarpayı və tor əvəzinə, maska toru, kirkə, ling, yanğın pilləkəni, kəlbətin istehsal etməyə başladı. Zavodun tökmə sexi isə yanğın əleyhinə armaturların buraxılmasını təşkil etdi.

İstixana-qaynaq sexi rezervuarların, yanğın əleyhinə çəlləklərin hazırlanmasına başladı. Ştamp-basma sexinin işi isə xüsusi sifarişlərin yerinə yetirilməsinə, həmçinin qoşqu-yəhər ləvazimatının, əsgər ayaqqabıları üçün nalların, radio detalların istehsalına yönəlmişdi. Zavod, həmçinin at-ulaq yükləmə ləvazimatı, səngər sobaları, araba hissələri, nalların kütləvi istehsalını da mənimsədi. Çaparidze rayon sənaye kombinatı müharibə illərində cəbhə üçün çoxlu sayda tikiş məhsulları buraxdı.

1941-ci ilin aprelində təşkil edilmiş Oktyabr rayon sənaye kombinatı da müharibə illərində özünün istehsal profilini kəskin surətdə dəyişdirdi.

Bakının yerli sənayesi 1944-cü ilin yanvar-aprel aylarında 1926-1927-ci illərdən dəyişməz qalan qiymətlərlə, 5864,5 min rublluq məhsul istehsal etdi. Bu da müharibəyə qədərki 1940-cı illə müqayisədə 198%, 1943-cü ilin həmin dövrü ərzindəkinə nisbətdə isə 150% təşkil edir.

**AR DA Baki filialı,**
**f 19, or 4, s. 39, LL. 1-33**

1941-ci il iyul ayının 29-da "Pravda" qəzeti "Zəhmətkeşlər Müdafiə Fondunun yaradılmasını təklif edir" başlıqlı xülasəsində göstərirdi ki, pul yardımlarını SSRİ Dövlət Bankının istənilən şöbəsindəki xüsusi hesaba köçürmək olar.

1941-ci il avqust ayının 1-dən etibarən "Sovinformbüronun" gündəlik xəbərlərində Fonda köçürmələr barədə ardıcıl şəkildə məlumatlar verilirdi.

Bir çox müəssisə fəhlələri hər ay bir günlük əməkhaqlarını Müdafiə Fonduna köçürürdü.

Kolxozçular plandan əlavə, "müdafiə hektarları"nda əkin-səpin aparırdı. İməcliklər təşkil edilirdi. Qazanılan vəsaitlər Müdafiə Fonduna köçürülürdü. Ziyalılar yazdıqları əsərlərin, söylədikləri mühazirələrin, solo konsertlərin qonorarını Müdafiə Fonduna verirdilər.

Azərbaycan xalqı Vətənin müdafiəsinə qalxaraq, yüksək vətənpərvərlik və qələbəyə böyük inam hissi ilə Müdafiə Fondunun yaranış hərəkatında böyük ruh yüksəkliyi ilə iştirak edirdi.

İnsanlar ehtiyat yığdıqları şəxsi pullarını, dövlət istiqraz vərəqələrini, zinət əşyalarını, ərzaq məhsullarını, ayda bir günlük əməkhaqqını Vətənin Müdafiə Fonduna verirdilər.

Müdafiə Fondunun yaradılmasına həvəslə qoşulmuş zəhmətkeşlər tez-tez təkrarlayırdılar:

Müdafiə Fondu - yeni toplar, təyyarələr, tanklar və gəmilərdir! Müdafiə Fondu - düşmənə atılan yeni mərmilərdir!

Avqustun əvvəlindən Qızıl Orduya kömək məqsədi ilə 20 gün ərzində Müdafiə Fonduna təkcə Bakıdan 2 mln. 247 min, respublikamızın rayonlarından isə 2 mln. 729 min, bütövlükdə respublika üzrə 4 mln. 976 min rubl həcmində pul köçürüldü.

Azərbaycan SSR-in şəhər və kəndləri ordunun döyüş potensialını gücləndirmək məqsədi ilə özlərində olan-qalan nə varsa, antiq zinət əşyalarına qədər, ha-



*Tonlarla məhsul yüklənmiş taxıl karvanları nəhəng axına qoşulurdu*





*SSRİ-də istehsal edilmiş elektrik enerjisinin hər adambaşına düşən miqdarı*




*Müharibədən qabaqkı dövrdə və müharibə illərində Azərbaycan adambaşına düşən elektrik enerjisi istehsalına görə İttifaq respublikaları arasında birinci yeri tuturdu.*



mısını Müdafiə Fonduna verirdilər. Artıq 1941-ci il avqust ayının 20-də Xaçmaz rayonu kolxozçuları 176 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvan, 290 ton buğda, 202 ton arpa, 80 sentner kartof, 285 sentner pomidor, 150 sentner küləş, 70 sentner yulaf, 110 kq yağ, 170 sentner kələm, 202 sentner soğan, 190 sentner qarpız, 10 sentner süd, 24 min rubl nağd pul, 56.710 rubl-luq istiqraz vərəqələrini Müdafiə Fonduna köçürdülər.

Xaçmaz şəhərinin əhalisindən isə Fonda 26.571 rubl, 8.100 rubllıq istiqraz vərəqəsi təhvil verildi.

Kirovabad (Gəncə) zəhmətkeşləri qısa müddət ərzində Müdafiə Fonduna 300 qrama yaxın qızıl, 11.607 qram gümüş, 1,5 milyon rubl həcmində istiqraz vərəqəsi verdilər.

Şamaxı rayonunun zəhmətkeşləri Dövlər bankı şöbəsinə 220.000 rubldan çox nağd pul, 20.600 rubllıq istiqraz vərəqi köçürdülər. Rayonun kolxozçuları ölkənin Müdafiə Fonduna 310 ton taxıl məhsulları, 700 baş qoyun, 50 baş iribuynuzlu heyvan verdilər.

Masallı rayonunun zəhmətkeşləri də Müdafiə Fonduna 195.925 rubllıq istiqraz vərəqəsi, 4 tondan çox əlvan metal, 50 tona yaxın arpa-buğda, 107 baş iribuynuzlu heyvan, 78 baş qoyun, 20 baş donuz verdilər.

Salyan zəhmətkeşləri Qızıl Ordunun əsgərlərinə və komandirlərinə 150 baş iribuynuz, 665 baş xırdabuynuzlu heyvan, 200 baş toyuq, 229.790 rubl nəqd pul, 396.970 rubllıq istiqraz vərəqəsi, 38 ədəd mahud şalvar, 35 cüt dəri, 40 cüt keçə çəkmə, çoxlu sayda alt paltarı, 120 mələfə, 400 kq yun, 100 yorğan 19 yarımpalto, 70 sırıqlı, 50 xəz papaq, 40 şinel vermişdilər.

Kəlbəcər rayon zəhmətkeşləri Müdafiə Fonduna 23.823 rubl pul, 14.505 rubllıq istiqraz vərəqi köçürdülər. Bundan başqa 8 ton ət, 369 kq yağ və b. ərzaq məhsulları da Fonda təhvil verildi.





Yardımlılar Vətənin Müdafiə Fonduna 11.478 rubl pul, 50.680 rubllıq istiqraz vərəqi, 1500 başdan çox iri və xırdabuynuzlu heyvanlar, müxtəlif növ ərzaq məhsulları göndərdilər.

Respublika əhalisinin bütün sosial təbəqələri yüksək vətənpərvərlik hissi ilə xalq Müdafiə Fondunun qurulmasında iştirak edirdi. Onlar gizlində-aşkarda olan ehtiyat yığımlarını fonda verir, qələbə sorağını daha da yaxınlaşdırırdılar.

30-cu illərin repressiya dalğalarında özünün bir sıra alim və şairlərini, yazıçı, mədəniyyət xadimlərini itirmiş Azərbaycanın ziyalı təbəqəsi də özünün heç vaxt səngiməyən birlik-bərabərlik gücünü bir daha göstərərək, birləşdi və Müdafiə Fondunun yaradılmasında fəal iştirak etdi.

1941-ci ilin avqustunda Azərbaycan SSR-nin xalq artistləri Knijnikov, Drozdov, Nikolski hər biri Müdafiə Fonduna 1000 rubl nəqd pul köçürdülər. Əməkdar incəsənət xadimi Ədil İsgəndərov

**"AYAQQABI FABRİKİ ÜÇÜN XAMMAL"**

Bakı sənayesi müharibə illərində, almanlar tərəfindən müvəqqəti işğal edilmiş rayonlardan bura köçürülmüş, iri ayaqqabı fabriki ilə zənginləşdi.

Fabrik istehsalının normal inkişafı xeyli həcmdə ayaqqabı altlığı materialları, bir sözlə, möhkəm xammal bazasının yaradılmasını, həmçinin dəri sənaye tullantılarından dəri laylar buraxan zavodun tikilməsini tələb edirdi. Elə cari ildən zavod məhsul verməyə başladi.

Fevral ayinda zavod 35 ton altliq materiali hazırladı. Ayaqqabı sənayesi hər gün buradan 600 lay dəri surroqatı alır. Bu da 3600 cüt fəhlə ayaqqabısının istehsal olunmasına yetərlidir.

**"İzvestiya", 22 mart 1945-ci il**



**Zaqafqaziya Dəmiryolu ilə yüklərin daşınması (Toxuculuq malları və xammalı, %-lə)**








isə fonda 1000 rubluq istiqraz vərəqi və 500 rubl da nağd pul verdi. Musiqili Komediya Teatrının kollektivi Müdafiə Fonduna 2.770 rubl vəsait qoydu.

Respublikanın qələm ustaları da özlərinin sosial fəallığı ilə fərqlənirdilər. Yazıçılar və şairlər Stalin mükafatı laureatı Səməd Vurğunun ardınca ölkənin Müdafiə Fonduna vəsait köçürürdülər. 1941-ci ilin payızına yaxın Rəsul Rza 1000 rubl, Süleyman Rüstəm 1500 rubl, Mir Cəlal Paşayev və Cəfər Xəndan hər biri 1000 rubl nağd olaraq, 1000 manatlıq da istiqraz vərəqini fonda verdilər. Onlar həm də ayda iki günlük əməkhaqlarını fondun hesabına yazdırdılar.

Ədəbiyyatşünas alim, tənqidçi Məmməd Arif 2000 rubl, şair Məmməd Rahim 1000 rubl pul köçürdülər. Respublikanın tanınmış alimləri də bu hərəkatda fəallıq göstərdilər. Bu günlərdə SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı Rəyasət Heyətinin sədr müavini Heydər Hüseynov Müdafiə Fonduna 15.000 rubl ödədi. Ədəbiyyat və Dil İnstitutunun direktoru Arif Dadaşzadə 1000 rubl, professor Dorfman 2000 rubluq istiqraz vərəqi və 500 rubl nağd pul, professor Abramoviç özünün 550 rubl yardımını Müdafiə Fonduna köçürdülər. Geologiya İnstitutunun kollektivi də həmin fonda 2000 rubl pul ödədi.

Müharibə dövrünün ağırlığını zərif çiyinlərində daşıyan qadınlar da Xalq Müdafiə Fondunun möhkəmləndirilməsində yaxından iştirak edirdi.

Düşmənin hücum edib sürətlə irəlilədiyi, Sovet Ordusunun isə texnika və canlı qüvvə sarıdan ağır itkilər bahasına geri çəkildiyi avqust günlərində Azərbaycan SSR-in qadınları ordunun hərbi potensialını möhkəmləndirmək məqsədi ilə özlərinin zinət əşyalarını, o cümlədən qolbaqlarını, gümüş toqqalarını Müdafiə Fonduna bəxş etdilər.

"Azərbaycanın qabaqcıl qadınlarının çağırışı" adlı məqalə göstərdi ki, respublika qadınları böyük ruh yüksəkliyi ilə özlərində olan – hətta dədə-babadan qalma zinət, əntiq qızıl əşyalarını belə ölkənin Müdafiə Fondundan əsirgəmirlər. Məsələn, Zaqatala rayonunun qadınları 2000 rubl dəyərində qızıl saatı, brilyant qaşlı sırğa və üzüyü, 17 qram ağırlığındakı qızıl muncuqları qədimi xalçaları, 500 rubl nağd pulu, xeyli gümüş sancağı fonda bağışladılar.

Bakı şəhər Caparidze rayonunun qadınları da ölkədə Müdafiə Fondunun yaradılması haqda çağırışa səs verdilər. Fatma Abbasova gümüş badələr və 500 rubluq istiqraz vərəqi, Leyla Hacıyeva qızıl üzük, gümüş çanta, Zinaida Lebedeva qızıl saat, gümüş stəkan altı və s. əşyaları, Sedova isə gümüş çay dəstini Müdafiə Fonduna təqdim etdilər.

**"Bakinskiy raboçiy" qəzeti, №226, 16.09.1941-ci il**

## İSLAMZADƏ İSLAM MƏMMƏD OĞLU (1910-1987)



Görkəmli dövlət xadimi, Dövlət Mükafatı laureatı, Dövlət Plan Komitəsinin sədri, Azərbaycan XKS sədrinin müavini, Dövlət Müdafiə Komitəsinin Azərbaycandakı səlahiyyətli nümayəndəsi olub. Energetika və digər sənaye sahələrinin inkişafında, cəbhə üçün ehtiyatların səfərbər edilməsində çox vacib işlər görüb, müstəsna xidmət göstərib.

## AZƏRBAYCAN SSR XKS VƏ AZƏRBYCAN K(B)P MK-NIN "RESPUBLİKA ƏRAZİSİNƏ KÖÇÜRÜLMÜŞ MAL-QARANIN QƏBULU VƏ YERLƏŞDİRİLMƏSİNİN GEDİŞİ HAQQINDA"KI QƏRARINDAN

**6 oktyabr 1942-ci il**

Azərbaycan SSR XKS və Azərbycan K(b)P MK qərara alır:
Azərbaycan SSR Torpaq Xalq Komissarlığına, Azərbaycan SSR Sovxozlar Xalq Komissarlığına, XKS-nın və Azərbaycan K(b)P MK-nın müvəkkilinə evakuasiya olunmuş mal-qaranın və onları müşayiət edən kolxozçuların qəbulu və yerləşdirilməsi üzrə aşağıdakı təkliflər verilsin:
a) Bu sahədə vəziyyətin daha da pisləşməsinin qarşısını almaq üçün mal-qaranın, yorulmuş, heydən düşmüş, zəifləmiş heyvanların Dağıstan MSSR-in Azərbaycan SSR-yə yaxın ərazilərində, eləcə də Qusar və Xaçmaz rayonlarında 5-10 gündən artıq saxlanılması təşkil edilsin.
b) Köçürülmüş mal-qara ilk növbədə Qusar, Quba, Qonaqkənd, Xaçmaz, Dəvəçi, Xızı, Siyəzən və Şamaxı rayonlarının kolxoz və sovxozlarında yerləşdirilsin və yalnız adıçəkilən rayonlarda yemləmə imkanlarının maksimum istifadəsindən sonra heyvanatın daha ucqar rayonlara sürülməsinə icazə verilsin.
c) Dezinfeksiya vasitələri və biopreparatla, lazımi avadanlıqla, dava-dərmanla tam təmin edilmiş baytar işçilərindən ibarət 5 briqada 20 gün müddətinə Qusar, Quba, Qonaqkənd, Xaçmaz, Dəvəçi və Şamaxı rayonlarına ezam edilsin. Bakı şəhəri İcraiyyə Komitəsinin təcili baytarlıq yardım maşını mal-qaranın sürülmə istiqamətinə göndərilsin. Azərbaycan SSR Sovxozlar Xalq Komissarlığı həmin maşını avtoşinlərlə təmin etsin.
ç) Dabaq xəstəliyinin qarşısını almaq məqsədilə iribuynuzlu heyvanların arsenli məhlulla çimizdirilməsi təşkil edilsin. Bunun üçün Qusar rayonunun Şirvanovka qəsəbəsinə səyyar yuyucu qurğu göndərilsin. Heyvanların arsenli məhlulla, mışyakla silinməsi sistemli şəkildə, müntəzəm surətdə aparılsın.
Azərbaycan K(b)P rayon partiya komitəsinin katiblərinə, icraiyyə komitə sədrlərinə tapşırılsın ki, onların rayonlarına köçürülmüş heyvanların göndərilməsi barədə Torpaq Xalq Komissarlığından təlimat alan kimi dərhal öz müvəkkillərini kolxoz nümayəndələri ilə birlikdə gətirilən mal-qaranın qəbuluna nəzarət üçün ezamiyyətə yollasınlar. Eyni zamanda, həmin müvəkkillərə bildirilsin ki, köçürülən sürü və naxırların kifayət qədər yemlə, onları müşayiət edən kolxozçuların isə ərzaq məhsulları ilə təmin edilməsi həmin müvəkkillərin öhdəsinə düşür.
Yeyinti sənayesi Xalq Komissarlığına təklif edilsin ki, yolda heyvanların yemlənməsi üçün 3 gün ərzində aşağıdakı sayda pambıq jmıxı ilə doldurulmuş vaqonları rayon torpaq şöbələrinin sərəncamına göndərsin:
- Xaçmaz - 2 vaqon, Dəvəçi - 3 vaqon, Qızılburun - 3 vaqon, Sumqayıt - 5 vaqon, Hacıqabul - 3 vaqon, Yevlax - 3 vaqon.
Köçürülmüş heyvanların Yalama stansiyasından ucqar rayonlara daşınması üçün müvafiq olaraq hərəsi 60 vaqondan ibarət 4 qatarın təşkil olunması bir vəzifə olaraq Zaqafqaziya Dəmiryol İdarəsinin rəis müavininə tapşırılsın. Həmin qatarlardan biri kəsimə göndəriləcək mal-qaranın daşınması üçün "Ət tədarük"ün Azərbaycan kontoruna ayrılsın.
Azərbaycan SSR Ət-süd sənayesi Xalq Komissarlığının, "Ət tədarük"ün, "Heyvanxammaltədarük"ün Azərbaycan kontorlarının və "Azərittifaq"ın rəhbərliyinə bir vəzifə olaraq tapşırılsın ki, öz cavabdehlikləri altında, heç bir itkiyə yol vermədən, fasiləsiz olaraq heyvandarlıq məhsullarının emalını təşkil etsinlər.
Rayon icraiyyə komitələrinin sədrləri, Azərbaycan K(b)P rayon partiya komitələrinin katibləri, MTS direktorları və siyasi şöbə rəisləri, sovxoz direktorları, kolxoz sədrləri bir vəzifə olaraq köçürülmüş mal-qaranı müşayiət edən sovxoz fəhlələrinin, kolxozçuların yerləşdirilməsi üçün lazımi şərait yaratsınlar. Onlara maddi yardım göstərməklə, lazımi mənzil şəraiti ilə təmin etsinlər.

**AR Pİİ SSA, f. 1, op. 103. s. 82, vv. 189-190**





## Azərbaycan K(b)P MK-nın "Bakı ət kombinatının işi haqqında"kı qərarından

**14 yanvar 1942-ci il**

Bakı Ət Kombinatının kollektivi həm dövlət tapşırıqlarının yerinə yetirilməsində, həm də yeni növ məhsulların istehsalında əhəmiyyətli işlər görüb.
Kombinatda yeni növ məhsulların, diyircəkli podşipniklər üçün sürtkü yağı - osopodin kimi yeni növ məhsulların, o cümlədən hematogen, qaraciyər ekstratı, pepsin, pepton, avarin və jelatin kimi tibbi-bioloji preparatların istehsalı da təşkil edildi.
Müharibə dövründə müdafiə baxımından böyük əhəmiyyət kəsb edən aktivləşdirilmiş heyvan kömürü və ampula şəklində steril-jelatinin istehsalı mənimsənildi.
Azərbaycan K(b)P MK-nın Bürosu müdafiə əhəmiyyətli yeni növ məhsulların, bir sıra tibbi preparatların, fəallaşdırılmış heyvan kömürünün, o cümlədən steril jelatinin (ampulalarda) istehsal edilməsi barədə Bakı Ət Kombinatının təşəbbüsünü bəyəndi.

**AR Pİİ SSA, f. 1, op. 103. s. 82, s. 55, II. 118-124**
**Əsli**

## Respublikanın komsomol təşkilatları tərəfindən kənd yerlərində yabanı meyvələrin, vitaminlə zəngin dərman və ərzaq bitkilərinin yığılıb dövlətə təhvil verilməsi üzrə böyük işlər aparılmaqdadır

**10 iyun 1942-ci il**

Komsomol təşkilatlarının, məktəblərin və uşaq müəssisələrinin yabanı meyvələrin, vitaminlə zəngin dərman və ərzaq bitkilərinin toplanması və dövlətə təhvil verilməsi üzrə apardıqları işə daha böyük əhəmiyyət verərək Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK Azərbaycan Maarif Xalq Komissarlığına, Torpaq Xalq Komissarlığına, Azərbaycan Lenin Komsomolu Gənclər İttifaqı Mərkəzi Komitəsinə bir vəzifə olaraq tapşırır ki, komsomolçular, pionerlər, məktəblilər və respublikanın bütün gəncləri arasında yabanı meyvələrin, ərzaq və dərman bitkilərinin toplanmasının əhəmiyyəti barədə geniş maarifçilik işi aparsınlar.
Cəbhəyə kömək olaraq göstərilən ən vacib işlərdən biri kimi bütün komsomol təşkilatları, məktəblər, uşaq müəssisələri sözügedən tədbirə cəlb edilsinlər...

**AR Pİİ SSA, f. 1, op. 103. s. 72, s. 55. II. 22-23**
**Əsli**

# QIZIL ORDUNU TÜTÜNLƏ TƏMİN EDƏK

**10 iyun 1942-ci il**

Döyüşçülərin və komandirlərin tütünlə təmin edilməsi onların ərzaqla təchizatı qədər vacibdir. Müdafiə əhəmiyyətli bu tapşırığın yerinə yetirilməsində böyük məsuliyyət respublikamızın tütünçülük rayonlarının, kolxozların, partiya və sovet təşkilatlarının üzərinə düşür. Bunu nəzərə alan, Vətən, cəbhə qarşısında öz borcunu düzgün başa düşən qabaqcıl kolxozçular tütün əkini sahələrini genişləndirir, yüksək məhsul əldə edirlər.

Balakən rayonunun kolxozçuları artıq tütün əkini planını yerinə yetiriblər. Plandan da artıq 100 ha sahədə tütün əkilib. Qax rayonunda isə plandan artıq 240 ha tütün becəriləcəkdir. Həmin rayonda əkin hələ davam etməkdədir.

Cəbhənin tütünlə təmin olunması qayğıları qeyri-tütünçülük rayonlarının vətənpərvər insanlarını da narahat edir. Məsələn, Muğandakı 2 nömrəli Pambıq Zavodunun kollektivi də tütün əkib-becərmə işlərinə başlayıblar. Onlar Qızıl Ordu üçün 5 ha sahədə tütün və tənbəki becərəcəklər. Hansı ki, bu zonada tütün əkini ilə heç vaxt məşğul olunmayıb. Buna baxmayaraq, onlar öhdələrinə götürdükləri şərəfli işi uğurla yerinə yetirirlər.

Azərbaycan tütünçüləri genişlənən ümumittifaq sosializm yarışında fəxri yerlərdən birini tutmalıdır. Vətən və cəbhə onlardan tütün plantasiyalarında əsl döyüşçü kimi mübarizə aparmağı gözləyir.

Tütünçülük rayonları partiya və sovet təşkilatlarının ən məsuliyyətli və ən başlıca vəzifəsi kolxozçuların əmək coşqunluğuna ruh verərək öndə getmək, dövlət planlarının artıqlaması ilə yerinə yetirilməsi uğrunda hər cür şərait yaratmaq, bununla da cəbhədə tütün bolluğunu təmin etməkdir.

**"Bakinskiy raboçiy" qəzeti,**
**10 iyun 1942-ci il**







Qəzetlərdə dərc olunmuş digər məqalələrdə "cəbhəyə kömək" hərəkatının geniş vüsət almasında fəal iştirak edən qadınların adları çəkilirdi. Onlardan Buzovna kəndinin sakinləri - Səkinə Əliyeva, A.Quliyeva, Fatma Cavadova, Seyidxanım Bəyimqızı, İ.Əliyeva, Nigar Əliyeva, öz qızıl üzüklərini xalq fonduna verdilər; Mina Məmmədova, Moizə Zeynalova, K.Bağırova, Salami Xədicə Kərim qızı, Əminə Bağırova, M.Məlikzadə Şuşa şəhərinin sakinləri S.Həsənova, S.Kərimova, S.Məhərrəmova da öz zinət əşyalarını müdafiə kömək fonduna verdilər.

***Nəticədə, yalnız 1941-ci ilin avqust ayında Azərbaycan SSR-in zəhmətkeşləri ölkənin müdafiə fonduna 3 kiloqram 742 qram qızıl, 137 kiloqram gümüş və 8 milyon 267 min rubl nağd pul köçürdülər.***

Moskva yaxınlığındakı qələbə soraqlı əks hücumdan sonra da Azərbaycanın bütün sosial təbəqələri ölkənin hərbi qüdrətinin daha da güclənməsinə fəal surətdə kömək göstərməkdə davam edirdilər. Artıq 1942-ci ilin aprel ayında bu kömək 41.211 min rubla çatmışdı.

Zəhmətkeşlərin vəsaiti hesabına "tank sıralarının" yaradılması cəbhəyə kömək fonduna ümumxalq yardımı formalarından biri idi. Vəsaitin toplanmasında Sovetlər ölkəsinin bütün sosial təbəqələri iştirak edirdi.

Böyük Vətən müharibəsi illərində SSRİ əhalisinin Müdafiə Fonduna keçirdiyi vəsaitin - 17 milyard rubl nağd pul, 13 kq platin, 131 kq qızıl, 9519 kq gümüş, 1,7 milyard rublluq zinət əşyaları - əhəmiyyətli dərəcədə böyük olduğunu görürük.

Respublika 2,5 min döyüş təyyarəsinin, minlərlə tankın, 8 sualtı qayığın, 16 hərbi katerin istehsal edilməsinə vəsait qoyduğunu qürurla bəyan edə bilər.

SSRİ xalqları "tank sıralarının" yaradılmasına 5 milyard rubldan çox nağd pul, xeyli qızıl - gümüş, digər qiymətli əşyalar toplayıb verdilər. Həmin vəsait hesabına istehsal olunmuş tanklar Sovet Ordusunun tankçılarına təhvil verildi. Xalq vəsaiti hesabına təkcə tank sıraları yaradılmırdı. Cəbhəyə kömək uğrunda vətənpərvərlik hərəkatı genişlənərək avia-eskadrilyaların, zirehli Qatar və katerlərin, hərbi gəmilərin, eləcə digər növ döyüş texnikasının artımına təkan verirdi. Azərbaycan SSRİ-də də vəsait yığımı mütəşəkkil xarakter almışdı.

Azərbaycan SSR "tank sıralarının" qurulma hərəkatında fəallıq göstərirdi. Bu hərəkatda elm xadimləri ön cərgədə idi. Respublika alimləri "Azərbaycanın elmi işçisi" adlı tank dəstəsinin yaradılması üçün vəsait topladılar. SSRİ Elmlər Akademiyası Azərbaycan filialının sədr müavini Heydər Hüseynov 5000 rubl, geologiya-mineralogiya elmləri namizədi Ş.Əzizbəyov, biologiya elmləri namizədi Ə.Əlizadə hərəsi 2000 rubl miqdarındakı vəsaitlərini müdafiə fonduna köçürdülər. Geologiya İnstitutunun direktoru M.Ağabəyov, Azərbaycan dili və ədəbiyyatı İnstitutunun direktoru M.A.Dadaşzadə hərəsi fonda 1000 rubl ödədi. Ümumiyyətlə, bu məqsədlə 20.000 rubla qədər vəsait toplanmışdı.

Stalin mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru A.A.Yaqubov ona verilən mükafatı, 200 min rublun hamısını "tank sırası"nın yaradılma fonduna keçirdi. O, belə dedi:

- Biz, Azərbaycan alimləri, respublikanın bütün ziyalıları ilə birlikdə, eyni zamanda, neftçilərlə əlbir işləyərək, vəhşiləşmiş faşist quldur dəstələrinin tamamilə darmadağın edilməsi, məhvi üçün əlimizdən gələn hər şeyi edəcəyik.

Respublikanın mədəniyyət və incəsənət işçiləri də özlərinin "Azərbaycan incəsənəti" adlı "tank sırasını" yaratdılar. Bu hərəkatda Azərbaycanda professional "musiqinin, ilk Azərbaycan operasının banisi dahi Üzeyir Hacıbəyov fəal iştirak edirdi.

# PUL-ŞEY LOTEREYASI ORDUNUN MÜDAFİƏ QABİLİYYƏTİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ MƏNBƏLƏRİNDƏN BİRİDİR

1941-ci il iyun ayının 22-də qəflətən başlamış Böyük Vətən müharibəsi ordunun gücləndirilməsi üçün SSRİ hərbi sənayesində əvvəldən nəzərdə tutulmayan xərcləri inanılmaz dərəcədə artırdı. Buna nəhəng həcmdə vəsait tələb olunurdu.

Belə məqamda pul-şey lotereyası ölkənin müdafiə qabiliyyətinin artırılması mənbələrindən birinə çevrildi.

**SSRİ XKS 1941-ci ilin noyabr ayının 27-də ölkədə pul-şey lotereyasının keçirilməsi barədə qərar qəbul etdi. Ölkədə geniş yayılan pul-şey lotereyası cəbhəyə kömək məqsədi ilə görülən tədbirlərin tərkib hissəsi idi.**

Ümumiyyətlə, Böyük Vətən müharibəsi illərində 4 dəfə pul-şey lotereyası buraxıldı. 140 milyon lotereya bileti yayıldı. Əldə edilən pullar hərbi texnikanın istehsalına yönəldi.

Azərbaycan SSR-in zəhmətkeşləri pul-şey lotereyası kampaniyasında fəal iştirak etməklə ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi işinə töhfələrini verirdilər.

Sovet qoşunlarının Moskva ətrafında uğurlu əks-hücumlarından ruhlanan respublika əhalisi pul-şey lotereyalarını həvəslə alırdı. Dekabr ayının ilk iki günü ərzində təkcə Bakıda 2 milyon 498 min 690 rubl məbləğində lotereya biletləri satıldı. Azərbaycan SSR-in bütün kənd və şəhərlərində pul-şey lotereyasının satışı yüksək vətənpərvərlik ruhunda həyata keçirilirdi.

Yerli qəzetlərdə dərc olunmuş "Pul-şey lotereyasının böyük uğuru" adlı məqalədə deyilirdi ki, lotereya biletlərinə abunə yazılışının ilk günlərində Bakı şəhəri üzrə 11.723.860 rubl vəsait toplanıb. Lotereya biletlərinin satışı 1941-ci ilin 15 dekabr günü də daxil olmaqla, uğurla davam etdirildi. Respublika üzrə 27.194.000 rubl məbləğində lotereya biletləri yayıldı və həmin hesaba 1.744.000 rubl nağd pul köçürüldü. Təkcə Bakı şəhəri üzrə bu





məbləğ 16.190.000 rubl təşkil edirdi.

SSRİ XKS 1942-ci ilin yazında həmin ilin dövlət hərbi istiqraz vərəqələri barədə qərar verdi. Elə həmin ilin 14 aprelində 10 milyard rubl məbləğində Hərbi İstiqraz vərəqələri buraxıldı. Bütün ölkədə olduğu kimi, Azərbaycanın zəhmətkeşləri də 1942-ci ilin Dövlət Hərbi istiqraz vərəqəsinə abunə yazılmaqda fəallıq göstərdilər.

Bakının neft mədənlərində, zavod və fabrik sexlərində, yataqxanalarda, idarələrdə, institutlarda, kolxoz və sovxozlarda, MTS-lərdə, bir sözlə respublikanın bütün ərazisində yüzlərlə insanın iştirakı ilə mitinqlər keçirildi. Həmin mitinqlərdə respublika kolxozçuları, fəhlələr, ziyalılar 1942-ci ilin Dövlət Hərbi İstiqrazı barədə dövlətin verdiyi qərarı razılıqla qarşılayırdı. Bu kampaniyanın başlandığı ilk saatda ərzində 661 nəfər Dövlət Hərbi İstiqrazının abunəçisi oldu və dövlətə 299.000 rubl ödənildi.

Dövlət Hərbi İstiqraz buraxılışının ilk günlərində Bakı şəhəri və onun rayonları üzrə abunə yazılışının məbləği, tam olmayan məlumata görə 33.199.000 rubla çatmışdı. Kirovabad (Gəncə) üzrə 3.185.000 rubl, Lənkəran rayonu üzrə 1.613.000 rubl, Göyçay üzrə 1.510.000 rubl, Qazıməmməd (Hacıqabul) üzrə 1.265.000 rubl və s.

Yardımlı rayonunun kolxozçuları 777.000 rubl məbləğində hərbi istiqraza abunə yazılmışdı. Salyan rayonunda kolxoz təsərrüfatları nəzərə alınmadan, abunə yazılışı 400 min rublu ötüb keçmişdi. Yevlax rayonunun idarə və müəssisələrində istiqraza abunə məbləği 342.000 rubla çatmışdı. Zəngilan rayonunun əməkçiləri isə abunə yazılışını daha artıq uğurla başa vurmuşdular. Abunə haqqının ümumi məbləği 2 milyon rubldan artıq idi. Puşkin (Biləsuvar) rayonunda abunənin ümumi məbləği 1.618.900 rubl səviyyəsində idi.

İmişli rayonunun yalnız 5 kolxozu üzrə abunə yazılışının məbləği 159 min rubl həcmində idi



Sizin tarixi məruzənizdən ruhlanan, alman-faşist işğalçilarina qarşi bitib-tükənməyən nifrət hissi ilə alışıb-yanan və özünün var gücünü Sovet torpaqlarının alman işğalçılarından təmizlənməsi uğrunda qəhrəmancasına mübarizə aparan, Qızıl Ordunun möhkəmlənməsinə sərf edən Azərbaycan Sovet Sosialist Respublikasının kolxozçuları və kolxozçu qadınları Tambov vilayətindəki həmkarlarından nümunə götürərək, "Azərbaycan kolxozçusu adlı tank sırasının yaradılması üçün 81.020.000 rubl vəsait toplayıblar. Kolxozçular könüllü olaraq öz şəxsi ehtiyatlarından Qızıl Ordunun taxıl fonduna 140.092 pud taxıl təhvil vermişlər.

Respublikanın kolxozları ət, yağ, brınza pendiri, yun istehsalı üzrə dövlət qarşısındakı öhdəliklərini vaxtından əvvəl yerinə yetirərək, gələn ilin hesabına, avans olaraq, 484,197 pud ət, 14.397 pud yağ, 20.106 pud brınza pendiri, 34.200 pud yun tədarük etmişlər. Taxılın, pul vəsaitinin toplanması və avans kənd təsərrüfatı məhsullarının təhvili davam etməkdədir.

**Azərbaycan Kommunist (b) Partiyası**
**Mərkəzi Komitəsinin katibi M.B.Bağırov,**
**"Bakinskiy raboçiy" qəzeti, N 307, 30 dekabr 1942-ci il**

Azərbaycanın alimləri, yazıçı və şairləri də Dövlət Hərbi İstiqrazına abunə yazılırdılar. 1941-ci ilin payızında Stalin mükafatı laureatı, şair Səməd Vurğun 20.000, yazıçı M.S.Ordubadi 5000 rubl Süleyman Rüstəm 3.000, Zeynal Xəlil və M.Cəfərov hər biri 2000 rubl, professor Qrosqeym, professor Smirnov-Loqinov, Tarix İnstitutunun direktoru İsmayıl Hüseynov, professor Yesman və bir çox başqaları aylıq əmək haqlarının 130-150 faizini







Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırova

"Azərbaycan kolxozçusu" tank sırasının yaradılmasına 81.020.000 rubl pul toplanmış, dövlət qarşısındakı öhdəliklərini yerinə yetirdikdən sonra Qızıl Ordu Fonduna 140.000 pud taxıl təhvil vermiş Azərbaycan Sovet Sosialist Respublikasının kolxozçularına mənim qardaşlıq salamımı və Qızıl Ordunun təşəkkürünü çatdırın.

**İ.V.Stalin,**
**"Bakinskiy raboçiy" qəzeti,**
**№307, 30 dekabr 1942-ci il**

hərbi istiqrazın abunəsinə verdilər.

Azərbaycan zəhmətkeşlərinin öz halal zəhmət haqları ilə Qızıl Ordunun döyüş qüdrətini möhkəmləndirməyə çalışması Dövlət Hərbi İstiqrazının satışında bir daha özünü sübuta yetirdi.

Respublikada 237 milyon rubl məbləğindəki Birinci Dövlət Hərbi İstiqrazına abunə yazılışı uğurla başa çatdı. 1943-cü ildə İkinci Dövlət Hərbi İstiqrazının satışı əvvəlki ildəkindən daha böyük uğurla keçdi. Bu dəfəki istiqrazın məbləği 387 milyon rubl həcmində idi. Bu da 1942-ci ildəkinə nisbətən 150 milyon rubl çox idi.

1944-cü ilin yazı müharibənin əvvəlindən hitlerçilər tərəfindən işğal olunmuş ərazilərin əksəriniyyəti düşməndən azad etmiş Sovet Ordusunun parlaq qələbələri ilə yadda qaldı. Belə bir şəraitdə SSRİ Xalq Komissarları Sovetinin "Üçüncü Dövlət Hərbi İstiqrazının buraxılması haqqında"kı qərarı Azərbaycan SSR-nin əhalisi tərəfindən böyük vətənpərvərlik hissi və coşqu ilə qarşılandı.

Azərbaycan Respublikasının zəhmətkeşləri 1944-cü il üçüncü Dövlət Hərbi İstiqrazına abunə yazılışı kampaniyasında əvvəlki illərdə keçirilən bu qəbil tədbirlərdəki nəticələri qat-qat üstələyərək 476.710.000 rublluq istiqraz əldə etdilər.

Müharibə illərində hərbi istiqraz biletlərinin satışından 12,9 milyard rubl qazanıldı ki, bu da "Hər şey cəbhə üçün, hər şey Qələbə üçün!" çağırışına SSRİ xalqlarının, o cümlədən də bizim xalqımızın, daha bir layiqli cavabı idi.

Öz fədakar əməyi ilə Qələbəni günbəgün yaxınlaşdıran Azərbaycan xalqı fəxr edir ki, çoxdan gözlənilən Böyük Qələbəyə özünün əvəzolunmaz, bənzərsiz töhfələrini bəxş edib.

## AZƏRBAYCAN ÇAY VƏ KONSERV SƏNAYESİNİN UĞURLARI

**7 oktyabr 1944-cü il**

Azərbaycanın çay sənayesi illik planı vaxtından əvvəl yerinə yetirib. İlin axırınadək plandan əlavə, 1 milyon rubl dəyərində məhsul buraxılacaq.

Konserv sənayesi tərəfindən də böyük uğurlar qazanılıb. Zaqatala, Ordubad, Quba zavodları tərəfindən plandan əlavə, 2 milyon banka tərəvəz, meyvə və ət konservləri hazırlanıb.

**"İzvestiya" qəzeti, 8 oktyabr 1944-cü il**

# Ordunu yedizdirib-içizdirir, geyindirirdilər

Azərbaycan respublikasının əməkçiləri Sovet Ordusunun döyüşçüləri üçün müdafiə fonduna, həm də isti geyim və paltar toplayıb verirdilər. İsti geymlərin, alt paltarlarının yığılması məqsədilə 1941-i ilin sentyabrında Azərbaycan SSR-də xüsusi komissiya yaradıldı. Bu mühüm əhəmiyyət kəsb edən tədbirə rəhbərlik üçün respublikada o, cümlədən zavodlarda, müəssisələrdə, idarələrdə və başqa təşkilatlarda 5000-dən artıq şəhər, 88 rayon və 6 minə qədər yerli komissiyalar yaradıldı. Komissiyaların işinə 20.000 nəfərdən artıq fəal cəlb edildi.

İsti geyimlərin qəbulu, saxlanması və daşinmasi üçün 100-dən artıq anbar və rayonlararası bazalar yaradıldı. Yüzlərlə dövlət və ictimai emalatxana, sexlər, yığılmış yunu, qoyun dərilərini emal edən müəssisələr, manufakturalar açıldı. Əvvəllər Azərbaycanda gərək olmayan əsgər çəkmələrinin istehsalı da nizama salındı.

İsti paltarların toplanması kütləvi hərəkat xarakter aldı. Hitlerçi işğalçıların tezliklə darmadağın ediləcəyi inamı ilə hamı bir nəfər kimi bu hərəkata qoşulurdu.

Azərbaycan alimləri də respublikanın bütün əməkçiləri kimi, Sovet Ordusu döyüşçüləri üçün isti geyimlərin toplanmasında fəal iştirak edirdi.

Bakı neftçiləri də öz növbəsində cəbhəçilər üçün isti paltar yığırdı. Stalin adına neft emalı zavodunun işçiləri döyüşçü və komandirlər üçün sırıqlı, mahud şalvar, palto, keçə çəkmə, yun corab, toxunma yun köynək, xəz papaqlar və s. topladılar. "Korgözneft" trestinin buruqçuları da müxtəlif çeşidli isti paltar toplayıb fonda göndərdilər.

Biləcəri dəmiryolçuları da isti geyimlərin tədarükündə yüksək fəallıq göstərirdilər.

İsti paltar yığımına respublikanın kənd zəhmətkeşləri də böyük coşqu ilə qoşuldu. 1941-ci ilin sentyabrında təkcə Şamaxı rayonunda cəmi bir gün ərzində kolxozçular qəbul məntəqələrinə 162 qoyun dərisi, iki mal dərisi, 7 sırıqlı kürük, 11 cüt corab, 90 kq yun təhvil verdilər. Laçın rayonu kolxozçular da isti geyim tədarükünə qoşuldular – xeyli sayda qulaqlı papaq, sırıqlı kürk, cib və burun yaylıqları toplandı. Qutqaşın (indiki Qəbələ) rayonundakı Dmitrov adına kənd təsərüfatı artelinin üzvləri cəbhə üçün 150 cüt corab, 50 cüt yun əlcək, 150 qoyun dərisi, 200 kq yun təhvil verdilər. "Komintern" arteli də 200 kq yun, 100 qış ayaqqabısı, iki qısa palto, alt geyimlər toplandı və bir çox başqa geyimlər toplandı.

İsmayıllı rayonunun əməkçiləri Sovet əsgər və zabitlərinə 185 qoyun dərisi, 11 mal dərisi, 156 kq yun, 265 cüt yun corab, 362 cüt əlcək, 48 sırıqlı kürk, 37 isti papaq, 40 ədəd üst köynəyi, 8 şinel, 3 palto, çox sayda alt paltarları əl-üz cib dəsmalları göndərdilər.

Lənkəranlılar da 38 palto, 76 qısa palto, 26 şinel topladı. Şəkidə isə 200 qoyun dərisi, 110 sırıqlı kürk, 400 metr qalın parça, çoxlu sayda isti köynək, corab, əlcək yığıldı.



*O illərin qış gecələrində ana və bacılarımız sovet əsgərlərinə isti, yun geyinəcək toxuyurdu*

Xızı rayonunda 737 cüt corab, 363 cüt əlcək, 15 yun şərf toplayan rayon əhalisi, həmçinin 1500-ə yaxın qoyun dərisi, 52 sırıqlı kürk, 10 şuba, 10 şalvar, 130 cütə yaxın isti alt paltarı yolladı cəbhəyə.

1941-ci ilin payızında Azərbaycanda Sovet Ordusu üçün isti geyimlərin tədarükü daha da genişləndi. Respublikamızın qadınları bu hərəkatda çox fəal idi. Bakı şəhər Soveti İcraiyyə Komitəsi işçiləri T.Əliyeva, Kuznetsova, Zubrova və S.Cabbarlının təşəbbüsü ilə corab, sırıqlı kürk, əlcək toxumaqdan ötrü 420 kq yun əldə olundu.

Hüsü Hacıyev adına artelin trikotajçıları Qızıl Ordunun döyüşçüləri və komandirləri üçün 45 cüt isti alt paltarı, 40 cüt corab, əlcək toxudular.

Respublikamızın böyük səhnə ustaları, görkəmli aktrisalar Mərziyə xanım Davudova, Fatma Qədri, Sona xanım Hacıyeva da bu hərəkatda həvəslə iştirak edirdilər.

Düşmən Moskvaya doğru irəliləyirdi. Paytaxt ətrafında gecə-gündüz qanlı döyüşlər gedirdi. Belə bir məqamda bütün Azərbaycan respublikası üzrə Sovet Ordusu üçün isti paltar və geyimlərin yığılması ara vermirdi. Bakının təkcə bir rayonunda ən qısa bir zamanda 26 min dəst isti geyim toplandı. Bütünlükdə 1941-ci ilin dekabr ayının 1-də Azərbaycan Respublikasının fəhlə və kəndlilərindən, qulluqçulardan, ziyalılarından müdafiə fonduna 1.174.972 cüt keçə çəkmə, 2.767.232 kq yun, 523.107 ədəd qısa şuba, 2.062.706 ədəd qoyun dərisi, 2.297.630 cüt yun corab, şal, 1.429.048 ədəd toxunma və boğazlı köynək, isti alt paltarı, 1.333.360 ədəd qulaqlı papaq, 1.293.818 ədəd gödəkçə və pambıq sırıqlı şalvar daxil oldu.




1942-ci ilin sərt qışında Qızıl Ordu üçün həyata keçirilən bu vacib tədbir öz genişliyi ilə davam etməkdə idi. Təkcə Balakən rayonu zəhmətkeşləri tərəfindən cəbhəyə ümumi çəkisi 3700 kq olan 1147 bağlama göndərildi.

Qazax rayonunda Qızıl Ordu üçün isti geyimlərin toplanması kampaniyası böyük vətənpərvərlik duyğusu ilə genişləndi. Rayonda 130 cüt keçə çəkmə, 140 cüt yun əlcək, 30 komplekt isti alt paltarı, 50 sırıqlı şalvar, 200 cütə qədər yun corab, bir o qədər də qulaqlı papaq, 500-ə yaxın qoyun dərisi, çoxlu toxunma köynək, sırıqlı, gödəkçə, sırıqlı pambıq canlıqlar toplanıb cəbhəyə göndərildi.

1942-ci ilin yay-payız hərbi kampaniyasının gedişində, hitlerçilərin Volqa və Qafqaza can atdıqları bir vaxtda Azərbaycan zəhmətkeşləri geniş vüsət almış cəbhəyə kömək kompaniyasında böyük ruh yüksəkliyi ilə iştirak edir, vətənin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsinə yardım göstərirdilər. Vətən müdafiəçilərinə minlərlə bağlama göndərildi. Hamının qəlbində Qələbənin tezliklə qazanılacağına inam böyük idi.

Təkcə 1942-ci ilin oktyabr ayı ərzində bakılılar cəbhəyə 9000 bağlama göndərdilər. Kirovabaddan (Gəncə) isə bir az əvvəl 3000-ə qədər bağlama artıq öz ünvanına çatmışdı.

Qoz, quru meyvə, tütün və b. məhsullar doldurulmuş 690 yeşik cəbhəyə Zaqatala rayonunun zəhmətkeşlərindən yola salınmış sovqat idi. Lənkərandan 800, Puşkindən (Biləsuvar) 600-dən artıq, Qubadan 529, Ağdaşdan 500, Yevlaxdan 444, Tovuz rayonunun kolxozçuları, fəhlə və qulluqçuları adından 500 ədəd xüsusi bağlama da cəbhədəkiləri sevindirəcəkdi.

Qafqazın müdafiəçiləri, həqiqətən, bu hədiyyələri minnətdarlıqla qəbul edirdi. Onlar öz məktublarında respublikamızın bütün zəhmətkeşlərinə, ilk növbədə isə Bakı neftçilərinə göstərdikləri əmək rəşadətinə, əzmkarlığına görə öz dərin təşəkkürlərini bildirdilər. "N" hərbi birləşməsinin bir qrup komandir və siyasi işçilərindən Rəcəbov, Ə.Əliyev, Q.Quliyev, Q.Qasımov, A.Ağayev, S.Hüseynov öz məktublarında xalqımıza minnətdarlıq edir, Azərbaycan zəhmətkeşlərini əmin edirdilər ki, onlar Qafqazın müdafiəsində mətinliklə dayanıb, Bakı neftinin zərrəsini də düşmənə verməyəcəklər.

Azərbaycandan isti geyimlərin toplanıb cəbhəyə göndərilməsi 1943-cü ildə də davam etdi. Yığılan pal-paltarın, isti geyimlərin ümumi dəyəri 30 milyon rubldan artıq idi. 1943-cü ildə azərbaycanlılardan 125 vaqon isti geyim və alt paltarı cəbhəyə hədiyyə olundu.

Azərbaycan xalqının göndərdiyi hər bir hədiyyə cəbhəçi əsgəri düşmənlə döyüşdə yeni qəhrəmanlıqlara ruhlandırırdı. Döyüşçülər və zabitlər öz məktublarında xalqımızı əmin edirdilər ki, onlara göstərilən etimadı şərəflə doğruldacaq, düşmənə aman vermədən, onu tam əzib məhv edənə qədər mərdliklə vuruşacaqlar.



*Ölkənin bütün rayonlarında cəbhəyə göndəriləcək isti geyimlərin yığımı mütəşəkkil aparılırdı*





# Azərbaycan qadınları cəbhə xəttində

Azərbaycan qadını öz dəyanətli vətənpərvərliyi ilə həmişə fərqlənib. Xüsusən də, Böyük Vətən müharibəsi illərində Azərbaycan qadını vətənə olan sədaqətini, məhəbbət və qeyrətini daha parlaq nümayiş etdirib.

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının qadınları da Vətənin dar gününə biganə qalmadılar. Onlardan neçəsi könüllü olaraq cəbhəyə yollandı. Bütövlükdə, 127 nəfər naxçıvanlı qadın ön cəbhədə, döyüşlərdə iştirak edib. Onların əksəriyyəti Naxçıvan Tibb Məktəbinin məzunları idi. Məktəbi bitirəndən sonra Qızıl Ordu sıralarına yazıldılar və müharibənin ilk günlərindən artıq cəbhədə idilər. Onlar hərbi hospitallarda, alaylarda, batalyonlarda xidmət keçirdi. Səfiyyə Sultanova, Zərifə Camalbəyova, Firuş Məmmədəliyeva, Sura Allahverdiyeva, Fövqiyyə Cəfərova, Xeyransa Abdullayeva, Dilbər Təhməzbəyova, Səkinə Səfiyeva, Zeynəb Şirəliyeva, Gültac Zülfüqarova, Asiya Hüseynova, Vera Abbasova, Səkinə Vəliyeva - bunlar cəbhəyə getmiş qadınlarımızın kiçik bir siyahısıdır.

Cəsur Naxçıvan qadınlarının hər birinin keçdiyi döyüş yolu ayrıca bir kitabın, bədii əsərin, filmin mövzusudur. Onların göstərdiyi igidliklər xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.

Gəlin, bu igid qadınların döyüş yollarından bəzi məqamlara, qısaca da olsa, nəzər salaq:

Səfiyyə Sultanova tibb bacısı kimi 150-ci sanitar batalyonunda xidmət edirdi. Xarkov şəhəri bombardman ediləndə də tibb məntəqəsində yaralı əlindən tərpənmək mümkün deyildi. Güllə yağmuru altında Səfiyyə öz həyatını təhlükə altına ataraq, sürünə-sürünə özünü bir yaralının yanından o birisinə çatdırır, onların hər birinə ilk tibbi yardım göstərirdi. Yüksək xidmətə, döyüşlər zamanı nümayiş etdirdiyi mərdliyə, cəsurluğa görə S.Sultanova komandanlıq tərəfindən – "İgidliyə görə", "Almaniya üzərində qələbəyə görə" medallarına layiq görülüb.

Naxçıvan MR-in yetirməsi, tibb bacısı Lora Abdullayeva 416-cı Taqanroq atıcı diviziyasının 76-cı batalyonunda qulluq edirdi. O, 100 nəfərdən çox yaralı əsgəri döyüş meydanından çıxararaq xilas etmişdi. Lora Abdullayeva da "Döyüş xidmətlərinə görə", "İgidliyə görə" medalları ilə təltif edilib. O, 1943-cü ildə cəbhədən qayıdaraq, əmək fəaliyyətini doğma Naxçıvanda davam etdirib.



*Azərbaycan qadınları kişilərlə bərabər ön cərgədədir*

Sura Allahverdiyeva da ağır döyüşlərdən keçib. O, müharibə başlanandan üç gün sonra ərizə ilə hərbi komissarlığa müraciət edərək, könüllü olaraq cəbhəyə göndərilməsini xahiş etdi.

S.Allahverdiyeva 3-cü Belorus cəbhəsində 510-cu sanitar batalyonun tərkibində Mozdok, Mineralnıye Vodı, Armavir, Maykop, Vilnüs, Köniqsberq və s. şəhərlərin azad olunmasında iştirak edib. Sura Allahverdiyeva cəbhədəki şücaətinə görə "Qafqazın müdafiəsinə görə", "Köniqsberqin alınmasına görə", "Döyüş xidmətlərinə görə" medalları ilə təltif olunub.

S.Allahverdiyeva cəbhədən qayı-

dandan sonra ali təhsil aldı. Həkim kimi fəaliyyət göstərdi. "Naxçıvan MR-in əməkdar həkimi" fəxri adını, eyni zamanda, Naxçıvan MR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanını alıb.

Tibb bacısı Asiya Hüseynova döyüş meydanlarında igidliklə vuruşan vətən övladlarının dadına çatmaq məqsədi ilə hərbi komissarlıqdan cəbhəyə göndərilmək üçün icazə istədi. Cəbhədə 402-ci diviziyanın tərkibində xidmət göstərməyə başladı. İlk savaş sınağından Mozdok uğrunda gedən döyüşlərdə çıxdı. Ağır döyüşlərin birində özü də yaralandı. Sağalandan sonra yenidən döyüş meydanına, ön cəbhəyə qayıtdı.

Onun diviziyasına, o cümlədən də Asiya Hüseynovaya Ali Baş Komandanın Təşəkkürü elan edildi.

Müharibədən sonra o, sinəsində "İgidliyə görə", "Döyüş xidmətlərinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə doğma yurdumuza qayıtdı.

Zina Şirzadova hələ çox gənc ikən, 16 yaşından Naxçıvan hərbi hospitalında işləməyə başlamışdı. 1943-cü ildə hərbi qatarla gəlib döyüşlərin ən qızğın yerinə düşdü. Zina gecə-gündüz, ara vermədən yaralıları döyüş meydanından çıxarır, onlara ilk tibbi yardım göstərirdi. O, "Almaniya üzərindəki qələbəyə görə", "Yaponiya üzərindəki qələbəyə görə" medalları ilə təltif edildi.

Vera Abbasova da müharibənin ilk günlərindən hərbi komissarlığa müraciət edərək cəbhəyə göndərilməsini istədi. O da ilk döyüş sınağından Mozdokda çıxdı. Kiyev, Xarkov, Sevastopol, Bryansk şəhərləri uğrundakı döyüşlərdə əsl qəhrəmanlıq göstərdi. Leninqradın müdafiəsindəki igidliyinə görə Ali Baş Komandanın təşəkkürünə layiq görüldü. "Almaniya üzərindəki qələbəyə görə", "İgidliyə görə" medalları ilə təltif olundu.

Tibb xidməti leytenantı Firuş Məmmədəliyevanın kömək göstərdiyi döyüşçülər arasında Tapdıq Hüseynov, Rauf Bektaşi, Əsgər Əhmədov, Qasım Rəcəbli kimi çoxsaylı həmvətənlərimiz də vardı.

Vətənin qorxu bilməyən qızı Firuş Məmmədəliyeva da "İgidliyə görə" medalı ilə təltif olunanlar arasındadır.

Tibb bacısı Dilbər Təhməzbəyova da 402-ci atıcı diviziyasının tərkibindəydi. Mozdok altındakı döyüşlərin birində Dilbər 12 nəfər yaralını döyüş meydanından çəkib çıxarmış, həyatını xilas etmişdi. Ağır yaralıları isə kəmərlə özünə sarıyaraq sürünə-sürünə atəş altından uzaqlaşdırmış, tibb məntəqəsinə çatdırmışdı. Cəbhəyə könüllü yollanmış bu azəri qızının igidliyi komandanlıq tərəfindən yüksək qiymətləndirildi.

Tibb xidməti kiçik leytenantı Dilbər Təhməzbəyova "1941-1945-ci illər Böyük Vətən müharibəsindəki qələbəyə görə" medalına, həmçinin "Səhiyyə əlaçısı" nişanına layiq görüldü. Səkinə Vəliyeva 1942-ci ildə könüllü olaraq cəbhəyə gedənlərin arasında idi. Xidmətə 416-cı diviziyanın 74-cü dəstəsində başlamışdı.

Xarkov, Rostov, Leninqrad uğrundakı döyüşlərdə göstərdiyi mərdliyə görə "Almaniya üzərində qələbəyə görə", "İgidliyə görə", "Qələbənin 30 illiyi" medalları ilə təltif olunub.

Nehrəmli traktorçu Səkinə Şəfiyeva üçün də müharibə izsiz ötüşmədi. O da müharibənin ilk günündən könüllü olaraq cəbhəyə getmişdi. Şimali Qafqazda Vətənin müdafiəsinə qoşuldu. "İgidliyə görə", "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif olundu.

Odlu-alovlu, qanlı-qadalı Böyük Vətən müharibəsi cəbhələrində Vətən uğrunda mərdliklə vuruşmuş Naxçıvan qadınlarının igidliyindən, qeyrətindən çox az bəhs etdim. Lakin onların döyüş meydanlarında göstərdiyi rəşadət və qəhrəmanlıq çox qalın kitablara layiqdir.

Əsrlər, illər ötüb keçəcək, gələn yeni nəsillər Vətənin müstəqilliyi və azadlığı uğrunda çarpışan bu qeyrətli, mərd qadınların igidliyini böyük minnətdarlıqla, fəxrlə xatırlayacaq, onların əziz xatirəsini qəlblərində daim yaşadacaqlar.



**Zəhmət ŞAHVERDİYEV,**
**AMEA-nın müxbir üzvü**





# Təkcə atam barədə deyil...

Müharibə illərinin Bakısı bizim üçün, 40-cı illərin uşaqları üçün dilimizdən düşməyən, gündəlik işlətdiyimiz adi sözlər deyil. Bu, bizim zaman-zaman kino lenti kimi gəlib gözlərimizin önündən keçən ən ağrılı xatirələrimizdir.

Müharibə dövrü Buzovnanın ayaqyalın, başıaçıq oğlan uşaqları üçün təkcə çətin uşaqlıq illəri olmayıb. Bu həm də vaxtından əvvəl böyümək, yaşa dolmaq, itkilər yaşamaq dövrü idi. Bəli, çox ağır bir zaman idi. Bu dövrün tablosunun fonunda kədər saçan, darlıq gətirən rənglərin qarışığında qəlbimizi ılıq düşüncələrə qərq edən, bizi daxil isidən rənglər də vardı. Bu baxımdan, əksər müharibə dövrünün mədənlərində, zavodlarında çalışan qohum-qardaşla, elə öz valideynlərimizlə o illərdə qurduğumuz ünsiyyət çox dəyərli idi.

Qohumlarımızdan Bakıya oxumaq, işləmək üçün gələnlər də vardı. Onlardan çoxu, o cümlədən tələbə auditoriyasından çıxıb könüllü olaraq cəbhəyə gedən əmim Salman o gedənlərlə getdi, bir daha geri qayıtmadı...

Əsas təchizatçı kimi Sovet cəbhəsini yanacaqla təmin edən Bakının müharibə illərində oynadığı misilsiz rol haqqında təkcə tarixçilər deyil, elə hamı yaxşı bilir. Hərçənd ki, bu rol, bu əvəzsiz yaxşılıq, çəkilən zəhmət bəzi məqamlarda, illər keçdikcə bəziləri tərəfindən "unudulub", "yaddan çıxsa" da... Nə isə... Bu başqa söhbətin mövzusudur... Bu dəfə üstündən keçək... Bəli, benzinin, sürtkü yağının, bütün neft məhsullarının cəbhəyə hava-su qədər vacib olması bir həqiqətdir. Amma bir həqiqət də bunda idi ki, elə həmin neft məhsulları qədər yod preparatı da cəbhəyə gərəkli idi. Bəs, onun baş istehsalçısı kimi idi. Elə Bakının özü! Bu barədə hələ məktəbə getməmişdən xəbərim, məlumatım vardı. Çünki rəhmətlik atam Əliabbas Səmədzadə yod zavodunda işləyirdi.



O, ağır iş günündən sonra istirahətə ayırdığı vaxtdan qopardığı bir neçə dəqiqə ərzində mənə, kiçik qardaşım Ziyada və bacım Dilarəyə dizimiz sıyrılanda, dirsəyimiz qanayanda yadımıza düşən çox lazımlı yodun qazma sularından alınması barədə, bunun üçün hansı şəraitdə işləməli olduqlarından danışardı.

Bu qiymətli məhsulun bir zərrəciyinin necə çətin başa gəldiyini anlamaq üçün kifayət idi ki, işdən qayıdan atamın əynindəki spesifik iyli paltara nəzər yetirək. Özü də atam zavodun adi fəhləsi deyildi axı, rəhmətlik bütün zavod laboratoriyasının müdiri idi.

Bir az böyüyəndən sonra kiçik qardaşlarım Məzahir və Fikrətlə zavoda gedərdik. Sonralar bir çox dostlarımı da atamın 1931-ci ildən - istismara buraxıldığı gündən çalışdığı həmin zavoda aparardım. Gözümüzlə görəndən sonra bir çox mürəkkəb texnoloji prosesləri parktiki olaraq yalın əllə yerinə yetirən bütün fəhlə və mütəxəssis heyətinin, zəhməti fədakarlıqdan maya tutan insanların halallıqdan yoğrulmuş ağır əməyini qiymətləndirə bildik.

Çox-çox sonralar, özüm elmi



*Şamil SƏMƏDZADƏ,*
*İqtisad elmləri doktoru, professor, Azərbaycan Dövlət Mükafatı laureatı, Azərbaycan Dövlət Texniki Universitetinin kafedra müdiri*

işçi olanda öyrəndim ki, müharibədən qabaqkı, 1940-cı ildə Azərbaycanda 171 ton yod istehsal olunurmuş. Sonradan bir çox mütəxəssislərin orduya çağırıldığı vaxtda (yeri gəlmişkən, deyim ki, atamı da orduya çağırmışdılar. Ancaq elə o andaca geri, zavoda qaytardılar. Deyiblər ki, sənin işin çox vacib və məsuliyyətlidir. Mütəxəssis kimi sən orada daha çox lazımsan) zavod məhsul istehsalını nəinki azaltmadı, əksinə xeyli artırmağa nail oldu.

Azərbaycan klassik ədəbiyyatından şeir və qəzəlləri atamın dilindən eşitmək bizim üçün böyük zövq idi. Onun klassik Azərbaycan poeziyasına olan məhəbbəti ömrünün son gününə, son saatına qədər sənginmədi. Atam bu sevgini qəlbində yaşadıqca yaşatdı və bunu bizə - övladlarına da aşıladı.

Biz atamın çalışdığı zavodun adi iş günlərindən, əmək həyatından, Buzovnadan Ramanaya necə gedib-gəlməyindən, növbədən sonra hamılıqla bir yerdə zavodda gecələməyindən, lakin heç kəsin, heç kimin bundan giley-güzar etmədiyindən, işçi qüvvəsinin çatışmamasına baxmayaraq, dövlət planını yerinə yetirməklərindən bəhs edən bir çox başqa söhbətlərinə diqqətlə qulaq asardıq.

Atam akademik Yusif Məmmədəliyevlə, professorlar Rüstəm İsmayılov, Ağarəfi Ağayev kimi görkəmli kimyaçı alimlərlə ünsiyyətdən, Əsədulla Pənahzadə, Cabbarovla birgə çalışmaqlarından böyük fəxrlə, qürurla danışardı. Onlardan bir çoxu sonralar tez-tez bizim evin qonağı oldular.

Uzun müddətdən sonra müharibə illərinə aid arxiv sənədlərini araşdıranda mənə və qardaşım Ziyada atamın işinin o vaxt necə böyük əhəmiyyət daşıdığını bilmək və həmin işin öz həqiqi qiymətini dərindən başa düşmək nəsib oldu. Məsələn, Azərbaycan SSR XKS-nin və Azərbaycan K(b)P MK-nın 1942-ci il 9 mart tarixli qərarında xüsusi maddə vardı ki, bu maddəyə əsasən Ramana və Suraxanı zavod direktorlarına öz laboratoriyalarında yodlu kalium və natrium istehsalının təşkili həvalə olunurdu. Axı, atam da belə bir laboratoriyanın rəhbəri idi.

Dövlət Müdafiə Komitəsinin və hökumətin digər qərar və tapşırıqları da vardı ki, bunların da yerinə yetirilməsində Bakı yod zavodunun kollektivi fəal iştirak edirdi.

Qələbənin 60 illiyini qeyd edərkən ailəlikcə qürur duyuruq ki, 9 May gününü əmək cəbhəsində öz fədakarlığı, gecə-gündüz bilmədən çəkdikləri zəhmətləri hesabına yaxınlaşdıranlar arasında atam Əliabbas Səmədzadə də olub.



**2005-ci il**





## Azərbaycan SSR XKS-nin və Azərbaycan K(b)P MK-nın "Qızıl Ordunun, Hərbi-Dəniz Donanmasının və DİXK qoşunlarının 1944-cü ilin məhsullarından təzə tərəvəzlə, kələm, pomidor, duzlu xiyar və quru tərəvəzlə təmin olunması planı haqqında"kı qərarından

Qızıl Ordunun, Hərbi-Dəniz Donanmasının və DİXK qoşunlarının 1944-cü ilin məhsullarından təzə və emal edilmiş tərəvəzlə təmin olunması barədə DMK-nın 1 avqust 1944-cü il tarixli qərarına uyğun olaraq Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK qərara alır:

1. Qızıl Orduya, Hərbi-Dəniz Donanmasına və DİXK qoşunlarına göndəriləcək 1944-cü il məhsulunun tədarük planı təsdiq edilsin:

Təzə tərəvəz - 2000 ton, kələm şorbası - 1900 ton, duzlu xiyar - 150 ton, pomidor turşusu - 450 ton və quru tərəvəz - 75 ton.

2. Bu qərarın 1-ci bəndində müəyyən edilmiş Qızıl Ordunun, Hərbi-Dəniz Donanmasının və DİXK qoşunlarının emal olunmuş tərəvəzlə təchizatı planının yerinə yetirilməsi üçün təzə tərəvəzin buraxılışı təsdiq edilsin:

Dövlət təchizatı hesabından Azərbaycan SSR Ticarət Xalq Komissarlığı - 926 ton, "Azkonservtrest" - 1271 ton və "Azərittifaq" - 1740 ton.

3. Qızıl Ordu üçün tərəvəz tədarükünün dövlət əhəmiyyətli vacib bir iş olduğunu nəzərə alaraq Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının, DQMV-nin, şəhər, rayon icraiyyə komitə sədrlərindən, Azərbaycan K(b)P-nin şəhər və rayon Ticarət Xalq Komissarlığından, "Azərmeyvətərəvəzticarət"dən, "Azərkonservtrest"dən, "Azərittifaq"dan tədarük edilmiş tərəvəzin, ilk növbədə Qızıl Orduya göndərilməsi, bu tapşırığın müəyyən olunmuş müddətdə yerinə yetirilməsinə ciddi surətdə əməl olunması tələb olunsun.

**AR Pİİ SSA, f. 1, op. 129, s. 70, II. 152-154**
**Əsli**





*Zəhərlənmədən zərər çəkənlərə ilkin tibbi yardım göstərmək üçün Qoqol küçəsi 1/5 nömrəli evdə yaradılmış sanitar postu*





*Hərbi-dəniz məktəbinin məzunları*



*369-cu atıcı diviziya*

*Müharibə illərində Bakının adi günləri*








*Hərbi zabit komsomolçulara Deqtaryov sistemli əl pulemyotu barədə məlumat verir*



Moskva, Kreml

**I.V.Stalin yoldaşa**

Sizin tarixi çıxışınızdan ruhlanan, alman-faşist işğalçılarına qarşı qəlbi dərin nifrət hissi ilə dolub-daşan və özünün var gücünü Qızıl Ordunun möhkəmləndirilməsinə yönəldən, Sovet torpaqlarının alman barbarlarından təmizlənməsi uğrunda qəhrəmancasına mübarizə aparan Azərbaycan Sovet Sosialist Respublikasının kolxozçuları Tambov vilayətindəki həmkarlarından nümunə götürərək, "Azərbaycan kolxozçusu" adlı tank sırasının yaradılması üçün 81.020.000 rubl vəsait toplamışlar.
Kolxozçular könüllü olaraq öz şəxsi ehtiyatlarından Qızıl Ordunun taxıl fonduna 140.092 pud taxıl təhvil vermişlər. Respublikanın kolxozları ət, yağ, pendir, yun istehsalı üzrə dövlət öhdəliklərini vaxtından əvvəl yerinə yetirərək, gələn ilin hesabına, avans olaraq 484, 197 pud ət, 14.397 pud yağ, 20.106 pud pendir, 34.200 pud yun təhvil vermişlər. Pul vəsaitinin, taxılın toplanması və avans olaraq kənd təsərrüfatı məhsullarının təhvili davam etdirilir.

**Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov, "Bakinskiy raboçiy" qəzeti**

**Bakı, Azərbaycan K(b)P MK-nın katibinə**

"Azərbaycan kolxozçusu" tank sırasının yaradılmasına 81.020.000 rubl vəsait yığmış, dövlət qarşısındakı öhdəliklərini yerinə yetirdikdən sonra Qızıl Ordunun fonduna 140.000 pud taxıl təhvil vermiş Azərbaycan Sovet Sosialist Respublikasının kolxozçularına mənim qardaşlıq salamımı və Qızıl Ordunun təşəkkürünü çatdırın.

**İ.V.Stalin, "Bakinskiy raboçiy" qəzeti, №307, 30 dekabr 1942-ci il**

Moskva, Kreml

**Yoldaş I.V.Stalinə**

Əziz İosif Vissarionoviç!
Mənim beş qardaşım Vətən müharibəsi cəbhələrindədir. Onlar canlarını əsirgəmədən doğma torpaqlarımız uğrunda döyüşürlər. Mən isə arxa cəbhədə öz əməyimlə, bacardığım qədər Qızıl Orduya kömək edirəm ki, bizim doğma döyüşçülərimiz ehtiyac nə olduğunu bilməsinlər. Qoy, onlar həmişə tox olsunlar, isti geyinsinlər və alçaq faşist quldurlarını aman vermədən darmadağın edə bilsinlər.
Bizim kolxoz dövlət qarşısındakı bütün öhdəliklərini yerinə yetirmişdir və indi kolxozçularımız böyük sevinc, qürur hissi ilə özlərindən qənaət edərək, əmanətlərini "Azərbaycan kolxozçusu" tank sırasının yaradılması fonduna verirlər.
Əziz rəhbərimiz və müəllimimiz! Mən də öz şəxsi əmanətim olan 52 min rublu həmin fonda köçürərək, Sizi əmin edirəm ki, sevimli Sovet Vətənimizi azğın yadellilərdən azad etmək üçün nə öz həyatımızı, nə də malımızı-mülkümüzü əsirgəməyəcəyik.
Bakı şəhəri, Kirov rayonunun Hökməli kəndindəki kolxozun sədri Xanqulu Hüseyn oğlu Rəhimov.

**"Bakinskiy raboçiy" qəzeti, №307, 30 dekabr 1942-ci il**





**Bakı şəhəri, Kirov rayonunun Hökməli kəndindəki Molotov adına kolxozun sədri yoldaş Xanqulu Hüseyn oğlu Rəhimova**

Yoldaş Rəhimov, Qızıl Orduya göstərdiyiniz qayğıya görə sizə təşəkkür edirəm. Mənim salamlarımı qəbul edin.

**İ.V.Stalin, "Bakinskiy raboçiy" qəzeti, №307, 30 dekabr 1942-ci il**

**Tank sırasının yaradılmasına vəsait toplanır**

Tank sırasının yaradılması üçün vəsait toplama kampaniyası böyük ruh yüksəkliyi ilə davam edir. Quba rayonu zəhmətkeşləri, o cümlədən Stalin adına artelin kolxozçularının, konserv zavodunun, 2 nömrəli sovxoz fəhlələrinin, inkubator stansiyası işçi kollektivinin və b. fəallarıın iştiraki ilə artıq zəhmətkeşlər 21.843 rubl vəsait toplamışlar.

**"Bakinskiy raboçiy" qəzeti, №247, 18 oktyabr 1942-ci il**

**Vətənpərvərlər cəbhəyə kömək edirlər Sabirabad (telefonla)**

Sabirabad rayonunun kişi və qadın kolxozçuları tank sırasının yaradılması kampaniyasına həvəslə qoşulmuşlar. Tək bircə günün ərzində - dekabr ayının 15-də rayonun 6 kolxozunda 130 min rubldan çox vəsait toplanmışdır.

**"Bakinskiy raboçiy" qəzeti, №296, 17 dekabr 1942-ci il**

**Xızılılar "Dövlət bankı"na 940 min rubl verdilər**

Xızı rayonunun kolxozçuları tambovluların çağırışını çox böyük ruh yüksəkliyi ilə qarşıladılar. Rayondakı "Oktyabr" kənd təsərrüfatı artelinin sədri Xəlil Qasım oğlu Cəfərov banka 102.000 rubl, Molotov adına kolxozun sədri İsa Həsən oğlu Musayev 50.000 rubl, Xızı kənd sovetinin sədri Fətulla Əliyev 10.000 rubl köçürmüşlər. Rayon üzrə "Dövlətbankı"na 940.000 rubl verilib.

**"Bakinskiy raboçiy" qəzeti, №304, 26 dekabr 1942-ci il**

**Maştağalılar vəsait yığımını uğurla davam etdirir**

Maştağa kəndinin kolxozlarında "Azərbaycan kolxozçusu" tank sırasının yaradılması üçün vəsait yığımı uğurla davam etdirilir. XVII partiya qurultayı adına kolxozun üzvləri bu məqsədlə fonda artıq 81.500 rubl, Stalin adına kolxoz 74 min rubl, Beriya adına kolxoz 61.000 rubl, Kirov adına kolxoz 60.000 rubl ödəmişlər. Stalin adına kolxozun (Məmmədli kəndi) sədri Müslüm Həmid oğlu və Fatmayıdakı Bağırov adına kolxozun sədri Nazər Dadaşov, hər biri 5000 rubl həcmində nağd pul köçürüblər.
Maştağa rayon kolxozçuları tərəfindən tank sırasının yaradılma fonduna ümumilikdə 420.000 rubl və 55 sentner taxıl verilmişdir. Vəsait yığımı davam edir.

**"Bakinskiy raboçiy" qəzeti, №300, 22 dekabr 1942-ci il**



*Rabitəçilər klubda təlim keçir.*



*İ.Stalinin radio ilə çıxışı münasibəti ilə İ.Stalin adına zavodda keçirilən mitinq*



*Zala toplaşanlar İ.Stalinin radio ilə çıxışını dinləyir*

**Zəhmətkeş xalqın qəhrəmanlıq səhifələri**



## Sizin qəhrəmanlığınız ölməzdir!

# MUSAYEV MƏRDAN MƏMMƏD OĞLU
# (1907-1982)



***O, sinəsini güllə qabağına verərək, batalyon komandirinin həyatını xilas edib***

O, 1907-ci il yanvar ayının 1-də Tovuz rayonunun Əlimərdanlı kəndində anadan olmuşdur. Keçmiş traktorçu, qvardiya polkovniki, motoatıcı bölmənin komandiri kimi Vətənə öz sədaqətini alman faşistləriylə qanlı döyüşlərdə dəfələrlə sübuta yetirmişdir. Lepexino adlı Ukrayna kəndini azad emək uğrunda göstərdiyi igidliyə görə III dərəcəli Şöhrət ordeninə layiq görülmüşdür. Qvardiyaçıların Borislav uğrunda apardığı vuruşlarda o, yenə cəsarətlə fərqlənərək, əvvəlcə Dnepr çayını üzüb keçmiş və öz hərbi hissəsinə yol vermişdir.

Mərdan Musayevə 1944-cü il iyun ayının 3-də Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir. O, müharibədən sonra doğma yurdu Tovuza qayıdaraq dinc quruculuqla məşğul olmuşdur.

# VERDİYEV ƏVƏZ HƏŞİM OĞLU
# (1916-1945)



***Qələbədən səkkiz gün tez gələn ölüm***

Bakının Bülbülə kəndində anadan olmuş Verdiyev Əvəz Həşim oğlu Polşa torpağında düşmən gülləsinə tuş gələndə onun heç otuz yaşı tamam deyildi. Bundan üç ay əvvəl isə Visla çayı üzərindəki Sandomir döyüş mövqeyini əldə saxlamaqda göstərdiyi igidliyə və qorxu bilmədən düşmən üzərinə etdiyi həmlələrə görə Sovet İttifaqı Marşalı İ.S.Konev Bülbüləli igid motoatıcı batalyonun avtomatçılar bölməsinin komandiri, qvardiya baş serjantı Əvəz Verdiyevə Vətənin ali mükafatını - Lenin ordeni ilə bərabər, Sovet İttifaqı Qəhrəmanının Qızıl Ulduz medalını da təqdim etmişdi.

Əvəz Verdiyevin müharibəyə qədər işlədiyi Dzerjinski adına zavodda onun xatirəsinə memorial lövhə asılıb, Bakıda və Laçında isə büstü qoyulub.





## Sizin qəhrəmanlığınız ölməzdir!



# ƏKBƏROV QƏZƏNFƏR QULAM OĞLU
# (1917-1944)

***Topla "Pələng"lərə qarşı***

1917-ci il aprel ayının 4-də Azərbaycanın İrəvan quberniyası, Naxçıvan mahalının Cəhri kəndində anadan olub. Əgər ortaya müharibə düşməsəydi, Qəzənfər bəlkə də ən sülhsevər peşənin sahibi - tarix müəllimi kimi tanınacaqdı. Diplomunu alar-almaz doğma Naxçıvandan cəbhəyə yollanıb. Belarusa qədər döyüş yolu keçib. Onun topçu dəqiqliyi amansız döyüşlərdə dəfələrlə öz təsdiqini tapıb.

Hərbi hissə topçu mövqeyinə çatanda dəhşətli bir mənzərənin şahidi oldu: tək-tənha sovet topunun "ətrafında" dörd ədəd "Pələng" tankı tüstülənirdi. 60-dan çox düşmən əsgər və zabitinin cəsədi isə ətrafa səpələnmişdi.

Bu mübarizənin qəhrəmanı olan topçu komandiri Qəzənfər Əkbərov isə vurulmuş topun yanında uzanmışdı. Yan-yörəsindəki döyüş dostları da al-qan içində, həyatla ölüm arasındaydılar.

Qəzənfər Əkbərov 1944-cü il oktyabr ayının 26-da Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Eyni zamanda, vaxtilə oxuduğu məktəbə, tütünçülük kolxozuna, eləcə də Naxçıvan şəhərindəki internat məktəbinə onun adı verildi. Doğma kəndi Cəhridə isə abidəsi ucaldıldı. Yaşadığı evin divarından xatirə lövhəsi asılıdı.

# QULİYEV ABBAS ŞAHBAZ OĞLU
# (1916-xxx)



***Visla döyüş meydanındakı igidlik***

Naxçıvanın Şəkərabad kəndində (Babək rayonu) anadan olmuşdur. Artilleriya batareyasının komandiri, qvardiya kapitanı Abbas Quliyev özünün "ulduz"lu döyüşünü belə xatırlayır:

- Visla çayının qərb sahilində düşmənlə qeyri-bərabər döyüş üç gün davam etdi. Ərzağımız tükənmişdi. Hərbi sursatın isə axırıydı. Yaralılar gözümüzün qabağındaca can verirdilər. Onların yaralarını bağlayacaq bir kimsə qalmamışdı. Özüm də yaralıydım. Topdan kənara çəkilməyə ehtiyat edirdim. Sayıq olmaq lazım idi. Faşistlərin təzədən hücuma keçəcəyi bəlliydi. Onlar sayca həddindən artıq çox idilər. Yaxşı ki, kömək vaxtında yetişdi. Qoşunlarımız artıq Varşava üzərinə hücuma keçmişdi...

Məhz Visla üzərindəki igidliyinə görə Abbas Quliyevə 1945-ci ilin fevral ayının 21-də Sovet İttifaqı Qəhrəmanı adı verildi.

## Sizin qəhrəmanlığınız ölməzdir!



### QULİYEV ADİL HÜSEYN OĞLU (1922-1992)

#### *İgid təyyarəçi*

1922-ci il noyabr ayının 22-də Bakıda anadan olub. Adil hələ uşaqlıqdan səma haqda düşünər, şahin tək xəyalən göylərdə "uçardı..." 1940-cı ildə orta məktəbi qurtaran kimi Bakı aeroklubuna daxil oldu. 1941-ci ilin may ayında Aviasiya məktəbinə qəbul edildi. Təhsilini bir il tez başa vurdu, artıq müharibə başlamışdı. O, Velikiy Lukidən Berlinə qədər uzanan döyüş yolu keçib. 265 hərbi uçuş edib. 64 döyüşdə 18 faşist təyyarəsini vurub yerə salıb. Təkcə Kursk ətrafında Adil 3 ədəd "fokke-vulf"u darmadağın edib.

1942-ci ilin noyabrında Starıy Rus uğrundakı vuruşlarda göstərdiyi yüksək uçuş ustalığına və igidliyə görə o, "Qırmızı ulduz" ordeni ilə təltif olundu. Növbəti ilin oktyabrında isə "Qırmızı bayraq" ordeninə layiq görülüb. Sovet İttifaqı Qəhrəmanı fəxri adını isə 1945-ci ilin fevral ayının 23-dən daşıyır. Müharibədən sonra bir müddət Bakı aeroportunun rəisi olub. Daha sonra isə Azərbaycan İstehlakçılar Cəmiyyətinin şöbə müdiri vəzifəsində çalışıb.



### ŞÜKÜROV ŞİRİN AĞABALA OĞLU (1910-1987)

#### *Visla uğrunda döyüş*

Şirin Şükürov 1910-cu il mart ayının 8-də Əli-Bayramlı (Şirvan) rayonunun Zubovka kəndində anadan olub. O, öz pulemyotu ilə Şimali Qafqazdan, Krımdan döyüşə-döyüşə keçərək, Voronej cəbhəsinə yetişib, sonra isə Belarus uğrunda vuruşub.

Şirin Şükürovun xidmət etdiyi hərbi birləşmə düşmənin Visla çayı boyunca qurduğu müdafiə xəttini yarmaq əmrini alır. Düşmən səngərlərinə lap az qalmış onların şiddətli, aramsız atəşləri döyüşçülərimizin yolunu kəsir. Yerə uzanmaqdan başqa çarə qalmamışdı. Vəziyyət son dərəcə ağır idi.

Şirin bir anın içində sıçrayıb, «Arxamca, irəli!», - deyərək, faşistlərin üzərinə şığıdı. O, görməsə də, hiss edirdi ki, taqım bütünlüklə ayağa qalxıb, onun arxasınca gəlir. Beləliklə, Şirin Şükürovun hücuma qaldırdığı döyüşçülərimiz düşmənin müdafiəsini yarıb, onları səngərlərindəcə məhv etdi.

1945-ci ilin fevral ayının 27-də Şirin Şükürova Sovet İttifaqı Qəhrəmanı adı verildi.





## Sizin qəhrəmanlığınız ölməzdir!



### ABDULLAYEV MƏMİŞ ŞAHBAZ OĞLU (1923-1945)

Kürdəmir rayonunun Muradxan kəndində anadan olub. 19 yaşlı Məmişin cəbhə bioqrafiyası 1942-ci ildə başladı. Kursk ətrafındakı döyüşlərdə nümayiş etdirdiyi mərdliyə, şücaətə görə Qırmızı Bayraq ordeni və "İgidliyə görə" medalı ilə təltif edildi. Qorxmaz pulemyotçu serjant Məmiş Abdullayev öz rotasının Varşavanın şimalındakı Narev çayından keçməsini təmin etdi. Bunlardan sonra ağır yaralansa da, döyüş meydanını tərk etmir. Qanı axa-axa düşmənin atəş nöqtəsinə tərəf sürünür. Bir-birinə bağlı qumbaraları düşmən üzərinə atır. Onların dəzgahlı pulemyotunu ələ keçirir. Qaçıb canını qurtarmağa çalışan faşistləri atəşə tutur.

1945-ci ilin mart ayının 24-də ölümündən sonra ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.



### ALLAHVERDİYEV MÜSEYİB ABDULLA OĞLU (1909-1969)

#### *Ukraynanın və Macarıstanın azad edilməsi*

Müseyib Allahverdiyev 1909-cu il may ayının 5-də Qazax rayonunun Dağ Kəsəmən kəndində anadan olub. İxtisasca hərbiçi olan zabit Müseyib Allahverdiyev düşmənlə ilk dəfə Moskva yaxınlığında üz-üzə gəldi. Batalyonun müdafiə etdiyi mövqeyə faşistlər çoxlu tankla və iki piyada batalyonu ilə hücuma keçdilər. Faşistlər nəyin bahasına olursa-olsun, həmin yüksəkliyi ələ keçirmək cəhdindəydi. Amma hər hücumda onların cəhdi boşa çıxır və böyük itkilərlə geri çəkilirdilər. Moskva uğrunda gedən döyüşlərdəki igidliyə görə Müseyib Allahverdiyev Qırmızı Ulduz ordeni ilə təltif olundu. Sonra da Xarkov, Kişinyov, Budapeşt uğrunda gedən döyüşlərdə mayor Müseyib Allahverdiyev şəxsi igidlik, əsl hərbi şücaət nümayiş etdirdi.

1945-ci il mart ayının 24-də mayor Müseyib Allahverdiyevin adı da Sovet İttifaqı Qəhrəmanları cərgəsinə yazıldı. Qəhrəmanın doğma kəndi Dağ Kəsəməndə onun büstü qoyulub.

## *Sizin qəhrəmanlığınız ölməzdir!*



# ƏLİYEV MÖVLAN MƏZAHİR OĞLU (1909-1971)

17 iyun 1909-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1926-cı ildə FZO məktəbini bitirdikdən sonra təhsilə olan marağı onu 1930-cu ildə "Lassal" adına Bakı Neft Texnikumuna gətirir, 1937-ci ildə isə Bakı Neft İnstitutunu (indiki Neft Akademiyası) bitirir. Bir neçə il neft sahəsində işlədikdən sonra 1940-cı ildə "Korgöz" rayonuna ikinci katib təyin edilir.

1941-ci ildə o, ailəsi ilə birlikdə Moskvaya, V.İ.Leninin adına Hərbi-Siyasi Akademiyada təhsilini davam etdirməyə yollanır. Həmin ildə də Moskva şəhərində ÜİK(b)P MK-nın 6 aylıq kursunu bitirir. Qəflətən başlanan Böyük Vətən müharibəsində Ali Baş Komandan İ.V.Stalinin xalqa 3 iyul 1941-ci il müraciəti çox böyük əhəmiyyətə malik idi. Hitlerçilərin ölkəmizə basqın etməsi haqqındakı xəbər hamı kimi M.Əliyevin də qəlbini qəzəblə doldurur. O, ailəsini Bakıya yollayaraq, hərbi komissarlığa ərizə yazıb cəbhəyə könüllü göndərilməsini xahiş edir.

1941-ci ilin sonunda - 1942-ci ilin əvvəllərində Şimal-Qərb cəbhəsinin bazasında 52-ci atıcı briqada yaradılır və mayor Əliyev Mövlan həmin briqadanın batalyon komissarı təyin olunur.

1942-ci ilin may ayında 780-ci artilleriya alayının komandir müavini təyin edilir, həmçinin də 207-ci Don və Stalinqrad cəbhəsinin atıcı diviziyasında vuruşur.

Ağır çarpışma günlərindən biri idi. Mövlan Əliyevin döyüşçüləri düşməni 4 mərtəbəli bir binanın divarları arasında yaxaladılar. Lakin almanlar bütün pilləkən, dəhliz və otaqları "müdafiə mövqeyinə" çevirmişdilər. Əsgərlərimiz hər addım məsafəni canı və qanı bahasına irəliləyirdilər. Beləliklə, 4 mərtəbəli binanın üçüncü mərtəbəsində faşistlər daha ciddi inad göstərdilər. Birdən hər iki tərəf üçün təəcüblü hadisə baş verdi: düşmənin arxasında bir neçə avtomat səsləndi. İki cəbhə məngənəsi arasında qalmış almanlar özlərini itirib bir-birinə qarışdılar. Əliyevin pilləkənlərdə vuruşan əsgərləri fürsətdən istifadə edərək, o saat düşməni boğazladılar. Dördüncü mərtəbə də bizimkilərin əlinə keçdikdən sonra əsgərlər aşağı qatda açılmış "ikinci cəhbə" ilə maraqlandılar: demə, divizyon komissarı Mövlan Əliyev vuruşmanın qızğın çağında, iliyə işləyən şaxtaya baxmayaraq, çəkmələrini çıxarmış, ayaqyalın, küncdəki su novçası ilə dırmaşaraq, üçüncü mərtəbəyə qalxmış və o anda özünü yaxındakı açıq pəncərəyə atıb kiçik və xəlvət bir evin hamamına çıxıbmış. Sonra yanında gətirdiyi iplə bir neçə döyüşçünü cəld yuxarı çəkərək onları boğmuşdur.

Qvardiyaçı mayor M.Əliyev 1942-ci il sentyabrın 13-dən əfsanəvi Stalinqrad (indiki Volqoqrad) döyüşlərində topçu komandiri kimi iştirak etməyə başlayır. Həmin ilin noyabr ayında o, Stalinqrad şəhərində iki ayağından da yaralanır. Amma buna baxmayaraq, döyüşlərə davam edir. Dekabrın 22-də SSRİ Ali Soveti Rəyasət heyətinin qərarına əsasən "Stalinqradın müdafiəsi uğrunda" ordeni, həmin ildə də "Varşava şəhərinin azad edilməsi uğrunda" medalla təltif edilir.

1943-1944-cü illərdə M.Əliyev 27-ci qvardiyanın 54-cü atıcı diviziyasının siyasi hissəsinin topçuluq üzrə divizion komandirinin müavini, 1944-1945-ci illərdə atıcı alayın komandiri olmuş, 1944-cü ilin iyun ayında Polşanın Visla çayı ətrafında sağ ayağından güllə yarası Noyabr ayında isə Estoniyanın Narva çayı ətrafında gedən döyüşlərdə kontuziya almışdır.



1944-cü ildə M.Əliyev "SSRİ-nin Böyük Vətən müharibəsinin II dərəcəli" ordeni və həmin ildə də "Qırmızı Ulduz" ordeni ilə təlif edilir.

23 aprel 1945-ci ildə o, yenidən SSRİ Ali baş komandanı, marşal İ.V.Stalinin əmrinə əsasən təşəkkür alır və SSRİ Ali Soveti Rəyasət heyətinin qərarına əsasən 9 iyun 1945-ci ildə "Berlinin alınması uğrunda" medalı ilə təltif edilir.

1945-ci il aprelin 25-də SSRİ Ali Soveti Rəyasət heyətinin qərarına əsasən, SSRİ Ali baş komandanı, marşal İ.V.Stalinin əmri ilə Mövlan Əliyev təşəkkür alır və 9 may 1945-ci ildə "Almaniya üzərində qələbə uğrunda" medalı ilə təltif edilir.

Ümumilikdə, qvardiyaçı mayor M.Əliyev və onun döyüşçüləri bütün döyüşlərdə göstərdikləri şücaətlərə görə Generalissimus Stalindən 12 dəfə təşəkkür məktubu almışlar.

1945-ci ilin fevralından Mövlan Əliyevi Almaniyada qazanılmış qələbənin keşiyində durmaq üçün ilk azərbaycanlı olaraq Bilzen şəhərinin Şverin rayonunun hərbi komendantı təyin edirlər. Ailəsi ilə birlikdə Almaniyada yaşayan Mövlan Əliyev sonrakı illərdə Maqdeburq mahalının Blankerburq şəhərində kənd təsərrüfatı üzrə hərbi komendantın köməkçisi və 1946-1947-ci illərdə Veniqerod, Maqdeburq mahalının Hərbi Komandanlığında plan-uçot şöbəsinin müdiri işləyir.

Üç il yüksək vəzifələrdə çalışdığına baxmayaraq, Vətən həsrəti onu rahat buraxmırdı. Elə məhz bu səbəbdən də o, 3 ildən sonra öz doğma Vətəninə qayıdır və yenidən neft sahəsində işləməyə başlayır. Mövlan Əliyev 1947-ci il avqustun 15-də Bakı şəhər İcra komitəsinə direktor müavini təyin edilir. 1951-ci ildə "Əməyə görə" medalı ilə təltif olunur. M.Əliyev 1948-1952-ci illərdə baş mühəndis vəzifəsindən tutmuş buruq ustası, sex rəisi, sahə müdiri, mədən müdirinədək müxtəlif vəzifələrdə çalışır. O, Abşeronun bir çox səfalı və gözəl yerlərində neft sahəsində çalışıb. Son iş yeri Qum adası olur və sonra da o, təqaüdə çıxır.

1955-ci il fevralın 15-də isə kənd əhalisinin istəyi ilə Əmircanda Kənd Soveti sədrinin müavini seçilir. O, dəfələrlə yerli sovetlərə deputat seçilmişdir. Respublikamızın müxtəlif bölgələrindən gələn gənclərə qayğı ilə yanaşar, onları neft mədənlərində işlə və evlə təmin edərdi.

1965-ci ilin mayında M.Əliyev SSRİ Ali Sovetinin Rəyasət heyətinin qərarına əsasən, "Böyük Vətən Müharibəsinin 20 illiyi" ilə əlaqədar medalla, avqustda isə müharibədən sonra əmək cəbhəsində qüsursuz çalışdığına görə qabaqcıl işçi kimi medalla təltif edilir.

1967-ci ilin dekabrında isə o, SSRİ Ali Soveti Rəyasət heyətinin qərarı ilə "Silahlı Qüvvələrin 50 illiyi" ilə əlaqədar medalla, 1970-ci ildə "V.İ.Leninin anadan olmasının 100 illik yubileyi münasibətilə şanlı əməyə görə" medalı ilə və "Böyük Vətən Müharibəsinin 25 illiyi" medalı ilə təltif edilir.

Əliyev Mövlan Məzahir oğlu 1971-ci il oktyabrın 12-də 62 yaşında ürək xəstəliyindən vəfat edir. Əmircan kəndinin camaatı onun xeyirxah əməllərindən hələ də danışır!



*Bakı şəhərinin Əmircan qəsəbəsində Böyük Vətən müharibəsi iştirakçılarına ucaldılmış abidə*

# QIRMIZI BAYRAQLI, SUVOROV ORDENLİ 416-CI TAQANROQ ATICI DİVİZİYASI

Zaqafqaziya Hərbi Dairə qoşunları komandanının 22 fevral 1942-ci il tarixli əmrinə əsasən, qərargahı Azərbaycan SSRİ-nin Ucar şəhərində yerləşməklə 416-cı atıcı diviziyanın təşkilinə başlanıldı.

1054-cü və 1374-cü alaylar Ağdamda, 1373-cü alay Göyçayda, 1368-ci alay isə Sumqayıtda quruldu. Həmin il mart ayının 22-də isə diviziyanın şəxsi heyəti hərbi and içdi.

Bu diviziyada 11050 nəfər azərbaycanlı, 291 nəfər rus, 225 nəfər erməni, 110 nəfər gürcü, 99 nəfər ukraynalı, 72 nəfər tatar, 28 nəfər yəhudi, 23 nəfər belarus və başqa millətlərin nümayəndələri təmsil olunurdu. Diviziyada 5156 tüfəng, 1022 avtomat, 167 əl pulemyotu, 50 dəzgahlı pulemyot, tank əleyhinə 217 silah, 308 top, 181 minamyot, 65 avtomobil vardı.

Ali Baş Komandanın 1942-ci il 7 iyun tarixli əmrinə əsasən, 416-cı diviziya 44-cü ordunun tərkibinə verildi və Şimali Qafqazın Levasi, Qunib, Botlix rayonuna dislokasiya olundu.

Şimali Qafqaza çatan diviziya Dağıstan MSSR-in Çir-Yurd, Akay-Tala kəndlərində, Sulak çayının sağ sahilində müdafiə mövqeyində dayandı.

416-cı diviziya 1942-ci il noyabr ayının 26-da Novo-Lednev-Kapustin məntəqəsində 60-cı Qafqaz Suvari diviziyasını əvəzlədi və elə həmin saatda döyüşə atıldı. Diviziya 44-cü ordunun tərkibindəki digər hərbi hissələrlə birlikdə Mozdok ətrafındakı Sbornıy yaşayış məntəqəsi istiqamətində düşmən üzərinə hücuma keçir.

Bu döyüşlərdə düşmənin piyada qoşunları tankların köməyi ilə silahlı qüvvələrimizin üzərinə 10 dəfədən artıq hücuma keçdilər. Lakin hər dəfə də 416-cı diviziya tərəfindən tutarlı cavab alıb geri qovuldular.



*416-cı diviziyanın döyüşçüləri Brandenburq qapılarının üzərinə qırmızı bayraq qaldırırlar*





**28-Cİ ORDU KOMANDANLIĞININ 416-CI TAQANROQ ATICI DİVİZİYASININ QƏHRƏMANLIĞI BARƏDƏ AZƏRBAYCAN SSR XKS-YƏ VƏ AZƏRBAYCAN K(B)P MK-YA MƏKTUBU**

**24 sentyabr 1943-cü il**

28-ci Ordunun döyüşçüləri, serjant və zabitləri adından günəşli Azərbaycanın zəhmətkeşlərinə, partiya, sovet, komsomol, həmkarlar təşkilatlarına - göndərilən nümayəndə heyətinə, hədiyyələrə, eləcə də 416-cı diviziyanın sıralarındakı artıma görə öz dərin təşəkkürümüzü bildiririk.

416-cı Taqanroq atıcı diviziyası şərəfli bir yol keçib. Onun döyüşçüləri, serjantları və zabitləri - qəhrəman Azərbaycan xalqının övladları alman-faşist işğalçıları ilə döyüşlərdə mərdlik, igidlik nümunəsi nümayiş etdirirlər. Bu diviziya Taqanroq ətrafında düşmənin möhkəmləndirilmiş istehkamlarının, müdafiə xətti və mövqeyinin darmadağın edilməsində fəal iştirak edib. 416-cı diviziya düşməni əzib Taqanroqa daxil olan, bu gözəl, dənizkənarı şəhər üzərində al rəngli Qələbə bayrağını dalğalandıran ilk hərbi birləşmələrimizdən biridir.

Taqanroqdan sonra diviziya özünün qələbə soraqlı döyüş yolunu daha inamla davam etdirərək, yüzlərlə yaşayış məntəqəsini, minlərlə ukraynalını, rusu faşist köləliyindən azad etdi.

Hazırda 416-cı Taqanroq atıcı diviziyası çox məsuliyyətli döyüş tapşırığını yerinə yetirir, Ukraynanın ən iri şəhərlərindən biri ətrafındakı düşmən istehkamları üzərinə uğurla hücuma keçir.

Azərbaycanlılardan ibarət 416-cı Taqanroq atıcı diviziyası bizim 28-ci Ordunun tərkibindəki digər xalqların, rus, ukraynalı, belarus, özbək, gürcü, qazax, tacik və b. millətlərin oğul və qızlarından təşkil olunmuş diviziyalarla çiyin-çiyinə döyüşür. Onların hamısı aman vermədən alman-faşist işğalçılarını əzib məhv edən şanlı Qızıl Ordunun mübariz, vahid qardaşlıq ailəsində vuruşurlar. Bütün millətlərin nümayəndələri Ali Baş Komandanın alman-faşist işğalçılarının son nəfərinədək torpaqlarımızdan qovulması istiqamətində qarşıya qoydugu tapşırıqları uğurla yerinə yetirmək naminə bir bayraq altında döyüşürlər. Sovet xalqları bu tarixi vəzifənin həyata keçirilməsi yolunda döyüşlərdə misli görünməmiş birlik: Vətənimizə, xalqımıza, partiyaya hədsiz sədaqət nümayiş etdirirlər.

Ordumuzun şərəfli döyüş yolu keçmiş əsgərləri, serjant və zabitləri adından Azərbaycanın fədakar zəhmətkeşlərinə, fəhlə və kolxozçularına, ziyalılarına bizim atəşin döyüşçü salamımızı yetirməyinizi xahiş edirik. Sizi əmin edirik ki, biz Ali Baş Komandan tərəfindən üzərimizə qoyulan bütün vəzifələri şərəflə və axıradək yerinə yetirəcəyik!

Öz tərəfimizdən isə Sizi, arxa cəbhənin fədakar əməkçilərini cəbhəni döyüş sursatı, silah və ərzaqla təmin etməyiniz üçün qəhrəmancasına, şərəflə, ovqat və enerji ilə işləməyə çağırırıq.

Yaşasın günəşli Azərbaycanın zəhmətkeşləri!

Yaşasın böyük, məğlubedilməz Sovet xalqı!

Yaşasın qəhrəman Qızıl Ordu!

28-ci Ordu komandanı, general-leytenant Gerasimenko

28-ci Ordu Hərbi Şurasının üzvü, general-mayor Melnikov

28-ci Ordu Siyasi Şöbəsinin rəisi, polkovnik Yeqorov

**AR Pİİ SSA, f. 1, op. 177, s. 7, LL. 28-29, Əsli**

44-cü Ordunun Hərbi Şurası diviziyaya Staro-Lednevo istiqamətində düşmənə zərbə vuraraq həmin yaşayış məntəqəsini almaq və sonra Zolotaryev üzərinə hücuma keçmək əmrini verdi. 416-cı diviziyanın hissələri qəti həmlə ilə düşmənin müdafiə xəttini yara bildi. Dekabr ayının 5-də Staro-Lednevonu, Kapustinonu, İşersk dəmir yolu stansiyasını azad edərək əlverişli mövqelərə yiyələndi.

1943-cü il yanvar ayının 1-də 44-cü Ordunun qoşunları Mozdok istiqamətində hücuma keçdilər. 416-cı diviziya aralıq zonasındakı mövqeləri yararaq, düşmənin geri çəkilən hissələrini izləməyə başladı və artıq yanvar ayının 3-də Mozdok 416-cı dviziyanın hissələri tərəfindən azad edildi.

416-cı atıcı dviziyası 44-cü Ordunun digər hissələri ilə birlikdə Stavropol uğrundakı döyüşlərdə iştirak etdi. Yanvar ayının 21-də həmin şəhər faşistlərdən geri alındı.

416-cı diviziyanın hücumları ilə Armavir, Mozdok, Stavropol şəhərləri, eləcə də Lipilin, Qrafski Sovetskaya, Zolotaryova, Georgiyevsk kimi yaşayış məntəqələri də faşistlərdən təmizləndi.

416-cı diviziya 44-cü Ordunun tərkibində fevralın ilk günlərində döyüşə-döyüşə Rostov vilayətinin Azov dənizi sahilindəki rayonlara çıxdı.

Ali Baş Qərargah 44-cü Ordunun Cənub Cəbhəsinin tərkibinə verilməsi əmrini verdi. Rostov şəhəri azad olunandan sonra 416-cı diviziya Taqanroqun şimal-şərqindəki Sambek çayına yetişdi. Diviziya Sambek ucalığı ətəklərində, Mius çayının sol sahilində, Kurlatsk-Yekatrınovka sərhəddində müdafiə mövqeyi tutdu.

Sambek xətti Mius sərhəddinin sağ civarında yerləşirdi. Almanların "Mius cəbhəsi" adlandırdığı bu cinah Donbas səmtini bağlayırdı. Almanlar il yarım ərzində bu cinahı var gücləri ilə möhkəmləndirir, oranı əldən vermək istəmirdilər. Burada hərbi-mühəndis qurğuları, istehkamlar qurub, çoxsaylı hərbi meydançalar tikdilər.

1943-cü ilin aprel ayında diviziyaya azad edilmiş Stavropol və Kubandan yeni, əlavə canlı qüvvələr gətirildi.

1943-cü il avqust ayının 18-də416-cı atıcı diviziyanın Cənub cəbhəsi 44-cü Ordunun tərkibində Russkoye və Brestovo kəndləri yaxınlığında düşmənin möhkəmləndirilmiş istehkamları, müdafiə xətləri üzərinə hücuma keçdi.



*Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin Taqanroqa səfəri zamanı (9 may 1980-ci il)*





**General-mayor Tərlan Abdulla oğlu Əliyarbəyov (1892-1956)**



General-mayor Tərlan Əliyarbəyov 1892-ci il noyabr ayının 28-də Ağsu şəhərində dünyaya gəlib. Tiflis hərbi məktəbini 1914-cü ildə bitirib. Birinci Dünya müharibəsi zamanı Almaniya cəbhəsində Şamaxı polkunun tərkibində rota, batalyon komandiri olub. 1918-1919-cu illərdə Azərbaycan Demokratik Respublikası Ordusunda alay komandiri olub.

1920-ci ildən Qızıl Orduda xidmət etməyə başlayıb. 1927-ci ildə M.V.Frunze adına Hərbi Akademiyanın nəzdində ali komandan kurslarını bitirib.

1923-1929-cu illərdə Azərbaycan SSR Hərbi Komissarının köməkçisi və məhəlli idarəetmə idarəsinin rəisi vəzifələrində çalışıb. 1941-ci ildə M.V.Frunze adına Hərbi Akademiyanı bitirib.

Böyük Vətən müharibəsində 416-cı və 402-ci atıcı diviziyalarının komandiri, 58-ci atıcı korpusun komandir müavini olub. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 3 noyabr tarixli fərmanı ilə general-mayor Tərlan Əliyarbəyov "Qırmızı Döyüş Bayrağı" ordeni ilə təltif edilib, həmçinin sonradan Lenin, "Qırmızı Ulduz" ordenləri ilə də mükafatlandırılıb.

Avqustun 27-də 416-cı diviziya düşmənin müdafiə xəttini yarmaqla, düşmən ərazisinin 20 km dərinliyinə qədər irəlilədi. Bununla da əsas qüvvələrin sürətli hərəkəti üçün lazımi şərait yaradıldı.

Bir gün ərzində Boqaçevka, Mokrıy Çaltır, Vasilyevka, Petropavlovka, Stepnoy, Çerniqovskiy kimi yaşayış məntəqələrini azad etməklə Mius körfəzinə çıxdılar. Bununla da düşmənin Taqanroq qrupu büsbütün mühasirəyə alınmış oldu. 90% azərbaycanlılardan ibarət olan 416-cı atıcı diviziyası avqust ayının 30-u, səhər saat 5-də, 6-cı qvardiya tank briqadasının dəstəyi ilə Taqanroqa girdi. Diviziya şəhəri küçəbəküçə almanlardan təmizlədi. Taqanroqu azad etdiyinə görə 416-cı atıcı diviziyaya "Taqanroq diviziyası" fəxri adı verildi.

Taqanroqun azad edilməsindən sonra 416-cı atıcı diviziya 35 kilometrlik yürüş edərək, Yekatrinovka və Novoqriqoryevka yaşayış məntəqələrində öz mövqeyini möhkəmləndirdi.

Diviziya yeni hərbi tapşırıq aldı: Mariupol şəhər həndəvərini bağlayan, gərəkli Kalmius ərazisini hələ ki özündə saxlayan düşmənin 3-cü dağ-nişançı-atıcı diviziyasına məxsus müdafiə xəttini yarmaq.

Azərbaycandan 1500 nəfərlik yeni canlı qüvvə alan diviziya almanları Konstantinovka rayonundan vurub çıxardı və Moloçnaya çayına çatdı.

Oktyabr ayının 14-dən 15-nə keçən gecə ərzində diviziyanın hücum hissələri 54-cü atıcı korpusla birgə Moloçnaya çayını keçərək sahildəki ərazini tutdular. Oktyabrın 15-dən 20-nə qədər Taqanroq diviziyası həmin sahəni genişləndirmək uğrunda ağır döyüşlər apardı. Diviziya oktyabr ayının 23-də Melitopol şəhərini azad etdi. Bu döyüşlərin gedişində Vermaxtın 336-cı və 111-ci piyada diviziyaları darmadağın olundu.

416-cı diviziya Melitopol şəhərinin düşməndən geri alınmasına görə Qırmızı Bayraq ordeni ilə təltif edildi. Diviziyanın bütün şəxsi heyətinə Ali Baş Komandanın təşəkkürü çatdırıldı.

416-cı Taqanroq diviziyası hücumu davam etdirərək, 120 km-dən çox irəlilədi və 1943-cü il noyabr ayının 20-də Qırmızı Mayak, Staxanov və Papanino qəsəbələrinə yetişdi.

416-cı Taqanroq diviziyası düşmənin Nikopol döyüş sahəsini aradan qaldırmaq məqsədi ilə həm də atıcı korpusun tərkibində 4-cü Ukrayna Cəbhəsinin hücum əməliyyatlarına qoşuldu.

Fevral ayının 8-də 3-cü və 4-cü Ukrayna cəbhəsi qoşunlarının birgə səyləri nəticəsində Nikopol şəhəri faşistlərdən təmizləndi. Diviziyanın şəxsi heyətinə Ali Baş Ko-

mandanın təşəkkürü elan edildi.
416-cı Taqanroq diviziyası Odessa, Nikolayev, Kişinyov, Visla-Oder əməliyyatlarında da iştirak edib. 416-cı Taqanroq diviziyası 1945-ci il aprelin 21-də səhər Berlin ətrafına girən ilk sovet qoşun hissələrindən biri oldu. Həmin gün diviziya Ştrausberq şəhərinə hücum çəkdi. Aprel ayının 27-də aramsız döyüşlər apararaq Şpree çayı üzərindəki körpünü ələ keçirərək qərb sahilə, Almaniya paytaxtının girəcəyinə çıxdı. Diviziyanın hücumçu dəstələri aprelin 30-da artıq kayzer Vilhelm sarayının qarşısındakı – Şlossplas meydanındaydı.
May ayının 1-də 416-cı diviziyanın 1373 və 1374-cü alayının hədəfi düşmənin dayaq məntəqəsi sayılan kayzer Vilhelm sarayı idi.
Kapitan Xeyrulla Gülməmmədovun komandiri olduğu batalyon saraya daxil olan ilk hissələrdən biriydi. Baş leytenant Vahab Osmanovun başçılıq etdiyi hücumçular dəstəsi döyüşə-döyüşə sarayın yuxarı mərtəbələrinə və binanın çardağına qalxdı. May ayının 1-i saat 15:00-da baş leytenant Vahab Osmanov və kiçik serjant V.Alekseyenko kayzer Vilhelm sarayının damından Qırmızı Bayraq asdılar. Elə bu zaman baş leytenant Vahab Osmanov qəhrəmancasına həlak oldu.
416-cı Taqanroq atıcı diviziyasının döyüşçüləri may ayının 1-dən 2-nə keçən gecə Opera-Komik binasını tutdular. Brandenburq qapıları istiqamətində irəliləyərək arxadan Reyxsbanka hücum etdilər. Bir neçə saatlıq döyüşdən sonra imperiya bankı tamamilə ələ keçirildi.
1373-cü alayın döyüşçüləri Brandenburq qapılarına tərəf irəliləyərək, keçmiş sovet səfirliyinin Berlindəki binasına daxil oldular.
416-cı diviziya siyasi şöbəsinin rəisi, polkovnik Rəşid Məcidov binanın üzərində Qırmızı Bayrağı dalğalandırdı.
416-cı Taqanroq atıcı diviziyası digər hərbi hissələrlə birlikdə Berlin Universitetinin və Daxili İşlər Nazirliyinin binasını da tutdu.
416-cı atıcı diviziyanın 1373-cü polkunun döyüşçüləri may ayının 2-də səhər tezdən Marizenplasa girdilər. Leytenant A.Məcidovun rəhbərliyi altında döyüşçülər Məmmədov, Əhmədzadə, Berejnoy və Andreyev Brandenburq qapıları üzərində Qırmızı Bayraq asdılar.
Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçən 416-cı Taqanroq atıcı diviziyası Vermaxtın 24000 nəfər düşmən əsgər və zabitini məhv etmiş, 5474 nəfərini isə əsir götürmüşdü.
General-mayor Tərlan Abdulla oğlu Əliyarbəyov, general-mayor Dmitri Mixayloviç Sızranov və general-mayor Vladimir Pavloviç Zyuvanov (Heybət Atamoğlan oğlu Heybətov) 416-cı Taqanroq atıcı diviziyasının komandirləri olmuşlar.

***416-cı atıcı diviziyası 1942-ci ildə Azərbaycanda təşkil olundu. Diviziya müharibə illərində Qafqazdan Berlinədək döyüş yolu keçdi. Diviziya 1944-cü il avqust ayının 30-da 6-cı qvardiya tank briqadasının dəstəyi ilə Taqanroq şəhərinə daxil oldu və onu alman-faşist işğalçılarından azad etdi. Şəhərin azad edilməsində və faşistlərin "Mius cəbhəsi"nin yarılmasında 130-cu atıcı diviziyası da iştirak etdi. Bu qəhrəmanlığa görə hər iki diviziyaya "Taqanroq" diviziyası fəxri adı verildi.***







416-cı Taqanroq atıcı diviziyasının döyüşçüsü, 93 yaşlı Muradəli Heydərov

**BELQRAD ATICI DİVİZİYASININ KOMANDİR VƏ DÖYÜŞÇÜLƏRİNİN YUQOSLAVİYANIN ALMAN-FAŞİST İŞĞALÇILARINDAN AZAD EDİLMƏSİ UĞRUNDAKI DÖYÜŞLƏRDƏ AZƏRBAYCANLI ƏSGƏRLƏRİN İGİDLİYİ HAQQINDA AZƏRBAYCAN K(B)P MK-YA MƏKTUBU**

**5 yanvar 1945-ci il**

Belqrad atıcı diviziyasının döyüşçüləri, zabit və serjantları Azərbaycan xalqına atəşin qızıl əsgər salamı göndərirlər.
Biz böyük sevinclə hərbidəki gündəlik işlərimizdən söz açmaq, onu sizinlə bölüşmək istərdik.
Terekdən Moraviyayadək şanlı döyüş yolu keçmiş diviziyamız indi Yuqoslaviyanın qəhrəman paytaxtının adını daşıyır. Ali Baş Komandanın əmri ilə diviziyamıza "Belqrad" fəxri adı verilib.
Müttəfiqimiz Yuqoslaviyanın azad edilməsi uğrundakı döyüşlərdə biz minlərlə hitlerçi məhv edərək, 100-dən çox yaşayış məntəqəsini, o cümlədən Vrajoqmats, Protino, Bor, Zlot, Podqarats, Boqovina, Çupriya, Yaqodina kimi bir çox şəhərləri düşməndən təmizləmişik.
Dnepr, Buq və Dnestr çaylarını keçməkdə qəhrəman rabitəçi, yefreytor Camal Abbasov Moraviyada da yüksək mərdlik, igidlik nümayiş etdirdi. O, Morav çayının o biri sahilinə birinci çıxaraq, bir neçə faşisti məhv etdi.
Atıcı rotanın partiya təşkilatının nümayəndəsi Qulu Əbdül oğlu Abdullayev Podqarats uğrundakı döyüşlərdə düşmən səngərinə birinci atıldı. Yaralansa da, döyüş meydanını tərk etmədi.
Diviziyanın veteranı Abas Əsəd oğlu Gözəlov Yuqoslaviya torpağının azad olunmasında özünü igid və qorxmaz döyüşçü kimi göstərdi.
Yuqoslaviyanın faşist işğalından xilas edilməsi uğrunda aparılan döyüşlərin qəhrəmanı yüzlərlə, minlərlədir. Onların hamısı yüksək dövlət mükafatlarına layiq görülüb.
Qarşıda bizi qəti və həlledici döyüş gözləyir. Biz ona hazırıq. Öz gücümüzə, haqq işimizin zəfər çalacağına inanırıq. Biz yeni döyüşlərə gedirik. Vətən qarşısındakı borcumuzu axıradək yerinə yetirəcəyik!
Yaşasın bizim qələbəmiz!
Atıcı diviziya şəxsi heyətinin tapşırığı ilə yazılıb.

**"Bakinskiy raboçiy" qəzeti,**
**5 yanvar 1945-ci il**

# 223-CÜ AZƏRBAYCAN ATICI DİVİZİYASI

Diviziya Ali Baş Komandan Qərargahının əmri ilə 46-cı ordunun 168-ci ehtiyat alayının bazası əsasında 1941-ci il oktyabr ayının 18-də təşkil edildi. Diviziyanin hissələri əsasən Azərbaycanın şimal bölgələrində, Quba-Sarvan-Çarxı-Qusar-Dəvəçidə yaradıldı. Döyüşçülərə elə oradaca döyüş hazırlığı keçilirdi.

Polkovnik Heybət Atamoğlan oğlu Heybətov (Vladimir Pavloviç Zyuvanov) diviziyaya komandanlığı qəbul etdi.

223-cü atıcı diviziya 1942-ci il avqust ayının 1-dən etibarən 44-cü Ordunun tərkibinə qatıldı. 44-cü ordunun komandanı, general-mayor İ.Petrovun 16 sentyabr 1942-ci il tarixli əmrinə əsasən, diviziyanın Mahaçqala rayonuna daşınması üçün hazırlığa başlanıldı.



223-cü diviziya 1942-ci il sentyabr ayının 27-də 120 km-lik yürüş keçirdi. Terek çayının sahilində, ikinci eşalonda, Qudermesdən Xəzər dənizinədək və Çervlenadan Birlyuçekə qədər böyük bir ərazidə müdafiə mövqeyi tutdu.

223-cü Azərbaycan atıcı diviziyası 1943-cü il yanvar ayının başlanğıcında, ağır döyüşlərdən sonra Qızıl Ordunun digər birləşmələri ilə əvvəlcə Mozdok şəhərini, sonra isə Proxladnı şəhərini işğalçılardan azad etdi.

223-cü atıcı diviziyası 1943-cü il yanvar ayının 10-u saat 18-də Georgiyevsk şəhərinə girdi. Yanvarın ortalarında diviziya almanların şiddətli əks-hücumlarını dəf edərək, düşmən hərbi hissələrinin Armavirdəki faşist qoşun qrupu ilə birləşməsinə mane oldu.

1943-cü il yanvar ayının 26-da diviziya Petropavlovsk yaşayış məntəqəsi rayonunda Vermaxt diviziyasını darmadağın edərək, 275 düşmən əsgər və zabitini əsir götürdü.

Döyüş xidmətlərinə görə diviziya 37-ci Ordu Komandanlığının təşəkkürünü aldı.

Diviziya Mineralnı Vodı şəhərinin azad olunmasında böyük fəallıq göstərdi. Qızğın döyüşlər aparan diviziya 3 ay ərzində 50-dən çox yaşayış məntəqəsini və bir neçə şəhəri alman-faşist işğalçılarından azad etdi.

Diviziyanın döyüş xidmətlərinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qırmızı Bayrağı ilə mükafatlandırılmış 1041-ci alayı Şimali Qafqazın düşməndən azad olunmasında xüsusilə fərqləndi. Alay həmin bayrağı müharibənin axırınadək özündə saxladı.

Diviziya Sovet qoşunlarının Yassı-Kişinyov əməliyyatında da fərqləndi. Həmin döyüşlərdə diviziya Vermaxtın 257-ci piyada diviziyasını tamamilə qırıb-çatdı. Diviziya Ali Baş Komandanın dalbadal iki təşəkkürünü də elə buna görə alıb.

Diviziya Kişinyov əməliyyatının gedişində 4 min nəfər düşmən əsgər və zabitini məhv etmiş, 3.835-ni əsir götürmüşdür.

223-cü diviziya 1944-cü il sentyabr ayının axırından Yuqoslaviyanın azad olunmasında yaxından iştirak edib. Belə ki, oktyabr ayının 1-ci yarısında Bor və Barka şəhərindəki alman qarnizonlarını məhv edərək, mis mədənlərini faşistlərdən geri alıb.

Diviziya Boqovina kəndi yaxınlığında 2500 nəfərlik şəxsi heyəti olan Vermaxt hərbi hissəsinin əsgər və zabitlərini də qəfil həmlə ilə qıraraq, 250 nəfərini əsir götürüb.

Yuqoslaviyanın paytaxtı Belqradın düşməndən azad olunmasında göstərdiyi igidliyə görə 223-cü diviziya "Belqrad" fəxri adına layiq görüldü.

Diviziya 1944-cü ilin noyabr-dekabr aylarında Qərbi Serbiyadakı döyüşlərdə iştirak etdi. Həmin döyüşlərin gedişində 2.370 nəfər düşmən əsgər və zabiti məhv edildi. Çoxlu sayda silah və hərbi ləvazimat, hərbi yüklü 1950 vaqon, 49 parovoz, 4 tank ələ keçirildi.

Diviziya Rumıniya, Bolqarıstan və Yuqoslaviyanın azad olunmasındakı igidliyin, döyüş şücaətinə görə Ali Baş Komandanın təşəkkürünə layiq görüldü.

223-cü diviziya 1944-cü ilin axırında Macarıstana daxil oldu və burada Budapeştin cənub-şərqində mövqe tutdu. İki aydan çox bir müddətdə diviziya Vermaxt qoşunları tərəfindən mühasirəyə alınmış rayonları azad edirdi.

Həmin müddət ərzində düşmənin 50-dən artıq hücumu dəf olundu. 2.240 nəfər düşmən əsgər və zabiti öldürüldü. 450 nəfərdən çoxu da əsir götürüldü. 17 tank, 14 top və minamyot yararsız hala gətirildi.

Mart ayında diviziya digər hərbi birləşmələrimizlə birgə Komar və Tata şəhərlərindən düşməni vurub çıxardı. Budapeşt ətrafında nümayiş etdirdiyi şücaət və qəhrəmanlığa görə diviziya iki dəfə Ali Baş Komandanın təşəkkürünü aldı.

223-cü diviziyanın əsgər və zabitləri İkinci Dünya müharibəsinin döyüş meydanlarında 30 ay vuruşdular. Amansız döyüşlər bahasına 3600 km yol keçildi. Kuban, Şimali Donets, Dnepr, Yujniy Buq, Dnestr, Morav və Dunay çaylarını adladılar. Mozdok, Georgiyevsk, Dneprodzerjinsk, Kirovoqrad, Benderı, Kişinyov, Belqrad, Budapeşt, Vyana kimi şəhərlərin azad olunmasında bu diviziyanın xidməti danılmazdır.

Diviziyanın döyüşçüləri müharibə illərində Vermaxtın 25.000 əsgər və zabitini məhv etmiş, ya da əsir götürmüşlər. Düşmənin 28 təyyarəsi, 113 tankı, 549 topu, 311 minamyotu, 1.152 pulemyotu, 25 min avtomatı və tüfəngi, 2 zirehli qatarı, 2 min avtomaşını, 219 parovozu, yüklə dolu 7400 vaqonu, 70 avtomobili və 2 milyon pud taxılı qənimət olaraq ələ keçirilmişdi.

## Sizin qəhrəmanlığınız ölməzdir!



### VLADİMİR PAVLOVİÇ ZYUVANOV
### (Əsl adı Heybət Atamoğlan oğlu Heybətov)
### (1898-1959)

Sovet sərkərdəsi, general-mayor, milliyyətcə azərbaycanlı. 1898-ci ildə Bakının Maştağa kəndində, çoxuşaqlı ailədə anadan olub. Məktəbi 1912-ci ildə bitirib.

Ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımı zamanı, 1918-ci ildə atasını itirib.

1918-ci ildən 1920-ci ilə qədər "Abneto" adlı Əmircan-Biləcəri neft sənayesi yoldaşlığında çilingər işləyib.

Heybət 1920-ci ildə Zyuvanov soyadlı rus zabiti tərəfindən oğulluğa götürülüb.

Böyük Vətən müharibəsi başlayanda 347-ci atıcı diviziyada komandirin müavini təyin edilib. 1942-ci il fevral ayının 27-də 2-ci atıcı diviziyanın komandiri vəzifəsinə gətirilib.

1942-ci il noyabr ayının 10-da V.P.Zyuvanova general-mayor rütbəsi verilib. 1943-cü il may ayının 30-da 416-cı atıcı diviziyada komandirin müavini vəzifəsində xidmət göstərib. 1944-cü il may ayının 19-dan 28-nə qədər müvəqqəti olaraq 203-cü atıcı diviziyaya rəhbərlik edib. 1944-cü il avqust ayının 24-də ona Kişinyov şəhərinin komendantlığı tapşırılıb.

1945-ci il aprel ayının 20-də 416-cı atıcı diviziyanın komandiri təyin edilib. Berlin üzərinə hücum əməliyyatlarında xüsusilə fərqlənib.

1373-cü atıcı polkunun hissələri qəti hücuma keçərək kayzer Vilhelm sarayını, Sovet İttifaqının Berlindəki keçmiş səfirliyinin binasını tutublar. Brandenburq qapıları üzərində Qırmızı bayrağı da onlar asıb.

General-mayor V.P.Zyuvanov istefaya çıxandan sonra rəhbər partiya vəzifələrində çalışıb, Azərbaycan SSR Ali Sovetinə deputat seçilib. O, 1959-cu il oktyabr ayının 7-də Kiyev şəhərində vəfat edib. Məzarı Bakıda Fəxri Xiyabandadır.

### ƏLİF TURİXANOVİÇ PİRİYEV
### (1922-1986)



1922-ci il yanvar ayının 10-da Neftçala rayonunun Qoltuq kəndində anadan olub.

1944-cü il may ayının əvvəlində Stavropol ətrafında, elə səngərdəcə ona partiya bileti verildi. Səhərisi günü isə Piriyev Sevastopola gedən yolu kəsdi və düşmənin Sapundağda qurduğu istehkamlara hücuma keçdi. Hücum zamanı o, yaralanmış rota komandirini əvəz etdi. Xüsusi səriştə və bacarıqla, cəsarətlə hərəkət edərək, düşmənin ən mühüm müdafiə məntəqələrindən birini tutdu. Bu döyüşdə o şəxsən 15 faşist əsgərini öldürdü və hitlerçi qərargah zabitini əsir götürdü. Krımın azad olunmasında, Sapundağa hücum zamanı göstərdiyi igidliyə və şücaətə görə Əlif Piriyevə Sovet İttifaqı Qəhrəmanı adı verildi.





Sizin qəhrəmanlığınız ölməzdir!



### ƏLƏKBƏROV SULTAN SADIQ OĞLU (1914-1993)

Sultan Sadıq oğlu Ələkbərov 1914-cü ildə Salyanın çox mötəbər bir ailəsində anadan olub. Hələ kiçik yaşlarından yaddaşı, fəhmi ilə nəslin ağsaqqallarının diqqətini çəkən Sultan orta məktəbi Salyanda əla qiymətlərlə bitirən. Sonra ali təhsil ardınca Bakıya gəlir, Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirir. Eyni zamanda, iki ali təhsil ocağının məzunu olan Sultan Ələkbərov öz peşəsiylə çalışmağa imkan tapmamış, müharibə təhlükəsini yaşayan ölkənin hərbi çağırışı ilə leytenant kurslarına gedir. 1941-ci ilin iyununda tarixə Böyük Vətən Müharibəsi kimi düşmüş ağır sınaq illəri başlayanda gənc leytenant Sultan Sadıq oğlu artıq bir ildən çox idi ki, Mərkəzin tapşırığı ilə İranda Azərbaycan ordusunu təmsil edirdi və faşist Almaniyasının bu cinahdan gözlənilən qəfil həmləsinə sərvaxt dayanmışdı.

Daha sonra bitib-tükənmək bilməyən cəbhə yolları: Sevastopoldan, Kerçdən, Yuqoslaviyadan, Polşadan, Çexoslovakiyadan, Vyanadan, Amsterdamdan və daha haralardan keçən odlu-alovlu müharibə illəri... Bir neçə dəfə ölümcül yaralanan, hətta bir dəfə bombardmana düşüb, üç gün torpaq altında huşunu itirib qalan, buna görə də Vətənə, doğmalarına "qara kağızı" gələn batalyon komandiri, hərbi komissar, igidliyə görə dəfələrlə orden-medallarla təltif olunan cəsur döyüşçü Sultan Sadıq oğlu Ələkbərov Qələbədən sonra da Karpat dağlarında vuruşur. 5 illik müharibəni 7 ilə başa vurub geriyə, doğma ocağa üzüağ dönür. Müharibədən sonra əvvəlcə yüksək savadlı iqtisadçı kimi Azərbaycan Dövlət Plan Komitəsinə bölmə rəisi təyin olunur. Daha sonra SSRİ "İttifaquçotnəşr"in Azərbaycan bölməsinin "Statistika" nəşriyyatının direktoru, daha sonra Statistika Texnikumunun və mətbəəsinin direktoru olur. Eyni zamanda, pedaqoji fəaliyyət göstərən Sultan Ələkbərov ömrünün sonuna qədər müxtəlif ali təhsil ocaqlarında müəllimlik edərək, elmini, təcrübəsini sevə-sevə gənc nəslə öyrədib.

**223-CÜ ATICI DİVİZİYASI KOMANDANLIĞININ AZƏRBAYCAN K(B)P MK-YA, AZƏRBAYCAN SSR XKS-YƏ VƏ AZƏRBAYCAN SSR ALİ SOVETİNƏ AZƏRBAYCANLI DÖYÜŞÇÜLƏRİN İGİDLİYİ BARƏDƏ MƏKTUBU**

**4 sentyabr 1944-cü il**

Azərbaycan oğulları Böyük Vətən müharibəsi cəbhələrində doğma Vətənləri uğrunda qəhrəmancasına vuruşurlar.

Diviziyamızın döyüşçüləri və komandirləri doğma torpaqlarımızı alman-faşist işğalçılarından təmizləyə-təmizləyə şərəfli döyüş yolu keçiblər. Döyüşçülərimiz sinələrini sipər edərək, öz canları - qanları bahasına Qafqazı mənfur düşməndən qorudular. Onlar odlu-alovlu döyüşlərdə Kubanı, Ukraynanı, Moldovanı keçdilər. Çox çətin su maneələrini, Don, Dnepr, Cənub Buq və Dnestr çaylarını cəsarətlə adladılar. Bunun üçünsə misli görünməmiş mərdlik, dəyanət və qəhrəmanlıq tələb olunurdu.

Diviziyanın sıralarında xidmət edən yüzlərlə azərbaycanlı döyüşçü savaş meydanında əsl qəhrəman kimi vuruşurdu. Onların şan-şöhrəti, adı bizim qəlbimizdə daim yaşayacaqdır.

Diviziyamızın yetirməsi olan Mehdiyev xidmətə leytenant rütbəsiylə başlamışdı. Onun gen sinəsini indi altı orden və medal bəzəyir. O, bir çox ağır, qanlı döyüşlərdən qalib çıxıb.

Onun alayı Kişinyovun cənub-qərbində alman işğalçılarının xeyli tör-töküntüsü ilə döyüşə girdi. Mehdiyev bu döyüşdə də özünü itirmədi. Qorxu bilmədən vuruşdu, düşmənin qabağından qaçmadı. Bu, çox amansız, ağır bir döyüş idi. Düşmən minlərlə canlı qüvvəsini döyüş meydanında itirdi. Mehdiyevin alayı 2000 nəfərdən artıq düşmən əsgər və zabitini əsir götürdü. Böyük miqdarda qənimət də ələ keçirdi.

Bu döyüşdə polkovnik-leytenant Aşurov qəhrəmancasına həlak oldu. Vacib bir yaşayış məntəqəsi uğrunda gedən bu döyüşün ən kritik, ən gərgin anında Aşurov şəxsən özü hissəni hücuma aparmışdı.

Azərbaycanın şərəfli oğulları M.Mirzəyev, B.Bağırov, İ.Əliyev həmişə igidlik, şücaət nümunəsi göstəriblər, indi də yüksək vətənpərvərlik, sözün əsl mənasında, qəhrəmanlıq nümayiş etdirirlər. Onların topçu dəstələri yüzlərlə faşist əsgərini yerlə-yeksan etdi. Onlarla avtomaşın, tank, bronetransportyor, texnika yararsız hala salındı. Düşmənin çoxlu sayda dzotu, pulemyot nöqtələri dağıdıldı və bununla da bizim piyada qoşunlarımızın yolu açıldı.

Starşina Səfiquliyev sonradan özünü təcrübəli partiya rəhbəri kimi tanıtdırdı. Bütün bu xidmətlərinə görə Səfiquliyev Qırmızı Bayraq ordeni ilə təltif olundu.

Qoçaq, sayıq kəşfiyyatçı, bacarıqlı komandir Qurban Baxşalı oğlu sıravi əsgər idi. İndisə o, zabitdir. Serjant Hüseynov düşmənin iki tankını vurub, nə qədər faşisti pulemyotla öldürüb. Sinəsini dövlət mükafatları bəzəməkdədir.

Serjant S.Əliyev mahir top nişançısıdır. O, üç ordenlə mükafatlandırılıb.

Belə cəsur döyüşçülər, serjant və zabitlər aramızda çoxdur. Azərbaycan oğullarından hər biri alman-faşist işğalçılarına qarşı döyüşdə özünü əsl igid kimi göstərir.

İndi bizim diviziya Ruminiyanın hüdudlarına daxil olub. Diviziyanın döyüş yolu hər bir döyüşçünü ruhlandırır. Döyüşçülərimiz diviziyanın şöhrətini daha da yüksəltməyə, həyatımızda, bəlkə də ən əziz, ən xoş günü, düşmən üzərindəki Qələbə gününü yaxınlaşdıracağına söz veriblər!

Bütün Azərbaycan xalqına salamlar!

**223-cü atıcı diviziyasının komandiri,**
**polkovnik Tatarçevskiy,**
**223-cü atıcı diviziyası siyasi şöbəsinin rəisi qvardiya polkovniki Lebedev,**
**AR DA, f. 1, op. 233, s. 258, II. 30-32**
**Əsli**





## Sizin qəhrəmanlığınız ölməzdir!

# MƏMMƏD SƏMƏD OĞLU BAĞIROV
## (1922-1997)



1922-ci il oktyabr ayının 2-də İsmayıllı rayonunun Basqal kəndində, anadan olub. Bakı Rəssamlıq məktəbini bitirib (gələcək kəşfiyyatçı, Yuqoslaviya Müqavimət Hərəkatının iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə ilə birlikdə oxuyub). Bakının Çaparidze rayonu hərbi komissarlığı tərəfindən 1941-ci il iyul ayının 13-də Qızıl Ordu sıralarına çağırılıb. Sonra da Gürcüstanın Telavi şəhərindəki hərbi məktəbə göndərilib. Topçu-zenitçi hərbi ixtisasını alan Məmməd Bağırov ərizə ilə rəhbərliyə müraciətində könüllü olaraq ön cəbhəyə göndərilməsini xahiş edib. O, Qərb cəbhəsində, 773-cü topçu alayı sıralarında xidmət etməyə başlayıb.

1942-ci il may ayının 28-də Xarkov vilayətinin Barvinko şəhəri uğrunda gedən döyüşlərin birində yaralandı və kontuziya aldı. Ayılanda gördü ki, Belaya Serkov şəhəri yaxınlığındakı hərbi əsir düşərgəsindədir. Əynində nə geyimi var, nə də sənədləri. M.Bağırov əvvəlcə Vladimir-Volınskdakı hərbi əsir düşərgəsindən qaçmağa cəhd göstərir. Yolda tutub Ukraynanın Priluki şəhərindəki hərbi əsir düşərgəsinə göndərirlər.

1944-cü ilin yazında almanların yoxluğundan istifadə edən M.Bağırov at arabasında qaçıb, Şimali İtaliyaya tərəf üz tutur və orada Çino Bozzi adına partizan dəstəsinə qoşulur. Pulemyotçu kimi partizan dəstəsində xidmət edir. Partizanlar öz dislokasiya yerini dəyişir və tezliklə Pistoy rayonuna gəlir. M.Bağırov burada "Ubaldo Fantoççi" dəstəsinin XII zona briqadasına keçir. Briqadanın rəhbəri Hardi Vinçentso idi. M.Bağırov partizan dəstəsinin bütün döyüşlərində, partlayış əməliyyatlarında fəal iştirak edirdi. İtaliyanın azad edilməsindən sonra M.Bağırov SSRİ-yə qaytarıldı. SSRİ DİXK-nın 174 nömrəli düşərgəsində xüsusi yoxlamadan keçdi.

1945-ci ilin fevralında isə M.Bağırov Azərbaycana qayıtdı. Tibb təhsil aldı. Stomatoloq həkim kimi çalışdı. Ailə qurdu.

O, 1978-ci ildə müharibədən sonra ilk dəfə İtaliyaya səfərə getdi. İtaliya Respublikasının o vaxtkı prezidenti Sandro Pertini şəxsən onu qəbul etdi. Axı, Sandro Pertini İtaliya Müqavimət Hərəkatının təşkilatçılarından biri sayılırdı. S.Pertini M.Bağırova fəxri partizan diplomunu və İtaliyanın ali hərbi mükafatını - "Haribaldi Ulduzu"nu təqdim etdi, eləcə də ona digər qiymətli hədiyyələr bağışladı.

Səfər günlərində İtaliya Kommunist Partiyasının Baş katibi Enriko Berlinquer də Romada M.Bağırovu gümüş "Xatirə medalı" ilə təltif etməklə yanaşı, İtaliya paytaxtının ən yaxşı restoranlarının birində onun şərəfinə dəbdəbəli bir ziyafət verdi.

1980-ci ildə isə M.Bağırova İtaliya Respublikasının fərdi təqaüdü təyin edildi. 1984-cü ildə ona İtaliyanın ikinci ali mükafatı - "Döyüşçü şərəfi" ordeni təqdim olundu. Beləliklə, o, İtaliya şəhərlərinin azad edilməsinə görə 14 medala, həmçinin prezident S.Pertininin imzaladığı iki fəxri diploma layiq görüldü.

M.Bağırov 1991-ci ildə qərara aldı ki, Bakıda İtaliya Müqavimət Hərəkatı Muzeyi yaratsın. O, 1997-ci ilin sentyabrında İtaliyaya səfər edən Azərbaycan hökuməti nümayəndə heyətinin tərkibində idi. Nümayəndə heyətinə isə o vaxtı İtaliyaya özünün ilk rəsmi səfərinə gedən Azərbaycan Respublikasının Prezidenti ulu öndər Heydər Əliyev rəhbərlik edirdi.

1997-ci il oktyabr ayının 2-də M.Bağırovun 75 yaşı tamam oldu. Qəhrəman döyüşçü neçə illər idi ki, ürək çatışmazlığından əziyyət çəkirdi. O, 1997-ci il oktyabr ayının 9-da infarktdan dünyasını dəyişdi. Bakıda, Fəxri Xiyabanda dəfn edildi.



## MÜRSƏLOV ƏBDÜLƏLİ BƏYƏLİ OĞLU (1921-2000)

1921-ci ildə Bakıda anadan olub. 1941-ci ilin noyabrında könüllü olaraq Qızıl Ordu sıralarına gedib. 223-cü Azərbaycan atıcı diviziyasında kəşfiyyat taqımının sıravi əsgəri kimi vuruşub. 1946-cı ilin sentyabrına qədər ordu sıralarında xidmət göstərib. Kutuzov ordenli 1039-cu atıcı və Suvorov ordenli 1037-ci Vyana alaylarının tərkibində minamyot bölməsinin komandiri olub, Qafqaz, II, III, IV Ukrayna cəbhələrində vuruşub. 223-cü Azərbaycan atıcı diviziyasının ləğvi ilə bağlı olaraq, serjant rütbəsində, bölmə komandiri kimi 688-ci topçu briqadasına köçürülüb.

Ə.Mürsəlov ilk döyüşə 1941-ci ilin dekabrında Naurskaya stansiyasında girib. 223-cü atıcı diviziyanın tərkibində Azov dənizinin sahillərinəcən döyüşə-döyüşə 700 km yol keçib. Georgiyevsk şəhərini azad edib. Krasnoarmeysk stansiyasının fəxri vətəndaşıdır. Düşmənin möhkəmləndirilmiş "Mavi xətti"ni yarıb keçib. Xüsusən də, Xarkov-Lazovaya dəmiryolu qovşağının alınmasında fərqlənib. Borka stansiyasındakı döyüşdə həlak olan komandirini əvəz edərək, döyüşçüləri süngü hücumuna qaldırıb və düşmənin onları üstələməsinə imkan verməyib. Bu döyüşə görə Əbdüləli Mürsəlov "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunur, onu Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülməsi münasibəti ilə rəsmi şəkildə təbrik də edirlər (sonradan fərmanın imzalanmaması isə sirr olaraq qalır).

Kirovoqradın Verblyujka kəndi yaxınlığındakı döyüşdə 1037-ci alayın topçu batareyası bütün şəxsi heyəti ilə həlak olur. Mürsəlovun şəxsi xahişi ilə onu batareyanın tərkibinə yazırlar.

Yassı-Kişinyov əməliyyatının gedişində Ə.Mürsəlov topçu dəstəsinin həlak olan komandirini əvəzləyir.

Belqrad uğrundakı döyüşlərdə yenidən kəşfiyyat əməliyyatlarında iştirak edir. Bu zaman o, yuqoslav lideri İosif Broz Tito ilə şəxsən tanış olur. Titonun şəxsi xahişi ilə baş serjant Ə.Mürsəlovun adı Belqradın azad olunması münasibəti ilə keçirilən hərbi paradda iştirak üçün gələn 25 nəfər sovet döyüşçüsünün adları sırasına daxil edilir.

Ə.Mürsəlov Rumıniyanın, Bolqarıstanın, Yuqoslaviyanın, Macarıstanın, Avstriyanın, Çexoslovakiyanın, Almaniyanın faşistlərdən azad olunmasında fəal iştirak edib. Əbdüləli axırıncı döyüşə 1945-ci il aprel ayının 13-də atılıb. On beş nəfərdən ibarət kəşfiyyat qrupuyla Vyananın alman nəzarətində olan hissəsində tapşırığı yerinə yetirib geri dönəndə pusquya düşüb. Dəstədən sağ qalan iki nəfərdən biri baş serjant Ə.Mürsəlov olur. Döyüş xidmətlərinə görə 28 orden və medalla təltif olunmuş Ə.Mürsəlovun axırıncı hərbi rütbəsi mayordur.

Ə.Mürsəlov müharibədən qayıtdıqdan sonra məsul partiya vəzifələrində çalışıb. 1974-cü ildə Partiya-hökumət nümayəndə heyətinin tərkibində Fransaya rəsmi səfərdə olub. Sov.İKP-nin XXV qurultayının, Azərbaycan KP-nin XVIII, XIX qurultaylarının nümayəndəsi, Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib.







# QIRMIZI BAYRAQLI, SUVOROV ORDENLİ 77-Cİ SİMFEROPOL ATICI DİVİZİYASI

77-ci atıcı diviziyası Krımı düşməndən azad etmişdir. Diviziya 1944-cü il aprel ayının 13-də Qızıl Ordunun digər hərbi birləşmələri ilə birlikdə indiki aeroport istiqamətindən hücuma keçərək, Simferopol şəhərini alman-faşist işğalçılarından təmizlədi. 1000 nəfərə yaxın düşmən əsgər və zabiti əsir götürüldü.

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə diviziyaya fəxri "Simferopol" adı verildi. Diviziyanın 613 nəfər döyüşçüsü və komandiri SSRİ-nin orden və medalları ilə mükafatlandırıldı. 1944-cü il may ayının 7-də isə 77-ci atıcı diviziyası qəfil hücumla Sevastopolun açarını - Sapundağı aldı. Döyüşçü Əbdüləziz Qurbanov düşmən atəşi altında yüksəkliyə qalxaraq Sapundağın zirvəsinə Qırmızı Bayrağı sancdı.

77-ci diviziya Sevastopola daxil olan ilk hərbi birləşmələrdən idi. Diviziya 1945-ci ilin yanvar-fevral aylarında Baltik sahillərində Şimal-şərqi Prussiyada Vermaxt qoşunları ilə son döyüşlər aparırdı. Yalnız fevral ayının birinci yarısında diviziya düşmənin 17 əks-hücumunun qarşısını alaraq, Vermaxtın 1300-dən çox əsgər və zabitini məhv etdi.

77-ci atıcı diviziya müharibəni Kurlandiyada başa çatdırdı. Vermaxtın hissələri 1945-ci il may ayının 8-də Dzintari rayonunda 77-ci diviziyanın gözü qarşısında silahlarını yerə ataraq təslim oldular.





*1944-cü il aprel ayının 13-də Simferopolun azad olunması şərəfinə qoyulmuş xatirə tank abidəsi*

*Sapundağ*



Müharibə dövründə diviziya 25 ay sərasər döyüş meydanından çəkilmədi. Qafqazdan Baltik sahillərinədək hünər, qəhrəmanlıq dolu bir yol keçdi. Bu müddətdə Vermaxtın 50.000-dən çox əsgər və zabiti məhv edildi, əsir götürüldü. Düşmənin 255 tankı, 938 topu, 859 pulemyotu, 383 minamyotu, 360 avtomobili yararsız hala salındı. 4 minə yaxın vaqon, 30 min avtomat və tüfəng, 360 avtomaşın, 8 təyyarə qənimət alındı.

Diviziyanın şəxsi heyəti 10 dəfə Ali Baş Komandanın təşəkkürünə layiq görüldü. Müharibə illərində diviziyanın 11.237 nəfər əsgər və zabiti ordenlə və medallarla mükafatlandırıldı. Şəxsi heyətdən 8 nəfəri isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.





**4-CÜ UKRAYNA CƏBHƏSİNİN KOMANDANI, SOVET İTTİFAQI MARŞALI F.İ.TOLBUXİNİN QIRMIZI BAYRAQLI 77-Cİ ATICI DİVİZİYAYA "SİMFEROPOL" FƏXRİ ADININ VERİLMƏSİ MÜNASİBƏTİ İLƏ AZƏRBAYCAN K(B)P MK-NIN TELEQRAMI**

**30 aprel 1944-cü il**

Azərbaycanlılardan komplektləşdirilmiş Qırmızı Bayraqlı 77-ci atıcı diviziyasına Krımın təmizlənməsində fərqləndiyinə görə Ali Baş Komandanın əmri ilə "Simferopol" adı verilib.
1 May Bayramı münasibəti ilə təbrik edirəm. Möhkəm cansağlığı arzulayıram!

**F.İ.Tolbuxin,**
**AR Pİİ SSA, f 1, op 177, s.3, l.41**
**Nüsxə**



# Sizin qəhrəmanlığınız ölməzdir!



## VƏLİYEV MİRZƏ DÖVLƏT OĞLU (1923-XXX)

*Tankların qənimi*

Qusar rayonunun Yuxarı Ləgər kəndində anadan olub. Mirzə Vəliyev 18 yaşında könüllü olaraq cəbhəyə gedib. Döyüş yolu Şimali Qafqazdan başlayan Mirzə Vəliyev bölmə komandiri, baş serjant kimi öz artilleriya batareyası ilə Kubanda, Ukraynada və Belarusda vuruşub. Bolqarıstanı, Rumıniyanı işğaldan azad edib. Hitlerçiləri Macarıstan torpaqlarından qovub. Lakin burada Mirzənin başçılıq etdiyi batareya ilə birgə hərəkət edən batalyon düşmənin, şiddətli müqavimәti ilə üzləşir. Düşmən tanklarının onların üzərinə gəldiyini görən Mirzə topun lüləsi ilə onları hədəfə alıb, vurmağa başlayır. Bir neçə alman tankı və zirehli bronetransportyoru məhv edirsə də, qarşı tərəf susmaq bilmir. Od püskürən doyüşdə topçu batareyasının qırılıb özünün təkcə qaldığını görən Mirzə yaralı halda döyüşü davam etdirir. Lakin növbəti həmlədə gənc əsgər qəhrəmancasına həlak olur. Mirzə Vəliyev 1945-ci il mart ayının 24-də, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür.



## DADAŞOV MƏHƏRRƏM ƏKBƏR OĞLU (1912-1944)

*Tankla Qafqazdan Çexoslovakiyayadək*

Məhərrəm Dadaşov 1912-ci il fevral ayının 15-də Salyan rayonunun Beşdəli kəndində anadan olub. Müharibə başlayanda o traktorunu tankla dəyişərək, mənfur işğalçılarla döyüşə gedib. Məhərrəm tankı ilə faşistləri Qafqazın ətəklərindən Çexoslovakiyayadək qovub.

Burada, Visluq şəhəri yaxınlığına ağır döyüşlər başlayır. Dadaşov döyüşün təhlükəli vəziyyət aldığını görüb, güclü maşınını ildırım sürətilə düşmənin atəş hədəfinin üzərinə yönəldir. Döyüşdən sonra məlum olur ki, o, düşmənin 22 atəş nöqtəsini, onlarla canlı qüvvəsini məhv edib. Cəsur tankçının özü də bu döyüşdə ağır yaralanır. Qələbəyə az qalmış Məhərrəm Dadaşov hərbi hospitalda vəfat edib. Ölümündən sonra, 1945-ci ilin mart ayının 24-də ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Azərbaycanda Salyan şəhərində qəhrəmanın büstü ucaldılıb. Rayonun Kürqaraqaşlı kəndindəki orta məktəb onun adını daşıyır.





Sizin qəhrəmanlığınız ölməzdir!



## MƏMMƏDOV XƏLİL MƏMMƏD OĞLU (1916-1989)

*Şuşalı qəhrəman, qəfil hamlələr və gecə hücumlarının əfsanəvi qəhrəmanı, daxili işlər naziri*

1916-cı il may ayının 5-də Şuşada anadan olub. Döyüş yoluna sıravi tank sürücü-mexaniki kimi başlayan Şuşalı balası müharibəni mayor rütbəsində, tank batalyonunun komandiri olaraq başa vurdu. Onun sinəsini iki "Qırmızı Ulduz", "Aleksandr Nevski", "Qırmızı Bayraq", "Lenin" ordenləri və Sovet İttifaqı Qəhrəmanının Qızıl Ulduzu bəzədi.

Rumıniyada Merqure şəhəri ətrafındakı döyüşlərdə Xəlil Məmmədova tapşırıq verilir ki, geri çəkilən düşmənin yolunu kəsmək məqsədi ilə beş tankla son dərəcə yüksək sürətlə şəhərin bu başından girib, o başından çıxaraq, oradakı körpünü partlatsın.

Xəlil əməliyyatın lap ilk anlarından yaralanmasına baxmayaraq, verilən tapşırığı böyük hünərlə yerinə yetirir. Onun başçılıq etdiyi tank batalyonu Macarıstan, Avstriya, Almaniya torpaqlarındakı döyüşlərdə əsl rəşadət, qəhrəmanlıq nümayiş etdirdi.

1945-ci il mart ayının 24-də Xəlil Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Hərbi Dəniz Donanmasının gəmilərindən biri Xəlil Məmmədovun adını daşıyır. Şərəfinə Aşqabad şəhərinin küçələrindən birinə də onun adı verilib.

Müharibədən sonra Xəlil Məmmədov müxtəlif partiya və dövlət vəzifələrində çalışıb. Daxili işlər naziri, Azərbaycan SSR İdman və Bədən Tərbiyəsi Dövlət Komitəsinin sədri olub.



## MİRZƏYEV BAHƏDDİN ŞAHVƏLƏD OĞLU (1914-1987)

İsmayıllı rayonunun Sulut kəndində anadan olub. Müharibəyə ixtisaslı, təcrübəli zabit kimi çağırılan Bahəddinin komandirlik etdiyi topçu batareyası, faşist tankları üçün əsl qənimə çevrilmişdi. Batalyon Visla, Oder, Şpree çayları ətrafındakı döyüşlərdə saysız şücaət göstərdi.

O, doğma Azərbaycanımıza xas hünər və cəsarəti, dözüm və mətanəti ilə bu torpağın adını yüksəldir.

Bir dəfə 30 alman tankından açılan sürəkli atəş yağmur kimi onların bölməsinin üzərinə yağdı. Mövqedə ölənlər və yaralananlar vardı. Döyüşçülərin salamat qalan az bir hissəsi, o cümlədən düşmənin qarşısını mətanətlə almağa çalışan Bahəddin Mirzəyev özünəməxsus şücaət göstərdi.

Kyustrin ətrafındakı döyüşlərin birində Bahəddinin batareyası hitlerçilərin yeddi tankını və yetmiş canlı qüvvəsini məhv etdi. Göstərdiyi şücaətə görə B.Mirzəyev 1945-ci il mart ayının 24-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Müharibədən sonra da B.Mirzəyev uzun illər Azərbaycan SSR Rabitə Nazirliyinin hərbiləşdirilmiş mühafizə şöbəsinin rəisi vəzifəsində çalışdı.

## Sizin qəhrəmanlığınız ölməzdir!



# CƏBİYEV MİRZƏ AĞAMURAD OĞLU
## (1925-1978)

### *Cəbhə qəhrəmanlığından sovxoz direktorluğuna qədər*

Azərbaycanın Astara rayonunun Xamoşam kəndində anadan olub. 1943-cü ildə cəbhəyə könüllü yollanıb. Tez bir zamanda özünü mərd və cəsur bir döyüşçü kimi tanıdıb.

1945-ci il aprel ayının əvvəllərində alman qoşunlarının Königsberq qrupunun darmadağın edilməsində 20 yaşlı Mirzə Cəbiyevə 5 nömrəli fortu ələ keçirmək tapşırılır. Bir sutkadan artıq şiddətli döyüş gedir. İkinci gün axşama doğru Mirzə Cəbiyev nəhayət ki, fortun əsas qülləsində al bayrağı ucalda bilir.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 aprel 1945-ci il tarixli fərmanı ilə Mirzə Cəbiyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Müharibədən sonra o, doğma kəndinə dönüb təsərrüfatda çalışır, sovxoz direktoru olur. Astarada Sovet İttifaqı Qəhrəmanı M.Cəbiyevin büstü qoyulub.

1973-cü ilin oktyabr ayında isə Kalininqradda, həmin 5 nömrəli fort uğrunda gedən döyüşün ərazisində memorial lövhə açıldı.



# BAYRAMOV İSMAYIL XƏLİL OĞLU
## (1900-1945)

Stavropol diyarının Dolinovka kəndində anadan olub. O, Böyük Vətən müharibəsinin başa çatmasına üç ay qalmış öz qəhrəmanlığı ilə adını əbədiləşdirdi.

Şiddətli döyüşlərdən sonra bizim qoşunlar Şərqi Prussiyada strateji əhəmiyyət kəsb edən dəmiryol qovşağını ələ keçirmişdilər. Almanlar bu qovşağı nəyin bahasına olursa-olsun, geri qaytarmağa çalışırdılar. İ.Bayramovun çox da böyük olmayan dəstəsi ara vermədən davam edən hücumlarla üzüzəydi. Artıq əlbəyaxa döyüş gedirdi. Onsuz da sayca çox olan sərxoş düşmən getdikcə quduzlaşırdı. İ.Bayramovun dəstəsindən isə bir neçə nəfər salamat qalmışdı.

Starşina iki yerdən yaralanmışdı. Faşistlərin mühasirəsindəydi. Beləliklə o, tank əleyhinə qumbara ilə düşməni də, özünü də partladır.

İsmayıl Bayramova 1945-ci ilin aprel ayının 10-da Sovet İttifaqı Qəhrəmanı adı verildi. Doğma kəndində qəhrəmanın büstü qoyulub, kənddəki küçələrdən biri də İsmayıl Bayramovun adını daşıyır.





## Sizin qəhrəmanlığınız ölməzdir!



# MƏMMƏDOV MƏMMƏD CƏBRAYIL OĞLU
## (1920-1945)

Qax rayonunun Qaşqaçay kəndində kəndli ailəsində anadan olub.

Serjant Məmməd Məmmədov 1945-ci il yanvar ayının 25-də döyüşçülərimizin düşməni təzəcə qovub çıxardığı binalardan birinə, çətinliklə də olsa, girə bilir. İçəridə yaralı döyüşçülərimiz çox idi. Cəsur sanitar öz həyatı bahasına olsa belə, onları tibbi yardımsız qoya bilməzdi. Binanın dövrəsində gedən döyüşsə şiddətlənir, mühasirə get-gedə daralırdı.

Faşistlərin həmlələrini dəf etməyə artıq, demək olar ki, heç kəs qalmamışdı. Belə bir vaxtda Məmməd əyilə-əyilə bir pəncərədən o biri pəncərəyə qaçır, yaralıların ona ötürdüyü avtomatlarla faşistləri güllə yağışına tuturdu.

Bu döyüşdə Məmməd 40 faşisti məhv eldi, çox sayda əsgərimizin həyatını qurtardı. Gərəkli bir məntəqənin qorunub saxlanmasına kömək göstərdi. Özü isə qəhrəmancasına həlak oldu.

Qax rayonunun yetirməsi Məmməd Məmmədova ölümündən sonra, 1945-ci il aprel ayının 10-da Sovet İttifaqı Qəhrəmanı adı verildi. Qax şəhərindəki küçələrdən biri hazırda onun adını daşıyır.



# BALANDİN VLADİMİR ALEKSANDROVİÇ
## (1923-1944)

Bakının Suraxanı qəsəbəsində doğulub. Volodya çox erkən yaşlarında əmək fəaliyyətinə başlamışdı. Dzerjinski adına zavodda gələndə onun cəmi 16 yaşı vardı. Buna baxmayaraq, tez bir zamanda əmək qabaqcılı, zərbəçi kimi tanındı.

Bir çox yaşıdları kimi onu da mavi səma, aviasiya özünə çəkirdi. Odur ki, həvəslə tornaçılığı aeroklubdakı məşğələlərlə bir araya sığışdırırdı.

Müharibə başlayan kimi onu avia-məktəbə göndərdilər və o, həmin məktəbi vaxtından tez qurtardı. Minsk uğrunda gedən döyüşlərdəsə vurduğu düşmən təyyarələri, necə deyərlər, hesaba gəlməz. İlk döyüşdə iki "Yunkers" vurmuşdu. 1943-cü ilin fevral ayında ona qırıcı eskadrilyanı etibar edəndə leytenant Balandinin heç 20 yaşı tamam olmamışdı. 1944-cü ilin sonuna yaxın Vladimirin təyyarəsinin fyüzelajında artıq 16 ulduz vardı. Düz məhv edilmiş faşist quzğunlarının sayı qədər!

Axırıncı döyüşdə də iki alman təyyarəsini yandırdı. Ancaq başı elə qarışmışdı ki, yanacağın nə vaxt qurtardığından Vladimir xəbər belə tutmamışdı.

...Ona 1945-ci il aprel ayının 19-da ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi. Vaxtilə işlədiyi zavodun həyətindəki bağçada V.Balandinin büstü qoyuldu. Mərdəkan qəsəbəsində isə qəhrəmanın adına küçə və məktəb var.

# XƏZƏR NƏQLİYYAT DONANMASI BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ

Xəzər dəniz gəmiçiliyinin yaranmasının kökü çox uzaqlara, əsrlərin dərinliyinə gedib çıxsa da, ticarət gəmiçiliyi burada XIX əsrdən inkişaf etməyə başlayıb. Bakıda neft sənayesinin sürətli inkişafı bu sahəyə güclü təkan vermiş oldu.

İlk dəfə 1858-ci ildə Bakıda "Qafqaz və Merkuri" adlı gəmiçilik şirkəti yaradıldı. Xəzər dəniz gəmiçiliyinin başlanğıcı da məhz bu tarixdən sayılır.

Zaman keçdikcə Bakı iri dəniz nəqliyyatı mərkəzlərindən birinə çevrilirdi. Təkcə onu demək kifayətdir ki, neft və neft məhsullarının daşınma həcmi artdıqca yeni su nəqliyyatı vasitələrinə də tələbat çoxalırdı.

1873-cü ildə, dünyada ilk dəfə olaraq Xəzərdə neftdaşıyan barj - "Aleksandr" istismara verildi. Elə bu dövrdə də dünyada ilk dəmir tanker "Zoroastr" ("Zərdüşt") Bakıya gətirildi. "Vandal" adlı daxiliyanma mühərrikli ilk teploxod 1903-cü ildə, az sonra isə (yenə də dünyada ilk dəfə) iki reversiv mühərriklə idarə olunan "Delo" gəmisi yükdaşıma işlərinə cəlb edildi.

Bütün bu faktlar sübuta yetirir ki, bu gün Azərbaycan-tanker donanmasının istismarı ilə məşğul olan ilk ölkələrdən biridir.

Donanmanın genişlənməsi və dənizdə yükdaşıma həcminin artması liman təsərrüfatının yaxşılaşdırılmasını, gəmi təmiri bazasının yaradılmasını tələb edirdi. Beləliklə, Xəzər sahillərində, Bakıda, Petrovskidə (indiki Mahaçqala), Krasnovodskda (indiki Türkmənbaşı) iri limanlar yaradılırdı. Bundan başqa, Bakıda ayrı-ayrı gəmi təmiri emalatxanaları fəaliyyətə başlayırdı. 1889-cu ildə Paris Kommunası Gəmi Təmiri Zavodunun bünövrəsi qoyuldu. 1893-cü ildə Zaqfederasiya adına zavod, sonra da keçmiş Vansturua adına (1931-ci ildə) və indiki İ.Allahverdiyev adına zavod (1942-ci il) fəaliyyətə başladı.

*Neftlə dolu çənin Xəzər dənizi ilə daşınması*







Böyük Vətən müharibəsi illəri Xəzər gəmiçiliyi tarixində xüsusi bir mərhələni təşkil edir. Bu dövrdə Xəzər gəmiçiliyinin, donanmanın, limanların, zavodların iş rejimi kəskin şəkildə dəyişmiş oldu.

Müharibəyə qədər Xəzərdə Dəniz Donanması Xalq Komissarlığının üç gəmiçiliyi fəaliyyət göstərirdi. "Xəzərdonanması" (87 min ton ümumi yükqaldırma qabiliyyətinə malik 82 gəmi), "Xəzərtanker" (205 min ton yükgötürmə qabiliyyətinə malik 69 gəmi və hərəsinin 9500 ton yükqaldırma gücü olan 11 iritonnajlı tanker), "Reydtanker" (240 min ton ümumi yükqaldırma qabiliyyətinə malik 122 gəmi) müharibə illərində öz işlərini ölkənin müdafiə ehtiyaclarına uyğun şəkildə yenidən qurdular.

Xəzər gəmiçiliyi yük dövriyyəsinə görə SSRİ-də birinci yeri tuturdu. SSRİ-nin bütün dənizləri ilə daşınan yüklərin 1/3-i Xəzər dənizinin payına düşürdü. Bu, hər şeydən öncə, mədənlərin, neftayırma zavodlarının və pambıq bazalarının dənizə yaxınlığı ilə izah olunurdu. Qafqaza və Orta Asiya bölgələrinə daşınan taxılın, meşə-taxta məmulatlarının Ural və Volqa çayları vasitəsi ilə Xəzərə çatdırılması da yük dövriyyəsinin yüksək səviyyəsini şərtləndirirdi.

Xəzər dənizinin rolunu və əhəmiyyətini müəyyənləşdirən başlıca yüklər neft və neft məhsulları idi ki, bu da əsasən Bakıdan Həştərxana, oradan da Volqaboyunca yuxarıya, SSRİ-nin müxtəlif rayonlarına daşınırdı. Nəqliyyat dəhlizinin Azərbaycan bölməsi, xüsusən də dəmir yolu və su yollarının qovşağında yerləşən Bakı-Biləcəri qovşağı Zaqafqaziya Dəmir yolunun çox vacib hissəsi idi.

Bakı limanı yük emalının yüksək intensivliyinə, eləcə də tutumlu buraxılış qabiliyyətinə görə fərqlənirdi.

Artıq 1941-ci ilin iyulundan Bakı limanı vasitəsi ilə ölkənin qərb rayonlarından köçürülən insanların, zavod və fabrik avadanlıqlarının, taxılın və başqa yüklərin Orta Asiyaya, Qazaxıstana göndərilməsinə başlandı.

ÜİK(b)P MK Siyasi Bürosu üzvlüyünə namizəd, Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şurasinin katibi M.N.Şvernik Sovet sənayesini ölkənin Şərq rayonlarına köçürmə Şurasına rəhbərlik edirdi.

1941-ci il oktyabr ayının ortala-



rında Bakı və Mahaçqala limanlarına sənaye avadanlıqlarının ardıcıl şəkildə gətirilməsinə başlandı. Daşınma həcminin miqyasının gündən-günə artması haqda müəyyən təsəvvürləri aşağıdakı faktlar təzələyə bilər.

Bakı limanına ilk qəbul olunan yüklər arasında Xarkov Motosikl Zavodunun Novoçerkassk dəzgahqayırma, Rostov Parovoz Təmiri zavodlarının və başqa müəssisələrin avadanlıqları vardı. Dövlət Müdafiə Komitəsinin qərarı ilə Bakı limanı sutkada ən azı 100 yüklü vaqon qəbul etməliydi.

Bakı limanından sənaye yüklərinin yola salınması da təşkil edilmişdi. 1941-ci ilin dekabr ayında tapşırıq verildi ki, "Rosselmaş" zavodundan 24.500 ton həcmindəki avadanlıq Bakıdan Krasnovodska daşınmalıdır.

Volqaboyunca isə neft və neft məhsulları göndərilirdi. Orta Asiya respublikalarından Xəzərin qərb limanlarına qoşun birləşmələri, hərbi texnika və döyüş sursatı gətirilirdi.

Bakıya təxliyə olunan yüklərin və insanların qəbulu, həm də yola salınma işlərini nizamlamaq məqsədi ilə Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK-nın 1941-ci il 5 noyabr tarixli birgə qərarı ilə XKS-nin və MK-nın evakuasiya üzrə müvəkkili təsdiq olundu.

Müvəkkilin və ona tabe olan aparatın qarşısına yüklərin və insanların Bakı limanı vasitəsi ilə tez bir zamanda Krasnovodsk limanına çatdırılmasını təşkil etmək, dəniz nəqliyyatı işçilərinə bu sahədə hərtərəfli köməklik göstərmək kimi vəzifələr qoyulmuşdu. Müvəkkilin verdiyi bütün göstərişlər təşkilatlar tərəfindən danışıqsız yerinə yetirilməliydi.

Limanda yükləmə və boşaltma işləri gecə-gündüz dayanmadan aparılırdı. İşləri sürətləndirmək məqsədi ilə Bakıya yaxın rayonlardan 250 nəfər fəhlə də səfərbər edilmişdi. Evakuasiya edilmiş yüklərin, xüsusən də taxılın üstünü örtmək üçün Respublikanın və Bakının müxtəlif təşkilatlarından brezentlər toplandı.

Həmin yüklərin bir çoxunun sənədsiz gəlməsi də işi xeyli çətinləşdirirdi. Azərbaycan XKS və Azərbaycan K(b)P MK limanın işini yüngülləşdirmək məqsədi ilə 1941-ci il noyabr ayının 5-də göstəriş verdi ki, qəbul olunan yüklər silah-sursat hazırlanmasında istifadə üçün Bakının və respublikanın müəssisələrinə verilsin. Bu qərara əsasən, Respublikaya qəbul olunan yüklərdən, mexanizmdən, nəqliyyat vasitələrindən (kranlar, qoşqular, avtomaşınlar, traktorlar, transformatorlar və s.), eləcə də təxliyə yüklərini müşayiət edən fəhlələrdən istifadə etmək hüququ verilirdi.

Lakin bütün bu tədbirlər Bakı limanını yüngülləşdirmək üçün kifayət etmədi.

Vəziyyətdən çıxmaq üçün qərar verildi ki, fasiləsiz gələn yüklərin qəbulu və saxlanılması üçün Bakının ucqarlarında - Keşlədə, Sumqayıtda, Ələtdə, Salyanda, Binəqədidə, Putada, Qaraçalada, Korgözdə ümumi tutumu 22 min vaqon olan bir neçə meydança qurulsun.

Bakı limanı 1941-ci ilin noyabrında dəmir yolundan 1922 vaqon, dekabrda isə 2989 vaqon qəbul edə bildi.

Lazımi işçi qüvvəsi, yük mexanizmləri çatışmasa da, hər halda liman öhdəsinə düşən çox işləri görməyi bacardı.

Gəmiçilik idarəsi Bakı limanını boş tonnajla təmin etmirdi (məsələn, plana görə liman dekabrda 24.970 ton əvəzinə, cəmisi 9.349 ton almışdı). Bundan başqa, gəmilər boşaltma zamanı limanlarda qədərincə ləngiyirdi.

Dövlət Müdafiə Komitəsinin sənaye avadanlıqları, qoşun birləşmələri, sərnişin və yüklərin təxliyəsi ilə bağlı qərarının yerinə yetirilməsi Xəzər hövzəsinin bütün dəniz nəqliyyatı işçilərindən qüvvələrini daha da cəmləşdirməyi, səyləri artırmağı, mövcud imkanların səfərbər olunmasını tələb edirdi.

Bəzən planda nəzərdə tutulmayan on minlərlə sərnişinin, yüz min tonlarla müxtəlif yüklərin ən qısa müddət ərzində daşınması vacib idi. DMK-nın tapşırığı-







*Alman təyyarələrinin "Ağamalıoğlu" tankerinə hücumu*



*Nefi dolu sisternlərin Xəzər dənizi ilə daşınması*

na əməl olunaraq gəmilərin müəyyən hissəsi Hərbi Dəniz Donanmasının sərəncamına verilmişdi.

1941-ci ilin avqustunda bir neçə iri nəqliyyat gəmisi mövcud müqaviləyə əsasən İrana yeridilən Sovet qoşunlarının daşınmasında iştirak edirdi.

Bu səbəbdən dənizçilər öhdələrinə düşən planı yerinə yetirmək üçün əllərindən gələni edirdilər: gəmilərin təmiri, yükləmə və boşaltma müddətlərini qısaldır, gəmilərə normadan artıq yük vurur, yük yerlərinə adamları mindirir, sərnişinləri göyərtədə aparmağa məcbur olurdular.

Hər bir tanker öz göyərtəsinə 4,5-5 min nəfər götürür, onları Xəzərin Şərq sahilinə keçirirdilər. Müharibənin təkcə ilk altı ayı ərzində bu yolla 100 min nəfərdən artıq insan daşınmışdı. SSRİ XKS yanındakı köçürülmə üzrə Şuranın qərarına əsasən, zəhmətkeşlər öz müəssisələri ilə birlikdə Orta Asiyaya evakuasiya edilirdi. Çağırışçı komandaları hərbi təlim keçməkdən ötrü də Xəzərin o tayına aparılırdı. Elmi idarələrin, təhsil müəssisələrinin əməkdaşları, tələbələr də köçürülürdü. Bunlarla bərabər, əksəriyyəti qadın, uşaq və qocalardan ibarət qaçqın-köçkün axını da Şərqə üz tuturdu.

Neft yüklənmiş gəmilərlə əsas yükdən, yəni neft məhsullarından başqa, təkcə sərnişinlər deyil hətta süvari dəstələri də daşınırdı. O dövrdə "Xəzərtanker"in rəisi olmuş M.D.Rəhimov öz xatirələrində yazır:

- "Gəmilər heç bir işıq yandırmadan üzürdülər. Nə limanlarda, nə də reydlərdə işıq görməzdin. Dənizçilər yalnız öz təcrübə və fəhmlərinə güvənib, dənizə çıxırdılar. İnsanlar iki sutka sərasər dincəlmədən növbə çəkirdi. Əldən düşmüş insanların yorğun çöhrələri, baxışları məni heyrətə gətirirdi. Bəzən özüm-özümdən soruşurdum:

- Görəsən, onlardakı o yenilməz güc, dözüm, mətanət hardandır?!"

Gəmi heyəti ən xırda imkanlarından belə istifadə edib, dəridən-qabıqdan çıxırdılar ki, göyərtəyə, anbarlara daha çox insan yerləşdirə bilsinlər, sahildə insanları ümidsiz buraxmasınlar. Bütün cəhdlərə baxmayaraq, gəmilər çatışmırdı. İnsanların təxliyəsi üçün bütün motorsuz gəmilərdən, hətta ge-



*Alman bombardmançılarının hücumundan sonra "Ağamalıoğlu" tankerində yangın baş verdi*





niş, göyərtəsi 2000 nəfərə yaxın adam tutan yedəkçi taxta şalbanlardan belə istifadə olunurdu. İnsanları neft tankerlərlərində belə daşıyırdılar. Tankerlər qarışıq yüklər aparırdı. Anbarlar neft və neft məhsulları ilə ağzınacan doluydu, göyərtədə isə insan kütləsindən tərpənmək olmurdu.

Adamların tankerlə daşınması olduqca mürəkkəb, çətin bir iş idi. Gəmi heyətləri əvvəllər heç görmədikləri, ağıllarına belə gəlməyən saysız-hesabsız çətinlikləri dəf etməli olurdu. Yaralıların təxliyəsi xüsusilə çətinlik törədirdi.

Eyni zamanda, Xəzərlə hərbi ləvazimatlar, texnika da daşınırdı. 1942-ci il avqustun axırında Bakı limanına xeyli sayda tank gətirildi. Həmin tankları döyüş maşınları üzrə istehsalat qabaqcılı - briqadir A.Məcidovun başçılıq etdiyi ən yaxşı briqada boşaltdı. Onlara üzən kranın kranmeyestri V.İlkoviç kömək edirdi. Boşaltma prosesini tezləşdirmək məqsədilə maşınların çənləri əlavə yanacaqla doldurulmuşdu.

Belə ki, kranla yerə qoyulan tank o andaca özü limanı tərk edirdi. Bunun sayəsində boşaldılmanın sürəti dörd dəfədən də çox artdı. Bu təcrübə gələcəkdə də işə yarayacaqdı.

Dənizlə Krasnovodskdan gətirilən çoxlu sayda tankın qəbul tapşırığını alan Bakı limanının o vaxtkı rəisi Y.V.Savinov sonralar xatırlayırdı:

- "Göstərilən qonaqpərvərliyə və tankların boşaldılma işinin yaxşı təşkilinə görə tankçılar bizim işçilərə öz dərin təşəkkürlərini bildirib limanı tərk etdilər. Bir neçə gündən sonra Sovet Məlumat Bürosu xəbər verdi ki, ordumuz Orconikidze uğrunda gedən döyüşlərdə alman-faşist işğalçılarına çox güclü zərbə endirib. Bu xəbəri böyük sevinclə dinlədik.

Həmin döyüşlərdə bizim də payımız vardı, bir-iki tankçı dostlarımız da orada iştirak etmişdi. Faşistlərin Qafqazdan qovulmasının başlanğıcı olan bu zərbədə bizim əməyimizin həlledici rol oynadığını hiss etmək çox xoş idi".

Tankerlərin yanacağı boşaldandan sonra döyüş texnikasını daşıması çox çətin, "ölüm-dirim" işi idi. Yanacaqla doldurulmuş tankerlərdə hərbi yüklərin neft məhsulları ilə qonşuluğu, üstəlik gəmilərə yüklənmiş tanklara da yanacağın doldurulması açıqca təhlükə mənbəyi, odla oynamaq idi. Xəzər dənizçiləri məhz belə böyük bir risqi, məsuliyyəti gözə alaraq verilən tapşırıqları yerinə yetirirdilər.

Hərbi hissə və birləşmələrin Xəzər dənizi vasitəsi ilə təcili daşınması 1941-ci ilin iyul ayından həyata keçirilməyə başladı. Cəbhəyə yollanacaq tank diviziyası Krasnovodskdan dəniz yolu ilə Bakıya çatdırıldı. Daşınmanın təhlükəsizliyi tankları aparan nəqliyyat vasitələrinin keçdiyi yolda 7 gün ərzində dənizdə fasiləsiz keşik çəkən kanoner qayıqlarının sayıqlığı ilə təmin olunurdu.

Donanma hərbi və xalq təsərrüfatı yüklərinin dənizlə daşınmasına təminatçı idi. Sovet qoşunları məhz Xəzər donanmasının gəmilərində 1941-ci ilin avqust ayında İrana çıxarıldı. Donanma oktyabr ayındasa könüllülərdən ibarət dəniz piyada batalyonu yaradıb cəbhəyə göndərdi. Xəzər Hərbi Dəniz Donanmasının şəxsi heyətindən təşkil edilmiş, sonralar "3-cü qvardiya dəniz atıcı briqadası" adlanan 75-ci ələhiddə dəniz atıcı briqadası Moskva uğrundakı döyüşlərdə iştirak etdi. 1942-ci ilin avqustunda isə Xəzər Hərbi Dəniz Donanması döyüşməkdə olan Hərbi Dəniz Donanmasının tərkibinə qatıldı. O vaxta qədərsə onun döyüş heyəti-kanoner qayıqları, 11 gözətçi, 6 ədəd zirehli kater, 5 böyük və 5 kiçik ovçu kateri, 3 üzən zenit batareyası, mina düzən gəmilərlə, mina zərərsizləşdirən 6 tral gəmisi və katerləri ilə möhkəmləndirildi.

Donanmanın gəmiləri neft və başqa yükləri daşıyan tankerləri müşayiət edir, öz zonasında hava hücumundan müdafiə tapşırıqlarını yerinə yetirir, sualtı minaları zərərsizləşdirmə əməliyyatlarını həyata keçirir və la-

***Yüklərin Zaqafqaziya Dəmir yolu şöbələri üzrə bölünməsi (1942-ci ilin sentyabrında aparılmış siyahıyaalmanın məlumatına əsasən ümumi nəticənin %-ilə)***











***Yüklərin mənsubluğu və növləri (Müdafiə Xalq Komissarlığı)***






zım gələndə desant çıxarmağa belə köməklik göstərirdi.

Donanma Zaqafqaziya Cəbhəsi qoşunları Şimal qrupunun əks hücumlarında mühüm rol oynamış 2 atıcı və savaşçı korpusunu Xəzərin qərb sahillərinə çıxardı. Bundan başqa, Qafqazın müdafiəsi dövründə donanma 11 atıcı briqada, 5 atıcı alayı, 1000-dən çox tank və zirehli maşın, 18,5 min at, 8 mindən çox top, 4 min avtomobil və 200 təyyarə daşımışdır.

Cəbhədəki şəraitin dəyişməsi ilə əlaqədar olaraq dəniz daşımalarının xarakteri də dəyişmiş olurdu. Cəbhəyə daha çox neft və neft məhsulları çatdırmağa çalışan "Xəzərtanker"in dənizçiləri müxtəlif vasitələrlə gəmilərin yükgötürmə qabiliyyətini artırmağa çalışırdılar. Məsələn, "Ağamalıoğlu" tankeri hər səfərdə normadan artıq, 700 tona qədər yanacaq götürürdü. 5 reys ərzində gəmi plandan əlavə, 3378 ton neft məhsulları daşımışdı.

Bir çox tanker heyətləri özü getməyən gəmilərin ikiqat, üçqat yedəyə alınmasını gerçəkləşdirdi. Dənizlə daşınan neftin ümumi miqdarının 90 faizindən çoxu Bakı limanından yola salınırdı. Bakı-Həştərxan marşrutu SSRİ baş neft konveyerinin birinci sahəsi idi. Həştərxan reydi, Mahaçqala, Krasnovodsk, Quryev limanları neft məhsullarının boşaltma məntəqələriydi. Müharibə illəri ərzində Xəzər dənizçiləri cəbhəyə 50 milyon ton neft və neft məhsulları, o cümlədən B-74, B-76, B-70 aviabenzinləri, liqroin, solyar, kerosin, dizel yanacağı, avtol, motor nefti, mazut daşıdılar. Bu daşımalar 1942-ci il ərzində 1.593.174 tona çatmışdı.

Alman-faşist işğalçılarının "ildırım sürətli" müharibə planı iflasa uğrayandan sonra, 1942-ci ilin yayında onlar əsas diqqəti Qafqaza yönəltdilər. Məqsədləri Donbası almaq, Dona, Kubana yiyələnmək, buradan Qafqaz istiqamətində hücumu genişləndirmək və ən mühüm neft rayonlarını, eləcə də Qafqazdan keçən yolları tutmaq idi.



*Xəzər dənizi ilə döyüşçülərin daşınması*







*Xəzər dənizi ilə döyüşçülərin daşınması*

Həm də hitlerçilərin fikir və niyyətlərində Volqa çayının ələ keçirilməsinə böyük əhəmiyyət verilirdi. Axı, bu çay Xəzərlə birləşən əsas su magistralı, ən başlıca yol idi. Onunla SSRİ-nin ən başlıca neft mərkəzinə - Bakıya birbaşa çıxmaq olardı. Bakı zəhmətkeşləri alman işğalçılarını dəf etməyə var qüvvələri ilə hazır idilər. 1941-ci ilin payızında SSRİ-nin bu vacib neft mərkəzinin ətrafında müdafiə qurğularının tikintisinə başlandı. Bu işlərdə limanın və gəmi təmiri zavodlarının fəhlələri də böyük ruh yüksəkliyi ilə iştirak edirdilər.

Şimali Qafqaz və Volqa uğrunda gedən döyüşlər zamanı cəbhə Xəzərə bir qədər də yaxınlaşdı. Xəzər dənizçiləri düşmən bombardmanları altında işləməli olurdu. Faşist aviasiyası Həştərxan reydində daha qəzəbli idi. Necə deyərlər, qudurub özündən çıxmışdı. Yanacağı birbaşa, bombardman altında boşaldırdılar. Düşmən aviasiyasının hücumları və bədbəxt hadisələr nəticəsində 1942-1944-cü illər ərzində Xəzər ticarət donanması 32 nəqliyyat gəmisini itirdi. 100 nəfərə yaxın dənizçi isə döyüş meydanında həlak oldu. 1942-ci ilin oktyabrında Qafqaz uğrundakı döyüşlər daha da şiddətləndi. Düşmən nəyin bahasına olursa-olsun, Orconikidze şəhərini, hərbi Gürcüstan yolunu tutmaq, bununla da Sovet qoşunlarını parçalamaq, sonra Qroznı, Tiflis və ən başlıcası isə Bakı üzərinə hücumu genişləndirməyə çalışırdı.

Faşistlər verdikləri böyük itkilərə məhəl qoymadan inadla Qafqazın ətəklərinə doğru can atırdılar. Ancaq hitlerçilər bu yolda heç gözləmədikləri maneə ilə üz-üzə gəldilər.

Mayramadağ kəndi yaxınlığında onları dəniz piyadalarının Bakıda təşkil edilmiş 34-cü ələhiddə atıcı briqadası qarşıladı. Xəzərlilər 19 gün ərzində faşistlərin aramsız hücumlarının qarşısına sipər çəkdi. Onların çoxu döyüş meydanında qəhrəmancasına öz canlarından keçdi. Düşmən isə xəzərlilərin mətin sıralarını yarıb keçə bilmədi. Hitlerçilər döyüş meydanında beş min nəfərə yaxın əsgər və zabitini itirdi. Hələ üstəlik dənizçi döyüşçülərimiz düşmənin 200-ə yaxın tankını, çoxlu topunu və b. hərbi texnikasını məhv etdi. Xəzərin

nəqliyyatçı dənizçiləri tərəfindən düşmənin onlarla təyyarəsi vuruldu. Düşmən aviasiyasının hücumları nəticəsində nəqliyyat donanması da xeyli itki verdi. O cümlədən, 100 nəfərə qədər Xəzər dənizçisi qəhrəmancasına həlak oldu. Faşist komandanlığı nə qədər cəhd göstərdisə, Volqa ilə gediş-gəlişi kəsə bilmədi. Bu faktın özü 1942-1943-cü illərdə Sovet Ordusunun uğurlarını təmin edən əsas amillərdən biri sayılmalıdır.

Nəqliyyat donanmasının təxliyə uğurları həm də Həştərxan dəniz reydini, eləcə də Volqa-Xəzər kanalını düşmən həmlələrindən qoruyan Xəzər Dəniz Donanması dənizçilərinin fədakarlığı sayəsində qazanıldı.

SSRİ Hərbi Dəniz Donanması Xalq Komissarının 1942-ci il 8 avqust tarixli qərarı ilə Xəzər Donanması "Döyüşən donanma" elan edildi. O vaxt Zaqafqaziyanı bütün ölkə ilə birləşdirən quru kommunikasiya xətləri artıq kəsilmişdi.

Hərbi hissələrin, döyüş texnikasının, müxtəlif təchizatın, eləcə də Bakı rayonundan neft və neft məhsullarının daşınması yalnız dəniz vasitəsi ilə həyata keçirilirdi.

Baş dəniz qərargahının direktivini əsas tutan Hərbi Dəniz Donanması Həştərxan reydini düşmən aviasiyasının zərbələrindən qorumaq üçün lazımı tədbirlər gördü. Xəzərin şimal hissəsində iri tankerlər, neft karvanları kanoner qayıqları zenit qurğuları mühafizə gəmiləri və dəniz ovçuları tərəfindən qorunurdu.

Bundan başqa, Qərargahın göstərişi ilə Bakı, Mahaçqala limanlarının havadan mühafizəsini gücləndirmək məqsədi ilə Həştərxan rayonuna təcili surətdə hərbi birləşmələr, zenit topları ayrıldı. Xəzər Donanmasının bir çox dənizçiləri Qafqaz uğrundakı döyüşlərdə şücaət göstərdilər. Kəşfiyyatçı Qafur Məmmədovun qəhrəmanlığı xüsusi ilə fərqləndi. 1942-ci il oktyabr ayının 13-də, döyüşün ən qızğın çağında Qafur sinəsini düşmən gülləsinə sipər edib öz komandirini ölümdən xilas etdi. Bu igidliyinə görə o, ölümündən sonra, Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Stalinqrad uğrunda qızğın döyüşlərin getdiyi bir vaxtda Xəzərin kommunikasiya xətləri ilə 434.472 nəfər hərbi və mülki şəxs, 96 təyyarə, 791 tank, 346 zirehli maşın, 222 traktor, 173.730 baş at, 213,257 ton döyüş sursatı və müxtəlif yüklər daşındı. Bu da alman faşist qoşunlarının qabağına sədd çəkməklə yanaşı, Zaqafqaziya cəbhəsi Şimal qrupunun hücumunda çox həlledici rol oynadı.







## AZƏRBAYCAN K(B)P BAKI KOMİTƏSİNİN "XƏZƏRTANKER", "XƏZƏRDONANMASI" VƏ "XƏZƏR DƏNİZ YOLLARI"NIN ÜZƏN HEYƏTİNİN KADRLARI İLƏ İŞ HAQQINDA"KI QƏRARINDAN

**13 sentyabr 1945-ci il**

Azərbaycan K(b)P Bakı şəhər İcra Komitəsi nəzərə çatdırır ki, müharibə illərində "Xəzərtanker", "Xəzərdonanma" və "Xəzər dəniz yolları"nda təlim-tərbiyə işi xeyli yaxşılaşmışdır. İstər istehsal-texniki baxımdan, istərsə də siyasi cəhətdən bu illər ərzində Xəzər gəmiçiliyinin üzən heyəti ixtisaslı kadrların, təhsil görmüş yeni nəslin sayəsində ciddi şəkildə təzələnmişdir. Dənizçilik məktəbi, dənizçilik təhsili məktəbi və Dənizdonanması Xalq Komissarlığının Yunqa məktəbi 1944-1945-ci təhsil ilində 357 nəfər ixtisaslı dənizçi kadr hazırlamışdır.

Bütün bunlar cəbhə və ölkənin xalq təsərrüfatı yüklərini daşımaq üzrə dövlət tapşırıqlarının yerinə yetirilməsində ən vacib şərtlərdən biri sayılmalıdır.

**AR PİİSSA, f2, op 102, s.4. l.311**

*Qızıl ordunun aeroxizəyi*



Xəzər dənizçiləri hərbi və xalq təsərrüfatı yüklərinin, o cümlədən, İran vasitəsi ilə İran körfəzindən daxil olan idxalatın daşınması kimi çox çətin və məsuliyyətli bir vəzifənin də öhdəsindən gəlirdilər.

Strateji idxal yüklərinin (kauçuk, hind kəndiri, sizal), eləcə də ərzaq, yun, tank, avtomaşın və başqa bu qəbildən olan yüklərin İran limanlarından Bakıya, Krasnovodska və Mahaçqalaya daşınması əhəmiyyətli dərəcədə artdı. Belə yüklərin həcmi müharibənin birinci mərhələsində 290 min ton təşkil edirdi. Yalnız 1942-ci ilin ikinci yarısında 77.700 ton müxtəlif yüklər, 432 tank, 346 zirehli və adi avtomaşınlar bu sıradandır. 1944-cü ilin 10 ayı ərzində, demək olar ki, 1942 və 1943-cü illər ərzində nə qədər daşınmışdısa, elə o həcmdə də yük öz ünvanına çatdırılırdı.

Xarici daşımaların sürəti SSRİ XKS və ÜİK(b)P MK-nın daimi nəzarətində idi.

Almanlar Murmansk yolu ilə SSRİ-yə üzən müttəfiq gəmiləri batırmağa başlayanda, Bakıya daxil olan yüklərin həcmi birə-beş artdı.

Bakıya gələn yol Afrikanı dolanıb İran körfəzinədək, daha doğrusu, Bəsrə, Xurrəmşəhər, Abadan limanlarından keçirdi. Bu yolla Bakıya 4,2 milyon ton, yəni Sovet İttifaqına gətirilən ümumi yük həcminin 23,8 faizi gəlirdi. Bakının nəqliyyat dəhlizi "lend-liz" yükləri üçün əsl "həyat yolu"na çevrilmişdi.

1944-cü ilin 10 ayı ərzində İran limanlarından cəbhə üçün çox vacib olan yüklərin daha böyük hissəsi daşınmışdı. İdxal yüklərinin daşınmasında səmərəli işinə görə Xəzər gəmiçiliyinin 788 nəfər işçisi SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 23 mart tarixli fərmanı ilə orden və medallarla təltif olundu.

Düşmən inadla Həştərxan reydini, Volqa-Xəzər kanalını və Mahaçqala rayonunun kommunikasiya xətlərini kəsməyə çalışırdı. Ancaq mühafizə və nəqliyyat gəmilərindəki heyətlər mərdliklə hitlerçilərə müqavimət göstərirdi.

Düşmən 1942-ci ilin ikinci yarısında ölkəni Qafqazla birləşdirən quru kommunikasiya xətlərini müvəqqəti olaraq kəsə bildi. Bu barədə qoşunlarımızın təchizatında əsas ağırlıq dəniz donanmasının və Xəzər Hərbi



*Alman bombardımançılarının "Ağamalıoğlu" tankerinə hücumundan sonra hərbiçilərin gəmi heyətinə yardımı*





***Böyük Vətən müharibəsi illərində təkcə Xəzər Ticarət Donanmasının gəmiləri Sovet İttifaqının daxili dəniz yollarıyla 110 milyon nəfərə yaxın sərnişini və 100 milyon tondan çox hərbi, eləcə xalq təsərrüfatı yüklərini daşıdı.***

Donanmasının üzərinə düşürdü. Həm müdafiə dövründə, həm də Şimali Xəzər bölgəsində Qızıl Ordunun hücumları zamanı Xəzər Nəqliyyat Donanmasının dənizçiləri düşmən aviasiyasının zərbələri altında cəbhəyə zəruri olan yanacaq, döyüş sursatı, ərzaq və digər yükləri daşımaqda davam edirdi.

1942-ci il avqust ayının 27-də Həştərxan reydinə çatan "Azərbaycan" tankeri benzini boşaltmağa hazırlaşarkən düşmən təyyarələrinin hücumuna məruz qaldı. Reyd gəmiləri hücumun başlanmasına qədər ona yaxınlaşa bilmədi. Tankerin heyəti zenit toplarından atəş açdı. Düşmən təyyarələrindən cavab olaraq atılan bombalar xoşbəxtlikdən hədəfə düşmədi. Tezliklə barjlar tankerə yan aldı. Bu vaxt düşmən aviahücuma yenidən başladı. Tankersə faşist təyyarələrinə ardıcıl şəkildə atəş aça-aça barjlarla birlikdə manevr edirdi. Düşmənin aviahücumu hər 20-30 dəqiqədən bir təkrarlanırdı. Bu səbəbdən də tankerin heyəti elə tanker yerini dəyişə-dəyişə benzini çəkib barjlara vurmağı qərara aldı. Yanacağın boşaldılması hətta döyüşün gedişində belə dayandırılmadı. Belə manevr döyüş şəraitində görünməmiş bir yenilik idi. Bu əməliyyatda hər saniyə hesabda idi.

"Azərbaycan" tankerinin bu təcrübəsi sonralar digər neft daşıyan gəmilər tərəfindən reydlərdə yanacağın boşaldılması prosesində uğurla tətbiq edildi.

Bu da gəminin normada nəzərdə tutulduğu 5 saat əvəzinə, 2,5 saata boşaldıb reydi tərk etməsinə imkan yaradırdı.

Həmin ərəfədə Bakıdan 10 min ton benzinlə Həştərxan reydinə gəlmiş, hələ yükünü boşaltmamış "Ağamalıoğlu" tankeri düşmən təyyarələrinin şiddətli hücumuna məruz qaldı. Tanker yanacağı ikinci barja boşaltmamış düşmən təyyarələri tankerin başının üstünü aldı. "Ağamalıoğlu" boşaltma əməliyyatını dayandırmağa məcbur oldu. 61 nömrəli gəmini sahilə yaxınlaşdırıb manevr etməyə başladı. Alman təyyarələri bir neçə dəfə tankerə hücum çəkdi. Nəhayət, bombalardan biri tankerin göyərtəsinə düşdü. Partlayış nəticəsində tankerin kapitanı A.B.Rəcəbov yaralandı və kontuziya aldı. Dənizçilərdən də çoxu yaralanmışdı.

Göyərtədə baş vermiş yanğında tankerin zenit qurğusu üçün nəzərdə tutulan ehtiyat mərmilər də partlamağa başladı. Tankerin özünün də partlamaq təhlükəsi vardı. Tezliklə bir neçə gəmi köməyə gəldi. Gəmidəki yanğın hamının köməyilə söndürüldü və Tanker batırılmaqdan xilas olundu. O vaxt reyddəki bütün gəmilər düşmən aviahücumuna məruz qaldılar.

Bombardman zamanı "Profintern" gəmisinin matrosları misilsiz şücaət göstərdilər. Onlar partlayış dalğasının süpürüb dənizə atdığı digər heyət üzvlərini sudan çıxarır, eyni zamanda, yedək barjlarını atəş altından uzaqlaşdırırdılar.

***Xəzərlilər müharibə dövründə cəbhəyə 56 milyon tondan çox neft və neft məhsulları, o cümlədən B-74, B-76, B-70 aviabenzinləri, liqron, solyar, kerosin, dizel yanacağı, avtol, motor nefti, mazut daşıdı. 1942-ci il üçün bu daşımaların həcmi artıq 1.593.174 ton təşkil edirdi.***

1942-1943-cü illər ərzində Xəzər Hərbi Dəniz Donanmasının gəmiləri ilə 22 milyon tona yaxın neft məhsulları, 3 milyon ton isə digər yüklər daşındı. Bu vaxta kimi donanmanın tərkibi xeyli təzələndi. 1943-cü ildə donanmada artıq 175 gəmi vardı.

Xəzər Hərbi Donanması müharibə illərində 250-dən çox kater və müxtəlif gəmilərin qurğusunu başa çatdırıb, komplektləşdirdi. 4 min nəfərə yaxın döyüşçünü hazırlayıb, hərbi birləşmələrin tərkibinə yola saldı.

Xəzər neftdaşıma və quru yükdaşıma donanmalarının bütün gəmilərindəki xilasetmə, yanğınsöndürmə vasitələri və digər avadanlıqlar tam döyüş hazırlığı vəziyyətinə gətirilmişdi.

Onu da qeyd edək ki, 1942-ci ilin naviqasiyası işıq maskası qaydalarına ciddi şəkildə riayət etməklə aparılırdı. Çəpərləmə işıq işarələrinin sayı azaldıldı. Gəmilərin özündə isə yalnız hərəkət işıqlarından istifadə edilirdi ki, bunlar da hələ ki, çox zəif idi. Düşmən aviasiyası hücuma keçəndə həmin işıqlar da söndürülürdü. Qaranlıq düşən kimi divarlarda açılmış işıq oyuqları, illuminator və deliklər işıq keçirməyən pərdələrlə örtülürdü.

Bundan başqa, Xəzər Hərbi Donanmasına hərbi, xüsusən partlamaq ehtimalı olan təhlükəli yüklərin düzgün saxlanması, yüklənməsi, daşınmasına ciddi nəzarət etmək və İran limanlarında losman xidmətinin yerinə yetirilməsi tapşırıldı.

Üç gəmiçiliyin üçünün də rəhbərliyi 1944-cü ili "Cəbhə ili" elan etdi. Azərbaycan SSR XKS-nin və Azərbaycan K(b)P MK-nın göstərişi ilə respublikanın müxtəlif müəssisə və trestləri donanmaya hərtərəfli kömək göstərir, ehtiyat hissələri, xüsusi geyimlər və başqa ləvazimat hazırlayırdılar.

Xəzər Donanması 1944-cü ilin nəticələrinə görə dəniz yolu ilə daşıma həcmini daha da artırmışdı. Əgər müharibə öncəsi 1940-cı ilə nisbətən daşıma həcmi 1942-ci ildə 59,1%, 1943-cü ildə 91,5% idisə, 1944-cü ildə bu göstərici 102,2%-ə qədər yüksəlmişdi.

Bakı limanı müharibə illərində bütün istismar xidmətini köklü surətdə yenidən qurdu. Əslində isə burada yeni iş üsullarına malik təzə bir liman meydana gəldi. Bütün kollektivin səfərbər olması sayəsində Bakı limanı 1943-cü ildən başlayaraq, yükdaşıma planlarını aydan-aya artıqlaması ilə yerinə yetirirdi.

1943-cü ilin oktyabrında limana ÜİHİ MŞ-nin və Dəniz Donanması Xalq Komissarlığının keçici "Qırmızı Bayrağı" verildi.

SSRİ-də bütün limanlar, o cümlədən də Bakı limanı 1944-cü ildə yük emalını daha da genişləndirdi və 1943-cü ilə nisbətən daha səmərəli işlədi.

Hökumətin və hərbi komandanlığın bütün tapşırıqları onların mərdliyi və şücaəti sayəsində vaxtlı-vaxtında yerinə yetirildi. Sovet hökuməti xəzərlilərin əmək uğurlarını yüksək qiymətləndirdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 aprel 1945-ci il fərmanı ilə Xəzər Donanması Qırmızı Bayraq ordeni ilə təltif edildi.

Heç şübhəsiz ki, neft Bakısının coğrafi və iqtisadi mövqeyi Sovet dövlətinin müdafiə qabiliyyətinin möhkəmləndirilməsində daha artıq strateji əhəmiyyətə malik idi və SSRİ-nin Hitler Almaniyası üzərindəki qələbəsində Bakı nefti müstəsna rol oynadı.

Xəzər gəmiçiliyinin bu gün milli kadrlar hazırlanması üzrə qazandığı uğurları da qürur hissi ilə qeyd etmək istərdik. Hələ 1996-cı ildə yaradılmış Azərbaycan Dövlət Dənizçilik Akademiyası bu sahəni yüksəkixtisaslı kadrlarla təmin etməkdədir. Odur ki, Azərbaycan milli donanmasının şərəfli keçmişi, şanlı tarixi ilə yanaşı, həm də parlaq gələcəyi vardır. Xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin nəqliyyat donanmasının inkişaf etdirilməsi üzrə yeritdiyi siyasət bu gün də möhtərəm Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir.

***Elşad Səmədzadə,***
***Lalə Osmanqızı***





## Xəzər dənizi limanları üzrə neft məhsullarının daşınması barədə məlumat (1943-cü il)

| İstiqamət | 1943-cü il | o cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | 1 kvartal | 2 kvartal | 3 kvartal | 4 kvartal |
| 1. Bakıdan daşınan | 13.880 | 2150 | 4000 | 4350 | 3380 |
| o cümlədən | | | | | |
| Həştərxana | 7080 | 100 | 2700 | 2800 | 1480 |
| Quryevə | 600 | - | 150 | 350 | 100 |
| Krasnovodska | 4000 | 1600 | 600 | 600 | 1200 |
| Mahaçqalaya | 2200 | 450 | 550 | 600 | 600 |

Neft məhsullarının daşınma planının müzakirəsi zamanı Paris kommunası və Zaqfederasiya adına zavodların direktorları bildirdilər ki, əməyin ödənilməsində akkord kompensasiyası sisteminin tətbiqi ilə həmin müəssisələrin və gəmilərin təmiri ilə məşğul olan bütün ixtisaslı fəhlələrin iş rejimini kazarma vəziyyətinə keçirilib. Buna görə də təşkilatlarda. Dəniz Donanması Xalq Komissarlığının Bakı şəhərindəki gəmi təmiri zavodlarında işləyən fəhlələrin, eləcə də "Xəzərtanker" idarəsinin, həm də "Başnefttəchizat" İdarəsi Azərbaycan şöbəsi işçilərinin qeyri-işlərə cəlb edilməsi qadağan olundu.

Respublika Ticarət Xalq Komissarlığına, Xəzərtanker İdarəsinə və Xəzər Donanması fəhlə təchizatı şöbəsinə tapşırıldı ki, gəmi təmiri zavodlarının fəhlə, mühəndis və texniki işçiləri, eləcə də neft daşıyan gəmilərdə təmir işlərini həyata keçirən komandalar xüsusi siyahıya alınmış müəssisələr üçün müəyyən edilmiş normalara əsasən, təcili surətdə ərzaq məmulatı ilə təmin olunsun.

Dövlət Müdafiə Komitəsinin 1942-ci il aprel ayının 21-də qəbul etdiyi qərarla "Xəzərtanker" İdarəsinin gəmi heyətləri və neft bazalarının işçiləri üçün müəyyən edilmiş güzəştlər, eləcə də mükafatlandırma sistemi öz gücündə qalmaqda davam edirdi.

Xəzərtanker İdarəsi rəhbərliyinə neftdaşıma donanmasında bərpa işləri ilə məşğul olan gəmi təmiri zavodlarında əməyin ödənilməsinin akkord, Volqa və Xəzər donanması gəmilərinin bərpasında çalışan fəhlə və mühəndis-texniki işçilərinə isə Dövlət Müdafiə Komitəsinin 1942-ci il 16 iyul tarixli, №2050 qərarı ilə qoyulmuş mükafatlandırma sisteminin tətbiqi təklif olundu.

Qərarda Dövlət Müdafiə Komitəsinə ünvanlanmış müraciət də öz əksini tapdı. Həmin müraciətdə 1942-ci ildə Həştərxan reydində batmış "Amerika" şalandasının və "Qulubəyov" yedək gəmisinin dənizin dibindən qaldırılmasının və onların bərpasının həyata keçirilməsinin Dəniz Donanması və Hərbi Dəniz Donanmasının Xalq Komissarlığının 1943-cü il planında nəzərdə tutulması xahiş edilirdi.

Bu xahişin yerinə yetirilməsi məqsədi ilə Xəzərtanker İdarə rəisinə, Paris Kommunası adına zavoda "Qulubəyov" yedək gəmisini qaldırmaq, 200 tonluq panton hazırlamaq tapşırığı verildi.

## Sizin igidliyiniz ölməzdir!



### QASIMBƏYOV HƏMİD HƏBİB OĞLU
### (1923-2005)

Naxçıvan şəhərində anadan olub. Müharibədən əvvəl orta məktəbi bitirərək, Moskva Nəqliyyat İnstitutunun dəmiryol inşaat fakültəsinə daxil olub. Müharibə başlayandan sonra o, institutda oxumaqla yanaşı, Əlvan Metallar Zavodunda dəmirçi işləyib. 1941-ci ilin payızında institut Tiflisə köçürülüb.

1941-ci il dekabr ayının axırında H.Qasımbəyov Xəzər Ali Hərbi Dəniz Məktəbinə qəbul olunub. 1945-ci ildə həmin məktəbi bitirən H.Qasımbəyov Qara dəniz Donanmasına göndərilib. Xidmət yerinə çatan kimi o, ABŞ gəmiqayırma zavodları tərəfindən qurulan yeni gəmilərin qəbulu komandasına daxil edilib. 1945-ci il may ayının əvvəlində isə elə həmin komandanın tərkibində Vladivostok şəhərinə, Sakit Okean Donanmasına ezam edilib.

ABŞ-dan gətirilən gəmilərin qəbulu üzrə komandanlığın tapşırığını yerinə yetirdikdən sonra H.Qasımbəyov tral gəmisində şturman vəzifəsinə təyin edilib.

1945-ci ilin avqust-sentyabr aylarında Yaponiyaya qarşı aparılan hərbi əməliyyatlarda iştirak edib. Cənubi Saxalin və Kuril adalarının himayəsini yerinə yetirən gəmi qrupunun tərkibində Kurilin, Port-Arturun müdafiəsində, Laperuz və Tatar boğazlarının, Oxot və Yapon dənizləri akvatoriyasının minalardan təmizlənməsində fəallıq göstərib.

H.Qasımbəyovun şturman olduğu 604 nömrəli tral gəmisi yapon aviasiyasının aramsız hücumları, güclü top atəşi altında minalardan təmizləmə işlərini davam etdirib. Elə bu səbəbdən H.Qasımbəyov "Qırmızı Bayraq" ordeninə layiq görülüb.

1949-cu ilin yazında baş serjant H.Qasımbəyov desant gəmi və katerlər dəstəsinə komandir təyin olunur. 1963-cü ilin əvvəlindən isə o, Baltiysk hərbi-dəniz bazasındakı desant gəmilərinin 71-ci briqadasına başçılıq edib.

Donanmaya yeni qəbul olunan desant gəmilərini, katerləri, eləcə də "Ceyran", "Skat", "Kalmar" tipli hava yastıqlı gəmiləri də Baltik dənizində ilk dəfə sınaqdan keçirmək məhz H.Qasımbəyova həvalə olunub.

1970-ci ilin iyul ayında H.Qasımbəyov Baltiysk hərbi-dəniz bazası komandirinin müavini - qərargah rəisi təyin edilib, Hərbi Dəniz Donanmasının Baş Komandanının əmrinə əsasən, Baltiysk hərbi dəniz bazasına və qarnizonuna müvəffəqəti olaraq komandirlik etməyə başlayıb.

1971-ci ildə H.Qasımbəyova kontr-admiral hərbi rütbəsi verilib. 1973-cü ilin yanvarında isə o, Baltiysk hərbi-dəniz bazasının komandiri və qarnizon rəisi təyin edilib.

H.H.Qasımbəyova 1976-cı ildən vitse-admiral rütbəsi verilib və o, bir ildən sonra Qırmızı Bayraqlı Xəzər Donanmasının komandanı vəzifəsinə keçirilib.

1984-cü il iyul ayının 9-dan isə SSRİ Müdafiə nazirinin əmri ilə vitse-admiral H.H.Qasımbəyov istefaya göndərilib.





## Sizin igidliyiniz ölməzdir!



### OSİPOV PAVEL DMİTRİYEVİÇ
### (1913-1944)

Pavel Osipov 1913-cü ildə Bakı şəhərində anadan olub. Paris kommunası adına zavodda dəmirçi işləmiş Pavel Osipov Böyük Vətən müharibəsi başlayanda ehtiyatdan Qara Dəniz donanmasına xidmətə çağrıldı və əlahiddə dəniz piyada batalyonuna göndərildi.

Tuapsedə, Krımda, Ukraynada özünü cəsur döyüşçü kimi göstərdi. Sonra Mariupol, Feodosiya, Osipenkonun azad edilməsi uğrunda desant əməliyyatlarında iştirak etdi. O, Nikolayevə qəfil çıxmış 68 igid desantdan, iki gün ərzində sayca onlardan qat-qat güclü olan düşmənlə qəhrəmancasına vuruşan döyüşçülərdən biri kimi insanların qəlbində əbədi yaşayacaqdır. P.Dmitriyeviç elə həmin döyüşdə də həlak oldu. 1945-ci il aprel ayının 20-də desantçıların hər birinə, o cümlədən Pavel Dmitriyeviç Osipova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi və Nikolayev şəhərinin küçələrinə onların adları qoyuldu, "Dənizçi-desantçıların döyüş şöhrəti" Xalq Muzeyi yaradıldı. 68 desantçının adını daşıyan parkda isə onlara abidə ucaldıldı.

Buq limanı sahilindəki Oktyabrsk qəsəbəsində, desantçıların döyüş tapşırığına yollandıqları yerdə, üstü yazılı qranit qaya memorial abidə kimi indi də həmin günlərdən xatirədir.

### MƏMMƏDOV ƏMİ AĞA OĞLU
### (1922-1944)

***Dəniz desantçısı***



Bakıda fəhlə ailəsində anadan olub. Nikolayev desantlarından olan Əmi Məmmədovun da qəhrəmanlığı Böyük Vətən müharibəsi tarixinə qızıl hərflərlə yazılıb.

Bəli, onlar 68 nəfər idi. Qorxubilməz mərd dənizçilər 1944-cü il mart ayının 26-da balıqçı qayıqlarında Cənubi Buq çayı ilə üzüyuxarı üzməyə başladılar. 22 yaşlı bakılı balası Əmi də onların arasındaydı. ...Dan yeri söküləndə onlar Nikolayev Limanına çatdılar.

Dəstə iki sutka gecəli-gündüzlü üç batalyon faşist piyadaları ilə qarşı-qarşıya gəldi. Qeyri-bərabər, həm də çox ağır bir döyüş oldu. İki sutka ərzində desantçıların dəstəsi faşistlərin 3 atıcı batalyonuna, artilleriyasına və 6 lüləli minamyotuna qarşı qanlı döyüş apardılar. Hitlerçilər od püskürən silahlardan və boğucu tüstü bombalayanlarından da istifadə edirdilər. Mart ayının 28-də sovet qoşunları şəhərə daxil olanda onlar yalnız yaralanmış, qanına qəltan olmuş on iki nəfər desantçını tapa bildi. Əmi sağ qalanların arasında yox idi!.. 1945-ci il aprel ayının 20-də Əmi Məmmədova ölümündən sonra, Sovet İttifaqı Qəhrəmanı adı verildi.



*Semyon Budyonnı Mircəfər Bağırovla Bakıda. S.M.Budyonnı M.Bağırova etiraf edir ki, "Sizin neftiniz olmasaydı, süvari ilə biz çox çətin ki, uzağa gedəydik"*

Böyük Vətən müharibəsi əvvəlki müharibələrdən fərqli olaraq müasir maşın və texnika müharibəsi idi. İkinci Dünya müharibəsi başlayandan sonra Qərbdən gələn real hərbi təhlükəni başa düşən SSRİ rəhbərliyi Qızıl Ordunun və Hərbi Dəniz Donanmasının möhkəmləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər gördü.

Artıq 1939-cu ilin payızından fəal surətdə ordunun "mexanikləşdirilməsinə" başlanıldı. Bu məqsədlə bütün qoşun növləri yenidən nəzərdən keçirilirdi. Onların strukturu təkmilləşdirilir, yeni hərbi hissələr, birləşmələr yaradılırdı.

1941-ci ilin fevral-mart aylarında artıq 20 mexanikləşdirilmiş korpusun yaradılmasına başlandı. Apreldə isə Baş Komandanlığın ehtiyatı - tank əleyhinə 10 briqada təşkil edildi. 106 aviasiya alayının yaradılması və onların ən yeni silahlarla təchiz olunması dövlətin təxirəsalınmaz vəzifəsi kimi plana salındı.

1941-ci ilin ortasında aviaalayların sayı 1939-cu ilin başlanğıcına nisbətən 80%-dən çox artmışdı. SSRİ Hərbi Dəniz Donanmasında minadaşıyan eskadralarının, sualtı qayıqlarının, torpedo katerlərinin xüsusi hərbi hissələri təşkil edildi. Əsas eskadralar yeni gəmilərlə təchiz olundu.

Eyni vaxtda süvari hissələrin sayı azaldılırdı. Böyük Vətən müharibəsi başlayanda ordunun tərkibində 13 süvari diviziya və 4 korpus idarəsi qalmışdı. Ancaq vaxt azlığı qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə imkan vermədi. Ordu yeni texnika ilə tamam komplektləşmədi. Bu səbəbdən də süvari qoşunların boynuna yeni taktiki vəzifələr qoyuldu.

Onu demək kifayətdir ki, süvari hissələr 1941-1942-ci illərdə müdafiə və hücum əməliyyatlarında əlaqələndirici hissə kimi əvəzolunmaz rol oynadı. Süvarinin cəld, çevik manevrli olması düşmən arxasında lazımı dərinliyə girməyə, strateji əhəmiyyət daşıyan vacib əməliyyatlarda hücum üçün nəzərdə tutulan düşmən qüvvəsini cəbhədən yayındırmağa imkan verirdi. Azərbaycan SSR-in zəhmətkeşləri artıq müharibənin ilk günlərindən öz səylərini respublikada atçılığın inkişafına, atların sayca artımına yönəltdilər.

"Bakinskiy raboçi" qəzetinin iyul saylarında Gədəbəy rayonunun qabaqcıl kolxozlarında əmək əzmkarlığından söz açan müxbir yazırdı ki, kolxozçular məğlubedilməz Qızıl Ordunun süvari qüvvəsi üçün ən yaxşı atları yetişdirməyi qərara alıblar.

Azərbaycan SSR-in digər rayonlarında da atçılar yüksək əmək coşğunluğu göstərirdilər.

Məsələn, Qazax rayonundakı Kaqanoviç adına kolxozun atçılıq ferması 1942-ci ilin yazında Sovet ordusunun süvari hissələrinə möhkəm, yüksək keyfiyyət göstəricilərinə malik döyüş atları göndərdi.

Ağdamda, Tovuzda cinsi yaxşılaşdırılmış yerli atlar üçün yarışlar təşkil edilirdi. Yarışlara Ağdamdan 37, Tovuzdan isə 45 at çıxarıldı.

Yeri gəlmişkən, qeyd edək ki, Qarabağ tarixən öz gözəl atları ilə dünyada şöhrət qazanıb. Bu barədə çox qədimdən Afanasi Nikitin kimi səyyahlar öz salnamələrində söz açmış, Qarabağ atlarını dönə-dönə tərifləmişlər.

XIX əsrdə də Azərbaycanda olmuş bir çox rus səyyah və zabitləri Qarabağ atlarının yüksək keyfiyyətləri və yaraşığı barədə qiymətli fikirlər söyləmişlər.

Daha dözümlü olsun deyə yerli "Qarabağ" cinsi ingilis cinsli "Safara" ayğırı ilə cütləşdirilirdi. Azərbaycan zəhmətkeşləri cəbhə üçün cins atlar yetişdirməklə bərabər, təmiz qanlı yerli atların qorunub saxlanmasına, nəslinin artırılmasına, tərtəmiz, cins "Qarabağ" damazlıq atların bərpa edilməsinə çalışırdılar.

Bu məqsədlə "Mübariz" kolxozunda (Yeni Ağdam kənd soveti) 1944-cü ildə "Xan" adlı Qarabağ at cinsinin çoxaldılması üzrə xüsusi at ferması yaradıldı. Ferma işçilərinin əməyi sayəsində bu cinsdən olan atların sayı 1944-cü ildə 55-ə çatdırıldı. Həmin ildə respublika atçıları Azərbaycanda atların sayının artırılmasına nail oldular. Məsələn, Dövlət Müdafiə Komitəsinin Keçici Qırmızı Bayrağını almış Qax rayonunun kolxozlarında 1944-cü ildə atların sayı 21,2%, Tovuz rayonunda 18,7%, Ağdam rayonunda 17,9% artırılmışdı.



*Sovet İttifaqı Marşalı S.M. Budyonnı "Qarabağ" atının belində*

## Sizin igidliyiniz ölməzdir!

### PETRUXİN NİKOLAY DMİTRİYEVİÇ (1908-1944)



1908-ci il mart ayının 11-də Moskvada anadan olub. Uşaqlıq və gənclik illəri isə Suraxanıdakı neft buruqlarının arasında keçib.

Otuzuncu illərin əvvəlində Azərbaycan aviasiyasında qulluq edib. Ən yaxşı nişançılardan biri olub. Faşistlər Sovet İttifaqının üzərinə hücum edəndə ehtiyatdan orduya çağırılıb. Qara dəniz Donanmasının sahil mühafizə hissələrində xidmət edib. 1943-cü ilin mayında dəniz piyadalarının əlahiddə batalyonuna göndərilib. Mariopolun və Osipenkonun azad edilməsi uğrunda aparılan desant əməliyyatlarında iştirak edib. O, qaradənizlilərin məşhur 68 nəfərlik desant dəstəsində mərdliklə vuruşub və həlak olub. 1945-ci il aprel ayının 20-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Nikolayev şəhərində həmin desantçıların hər birinin adına ayrıca küçə var. Küçələrdən biri də Nikolay Petruxinin adınadır.

### ƏLİYEV MƏSTAN ASTAN OĞLU (1918-1945)



***Almaniyada dəfn olunub***

Tovuz rayonunun Əsrik-Cırdaxan kəndində anadan olub. Müharibənin sonuna qədər döyüşüb. Qələbənin bircə addımlığında həlak olub. Almaniyada dəfn olunub.

...Məşhur bir döyüşçü mahnısında deyilir:

"Ölümə dördcə addım var"...

...Burda isə Qələbəyə lap az qalmışdı - bircə addım! Taqım komandirinin köməkçisi olan Məstanı qələbədən tək bircə addım ayırırdı. Əfsus ki, o, faşist Almaniyasının paytaxtının girəcəyində həlak oldu. Hər birinin: "Berlini al!", şüarı ilə inamla vuruşduğu qızğın döyüşdən sonra starşina M.Əliyevin rəhbərlik etdiyi zərbəçi dəstə çox da böyük olmayan alman şəhərinə daxil oldu. Qızğın döyüşə baxmayaraq, onlar heç neyə məhəl qoymadan bir-bir evləri düşməndən təmizləməkdəydilər. Lap axırıncı evə çatanda isə faşist güllləsi onu haqladı!.. Qələbənin bircə addımlığında qəhrəmancasına həlak oldu. 1945-ci il may ayının 31-də, Məstan Əliyevə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi. Doğma kəndində Məstan Əliyevin adına məktəb var. Kənddə onun büstü qoyulub.





## Sizin igidliyiniz ölməzdir!

### SADIXOV YUSİF MƏDƏT OĞLU (1918-1971)



***Moskvadan Berlinəcən***

Tovuz rayonunda anadan olub. Topçu dəstəsinin komandiri, starşina Yusif Sadıxov cəbhə yollarıyla Moskvadan Berlinədək getdi! Əvvəlcə Moskvanı düşməndən qorudu. Voronej cəbhəsində faşistlərlə döyüşdü. Ukraynanın, Belarusun düşməndən azad olunmasında iştirak etdi. Polşa torpağında düşməni qarabaqara izləyib, oradan qovdu. Faşizmin qalası - Berlinə hücum çəkdi, Reyxstaqı aldı! Onun topu dəfələrlə "pələng"lərlə, "ferdinand"larla, düşmən topları ilə qeyri-bərabər döyüşə girdi. Həmısından da qələbə ilə çıxdı. Onlarla düşmən tanklarını məhv etdi. Təkcə Kursk ətrafındakı döyüşlərdə onun topçu dəstəsi 9 düşmən tankını məhv etmişdi.

1945-ci ilin may ayının 31-də Yusif Sadıxova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Müharibədən sonra o, doğma yurduna - Tovuza qayıtdı.

Tovuz şəhərindəki küçələrin biri qəhrəmanın adını daşıyır. Bozalqan kəndində onun büstü qoyulub.

### ƏLİYEV AĞA ƏLİ OĞLU (1924-2013)



Əliyev Ağa Əli oğlu 1924-cü ildə Bakının Maştağa kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1942-ci ildə könüllü olaraq cəbhəyə getmişdir. Yay aylarında Şimali Qafqaz uğrunda ağır döyüşlərdə iştirak etmişdir. Həmin ilin dekabr ayında Şimali Qafqaz hücum əməliyyatında qələbə Sovet ordusuna çoxlu qurbanlar bahasına başa gəldi. Ağa Əliyev bu döyüşlərdə ayağından qəlpə yarası alsa da, hərbi hospitalda müalicə aldıqdan sonra yenidən cəbhəyə qayıtmışdı. Döyüşlərdə göstərdiyi şücaətə görə 2-ci dərəcəli Vətən müharibəsi ordeni və müxtəlif medallarla təltif olunub. 1945-ci ildə Vətənə qayıtmış, 1947-ci ildə təhsilini davam etdirmək üçün Moskvada M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin geologiya fakültəsinə daxil olmuşdur. Ali təhsilini başa vurduqdan sonra doğma Bakıya qayıtmışdır. Sənaye və Tikinti Materialları Nazirliyi onu yüksək ixtisaslı mütəxəssis kimi Azərbaycanın müxtəlif rayonlarına göndərmiş, uzun müddət Şəmkir, Qazax, Ağdam, Güzdək, Qaradağ daş karxanalarının direktoru vəzifəsində işləmişdir. 2013-cü ildə vəfat etmişdir.

# Sizin igidliyiniz ölməzdir!



## SEDOV QRİQORİ ALEKSANDROVİÇ (1917-2014)

1917-ci ilin yanvar ayının 15-də Bakıda anadan olub. Hələ uşaqlıqdan Bakı aeroklubunda səmanın ənginliklərinə pərvazlanıb. Aviasiya general-mayorudur. SSRİ-nin əməkdar sınaqçı-təyyarəçisidir. SSRİ Dövlət Mükafatı laureatıdır.

Sovet istehsalı olan təyyarədə səs sürətindən daha tez uçmaq xoşbəxtliyinə nəsib olmuş və bu qəbil uçuşları tədqiq edən ilk təyyarəçilərdən biridir.

Q.Sedov dəfələrlə çıxılması mümkünsüz görünən vəziyyətlərə düşüb. Lakin öz təmkini, böyük ustalığı və cəsurluğu bu çətin anlarda, təhlükəli məqamlarda da onun köməyinə gəlib. 1957-ci il may ayının 1-də müasir təyyarələrin sınağı zamanı göstərdiyi igidliyə görə Qriqori Sedova Sovet İttifaqı Qəhrəmanı adı verilib.

## HÜSEYNOV HƏBİBULLA EYNULLA OĞLU (1910-1945)



### *Stalinqrad, Kyoniqsberq... Kaunasda dəfn olunub*

İranın Ərdəbil şəhərində anadan olub. Taleyini Sovet ordusuna bağlamış Qocaman Bakı neftçisinin oğlu müharibəni ölkənin Qərb sərhədlərində qarşılayıb. O, topçu-zenit bölməsinin komandiri idi. Dəmir iradəsi, yüksək təşkilatçılıq istedadı hərbi əməliyyatlarda ona həmişə başucalığı gətirib.

Bu keyfiyyətlər Zemland yarımadasındakı faşist qoşun birləşməsinin məhv edilməsi zamanı nəinki almanların tank armadasına qarşı mətin dayanmağa, hətta onları oradan vurub çıxarmağa da kömək etdi.

Döyüşün qızğın çağında H.Hüseynov düşmənin mərmi qəlpəsinə tuş gəldi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 29 iyun tarixli fərmanı ilə polkovnik Həbibulla Hüseynova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.





# Müharibə illərində Bakı Qərblə Şərq arasında çox vacib nəqliyyat dəhlizinə çevrildi

## *Lend-liz və Azərbaycan*

İkinci Dünya müharibəsi dövründə Sovet İttifaqı Lend-liz proqramı əsasında ABŞ-dan yardım alırdı.

* 1941-ci ildən yüklərin əsas marşrutu İran ərazisindən keçirdi. Amerikalılar və ingilislər oradan Bakıya silah və hərbi sursat göndərirdilər. Sonralar isə bütün yüklər dolama dəmir yolu vasitəsi ilə SSRİ-nin Mərkəzi hissələrinə çatdırılırdı. Həmçinin, Xəzər dəniz yolu ilə də yüklər Həştərxana daşınırdı.

Stalin və Hopkins arasındakı "kübarsayağı" müqaviləyə əsasən, amerikalılar İran ərazisindən keçib SSRİ sərhəddinə çatan dəmir və şose yolları çəkdilər. Bu iş ən qısa müddətdə, 1942-ci ilin iyununa qədər başa çatdırıldı.

Dəmir yolu lokomativlərlə vaqon və stansiyalarla təchiz olundu. Bu yol İran körfəzindən, bu ölkənin sərhəddindən SSRİ-nin cənubuna, Bakıya qədər uzanırdı.

Amerikalılar İran körfəzində iki liman tikdilər. Okeanın o tayından göndərilən yüklər bu limanlara boşaldılır, oradan da SSRİ-yə daşınırdı. Limanlar da elə bu məqsədlə tikilmiş və lazımi infrastrukturla təmin olunmuşdu.

İran ərazisindən keçən şose və dəmir yolunun inşasında yerli əhali ilə bərabər, ABŞ ordusunun xüsusi batalyonları da iştirak edirdi.

* Trans-İran marşrutu ilə ilk daşınmalar 1941-ci ilin noyabr ayından başladı. O zaman okeanın o tayından 2.972 ton yük göndərilmişdi.

Lend-liz yükləri İran körfəzinin şimal qurtaracağındakı limanlara - Bəsrəyə, Xürrəmşəhrə, Abadana, Bəndər-Şapura gedirdi. Bu limanlarda avia və avtomobil yığma zavodları da tikilmişdi. Həmin limanlar-



*Prezident F.D.Ruzvelt Lend-liz haqqındakı qanunu imzalayarkən*

**Lend-liz - (ing. lend - borc vermək və liz - icarəyə kirayə vermək) - bir dövlət proqramıdır ki, ABŞ İkinci Dünya müharibəsində bu proqram əsasında öz müttəfiqlərinə ərzaq, döyüş sursatı, texnika, neft məhsulları da daxil olmaqla, strateji xammal verirdi.**

**Lend-liz qanunu (tam adı "Birləşmiş Ştatlarin müdafiəsinin təmin edilməsi qanunu") ABŞ Konqresi tərəfindən 11 mart 1941-ci ildə qəbul olunub.**





*"Studer" - Lend-liz əsasında SSRİ-yə göndərilən bu üçoxlu yük maşınını cəbhədə nəvazişlə, hörmətlə belə adlandırırdılar. Maneələrin, zığlı-palçıqlı, qarlı yolların, yolsuzluğun nə olduğunu bilməyən güclü "Studer"in bazasında məşhur qvardiya minamyotu, "K-13", "Katyuşa" quraşdırılırdı.*

*Yükqaldırma qabiliyyəti - 2,5 t. Uzunluğu - 6325 mm. Eni - 2230 mm. Hündürlüyü - 2700 mm. Mühərrik - Herkules JXD. Gücü - 95 at.g. Şose yolla maksimum sürəti saatda - 70 km. Yanacaq sərfiyyatı – 100 kilometrə 30,4 litr. Hərəkət ehtiyatı - 390 km.*

dakı yüklər SSRİ-yə iki yolla Xəzər su yolu vasitəsi ilə, bir də Qafqazdan keçən quru yolla daşınırdı.

1942-ci ilin mayında yüklərin göndərilməsi, orta hesabla, ayda 80-90 min ton, 1943-cü ilin ikinci yarısında isə ayda 200 min ton təşkil edirdi.

Yüklərin sonrakı daşınması Xəzər Hərbi Donanmasının gəmiləri vasitəsi ilə həyata ke-



*Lend-liz üzrə SSRİ-yə göndərilən Amerika düymələri*

**Düymə - 257 723 498 dənə. Bu rəqəm Lend-liz proqramı üzrə bizə göndərilən malların siyahısındandır. Əlbəttə, tank və təyyarələrə aid hesabın dəqiq aparılmasına söz ola bilməz. Bu, çox vacibdir. Amma amerikalıların nədənsə məhz göndərilən düymələrin sayını belə dəqiq aparması, daha doğrusu, hesabını son dənəsinə qədər aparması qəribə təsir bağışlayır.**
**Bunun əvəzində isə (Lend-liz heç də qonşu payı deyildi, axı!) Amerikaya çox qiymətli mallar, o cümlədən Xəzərin qara kürüsü, ikra, xəz, dəri, qızıl göndərilirdi.**








*Təyinatı üzrə 16,6 mln. tona çatdırılıb (gəmilərin batırılması səbəbindən 1,3 mln. ton itki olub).*

*Amerikanın yüngül tankı – Mk VII "Tetrarch" I*



çirilirdi. Bu gəmilər 1942-ci ilin sonuna qədər alman faşist aviasiyasının fasiləsiz hücumlarına məruz qalırdı. Təkcə 1942-ci ilin oktyabr və noyabr aylarında 32-dən çox yüklə dolu gəmi batırılmış, bəziləri də ciddi zədə almışdı.

Müharibə ərzində İrandan SSRİ-yə 184,1 min avtomobil göndərildi. Avtomobillər: Tehran-Aşqabad, Tehran-Astara-Bakı, Culfa-Orconikidze marşrutları üzrə daşınırdı.

* Trans-İran marşrutu:

Dənizlə Bakı, Krasnovodsk, Həştərxan limanlarına, oradan da SSRİ ərazisinin dərinliklərinə və ya birbaşa yük maşınlarında Tiflis, Bakı, Aşqabad şəhərlərinə.

* Mk VII "Tetrarch" I yüngül tankı. Bu tip maşınlardan yalnız 20-si Şərq cəbhəsinə düşdü. İlk "Tetrarch"lar (9-cu ulan polkunun maşınları) 1942-ci ilin noyabrında Zaqafqaziya cəbhəsinin 45-ci ordusuna, 151-ci tank briqadasına verildi. Briqadanın əsas vəzifəsi SSRİ-nin dövlət sərhəddini müdafiə etmək və Lend-liz üzrə İran vasitəsi ilə gələn yüklərin Bakıya göndərilməsini təmin etmək idi. Briqada 1937-ci ildə buraxılan 24 ədəd T-26 və 19 ədəd də "Tetrarch"a malik idi.

* Zirehli texnika ilə yüklənmiş nəqliyyat 1943-cü ilin martından Bakı limanına gəlməyə başladı. "İran koridoru" və Uzaq Şərq limanları üzrə göndərişlərin artması ilə bağlı olaraq Bakıda (1943-cü ilin mart ayında) və Vladivostokda (1943-cü ilin sentyabrında) zirehli texnikanın qəbulu üzrə hərbi şöbələr təşkil edildi.

Müttəfiq tanklarının daşındığı axırıncı ən iri istiqamət Odessa limanı oldu. 1945-ci ilin fevralında Bakıdan bura xüsusi dəstə də köçürülmüşdü.

* Avtomobillər, bir qayda olaraq, təyinat məntəqəsinə sürülüb çatdırılırdı. Üstəlik, həmin avtomobillərə ağzınacan Lend-liz yükləri də yüklənirdi.

## Lend-liz üzrə bütün yük göndərişlərinin ümumi həcmi 50,1 mlrd. dollara yaxın idi




Əsas yardım alanlar: Böyük Britaniya , SSRİ, Fransa, Çin.
Əks lend-liz (məsələn: aviabazaların icarəsi) ABŞ tərəfindən 7,8 mlrd. dollar məbləğində alınmışdır ki, bunun da 6,8 mlrd. dolları Böyük Britaniya və Britaniya Birliyi tərəfindən idi. SSRİ-dən alınmış əks lend-liz 2,2 mln. dollar təşkil etmişdir.





*Lend-liz yüklərinin Bakıdan daşınması*



Tanklar isə dəmir yolu platformalarına yüklənib Bakıya aparılır, Bakıdan da lazımi istiqamətlərə paylanırdı.

Almanlar Volqaya çıxanda (1942-ci ilin yayı və payızı) Bakının Şimal rayonları ilə əlaqəsi kəsildi. Beləliklə, tanklar birbaşa Şimali Qafqaz Cəbhəsinə yollanırdı. Buna görə də Şimali Qafqaz Cəbhəsinin hissələrində Lend-liz tankları üstünlük təşkil edirdi. İran marşrutu ilə daxil olan tankların sürülüb aparılması məqsədilə 191-ci tank briqadası təşkil edildi.

1943-cü ilin fevralında kadr hazırlığı sisteminin yenidən qurulmasına rəvac verildi. 1943-cü ilin əvvəlində Bakıda bilavasitə cəbhəyə göndərilməsi tankları alan qəbul dəstəsinin iş təcrübəsi göstərdi ki, elə birbaşa, qəbul yerindəcə tank heyətlərinin hazırlanması daha məqsədəuyğundur.

Müdafiə Xalq Komissarı müavininin 18 fevral 1943-cü il tarixli, 2477 nömrəli əmrinə əsasən 191-ci təlim tank briqadası buraxılaraq 27-ci təlim polku kimi yenidən təşkil edildi. Polk Bakıda dayanmalı idi.

Müharibənin sonunda Qızıl ordunun tərkibində artıq 3 əlahiddə tank-təlim alayı fəaliyyət göstərirdi. Bunlar Amerika və Britaniya istehsalı olan tanklar üçün ekipaj hazırlayırdı.

Qorkidəki 16-cı, Bakıdakı 27-ci alay M4A2 "Şerman" tankı üçün heyətlərə təlim keçirdi.

Ryazandakı 20-ci təlim alayı isə M2, M3, M5, "Universal Carrier" və M3Aİ "Scout Car" zirehli transportyorları üçün kadrlar buraxırdı.

* "Aerokobra" üçün yol xəritəsi aşağıdakı kimi fəaliyyət göstərirdi. Dənizlə çatdırılan təyyarələr Abanada boşaldılır, Sovet mütəxəssisləri tərəfindən ordaca yığılır, həmin təyyarələri elə sovet pilotları da sınaqdan keçirirdi. Sonra isə təyyarələr hava yolu ilə Tehrandakı "Kvali-Margi" aerodromuna gətirilir, orada isə Sovet hərbiçiləri onların nüqəbulunu həyata keçirirdi.

Sonra təyyarələr Azərbaycana, Hacıqabul şəhərindəki təlim mərkəzinə, yaxud da Kirovabaddakı (indiki Gəncə) ötürücü aerodroma aparılırdı.

ABŞ-ın Elizabet-Siti şəhərindən başlayıb, Mərkəzi və Cənubi Atlantik üzərindən ötüb uzun Cənub yoluyla, daha sonra Şimali Afrika sahillərindən

və ya Afrikanın cənubundan keçməklə, İraq və İrana, Bakıya çatırdı. Bu yolla Qara dəniz Donanması üçün o vaxtı 80 ədəd hidrotəyyarə gətirilmişdi.

* Qırıcıların, o cümlədən P-39 D-lərin çatdırılmasını, xüsusi olaraq bunun üçün ayrılmış 6-cı ötürmə qırıcı aviaalayı həyata keçirirdi (SQAP). Alay 1943-cü il fevral ayının 10-da 015/174 ştatı üzrə təşkil edilmişdi. 3 eskadrilyanın hərəsində 3 dəstə, dəstələrin də hər birində 3 heyət, bundan başqa, alayın rəhbərliyi də daxil olmaqla 31 heyət Zaqafqaziya Cəbhəsi Hərbi Hava Qüvvələrinin tərkibində idi. Eskadrilyaların hərəsi müəyyən tipli təyyarələr üzrə ixtisaslaşmışdı (I - "Aerokobra", II - "Kittihauk", III - qeyriləri). Ancaq bu bölgü şərti idi. İlk vaxtlar alayın qərargahı Kirovabadda (Gəncə) yerləşirdi. Çünki təyyarələr əvvəlcə bura gətirilirdi. 1943-cü ilin iyun ayında təyyarələrin axırıncı qəbul məntəqəsinin (Bakıdan 100 km aralıda yerləşən) Hacıqabul şəhərinin təsdiq edilməsindən sonra qərargah yaxınlıqdakı Qazıməmməd dəmir yolu stansiyasında yerləşdirildi. 1943-cü ildə alay 2386 qırıcı təyyarəni Hacıqabula endirdi. Gətirilən qırıcılar Hacıqabulda 25-ci ehtiyat aviaalayına təhvil verilirdi. Bu alay "cənub" təlim mərkəzinə aid idi. Azərbaycanda 25-ci ehtiyat aviaalayında "Aerokobra"nı öyrənən ilk hərbi hissə 9-cu qvardiya aviadiviziyası olub. Çox tezliklə bu aviadiviziya Qızıl ordu Hərbi Hava Qüvvələrinin ən məşhur hissəsi kimi tanındı.



*Lend-liz üzrə İrandan keçərək Bakıya gedən Amerika hərbi yük maşınlarının kolonu*





# Sizin igidliyiniz ölməzdir!



## KAZIMOV SƏLAHƏDDİN İSA OĞLU (1920-1978)

***Kursk ətrafında vuruşdu, Dnepri döyüşə-döyüşə keçdi. Müharibədən çox-çox sonra cinayətkar gülləsinə tuş gəlib həlak oldu.***

Zaqatala şəhərində anadan olub. Müharibə başlayan ili Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirib. Cəbhəyə könüllü gedib.

S.Kazımovun batareyası 1943-cü ilin oktyabrında Dnepr çayına çatdı. Almanların inadlı müqavimətinə baxmayaraq, batareya Kiyevin Şimal səmtindən ağır döyüşlər bahasına Dneprin qərb sahilinə çıxdı. Düşməndən alınmış çox da böyük olmayan bir mövqedə 12 gün sərasər döyüş getdi.

Qəfildən hitlerçilərin batalyonunu qoruyan 12 tank topçularımızın üzərinə hücuma keçdi. Desantçılarımız necə dayanmışdılarsa, eləcə də mətin dayandılar. Az sonra düşmən qarşısında on bir tonqal qalandı. Yanan düşmən tanklarıydı. Onlardan yalnız biri qaçıb, canını qurtara bildi. 180 nəfər faşist əsgər və zabitinin cəsədi isə döyüş meydanına döşənmişdi.

Bu qəhrəmanlığa görə batareya komandiri S.Kazımova 1943-cü il oktyabr ayının 13- də Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Sovet ordusu zəfərlə Qərbə doğru irəliləməkdə, S.Kazımov isə Böyük Vətən müharibəsi tarixinə yeni qəhrəmanlıq səhifələri yazmaqdaydı.

Müharibədən sonra o, Daxili İşlər Nazirliyində xidmətini davam etdirdi. Milis general-mayoru S.Kazımov Azərbaycan SSR Daxili İşlər Nazirinin müavini vəzifəsində çalışırdı.

O, 1978-ci ildə öz xidməti vəzifəsini yerinə yetirərkən həlak oldu.

## PAVEL DMİTRİYEVİÇ KLİMOV (1920-1992)



***Qırmızı şahin***

Bakı şəhərində anadan olub. Alman-faşist işğalçıları üzərində tam qələbəyə qədər mərdliklə Zapolyaryenin müdafiəsində dayanıb. Sınaqçı-təyyarəçi, qvardiya polkovniki P.Klimov Bakı aeroklubunun yetirməsi idi. O, özünün birinci mükafatını – "Qırmızı Bayraq" ordenini 1942-ci ilin noyabr ayında alıb. 1943-cü ilin iyul ayının 24-də isə düşmənlə döyüşlərdə cəsurluğuna və qəhrəmanlığına görə "Lenin ordeni" və "Qızıl ulduz" medalı təqdim edilməklə Pavel Klimova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Onun yüksək döyüş ustalığını təkcə bir hava döyüşündə üç "Yunkers"i məhv etməsi, qaçıb gizlənməyə çalışan dördüncü düşmən təyyarəsini isə vurub yerə salması faktı aydınca sübuta yetirir.

## Sizin igidliyiniz ölməzdir!



### YAKOV MİXAYLOVİÇ SİNYEV (1912-1943)

*Əbədi sırada*

Yakov Sinyev Tambov vilayətinin İnjavinsk rayonunda, Şumilovka kəndində anadan olub.
Yakov gələcək iri sənaye şəhərinin - Sumqayıtın bünövrəsini qoyanlardandır. Elə cəbhəyə Sumqayıtdan gedib.
Kubanın Krımsk rayonunda adsız yüksəklik uğrunda qızğın döyüşlər gedirdi. Faşistlər adsız yüksəklikdə yerləşən mövqelərini müxtəlif mühəndis-texniki qurğularla möhkəmləndirmişdi. Bu da öz növbəsində bizim qoşunların irəliləməsinə ciddi maneçilik törədirdi.
Yakov düşmənin atəş nöqtəsini öz bədəni ilə örtərək A.Matrosovun qəhrəmanlığını təkrar etdi. Bu igidliyinə görə sıravi Yakov Sinyev 1943-cü il oktyabr ayının 25-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.
Onun adı əbədi olaraq xidmət etdiyi hərbi hissənin şəxsi heyətinin siyahısına salınıb.
Yakov Sinyevin şərəfinə Krımskda, Sumqayıtda və İnjavinskdəki küçələrdən birinə onun adı verilib.

### ƏLƏKBƏROV MİKAYIL MƏMMƏD OĞLU (1924-1943)



*Cəsur kəşfiyyatçı*

Bakının Saray qəsəbəsində anadan olub. Mikayılın Şerbinovka kəndində, Dneprin sahilindəki qəbrinin üstündə həmişə tər çiçəklər görmək mümkündür.
O, doğma Abşerondan, uzaq mənzilli gəmi kapitanı olmaq arzusu ilə çalışdığı neft mədənlərindən, oxuyub təhsil aldığı Bakıdan çox-çox uzaqlardadır. Ancaq doğma torpaqlarda bu məzarın üstünə gedən cığırı heç vaxt ot basmır.
Hər dəfə döyüş dostları ilə kəşfiyyatdan "əlidolu" qayıdanda bu yüksəkliyə qalxardılar…
Bu dəfə isə həmişə olduğu kimi döyüşə birinci atılan Mikayıl qəfil düşmən gülləsinə tuş gəldi. Heç özünə gəlmədən də gözlərini əbədi olaraq qapadı.
1943-cü il oktyabr ayının 26-da, 19 yaşlı azərbaycanlı balasına ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi. Doğma kəndində büstü qoyulan Mikayılın Sarayda da, Dnepr yaxınlığında, Rudkedə də adını daşıyan məktəblərdə oxuyanlar Qəhrəmanın şərəfini qorumağa, Vətən torpağına onun qədər sədaqətli olacaqlarına and içirlər.





## Sizin igidliyiniz ölməzdir!



### CƏFƏROV AĞAŞİRİN AĞAMMƏD OĞLU (1906-1984)

***Azərbaycanın ilk mexanizatoru düşmənin 500 nəfərə yaxın əsgər və zabitini məhv etmişdi***

Ağaşirin Neftçala rayonunun Ballıcalı kəndində anadan olub. İşğalçı faşist ordusuna qarşı müharibəyə 1942-ci ildən qoşulub. Qırmızı Bayraqlı, Suvorov ordenli, 416-cı Taqanroq atıcı diviziyasının tərkibində pulemyotçu, starşina Ağaşirin Cəfərov diviziyası ilə birlikdə Qafqazdan Berlinə qədər şərəfli bir döyüş yolu keçib.
Onun yaddaşından heç zaman silinməyən, ən qızğın döyüş isə 1943-cü ilin isti avqust günlərində, Melitopol ətrafındakı yüksəklik uğrunda gedən savaş olub. Məhz burada o, ən çətin hərbi imtahandan, sınaqdan çıxıb. Üç dəfə yaralanıb. Lakin döyüş mövqeyindən bir addım da geri çəkilməyib. Yüksək təpənin döşündə A.Cəfərovun öz "Maksim"iylə "biçib" yerə sərdiyi üç yüzə qədər hitlerçinin cəsədi qalmışdı. Bu şücaətinə görə 1943-cü ilin noyabr ayının 1-də ona Sovet İttifaqı Qəhrəmanı adı verildi. A.Cəfərov cəbhədən qayıdandan sonra eyni fədakarlıqla "Azneftkəşfiyyat" trestinin qazma idarəsində 30 ilə yaxın çalışdı. Bu gün Neftçala şəhərinin mərkəzi küçələrindən biri və Xıllı qəsəbəsindəki meydan onun adını daşıyır.

### İLYASOV İVAN VASİLYEVİÇ (1912-1943)



Şamaxı rayonunun Xilmilli kəndində anadan olub. Kursk ətrafındakı döyüşlər zamanı kapitan İ.İlyasovun 8-ci atıcı rotasının üzərinə 34 tankın arxasınca hücuma keçən faşist piyadaları atıldı. Düşmən rotanın müdafiə xəttini yara bilmişdi. Bir neçə saat ərzində qızğın döyüş getdi. Birdən "pələng"lərdən biri komandir İlyasovun səngərini basdı. İlyasov vəziyyət barədə komandanlığa məlumat verib, döyüşə davam etdi. Tank birbaşa onun üstünə yeridi. Tankın altında qalıb torpağa sıxılan İ.İlyasov telefonla aşağıdakı sözləri deməyə imkan tapdı:
"Son nəfəsə qədər döyüşün! Ölürəm! Məni kommunist sayın!"
Şamaxının Xilmilli kəndinin yetirməsi 1943-cü ilin iyulunda öz həyatını beləcə başa vurdu. 1943-cü il noyabr ayının 1-də, ölümündən sonra kapitan İvan İlyasova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

# Sizin igidliyiniz ölməzdir!



## QULİYEV MEHDİ NADİR OĞLU (1923-1976)

### "Dil" ovçusu

Gədəbəy rayonunun Eriknaz kəndində anadan olub.
Şimali Qafqaz Cəbhəsinin zərbələri altında faşistlər Armaviri tərk etməkdəydi. Serjant Quliyevin kəşfiyyatçılar qrupuna tapşırıq verildi ki, faşistlər geri çəkilməmişdən əvvəl körpünü partlatmaq istəyirlər. Odur ki, nə olursa-olsun, onların bu niyyətini puça çıxarmaq lazımdır. Həmin əməliyyat da əvvəlkilər kimi səssiz və sürətlə keçdi. Bu, 20 yaşlı pulemyotçu Mehdi Quliyevin cəbhə həyatındakı adi epizodlardan biri idi.

Mehdi Kerç rayonundakı yüksəkliyin qorunmasında xüsusi igidlik göstərdi. Hitlerçilər bir gün ərzində 9 dəfə yüksəkliyə hücum çəkdilər. Hücumların hər biri də öz başlarında çatladı. Döyüşdən sonra artıq yaralanmış, huşunu itirmiş dəstə komandiri Mehdi Quliyevi yoldaşları çətinliklə pulemyotdan kənara çəkə bildilər.
1943-cü il noyabr ayının 17-si - ona Sovet İttifaqı Qəhrəmanı adı verilən gün Mehdi hələ də hospitalda yatırdı. Sonra yenə Qələbə amansız gününədək döyüşlər... Müharibədən sonra milis polkovniki Mehdi Quliyev Azərbaycan SSR Daxili İşlər Nazirliyi orqanlarında eyni fədakarlıqla çalışdı.

## ŞAXNOVİÇ MOİSEY DAVİDOVİÇ (1918-1982)



1943-cü il idi. Melitopol yaxınlığında ağır döyüşlər gedirdi. Təcili olaraq Moloçnı çayının qərb sahilindəki mövqeyi tutmaq lazım idi. Könüllülər arasından baş leytenant M.Şaxnoviçin komandirlik etdiyi çevik alay seçildi. 80 nəfər cəsurdan yalnız 20-si deyilən hədəfə çatdı. Diviziyanın əsas qüvvələri gələnə, qədər həmin 20 nəfər oradakı mövqeyi qoruyub saxlaya bildi.
Melitopolun düşməndən təmizləndiyi bir vaxtda bizim piyadalar park rayonunda almanların şiddətli müqaviməti ilə qarşılaşdı. Belə bir zamanda Şaxnoviç qalın kolların arxasında gizlənərək, düşmənin atəş nöqtəsinə yaxınlaşıb onu sıradan çıxardı.
1943-cü il noyabr ayının 1-də ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.
Müharibədən sağ-salamat qayıdan Moisey Şaxnoviç Bakıda Mərkəzi ərzaq mağazasının direktoru vəzifəsində işlədi.





## "AZƏRBAYCAN SSR ELMLƏR AKADEMİYASININ YARADILMASI HAQQINDA" AZƏRBAYCAN K(B)P MK-NIN QƏRARI

25 dekabr 1944-cü il



Azərbaycan K(b)P MK qeyd edir ki, Sovet hakimiyyəti illərində respublikada elmi-tədqiqat və ali təhsil müəssisələrinin geniş şəbəkəsi yarandı və inkişaf etdi. Naxçıvan Muxtar Respublikasında, Dağlıq Qarabağ Muxtar Vilayətində, Kirovabadda və Qubadakı elmi bazaları özündə birləşdirən SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı, iri elmi-tədqiqat institutları, bölmələr, muzeylər, lazımi avadanlıqlarla təchiz edilir, zəngin güclü laboratoriyalara, kabinetlərə və kitabxanalara malik Azərbaycan Dövlət Tibb İnstitutu, M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutu, S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatı İnstitutu geniş fəaliyyət göstərirdi. Respublikada mövcud olan 60 elmi-tədqiqat müəssisəsi və institutlarda 150 nəfər elmlər doktoru, professor, 350 nəfər elmlər namizədi, dosent çalışırdı.
Fəaliyyətinin 10 ili ərzində SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının - geologiya, botanika, fizika, kimya, fəlsəfə, tarix, dil və ədəbiyyat sahələrində bir sıra mühüm problemləri həll edərək, əsasən yüksəkixtisaslı elmi kadrların yetişdiyi elmi-tədqiqat mərkəzinə çevrilməsini nəzərə alaraq, Azərbaycan K(b)P MK respublikada xalq təsərrüfatının və mədəniyyətin daha da inkişaf etdirilməsinə təkanverici stimul olacaq, həmin filialın bazası əsasında Azərbaycan Respublikası Elmlər Akademiyasının yaradılması məsələsinin həlli zamanının yetişdiyini hesab edir. Azərbaycan K(b)P MK-nın Bürosu qərara alır:
1. ÜİK(b)P MK-dan SSRİ Elmlər Akademiyası Azərbaycan filialının bazası əsasında Azərbaycan SSR Elmlər Akademiyasının yaradılmasına icazə verilməsini xahiş etmək.
2. Azərbaycan SSR Elmlər Akademiyasının açılışına hazırlıq tədbirləri aparmaq üçün komissiya yaratmaq.

**ARPİİSSA, f.1, op. 129, s. 79, II 139-140**
**Əsli**



Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyətinin ilk həqiqi üzvləri - 1945-ci il. Birinci cərgədə (soldan sağa oturanlar) Səməd Vurğun, İ.Q.Yesman, Ü.Hacıbəyov, Ə.Əlizadə, akademiyanın prezidenti M.Ə.Mirqasımov, İ.İ.Şirokoqorov, A.A.Qrossqeym, M.Topçubaşov. İkinci cərgədə: (ayaqüstə duranlar) Y.Məmmədəliyev, M.İbrahimov, S.Əzizbəyov, H.Hüseynov, Mirəli Qaşqay, S.Dadaşov, M.Useynov.





## Elmlər Akadmeiyasının birinci preziden



# MİRQASIMOV MİR ƏSƏDULLA MİR ƏLƏSGƏR OĞLU (1883-1958)

İlk azərbaycanlı cərrah-alim. Tibb elmləri doktoru, akademik.

Azərbaycanın əməkdar elm xadimi. Müasir Azərbaycan tibb elminin və təhsilinin banisi.

Bakıda 1883-cü il noyabr ayının 17-də müsəlman-ruhani seminariyasının ərəb dili müəllimi Seyid Mir Ələsgər Mirqasımovun ailəsində anadan olub. Mir Əsədulla Mirqasımov 1898-ci ildə Bakı şəhər gimnaziyasına qəbul edilib.

M.Mirqasımov 1908-ci ildə gimnaziyanı bitirdikdən sonra Odessa Universitetinin tibb fakültəsinə daxil olub (həmin vaxt Novorossiysk Universiteti adlanırdı).

1913-cü ildə tibb fakültəsini bitirən M.Mirqasımov cərrah ixtisasını qazanır. 1916-cı ildə doğma Bakıya qayıdır. Elə o vaxtdan da ömrünü elmi-tədqiqat fəaliyyətinə həsr edir. Mir Əsədulla Mirqasımov 1920-ci ildən keçmiş Mixaylovsk xəstəxanasının cərrahiyyə şöbəsinin baş ordinatoru kimi çalışmağa başlayır. 1923-cü ildə isə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsində təlim-tədris işinə, pedaqoji fəaliyyətə cəlb edilir.

O, əvvəlcə prorektor, sonra Operativ müdaxilə, təcili cərrahiyyə və topoqrafik anatomiya kafedrasının ordinatoru, 1926-cı ildə isə görkəmli cərrah B.K.Finkelşteynin rəhbərlik etdiyi hospital cərrahiyyəsi kafedrasının assisenti vəzifəsinə təyin edilir. Elə o vaxtdan da M.Mirqasımovun həyat və fəaliyyəti (35 il ərzində) Azərbaycan Dövlət Universitetinin tibb fakültəsi ilə bağlanır.

1926-cı ildə o Almaniyanın qabaqcıl uroloji klinikasına təcrübə mübadiləsinə göndərilir. Sonralar M.Hacıqasımov, M.Topçubaşov və İ.Axundov kimi istedadlı həkimlərlə birlikdə dəfələrlə Almaniyaya - Berlinin, Münhenin cərrahiyyə klinikalarına ezam olunur.

Mir Əsədulla Mirqasımov "Azərbaycanda sidik kisəsi daşlarinin öyrənilməsi" mövzusunda doktorluq işi müdafiə edən ilk təbibdir. Bu mövzu müasir dövrümüzdə də öz aktuallığını itirməyib.

M.Mirqasımov 1935-ci ildə Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülüb. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının bazasında 1945-ci il mart ayının 23-də Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Mir Əsədulla Mirqasımov Akademiyanın ilk prezidenti oldu.

Mir Əsədulla Mir Ələsgər oğlu Mirqasımov dəfələrlə SSRİ Ali Sovetinin deputatı seçilib. Lenin ordeni, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni və bir çox medallarla təltif edilib.

**Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2015-ci ildə respublikanın ali elmi qurumu olan Azərbaycan Milli Elmlər Akademiyasının təsis edilməsinin 70 ili tamam olur.

Ölkədə elmi-intellektual potensialın milli sərvət kimi formalaşdırılmasında, elmin dövrün tələblərindən irəli gələn strateji istiqamətlərinin müəyyənləşdirilməsi və onun ən müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadrların hazırlanmasında Milli Elmlər Akademiyasının müstəsna rolu vardır. Yarandığı vaxtdan etibarən ötən fəaliyyət müddəti ərzində o, mühüm nailiyyətlər qazanmış, elmi məktəblərin qurulmasına müvəffəq olmuş, beynəlxalq elm strukturlarına uğurla inteqrasiya etmişdir. Akademiya müstəqil dövlətçiliyin əsaslarının möhkəmləndirilməsində öz üzərinə düşən vəzifələrin öhdəsindən bu gün də layiqincə gəlir və cəmiyyətin sosial-iqtisadi tərəqqisinə, mədəni-mənəvi təşəkkülünə töhfələrini əsirgəmir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının respublikada elmin təşkili və inkişafındakı böyük xidmətlərini nəzərə alaraq qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Akademiyanın 70 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 mart 2014-cü il**

# "Akademiya simalarda" kitabı çapdan çıxıb




AMEA yarandığı vaxtdan bu günə qədər həqiqi, müxbir və fəxri üzvləri olmuş alimlərin geniş elmi tərcümeyi-halını əks etdirən "Akademiya simalarda" adlı kitab çapdan çıxıb.

AMEA-nın 70 illik yubileyi ərəfəsində işıq üzü görmüş və geniş oxucu auditoriyasının diqqətini cəlb edən bu kitab elmi ictimaiyyətə böyük töhfə kimi olduqca əhəmiyyətlidir.

AMEA-nın prezidenti, akademik Akif Əlizadənin kitaba yazdığı ön sözdə deyilir: "Bu kitabın hər səhifəsindən həyatını və ömrünü elmi yaradıcılığa sərf etmiş görkəmli bir alimin nurlu siması canlanmaqdadır. Onlar qədim və zəngin elmi irsimizin möhkəm bünövrəsi üzərində ucalan elm məbədinin – Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasında və inkişafında əvəzsiz xidmətləri olmuş böyük alimlərdir. Bu alimlər həyat və fəaliyyətləri ilə gənc nəslə ən parlaq nümunə olmaqla bərabər, xalqımızın yaddaşında silinməz izlər buraxmış şəxsiyyətlərdir. İllər ötəcək, hər biri böyük bir xalq üçün örnək ola bilən bu alimlərin parlaq obrazı insanların yaddaşından silinməyəcək, xalqımızın qürur mənbəyi olaraq qalacaqdır".

Kitabda 450-yə yaxın alimin hər biri haqqında bir səhifəlik tərcümeyi-hal fotoları ilə birgə oxucu auditoriyasına təqdim olunur.





## Onlar Vətənə və elmə xidmət edirdilər!



# Əliyev Həsən Əlirza oğlu (1904-1993)

Yelizavetpol Quberniyasının Zəngəzur qəzasının Comərdli kəndində anadan olub. Lap erkən yaşlarından, hələ on yaşındaykən ehtiyac üzündən işləməyə başlayıb. Həmin illərdə ailəsi ilə Naxçıvanda yaşayan Həsən Əliyev təhsilə də böyük həvəs göstərərək axşam məktəbinə daxil olur. Sonra Bakıda tələbəlik illəri... Elmlər Akademiyasının aspirantı olduğu vaxtlarda böyük ümidlər doğuran Həsən Əliyevə 1941-ci ildə SSRİ Elmlər Akademiyasının Rəyasət Heyəti İ.Stalin adına təqaüd təyin edir. Lakin qəfil başlanan müharibə gənc alimi karyera haqda düşüncələrini yarımçıq qoymağa məcbur edir.

Müharibənin başlaması xəbərini yolda, Moskvaya gedərkən qatarda eşidir. Səhərisi 1941-ci il iyun ayının 23-də səfərinin səmtini dəyişən H.Əliyev Şimali Qafqaz rayonunda Daxili İşlər Xalq Komissarlığının 36-cı Rostov briqadasının (sonralar 41-ci Suxumi diviziyası) 59-cu polkunun sərəncamına gəlir. Bir neçə gündən sonra isə qohumlarına xəbər verir ki, könüllü olaraq ordu sıralarına qoşulub...

Müharibənin ilk aylarından hərbi əməliyyatlarda fəal iştirak edərək, cəsurluğu ilə ad qazanır. Dəfələrlə yaralanır, amma yenə döyüşü tərk etmir. Şimali Qafqaz cəbhəsinin qoşunları, o cümlədən H.Əliyevin xidmət etdiyi diviziya 1943-cü ilin yanvar-oktyabr aylarında bütün cəbhə boyu düşmən üzərinə genişmiqyaslı hücumlar edirdi...

Bir zabit kimi onun döyüş şücaəti dəfələrlə I dərəcəli Vətən Müharibəsi, Qırmızı Ulduz ordenləri, "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsindəki əmək rəşadətinə görə", "Əmək rəşadətinə görə" medalları ilə qiymətləndirilib. Müharibədən sonra H.Əliyev elmi fəaliyyətini davam etdirib. Namizədlik dissertasiyasının müdafiəsindən sonra o, Azərbaycan SSR Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutu direktorunun elmi işlər üzrə müavini təyin olunub.

H.Əliyev 1949-1952-ci illərdə Azərbaycan SSR EA-nın Botanika İnstitutuna rəhbərlik edib. Bu dövrdə o, səkkiz cildlik "Azərbaycanın florası" fundamental əsərinin hazırlanıb ərsəyə gətirilməsinə, nəşr olunmasına hərtərəfli kömək göstərmiş, şəxsən özü bu işə çoxlu əmək sərf etmişdir. H.Əliyev 1952-1957-ci illərdə Respublika Elmlər Akademiyasının Akademik katibi vəzifəsində çalışıb. H.Əliyev bu illərdə elmi fəaliyyətini meşə torpaqlarının öyrənilməsi məsələləri üzərində cəmləşdirərək, bunun üçün xüsusi laboratoriya yaradıb. O, Coğrafiya İnstitutunun direktoru vəzifəsində çalışarkən bu istiqamətdə daha böyük işlər görür.

Həsən Əliyevin çoxşaxəli elmi fəaliyyəti 1939-cu ildən üzvü olduğu SSRİ Coğrafiyası Cəmiyyətindəki işləri ilə də vəhdət təşkil edirdi. O, 1970-ci ildən Azərbaycan Coğrafiya Cəmiyyətinin sədri, YUNESKO və YUNEP-in eksperti, İngiltərə Biblioqrafiya Cəmiyyətinin, eləcə də Ümumittifaq Torpaqşünaslar Cəmiyyətinin fəxri üzvü olub.

H.Əliyevin 1982-ci ildə ABŞ-da yerləşən Tukson Dünya Universitetinin təbiətin mühafizəsi üzrə fəxri elm və mədəniyyət doktoru seçilməsi, onun böyük elmi xidmətlərinin və nüfuzunun beynəlxalq səviyyədə təqdiri və təsdiqi idi.

***XX əsrin 80-ci illərində Sovet İttifaqında "Mosfilm" kinostudiyasının istehsal etdiyi "Cinahlarsız cəbhə", "Cəbhə xəttinin arxasındakı cəbhə", "Düşmən arxasında cəbhə" adlı yeni kinotrilogiya ekranlara çıxarılır. Sovet komandanlığının xüsusi tapşırıqlarını yerinə yetirən Qızıl Ordunun nizami qoşunlarının döyüş yolundan, xüsusi təyinatlı gizli işindən bəhs edən kinoda baş rolda məşhur sovet kinoaktyoru Vyaçeslav Tixonov çəkilmişdi. Filmlərin ssenarisində həmin dəstənin komissarı Həsən Əliyevdən bəhs olunurdu. Yəni, bu obrazın prototipi, real şəxsiyyət Həsən Əlirza oğlu Əliyev idi. Ssenarinin müəllifi onu çox yaxından tanıyırdı. Həsən Əliyevin döyüş yolunu bütün təfərrüatı ilə bilirdi deyə bu cəsur insanın yaşadıqlarını filmin yaddaşına köçürə bilmişdi. Həsən Əliyev rolunu isə Azərbaycan Respublikasının əməkdar artisti Tofiq Mirzəyev ifa edirdi.***

## Onlar Vətənə və elmə xidmət edirdilər!

# Mark Aleksandroviç Dalin (1906-1996)



Azərbaycan alimi, kimyaçı-texnoloq, akademik. 1921-1934-cü illərdə M.A.Dalin və V.S.Qutıryanın rəhbərliyi ilə ən qısa müddət ərzində sulfat turşusu metodu üzrə etil spirtinin alınması prosesinin elmi əsası və texnologiyası işlənib hazırlandı.

Bu yolla etil spirtinin alınması o vaxt SSRİ-də inkişaf etməyə təzəcə başlamış sintetik kauçuk sənayesinin xammal bazasının formalaşmasında və yaradılmasında çox böyük rol oynadı.

Sözügedən prosesi həyata keçirmək məqsədi ilə 1936-cı ildə Bakıda Sintetik Kauçuk Zavodu tikildi və 29 yaşlı M.Dalin zavodun baş mühəndisi təyin edildi. Böyük Vətən müharibəsi illərində onun rəhbərliyi ilə Azərbaycan Sintetik Kauçuk Zavodunda ən qısa müddət ərzində müstəsna əhəmiyyət kəsb edən müdafiə təyinatlı məhsulların alınması prosesi işlənib hazırlandı və istehsalata tətbiq olundu.

M.A.Dalin 1963-cü ildən 1987-ci ilə qədər Ümumittifaq Elmi-Tədqiqat Olefinlər İnstitutunun direktoru vəzifəsində çalışdı.



# Mirəli Seyidəli oğlu Qaşqay (1907-1977)

Azərbaycanın elm xadimi, geoloq, akademik. Ötən əsrin iyirminci illərində geologiya sahəsində təhsil alıb. 1930-cu illərdə Leninqradda aspiranturada oxuyub və dissertasiya müdafiə edəndən sonra elmlər namizədi alimlik dərəcəsi alıb. 1934-cü ildən Azərbaycanda geoloji-kəşfiyyat işlərinin hazırlanması ilə yaxından məşğul olub. Azərbaycan SSR Elmlər Akademiyası Geologiya İnstitutunun özülündə duraraq, bu elm ocağının bünövrəsini qoyub.

Azərbaycan Dövlət Universitetində geoloji-coğrafiya fakültəsindəki faydalı qazıntılar muzeyini yaradıb.

Böyük Vətən müharibəsi illərində müdafiə əhəmiyyətli bir sıra praktiki məsələlərin həlli ilə məşğul olub. Həm də o, xüsusi neftçi-geoloq qrupunun təşkili və bu qrupun Təbrizə göndərilməsində əsas iştirakçı idi.

Azərbaycan Dövlət Universitetinin kristalloqrafiya, mineralogiya və petroqrafiya kafedrasının müdiri (1945-1960-cı illər), həmin kafedranın professoru (1960-1969-cu illər) olub.

Britaniya, İrlandiya və ABŞ mineralogiya cəmiyyətlərinin həqiqi üzvü seçilmişdir.





## Onlar Vətənə və elmə xidmət edirdilər!

# Mehdiyev Şəfaət Fərhad oğlu (1910-1993)



Şəfaət Mehdiyev 1930-cu ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə qəbul olunub. 1934-cü ildə Neftçaladakı Pirsaat neft mədənində geoloq işləyib. 1939-cu ilin yanvar ayında Kuybışev adına Azərbaycan Elmi-Tədqiqat İnstitutunun direktor müavini və baş geoloq vəzifəsinə təyin edilir. 1939-cu ildə Azərbaycan geoloji fondunun rəisi olur, bir ildən sonra isə Abşeron geoloji partiyası ona tapşırılır. Ş.Mehdiyev 1941-1943-cü illərdə Zaqafqaziya Cəbhəsinin 318-ci əlahiddə radiodiviziyasında, eləcə də Şimali-Qafqaz Cəbhəsinin Qara dəniz qrupunda xidmət göstərib. Müharibənin sonrakı iki ilində Ş.Mehdiyev 4-cü Ukrayna Cəbhəsi 4-cü zabit alayının tərkibində ehtiyata keçirilib.

Kapitan Ş.Mehdiyev II dərəcəli Vətən Müharibəsi ordeni, "1941-1945-ci illər Böyük Vətən müharibəsindəki rəşadətli əməyinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsindəki qələbəyə görə" və "1941-1945-ci illər Böyük Vətən müharibəsindəki qələbənin 20 illiyi", "SSRİ Silahlı Qüvvələrinin 50 illiyi" medalları ilə təltif olunub.

Ş.Mehdiyev 1945-1958-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası Geologiya İnstitutunun neft yataqları geokimyası laboratoriyasına rəhbərlik edib. Sonra həmin institutun rəhbəri olub.

O, 1955-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1958-ci ildə isə akademiyanın həqiqi üzvü, akademiki seçilib.

7 il Kirov adına (indiki BDU) Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində çalışıb.

Şəfaət Mehdiyev 1967-ci ildən Azərbaycan Neft Kimya İnstitutunun neft-qaz yataqlarının geologiyası və kəşfiyyatı kafedrasının müdiri, 1971-ci ildən ömrünün sonunadək isə həmin kafedranın professoru olub.

*Bakı şəhərinin Nərimanov rayonunda Böyük Vətən müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış abidə*



## Onlar Vətənə və elmə xidmət edirdilər!



## Maqsud İsfəndiyar oğlu Əliyev (1924)

Tiflisdə müəllim ailəsində anadan olub. 1941-ci ildə Tiflis Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə imtahansız qəbul olunub. 1943-cü ilə qədər burada oxuyub. Müharibə onun da təhsilini bir neçə illik təxirə salıb. 1943-cü ildə M.Əliyev cəbhəyə gedir və Zaqafqaziya Cəbhəsinin tərkibindəki aerodrom xidməti batalyonuna göndərilir.

Böyük Vətən müharibəsi cəbhəsindəki döyüşlərdə fəal iştirak edən M.Əliyev II dərəcəli Vətən müharibəsi ordeni, "Almaniya üzərindəki qələbəyə görə", "Əməkdə igidliyə görə" döyüş və bir sıra yubiley medalları ilə təltif edilib.

Ordudan tərxis olunduqdan sonra M.Əliyev 1950-ci ildən təhsilini Bakıda, Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsində davam etdirib. O, aşqarların kristallaşmaya təsirini tədqiq etmiş, selenin elektrik, optik, istilik xassələrini öyrənmiş və bir sıra maraqlı, həm də çox vacib nəticələrə nail olmuş ilk azərbaycanlı alimlərdən biridir.

Bütün bunların hamısını tək namizədlik dissertasiyasında ümumiləşdirən M.Əliyev 1957-ci ildə alimlik dərəcəsinə layiq görüldü.

1969-cu ildən Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1980-ci ildən isə həqiqi üzvü, akademiki seçilib.

Azərbaycan elminin inkişafındakı böyük xidmətlərinə, eləcə də səmərəli pedaqoji fəaliyyətinə görə M.Əliyev "Əməkdar elm xadimi" fəxri adını daşıyır. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı, "Xalqlar dostluğu" ordeni, akademik Y.Məmmədəliyev adına medalla təltif olunub. Onun adı Azərbaycan Respublikasının Əmək Şöhrəti və Ümumittifaq "Bilik" Cəmiyyətinin Şərəf kitabına düşüb.

## İbrahimov İsmayıl Əli oğlu (1915-2016)



İsmayıl İbrahimov Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olub. Azərbaycanın görkəmli dövlət və elm xadimi, texnika elmləri doktoru.

AMEA-nın həqiqi üzvü, akademiki, Sosialist Əməyi Qəhrəmanıdır. Böyük Vətən müharibəsi iştirakçısıdır. Müharibənin başlanma xəbərini öz iş yerində, Bakı şəhərindəki Krasin adına elektrik stansiyasında almışdı.

İbrahimov İsmayıl cəbhədə alman-faşist işğalçılarına qarşı aparılan döyüşlərdə göstərdiyi mərdliyə, igidliyə görə I, II dərəcəli Vətən Müharibəsi, Qırmızı Ulduz ordenləri, "İgidliyə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərindəki qələbəyə görə" medalları ilə təltif olunub. Sonrakı illərdə isə həmin döyüş mükafatlarına 1941-1945-ci illər Böyük Vətən müharibəsindəki qələbənin 20, 25, 50 illiyi, "Krımın azad edilməsinin 50 illiyi" yubiley medalları da əlavə olundu.

İ.İbrahimovun elmi-pedaqoji fəaliyyəti uzun illər rektoru olduğu Azərbaycan Dövlət Neft-Kimya İnstitutu, indiki Azərbaycan Neft Akademiyası ilə bağlıdır. İsmayıl İbrahimov 1970-1978-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışıb.





Onlar Vətənə və elmə xidmət edirdilər!

## Hüseynov İsmayıl Abbas oğlu (1910-1969)



1931-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinin nəzdində olan hüquq şöbəsini bitirib. İ.Hüseynov 1933-cü ildə Moskvada SSRİ Mərkəzi İcraiyyə Komitəsi yanında Millətlər İnstitutunun aspiranturasını bitirdikdən sonra N.Y.Marr adına Maddi-Mədəniyyət Tarixi İnstitutunda, "Vətəndaş müharibəsi" katibliyində, daha sonra isə V.İ.Lenin adına Dövlət Kitabxanasında çalışmağa başlayıb.

Faşist Almaniyasının SSRİ üzərinə hücumundan dərhal sonra, 1941-ci ilin sonunda düşmənlə vuruşan milli hərbi birləşmələr yaradılır.

Bir qələm sahibi, ziyalı, azərbaycanlı olaraq İsmayıl Abbasov da bu hərbi birləşmələrin tərkibindəydi. Həmin illərin arxiv sənədləri arasında Azərbaycan K(b)P MK-nın blankında Cənub-Qərb Cəbhəsi Siyasi İdarə rəisinə yazılan məktub və Azərbaycan Teleqraf Agentliyinin vəsiqəsidə oxuyuruq. "İ.Hüseynov Azərbaycan SSR XKS yanındakı agentliyin Cənub-Qərb cəbhəsi üzrə müxbiridir".

Məktubda daha sonra qeyd edilirdi ki, hərbi müxbirlər Ə.Məmmədxanlı və İ.Hüseynov tərəfindən hazırlanan cəbhə xəbərləri Azərbaycan Teleqraf Agentliyi vasitəsi ilə respublikanın bütün qəzetlərinə çatdırılacaqdır.

İ.Hüseynov 1942-ci ildə əvvəlcə Cənub-Qərb, sonra isə Stalinqrad cəbhəsinin "Qızıl Ordu" adlı ümumi cəbhə qəzetinin redaktor müavini oldu. Həm də böyük siyasi rəhbər hərbi rütbəsindəydi.

İsmayıl Abbas oğlu Hüseynov Böyük Vətən müharibəsi illərindəki xidmətinə görə "Əməkdar igidliyə görə" "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilib.

İsmayıl Abbas oğlu Hüseynov cəbhədən qayıdandan sonra daha böyük ruh yüksəkliyi və həvəslə elmi fəaliyyətlə məşğul olmağa başladı. 1947-ci ildə Moskvada doktorluq dissertasiyası müdafiə etdi. Onun elmi işi Sosialist Əməyi Qəhrəmanı, SSRİ Elmlər Akademiyasının həqiqi üzvü, akademik İ.İ.Mints və SSRİ Elmlər Akademiyasının müxbir üzvü professor A.M.Pankratova kimi Sovet İttifaqının nəhəng tarixçi alimləri tərəfindən yüksək qiymətləndirildi.

Azərbaycan tarixinin ən aktual problemlərinin öyrənilməsi, tədqiqi, ictimai elmlər sahəsində kadrların yetişdirilməsi ilə ciddi məşğul olmağa başlayan professor İ.Hüseynov tariximizin ən qədim mərhələlərindən tutmuş XX əsrin ortalarına qədərki dövrə aid fundamental toplunun yaradılmasına rəhbərlik edir və üççildlik "Azərbaycan tarixi"nin əsas müəlliflərindən və redaktorlarından biri olur.

İsmayıl Abbas oğlu Hüseynovun 1949-cu ildə Azərbaycan SSRİ Elmlər Akademiyasının müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzvü, akademik seçilməsi onun respublikamızda ictimai elmlərin inkişafındakı böyük xidmətlərinin təqdiri, bu yolda çəkdiyi ardıcıl və səbatlı zəhmətə verilən ən yüksək qiymət idi. İ.Hüseynovun elmi axtarışları onun geniş elmi-təşkilati fəaliyyəti ilə həmahəng idi. O, Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutuna, Azərbaycan SSR EA-nın Tarix İnstitutuna, Azərbaycan SSR Elmlər Akademiyasının İctimai elmlər şöbəsinə rəhbərlik etmişdir.

## Onlar Vətənə və elmə xidmət edirdilər!



# Əhmədov Qoşqar Teymur oğlu (1917-1975)

Azərbaycanın Gədəbəy rayonunda anadan olub. Hələ uşaqlıqdan onun riyaziyyata qeyri-adi həvəs və qabiliyyəti özünü büruzə verirdi. Q.Əhmədov natamam orta məktəbi bitirəndən sonra Azərbaycan SSR Maarif Xalq Komissarlığının Bakıdakı pedaqoji texnikumuna götürüldü. Buradakı təhsildən sonra Gədəbəydə, kənd məktəbində riyaziyyat fənnindən dərs deməyə başladı. Qoşqar Əhmədov 1936-cı ildə eyni zamanda həm Azərbaycan Dövlət Universitetinə, həm də Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olundu. Hər iki ali məktəbdə bircə il oxudu. Sonra M.Cavadov və A.Hüseynov kimi görkəmli riyaziyyatçı alimlərin məsləhəti ilə Tibb İnstitutundakı təhsilini dayandırdı. 1941-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini fərqlənmə ilə bitirərək aspiranturaya qəbul oldu. Müharibə başlayanda aspirant Qoşqar Əhmədov da orduya çağırıldı. ADU-nun aspiranturasındakı təhsilini cəbhədən qayıdandan sonra davam etdirə bildi. Namizədlik dissertasiyasını müdafiə edəndən sonra cəbr və nəzəriyyə funksiyaları kafedrasının dosenti, 1952-1956-cı illərdə isə ADU-nun fizika-riyaziyyat fakültəsinin dekanı olur. Elm yolunu davam etdirmək arzusu onu M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin doktoranturasına aparıb çıxarır. 1959-cu ildə doktorluq dissertasiyası müdafiə edir. Q.Əhmədov 1960-cı ildən ömrünün sonunadək Azərbaycan Dövlət Universitetində Diferensial və inteqral tənliklər kafedrasının müdiri vəzifəsində çalışdı. Professor Q.Əhmədov qeyri-xətti inteqral tənliklər sahəsində nəhəng alim kimi tanınmışdı. Mücərrəd fəzadakı tənliklər üçün majorant üsulunu da məhz o, işləyib hazırlayıb. Q.Əhmədov həmin istiqamətlərlə yanaşı, 1965-ci ildən riyazi nəzəriyyələrin optimal proses problemləri ilə intensiv surətdə məşğul olurdu. Onun yaratdığı optimal idarəetmə məktəbi indiyə qədər Azərbaycanda uğurla fəaliyyət göstərir.

Ötən yüzilliyin 60-70-ci illərində Azərbaycan haqlı olaraq fizika-riyaziyyat elminin nəhəng mərkəzi kimi böyük nüfuz qazanmışdı. Keldış, Tixonov, İlyin kimi dünya şöhrətli alimlər tez-tez Bakıya gəlir, A.Hüseynov, K.Əhmədov, A.Babayev, F.Maqsudov, H.Çəndirli, Y.Məmmədov, C.Allahverdiyev kimi tanınmış Azərbaycan riyaziyyatçıları ilə birgə elmi konfranslar, simpoziumlar təşkil edirdilər. Azərbaycanın həmin riyaziyyatçı alimləri Vətənə, xalqa, elmə xidmət etməkdə bir örnək və nümunə idilər.



***Şəkildə (soldan sağa):*** *Əmir Həbibzadə, fizika-riyaziyyat elmləri doktoru Hüseyn Çəndirli, Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti, akademik Zahid Xəlilov, Akademiyanın müxbir üzvü Maqsud Cavadov və görkəmli rus-sovet riyaziyyatçı alimi, Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Tixonov konfrans iştirakçıları arasında*





## Onlar Vətənə və elmə xidmət edirdilər!



# Mustafa bəy Topçubaşov (1895-1981)

Mustafa Ağabəy oğlu Topçubaşov - Azərbaycan sovet cərrahı, ictimai və dövlət xadimi. Azərbaycanda tibb təhsili və səhiyyənin təşkilatçısı, respublikada cərrahlıq elmi məktəbinin banilərindən biri. Azərbaycan SSR EA akademiki (1945), Bolqarıstan Xalq Respublikası EA-nın müxbir üzvü (1951), SSRİ Tibb Elmləri Akademiyasının akademiki (1960), SSRİ Dövlət mükafatı laureatı (1943), Sosialist Əməyi Qəhrəmanı (1975), Azərbaycan SSR əməkdar elm xadimi (1940), Azərbaycan SSR EA vitse-prezidenti (1951-1956 və 1969-1981). Azərb. SSR Ali Sovetinin sədri (1955-59 və 1967-71), Azərb. SSR Ali Sovetinə (1-10-cu çağırış) deputat.

Mustafa Topçubaşov 1895-ci ildə Qərbi Azərbaycanda (İndiki Ermənistan Respublikası) Göykümbət kəndində anadan olmuşdur. 1904-cü ildə ibtidai təhsilini başa vurub gimnaziyaya daxil olub. 1914-cü ildə gimnaziyanı bitirib. Valideynlərinin onu uzağa buraxmağa ürəkləri gəlməsə də, Mustafa Kiyevə gedib və orada universitetin tibb fakültəsinə qəbul olunub. 1919-cu ildə təhsilini başa vuran gənc həkim Naxçıvan və Bakı xəstəxanalarında cərrahlıq edir. 1920-1923-cü illərdə ADU-nun (Azərbaycan Dövlət Universiteti) tibb fakültəsinin fakültə cərrahlığı klinikasında ordinator, 1923-1930-cu illərdə fakültə cərrahlığı klinikasında assisent işləmişdir. 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. Bu işin əhəmiyyətinə görə M.Topçubaşova professor adı verilir və o, Azərbaycan Tibb Universitetinin cərrahiyyə kafedrasının (indi - III cərrahi xəstəliklər kafedrası) müdiri seçilərək ömrünün sonuna qədər həmin vəzifəni şərəflə yerinə yetirir.Uzunmüddətli elmi axtarışlar, səylə aparılan tədqiqatlar nəticəsiz qalmır. Odur ki, dünya tibb elmində bir sıra yeniliklər də məhz bu Azərbaycan aliminin adı ilə bağlıdır.

M.Topçubaşov 1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulunu - inyeksion efir-yağ narkozunu - analgeziya üsulunu kəşf etdi.

1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası tərəfindən Farmakologiya Komitəsinin iclasında efir-yağ qarışığının "Analgezin" adı altında istehsal edilməsinə icazə verildi. Topçubaşov Böyük Vətən müharibəsi illərində Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində çalışıb. Görkəmli alim SSRİ-də ilk dəfə olaraq təxliyə hospitallarının yaradılmasının təşəbbüskarı olub və bu təklif hərbi cərrahlıq işinin təşkilində uğurla istifadə edilib. Həmin illərdə Mustafa bəy bir-birinin ardınca ağır cərrahiyyə əməliyyatları aparıb və yüzlərlə, minlərlə yaralı döyüşçünü ölümün pəncəsindən xilas edərək yenidən həyata qaytarıb. Onun başçılıq etdiyi klinikada müasir cərrahlıq problemləri - öd yolları xəstəliklərinin, xərçəngin cərrahi müalicəsi, travmatologiya məsələləri, bərpa cərrahlığı və s. xəstəliklər üzrə daimi axtarışlar aparılıb, yeni təkliflər irəli sürülüb. Müharibədən sonra professor M.Topçubaşov 1945-1950 illərdə Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı olmuşdur. 1945-1948-ci illərdə Azərbaycan SSR EA Eksperimental Tibb İnstitutunda direktor vəzifəsində çalışır. Müxtəlif dövrlərdə iki dəfə (1951-1956 və 1969-1981) Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsini daşıyır.

1954-cü ildə özü işlədiyi kafedrada operasion-auditoriya təşkil edir. 1981-ci il noyabrın 23-də Bakı şəhərində vəfat etmişdir.

## Onlar Vətənə və elmə xidmət edirdilər!



### Məmmədyarov Məhərrəm Əli oğlu (1924)

Azərbaycan alimi. Kimya elmləri doktoru. AMEA-nın həqiqi üzvü, akademik. Böyük Vətən müharibəsi iştirakçısı. M.Məmmədyarov çağırışçı yaşına təzəcə çatan kimi, 1943-cü il fevral ayının 29-da ordu sıralarına yollandı. Cəbhədə, xüsusən də Kursk ətrafındakı döyüşlərdə göstərdiyi igidliyə görə I-ci dərəcəli Vətən Müharibəsi ordeni, "Döyüş xidmətlərinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsindəki əmək igidliyinə görə", müharibədən sonra isə bir çox yubiley medallarına layiq görüldü. Cəbhədən qayıdandan sonra Azərbaycan Dövlət Universitetini bitirib, kimyaçı ixtisasına yiyələndi. Sintetik yağların üç yeni tipi üzrə əsaslar onun tərəfindən işlənib hazırlanıb.

Akademik M.Məmmədyarov 1970-1980-ci illərdə Naxçıvan Elm Mərkəzinin direktoru vəzifəsində çalışıb. 2002-ci ildən isə AMEA Neft-Kimya Prosesləri İnstitutu nəzdindəki "Sintetik yağlar laboratoriyası"nın müdiridir.

### Abasov Məzahir Həmid oğlu (1918-2002)



Bakıda fəhlə ailəsində doğulub. 1937-38-ci illərdə Odessadakı Ümumittifaq Kimya Texnologiya İnstitutunda oxuyub. İkinci kursda ikən ordu sıralarına çağrılıb və Krasnodar diyarının Yeysk şəhərinə Stalin adına Hərbi-Dəniz məktəbinin uçuş heyəti şöbəsində təhsil almaq üçün göndərilib. 1940-cı ildə həmin məktəbi aviasiya-leytenantı rütbəsi ilə bitirib, Qara Dəniz Donanması Hərbi-Hava Qüvvələrinin uçuş heyətlərindən birinə komandir təyin edilib.

M.Abasov 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsilini davam etdirir. On ildən sonra ADU-da namizədlik, 1967-ci ildə isə "Bakı Böyük Vətən müharibəsi illərində" monoqrafiyası əsasında doktorluq dissertasiyası müdafiə edir.

M.Abasov digər bir monoqrafiyasında, 1990-cı ildə çapdan çıxmış "Bakı şəhər partiya təşkilatı 1941-1945-ci illərdə" adlı əsərində ilk dəfə olaraq təkzibolunmaz faktlarla, dəlillərlə sübuta yetirdi ki, SSRİ-ni yanacaqla təmin edən əsas məhz Bakı olub. Müharibə vaxtı cəbhəyə, orduya lazım olan yanacağın 70%-ni Bakı verirdi. Bundan əlavə Bakıda 130 növdən çox silah hazırlanıb, cəbhəyə göndərilirdi.

M.Abasov uzun illər Bakı şəhəri Səbail rayon Müharibə Veteranları Şurasının sədri vəzifəsində çalışıb.

M.Abasov 1995-ci ilin noyabr ayında Azərbaycan Prezidenti H.Əliyevin başçılıq etdiyi hökumət nümayəndə heyətinin tərkibində Hitler faşizmi üzərindəki qələbənin 50 illiyi münasibəti ilə Londonda, Parisdə və Moskvada keçirilən tədbirlərdə iştirak edib.

M.Abasov düşmənlə döyüşlərdə göstərdiyi igidliyə görə Qırmızı Bayraq, I dərəcəli Vətən Müharibəsi ordenləri, 4 döyüş və 13 yubiley medalları ilə təltif edilib. O, həmçinin MDB ölkələri Veteranlar Şurasının və Rusiya Müharibə Veteranları Komitəsinin fəxri "Veteran" nişanlarına layiq görülüb.





***Azərbaycan vətəndaşı, fransız əsilli İvonna Botto Jan müharibə vaxtı Fransa Milli Müqavimət Hərəkatı sıralarında döyüşən azərbaycanlı partizan Səməd Şirməmmədovla ailə qurub və müharibədən sonra ondan ayrılmayıb, həyat yoldaşı ilə Azərbaycana gəlib. İvonna Botto Jan İmişli rayonunun Murquzalı kəndində yaşayır. Onun yeddi övladı, 30 nəvəsi, 22 nəticəsi var. İvonna Botto Jan İkinci Dünya müharibəsi qurtarandan uzun illər sonra, 2011-ci ildə öz ana Vətəninə - Fransaya gedib. Bir ay orada qalandan sonra yenə də Azərbaycana qayıdıb.***





*Fransa Prezidenti Fransua Ollandın Azərbaycan vətəndaşı olan fransız İvonna xanım Botto ilə görüşü*



# Zapletin Georgi Pavloviç (1941)

1941-ci ildə Bakıda doğulub. Əmək fəaliyyətinə 1960-cı ildə başlayıb. İlk iş yeri "Stalinneft" NÇİ-nin (sonralar 26 Bakı komissarı adına NÇİ) 6-cı mədəni olub. O, burada operator, neft hasilatı üzrə usta köməkçisi kimi çalışıb. 1964-1972-ci illərdə komsomol sıralarında, o cümlədən Neft Daşları Komsomol Komitəsinin katibi vəzifəsində işləyib. Daha sonralar partiya orqanlarına irəli çəkilib. Azərbaycan Kommunist Partiyası MK-nın təbliğat və təşviqat şöbəsində təlimatçı, Şamaxı rayon partiya komitəsinin ideologiya üzrə katibi olub.

Azərbaycan KP MK-nın qərarı ilə 1979-cu ildə daxili işlər orqanlarında işə göndərilib. Azərbaycan SSR Daxili İşlər Nazirliyinin siyasi-tərbiyə işləri şöbəsinin rəisi vəzifəsinə təsdiq edilib. DİN orqanlarında 14 il çalışıb.

Ehtiyatda olan polkovnik Georgi Zapletin hazırda təqaüddədir. O, "Ya Ətağa cəddi", "Elmə həsr olunan həyat", "Neft Daşları - mərdliyin və əmək qəhrəmanlığının 60 illiyi", "İosif Qoslavskiy - Bakı şəhəri tarixindəki memar", "Azərbaycan 1941-1945-ci illər Böyük Vətən müharibəsində" kitablarının müəllifidir.

Atası 1942-ci ildə cəbhədə həlak olub. G.Zapletin evlidir. İki övlad atası, üç nəvənin babasıdır.

Hazırda Azərbaycan Respublikası Müharibə, əmək və silahlı qüvvə veteranları təşkilatının plenum üzvüdür. Qarabağ müharibəsi veteranı - Dağlıq Qarabağ müharibəsinin iştirakçısıdır. Dövlət mükafatlarına layiq görülüb.

***Azərbaycan alimlərinin Böyük Vətən müharibəsi illərindəki rolu haqqında zəngin məlumat təqdim etdiyinə görə köhnə dostuma, gözəl insana, Azərbaycanın layiqli vətəndaşı Georgi Zapletinə öz dərin təşəkkürümü bildirirəm.***

***G.Zapletinin müəllifi və tərtibçisi olduğu "Elmə və Vətənə xidmət etmişlər" kitabı Azərbaycanın Böyük Vətən müharibəsində iştirakına həsr olunmuş tarixi salnamənin yazılması işinə çox qiymətli bir töhfədir.***

***Ziyad SƏMƏDZADƏ***








## Onlar Vətənə və elmə xidmət edirdilər!



# Əlisöhbət Sumbat oğlu Sumbatzadə (1907-1992)

"XIX əsrdə Azərbaycan sənayesi", "XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı" və digər fundamental monoqrafiyalar müəllifi olan akademik Əlisöhbət Sumbatzadə Azərbaycan iqtisadiyyatının tarixinin araşdırılması və Böyük Vətən müharibəsi illərində alman faşizmi üzərində qələbədə xalqımızın rolunun öyrənilməsinin vacibliyini vurğulamışdır. Görkəmli tarixçi-şərqşünas, eləcə də XIX-XX əsrlərdə Azərbaycanın sosial-iqtisadi tarixi sahəsində tanınmış bu mütəxəssis Bakı şəhərinin Əmircan qəsəbəsində anadan olub. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin tarix və etnologiya şöbəsini bitirib. Azərbaycan SSR-in əməkdar elm xadimi, akademik Ə.Sumbatzadə müxtəlif illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti (1957-1959), Azərbaycan SSR Elmlər Akademiyasının Orta və Yaxın Şərq Xalqları İnstitutunun direktoru (1963-1970), Tarix İnstitutunun direktoru (1970-1972) və Azərbaycan SSR Elmlər Akademiyasının ictimai elmlər şöbəsinin akademik katibi vəzifələrində çalışıb. "Azərbaycan sənayesi XIX əsrdə" adlı fundamental əsərində neft sənayesinin inkişafı, milli burjuaziyanın formalaşması, xarici kapitalın Azərbaycan neft sənayesinə axını haqqında çox zəngin məlumatlar verilir. Azərbaycan neft sənayesinin XX əsrin əvvəllərindəki inkişaf prosesi akademik Ə.Sumbatzadə tərəfindən dərindən tədqiq edilmişdir.

Ə.Sumbatzadə 85 illik ömrünün yarım əsrdən çoxunu zəngin tariximizin, ictimai-iqtisadi və fəlsəfi fikrimizin müxtəlif problemlərinin araşdırılmasına həsr etmiş, bu sahədə xalqımıza fundamental monoqrafiyalar bəxş etmişdir. Bunların arasında Azərbaycan xalqının imperiyaya qarşı ilk milli-azadlıq hərəkatına həsr edilmiş «1837-ci il Quba üsyanı» (Bakı, 1961), Azərbaycanın kapitalizm formasiyasını keçməməsi, xalqımızın isə feodal-patriarxal uklada, adət-ənənələrə malik olması kimi «elmi» böhtanlara tarixi faktların dili ilə cavab verdiyi, bu tezislərin qeyri-elmi, əsassız ittihamlar olduğunun təsdiq edildiyi «XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı» (Bakı, 1958), XIX əsrdə Azərbaycanın Rusiya imperiyasında zəngin sənaye potensialına malik olmasına həsr etdiyi «XIX əsrdə Azərbaycan sənayesi» (Bakı, 1964) kimi fundamental monoqrafiyaları göstərə bilərik.

Bu baxımdan xüsusilə ictimaiyyətşünaslıq elmi üçün həlli vacib olan və 60-80-ci illərdə tədqiqinə böyük ehtiyac duyulan xalqımızın mənşəyi problemini yada salmaq istərdik. Xatırladığımız dövrdə bu problemin öyrənilməsi, onun vacibliyi hamıya bəlli olsa da, elm naminə, elmi həqiqət naminə məhz Əlisöhbət müəllim kimi bir alimin bu problemin həllinə qoşulması tarixi zərurət idi. Əlisöhbət müəllim özünün elmi potensialına, müxtəlif elmlərə yaxından bələd olmasına, elmi təcrübəsinə

söykənərək, Azərbaycan xalqının etnogenezi probleminin öyrənilməsinə təşəbbüs göstərdi və uzun illərdən bəri apardığı tədqiqatları ümumiləşdirərək, 1990-cı ildə - ömrünün müdrik çağında «Azərbaycanlılar – etnogenez və xalqın formalaşması» adlı son dərəcə vacib monoqrafiyanı yazdı və elmdə mənşəyimiz haqqında yeni konsepsiyanın əsasını qoydu.

Əsərin elmi məziyyətini təkcə bir fakt təsdiq edir ki, onun müəllifi monoqrafiyanın yazılmasında tariximizə, arxeologiya və etnoqrafiyamıza, dil və ədəbiyyatımıza, fəlsəfi və iqtisadi fikrimizə və ümumiyyətlə, mənşə probleminə aid olan 578 adda məxəzdən, ədəbiyyatdan istifadə etmişdir. Belə bir əsərin meydana çıxması, şübhəsiz, elmimizin böyük nailiyyəti idi.

Akademik Ə.Sumbatzadənin bu əsəri təkcə tarixşünaslığımız üçün deyil, həm də monoqrafiyanın meydana çıxdığı dövrdə xalqımıza və onun dilinə müxtəlif ad qoyanlara da tutarlı cavab idi. Yəni, 70-80-ci illərdə - artıq Azərbaycan etnosunun vahid Azərbaycançılıq ideologiyası əsasında, Azərbaycan xalqı adı altında bütün dünya xalqları arasında tanınıb-seçildiyi bir vaxtda bəziləri "azərbaycanlı" istilahını qəbul etməyərək, xalqımızı "azərilər", "azəri türkləri", türk mənşəli xalqların dilləri arasında xüsusi ahəng qanunlarına məxsus olan Azərbaycan dilini isə "azəri dili" adlandırmağa cəhd göstərirdilər. Əslində bu, dünyanın etnik xəritəsindən Azərbaycan adlı dövlətin və onun aparıcı etnosu olan azərbaycanlıların silinməsi demək idi. Odur ki, burada tarixi keçmişimizə bələd olan, heç bir emosiyalara qapılmayan bir ağsaqqal tədqiqatına, sözünə böyük ehtiyac duyulurdu. Yəni, xalqımızın adını müxtəlif səmtlərə yönəldənlərə tutarlı elmi cavab vermək lazım gəlirdi.

Bu missiyanı da yenə Əlisöhbət müəllim öz üzərinə götürmüş oldu və opponentlərinə məntiqli cavab verdi. Tarixi araşdırmalar ilə təsdiq etdi ki, bir çoxlarının xalqımıza şamil etmək istədiyi "azəri" istilahı və "azəri dili" İran ərazisindəki irandilli tayfalardan birinin dili olmuşdur. Ona görə də "azəri" terminini Azərbaycana, "azəri dilini" isə Azərbaycan dilinə şamil etməyə çalışanlara müəllif bəyan etdi ki, bunların heç bir elmi əsası yoxdur və xalqımıza yamaqdır. Bu, dövrümüz üçün, xalqımızın adı və mənşəyi üçün məhz vaxtında gəlinən nəticə idi.

Sumbatzadənin əsərlərində elmi həllini tapan digər problem Azərbaycan xalqını köçəri adlandıranlara cavab verilməsidir. Maldarlıq təsərrüfatının xarakterini təhlil edən müəllif Azərbaycan maldarlarının yaz və yayda yaylağa, qışda isə qışlağa köçmələrini əsas götürüb, azərbaycanlıları köçəri adlandıran XIX əsr müəlliflərindən fərqli olaraq, bunu köçərilik əlaməti deyil, düzgün olaraq Azərbaycanın təbii-coğrafi şəraiti ilə izah etmiş, bununla da azərbaycanlıların köçəri xalq olmaması nəticəsinə gəlmişdir. Deməli, adıçəkilən hər iki problemə tarixşünaslığımızda elmi cavab vermək də məhz Ə.Sumbatzadənin adı ilə bağlıdır.

XIX əsrdə Azərbaycanın ictimai-iqtisadi tarixinin bütün mənzərəsinin elmi təhlilini vermək üçün onun sənaye həyatının öyrənilib tədqiq edilməsi də xüsusi əhəmiyyət kəsb edirdi. Bu vacib, ümdə problemin elmi həlli də tarixşünaslığımızda yenə böyük alimin adı ilə bağlıdır.1964-cü ildə "Elm" nəşriyyatı tərəfindən buraxılan "XIX əsrdə Azərbaycan sənayesi" adlı əsəri ilə müəllif tarixşünaslığımızda yeni bir elmi istiqamətin əsasını qoydu.

Sadaladıqlarımız Əlisöhbət müəllimin qələmindən çıxan onlarca monoqrafiyanın, saysız elmi məqalələrin çox cüzi bir hissəsini təşkil edir. Cəfakeş alimin bir çox elmi əsərləri Azərbaycandan xaricdə çap olunmuşdur. Əlisöhbət müəllim öz məruzə və çıxışları ilə dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq konfranslarda respublikamızı, onun ictimaiyyətşünaslıq elmini ləyaqətlə təmsil etmiş, xalqımıza başucalığı gətirmişdir. O, sözün həqiqi mənasında, elm fədaisi və təşkilatçısı idi. Azərbaycan tarixi və iqtisadiyyatında bu gün əzmlə çalışan yüzlərlə yüksək ixtisaslı alim-tədqiqatçılar məhz Ə.Sumbatzadə şinelindən çıxanlardır, Əlisöhbət müəllimin adı ilə bağlı məktəbin yetirmələridir. Əlisöhbət müəllimin elmi, pedaqoji irsindən söz açarkən onun elm tariximiz haqqında yazdığı onlarla dərin məzmunlu məqalələrini unutmaq olmaz. Hələ 50-ci illərdən başlayaraq o, respublikada ictimai elmlərin, əsasən Azərbaycan tarixşünaslığının inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir, bu sahənin respublika hüdudlarından kənarda da tanınması sahəsində əlindən gələni əsirgəmirdi. Azərbaycan tarixinin öyrənilməsi, tədqiqi və bu sahədə qarşıda duran ümdə vəzifələr haqqında yazdığı sanballı məqalələri təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də çap olunmuşdur.

1958-ci ildə Azərbaycan EA Şərqşünaslıq İnstitutu təşkil olunduqdan sonra Ə.S.Sumbatzadə həmin elm mərkəzində öyrənilən "Yaxın və Orta Şərq ölkələrində milli azadlıq və fəhlə hərəkatı" probleminin rəhbəri olmuşdur.

Akademik Ə.S.Sumbatzadəni respublikamızda və ondan kənarda həm də bacarıqlı elm təşkilatçısı kimi tanıyırdılar. 1957-1959-cu illərdə Azərbaycan EA-nın vitse-prezidenti, sonra Yaxın və Orta Şərq Xalqları İnstitutunun direktoru və İctimai elmlər bölməsinin akademik-katibi vəzifəsində işləyərkən onun təşkilatçılıq fəaliyyəti özünü daha bariz şəkildə göstərmişdir. Onun rəhbərliyi altında aparılan tədqiqatlar xalqımızın milli tarixi, arxeologiyası, etnoqrafiyası, memarlığı, incəsənəti, dili, ədəbiyyatı, iqtisadiyyatı, fəlsəfi fikri və şərqşünaslığın ən ümdə problemlərinin araşdırılmasına yönəldilmişdir. Şərq müdrikliyini yada salan, elimizin, elmimizin ağsaqqalı Əlisöhbət müəllim dağ qartalı, ucalıq timsalı idi. Baxışında dünya mənalanan, duruşunda dünyalaşan bu insan əfsanə və nağıllarımızdakı qartalları, qəhrəmanları xatırladırdı, gözlərimiz önündə bütün əzəməti, bütün vüqarı ilə canlanırdı. Çox qəribədir, onun ürəyinin təpəri artanda, qüruru dağlar aşanda, çöhrəsi sərtləşəndə, gözləri şimşəkləşəndə, bəyaz salxım saçları pərişanlananda bir ayrı görkəm alar, dağ qartalına bənzəyərdi.

Məşhur akademik Əlisöhbət müəllim dünya görmüş, zaman yaşamış şöhrətli alim idi. Düşüncəsi dərin, fikri aydın, məntiqi güclü, erudisiyası geniş, hafizəsi qibtəedici idi.

XX əsr haqqında düşünərkən onun xalqımızın tarixində, mədəni həyatında hansı izlər buraxdığı istər-istəməz gözümüz önündə canlanır. Azərbaycanın iki dəfə müstəqillik qazanması, elm, təhsil ocaqlarımızın yaranıb inkişaf etməsi, respublikamızın dünyada tanınması və başqa yadda qalan digər hadisələr məhz bu əsrlə bağlıdır. Lakin bütün bunlarla yanaşı, XX əsr həm də xalqımızın yaddaşında bir çox elm xadimlərimizin yaşayıb-yaratması, tarixə çevrilməsi ilə yadda qalacaqdır. Onların sırasında elmi irsi, çoxsaylı sanballı monoqrafiyaları ilə yanaşı, həm də xüsusi görkəmi, ali elmi məclislərdə özünəməxsus çıxışları, deyərdik ki, çoxlarına nəsib olmayan hazırcavablığı, müdrik məntiqi və natiqlik məharəti ilə seçilən Əlisöhbət Sumbatzadə adlı bir elm cəfakeşinin də olması şübhəsizdir. Biz bu adla fəxr edirik. Neçə illərdir ki, Əlisöhbət müəllimin elmimizdə, akademiyamızda yeri görünür. Lakin onun əziz xatirəsi qədirbilən yetirmələrinin qəlbində həmişə yaşayır və yaşayacaqdır.

**Ziyad SƏMƏDZADƏ**
**akademik,**
**Qəmərşah CAVADOV**
**professor.**

## Onlar Vətənə və elmə xidmət edirdilər!



# YAQUBOV ƏHƏD ƏLƏKBƏR OĞLU (1908-1979)

Bakıda dənizçi ailəsində anadan olub. Azərbaycan sovet geoloqu, vulkanoloqu, Azərbaycanın palçıq vulkanları üzrə mütəxəssis idi. Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, akademik Ə.Yaqubov Xəzərdə neft yataqlarını aşkarlamış geoloq alimlərdən biri sayılır. Elm sahəsindəki birinci dərəcəli Stalin mükafatına layiq görülüb. Azərbaycanın görkəmli alimi Ə.Yaqubovun həyatında 1941-1942-ci illər çox məhsuldar olub. 1941-ci ilin mart ayında SSRİ Elmlər Akademiyasının Yeraltı Yanacaq Qazıntılar İnstitutunda Ə.Yaqubovun "Abşeron yarımadasının qərb hissəsindəki palçıq vulkanları və onların neftliliklə əlaqəsi" mövzusunda namizədlik dissertasiyasının müdafiəsi zamanı elmi işin yüksək nəzəri və praktiki əhəmiyyətini nəzərə alan görkəmli sovet alimi, akademik N.D.Zelinskinin sədri olduğu institutun elmi şurası yekdilliklə Ə.Yaqubova geologiya-mineralogiya elmləri doktoru, alimlik elmi dərəcəsi verdi. Beləliklə, Ə.Yaqubov Azərbaycan geoloqları arasında ilk elmlər doktoru oldu.

Əhəd Yaqubov 1941-ci ildə çap olunmuş "Abşeron yarımadasının qərb hissəsindəki palçıq vulkanları və onların neftliliklə əlaqəsi" elmi monoqrafiyasına görə birinci dərəcəli Stalin mükafatı aldığı zaman SSRİ Elmlər Akademiyasının akademiki N.S.Şatski bu kitab haqqında öz məktubunda yazırdı ki, yalnız dərin dünyagörüşü və böyük enerjili insan palçıq vulkanlarının sirləri üzərindəki pərdəni çəkə bilərdi. Heç şübhəsiz, bu kitab gələcəkdə Azərbaycanın klassik vulkanları ilə məşğul olacaq bütün tədqiqatçılara əsas mənbə kimi xidmət edəcəkdir."

Ə.Yaqubov 1949-cu ilin axırında "Azdənizneft", sonra isə "Azdənizneftkəşfiyyat" birliklərinin rəisi təyin edildi. 1952-1953-cü illərdə "Azneft" Birliyi qazma trestinin baş geoloqu vəzifəsində çalışdı. Sonrakı illərdə M.Əzizbəyov adına Azərbaycan Neft Kimya İnstitutunun sahə və problem məsələləri üzrə laboratoriyasına rəhbərlik etdi.

Azərbaycanın görkəmli geoloq alimi 1966-cı ildə Elmlər Akademiyasının Geologiya İnstitutunda, keçmiş SSRİ-də yeganə palçıq vulkanları laboratoriyasını yaratdı. Bundan beş il sonra isə Ə.Yaqubov dünya geologiya ədəbiyyatı tarixində ilk dəfə "Azərbaycan palçıq vulkanlarının Atlası"nı nəşr etdirdi. Həmin əsərlə müəllif Azərbaycanda təbiətin bu möcüzəsinin öyrənilməsinə yekun vurdu. Atlas nadir bir əsər kimi nəzəri və praktiki cəhətdən böyük maraq doğurur.

Neft sənayesi sahəsində səmərəli fəaliyyətinə, Böyük Vətən müharibəsi dövründə cəbhənin yanacaqla təmin olunmasında, elmi və mühəndis kadrlarının hazırlanmasında göstərdiyi səmərəli fəaliyyətinə görə akademik Ə.Yaqubov Lenin, Qırmızı Əmək Bayrağı, iki dəfə "Şərəf nişani" ordeni, "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində əmək igidliyinə görə" medalları ilə təltif edilib. İki dəfə birinci dərəcəli SSRİ Dövlət Mükafatı laureatı olub.





# MARŞLAR VƏ MAHNILAR QƏLƏBƏYƏ SƏSLƏYİRDİ

***Azərbaycanın mədəniyyət və incəsənət xadimləri düşmən üzərində qələbəyə çox dəyərli töhfələr verirdilər. Yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar sovet adamlarında Vətənə dərin məhəbbət, düşmənə sonsuz nifrət hissləri aşılayır, faşistlərin darmadağın edilməsində sənətin gücünə güvənib, öz köməklərini əsirgəmirdilər.***

Böyük Vətən müharibəsinin başladığı iki həftə ərzində müharibə əleyhinə 10 çap vərəqi həcmində toplu nəşr edildi. Topluya Azərbaycanın Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Rəsul Rza, Mirzə İbrahimov, Məmməd Səid Ordubadi, Osman Sarıvəlli, Zeynal Xəlil, Əhməd Cəmil, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Cəfər Xəndan və b. şairlərinin şeirləri daxil edilmişdi. Az sonra toplu rus dilinə tərcümə edildi və Qızıl Ordu sıralarında xidmət edən bir sıra rus döyüşçü-şairlərinin şeirləri də bu nəşrə əlavə olundu. 15 çap vərəqi həcmində, rusca nəşr edilən bu kitaba əlavə olaraq həmin ilin sonunacan "Döyüşən qələmlər" adlı üçüncü kitab da çapdan çıxır. Bu kitaba Azərbaycan naşirlərindən Süleyman Rəhimov, M.S.Ordubadi, Mir Cəlal, Mehdi Hüseyn, Əvəz Sadıq, Ənvər Məmmədxanlı, Yusif Şirvan və b. əsərləri daxil edilir. 15 çap vərəqi həcmində olan bu kitabın ardınca "Vətən haqqında nəğmələr" adlı 6 çap vərəqindəki dördüncü kitab "Uşaqgəncnəşriyyat"da çapdan çıxır. Kitabda gənclər və uşaqlar haqqında vətənpərvərlik mahnıları, marş və şeirlər toplanmışdır.

Artıq növbəti kitablar da çapa hazır idi:

1. 30 çap vərəqi həcmində şeirlər toplusu;
2. "Faşizm bəşər mədəniyyətini məhv edir" adlı, 5 çap vərəqi həcmindəki məqalələr toplusu. Kitaba Səməd Vurğun, Məmməd Arif, Mikayıl Rəfili, Mehdi Hüseyn, Mirzə İbrahimov, Hidayət Əfəndiyev, Əkbər Ağayev kimi Azərbaycan tənqidçi və publisistlərinin məqalələri daxil edilmişdi.

Böyük Vətən müharibəsinin ilk günlərindən Azərbaycan mətbuatında aşağıdakı elmi və publisistik yazılar işıq üzü gördü:

Səməd Vurğun: "Faşizm bəşər mədəniyyətini məhv edir", Məmməd Arif. "Faşist ilanın başı əziləcək", H.Əfəndiyev: "Faşist Almaniyasında bədii ədəbiyyat", Mehdi Hüseyn: "Faşizm mədəniyyətin düşmənidir", Əkbər Ağayev: "Faşizmin irq nəzəriyyəsi", M.Cəfərov: "Üçüncü imperiyanın sələfi", M.Cəfərov: "Xaç yürüşü iflasa uğradı", Mikayıl Rəfili: "Tarixin dərsi", Mirzə İbrahimov: "Faşizmə ölüm", Heydər Hüseynov: "Faşizmin irq nəzəriyyəsi". Eləcə də, hərb və müdafiə mövzusunda yazılan pyeslər: Mehdi Hüseyn: "And", Süleyman Rüstəm "Partizanlar", Sabit Rəhman: "Fitnə", Zeynal Xəlil: "Şərəf bayrağı". Həmçinin, Abdulla Şaiqin "Sovet uşaqlarının vətənpərvərliyi", Mir Cəlalın - "Vətən müharibəsi günlərində Azərbaycan neftçilərinin qəhrəmanlığı", İmran Qasımovun "Tibb bacısı cəbhədə", Əhməd Cəmilin "Nənə və nəvə", Əvəz Sadıqın "Diversantlar", "Zəvzək olma", Sabit Rəhmanın "Anaların qəlbi", Mehdi Hüseynin "Sovet ziyalıları Vətən müharibəsi günlərində", Ənvər Məmmədxanlının "Qəhrəman kəşfiyyatçı haqqında", Şəmsəddin Abbasovun "Azərbaycan kolxozlarında", Rəsul Rza. "Leninqradın qəhrəmancasına müdafiəsi" əsərləri əsasında qısa metrajlı filmlər də çəkildi.

Müharibənin ilk günlərindən etibarən yazıçılardan ibarət təbliğat briqadaları yaradıldı. Onlar hərbi hissələrdə, çağırış məntəqələrində, neft rayonlarında, istehsalat müəssisələrində çıxış edirdilər. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rzanın,



*Səməd Vurğun*
*(1906-1956)*



*Süleyman Rüstəm*
*(1906-1989)*



*Mir Cəlal*
*(1908-1989)*



*Rəsul Rza*
*(1910-1981)*

Osman Sarıvəlli, Zeynal Xəlil, Əhməd Cəmil, Əvəz Sadıq, Yusif Şirvan həmin briqadaların tərkibindəydi. Təbliğat briqadaları həm də Bakı şəhər partiya komitəsi nəzdindəki S.M.Kirov adına təbliğat və təşviqat evinin işində fəal iştirak edirdilər.

Azərbaycanın rayonlarına, neft sənayesi müəssisələrinə xidmət etmək üçün şair-təbliğatçılar qrupu təşkil edilmişdi. Onu da qeyd edək ki, hər bir rayona xüsusi nümayəndə təhkim olunmuşdu. Şairlər və yazıçılar Kirovabadda, (Gəncə) Qazaxda, Nuxada, Zaqatalada, Salyanda, Lənkəranda, Maştağada, Sabunçuda, Qarabağda, Stalində və b. neft rayonlarında məruzələr, çıxışlar etmişlər.

Müharibə mövzusunda yazılmış 30-dan çox mahnı Azərbaycan Dövlət Filarmoniyasında, radioda, konsertlərdə ifa olunmuşdur.

Azərbaycanın rayonlarında, eləcə də Bakıda Səməd Vurğun və Mirzə İbrahimov "Faşizm bəşəriyyətin qatı düşmənidir" mövzusunda bir sıra çıxışlar etmişlər.

Müharibənin əvvəlindən hər həftənin bazar günü Azərbaycan Dövlət Filarmoniyasında "Vətən ugrunda" adlı ədəbi-bədii musiqili gecələr keçirilir, vətənpərvərlik mövzusunda söhbətlər aparılırdı.

Respublika mətbuatına kömək məqsədi ilə bir sıra yoldaşlar bizim tərəfimizdən uyğun redaksiyalara təhkim olunurlar.

1. "Kommunist" (Azərbaycanca) qəzetinin redaksiyasına - Əvəz Sadıq, Mir Cəlal, Süleyman Rüstəm.

2. "Bakinskiy raboçiy" qəzetinə - Oratovski, Mikayıl Rəfili, Rəsul Rza.

3. "Kommunist" (erməni dilində) qəzeti redaksiyasına - Qrabi Aşot, A.Darbni.

Sabit Rəhman, Əvəz Sadıq, Əliağa Vahid və b. estradaya təhkim olunurlar.

Azərbaycanda fəaliyyət göstərən "SİTA-nın pəncərəsi"ndə çalışmaq üçün Məmməd Rahim və Sabit Rəhman "Döyüşkən qələm" bölməsinə göndərilsinlər.

Yazıçılar və şairlər Qızıl Ordu Evinin işində də fəal iştirak edirdilər. Onlar günün əsas mövzularına aid çəkilmiş karikaturalara şeirlər yazır, sərgilər, çıxışlar təşkil edirlər və s.

**Səməd Vurğun,**
**AR Pİİ SSA, f 1, op. 238, s. 89, II. 34-38**
**Nüsxə**





Azərbaycan bəstəkarları Vətən müharibəsi günlərində hərbi mövzuda 109 musiqi əsəri - marşlar, mahnılar, kantatalar, birpərdəli operalar yaratdılar. Ordenli bəstəkar Üzeyir Hacıbəyovun, bəstəkar Dobruşkes və Nemətovun yazdığı bir sıra mahnılar çapdan çıxıb.

Ordu üçün Azərbaycan yürüş mahnıları toplusu da nəşr olunub. "Kommunist" (Azərbaycanca). İkinci belə bir toplu "Azmusiqinəşriyyat" tərəfindən çapa hazırlanır.

**"Bakinskiy raboçiy" qəzeti,**
**15 may 1942-ci il**

# Üzeyir Hacıbəyov və Səməd Vurğun tərəfindən 1942-ci ildə parlaq suratdə yazılmış "Əsgər marşı"



Gəl cərgə-cərgə, qatar-qatar,
Qüdrətin də var, qanın da var!
Dağlara qalxsın zəfər səsi,
Gözlərdə qalsın bir yadigar.

Şanlı ordumuz — xoşbəxt yaşa!
Sinən coşub gəl, daşa-daşa!
Qızıl sabahla, doğma eldə
Alqışlar olsun yar-yoldaşa!

Girdik meydana, mərdi-mərdana,
Düşmənin yurdu batsın qana!
Hər dağa-daşa zəfərlə yazdıq:
«Salam anamız Azərbaycan!»
Azərbaycan, Ura! Ura! Ura!

Yaşa bəxtiyar sərkərdəmiz,
Sənin yolunda qurbanıq biz!
Boyu, məramı qalxsın göyə,
Şanlı yaşasın gənc nəslimiz!



Böyük Vətən müharibəsinə həsr olunmuş "Mən ki, gözəl deyildim", "Şərikli çörək" və b. kinofilmlərdən kadrlar

















**«Bir ailə», 1943**

**Rejissorlar:** Qriqori Aleksandrov, Mikayıl Mikayılov, Rza Təhmasib.
**Ssenari müəllifləri:** Lev Vaysenberq, Mir Cəlal, İosif Prut
Operatorlar: Əlisəttar Atakişiyev, Əsgər İsmayılov,Timofey Leveşev
**Rəssamlar:** Əlisəttar Atakişiyev, Yuri Şvets.
**Ölkə:** SSRİ, Bakı kinostudiyasının istehsalı.
**Premyera:** 16 oktyabr 1943-cü il. (Kino evi).
**Aktyorlar:** Xosrov Məlikov, Mərziyə xanım Davudova, Lyubov Orlova, M.Jarikov, O.Filippova, Oleq Jakov, Hökümə Qurbanova, Ələkbər Məlikov, Kazım Ziya, V.Şaripov, Viktor Şarlaxov.

Film Böyük Vətən müharibəsi illərində Bakı sakinlərinin qəhrəmanlıqla dolu gündəlik həyatından bəhs edir. Ekran əsəri bir süjet boyunca birləşən üç noveladan ibarətdir:

Cəbhədən məzuniyyətə gələn azərbaycanlı döyüşçü onu gülərüz qarşılayan bir rus ailəsinə düşür. Qəhrəmanla ev sahibinin qızı arasında məhəbbət yaşanır (Ev sahibinin qızı rolunda Lyubov Orlova). Filmin süjeti qəhrəmanların bir-birinə danışdığı hekayələr üzərində qurulub.






## Böyük Vətən müharibəsi 1941-ci ilin iyun ayının 22-də başlayıb. 1418 gün davam edib. 1945-ci il may ayının 9-da Sovet qoşunlarının faşist Almaniyası üzərindəki Qələbəsi ilə başa çatıb

Moskva yaxınlığındakı döyüşlər (30 sentyabr 1941-ci il - 20 aprel 1942-ci il) iki mərhələyə bölünür: müdafiə (30 sentyabr - 4 dekabr 1941-ci il) və hücum (5 dekabr 1941-ci il - 20 aprel 1942-ci il). Bu döyüşlər nəticəsində alman qoşunları hiss olunacaq dərəcədə məğlubiyyətə uğradılaraq, Moskvadan 100-250 km-ə qədər geri otuzduruldu.

Stalinqrad döyüşü (17 iyul 1942-ci il - 2 fevral 1943-cü il). Onun qalib sonluğu böyük hərbi-siyasi əhəmiyyətə malik idi. Bu döyüş bütövlükdə İkinci Dünya müharibəsində köklü dönüşün yaranmasında həlledici rol oynadı.

Qafqaz uğrunda döyüş (25 iyul 1942-ci il - 9 oktyabr 1943-cü il). Qafqaz uğrunda gedən döyüşlərdə Sovet İttifaqının qazandığı uğurları əks-hücumun çox vacib hissəsi hesab etmək olar. Bu əks hücumlar nəticəsində Sovet ordusunun cənubdakı mövqeləri daha da möhkəmləndi.

Kursk döyüşü (5 iyul - 23 avqust 1943-cü il). Böyük Vətən müharibəsinin ən nəhəng döyüşlərindən biridir. Bu döyüşdə Sovet ordusu alman qoşunlarının axırıncı hücumunu dəf edərək, düşməni məğlubiyyətə uğratdı. Bununla da strateji təşəbbüskarlığı qəti şəkildə öz əlinə alaraq onu möhkəmləndirdi.

Dnepr uğrunda döyüş (26 avqust - 23 dekabr 1943-cü il). Dnepr döyüşü ən iri, sürətli və uğurlu hərbi əməliyyat kimi tarixə düşdü. Ukraynanın azad olunması Sovet İttifaqı üçün böyük strateji əhəmiyyətə malik idi. Bu əməliyyat həmçinin Rumıniyaya, Polşaya yol açdı.

Dnepr-Karpat əməliyyatı (24 dekabr 1943-cü il - 17 aprel 1944-cü il). Bu əməliyyat nəticəsində Sovet qoşunları Qərbə doğru irəlilədi. Ukraynanı azad etdi. Rumıniyanın xilasına başlandı.

Leninqrad uğrunda döyüş (10 iyul 1941-ci il - 9 avqust 1944-cü il). Böyük Vətən müharibəsinin gedişində ən uzun çəkən döyüş. Leninqradın 900 gün çəkən mühasirəsi və müdafiəsi zamanı Sovet qoşunları alman-faşist ordusuna məxsus iri qüvvələrin əl-qolunu bağlayıb, onu buxovladı. 1944-cü il yanvarın axırında Leninqrad müharibəsinin qəti şəkildə yarılması sonralar Karel bərzəxində, Kareliyada, Baltikyanıda aparılmış əməliyyatlara əlverişli şərait yaratdı.

Belarus əməliyyatı (22 iyun - 29 avqust 1944-cü il). Sovet Ordusunun bu hücumu nəticəsində Belarus, Polşa və Baltikyanının bir hissəsi azad edildi.

Lvov-Sandomir əməliyyatı (13 iyul - 29 avqust 1944-cü il). Əməliyyat nəticəsində sovet qoşunları Ukraynanın işğal olunmuş ərazilərini azad etdi.

Yassı-Kişinyov əməliyyatı (20-29 avqust 1944-cü il). Bu əməliyyat Moldovanın, Rumıniyanın, Bolqarıstanın azad olunmasına gətirib çıxardı. Onun gedişində Sovet qoşunları Yuqoslaviyanın ərazisinə daxil oldu və bu ölkəni faşistlərdən azad etməyə nail oldu.

Baltikyanı əməliyyat (14 sentyabr - 24 noyabr 1944-cü il). Baltikyanı əməliyyat nəticəsində Litva, Latviya və Estoniya alman işğalından azad olundu. Kareliyanın və Zapolyaryenin azad edilməsi əməliyyatı (21 iyun - 9 avqust 1944-cü il) 1944-cü ilin payızında Sovet Ordusunun hücumu Baltikyanı respublikaların azad olunması ilə nəticələndi. Bu əməliyyatın gedişində Sovet qoşunları Zapolyaryenin işğal olunmuş rayonlarını da düşməndən təmizlədi.

Budapeşt əməliyyatı (29 oktyabr 1944-cü il - 13 fevral 1945-ci il) 2-ci və 3-cü Ukrayna cəbhəsinin qoşunları Macarıstanın mərkəzi rayonlarını və onun paytaxtı Budapeşti azad etdilər. Bunun nəticəsində Macarıstanın müharibədə Almaniya tərəfindən iştirak etməsinə son qoyuldu.

Visla-Oder əməliyyatı (12 yanvar - 3 fevral 1945-ci il). Həmin əməliyyatı aparmaqla Sovet qoşunları Berlinin ucqarlarına çıxdılar. Alman-faşistlərin güclü qoşun hissələri Poznanda və Breslauda mühasirəyə düşdü.

Şərqi Prussiya əməliyyatı (13 yanvar - 25 aprel 1945-ci il). 2-ci və 3-cü Belarus Cəbhəsinin qoşunları Baltik Donanması ilə qarşılıqlı surətdə Prussiyanı və Polşanın şimal hissəsini azad etdilər.

Vyana əməliyyatı (16 mart - 5 aprel 1945-ci il). Əməliyyat nəticəsində 2-ci və 3-cü Ukrayna cəbhəsi Macarıstan və Avstriya faşistlərindən təmizləndi.

Berlin əməliyyatı (16 mart - 5 aprel 1945-ci il). Sovet qoşunlarının axırıncı strateji əməliyyatlarından biridir. Əməliyyatın gedişində Berlin alındı. Sovet qoşunları tərəfindən Reyxstaq üzərinə sancılan Qələbə Bayrağı qanlı və ağır müharibənin başa çatmasını bildirdi.

Praqa əməliyyatı (5-12 may 1945-ci il). Bu, Böyük Vətən müharibəsində Qızıl Ordunun apardığı axırıncı strateji əməliyyat idi. Onun gedişində Praqa azad edildi. Vermaxtın axırıncı qüvvələri - "Mərkəz" ordu qrupu darmadağın olundu.

Beləliklə, Böyük Vətən müharibəsinə faşistlər üzərində Qələbə ilə son qoyuldu.







## Sizin qəhrəmanlığınız ölməzdir!



# ABDULLAYEV SƏMƏD HƏMİD OĞLU
## (1920-1943)

***"Faşistləri aramsız vururam və vuracağam da..."***

Ağdaşın Qolçatı kəndində anadan olub. O, adi sanitar təlimatçısıydı. Görəsən, insanda nə qədər mərdlik, iradə olmalıdır ki, hər gün özü müdafiəsiz qalsa da, riskə gedib, həyatını təhlükəyə ataraq dostlarının həyatını xilas etsin?!
Dəniz piyadaları qırx gün ərzində gecələr Tamandan Kerç boğazı vasitəsi ilə keçib, Krım sahillərindəki zolağı tutdular. Bu batalyonun döyüşçüləri arasında Qolçatı kəndinin yetişdirməsi, tibb xidməti starşinası Səməd Abdullayev də vardı. Düşmənlə qanlı əlbəyaxa döyüşlərin birində S.Abdullayev yaralanır. Hospitala göndərilir. Ancaq tezliklə müalicə olunub doğma hərbi hissəyə qayıdır. Özü də Sovet İttifaqı Qəhrəmanı kimi.
Bəli, komandanlığın tapşırıqlarını nümunəvi surətdə yerinə yetirdiyinə, alman-faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi igidliyə, mərdliyə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 17 noyabr 1943-cü il tarixli fərmanı ilə tibb xidməti starşinası Səməd Həmid oğlu Abdullayevə Sovet İttifaqı Qəhrəmanı adı verildi. S.Abdullayev döyüş dostları ilə birgə igidliklə vuruşmaqda davam edirdi. Lakin 1944-cü il iyun ayının 8-də, amansız döyüşlərin birində qəhrəmancasına həlak oldu.
Ağdaş şəhərində qəhrəmanın yaşadığı evi xatirə lövhəsi bəzəyir, doğma kəndindəki orta məktəbsə qəhrəmanın adını daşıyır.

# MUSTAFAYEV XIDIR HƏSƏN OĞLU
## (1905-1975)



1905-ci il mart ayının 27-də İrəvan quberniyasının Gözəldərə kəndində anadan olub. Elə əvvəldən öz həyatını orduya bağlamağı qərara alan Xıdır Mustafayev Böyük Vətən müharibəsinə yüksək intizamlı, yaxşı təlim görmüş, mükəmməl hərbi vərdişləri, bacarığı ilə seçilən bir hissənin, motoatıcı batalyonun komandiri vəzifəsində başladı.
Stalinqrad, Kiyev, Jitomir, Ternopol - bu şəhərlər X.Mustafayevin keçdiyi döyüş yolunun nişangahları, parlaq səhifələridir.
Ukraynanın Fastov şəhəri uğrunda gedən döyüşlərdə göstərdiyi yüksək döyüş məharətinə, zirəkliyə və mərdliyə görə X.Mustafayevin komandiri olduğu tank batalyonundakı şəxsi heyətin 80 faizi orden və medallarla mükafatlandırıldı. Xıdır Mustafayevə isə 1944-cü il yanvar ayının 10-da Sovet İttifaqı Qəhrəmanı adı verildi. Paytaxt Bakı küçələrinin biri onun adını daşıyır. 2005-ci ildə isə Kiyev şəhərində Xıdır Mustafayevə heykəl ucaldılıb.





## Sizin qəhrəmanlığınız ölməzdir!



# KAVERİN İLYA ANANYEVİÇ
## (1910-1963)

***Astaralı qəhrəman***

Azərbaycanın Astara şəhərində anadan olub.
1944-cü il sentyabr ayının 16-na keçən gecə rumın torpağında gedən döyüşlərdə İ.Kaverinin xidmət etdiyi tank birləşməsi almanları iri yaşayış məntəqələrindən vurub çıxarmaq əmrini aldı. Maşınlar qalın meşəni keçib ensiz yola çıxdılar. Elə bu vaxt düşmən mərmiləri yağış kimi onların üstünə yağdı.
Təcili olaraq düşmənin atəş nöqtəsini susdurmaq, onu məhv etmək lazım idi. İ.Kaverin ləngimədən tankını döndərib düşmən səngərləri üzərinə şığıdı. Tankın tırtılları altında qalıb əzilən, torpağa sıxılan düşmən toplarının, minamyotların boğuq cırıltısı güllələrin səsinə qarışmışdı. Almanlar qaçmağa başladı. İ.Kaverin onların arxasınca düşüb, tankın altında əzişdirirdi. Başı buna qarışan qorxmaz tankçı yoldaşlarından ayrı düşdü. Tankın heyəti düşmən mühasirəsində qaldı. İki gün sərasər vuruşdular. Axırda salamat qalan təkcə İ.Kaverin oldu. Cəsur tankçını susdurmaq alman faşistlərinə nəsib olmadı.
SSRİ Ali Soveti Rəyasət Heyətinin 10 yanvar 1944-cü il tarixli fərmanına əsasən, komandanlığın döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə, düşmənlə döyüşlərdə göstərdiyi mərdliyə, igidliyə görə kiçik leytenant İlya Kaverin "Lenin" ordeni və "Qızıl Ulduz" medalı təqdim edilməklə, Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.
İlya Kaverinin şərəfinə Astarada qəhrəmanın büstü qoyulub.



# MƏHƏRRƏMOV MƏLİK MƏLİK OĞLU
## (1920-2004)

Zərdab rayonunun Bıçaqçı kəndində anadan olub. Ordu sıralarına 1939-cu ildə çağırılıb. Müharibənin ilk günündən hərbi əməliyyatlarda, döyüşlərdə fəal iştirak etməyə başlayıb. O, artıq Çerniqov döyüşlərində hərbi işə dərindən bələd olduğunu nümayiş etdirdi. Qətiyyətli komandir, igid bir döyüşçü olan M.Məhərrəmovun rotası Çerniqov döyüşlərindəki igidliyinə görə Qırmızı Bayraq ordeni ilə mükafatlandırıldı.
23 yaşlı Məlik Dnepr əməliyyatında xüsusilə fərqləndi, igidliklər göstərdi. Buna görə də rotasının 19 nəfər döyüşçüsü ilə birlikdə 1944-cü il yanvar ayının 15-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.
Həmin günlərdə onun doğma kəndi Bıçaqçıya, cəbhədən məktub gəldi ki: «...Dnepri döyüşə-döyüşə keçən qvardiya leytenantı M.Məhərrəmov hədsiz igidlik, qəhrəmanlıq göstərib. Biz fəxr edirik ki, Vətənin azadlığı uğrunda belə bir qorxmaz zabitlə çiyin-çiyinə vuruşuruq! Qələbəyə qədər də vuruşacağıq»! Müharibədən sonrakı dinc quruculuq illərində də M.Məhərrəmov Vətənə xidmətinə davam etdi. Məlik Məhərrəmov 1965-ci ildən S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində (indiki BDU) çalışırdı.

## Sizin qəhrəmanlığınız ölməzdir!



# MÜSEYİB BAĞIR OĞLU BAĞIROV (1915-1981)

"Bağırovçu qartallara eşq olsun və yenə də eşq olsun!" - Bu şüar "Qızıl Bayraq" adlı cəbhə qəzetinin 1943-cü il 13 sentyabr tarixli sayında, birinci səhifənin lap başında, çox böyük şriftlərlə yığılmışdı. Bir az aşağıda isə yenə iri şriftlərlə belə bir xəbər vardı:

- "11 Bağırovçu yüksəkliyi tutdu. 400 hitlerçi 3 tankla əks-hücuma keçdi. Qeyri-bərabər döyüşdə qəhrəmanlar düşmənə qalib gəldilər".

Az sonra cəsarətli leytenant M.Bağırovun və onun 5 milləti təmsil edən 10 əsgərinin qəhrəmanlığı barədə qəzetlərdə daha geniş, daha ətraflı yazılar getdi. Müseyib Bağırov Stalinqrad ətrafında, xüsusən də Kursk ətrafında qəhrəmancasına vuruşdu.

Məhz o döyüşdən sonra SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 22 fevral tarixli fərmanı ilə ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Müseyib Bağırov müharibədən qayıdıb "Qaradağneft"in fəhlə təchizatı şöbəsində çalışdı. Sonra Lökbatan qəsəbəsindəki univermağın, Bakıdakı ərzaq mağazasının direktoru vəzifəsində işlədi.



# YEVGENİ TERENTİYEVİÇ SIQANOV (1921-1971)

1921-ci il avqust ayının 22-də Bakı şəhərində anadan olub. "Düşməni Yevgeni Sıqanov kimi vur!" - "Qırmızı Baltik donanması" qəzeti təyyarəçiləri məhz bu sözlərlə döyüşə səsləyirdi: - "Baltikanın adlı-sanlı təyyarəçisi, üç ordenli, bakılı qvardiya kapitanı Y.Sıqanov çox sərrast vurur. Onun zərbələri boşa çıxmır və ölümcüldür. As təyyarəçinin döyüş uğurları da vurulan faşist quzğunlarının sayı kimi gündən-günə artır, üst-üstə gəlir". Təkcə 1941-1943-cü illər ərzində o, 432 döyüş uçuşu yerinə yetirərək, 65 hava döyüşü aparıb. Düşmənin 18 təyyarəsini göydə vurub, yandırıb. 1944-cü il yanvar ayının 22-də Yevgeni Sıqanova verilən Sovet İttifaqı Qəhrəmanı adı "Bakılı Səma Şahini"nin faşizmlə müharibədə göstərdiyi şücaətlərin töhfəsi idi.

Müharibədən sonra da aviasiya general-mayoru, qırıcı-təyyarəçi Y.Sıqanov ölkənin Hava Hücumundan Müdafiə Qoşunlarında rəhbər vəzifələrdə işlədi.





## Sizin qəhrəmanlığınız ölməzdir!



# MƏHƏRRƏMOV MƏMMƏD ƏLİ OĞLU (1919-1977)

### *Dneprin uğur gətirən suları*

M.Məhərrəmov 1919-cu il oktyabr ayının 9-da Qasım İsmayılov rayonunun Qarasuçu kəndində anadan olub.

O, ilk döyüş sınağından hələ 1941-ci ilin yayında, faşistlərin ələ keçirmək istədiyi Novqorod döyüşlərinə qədər çıxmışdı. Necə deyərlər, barıt qoxusu onun burnuna hələ ağ finlərlə vuruşanda dəymişdi. Yəqin, elə buna görə də qədim Novqorod ətrafında atıcı batalyonlardan birinin müşahidə komandası məntəqəsində çıxılmaz vəziyyət yarananda alay komandiri serjant M.Məhərrəmovu yanına çağırdı. Ona əmr etdi ki, düşmən mühasirəsindən nə olursa-olsun keçib, batalyonun müşahidə komandasının məntəqəsinə çatdırsın ki, əsas kömək gələnəcən, hərəkətə keçməyib dayansınlar.

M.Məhərrəmov bir neçə döyüşçü ilə birlikdə nəinki verilən tapşırığı yerinə yetirdi, hətta mühasirəyə düşənlərin yanında qalıb düşmən hücumlarını dəf etməkdə onlara yardım etdi. Onda 37 faşist əsgər və zabiti məhv edildi. İki alman zabiti isə əsir düşdü.

Məmməd Məhərrəmov Sovet İttifaqı Qəhrəmanı adını isə daha sonra, 1944-cü ildə Dnepri keçərkən göstərdiyi igidliyə görə aldı. Müharibədən sonra doğma rayonuna qayıtdı. Kələk Kənd Sovetinin sədri vəzifəsində işlədi.



# ƏLİYEV ŞƏMSULLA FEYZULLA OĞLU (1915-1943)

### *Kerç üzərində döyüş*

Dərbənd şəhərində anadan olub. Kapitan Ş.Əliyevin komandir müavini olduğu batalyon 1943-cü ilin payızında Kerç yarımadasındakı döyüş meydanını tutaraq, mövqeyi genişləndirmək uğrunda döyüşdü. Faşistlər inadla müqavimət göstərsə də, bu müqavimət heç də desantçıları dayandırmadı. Hücuma keçən döyüşçülərimizin sırası get-gedə seyrəlirdi. Amma buna baxmayaraq, onlar düşməni amansızcasına əzə-əzə Voykov və Kirov adına zavodlara yaxınlaşırdılar. Noyabrın 11-də döyüşlər özünün ən qızğın nöqtəsinə çatdı. Həmin gün batalyon 5 dəfə düşmən müdafiə xəttinə hücum edərək, onlardan ikisini yarıb, axır ki, zavodların ərazisinə girə bildi.

Ancaq azad edilmiş Kerçin havası ilə nəfəs almaq Ş.Əliyevə qismət deyilmiş! Növbəti döyüşdə o qəhrəmancasına həlak oldu. 1944-cü il may ayının 16-da Şəmsulla Əliyevə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Kerçdəki Mitridat dağındakı memorial lövhədə qəhrəman Şəmsulla Əliyevin də adı «Əbədi Qəhrəmanlar» siyahısındadır. Dərbənddəki toxuculuq fabriki, 4 saylı məktəb, Məmmədqala qəsəbəsindəki üzümçülük sovxozu onun adını daşıyır. Dərbənddə mərkəzi küçələrdən birində qəhrəmanın abidəsi ucaldılıb. Mahaçqalanın paytaxt küçələrindən biri də Şəmsulla Əliyevin adını daşıyır.




| Ölkələr | Müharibədə həlak olub (min sayında) | |
|---|---|---|
| | Hərbi qulluqçular | Mülki əhali |
| Avstriya | 230 | 104 |
| İngiltərə | 326 | 62 |
| Belçika | 12 | 76 |
| Bolqarıstan | 10 | 10 |
| Macarıstan | 140 | 280 |
| Hollandiya | 12 | 198 |
| Yunanıstan | 20 | 140 |
| Danimarka | 0,4 | 1 |
| İtaliya | 330 | 80 |
| Lüksemburq | 4 | 1 |
| Norveç | 6 | 4 |
| Polşa | 100 | 4200 |
| Ruminya | 200 | 260 |
| Finlandiya | 82 | 2 |
| Fransa | 250 | 350 |
| Çexoslavakiya | 150 | 215 |
| Yuqoslaviya | 300 | 1400 |

İkinci Dünya müharibəsində həlak olmuş azərbaycanlı döyüşçülərin sayı 300 min nəfərdən artıqdır. Bu rəqəm **Belçika, Bolqarıstan, Macarıstan, Hollandiya, Yunanıstan, Danimarka, Lüksemburq, Norveç və Polşada** həlak olan hərbi qulluqçuların ümumi sayından çoxdur.





# Reyxstaq üzərində bayraq

1-ci, 2-ci Belarus və 1-ci Ukrayna cəbhəsi qoşunlarının (komandanlar - Sovet İttifaqı marşalları Y.K.Jukov, K.K.Rokosovski və İ.S.Konyv) Baltik donanmasının, Dnepr Hərbi donanmasının, uzaq mənzilli aviasiyanın, eləcə də 1-ci, 2-ci Polşa ordularının gücündən istifadə edərək həyata keçirdikləri Berlin əməliyyatı (16 aprel - 8 may 1945-ci il) faşist Almaniyasının darmadağın edilməsində, alman xalqının hitlerçilərin zülmündən azad olunmasında həlledici əhəmiyyətə malik idi.

Sovet qoşunları tərəfindən həyata keçirilən Berlin əməliyyatında 2,5 milyon insan, 41,6 min top və minamyot, 6250 tank və özüyeriyən artilleriya qurğusu, 7,5 min döyüş təyyarəsi iştirak edirdi. Alman-faşist komandanlığı da Berlinin müdafiəsini gücləndirmək üçün bütün tədbirləri görmüşdü. Təkcə Berlinin özündə "Folk hücumçulardan" ibarət 200-dən çox batalyon vardı. Qarnizonun ümumi sayı 200 min nəfərdən çox idi.

Berlin əməliyyatı «səhərin gözü açılmış» başladı. Hücuma keçən qoşunlarımızın yolunu güclü projektorlar işıqlandırır, düşməninsə gözünü qamaşdırırdı.



1-ci Ukrayna cəbhəsinin qoşunları tüstü örtüyündən məharətlə istifadə etdi. Buna bənzər aldadıcı vasitələrdən bacarıqla yararlanan Sovet komandanlığı yüksək əməliyyat sıxlığı və vurulacaq əsas zərbənin istiqaməti baxımından düşmən üzərində həlledici üstünlük qazana bildi. Zeelof yüksəkliyində həddən artıq möhkəmləndirilmiş müdafiə xətləri yarıldı.

Aprel ayının 25-də 1-ci Belarus və 1-ci Ukrayna cəbhə qoşunları tərəfindən Berlin tam mühasirəyə alındı.

Həmin gün 1-ci Ukrayna cəbhəsinin qoşunları ingilis-amerika müttəfiqləri ilə birgə şərq-qərb tərəfdən alman cəbhəsini yararaq, Torqau rayonunda - Elba çayı üzərində birləşdilər.

Düşmənin Berlin qruplaşmasının ləğv edilməsi qızğın küçə döyüşləri ilə həyata keçirilirdi. Sovet əsgərləri Berlinin içərilərinə tərəf nə qədər irəliləyirdisə, düşmən bir o qədər kəskin müqavimət göstərirdi. Berlin döyüşlərində ən pik nöqtə sovet qoşunlarının Reyxstaqa hücumu oldu. Düşmən Sovet ordusunun qarşısıalınmaz hucumlarının qabağında duruş gətirə bilmədi.

A.Berest, M.Yeqorov və M.Kantariya may ayının 1-də, səhər tezdən, İ.Siyanovun avtomatçılar rotasının köməyi ilə, sonralar Qələbə Bayrağı adlanan 150-ci atıcı diviziyanın döyüş bayrağını Reyxstaq üzərinə sancdılar.

May ayının 2-si səhər çağı Berlin qarnizonu artıq təslim oldu. İkinci Dünya müharibəsinin ən möhtəşəm hərbi əməliyyatlarından biri olan Berlinə hücum öz çətinliyi və aparılan mübarizənin gərginliyi ilə seçilirdi.

Sovet qoşunları bu əməliyyatın gedişində Vermaxtın 93-cü diviziyasını darmadağın etdi. 480 min alman əsgər və zabiti əsir alındı. Saysız-hesabsız hərbi texnika ələ keçirildi.

Berlin əməliyyatı, Reyxstaqa hücum Sovet qoşunlarının müharibə illərində keçirdiyi ağır, şərəfli yolun zəfər tacı, ən yüksək zirvəsi kimi tarixə yazıldı.



# Sizin igidliyiniz ölməzdir!



## MUSTAFAYEV BƏKİR DURSUN OĞLU
## (1898-1978)

1898-ci il fevral ayının 11-də Gürcüstanın Axalkələk rayonunun Qlazar kəndində anadan olub.

...Döyüşçülərimizin yüksəkliyə gedən yolunu kəsən alman faşistlərinin tək bircə atəş nöqtəsi qalmışdı. Belə vaxtda Bəkir faşistlərin yağış kimi yağan atəşləri altında sürünə-sürünə düşmən dzotuna çatıb, od püskürən vadiyə yaxınlaşdı. İldırım sürəti ilə, bir-birinin ardınca dzota iki bağlama qumbara atdı. Artıq bir neçə dəqiqədən sonra döyüş yoldaşlarını da haraylayaraq, necə deyərlər, burunları da qanamadan, özü başda, ardınca da silahdaşları yüksəkliyə dırmandı. Kerçə gedən yol belecə açıldı.

İrkutsk atıcı diviziyasının sıravi əsgəri Bəkir Mustafayevə göstərdiyi igidliyə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 16 may 1944-cü il tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı verildi.



## BORİS MİXAYLOVİÇ LİTVİNÇUK
## (1917-1998)

### *Qırmızı şahin*

Hacıqabulda anadan olub.

Artıq 1941-ci ilin iyulunda o, düşmənin Konstansdakı hərbi dəniz bazasını bombalamış, faşist Almaniyası üçün strateji əhəmiyyətə malik Çernovod körpüsünə zərbələr endirilməsində, Perekop rayonunda faşist qoşunlarının məhv edilməsində fəal iştirak etmişdi.

Həmin il avqust ayının 23-də vurduğu ilk faşist təyyarəsini - bombardmançı "Xe-111"i, ilk hesabına yazdı. Növbəti ildə bu hesabı 7-yə çatdırdı. Bütövlükdə, həmyerlimiz Qazı Məmmədin yetirməsi müharibə illərində 459 dəfə havaya qalxıb, 15 düşmən "çalağanını" məhv etmişdi. Düşmən qoşunlarına böyük ziyan vuraraq, onun müxtəlif obyektlərini yerlə-yeksan etmişdi.

Boris Litvinçuka Sovet İttifaqı Qəhrəmanı adı 1944-cü il may ayının 16-da verilib.

Müharibədən sonra Kaluqa şəhərində yaşayırdı. Turbin Zavodunda kadrlar üzrə direktor müavini vəzifəsində işləyirdi.





Sizin igidliyiniz ölməzdir!



## ƏHMƏDOV CƏMİL MƏHƏMMƏD OĞLU
## (1924-1944)

***On saat ərzində qurşağa qədər suda dayanaraq, düşməni atəş altında saxladı və əsgərlərimizin çaydan keçməsinə şərait yaratdı***

1924-cü ildə Cəbrayıl rayonunda anadan olmuşdur. 17 yaşı tamam olan kimi təkidlə cəbhəyə getmək istədiyini bildirdi. Nəhayət, 1942-ci ilin martında Cəmil adını qısamüddətli kursa yazdırdı. Bir aydan sonra da kiçik leytenant rütbəsində cəbhəyə göndərildi.

Şimali Qafqazda hitlerçi qoşunların darmadağın edilməsində ön sıralardaydı. Polşadakı döyüşlərə qədər atıcı taqım komandiri olan Cəmilin sinəsini "Qırmızı Bayraq" və "Aleksandr Nevski" ordenləri bəzəyirdi. Fəqət onun Polşadan keçən cəbhə yolu uzun çəkmədi. Malıy şəhəri rayonunda çaydan keçən zaman qızğın döyüşdə qəhrəmancasına həlak oldu.

1945-ci il mart ayının 24-də ona, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi. Cəbrayılın küçələrindən biri onun adını daşıyır. Şəhər mərkəzinin ən görkəmli yerində Cəmilin büstü qoyulub. XIX əsrin ikinci yarısından Cəbrayılda fəaliyyətə başlamış orta məktəb onun adınadır.



## MİRONOV VALENTİN AKİMOVİÇ
## (1923-1989)

O, Tibb İnstitutuna daxil olmuşdu. Həkim olmaq həvəsindəydi. Müharibənin başlanması bu arzunun önünə sədd çəkdi. 18 yaşlı gənc könüllü olaraq cəbhəyə yollandı. Qısa kurs bitirən Valentini pulemyot taqımının komandiri təyin etdilər. Ərizə ilə ardıcıl müraciətlərdən sonra onu, nəhayət ki, cəbhəyə göndərdilər.

1944-cü ilin aprelində Krımın azad edilməsi başlayanda Mironovun xidmət etdiyi diviziya Perekopu öz öhdəsinə götürmüşdü. Düşmənin aramsız atəşi altında Mironovun pulemyotçuları Sivaşın şoranlığına girdilər. Döyüşçülər qırılır, yaralanır, sıradan çıxırdı. Sağ qalanlar Mironovun arxasınca irəli gedirdi. Nəhayət ki, çətinliklə sahildə möhkəmlənə bildilər. Düşmənə sərrast atəş başladı. Faşistlər geri çəkilməyə məcbur oldular.

1944-cü il may ayının 16-da Mironov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Müharibədən sonra Bakıya qayıdan qəhrəman ali təhsil aldı, arzuladığı həkim peşəsinə yiyələndi. Ömrünün sonunacan Mironovun vaxtilə silah tutan əlləri insanlara şəfa, sağlamlıq payladı. Bakıda Fəxri Xiyabanda dəfn edildi.

## Sizin igidliyiniz ölməzdir!



### ÇELYADİNOV DMİTRİY ALEKSEYEVİÇ (1913-1944)

1913-cü il noyabr ayının 1-də Krasnodar diyarının Labinskaya qəsəbəsində anadan olub. Müharibədən əvvəl Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdi. Ancaq faşizm ona öz müqəddəs peşəsi ilə dinc həyatda məşğul olmaga imkan vermədi. SSRİ-nın birinci dərəcəli alpinisti, idman ustası idi.

O, çox səliqəli, intizamlı, ciddi, iradəli, qısası, batareya komandirliyinə əsl nümunə idi. D.Çelyadinovun axırıncı döyüşü Kerç sahillərində oldu. Onun batareyası burda mühüm əmri - bizim tankların yolunu təmizləmək tapşırığını yerinə yetirməklə yanaşi, düşmənin ataş nöqtələrini susdurmaqla məşğul idi.

Ancaq tankçılarımızla birgə Kerçi almaq D.Çelyadinova nəsib olmadı. Düşmən gülləsi baş leytenant D.Çelyadinovun həyatına son qoydu. SSRİ Ali Soveti Rəyasət Heyətinin 16 may 1944-cü il tarixli fərmanı ilə baş leytenant Dmitri Aleksandroviç Çelyadinova komandanlığın döyüş tapşırığını layiqincə yerinə yetirdiyi zaman göstərdiyi igidliyə görə, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi. Kerç şəhərində ucaldılmış abidə üzərində öz həyatlarını Krımın azadlığı uğrunda qurban vermiş qəhrəmanların adları həkk olunub. Onların arasında Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Tibb Universitetinin yetirməsi Dmitri Aleksandroviç Çelyadinovun da adı var.

### KOÇELAYEVSKİY YURİ PETROVİÇ (1920-1970)



1920-ci il iyun ayının 3-də Bakıda anadan olub. Müharibə ərəfəsində Yeysk hərbi-dəniz aviasiya məktəbini bitirmişdi. Elə ilk döyüşlərdən özünü cəsur dəniz təyyarəçisi kimi tanıtdı.

Yeni təyyarəsiylə şahin kimi göylərdə şığıyırdı... Yurinin təyyarəsi qalın buludları dələrək, qatı dumanda gizləndi. Hədəfi görmək mümkün deyildi. Belə olan tərzdə Yuri daha da aşağı endi. Dənizin səthindən onu bir neçə metr ayırırdı. Qəfildən bəxtinə düşən uğurun lap önündə durduğunu gördü. Almanların üç müdafiə gəmisi hədəfə sarı gəlirdi. Əvvəlcə onların ikisini alova qərq etdi. Sonra da üçüncüsünü yandırdı.

Elə bu zaman onun təyyarəsi silkələndi. Düşmənin bir neçə mərmisi hava maşınını tutmuşdu. Yuri son qüvvəsini toplayaraq, təyyarəni öz aerodromlarına çatdıra bildi. Onun döyüş mükafatlarına Lenin ordeni və Qızıl Ulduz medalı da əlavə olundu. 1944-cü il may ayının 31-də isə Yuri Pavloviç Koçelayevskiyə Sovet İttifaqı Qəhrəmanı adı verildi.





## Sizin igidliyiniz ölməzdir!



### ƏSƏDOV GƏRAY LƏTİF OĞLU (1923-1944)

Beyləqan rayonunun Şahsevən kəndində anadan olub. O, A.Matrosovun qəhrəmanlığını təkrar etdi.

Bizim 18 yaşlı yerlimizin tale payına çoxlu sınaqlar düşdü. Gəray Əsədovun xidmət etdiyi atıcı diviziyanın tərkibində göstərdiyi qəhrəmanlıq Rumıniyaya qədər gedib çıxır. Rumın torpağında göstərdiyi igidliyə görə Gəray Əsədov Qırmızı Bayraq ordeni ilə təltif edilir.

Dəmiryol vağzalı irəliləyən qoşunlarımızın yolunu kəsirdi. Düşmən pulemyotçuları oradan dörd bir tərəfi güllə-baran edirdi. Vağzal binasına yaxınlaşmaq, hər dəfə əks-həmlə ilə, uğursuzluqla nəticələnirdi. Belə bir məqamda Gəray döyüş yoldaşlarını harayladı: - Qvardiyaçılar, Vətən uğrunda irəli! Hamıdan öndə döyüş meydanına şığıyan Gəray bir-birinə bağlanmış qumbaraları düşmənin atəş nöqtəsinə atdı və öz bədəni ilə düşmən pulemyotunun ağzını qapadı.

1945-ci ilin may ayının 24-də Gəray Əsədova, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi. Bakıda və Beyləqanda onun adına küçələr var. Doğma kəndindəki orta məktəb də onun adını daşıyır.

### ƏLİYEV HÜSEYN BALAƏLİ OĞLU (HÜSEYNBALA) (1918-1941)



Əliyev Hüseyn Balaəli oğlu 25 noyabr 1918-ci ildə Bakı şəhərinin Pirşağı qəsəbəsində doğulmuşdur. Bakı şəhəri, Dəyirman küçəsi, 8 nömrəli evdəki 39 nömrəli ibtidai məktəbdə oxumuşdur. "Qırmızı dəmirçi" fabrik-zavod məktəbində (FZM) təhsil almışdır. Sonra Bakı təyyarə klubunda uçuşun ilk elementlərinə yiyələnmişdir. 1940-cı ildə Yeysk Hərbi Dəniz Aviasiya məktəbini bitirmişdir.

BVM başlayanda Baltik Donanmasının HHQ-ndə Tallində, sonra isə Leninqradda xidmət etmişdir.

Leytenant Hüseyn Əliyev qırıcı təyyarəçi idi. 49 döyüş uçuşu keçirmişdir.

18 iyul 1941-ci ildə düşmənin 3"Yunkers-88" təyyarəsi ilə döyüşə girmiş və ölümcül yaralanmışdır. Kabinədə partlayan düşmən mərmisindən onun bədəni 30-a qədər qəlpə yarası almışdır. Buna baxmayaraq təyyarələrdən ikisini vurmuşdur. Öz təyyarəsini salamat yerə endirmiş, təyyarənin kabinəsində partlayan mərmidən aldığı çoxlu yaralardan həlak olmuşdur.

Ölümündən sonra "Lenin ordeni" ilə təltif edilib.

N.K.Çukovskinin "Baltik səması" romanında, V.Ketlinskayanın "İradə" hekayəsində onun qəhrəmanlığından bəhs edilmiş, Məmməd Rahimin "Leninqrad göylərində" poeması ona həsr olunmuşdur.

"Azərbaycanfilm" kino studiyası onun haqqında Hünər əbədidir (film, 1967) adlı film çəkmişdir. Pirşağı qəsəbəsində büstü qoyulmuşdur.

# Bir nəslin nümayəndələri



## RÜSTƏMBƏYOV FƏTULLA ƏSƏD OĞLU (1867-1946)

İlk azərbaycanlı mühəndislərdən biri. Azərbaycanda neft sənayesinin bərpası və texniki cəhətdən yenidən qurulmasının təşkilatçılarından olmuşdur. Bakı Realni məktəbini, Peterburq Texnologiya İnstitutunu (1893) bitirmişdir. 1893-98-ci illərdə Bakı neft sənayesinin müxtəlif müəssisələrində işləmiş, 1898-1920-ci illərdə M.Nağıyevin neft müəssisələrini idarə etmişdir. Azərbaycanda neft sənayesi milliləşdirilən gündən (28.5.1920) Azərneft komitəsinin rəyasət heyətinin üzvü və mədənlər şöbəsinin müdiri olmuşdur. 1922-35 illərdə Azərneft rəisinin birinci köməkçisi, mədən direktoru, baş texniki direktor, "Azərneftlayihə" trestinin direktor müavini (baş mühəndis) işləmiş, Azərneftin Dəniz Komitəsinə başçılıq etmişdir. Onun rəhbərliyi ilə qazıma, neftçıxarma və neft emalı texnikası yeniləşdirilmiş, neft mədənlərində burma qazıması üsulundan elektrik intiqallı qazıma üsuluna kütləvi şəkildə keçilmiş, dərinlik nasosu və qazlift üsulları ilə neftçıxarma tətbiq edilmişdir. Onun sualtı neft sahələrinin işlənilməsinə aid məqaləsi dəniz neft mədənlərinin inkişafına kömək etmişdir. Pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1890-cı ildə Rusiya Texnika Cəmiyyətinin Bakı bölməsinə üzv seçilmişdir. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

## RÜSTƏMBƏYOV ƏSƏD FƏTULLA OĞLU (1911-1982)



Azərbaycan alimi, neft və qaz quyularının qazılması sahəsində mütəxəssis. Texnika elmləri namizədi (1972). Azərbaycan SSR əməkdar mühəndisi (1960). SSRİ-nin fəxri neftçisi (1971). F.Ə.Rüstəmbəyovun oğlu. M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. Dərin və çox dərin qazımanın texnologiyası məsələlərinə dair tədqiqat işləri aparmışdır. Azərbaycanda və başqa Sovet respublikalarında yüksək məhsuldar yeni yataqların kəşfində və işə salınmasında fəal iştirak etmişdir. Qazaxıstan SSR, Özbəkistan SSR, Qırğızıstan SSR, həmçinin digər rayonların neft mütəxəssislərinə yeni texnika və texnologiyanın tətbiqi işində kömək göstərmişdir. Bir sıra elmi əsər və ixtiranın müəllifidir. 8 orden və medallarla təltif olunmuşdur.





# Böyük Vətən müharibəsində

## RÜSTƏMBƏYOV TOFİQ FƏTULLA OĞLU (1918-xxx)

Neft-qaz quyularının qazıma işləri sahəsində mütəxəssis. Tatarıstan SSR-in əməkdar elm və texnika xadimi (1960). SSRİ-nin fəxri neftçisi. 1943-cü ildən Sov.İKP üzvü. M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirdikdən sonra Dağıstan, Tatarıstan və Azərbaycanın, həmçinin Orta Volqa Xalq Təsərrüfatı Şurasının neft quyuları qazıma müəssisələrində mühəndis-texnik və rəhbər vəzifələrdə çalışmış, 1965-1970 illərdə isə Azərbaycan SSR neft sənayesi nazirinin müavini olmuşdur. 1970-ci ildən SSRİ Neft Sənayesi Nazirliyində məsul vəzifədə işləyir. SSRİ-də yeni neft yataqlarının mənimsənilməsində, yeni qazıma üsulları və avadanlığının tətbiqində iştirak etmişdir. 2 orden və medallarla təltif olunmuşdur. İ.M.Qubkin adına mükafata layiq görülmüşdür (1977).



## RÜSTƏMBƏYOVA ALİYƏ FƏTULLA QIZI (1907-1942)

Böyük Vətən müharibəsi qəhrəmanı, partizan hərəkatı iştirakçısı, həkim. F.Ə.Rüstəmbəyovun qızı. I-ci Leninqrad Tibb İnstitutunu bitirdikdən sonra Özbəkistan SSR-də, 1938-ci ildən isə Moskvada həkimləri təkmilləşdirmə İnstitutunda çalışmışdır. Böyük Vətən müharibəsinin ilk günlərindən Moskva, sonra Smolensk yaxınlığında tibb-sanitar batalyonunda xidmət etmişdir. 1941-ci ildə əsir düşən Rüstəmbəyova 1942-ci ilin əvvəllərində əsirlikdən qaçmış, Smolensk meşələrində fəaliyyət göstərən "Deduşka" partizan dəstəsinə qoşulmuş, tibb-sanitar batalyonunun rəisi olmuşdur. Döyüşlərin birində həlak olmuşdur. M.Dilbazinin "Partizan Aliyə" poeması Rüstəmbəyovaya həsr edilmişdir.

## RÜSTƏMOV ƏMİR MƏMMƏD OĞLU (1909-1955)



Sovet hərbi xadimi, mühəndis qoşunları general-mayoru (1955). 1940-cı ildən Sov.İKP üzvü. İnşaat texnikumunu bitirdikdən sonra (1931) SSRİ Baş Pambıqçılıq Komitəsinin Tacikistan SSR tikinti trestində mühəndis işləmişdir. 1932-ci ildən Sovet Ordusunda xidmət etmişdir. 1941-ci ildə V.V.Kuybışev adına Hərbi Mühəndislik Akademiyasını bitirmişdir. 1942-43-cü illərdə Rostov altında, Qafqaz uğrunda gedən vuruşmalarda fəal iştirak etmişdir. Müharibədən sonra Quru qoşunlarının mühəndislik xidməti qərargahı əməliyyat şöbəsinin rəisi təyin olunmuşdur. 1952-ci ildə K.J.Voroşilov adına Hərbi Akademiyanı bitirmişdir. Almaniyada sovet qoşunları qrupunun tərkibində ordu mühəndis qoşunlarının rəisi (1952-56), Sibir Hərbi Dairəsi mühəndis qoşunlarının rəisi (1956-66), V.V.Kuybışev adına hərbi Mühəndislik Akademiyasında kafedra rəisi (1966-69) işləmişdir. Qırmızı Bayraq, Qırmızı Ulduz ordenləri və medallarla təltif olunmuşdur.

# Almaniyanın təslim aktı

Məlum olduğu kimi, Berlin əməliyyatı (16 aprel-8 may 1945-ci il) Sovet qoşunlarının güclü həmlələri nəticəsində Reyxstaqın alınması ilə başa çatdı. May ayının 2-də Berlin qarnizonu təslim oldu. Bütövlükdə, Faşist Almaniyasının çökməsi üçün üçüncü reyxdə qalmış iri hərbi birləşmələrin də hissə-hissə tərk-silah olmaları lazım gələcəkdi.

May ayının 7-si gecə saat 3-ə 19 dəqiqə qalmış Reymsdə SSRİ, ABŞ, İngiltərə və Fransa ordularının nümayəndələri, o cümlədən general Yodl Almaniyanın danışıqsız təslim olması barədə Aktı imzaladılar.

Sovet nümayəndəsi, general Susloparov həmin imzalanma anına qədər Kremldən heç bir təlimat gəlmədiyinə görə risqə gedib, məsuliyyəti öz boynuna götürərək Akta qol çəkdi.

Yalnız bundan sonra general Susloparov Stalindən Təslim Aktının imzalanmasını qəti surətdə qadağan edən teleqram aldı. Ali Baş Komandan Aktın imzalanmasına bərk qəzəblənmişdi. Çünki Qərb müttəfiqləri bu prosesdə aparıcı rol oynayırdı.

İ.Stalin tələb edirdi ki, Təslim Aktının imzalanması mərasimi Sovet Ordusu tərəfindən alınmış Berlində yenidən keçirilsin. İ.Stalin həm də müttəfiqlərdən xahiş etdi ki, Təslim Aktı qüvvəyə minənə qədər, yəni may ayının 9-na kimi Qələbə barədə heç bir rəsmi məlumat verilməsin.

İ.Stalin müttəfiq dövlətlərin başçılarına göndərdiyi teleqramda bildirirdi: "Reymsdə imzalanmış aktı ləğv etmək olmaz. Ancaq onu qəbul etmək də düz deyil. Təslimat ən vacib tarixi Akt kimi tərtib olunmalıdır. Özü də qaliblərin ərazisində deyil,



***Sovet İttifaqı Marşalı Georgi Konstantinoviç Jukov Təslim Aktının imzalanması zamanı (Almaniya, Karlsxorst, Berlin, 8 may 1945-ci il)***





təcavüzün hardan gəldiyi yerdə, orada - Berlində, özü də birtərəfli qaydada deyil, mütləq antihitler koalisiyasına daxil edilən bütün dövlətlərin ali komandanlıqları ilə birgə qəbul edilməlidir".

Müttəfiqlər Təslim Aktının ikinci dəfə imzalanma mərasimini Berlində keçirmə tələbi ilə razılaşdılar. Eyzenhauer general Yodla xəbər verdi ki, alman silahlı qüvvələri təslimin rəsmi gedişatının qəti şəkildə tamamlanması üçün sovetlər və müttəfiqlər tərəfindən müəyyən edilmiş vaxtda göstərilən yerdə olmalıdırlar.

Beləliklə, mayın 8-də Mərkəzi Avropa vaxtı ilə saat 22:43-də (Moskva vaxtı ilə 9 may 00:43-də) Berlin yaxınlığındakı Karlxorstda, keçmiş hərbi-mühəndislik məktəbinin yeməkxanasında, Almaniyanın danışıqsız təslim olması barədə daha bir akt imzalandı. Bu aktın məzmunu, əsasən, 7 may 1945-ci ildə Reymsdə imzalanmış aktın təkrarı idi. Karlxorst Aktı atəşkəsin vaxtını da təsdiqlədi. Mərkəzi Avropa vaxtı ilə 8 may saat 23:01-də. (Moskva vaxtı ilə isə 01:01).

Almaniya tərəfindən Təslim Aktını Vermaxtın general-feldmarşalı Keytel, Lyuftvaffenin nümayəndəsi, general-polkovnik Ştumpf və donanma admiralı fon Frideburq imzaladılar.

Danışıqsız Təslim Aktını Sovet İttifaqı Marşalı G.K.Jukov (SSRİ), müttəfiq ekspedisiya qüvvələri komandanı müavini, Marşal Tedder (Böyük Britaniya) qəbul etdilər.

Altı il öncə faşist Almaniyası tərəfindən törədilmiş müharibə onun özünün tamamilə darmadağın edilməsi ilə başa çatdı. İmperiyanın mürtəce zərbə gücünə - Hitler faşizminə qarşı aparılan, miqyasına və amansızlığına görə tarixin heç bir dönəmində görünməmiş bu dəhşətli müharibə sona çatdı.

Sovet İttifaqının və antihitler koalisiyası ölkələrinin uzunmüddətli və gərgin mübarizəsi Almaniya üzərində qazanılan möhtəşəm Qələbə ilə sona yetdi. Almaniya hərbi, iqtisadi və mənəvi-siyasi baxımdan tam iflasa uğradı.

Sovet vətəndaşları Berlində imzalanmış Təslim Aktından 9 may 1945-ci ildə, Moskva vaxtı ilə axşam saat 22:00-da Sovet İttifaqı Teleqrafiya Agentliyinin məlumatından xəbər tutdular. Həmin məlumatı ümumittifaq radiosu ilə təkrarolunmaz səsə malik diktor Yuri Levitan oxudu. Sovet xalqının alman-faşist işğalçılarına qarşı apardığı müharibənin parlaq şəkildə başa çatması münasibəti ilə 9 May o vaxtdan ümumxalq təntənəsi, Qələbə günü kimi bayram olunmağa başladı.



***Təslim Aktının imzalanması***


9 мая
1941 - 1945

# CAVADOV ƏBDÜLAĞA ƏLİ OĞLU (1920)

1920-ci ildə Bakının Zirə qəsəbəsində dünyaya gəlib. Böyük Vətən müharibəsi iştirakçısıdır. 1954-cü ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsini fərqlənmə ilə bitirib, "Dağ-mədən mühəndis-geoloqu" ixtisasına yiyələnib. "Balaxanıneft" NQÇİ-də öz ixtisası üzrə işləyib. 1956-cı ildən 1964-cü ilə qədər Elmi-Tədqiqat İnstitutunda geoloq vəzifəsində çalışıb.

1962-ci ildə "Sabunçu layında Balaxanı-Sabunçu-Ramana yataqlarının geologiyası və neftqazlılığı, onların işlənib hazırlanmasının səmərəli yolları" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

Ə.Cavadov 1954-1974-cü illərdə "Qaradağneft" NQÇİ-nin baş geoloqu vəzifəsində çalışıb. Atəşgah, Umbakı mezozoy çöküntüləri sahələrində, miosen-mezozoy qalxmalarının stratiqrafik tiplərinə aid yataqlarda kəşfiyyat quyularının qazılmasını layihələndirib. Lökbatan qatlarının miosen-mezozoy layında qaz kondensat yataqlarının kəşfində və istismarında iştirakçı olub.

Ə.Cavadov 1970-ci ildə "Abşeronun cənub-qərbindəki məhsuldar qatların geologiyası və neftqazlılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1974-1978-ci illərdə Elmi-Tədqiqat Neft İnstitutunda "Layın fizikası" laboratoriyasının müdiri vəzifəsində çalışıb. O, 1978-ci ildən Azərbaycan Neft-Kimya İnstitutunun Neft-qaz yataqlarının geologiyası, kəşfiyyatı və axtarışı kafedrasının professorudur. Sənaye istehsalının təşkili fakültəsinin dekanı kimi də fəaliyyət göstərib.

1981-1986-cı illərdə isə Neft-qaz yataqlarının geologiyası, kəşfiyyatı və axtarışı kafedrasının müdiri vəzifəsində çalışıb. O, Neft Daşları, Günəşli və b. neft yataqlarının işlənib hazırlanmasında yaxından iştirak edib.

Ə.Cavadov 120 elmi əsərin müəllifidir, 12 nəfər elmlər namizədi hazırlayıb. Böyük Vətən müharibəsi cəbhəsində göstərdiyi döyüş şücaətinə görə I, II dərəcəli Vətən Müharibəsi, Qırmızı Ulduz ordenləri, eləcə bir çox medallarla təltif olunub.









# FATMA SƏTTAROVA (1921)

1921-ci ildə Bakıda anadan olub. 1941-ci ildə könüllü olaraq cəbhəyə gedib. Stalinqrad döyüşündə, Leninqrad mühasirəsinin yarılmasında iştirak edib. Moskva ətrafındakı hərbi hospitallarda tibb bacısı kimi xidmət göstərib. 1945-ci ilin fevral ayına qədər döyüşən ordunun sıralarında olub.

Fatma Səttarova həmişə respublikamızın ictimai həyatında fəal iştirak edib.

Böyük Vətən müharibəsindəki Qələbənin 65 illiyi münasibəti ilə "Ön cəbhədə və arxada qadınlarımızın rolu" mövzusunda keçirilən konfransda Fatma xanım qadın veteranlar adından YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, H.Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevaya veteranlara göstərdiyi daimi qayğıya, onların ehtiyacları, problemləri ilə dərindən maraqlandığına, Azərbaycanın inkişafı naminə apardığı genişmiqyaslı fəaliyyətinə görə öz minnətdarlığını bildirib.



# BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ SSRİ-NİN ORDENLƏRİ



Qələbə ordeni



Qələbə ordeni


"Qırmızı Ulduz" ordeni


Qırmızı Bayraq ordeni



Şərəf ordeni



Vətən Müharibəsi Ordeni



Suvorov  oredeni



Kutuzov ordeni


Uşakov ordeni


Naximov ordeni


Aleksandr Nevski ordeni


Boqdan Xmelnitski ordeni

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ SSRİ-NİN FƏRQLƏNMƏ NİŞANLARI


Marşal ulduzu



Qvardiya nişanı



Əlaçı minaatan nişanı



Snayper nişanı



Sualtı qayıq komandiri



Əlaçı sualtıqayıqçı nişanı



Əlaçı torpedoçu nişanı



Əlaçı artilleriyaçı nişanı



Əlaçı pulemyotçu nişanı



Əlaçı tankçı nişanı



Əlaçı minomyotçu nişanı



Əlaçı snayper nişanı



Əlaçı sanitar nişanı

# Əfsanəvi 1945-ci il 24 iyun paradı haqqında nadir faktlar

* Paradda 24 marşal, 249 general, 2536 zabit, 31.116 serjant və sıravi əsgər iştirak edirdi. Qızıl Meydandan 1850-dən artıq hərbi texnika keçdi.

* Qələbə paradını İ.V.Stalin deyil, Sovet İttifaqı Marşalı G.K.Jukov qəbul etdi.

Parada bir həftə qalmış İ.Stalin G.Jukovu öz iqamətgahına çağırır. Söhbət zamanı ondan soruşur:

- Marşal ata minməyi yadırğamayıb ki? Axı, G.Jukov o illərdə daha çox qərargah maşınında ora-bura gedirdi.

G.Jukov cavab verir ki, xeyir, yadırğamayıb, boş vaxtlarında at minməyi xoşlayır.

Ali Baş Komandan isə cavabında deyir:

- Hə, bax, Qələbə Paradını siz qəbul etməli olacaqsınız. K.Rokosovski isə parada komandanlıq edəcək.

* Döyüşçülər darmadağın edilmiş alman hissələrinin 200 bayraq və ştandartını əllərində alcək daşıyırdılar. Bununla onlar düşmənə də, onun bayrağına da nifrət bildirir, əllərini murdar şeylərə toxundurmaq istəmədiklərini büruzə verirdilər.

Həmin bayraq və ştandartları əvvəldən hazırlanmış səkiyə oxşar xüsusi taxta lövhənin üstünə tullayırdılar ki, onlar Qızıl Meydana dəyməsin. Birinci olaraq Hitlerin şəxsi ştandartı atıldı. Axırda isə Vlasov ordusunun bayrağını tulladılar. Həmin günün axşamı taxta qaramanın üstündəki bayraqlara, bütün alcəklərə od vurub yandırdılar.

* Hələ may ayının axırında, bir ay qabaqcadan parada hazırlıq barədə qoşunlara sərəncam göndərilmişdi. Paradın dəqiq vaxtı isə Moskvanın tikiş fabriklərinə lazım olan müddətlə razılaşdırıldı. Fabriklərdə həmin müddət ərzində əsgərlər üçün 10 min dəst parad geyimi, atelyelərdə isə general və zabitlər üçün mundirlər tikilib çatdırılmalı idi.

* 1945-ci il 24 iyun paradından sonra Qələbə günü geniş şəkildə bayram edilmədi. O gün adi iş günü sayılırdı. 1965-ci ildən isə Qələbə günü müntəzəm olaraq təntənəli bayram, istirahət günü kimi qeyd edildi.

* 1945-ci il 24 iyun paradında Culbars adlı iti İ.Stalinin şinelinə bükərək əl üstündə aparırdılar. Məsələ burasındadır ki, İkinci Dünya müharibəsi zamanı xüsusi təlim görmüş itlər obyektlərin minalardan təmizlənməsində minaaxtaranlara xeyli köməklik göstərdilər. Onlar arasında Culbars adlı it xüsusilə fərqlənmişdi. O, Avropa ölkələrində müharibənin axırıncı ilində 7468 mina, 150-dən çox mərmi tapıb üzə çıxarmışdı.

İyunun 24-də Moskvada, Qələbə paradına lap az qalmış Culbars yaralanır. Məlum olur ki, Culbars "itlər məktəbinin" sırasında öz ayağı ilə paraddan keçə bilməyəcək. Bundan xəbər tutan İ.Stalin əmr edir ki, Culbarsı onun şinelinə bükərək, əllər üstdə paraddan keçirsinlər.





# 24 iyun paradı Böyük Vətən müharibəsində faşizm üzərindəki qələbənin təntənəsi bayramıdır

1945-ci il may ayının 8-də, Berlin ətrafındakı Karlxostda danışıqsız təslim barədə Aktın imzalanmasına hazırlıq getdiyi bir vaxtda Moskvada SSRİ Ali Soveti Rəyasət Heyətinin "9 Mayın Qələbə bayramı günü elan edilməsi haqda" fərmanı imzalandı. Fərman çox yığcam idi:

- "Sovet xalqının alman-faşist işğalçılarına qarşı apardığı Böyük Vətən müharibəsinin qalibiyyətlə başa çatması və danışıqsız təslim olduğunu elan etmiş Hitler Almaniyasının Qızıl Ordu tərəfindən tam məğlubiyyətə uğradılması ilə qurtaran tarixi zəfərin anılması məqsədi ilə 9 May ümumxalq təntənəsi - Qələbə Bayramı günü hesab edilsin və 9 May istirahət günü sayılsın".

Əvvəlcə qərara alındı ki, paradda Yuri Levitan fərmanın mətnini Kremldəki radiostansiyadan oxusun. Ancaq məşhur diktor Qızıl Meydandakı insan selini yarıb Kremlə yaxınlaşa bilmədiyindən mətni ehtiyat studiyadan oxudu. Bayram atəşfəşanlığı və bəzi yerlərdə komendant xidmətinin artırılması istisna olmaqla qoşunlar bayram tədbirlərinə cəlb olunmamışdı. Bir neçə gün sonra - 1945-ci il iyun ayının 24-də Böyük Vətən müharibəsində SSRİ-nin qələbəsi şərəfinə, Qızıl Meydanda parad keçirmək barədə qərar qəbul edildi. Parada çox diqqətlə, bütün incəlikləri ilə hazırlaşdılar. Bütün cəbhələrdən yığılma alaylar paytaxta gətirildi. Onlar hissə-hissə Moskvada, Moskva ətrafının paytaxta yaxın yerlərində yerləşdirildi.

Sinələrində döyüşdə qazanılmış orden və medalları gəzdirən döyüşçülər ilk dəfə olaraq, döyüş hazırlığının əsaslarını məhz burada öyrənməyə başladılar.

1945-ci il iyun ayının 22-də Ali Baş Komandanın 370 nömrəli əmri dərc olundu. Əmrdə deyilirdi: "Böyük Vətən müharibəsində Almaniya üzərindəki qələbə münasibətilə 1945-ci il iyun ayının 24-də, Moskvada, Qızıl Meydanda fəaliyyətdəki ordu qoşunlarının, Hərbi-Dəniz Donanmasının və Moskva qarnizonu qoşunlarının Qələbə paradını təyin edirəm".

İyun ayının 24-də şeypurların təntənəli səsi Qızıl Meydana yayılaraq, Qələbə paradının başlandığını bildirdi. Hər bir cəbhə birləşməsinin önündə cəbhə və ordu komandanları sıyırma qılınc gedirdilər. Onların arxasınca Sovet İttifaqı Qəhrəmanları, ordenli döyüşçülər cəbhənin və ona daxil olan hissələrin bayraqlarını aparırdılar.

Cəbhə cərgələrinin arxasınca məğlub faşist Almaniyasının endirilmiş bayraq və ştandartlarını gətirən batalyon meydana daxil oldu. Döyüşçülər əllərindəki düşmən bayraqlarını Mavzoleyin ayaqları altına atdılar.

Moskva qarnizonu hissələri və hərbi məktəb müdavimləri meydana girdi. İgid və çevik süvarilər də çaparaq keçdi. Nizamlı, dəqiq sıra ilə əfsanəvi "taçankalar", hava hücumundan müdafiə texnikası, artilleriya, motosikletçilər, zirehli avtomobillər və tanklar da meydandan keçənlərin arasındaydı.

Səmada döyüş təyyarələri göründü. Onların çoxunu böyük şöhrət, ad-san qazanmış sovet aslanları idarə edirdi.

Kinooperatorlar Qələbə paradını müxtəlif nöqtələrdən çəkirdi. Bir neçə variantda filmlər hazır-



landı. Onlardan biri rəngli film idi. Qələbə paradı haqqındakı film uzun müddət kinoteatrlarda, adi kənd klublarında nümayiş etdirildi. Hər yerdə də tamaşaçıların aramsız alqışları, sevinc və fərəh hissi ilə qarşılanırdı.

1945-ci ildən sonra 20 il ərzində Qələbə münasibəti ilə parad sanki unuduldu. Növbəti parad 1965-ci ildə keçirildi. Öz iştirakçılarının sayına görə bu parad 1945-ci ildəkindən heç də geri qalmırdı. Texnikanın sayına görə isə hətta ondan üstün idi.

Bundan sonra yenə ara verildi, Qələbə günü, yəni may ayının 9-da Qızıl Meydanda hərbi parad keçirilmədi. Çünki hər il onsuz da 1 may və 7 noyabr günlərində ənənəvi olaraq qoşunlar ölkənin Baş meydanından keçməliydi. Onu da qeyd etmək yerinə düşərdi ki, 60-cı illər SSRİ-nin bir çox şəhərlərində 9 May günü özünəməxsus şəkildə hərbi paradla qeyd olunurdu. Həmin gün hərbi hissə və hərbi məktəblər küçələrdən nizamla keçərək hərbi memoriallara, həlak olmuş döyüşçülərin abidələrinə baş çəkirdilər. Abidələrin üzərinə əklillər, çiçəklər qoyulur, mitinqlər, Böyük Vətən müharibəsi veteranlarının görüşü təşkil edilirdi. Sonra da təntənəli marşla abidələrin önündən keçilirdi. Belə tədbirlər Moskvada da adət halını almışdı. Amma Qızıl Meydanda deyil, başqa məkanlarda...

Qələbə günü şərəfinə növbəti genişmiqyaslı parad 1995-ci ildə keçirildi. Bu parad iki müstəqil hissədən ibarət idi: birincisi Qızıl Meydandakı piyada parad, ikincisi isə "Poklonnı Qora"dakı hərbi texnikanın nümayişi. O vaxtdan etibarən Qələbə gününün hərbi paradı hər il keçirildi. Lakin sonrakı paradlara hərbi texnika çıxarılmırdı.

2005-ci ildə Qələbənin 60 illiyi qeyd olunanda iri hərbi parad təşkil edildi. Bir çox xarici dövlət nümayəndələri dəvət olundu. Həmin paradda çox maraqlı bir məqam da vardı. İlk dəfə idi ki, Vermaxtın veteranları da Qızıl Meydandaydı. Onlar Almaniyanın o vaxtkı kansleri Herhard Şröyderlə birgə gəlmişdilər.







*Sovet İttifaqı Marşalları G.K.Jukov və K.K.Rokosovski Qələbə Paradında (24 iyun 1945-ci il)*





**Sovet hökumətinin tapşırığı ilə Qələbə paradını Sovet İttifaqı Marşalı G.K.Jukov qəbul etdi.**

## *Sovet İttifaqı Marşalı G.K.Jukovun Qələbə Paradındakı çıxışı (24 iyun 1945-ci il)*

**G.K.Jukov:** - Qızıl ordu əsgərləri və qırmızı donanma matrosları, serjantlar və starşinalar, ordu və donanma zabitləri, generallar və admirallar! Yoldaş fəhlələr və kolxozçular, elm, texnika və incəsənət işçiləri, sovet idarə və müəssisə qulluqçuları! Döyüş dostları!

Sovet hökuməti və Ümumittifaq Kommunist Bolşeviklər Partiyası adından və anbarın tapşırığı ilə Sizi alman imperializmi üzərindəki böyük Qələbə münasibəti ilə təbrik edirəm! Vətənimizin paytaxtı Moskva Vətən adından bu qələbəni qazanmış igid sovet döyüşçülərini təntənəli surətdə təbrik edir!

Bu gün qalib əsgərlər, Stalin hərbi məktəbinin yetirmələri çoxsaylı qələbələrin ölməz şöhrəti ilə bəzənib süslənmiş döyüş bayraqlarını Moskva küçələri ilə, bəyaz taclı Kreml divarları boyunca aparacaqlar.

Dörd il bundan əvvəl alman-faşist quldur dəstələri vəhşicəsinə vətənimizə basqın etdilər. Sovet xalqı öz vətəninin şərəfini, azadlığını qorumaq üçün dincliyi bir kənara qoyub, silaha sarılmağa məcbur oldu. Faşist Almaniyası ilə, belə qaniçən və mənfur düşmənlə müharibə ağır, çox çətin bir sınaq idi.

Yoldaş İ.Stalinin göstərdiyi kimi, bu savaşın əsasında sovet dövlətinin, SSRİ xalqlarının ölüm-dirim məsələsi, bizim xalqlarımızın azad yaşaması, ya da köləliyə məhkum olması dayanırdı.

Müharibənin ilk mərhələdəki gedişi bizim üçün uğursuz oldu. Biz hərbi məğlubiyyətlərə məruz qaldıq. Ümidsiz vəziyyətlərə düşdüyümüz anlar da oldu. Düşmən Vətənimizin qəlbinə - Moskvaya qədər gəlib çıxa bilmişdi və artıq öz qələbəsini qeyd etməyə hazırlaşırdı. Həmin vaxtda təkcə düşmənlərimiz deyil, hətta xaricdə olan dostlarımız da belə hesab edirdi ki, yəqin ki, Qızıl Ordu alman hərbi maşınının güclü təzyiqinə dözə bilməyəcək.

Ancaq Sovet xalqı, bizim Qızıl Ordumuz ruhdan düşmədi. Dahiyanə Stalin uzaqgörənliyi ilə silahlanaraq, Lenin-Stalin partiyasından ruh alaraq, biz öz haqq işimizin qalib gələcəyinə qəti əmin idik.

Doğma torpağımızın hər qarışını qorumaqla, döyüşlərdə qəhrəmanlıq möcüzəsi göstərən sovet qoşunları düşməni inadla vurub məhv etməyi qarşısına məqsəd qoydu, özü də bunu məhz Stalin hərb elminin bütün qaydaları ilə həyata keçirdi. Onlar bu elmə mükəmməl yiyələndilər.

Alman qoşunlarının həmlələrini dəf edən Qızıl Ordu özünün dahi sərkərdəsi Marşal İ.Stalinin rəhbərliyi altında qəti hücuma keçdi və Sovet torpaqlarını düşməndən azad etdi. Bununla kifayətlənməyib müharibəni Almaniya ərazisinə keçirdi, Hitler ordusunu darmadağın edərək Qələbə Bayrağını Berlin üzərində dalğalandırdı. Mənfur alman işğalçılarının da, bizim müqəddəs torpaqlarımıza tamah salmış digər işğalçıların da taleyi eyni oldu.

Üstümüzə qılınc qaldıran almanlar elə bizim qılıncımızdan ölüm tapdılar.

Böyük dövlətlərin - Sovet İttifaqının, Amerika Birləşmiş Ştatları və Böyük Britaniyanın birgə səyləri ilə faşist Almaniyasının cinayətkar hərbi maşını məhv edildi.

Alman-faşist təcavüzkarlığının Avropadakı yuvası dağıdıldı. Bəşəriyyət özünün ən qəddar düşmənindən, alman faşizmindən xilas oldu.

İndi hamı etiraf edir ki, Almaniya üzərindəki qələbənin qazanılmasında Sovet İttifaqı həlledici rol oynadı. Qızıl Ordu üç il ərzində Almaniya və onun tərəfdarlarının silahlı qüvvələrinə qarşı təkbaşına vuruşdu. Bütün müharibə ərzində alman ordusunun əsas qüvvələri sovet-alman cəbhəsinə yönəlmişdi. Həmin qüvvələr elə buradaca Qızıl Ordu tərəfindən məhv edildi, yaxud da əsir alındı. Alman silahının nüfuzu ayaqlar altına alındı və tapdandı. Beləliklə, Avropadakı müharibənin qalibiyyətli nəticəsi məhz sovet-alman cəbhəsində həll olundu.

Yoldaşlar! Müharibə ordumuzun nəinki bahadır gücünü, bənzəri olmayan qəhrəmanlığını, eyni zamanda, bizim strategiyamızın və taktikamızın düşmən strategiyasından və taktikasından üstün olduğunu nümayiş etdirdi.



Biz Stalin hərb elminin təntənəsini Vətən müharibəsinin qalibiyyətli nəticəsində gördük. Qızıl Ordu Vətən müharibəsində xalqın ona göstərdiyi etimadı şərəflə doğrultdu.

Onun igid əsgərləri Vətən qarşısında öz borclarını ləyaqətlə yerinə yetirdi. Qızıl Ordu Vətənimizin müstəqilliyini, azadlığını qorumaqla, həm də Avropa xalqlarını alman əsarətindən xilas etdi. Qızıl Ordu əbədi şan-şöhrətin nişanına bürünmüş xilaskar ordu kimi tarixə düşdü. Vətən müharibəsi başa çatdı. Tarixdə misli görünməmiş bir qələbə qazanıldı.

Bizim sosialist quruluşumuz, bolşevik partiyasının müdrik rəhbərliyi, sovet hökumətinin yeritdiyi düzgün siyasət, xalqımızın mənəvi-siyasi birliyi, Qızıl Ordunun nəhəng gücü və sovet xalqının şərəfli əməyi bu böyük qələbənin rəhni və güc mənbəyidir.

Biz ona görə qələbə çaldıq ki, bizi qələbəyə böyük rəhbərimiz, dahi sərkərdəmiz, Marşal İ.V.Stalin aparırdı!

Yoldaşlar! Alman imperializmi üzərindəki qələbəni biz ağır itkilər hesabına qazanmışıq. Düşmənlə amansız döyüşlərdə döyüş dostlarımızın əksər hissəsi, xalqımızın bir çox ləyaqətli oğul və qızları qəhrəmancasına həlak oldular. Onlar öz şirin canlarını Qələbə naminə, Vətənin mehrabına qurban verdilər. Belə bir təntənəli gündə, gəlin, onların müqəddəs xatirələrini yad edərək deyək:

- Vətənimiz uğrunda döyüşlərdə həlak olmuş qəhrəmanlara əbədi eşq olsun!

Dörd il davam edən amansız döyüşlərdən sonra biz dinc inkişaf mərhələsinə qədəm qoyduq. Sovet dövləti bu müharibədən qüdrətli bir dövlət, Qızıl Ordu isə dünyada ən qabaqcıl, ən güclü ordu kimi çıxdı.

Ancaq biz, sovet adamlarına lovğalanmaq və arxayınlaşmaq yaraşmaz. Bizə Vətənimizin hərbi-iqtisadi qüdrətini daha da artırmaq, yorulmadan döyüş ustalığımızı təkmilləşdirmək, Vətən müharibəsinin zəngin təcrübəsindən öyrənmək, Sovet hərb elmini inkişaf etdirmək lazımdır!

Yoldaşlar!

Bu gün bizim dövlətimizin, silahlı qüvvələrimizin qüdrətini sübuta yetirən bir gün kimi tarixə düşəcək. Şübhə yoxdur ki, bizim Qızıl Ordumuz və Hərbi-Dəniz Donanmamız bundan sonra da möhtəşəm qələbələrimizin etibarlı keşikçisi və Sovet Sosialist Respublikalarının dövlət maraqlarını hər yerdə və həmişə qorumağa hazır olacaq!

Yaşasın bizim qələbəmiz!

Vətənimizin şərəf və ləyaqətini, azadlığını, müstəqilliyini qorumuş qalibiyyətli döyüşçülərə eşq olsun!

Böyük Sovet xalqına, qalib xalqa eşq olsun!

Qələbəmizin ilhamvericisi və təşkilatçısı, böyük Lenin-Stalin partiyasına eşq olsun!

Bizim müdrik rəhbərimizə və sərkərdəmizə, Sovet İttifaqı Marşalı dahi İ.V.Stalinə eşq olsun!

Ura!












# HEYDƏR ƏLİYEVİN TİTANİK FƏALİYYƏTİ SAYƏSİNDƏ AZƏRBAYCAN BU GÜN DİNAMİK İNKİŞAF EDƏN DÖVLƏTDİR



*Nikolay Baybakov, Sosialist Əməyi Qəhrəmanı, Lenin Mükafatı laureatı, SSRİ Neft Sənayesi Xalq Komissarı, SSRİ Dövlət Plan Komitəsinin sədri*

Azərbaycan xalqının iqtisadi inkişaf tarixinin kökləri çox qədimlərə, zamanın dərin qatlarına gedib çıxır və XX əsr bu tarixdə özünəməxsus yer tutur.

Ötən yüzillikdə Azərbaycan iqtisadiyyatında bütün dünyada olduğu kimi, inqilabi dəyişiklər baş verdi. Bu dəyişikliklərlə bağlı yaranan çox ciddi sınaqlardan keçən, maneə və əngəlləri, çətinlikləri adlayan xalqımız fədakarlıqla yaşayıb-yaratmaqda davam etdi.

Həmin dəyişikliklərin miqyasını, onun ayrı-ayrı mərhələ və xüsusiyyətlərini ölkəmizin keçmişi və gələcəyi baxımından, eləcə də ümumdünya kontekstində obyektiv qiymətləndirmək lazımdır.

Ötən əsrdə Azərbaycan iqtisadiyyatı bir neçə iqtisadi sistem çərçivəsində yaşadı, inkişaf etdi. Onun tarixinin 71 ili (1920-1991) sovet dövrünə təsadüf edir. Dünya təcrübəsi göstərir ki, qazanılan müstəqillik çox zaman iztirablar, qurbanlar, əzab-əziyyət və işgəncələrlə ödənilir. Müstəqilliyə nail olmuş ölkələrin heç də hamısı bu sınaqlardan uğurla çıxa bilmir. Azərbaycanın 18 oktyabr 1991-ci ildə əldə etdiyi dövlət müstəqilliyi Azərbaycan xalqının tarixi nailiyyətidir. Həyat gerçəkliyi sübut edir ki, müstəqilliyi qorumaq, onu möhkəmləndirmək əldə etməkdən qat-qat çətindir. 1993-cü ilin may-iyun aylarında, ölkədə böhran kəskinləşən zaman Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çatdı. Yeni qazandığı milli müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan xalq "diletant və naşılar hökumətinin" hakimiyyətdən əl çəkməyini istədi. Xalq yenidən öz taleyini Heydər Əliyevə etibar etdi.

Böyük siyasətə qayıdan Hey-

dər Əliyev ölkəni qaçılmaz faciədən xilas yoluna çıxarmaq üçün titanik işlər gördü. O zaman Azərbaycan iqtisadiyyatını büsbütün durğunluq bürümüş, istehsal potensialı, demək olar ki, darmadağın edilmişdi. Daxili siyasi vəziyyət ağır idi və xarici təhlükə, necə deyərlər, qapının ağzını kəsdirmişdi.

Yeni müstəqil dövlət ölkənin ağır siyasi və iqtisadi böhrandan çıxarılması üzrə bir sıra, dərindən düşünülmüş əsaslı tədbirlər həyata keçirməyə başladı. İlk növbədə, ən ümdə vəzifə olaraq inkişaf etmiş ölkələrlə birgə əməkdaşlıq körpülərinin qurulmasından başlamaq lazım gəlirdi.

Bir rəhbər kimi, dövlət idarəçiliyində zəngin təcrübəyə malik olan Heydər Əliyev dünyada gedən prosesləri, Azərbaycan xalqının tarixi xüsusiyyətlərini çox yaxşı bilirdi. Odur ki, ilk növbədə ölkənin milli və geosiyasi maraqlarına uyğun inkişaf strategiyasını işləyib hazırladı.

Həmin strategiyaya əsasən, dövlət quruculuğunda gedən proseslər, yeni iqtisadi sistemin tətbiqi üçün qanunvericilik bazasının yaradılması, ilk növbədə beynəlxalq hüquq normalarına və ölkələrarası əməkdaşlıq prinsiplərinə uyğunlaşdırılmalıydı.

Azərbaycan iqtisadiyyatının bərpası, dövlət müstəqilliyinin ardıcıl surətdə möhkəmləndirilməsi strategiyası işlənib hazırlandı. Neft amili iqtisadi inkişafın ən başlıca istiqaməti kimi müəyyənləşdirildi. Bu, yeganə doğru yol olaraq, dünya iqtisadiyyatına fəal surətdə və tez bir zamanda inteqrasiya olmaqda, xaricdən sərfəli şəkildə maliyyə ehtiyatları və kapital qoyuluşunun cəlb olunmasında respublika qarşısında geniş imkanlar açdı.

Heydər Əliyev tərəfindən işlənib hazırlanan neft strategiyasının uğurla həyata keçirilməsi sayəsində Azərbaycan böyük iqtisadi nailiyyətlər qazanmış oldu.

*Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev haqqında ürəkdolusu danışan Nikolay Baybakov, bir iqtisadçı kimi akademik Ziyad Səmədzadənin "Böyük yolun mərhələləri. Azərbaycan iqtisadiyyatı yarım əsrdə: reallıqlar və perspektivlər" adlı kitabına da diqqət yetirir.*



**Heydər Əliyev və Nikolay Baybakov (1972-ci il)**

*Bu əsər haqqında 2004-cü il avqust ayının 14-də "Bakinskiy raboçiy" qəzetində dərc olunmuş rəyində belə yazır:*

*"...Böyük yolun mərhələləri" qeyri-adi əsərdir. Kitab Azərbaycanın iqtisadi keçmişinə və bu gününə analitik ekskursdur. Gələcəyə aid fikir və baxışlar da var. Buna görə də onu oxumağı mütəxəssislərdən tutmuş, şagirdlərə qədər, hamıya tövsiyə etmək olar.*

*Kitabda 70-ci illərdən bu günə qədər Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafına bəxş etdiyi böyük töhfələr çox gözəl əks olunub. Mən həmin dövrün şahidiyəm. O zaman Heydər Əliyev Azərbaycanın inkişafı ilə bağlı öz proqramını qəti və əsaslı surətdə həyata keçirməkdəydi. Onun hər bir göstərişi dərin əsaslara söykənirdi. Kitabda elə faktlar çoxdur.*

*Z.Səmədzadənin kitabında neft amilinin Azərbaycan iqtisadiyyatındakı rolu çox düzgün işıqlandırılıb. Mən özüm bu prosesdə iştirak etdiyimə görə qürur duyuram. Fəxr edirəm ki, Azərbaycan neftçiləri Rusiya və başqa MDB ölkələrində neft sənayesinin inkişafı üçün dəyərli işlər görüb, bu sahədə misilsiz xidmətləri vardır. Ən nəhayət, onunla fəxr edirəm ki, faşizm üzərindəki qələbədə Bakı nefti, həqiqətən, həlledici rol oynadı. Daha düzünü desəm: - Bakı nefti olmasaydı, müharibədə heç Qələbəmiz də olmayacaqdı!*

*Bu gün Bakıda böyük neft ehtiyatlarının olmasına inanıram. Deməli, görüləsi işlər hələ qabaqdadır.*

*Mən müəllifin iqtisadi əməkdaşlığa dair baxışları və mövqeyi ilə yaxından tanış oldum və onlarla tam şərikəm. Əlbəttə, problemlər də mövcuddur. Rusiya və Azərbaycan genişmiqyaslı birgə proqramların həyata keçirilməsi yolunda daha böyük imkanlara malikdirlər.*




*Mən çox məmnunam ki, Azərbaycan və Rusiya prezidentləri ölkələrimiz arasındakı iqtisadi əlaqələrin dərinləşməsinə mühüm əhəmiyyətə malik vəzifə kimi baxırlar. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram.*

*Z.Səmədzadənin təqdirəlayiq xidməti bir də ondadır ki, o, ötən nəsillərin əməyi ilə yaranan potensiala layiqincə dəyər verir.*

*Xəzər üzərində şəhərin salınmasını indi də qürur və həyəcanla xatırlayıram. Yadıma gəlir ki, Sabit Orucov, Kaveroçkin, Qurban Abbasov və mənim bir çox bakılı dostlarım heç nəyə baxmadan necə çalışıb nəhəng nəticələr əldə edirdilər.*

*Bu gün xalqa xidmət göstərən Azərbaycan sənayesini qurmuş insanların hamısına əbədi eşq olsun!*

*Bakı neftçilərinin və alimlərin birgə səyləri nəticəsində ötən əsrin 40-cı illərinə qədər Azərbaycanın neft sənayesində əsl texniki inqilab həyata keçirildi. Neftçilər quruda bir-birinin ardınca yeni yataqlar mənimsəyirdilər. Xəzərin dibində gizlənmiş sərvəti üzə çıxarmaq üçün genişmiqyaslı kəşfiyyata keçməyə hazırlaşırdılar. 1940-cı ildə 22,6 mln. ton neft hasil edildi.*

*İndi Rusiya diplomat və maliyyəçiləri xarici ölkələrə olan borclarının ödənilməsi barədə çox danışırlar, guya bunun bütün ağırlığı təkcə Rusiya Federasiyasının üzərinə düşüb. Bəs, onlar niyə yada salmırlar ki, təkcə müharibənin dörd ili ərzində Azərbaycan havayı, heç bir əvəz istəmədən SSRİ-yə 74 mln. ton neft verdi. Rusiyada cəbhəyə lazım olan benzinin 80%-ni, liqroinin 90%-ni, sürtkü yağının 96%-ni Azərbaycan istehsal etdi. Təəssüf ki, indi bunları heç kim hesaba almır!*

*Ancaq əsas odur ki, bu gün ölkə rəhbərliyinin yeritdiyi düzgün siyasi-iqtisadi xətt sayəsində respublika çiçəklənir. Heyif ki,*

*Heydər Əliyev bizimlə deyil.*

*O, təkcə Azərbaycanın deyil, həm də bütün SSRİ xalq təsərrüfatının inkişafına böyük töhfələr verib. Respublikanın SSRİ ərazisinin bir çox regionlarla sıx iqtisadi əlaqələri var idi. Sibirin, Tatarıstanın, Başqırdıstanın, Türkmənistanın, Ukraynanın neft mədənlərində istifadə olunan avadanlıqlar Azərbaycanın neft maşınqayırma zavodlarında istehsal olunurdu.*

*Bu əməkdaşlıqda aqrar sektorun rolu böyük idi. Heydər Əliyev bütün opponentlərə tutarlı, parlaq və olduqca arqumentli cavab verməklə yanaşı, öz baxışlarını, mövqeyini ortaya qoyurdu. Ümumən, o, prinsipial adam idi. Mən Heydər Əliyevi dahi insan sayıram və çox heyfsilənirəm ki, biz onu itirdik...*

*Kitabın ikinci hissəsi Azərbaycanın indiki Prezidenti İlham Əliyev tərəfindən qarşıya qoyulmuş böyük vəzifələrin həyata keçirilmə problemlərinə həsr olunub. Azərbaycanın indiki rəhbəri də mənə çox xoş təsir bağışlayır. O, istər strateji vəzifələr, istərsə də regional inkişaf məsələləri üzrə aydın, dəqiq bir xəttə malikdir. Qeyd edim ki, bu istiqamət 70-ci illərdə Heydər Əliyevin çoxşaxəli fəaliyyətində mühüm əhəmiyyət kəsb edirdi. Məhz onun təşəbbüsü ilə İttifaq hökuməti ölkədə regionların inkişafı ilə bağlı qərar qəbul etmişdi. Qısa müddət ərzində Gəncədə, Əli Bayramlıda, Mingəçevirdə və başqa şəhərlərdə yeni-yeni müəssisələr tikilib istifadəyə verildi.*

*Bu gün də kiçik və orta tipli şəhərlərin, kənd və rayonların inkişaf problemləri aktualdır. Kitab müəllifi qeyd edir ki, bunun gerçəkləşdirilməsi üçün effektiv mexanizm lazımdır. Prezident İlham Əliyevin bölgələrdə son illərdə 600 min iş yerinin açılması barədə fikri heyranlıq doğurur. İlham Əliyev aqrar sektorun böyük imkanlarını gerçəkləşdirməyə, yerli istehsalçını həvəsləndirməyə, sağlam investisiya mühiti yaratmağa, bir sözlə respublikanı daha bəxtəvər günlərə aparmağa can atır.*

*Bu yöndə kitab müəllifinin mövqeyi aydındır - dövlət və iqtisadiyyat ayrı-ayrılıqda inkişaf etdirilə bilməz. Dövlətin köməyi, dəstəyi olmadan güclü iqtisadiyyat yaranmaz və yaxud da əksinə. Mən Ziyad Səmədzadənin fikri ilə tamamilə şərikəm. Güclü dövlət və effektiv idarəetmə mexanizmi-sabitliyin və keyfiyyətli inkişafın rəhnidir. Çin təcrübəsini götürək.*

*Bu qüdrətli ölkənin 1,3 milyard əhalisi var. Ölkədə hər il ən azı 6-7% iqtisadi inkişaf surətini təmin edir. Çinlilər dövlət təsərrüfat idarəçiliyini bazar texnologiyası ilə uğurla uyğunlaşdırır.*

*Biz onların iş təcrübəsinə tənbəlcəsinə əl yelləyib biganə yanaşmamalıyıq. Əksinə, həmin təcrübəni diqqətlə və xırdalığına qədər öyrənməli, harada, necə lazımdısa tətbiq etməliyik.*

*Bütün səmimiyyətimlə deyirəm bu, bu kitab, həqiqətən, unikal kitabdır. Burada 100-dən çox cədvəl, statistik məlumat, zəngin informasiya, müqayisə materialları, iqtisadi inkişaf amillərinin dərin təhlili verilib. Müəllifin kökündən araşdırılan problemlərə aid tutarlı, təkzibolunmaz dəlil və arqumentləri var.*

*Dövlət Plan Komitəsinin sabiq sədri kimi qeyd edim ki, belə elmi əsərlər keçmiş SSRİ-nin başqa respublikalarına da lazımdır. Biz öz tariximizi öyrənməli, bilməli və qiymətləndirməliyik. Real proseslər haqda obyektiv mühakimə aparmalı, fikir yürütməliyik. İnkişaf perspektivlərini düzgün müəyyənləşdirməliyik. Bunun üçün iqtisadçılar, tarixçilər, ən müxtəlif sahələrlə məşğul olan alimlər öz güclərini, səylərini birləşdirib bu səmtə yönəltməlidirlər.*

*Onu da demək vacibdir ki, Ziyad Səmədzadənin kitabı Heydər Əliyevin əziz xatirəsinə həsr olunub və bu, olduqca şərəfli bir ithafdır.*

*Həqiqətən də, müəllif öz qarşısına qoyduğu məqsədə çatıb. Bu geniş, əhatəli əsərdə axırıncı on il boyu Azərbaycanın sosial-iqtisadi inkişafında, onun milli maraqlarının qorunmasında, iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin rolu çox dərin, obyektiv və olduqca parlaq şəkildə işıqlandırılıb. Heç təsadüfi deyil ki, məhz Heydər Əliyevin titanik fəaliyyəti sayəsində bu gün Azərbaycan dinamik inkişaf edən bir ölkədir.*

**"Bakinskiy raboçiy" qəzeti,**
**14.08.2004-cü il**




***Viktor Andrianovun və Hüseynbala Mirələmovun "Görkəmli insanların həyatı" seriyasından olan, Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Heydər Əliyev" kitabı təkcə keçmiş Sovet İttifaqı məkanında deyil, ondan uzaqlarda da şöhrət qazanıb və oxunmaqdadır.***

***Müəlliflər "Heydər Əliyev" kitabında ümummilli liderin həyat və fəaliyyətini əks etdirən bütün mərhələləri göstəriblər. Onun həyatının ətraflı bioqrafiyası, peşəkar siyasətçi kimi formalaşması təsvir olunur. Kitabda həmçinin son 10-15 ildə Azərbaycanda baş verən bütün hadisələr öz əksini tapıb və müstəqil Azərbaycanın formalaşmasında Heydər Əliyevin fəaliyyəti peşəkarcasına təhlil olunub.***

***Bundan başqa, böyük rəhbərin işlədiyi dövrdə onun həyatının nadir və maraqlı epizodları qələmə alınır. Heydər Əliyev şəxsiyyəti bugünümüzün qaynar ritminə çox yaxın bir fiqurdur və həmin illərdə baş verənlər cəmiyyəti hələ də həyəcanlandırmaqdadır. O, lap yaxın zamanda həyatdan getmiş olsa da, onun əziz xatirəsi həmişə bizimlədir, bizim qəlbimizdə, ruhumuzda yaşayır və yaşayacaqdır. Onu ötən əsrdə, səksəninci illərin axırlarında üstünə atılan şər və böhtanlardan qorumaq məqsədi ilə geniş oxucu kütləsinə təqdim etmək biz müəlliflər üçün çox vacib idi.***

***Yalnız faktlara və müəllif şərhlərinə əsaslanaraq Heydər Əlirza oğlu Əliyevin əsl, həqiqi, obyektiv portretini yaratmağa çalışmışıq.***





*Müstəqil Azərbaycan Respublikası 1994-cü il sentyabr ayının 20-də "Əsrin müqaviləsi"ni imzaladı. Bununla da neft sənayesində təzə eranın başlanğıcı kimi, yeni neft strategiyasının əsası qoyuldu. Bu müqavilənin bağlanması məhz dünya şöhrətli dahi siyasətçi Heydər Əliyevin böyük və bənzərsiz rəhbərliyi, uzaqgörənliyi və təcrübəsi, fenomenal diplomatik bacarığı və siyasi qətiyyəti sayəsində baş tutdu.*

*Bu fakt Azərbaycanın ilk dəfə olaraq öz neft sərvətlərinin tam sahibi olduğunu təsdiqlədi və Xəzər hövzəsində qeyri-neft şirkətləri ilə birgə əməkdaşlığa yol açdı. Bu əməkdaşlıq təkcə Azərbaycan üçün deyil, eyni zamanda, Qərbin digər aparıcı dövlətlərinin enerji təhlükəsizliyinin təmin olunmasında və eləcə də Cənubi Qafqazın Xəzər regionu üçün böyük əhəmiyyət daşıyır.*

*Natiq Əliyev,*
*Azərbaycan Respublikasının*
*energetika naziri*



SOCAR



# Əziz veteranlar!

Göstərdiyiniz şücaətə, qəhrəmanlığa görə sağ olun!

Sizin qəhrəmanlığınız və Vətənin müdafiəsi zamanı həlak olanların əziz xatirəsi nəsillərin yaddaşından heç vaxt silinməyəcək! Sizə cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayır, qarşınızda baş əyirik, əziz veteranlar!

Xalqımız hər il Böyük Qələbə gününü qürurla qeyd edirik. Faşizm üzərindəki ümumi qələbənin qazanılmasında Azərbaycan xalqının verdiyi töhfələr, çəkdiyi zəhmət misilsizdir. Xalqımızın 300 min nəfərdən çox oğul və qızı Böyük Vətən müharibəsinin döyüş meydanlarinda qəhrəmancasına həlak olmuşlar. Xalqımız arxa cəbhədə də öz qəhrəmanlığını göstərməyi bacardı. Böyük Qələbədə Azərbaycan neftinin tayı-bərabəri yoxdur. Müharibə illərində Bakı ordunu və Hərbi Dəniz Donanmasını, Hərbi Hava Qüvvələrini fasiləsiz olaraq yanacaqla təmin edirdi. Biz Azərbaycan neftçilərinin fədakarlığı, qəhrəmanlığı qarşısında baş əyirik!

Bu gün Azərbaycan müstəqil, suveren bir dövlətdir. Müasir Azərbaycanın neft strategiyasının uğurla gerçəkləşdirilməsi onun müstəqilliyinin, görünməmiş iqtisadi inkişafının və ölkəmizin beynəlxalq aləmdə nüfuzun artırılmasını qarantıdır!

Rövnəq Abdullayev,
SOCAR-ın prezidenti






"Şahdəniz" yatağı

Rusiya böyük ölkədir. Onun çox böyük imkanları var. Buna görə də Rusiya xüsusən müasir dövrdə bir çox beynəlxalq məsələlərin həllində haqlı olaraq mühüm rol oynamalıdır.

Buna görə biz alqışlayırıq ki, bu gün Rusiya Federasiyasında Prezident Vladimir Vladimiroviç Putin bütün cəmiyyəti sıx birləşdirir, dövlətçiliyi möhkəmləndirir, dinamik xarici siyasət aparır və konkret xarici siyasət tədbirləri həyata keçirir. Bir prezident kimi və bir insan kimi Vladimir Vladimiroviçə böyük rəğbət bəsləyirəm. Şübhəsiz ki, hər bir insanın öz mövqeləri, öz rəyləri var. Vladimir Vladimiroviç Putin özünün bütün fəaliyyəti ilə, bütün problemlərə realistcəsinə yanaşması, öz sadəliyi ilə, MDB ölkələri və digər ölkələrlə ədalətli münasibətlər qurmağa çalışması ilə qısa müddət ərzində böyük nüfuz qazanmışdır. O, Rusiyada, bütün MDB ölkələrində də böyük nüfuz qazanmışdır. Artıq dünyada da böyük nüfuza malikdir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının ümummilli lideri**

Heydər Əliyev bütün dünyada böyük nüfuz və hörmət qazanmış görkəmli dövlət xadimi idi. Onun uzun illəri əhatə edən davamlı fəaliyyəti bizim xalqımızın ümumi tarixi ilə bağlıdır. O, Rusiya ilə Azərbaycan arasındakı strateji əməkdaşlığın əsasını qoymuş, ölkələrimiz arasındakı dostluğun və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə şəxsən böyük töhfələr vermişdir.

Mən Azərbaycan xalqının, ziyalıların, rəhbərliyin və Prezident İlham Əliyevin - "İllər ötür, ancaq Heydər Əliyev şəxsiyyətinə olan hüsn-rəğbət, diqqət azalmır", - fikri ilə bağlı mövqelərini yüksək qiymətləndirirəm. Onu ölkənin hər yerində - Sibirdə, Uraldan o yana, Şimalda da, Qafqazda da tanıyırlar.

Qafqaz XX əsrdə bizim dövlətimizin tarixinə çox görkəmli şəxsiyyətlər verib. Onların ən parlaq nümayəndələrindən biri də, sözsüz ki, Heydər Əliyevdir.

**Vladimir Putin,**
**Rusiya Federasiyasının Prezidenti**











# AZƏRBAYCAN-RUSİYA: STRATEJİ TƏRƏFDAŞLIQ VƏ QARŞILIQLI SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ

Tarix dəfələrlə sübut edib ki, sülhsevər ideologiyasız dövlət həyatının və varlığının bütün başqa sahələrində səmərəli və xeyirli işlərdən, nəhəng dəyişikliklərindən danışmağa və fikirləşməyə dəyməz. Azərbaycan regionun bütün ölkələri ilə qarşılıqlı əməkdaşlığın və qonşuları ilə sülh şəraitində yaşamağın ardıcıl tərəfdarıdır. Bu baxımdan Azərbaycanın Rusiya ilə münasibətlərinə xüsusi və çox mühüm əhəmiyyət verilir.

Hazırda Rusiya-Azərbaycan münasibətləri yeni inkişaf mərhələsindədir. Dövlət rəhbərləri səviyyəsində qarşılıqlı pozitiv münasibətlər ikitərəfli dialoqun inkişafına təkan verən vacib amildir. Bu, bütün istiqamətlərdə Rusiya-Azərbaycan münasibətlərinin şəxsi əlaqələr formasında uğurlu həllinə imkan yaradır.

İqtisadi-ticari əlaqələr Rusiya-Azərbaycan münasibətlərinin özəyi, təməli olaraq qalır - bu da əməkdaşlıq dialoqunun praqmatik və biçimli xarakterini müəyyənləşdirir.

Bu gün Azərbaycan-Rusiya münasibətlərinin çatdığı yüksəliş səviyyəsi ikitərəfli əməkdaşlıq formatının çoxluğundan soraq verir. Rusiya şirkətləri Azərbaycan iqtisadiyyatındakı qeyri-neft

***Azərbaycan və Rusiya bu gün iki qonşu, dost ölkə olaraq mütəmadi inkişaf edir və dünyada mövcud olan çağırışlara cavab verməyə hazırdırlar.***

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***



sektorunun fəal və sanballı investorlarıdırlar. VTB Bank (Azərbaycan) respublikanın maliyyə bazarında əməliyyatlar həyata keçirən, müasir beynəlxalq səviyyəli məhsullar, geniş kompleks xidmətlər təqdim edən universal kommersiya bankıdır.

VTB Qrupunun Azərbaycandakı iri layihələri arasında "Azərbaycan Dəniz Yolları"nın 20 milyon ABŞ dolları həcmində inkişaf proqramının maliyyələşdirilməsi üzrə sindikatlaşma kreditindəki iştirakı buna misaldır.

"Nikoyl" geniş filial şəbəkəsi ilə Bakıda və Azərbaycanın bölgələrində bank xidmətləri təklif edən universal maliyyə-kredit təşkilatıdır.

"Az RosSənayeİnvest" bentonit gilinin hasil edilməsi və bentonit məhsullarının istehsalı sahəsində fəaliyyət göstərir. Bu müəssisə MDB ölkələrinin bentonit bazarında liderlərdən biridir.

"Baltika-Bakı" Pivə Zavodu bölgədəki ən iri müəssisələrdəndir. O "Baltika" brendləri xəttinə aid içkini, həmçinin "Xırdalan", "33 eksport", "Bizim pivə" və "Əfsanə" kimi məşhur yerli markaları istehsal edir.

"Aznar" şirkəti təbii meyvə şirəsi istehsalçısı və öz məhsullarını Rusiyaya göndərən iri təchizatçıdır. "Xəzər-Lada" əsl "xalq avtomobili" ilə əhalini təmin edən təchizatçı kimi tanınıb. Şirkət respublikada şaxələnmiş diler, ən geniş texniki xidmət stansiyaları şəbəkəsinə malikdir. "Xəzər-Lada" "VAZ" avtomobillərinin və onların ehtiyat hissələrinin satışı üzrə MBD ölkələrində qabaqcıl yerlərdən birini tutur.

Azərbaycan kapitalının Rusiya bazarlarına daxil olması fəallaşıb. Bu istiqamətdə "Azərsun-Holding" Şirkətlər Qrupu liderdir. Son illər ərzində qrup öz sərmayəsi hesabına Krasnodar diyarının ərazisində çayçəkici fabriki və meyvə-tərəvəz konservləşdirmə müəssisəsini istismara verib.

***Rusiya Regional İnkişaf Nazirliyi ilə Azərbaycan İqtisadiyyat və Sənaye Nazirliyi arasında qarşılıqlı anlaşma barədə memorandumun imzalanması "Regionlararası əməkdaşlıq: yüksəlişin yeni imkanları" forumunun proqramında başlıca bəndlərdən biri idi.***

Azərbaycanın tanınmış tikinti materialları istehsalçısı olan "Mətanət-A" şirkəti Krasnodar administrasiyası ilə vilayətin ərazisində quru qarışıqlar və gips karton istehsalı üzrə müəssisələr kompleksinin, eləcə də Soçidə Rəng Zavodunun tikilməsi barədə anlaşma imzalayıb. Şirkət həmçinin Qaraçay-Çərkəz Respublikası ərazisindəki gips yataqlarının işlənməsi haqqında prinsipial razılaşma əldə edib.

Azərbaycan-Rusiya münasibətləri yüksək səviyyədədir. Vaxtaşırı keçirilən forumlar, görüşlər, danışıqlar bu əməkdaşlığı daha da möhkəmləndirir. Mütəmadi keçirilən Azərbaycan-Rusiya biznes forumları bu əməkdaşlıqda səmərəli artıma, investisiya mühitində şəraitin yaxşılaşmasına kömək edir.

2014-cü ildə onlardan biri - "Regionlararası əməkdaşlıq: yüksəlişin yeni imkanları" Forumu Azərbaycanın dilbər guşələrindən biri olan Qəbələdə keçirildi. Forumda Rusiya tərəfindən Rusiya Federasiyasının regional inkişaf naziri İqor Slyunyayev başda olmaqla 300 nəfər, Azərbaycan tərəfdən isə 400 nəfər nümayəndə heyəti iştirak edirdi. Qeyd edək ki, bu günə qədər Rusiya ilə Azərbaycan arasında 180-dən artıq ikitərəfli anlaşma imzalanıb. Onların da 50-dən çoxu iqtisadi əməkdaşlığa aiddir. Bu isə iqtisadi münasibətlərimizin səviyyəsinin nə qədər yüksək və möhkəm olduğunun əyani sübutudur.

Sosial-mədəni sahədə də birgə fəaliyyət ürəkaçandır. Humanitar əməkdaşlıq üzrə illik forum iki dövlətin elm, təhsil və cəmiyyət arasındakı münasibətlərini keyfiyyətcə xeyli yüksəltmişdir.

Mədəni və humanitar münasibətlər barədə danışarkən, Heydər Əliyev Fondunun bu sahədəki genişmiqyaslı fəaliyyəti xüsusi qeyd olunmalıdır. Fondun vitse-prezidenti, Rusiyadakı Azərbaycan Gəncləri Təşkilatının sədri Leyla Əliyevanın təşəbbüskar rəhbərliyi ilə həyata keçirilən layihələr, ilk növbədə Azərbaycanın tarixi həqiqətlərini, onun mədəni irsini geniş ictimaiyyətə çatdırmağa xidmət edir.

Heydər Əliyev Fondunun dəstəyi ilə 2011-ci ildə M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasında "Azərbaycan Mədəniyyəti Mərkəzi" açıldı.

Heydər Əliyev Fondu daim müxtəlif sərgilər, konfranslar, təqdimatlar keçirir, məktəblərə, uşaq bağçalarına yardımlar edir, istirahət parkları və xiyabanların salınmasına dəstək olur. Bu tədbirlər Moskva ilə yanaşı, Rusiyanın digər bölgələrini də əhatə edir.




*Azərbaycan-Rusiya biznes forumu*



Son illər təhsil sahəsində baş verən mühüm yeniliklərdən biri də 2008-ci ildə Bakıda qabaqcıl təhsil ocağı sayılan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması idi. Əlbəttə, Rusiya-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsində diaspora strukturları sosial-şəbəkə amili kimi çıxış edirlər. Azərbaycanlı əhali Rusiyanın, demək olar ki, bütün regionlarında yaşayır. Rəsmi məlumatlara görə, ən iri Azərbaycan icmaları Dağıstanda, Moskvada, Saratov vilayətində, Krasnoyarskda, Stavropol diyarındadır.

Rusiyada bir neçə diaspora strukturu fəaliyyət göstərir: "Ocaq", "Dünya azərbaycanlılarının Rusiya nümayəndəliyi", "AzərRos", "VAK", "AMOR". Onların arasında "Ümumrusiya azərbaycanlıları Konqresi" daha əhəmiyyətli rol oynayır.Azərbaycandakı rusların vəziyyətinə gəldikdə isə, ekspertlərin rəyinə görə, "Rus mədəniyyətinin, rus dilinin nüfuzu və təsir dairəsi rusların respublika əhalisinin sayındakı ümumi çəkisindən daha genişdir".

Azərbaycanlılar Rusiyada, ruslar da Azərbaycanda ölkələrarası tərəfdaşlığın inkişafı üçün çox çalışırlar. Biznes, mədəniyyət, gənclərlə əməkdaşlıqda effektiv dialoqa meydan açmaq sahəsində onların rolu danılmazdır.

İnamla demək olar ki, hazırda Rusiya-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi və postsovet məkanı üzrə səmərəli və bərabərhüquqlu əməkdaşlıqda münbit zəmin və lazımi şərtlər ikitərəfli əlaqələr baxımından bariz bir nümunəyə çevrilməkdədir.



*Müqavilələrin imzanması*





# REGİONAL ƏMƏKDAŞLIĞA YENİ TƏKAN VERİLDİ

Avqustun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin üçtərəfli Zirvə görüşü keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Bu, tarixi hadisədir. Bu gün üç ölkə arasında yeni əməkdaşlıq formatı yaranır. Əsrlər boyu yanaşı yaşayan xalqlarımızı ortaq tarix və coğrafiya birləşdirir. Azərbaycanı həm İran, həm Rusiya ilə sıx dostluq əlaqələri bağlayır. Bu əlaqələr son illərdə daha da inkişaf etmiş və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

İran, Rusiya və Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Ölkələrimiz həmişə BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyirlər. Azərbaycan İran ilə İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində, Rusiya ilə ATƏT, MDB, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edir. Sadaladığım təşkilatlarda üç ölkə daim bir-birini dəstəkləyir.

Azərbaycan İrana və Rusiyaya tətbiq olunan beynəlxalq sanksiyaların əleyhinə olmuşdur və öz mövqeyini dəfələrlə açıq şəkildə bildirmişdir. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət beynəlxalq hüquq normalarına, ədalətə və ölkəmizin milli maraqlarına əsaslanır. Qonşularımızla yaxın əlaqələr milli maraqlarımıza tam cavab verir. İran və Rusiya Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Hər iki ölkə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həll olunmasını dəfələrlə bəyan etmişdir.

Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. BMT, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyirlər. Münaqişə ilə bağlı mövcud olan status-kvo qəbuledilməzdir. Münaqişə bey-



nəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Münaqişənin həll olunması üçün, ilk növbədə Azərbaycan əraziləri işğaldan azad edilməlidir.
Son vaxtlar yaşadığımız regionda risklər və təhdidlər artır. Biz beynəlxalq terrorizmə qarşı səylərimizi daha da birləşdirməliyik. Əslində bütün dünya səylərini birləşdirməlidir. Biz ancaq bu halda beynəlxalq terrorizmə qalib gələ bilərik. Azərbaycanın terrorizmə qarşı mübarizədə prinsipial mövqeyi dəyişməzdir.
Bizi birləşdirən Xəzər dənizi bizim ümumi sərvətimizdir. Xəzər dənizi sülh və əməkdaşlıq dənizidir

milyard dollar investisiya yatırılıb. Bunun yarısı xarici sərmayədir. Kənd təsərrüfatı, turizm, telekommunikasiya sahələri sərmayə qoyuluşu üçün böyük potensiala malikdir. Davos Dünya İqtisadi Forumunun qlobal rəqabət qabiliyyətliliyi indeksində Azərbaycan 40-cı yerə layiq görülüb.
Azərbaycan nadir dövlətlərdəndir ki, həm İslam Əməkdaşlıq Təşkilatında, həm də Avropa Şurasında təmsil olunur. Ölkələrimiz bu təşkilatlar daxilində uğurla əməkdaşlıq edir.
Yaratdığımız yeni üçtərəfli əməkdaşlıq formatı böyük potensiala malikdir. Bu, çox önəmli, yeni geosiyasi təşəbbüsdür. Üçtərəfli əməkdaşlıq regionda




və belə də qalmalıdır. Xəzər dənizinin ekosisteminin qorunması bütün Xəzəryanı ölkələrin ümumi işidir. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir.
Xəzər dənizində zəngin neft-qaz yataqları yerləşir. Xəzərin Azərbaycan sektorunda İran və Rusiya şirkətləri neft-qaz yataqlarının işlənməsində 20 ildir ki, iştirak edir, böyük sərmayə qoyur. Öz növbəsində, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR Xəzərin İran və Rusiya sektorlarında aparılan işlərdə iştirak etməkdə maraqlıdır.
Azərbaycanda sərmayə qoyuluşu üçün münbit şərait yaradılmışdır. Son 20 ildə Azərbaycana 200

sülhün, təhlükəsizliyin, sabitliyin təmin olunmasına xidmət edəcəkdir. İqtisadi əməkdaşlıq, energetika, nəqliyyat sektorlarında üçtərəfli əməkdaşlıq xalqlarımızın rifah halının yaxşılaşmasını təmin edir. Əsasını qoyduğumuz bu format beynəlxalq aləmdə özünə layiq yerini tutacaq.

**İran Prezidenti Həsən Ruhaninin çıxışından:**
İran İslam Respublikasının xarici siyasətinin prinsiplərinə əsasən qonşu ölkələrlə əlaqələrin genişləndirilməsi əsas götürülür. Ona görə də İran hər hansı bir təşəbbüsə, razılaşmalara, anlaşmalara tərəfdardır. İran, Azərbaycan və Rusiya arasında olan



üçtərəfli görüş fikir mübadiləsinə, ortaq mənafelərin yaranmasına imkan verir. İran İslam Respublikası bu ideyanı yüksək dəyərləndirir. Şübhəsiz ki, bu üçtərəfli görüşün keçirilməsi regionda təhlükəsizliyin möhkəmləndirilməsi, ölkələrimizin əlaqələrinin genişləndirilməsi və dərinləşdirilməsi üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Bu üç qonşu ölkə regionda geosiyasi və coğrafi baxımdan mühüm önəmə malikdir.
Ölkələrimiz siyasi, iqtisadi, mədəni, sosial, texnologiya sahələrində bir sıra təhlükələrlə üz-üzədir. Bu, onların qarşılıqlı anlaşmaya nail olmasını əvvəlkindən də artıq zəruri edir.
Son illərdə dünyada baş verən dəyişikliklər, əməkdaşlıq və ortaq fikrə sahib olmaq bu problemlərə üstün gəlməyin mümkünlüyünü göstərir. Görürük ki, potensialdan istifadə etmək mümkündür. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında müxtəlif sahələrdə əlaqələrdə çox müsbət dəyişikliklər baş verib. Bu iki ölkə arasında yaxşı qonşuluq münasibətləri var, əlaqələrin genişlənməsi üçün müxtəlif təşəbbüslər irəli sürülüb. Ticari-iqtisadi əməkdaşlığın genişlənməsi baxımından gömrük sahəsində əməkdaşlıq, elektrik xətlərinin, habelə dəmir yollarının birləşdirilməsi ilə bağlı anlaşmalar, Astaraçayın üzərində körpünün salınması, həmçinin Xudafərin su mənbəyindən müştərək istifadə edilməsi kimi faktları göstərmək olar.
İran hesab edir ki, üç ölkənin eyni mövqeyə, qarşılıqlı etimada sahib olması müxtəlif sektorlarda, xüsusilə mədəni, iqtisadi sahələrdə potensialı üzə çıxarmağa imkan yaradacaq. Bu ölkələrin bir-birinə yardım etmələri regionda mövcud olan təhdidlərə qarşı mübarizə sahəsində əməkdaşlığa da töhfə verə bilər. Regionda üç ölkənin əməkdaşlığı sayəsində inkişafın mümkünlüyünə inanırıq.

**Rusiya Prezidenti Vladimir Putinin çıxışından:**
Azərbaycan və İran Rusiya üçün mehriban qonşular və mühüm tərəfdaşlardır. Biz bir-birimizlə səmərəli əməkdaşlıq üzrə zəngin təcrübə toplamışıq. Sözsüz ki, bu gün biz münasibətlərimizdə yeni səhifə açırıq, üçtərəfli formatda qarşılıqlı fəaliyyətə start veririk. Bizim fikrimizcə, bu cür formata ehtiyac olması aşkardır. Üç ölkəni birləşdirən əsas amil

geniş əhatəli regional və qlobal məsələlərə yanaşmanı əlaqələndirməyə hazır olmağımız, ticari-iqtisadi sahədə çoxplanlı praktiki əməkdaşlığı bundan sonra da genişləndirmək istəyimizdir.
Rusiyanın nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edən bəzi məsələləri qeyd etmək istərdim. Məsələn, beynəlxalq terror təşkilatlarının fəaliyyəti barədə informasiya mübadiləsinin fəallaşdırılmasını məqsədəuyğun hesab edirik. Bu, ölkələrimizin ərazisindən silahlıların, silahların və narkotiklərin tranzitinin qarşısının daha səmərəli alınması üçün lazımdır.
Ümid edirik ki, Xəzər problemlərinə dair üçtərəfli dialoq da Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya üzərində işin tezliklə tamamlanmasına şərait yaradacaq. Əminəm ki, Konvensiyanın imzalanması və onun müddəalarının reallaşdırılması Xəzəryanı beş ölkənin hamısının mənafelərinə uyğundur.
Təbii ki, mədəniyyət, turizm, gənclərin mübadiləsi, təhsil sahəsində əməkdaşlıq məsələlərinə diqqəti artırmaq, üç ölkənin regionları arasında birbaşa əlaqələrin inkişafına şərait yaratmaq lazımdır.
Əminəm ki, qonşuların – Rusiya, Azərbaycan və İranın əməkdaşlığı gələcəkdə də praqmatik, qarşılıqlı faydalı xarakter daşıyacaq və ölkələrimizin xalqlarının köklü maraqlarına cavab verəcək, bütün Xəzər regionunun dinamik inkişafı üçün yeni imkanlar yaradacaq.

**Prezident İlham Əliyev yekun nitqində demişdir:**
Yaşadığımız region çox mürəkkəbdir, risklərlə, təhdidlərlə dolu bölgədir. Əfsuslar olsun ki, bu risklər azalmır, getdikcə artır. Belə olan halda üçtərəfli əməkdaşlıq regional təhlükəsizlik üçün əsas şərtdir.
Rusiya-İran-Azərbaycan üçtərəfli əməkdaşlığı bölgədə sabitləşdirici amildir. Hesab edirəm ki, biz birgə səylərlə həm ölkələrimizi mümkün olan risklərdən qoruyacağıq, eyni zamanda, geniş mənada regionda əməkdaşlığı dərinləşdirəcəyik.
Sonda Azərbaycan Prezidenti İlham Əliyev, İran Prezidenti Həsən Ruhani və Rusiya Prezidenti Vladimir Putin Zirvə görüşünün Birgə Bəyannaməsini imzalamışlar.

# Azərbaycan və Rusiyanın regionlararası əməkdaşlığı sürətlə inkişaf edir

***VII Azərbaycan-Rusiya Regionlararası Forumunun keçirilməsi iki ölkənin regional inkişafa verdiyi xüsusi önəmin göstəricisidir.***

Rusiya ilə Azərbaycanı qədim tarixi köklər bağlayır. Xalqlarımız iki əsrə yaxın müddətdə bir dövlətin tərkibində yaşayıb. Mədəniyyətimiz, təhsilimiz, iqtisadiyyatımız o qədər qaynayıb-qarışıb ki, bu gün bu köklərin möhkəmlənməsi və əlaqələrin inkişaf etməsi artıq milli maraqlar səviyyəsində olan strateji məsələdir.

***Hər iki ölkənin güclü iqtisadi potensiala və birgə iş sahəsində zəngin təcrübəyə malik olmasını nəzərə alaraq, gələcəkdə səylərimizi daha sıx birləşdirmək və regionlarımız arasında əməkdaşlığı daha da fəallaşdırmaq zəruridir.***

***İlham Əliyev***

"Əməkdaşlıq körpüsü" adlandırılan Forum Azərbaycan ilə Rusiya arasında iqtisadi əlaqələrin geniş spektrini əhatə edən işgüzar diskussiyalar, imzalanan mühüm sənədlər və iş adamlarının faydalı görüşləri ilə əlamətdar olub.

Rusiya ayrı-ayrı regionlardan ibarət olan və dünyada ərazicə ən böyük ölkədir. Federasiyanın hər bir subyektinin böyük sosial-iqtisadi potensialı var və o, xarici ölkələrlə, o cümlədən Azərbaycan ilə də birbaşa əlaqələr yaradılmasına ehtiyac duyur.

Azərbaycan Rusiyanın müxtəlif regionları ilə birbaşa əlaqələrin qurulmasına da böyük əhəmiyyət verir. Məhz bunun nəticəsidir ki, son illərdə bu sahədə çox ciddi dəyişikliklər baş verib.







Noyabrın 1-də Heydər Əliyev Mərkəzində VII Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilən Forumda Azərbaycan və Rusiyanın dövlət rəsmiləri, parlament və icra hakimiyyəti orqanlarının nümayəndələri, iqtisadiyyatın sənaye, turizm, kənd təsərrüfatı, tikinti, ticarət, konsaltinq, logistika, əczaçılıq, İKT, maliyyə və s. sahələrdə fəaliyyət göstərən sahibkarlar və KİV təmsilçiləri iştirak ediblər. Foruma Rusiyanın 9 subyektindən 250-dən çox, Azərbaycan tərəfdən isə 300-dək olmaqla, ümumilikdə 600-ə yaxın iştirakçı qatılıb.

Son 10 ildə Prezident İlham Əliyev Rusiya Federasiyasına 30-dan çox, Prezident Vladimir Putin isə Azərbaycana 10-a yaxın səfər edib. Qarşılıqlı səfərlər isə ölkələrimiz arasında əlaqələrin inkişafına göstərilən böyük maraqdan xəbər verir. Həmçinin, ölkələrimiz arasında yaradılmış möhkəm müqavilə-hüquqi baza ticarət-iqtisadi, kənd təsərrüfatı, yanacaq-energetika, humanitar, mədəniyyət və digər sahələrdə əlaqələrin genişləndirilməsinə imkan verir. Ümumiyyətlə, 50-dən çoxu iqtisadi sahədə olmaqla, 170-dən çox sənəd imzalanıb. İkitərəfli iqtisadi əlaqələrin inkişafında Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyası, parlamentlərarası qruplar və səfirliklər də önəmli rol oynayırlar.

Hazırda Azərbaycanın ticarət dövriyyəsində Rusiya üçüncü, idxalda isə birinci yeri tutur. Ölkələrimiz arasında azad ticarət rejimi mövcuddur və bu, ticarət əlaqələrinin və iş adamları arasında əməkdaşlığın inkişafına əlavə imkan yaradır. Ümumi olaraq iqtisadiyyata 4 milyard dollar sərmayə qoyulub.

***Əli Həsənov: "Azərbaycan-Rusiya Regionlararası Forumu xüsusi aktuallıq kəsb edir"***

Əlbəttə ki, bu cür forumların keçirilməsi hər iki ölkəni təmsil edən rəsmi və işgüzar şəxsləri də qane edir. Məsələn, Azərbaycan Respublikasının Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Bakıda keçirilən VII Azərbaycan-Rusiya Regionlararası Forumunun əhəmiyyətini şərh edərkən, deyib ki, beynəlxalq münasibətlərin hazırkı vəziyyətində Azərbaycan-Rusiya Regionlararası Forumu xüsusi aktuallıq kəsb edir.

Həmçinin, ötənilki forumda qəbul olunmuş qərarların icrası ilə bağlı görülmüş işlərə dair





hesabat xarakterli çıxışlar olacaq. O cümlədən, gələn il üçün regionlararası əlaqələrin genişləndirilməsi sahəsində təkliflər müzakirə ediləcək. Beynəlxalq münasibətlərin hazırkı vəziyyətində Azərbaycan ilə Rusiya arasındakı bu forum çox aktualdır və hər iki ölkənin maraqlarına cavab verir".

**Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev:** "Forumun keçirilməsi Azərbaycan və Rusiya dövlət başçılarının təşəbbüsüdür və artıq ənənəyə çevrilmişdir. Azərbaycanın bu formatda tədbiri yalnız Rusiya ilə təşkil etməsi ölkələrimiz arasında uğurlu əməkdaşlığın göstəricisidir. Əminəm ki, builki Forum da əvvəlki illərdə keçirilmiş forumlar kimi Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin inkişafına öz töhfəsini verəcək. Qarşılıqlı hörmət və mehriban qonşuluq prinsiplərinə əsaslanan, ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən olan Azərbaycan-Rusiya əlaqələri strateji səviyyədədir. Dövlət başçıları siyasi-iqtisadi əlaqələrin inkişafına xüsusi önəm verirlər. Prezidentlərin, dövlət rəsmilərinin və iş adamlarının çoxsaylı qarşılıqlı səfərləri bu böyük önəmin göstəricisidir".

Rusiya Federasiyası Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipov, Tümen vilayətinin qubernatoru Vladimir Yakuşev və Arxangelsk vilayətinin qubernatoru İqor Orlov Rusiya və Azərbaycan regionları arasında müxtəlif sahələrdə mövcud əlaqələrdən və əməkdaşlığın perspektivlərindən söhbət açıblar.

**Rusiya Federasiyası Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipov:** "Azərbaycan-Rusiya Regionlararası Forumu iqtisadi-mədəni əlaqələrin inkişafı və dostların axtarışı üçün yaxşı meydançadır. Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin qarşılıqlı fəaliyyət üçün bizə yaxşı imkan yaradıblar. Birgə layihələrin reallaşdırılması böyük əhəmiyyət daşıyır. Təklif edirəm ki, xüsusi müsabiqələr təşkil etməklə regionlararası ən maraqlı layihələrə qrant ayrılsın və bununla bağlı fond yaradılsın".



**Bizim əla potensialımız var. Enerji sahəsində bir-birimizi tamamlaya, hərbi-texniki, yüksək texnoloji istiqamətlər də daxil olmaqla sənaye əməkdaşlığını daha da genişləndirə bilərik. Ölkələrimiz arasındakı münasibətlər strateji, tərəfdaşlıq xarakteri daşıyır və digər ölkələr üçün mehriban qonşuluq və yoldaşlıq nümunəsi sayıla bilər. Bizə öz münasibətlərimizi inkişaf etdirmək lazımdır. Təkcə ənənəvi tərzdə deyil, həmçinin yeni sahələrdə. Mən bizim münasibətlərin səviyyəsini çox yüksək qiymətləndirirəm. Biz öz tərəfimizdən bütün imkanlardan istifadə edəcəyik ki, mövcud səviyyəni daha yüksəklərə qaldıraq.**



**Artur Rasizadə,**
**Azərbaycan Respublikasının baş naziri**

Dağıstan böhrandan çıxmaq üzrədir. Bu istiqamətdə Azərbaycan səxavətli qonşu və sadiq dost kimi bizə həmişə əl uzadır.

Sənayenin, turizmin inkişafına dair bizim çoxlu planlarımız var. Həqiqətən, Azərbaycan nəhəng potensiala malikdir. Biz çoxsaylı layihələri gerçəkləşdirməyə həmişə hazırıq. Bunlar Dağıstan əhalisinin ehtiyac duyduğu nəhəng işlərdir.

Onu da deyim ki, Azərbaycan Dağıstanda kommersiya yönümlü layihələrlə yanaşı, geniş miqyasda sosial layihələr də gerçəkləşdirir. Bu da ondan xəbər verir ki, biz özgə deyilik, yaxınıq, həmişə də biz bir-birimizə dəstək olmağa hazırıq. Mən Azərbaycan Prezidentinin işləri necə aparmasına heyran qalmışam. Özüm uzun illər Heydər Əlirza oğlu ilə yaxın münasibətdə olmuşam. Onu öz müəllimim sayıram. Əsas budur ki, Heydər Əlirza oğlunun çoxsaylı ideyalarını bu gün uğurla həyata keçirən gözəl davamçısı var.

Qəbələ Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin ideyaları ilə gündən-günə abadlaşan bir şəhər, abidədir, bu abidəni onlar özləri üçün deyil, məhz xalq üçün yaradıblar.

Bu layihənin necə baş tutması bizi çox düşündürür. İnsanlar belə təmiz, səliqəli şəhərdə yaşamağı, gözəl görünməyi, qonaqları ən yüksək səviyyədə qəbul etməyi necə bacarırlar?

Burda gördüklərimin hamısı Avropa standartlarına uyğundur. Avropada isə, mən deyərdim ki, bütün bunlar Qəbələ standartlarına uyğun gəlir. Hətta bir çox cəhətlərinə görə Avropa səviyyəsini belə ötüb-keçir.

Bu gün Qəbələ-Qafqazın mənəvi paytaxtıdır. Dağıstanla Azərbaycanın ümumi tarixi, bir-birinə çox yaxın mədəniyyəti var. Buna görə də bizim qarşılıqlı münasibətlərimizin yeni şəraitdə inkişaf etməsi çox vacibdir.

**Ramazan Əbdulatipov,**
**Dağıstan Respublikasının Prezidenti**





*Müasir Qəbələ - bu, geniş və rahat yolları, küçələri, gözoxşayan tikililəri, yaraşıqlı binaları, beynəlxalq hava limanı, dünya səviyyəli konfrans zalı, beşulduzlu otelləri gözəl parkları, idman meydançaları, istirahət mərkəzləri olan modern şəhərdir*









*Həştərxan - bu, geniş məkanın elə bir parçasıdır ki, burada çoxlu xalqlar, etnoslar yaşayır.*

***Heydər Əliyev***



*Həştərxan - əsrlərdən bəri burada yaşayan azərbaycanlılar üçün xüsusi ərazidir.*

***İlham Əliyev,***
***27 oktyabr 2010-cu il***





***Prezident İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib***

*Bizi Rusiya ilə çoxəsrlik dostluq, əməkdaşlıq telləri bağlayır, bizi ümumi keçmişimiz birləşdirir. Bu gün, siyasi münasibətlərimizin ən yüksək səviyyədə olduğu bir vaxtda biz iqtisadi əlaqələrimizi fəal inkişaf etdiririk, energetika məsələləri fəal həll olunur, xalqlarımızın nümayəndələri arasında ünsiyyətə çox böyük həvəs vardır.*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***






















*Biz qonşuyuq. Biz həmişə mehriban qonşuluq və dostluq prinsipləri üzrə yaşamışıq. Biz əsrlər boyu birlikdə, yanaşı yaşamışıq və çox vacibdir ki, Azərbaycanın müstəqil dövlət kimi təşəkkül tapdığı dövrdə bu müsbət meyillər qorunub saxlanmış və artırılmışdır.*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Rusiya və Azərbaycan arasındakı münasibətlər həmişə etibarlı dostluq münasibətləri kimi formalaşıb. Biz çox şadıq ki, aramızdakı münasibətlər müxtəlif istiqamətlərdə, həm də ən həssas sahələr də daxil olmaqla, bu əsas üzərində inkişaf etməkdədir.*

***Vladimir Putin,***
***Rusiya Federasiyasının Prezidenti***



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Bakı şəhəri Nərimanov rayon İcra Hakimiyyətinin başçısı Abdın Fərzəliyevi "Dostluq" ordeni ilə təltif edir**



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinə Azərbaycanın "Dostluq" ordenini təqdim edir**



*Biz həm də sevinirik ki, Həştərxanda ölkəmizlə bağlı yerlər, Bakıda isə "Həştərxan-Bakı" Dostluq parkı var. Keçən dəfə həmin parkı Aleksandr Aleksandroviç açdı. Bu gün biz uşaq bağçasının açılışında iştirak edirik. O da bizim dostluğumuzun rəmzi olacaq. Təsadüfi deyil ki, uşaq bağçası "Drujba" adlandırılıb. Mənim fikrimcə, bu adın rəmzi mənası var, çünki bizim nəslimiz dostlar nəslidir, biz bir ölkədə yaşamışıq, bir-birimizi tanıyırıq, bir-birimizə hörmət edirik. Gərək gənclər də bir-biri ilə ünsiyyətdə olsunlar, kiçik yaşlarından uşaq bağçasında, sonra Heydər Əliyevin adını daşıyan məktəbdə dostluq etsinlər. Beləliklə, biz xalqlarımız, ölkələrimiz arasında dostluq münasibətlərinin varisliyini təmin edərik.*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Azərbaycanda rus mədəniyyətinə, rus dilinə böyük qayğı ilə yanaşılır. Həştərxanın Azərbaycan icması kimi, Azərbaycanın rus icması da öz ölkələrinin layiqli vətəndaşlarıdır və dövlətimizin inkişafına böyük töhfələr verirlər. Onlar həm də ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıran amildirlər.*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***







**Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin administrasiyasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya III dərəcəli "Knyaginya Olqa" ordeninin təqdim edilmə mərasimi keçirildi.**









*"Bakı-2015"-in başlanmasınadək birinci Avropa Oyunlarının məşəli 5500 kilometr uzunluğunda yol qət etdi*

25 aprel 2015-ci ildə Azərbaycanın idman tarixinə böyük qələbə və uğurların yeni səhifəsi yazıldı - "Bakı-2015" birinci Avropa Oyunlarının məşəli yandırıldı.

Prezident İlham Əliyev Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Xikkinin müşayiəti ilə oyunların məşəlini yandırdı.

Olimpiya ənənələrinə uyğun olaraq, estafet qədim alov məbədi - Atəşgahdan başlayır. Birinci Avropa Oyunlarının məşəli 47 gün ərzində Azərbaycanın bütün guşələrinə aparılaraq açılış mərasimində Bakı Olimpiya stadionuna çatdırıldı.



*Azərbaycanla Rusiya arasındakı münasibətlər möhkəm tarixi bünövrəyə əsaslanır. Onilliklər boyunca bizim xalqlarımızı humanitar, mədəni, insani əlaqələr bağlayır. Bunlar da ikitərəfli siyasi, iqtisadi və dövlət münasibətlərinin inkişaf etdirilməsi üçün çox əlverişli mühit yaradır. Biz Azərbaycanda ənənələrə hörmət edir, tarixi keçmişimizə həssaslıqla, həyəcanla yanaşırıq. Bu baxımdan bizim humanitar əlaqələrimizi xüsusi qeyd etmək istərdim. Çünki mədəniyyət, humanitar sahədə əlaqələr xalqlar, insanlar arasında əsas ünsiyyət vasitələridir.*

*Müstəqillik bərpa edildikdən sonra da Azərbaycanda rusdilli təhsil tam həcmdə saxlanıldı. 300-dən çox məktəb rus təmayüllüdür.*

*Ölkəmizdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı, Dövlət Slavyan Universitetinin fakültələrinin sayı ildən-ilə artır və bu təhsil müəssisəsi Azərbaycanda qabaqcıl ali məktəblər sırasındadır. Həmçinin, Rus Dram Teatrı, Rus Mədəniyyət Mərkəzi də fəaliyyət göstərir.*

*Hər iki ölkənin prezidenti tərəfindən təklif olunan hər il keçirilən Bakı Beynəlxalq Humanitar Forumu ölkələrimiz arasında humanitar əlaqələrin inkişaf etdirilməsində ən parlaq indikator rolunu oynadı.*

*Azərbaycanın və Rusiyanın görkəmli siyasi xadimləri, ekspertlər, elm və mədəniyyət nümayəndələri, yaradıcı ziyalılar bu forumda iştirak etmişlər.*

*Azərbaycanda keçirilən Rostropoviç adına festival, Qəbələ festivalı kimi musiqi festivalları Rusiyanın aparıcı kollektivlərinin, dünya şöhrətli sənətkarların, rus musiqiçilərinin çıxış etdikləri ənənəvi platformaya çevrildi.*

*Mehriban Əliyeva,*
*Heydər Əliyev Fondunun prezidenti*







# Sürət, risk, adrenalin dolu dünya Bakıda

Azərbaycan son illərdə idman dünyasında sürətlə tanınmağa başlayıb. Ardıcıl təşkil olunan böyük yarışlar ölkəmizi həm Avropada, həm də digər qitələrdə xeyli məşhurlaşdırıb. İndiyədək "Odlar yurdu"nda saysız-hesabsız, beynəlxalq turnirlər, dünya və Avropa çempionatları, İlk Avropa Oyunları kimi böyük idman bayramı keçirilib.

Bu il də bizim üçün yaddaqalan oldu. İlk dəfə paytaxtımız Formula 1 adlı yarışın həyəcanını yaşadı. İyunun 17-də gözəl Bakımızın küçələrində Formula 1 üzrə 67-ci dünya çempionatının Avropa Qran-Prisinin ilk sərbəst yürüşlərində gücü 1000 at qüvvəsinə çatan bolidlərin ecazkar səsləri eşidildi...

Minlərlə əcnəbi həmin gün Bakıya gəlmişdi. Onlar həm Bakının gözəlliyini heyranlıqla seyr edir, həm də sevdikləri pilotları izləyirdilər.

Bir nəfərlik, açıq təkərli avtomobil yarışlarının zirvəsi sayılan Formula 1 dünyanın ən populyar idman növlərindən biridir. Avtomobil yarışları XX əsrin əvvəllərindən keçirilir. 2-ci dünya müharibəsindən sonra - 1946-cı ildə bu avtomobil yarışlarının müəyyən qaydalar çərçivəsində keçirilməsi qərara alındı və qaydalar müzakirə olunaraq, təsdiq edildi. Formula 1 (qısaca - F1) də bu qaydalar toplusuna verilən addır.

İlk Formula 1 yarışı 13 may 1950-ci ildə İngiltərədə, Silverstone trasında keçirilib. İlk yarışın qalibi italiyalı Cüzeppe (Nino) Farina olub. İlk mövsümdə parlaq çıxış edən Farina həm də ilk dünya çempionudur. Formula 1 1950-ci ildən bəri müntəzəm olaraq keçirilir. Komandalararası çempionat - Mühəndislər kuboku isə 1958-ci ildən keçirilir.

Formula 1 yarışları Beynəlxalq Avtomobil Federasiyasının (FİA) bayrağı altında keçirilir. Hazırda bu quruma Jean Todt rəhbərlik edir. Formula 1-in kommersiya rəhbəri isə Berni Ekklstoundur.

Formula 1 tarixi bir neçə mərhələyə bölünür:

**Birinci mərhələ:** 1950-1958-ci illər - Yarışların qayıdışı

**İkinci mərhələ:** 1959-1980-cı illər - "Garagistes" dövrü



Bu dövr bir çox əhəmiyyətli yeni texnologiyaların Formula 1-də tətbiqi, bolidlərin quruluşundakı əhəmiyyətli dəyişikliklər dövrü kimi xatırlanır.

**Üçüncü mərhələ:** 1981-2000-ci illər - "Böyük iş" dövrü

1981-ci ildə ilk "Concorde" müqaviləsi imzalanır. Bu müqavilənin şərtlərinə əsasən, komandalar iflasa uğramadıqları müddətdə Formula 1-də yarışmalıdılar. Elə həmin vaxtda da teleyayım gəlirlərindən komandalara pay verilməsi qərara alındı. Həm bu islahatlar, həm də böyük şirkətlərin sponsor kimi cəlb edilməsi Formula 1-i ən elit, ən bahalı idman növü səviyyəsinə qaldırdı.

**Dördüncü mərhələ:** 2001-ci ildən sonrakı dövr – "Manufakturaların qayıdışı"

Bu dövr adından da göründüyü kimi, bir çox avtomobil manufakturasının yenidən bu idmana qayıtması ilə əlamətdar olub. Eyni zamanda, FİA bu dövrdə xərcləri azaltmaq və rəqabəti artırmaq üçün qaydaları tez-tez dəyişdirib.

Formula 1-də hər komanda 2 sürücü ilə təmsil olunur. Sürücülər pilot, maşınlar isə bolid adlanır. Formula 1 mövsümü yaz aylarında (adətən, mart ayında, amma 2016-cı il mövsümü aprel ayında başladı) başlayır və adətən, noyabr ayında yekunlaşır. Bu ərəfədə fərqli ölkələrdə, fərqli traslarda yarışlar keçirilir. Hər bir mövsümün təqvimi əvvəlki ilin sonlarında açıqlanır. Yarışlar adətən 1-3 həftəlik fasilələrlə keçirilir. Bu yarışların yekununda ən çox xal qazanmış pilot həmin mövsümün dünya çempionu olur. Bəs, xal sistemi necədir və xallar necə hesablanır? Bunun üçün əvvəlcə yarışların formatı barədə məlumat verməliyik.

Formula 1-də hər yarışda həftə sonunda müəyyən mərhələlər olur. Həftənin 5-ci günü 2 (Monako Qran-Prisində 4-cü gün), 6-cı gün isə 1 sərbəst yürüş seansı olur. İlk 2 seans 1,5 saat, 3-cü seans isə 1 saat davam edir. Bu seanslar pilotların trası öyrənməsi, trasa uyğun düzgün sazlanmaların tapılması, komandaların bolidlərdə tətbiq etdiyi yeniliklərin test edilməsi və s. məqsədlərlə keçirilir.

Şənbə günü sərbəst yürüşlərdən sonra təsnifat mərhələsi keçirilir. Təsnifat mərhələsini keçirməkdə məqsəd hansı pilotun yarışa neçənci yerdən başlayacağını təyin etməkdir. Burada bir dövrəni sürətli keçmək tələb olunur. Bu mərhələ 3 hissədən ibarət olur: ilk hissə 18 dəqiqə davam edir. Ən yaxşı nəticə göstərmiş müəyyən sayda pilot 2-ci hissəyə keçir. Bu say həmin mövsüm mübarizə aparan pilot sayından asılıdır. Format isə belədir: ümumi pilot sayından 10 nəfəri çıxdıqda yerdə qalan say 2-yə bölünür və o qədər pilot 2-ci hissəyə vəsiqə qazana bilmir. Məsələn, 2015-ci il mövsümündə 20 pilot çempionluq uğrunda mübarizə aparır. İlk hissədə ən yaxşı nəticə göstərmiş 15 pilot 2-ci hissəyə vəsiqə qazanır. Qalan 5 pilot isə nəticələrinə uyğun olaraq, növbəti gün yarışa 16-20-ci yerlərdən başlayırlar. 2-ci hissə isə 15 dəqiqə davam edir və ən yaxşı nəticə göstərən 10 pilot 3-cü hissəyə vəsiqə əldə edir. Qalan 5 pilot isə bu hissədəki nəticələrinə uyğun olaraq növbəti gün yarışa 11-15-ci yerlərdən başlayırlar. Beləliklə, 2 hissənin sonunda yarışa 11-20-ci yerlərdən başlayacaq pilotlar bəlli olur. Qalır ilk 10-luğu təyin etmək. 3-cü hissədə bu 10 pilot öz nəticələrini göstərir. Ən sürətli pilot yarışa ilk sıradan başlayır. Bu, "Pole Position" adlanır. Qalan pilotlar da 2-9-cu yerlərdən başlayırlar.

Bazar günü isə yarış olur. Bu yarış "Qran-Pri" adlanır. Yarış maksimum 2 saat davam edə bilər. Adətən, 2 saatdan tez bitir. Lakin hava şəraiti pis olduqda və ya hansısa bir hadisə olduqda vaxt limitinin dolduğu yarışlar da olub. Yarış müəyyən sayda dövrələrdən ibarətdir. Bu dövrələrin sayı da trasın uzunluğundan asılıdır. Məsələn, Belçikada "Spa-Francorchamps" trasında 44 dövrə vurulsa da, Monakoda tras daha qısa olduğundan, yarış 78 dövrə davam edir. Yarışın yekununda yerlərə müvafiq olaraq, pilotlara xal verilir. 2010-cu ildən bəri tətbiq olunan reqlamentə əsasən, yarışın qalibinə 25, 2-ci yer tutan pilota 18, 3-cü yerə 15, sonra isə 10-cu yerə qədər müvafiq olaraq 12, 10, 8, 6, 4, 2, 1 xal verilir. Yəni, bir yarışda xal qazanmaq üçün ilk 10 yerdən birini tutmaq lazımdır. Xal sistemi bütün yarışlarda eyni qaydada tətbiq olunur. Hər bir pilotun mövsüm ərzindəki bütün yarışlarda qazandığı xallar cəmlənir və mövsümün sonunda ən çox xalı olan pilot həmin mövsümün Formula 1 üzrə dünya çempionu olur.

Yuxarıda qeyd etdiyimiz kimi, hər bir komanda yarışda iki pilotla təmsil olunur. Hər iki pilotun qazandığı xallar cəmlənir və bu, komandanın xal aktivinə yazılır. Mövsüm sonunda ən çox xal qazanmış komanda Konstruktorlar çempionu olur.

Formula 1 tarixinin hər mərhələsində güclü pilotlar, böyük komandalar olub. Heç şübhəsiz, o pilotlardan ən məşhuru, demək olar ki, hətta Formula 1-in özündən daha çox tanınan, hazırda iki ilə yaxındır ki, koma vəziyyətində olan və ölümlə mübarizə aparan Mixael Şumaxerdir. Bir çox rekordların sahibi olan alman sürücü





ən çox dünya çempionu olmuş pilotdur - 7 dəfə. Bundan başqa, o, həm də ən çox yarış qazanmış, ən çox "Pole Position" qazanmış, ən çox sürətli dövrə vurmuş, podiuma ən çox yüksəlmiş, bir mövsümdə ən çox yarış qazanmış, ardıcıl ən çox çempion olmuş pilotdur. Şumaxer bu rekordların hamısını böyük fərqlə özündə saxlayır.

Digər bir əfsanəvi pilot isə 1994-cü ildə San Marino Qran-Prisində həlak olan, Formula 1-də keçirdiyi 10 mövsümdə 3 dəfə dünya çempionu olmuş Ayrton Sennadır.

Ən çox çempion olmuş ikinci pilot isə Formula 1-in ilk illərində yarışan, "Böyük ustad" adlandırılan argentinalı Juan Manuel Fangiodur. Tarixdə iz buraxmış pilotlar arasında Alain Prost, Niki Lauda, Nigel Mansell, Stirlinq Moss, Emerson Fittipaldi, Alberto Ascari, Cek Brabham, Qraham Hill də var. Çempion olmuş pilotlardan beşi indi də mübarizəni davam etdirir. Bu pilotlardan Sebastian Fettel 4, Fernando Alonso və Lüis Hamilton 2, Conson Batton və Kimi Raykkonen isə 1 dəfə çempion olub.

Mühəndislər kubokunu isə Formula 1-in əfsanəvi komandası "Ferrari" hamıdan çox - 16 dəfə qazanıb. "Williams" və "Maklaren" isə 9 dəfə çempion olub.

Qısa məlumat:

Formula 1 yarışlarının yaranma tarixi: 1950

İlk yarış: Silverstoun

İlk qazanan: Alfa Romeo

İlk çempion: Cüzeppe Farina

Son çempion: Sebastian Fettel

İlk çempion komanda: Alfa Romeo.

Formula-1 Avropa Qran-Prisində ilk 18 yerin sahibi olan pilotlar aşağıdakılardır:

1. Niko Rosberq (Mercedes)
2. Sebastian Fettel (Ferrari)
3. Serxio Peres (Force India)
4. Kimi Raykonnen (Ferrari)
5. Luis Hamilton (Mercedes)
6. Valtteri Bottas (Williams)
7. Daniel Rikkardo (Red Bull Racing)
8. Maks Ferstappen (Toro Rosso)
9. Niko Hulkenberq (Force India)
10. Felipe Massa (Williams)
11. Censon Batton (McLaren)
12. Felipe Nasr (Sauber)
13. Roman Qrojan (Haas)
14. Kevin Maqnussen (Renualt)
15. Colion Palmer (Renault)
16. Estaban Qutyerres (Haas)
17. Markus Erikson (Sauber)
18. Rio Haryanto (Manor)













*AMEA Mərkəzi elmi kitabxanasının yeni inzibati binası*





***Azərbaycan Elmlər Akademiyası 1945-ci ildən fəaliyyət göstərir. 1945-ci ildən bu günə qədər akademiya böyük və uğurlu yol keçmişdir. Alimlərimiz Azərbaycanın inkişafına müxtəlif dövrlərdə dəyərli töhfələrini vermişlər. Azərbaycan müstəqilliyə qovuşanda isə müxtəlif fikirlər var idi. Hətta, - siz yəqin ki, bunu yaxşı xatırlayırsınız, - 1992-ci ildə akademiyanın ləğvi barədə, bağlanması haqqında təkliflər irəli sürülmüşdür. Əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıtmasaydı, yəqin ki, akademiyanın taleyi çox acınacaqlı ola bilərdi. Məhz Heydər Əliyevin Azərbaycan elminə bütün dövrlərdə göstərdiyi diqqət və qayğı nəticəsində elmin inkişafı sürətlə aparılırdı. Müstəqil yaşamağa başlayanda, əlbəttə ki, ölkədə mövcud olan ciddi iqtisadi və sosial məsələlər gündəliyin birinci sıralarında idi. Ancaq bununla bərabər, ulu öndər Heydər Əliyev Azərbaycanın gələcəyini düşünərək və uzaqgörənliklə, müdrikliklə bütün dövrlərdə, o cümlədən müstəqillik dövründə elmin inkişafına çox böyük diqqət göstərmişdir. Burada səsləndi və təsadüfi deyil ki, hakimiyyətə qayıdandan sonra onun Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz akademiyada olmuşdur.***

***Akademiyada Azərbaycanın intellektual elitası cəmlənib. Akademiyanın inkişafı Azərbaycanda elmin inkişafına birbaşa təsir göstərir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir.***

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***26 aprel 2011-ci il***



# MDB Parlamentlərarası Assambleyası: humanizm, dostluq, mehriban qonşuluq və həmrəylik

9 May bayramı ərəfəsində Moskvada Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının 1941-1945-ci illər Böyük Vətən müharibəsindəki qələbənin 70 illiyinə həsr olunmuş təntənəli plenar iclası keçirildi (2016-cı il).

Tədbirdə İcraiyyə Komitəsinin sədri, MDB-nin icraçı katibi Sergey Lebedev, Böyük Vətən müharibəsinin veteranları, Leninqrad blokadası sakinləri, MDB Parlamentlərarası Assambleyası iştirakçıları - parlament nümayəndə heyətləri, Birlik dövlətləri parlament rəhbərləri, Parlamentlərarası Gənclər Assambleyasının, ODKB Parlamentlərarası Assambleyanın nümayəndə heyətləri, diplomatik korpusun, beynəlxalq tərəfdaşlıq təşkilatlarının nümayəndələri iştirak edirdilər.

MDB Parlamentlərarası Assambleyası Şurasının sədri Valentina Matviyenko tədbirin açılışında dedi: "Qələbə bayramı - Qələbə günü azadlıq, humanizm və ədalət idealları kimlərə əzizdirsə, onların hər biri üçün müqəddəs bir gün kimi bizim dostluğumuzun əlamətdar rəmzidir və rəmzi olaraq da qalacaq.

Müharibənin ağır sınaqlarından çıxmış xalqlarımız arasındakı çoxəsrlik tarixi dostluq yeni minillikdə hərtərəfli əməkdaşlığın inkişaf etməsinin rəhnidir.

MDB Parlamentlərarası Assambleyası Şurasının başçısı qeyd etdi ki, xalqlar arasındakı sıx əlaqələri qırmaq niyyətində olanlar daim tarixi saxtalaşdırmağa cəhd göstərir, irqi və milli nifrəti, rusofobiyanı, nasizmi təbliğ etməyə çalışırlar.

Bu, parlament strukturlarının məsuliyyətini birə beş artırır. MDB dövlətlərinin Parlamentlərarası Assambleyası buna qarşı birgə fəaliyyət nümunəsi göstərir.

Valentina Matviyenko xatırlatdı ki, Parlamentlərarası Assambleyanın səyləri ilə Böyük Vətən müharibəsi haqqında xatirələrin əbədiləşdirilməsinə yaddaş tarixinə yönəlmiş bir sıra qanunvericilik aktlarının modeli işlənib hazırlanıb.

MDB Parlamenti 2015-ci ilin Birlik üzrə Veteranlar ili elan olunması ilə müharibə iştirakçıları qarşısındakı müqəddəs borcunu qismən ödəmiş oldu.

N.Matviyenko böyüməkdə olan nəslin müharibə haqqında dürüst və doğru biliklərə yiyələnməsində və maarifçilik təbliğatının aparılmasındakı ardıcıl xidmətlərinə görə Assambleya üzvlərinə təşəkkür etdi.

"Böyük Qələbəyə həsr olunmuş bir çox təşəbbüskarlıq nümunələrini, təklifləri həyata keçirmiş MDB dövlətlərinin parlamentləri xüsusi təşəkkürə layiqdirlər. Birliyimiz, mütəşəkkilliyimiz, həmrəyliyimizlə biz təkcə faşizm üzərindəki Qələbənin tarixi əhəmiyyəti haqqındakı ümumi anlayışımızı, baxışlarımızı nümayiş etdirmirik, həm də bəşəriyyətin taleyinə Qələbəmizin göstərdiyi təsiri dananlara, atalarımızın qəhrəmanlığından sui-istifadə etməyə çalışanlara qəti, sərrast cavab vermiş oluruq.

Biz, cəmiyyətdə humanizm, mehriban qonşuluq və həmrəylik ideallarını təsdiq edən çalışmalarımızı daim inadla, ardıcıllıqla davam etdirəcəyik", - deyə Valentina Matviyenko çıxışına yekun vurdu.

Təntənəli iclasda Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov çıxış etdi. O, əvvəlcə Böyük Vətən müharibəsindəki Böyük Qə-



Nümayəndə heyəti Böyük Vətən müharibəsində həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.





Milli Məclisin sədri Oqtay Əsədov öz çıxışında Bakının Qələbədəki rolunu qeyd etdi

ləbənin 70 illiyinə hazırlıqla bağlı respublikada həyata keçirilən tədbirlərdən bəhs etdi. O bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti "1941-1945-ci illər Böyük Vətən müharibəsindəki Qələbənin 70 illik yubileyinə hazırlıq və bayram edilməsi Planı"nın təsdiqinə dair sərəncam imzalayıb.
Oqtay Əsədov dedi:
"Bu müharibədəki ümumi qələbədə Azərbaycan xalqının rolu misilsizdir. Həmin illərdə Azərbaycanın təqribən 3.274 min nəfər əhalisindən 700 mini cəbhəyə getdi. 1941-1945-ci illərdə SSRİ-də hasil edilən ümumi neftin 85-95 faizini Bakı nefti təşkil edirdi.
O dövrdə artıq mühüm hərbi-sənaye şəhərinə çevrilmiş Bakıda 130 növ silah və döyüş sursatı istehsal edilirdi".
Oqtay Əsədov onu da qeyd etdi ki, sinələrini orden və medallar bəzəyən mərdlik, igidlik və qəhrəmanlıq göstərən, qanlı-qadalı sınaqlardan keçən veteranlarla yanaşı, arxa cəbhədə yorulmaq bilmədən gecə-gündüz çalışan insanların da Şanlı Qələbənin qazanılmasında əvəzolunmaz xidmətləri vardır.
Milli Məclisin sədri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müharibə veteranlarına və veteran hərəkatına göstərdiyi diqqət və qayğını xüsusi vurğuladı. Hazırda isə bütün veteranlar və veteran təşkilatları Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı ilə əhatə olunublar.
Tədbirin sonunda veteranlara təntənəli surətdə "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi" yubiley medalı təqdim edildi. Bu mükafat MDB ölkələri başçıları Şurası tərəfindən Birlik ölkələri üçün vahid medal kimi, Böyük Qələbənin yubileylərində müharibə veteranlarının mükafatlandırılması məqsədi ilə təsis edilib.


*Oqtay Əsədovun rəhbərliyi ilə Milli Məclisin nümayəndə heyəti veteranları təbrik edir*





# Məqsəd Azərbaycan iqtisadiyyatının dayanıqlı, güclənən inkişafıdır

***Bu uğurun və bütövlükdə Azərbaycanın bu uğurlu tarixinin rəhni, ilk növbədə siyasi kursun varisliyidir. Mən prezident vəzifəsində işə başlayanda və hətta ondan əvvəl, seçkiqabağı dövrdə elan etmişdim ki, mənə etimad göstəriləcəyi təqdirdə atamın siyasətini davam etdirəcəyəm. Zaman sübut etmişdir ki, bu, yeganə düzgün siyasətdir. Bu siyasət Azərbaycanı hərc-mərclik, nizamsızlıq və faktiki parçalanma dövründən çıxarmışdır. Bu siyasətə sadiqlik yeganə düzgün seçim idi və Azərbaycan xalqı, o cümlədən 2003-cü ildə də bu seçimi dəstəklədi.***

***İlham ƏLİYEV***

Makroiqtisadi göstəricilərin sabitliyi, büdcə gəlirlərinin artması və əlverişli biznes mühitinin formalaşması, inventarların daxili və xarici yatırıma cəlb edilməsi regionda Azərbaycanın lider mövqe qazanmasına imkan yaratdı. Beləliklə, Azərbaycan bazar iqtisadiyyatına keçidin başa çatdığını elan etdi. Bu gün Azərbaycan sənayesi və infrastrukturunun səviyyəsi orta inkişaf etmiş dövlətlərin göstəricilərinə uyğun gəlir. Artıq ölkədə bazar iqtisadiyyatının bütün elementləri, ən başlıcası - investisiya mexanizmi mükəmməl surətdə fəaliyyət göstərməkdədir. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması, 1994-cü ilin sentyabrında beynəlxalq neft şirkətləri konsorsiumu ilə çoxmilyardlıq müqavilənin bağlanması Azərbaycan üçün xarici yatırımların cəlb edilməsi və iq-

**MDB dövlətlərinin ümumi daxili məhsulunun 1991-1996-cı illərdəki dinamikası (daimi, dəyişməz qiymətlərlə 1990=100%)**




***Diaqram 1***



*Biz çox ambisiyalı məqsədlər qoymuşuq. Bəlkə də, birinci mərhələdə bunlar həyata keçirilə bilməyəcək planlar, hətta real olmayan məqsədlər təsiri bağışlayır. Lakin mən hesab edirəm ki, məqsəd əlçatmaz görünəndə, ona çatmaq daha asan olur. Əgər istək, siyasi iradə və yaxşı təşəbbüskarlıq olsa, çox şey etmək olar. Ölkənin inkişafının düzgün seçilmiş strategiyası – sözsüz ki, Azərbaycanda vəziyyətin düzgün analizinə, dövlətin effektiv idarə edilməsinə, qəbul edilən qərarların həyata keçirilməsinə ciddi nəzarət edilməsinə əsaslanmalıdır.*

***İlham ƏLİYEV***

tisadi potensialı artırmaq yollarını müəyyən edən dönüş nöqtəsi oldu.

Azərbaycan iqtisadiyyatı tamamilə qlobal bazara daxil oldu. Artıq 1995-ci ildə iqtisadi tənəzzül dayandırıldı (cədvəl 1), iqtisadi potensialın artımı başladı (cədvəl 2). Eyni zamanda, inzibati-amirlik sistemindən bazar təcrübəsi üzrə genişmiqyaslı, çoxplanlı işlərə başlanıldı.

Neft kontraktı və bazar islahatları dövlət mülkiyyətinin özəlləşdirilməsi və sənayedə modernləşmə mexanizmlərini işə saldı. Bununla da yeni yaranan özəl sektorun kapitallaşdırılmasının yüksək səviyyəsi təmin edildi.

Bu gün Azərbaycanda xarici ticarət fəaliyyəti liberallaşıb, maliyyə, kapital və işçi qüvvəsinin azad hərəkəti təmin olunub, idxal tariflərinin sayı və haqqı azaldılıb, xarici iqtisadi fəaliyyətin proseduru sadələşdirilib. Xüsusi mülkiyyətin forma müxtəlifliyi və bazar subyektlərinin rəqabəti üçün lazımi şərait yaradılıb.

1999-cu ilin dekabrında karbohidrogen resursların ixracından əldə edilən gəlirlərin toplandığı Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) təsis edilməsi dövlət investisiya layihələrinin gerçəkləşməsində çox vacib vasitə oldu. O vaxtdan bəri ölkə strateji valyuta ehtiyatlarını ildən-ilə artırmaqdadır.

Statistik rəqəmlər bazar iqtisadiyyatında həyata keçirilən genişmiqyaslı islahatların səmərəsini əyani surətdə göstərir. Təkcə postsovet məkanında deyil, həm də bütün dünyada ən yüksək göstəricilərdən biri - adambaşına düşən ÜDM Azərbaycanda 3,2 dəfə artıb. 2005-ci ildə adambaşına düşən büdcə xərclərinin 265 dollara qarşı 2660 dolları ötüb keçməsi də bu rəqəmin 10 qat artdığını göstərir. ÜDM-də dövlət büd-

***Azərbaycan Respublikasında ümumdaxili məhsulun (ÜDM) dinamikası***




***Diaqram 2***

***Azərbaycan Respublikasının neft sektorunda ümumi daxili məhsulun artımı***




***Qrafik 1***

*Azərbaycan: əhalinin hər adambaşına düşən ÜDM (dollarla)*




*Diaqram 3*

cəsinin payı 33% hüdudundadır.

Uzun müddət belə hesab olunub ki, azad bazar münasibətlərində tam nizamlanmanı təmin edən Qərb monetar iqtisadi modelinin dünyada alternativi yoxdur.

Lakin qlobal iqtisadi böhran bazar iqtisadi təsərrüfatının mövcud idarəetmə sistemi və iqtisadi nəzəriyyədə bəzi fundamental əsasların heç bir qüvvəyə malik olmadığını təsdiq edir. Belə ki, onlar durğunluq dövründə gedən çoxsaylı neqativ sosial-iqtisadi proseslərin qarşısını almaqda aciz duruma düşdü.

Məlum oldu ki, qloballaşma şəraitində iqtisadi mexanizmlərin koordinasiyası və inkişaf modellərinin qurulması daha dərin yanaşma, həmçinin iqtisadiyyatda dövlətin yeni prinsiplərinin müəyyənləşdirilib ortaya qoyulmasını tələb edir. Bu baxımdan Azərbaycanın iqtisadi modeli uğurlu nümunə hesab oluna bilər. Bu model iqtisadiyyatın yenidən qurulmasında, iqtisadi islahatlar aparmaqda cəmiyyətin uzunmüddətli strateji maraqlarını







*Azərbaycan Respublikasında əmtəə dövriyyəsinin dinamikası (mln. dollarla)*




*Qrafik 2*

önə çəkir, bazar mexanizmlərini dövlət planlaşdırma sistemi ilə uğurla tənzimləyir.

Bir sıra beynəlxalq maliyyə təşkilatlarının müəyyən təzyiqlərinə baxmayaraq, dövlət "şok terapiyası" variantını seçmədi, daha doğrusu, xammal, enerji, kommunal infrastrukturlar, dəmir yolu, dəniz, boru kəməri nəqliyyatı sahələrinin tamamilə özəlləşdirilməsindən imtina etdi. Dövlət neft-qaz və nəqliyyat kimi strateji infrastrukturlar üzərindəki nəzarəti əlində saxlamaqla sonralar, bütövlükdə, iqtisadiyyatın diversifikasiyası və kapitallaşmasının yüksək tempini təmin etməkdə lazımi şəraiti yarada bildi.

Hətta ölkəmiz qeyri-xammal sahələrinin inkişafına görə çox vaxt dünyanın digər regionlarını ötüb keçir.

Bu gün Azərbaycanda uzunmüddətli sənaye siyasətini həyata keçirməyə, xüsusən də ölkənin yenidən sənayeləşdirilməsini həyata keçirməyə imkan verən möhkəm iqtisadi baza yaradılıb.

Hazırda dünyanın daha çox inkişaf

*Azərbaycan Respublikasının iqtisadiyyatına cəlb edilmiş yatırımların həcmi və strukturu (mln.dollarla)*




*Diaqram 4*

***Azərbaycan Respublikasında istehlak qiymətlərinin indeksi və əhali üzrə gəlirlərin artım tempi***




***Diaqram 5***

etmiş regionlarında postindustrial inkişafın ictimai-iqtisadi modeli formalaşır. Burada ümumi daxili məhsulun yarıdan çoxu maliyyə bazarlarının, xidmət sahələrinin, yüksək texnologiyalarının, "nou-haunun" işlənib hazırlanması hesabına yaranır.

Çox zəhmət tələb edən, ekoloji cəhətdən təhlükəli sənaye sahələri yüksək inkişaf etmiş ölkələrin hüdudlarından kənara, ucuz işçi qüvvəsinə, təbii ehtiyatlara, güzəştli vergiyə və s. malik regionlara çıxarılır. Postsovet məkanına, o cümlədən Azərbaycana da uyğun gələn ənənəvi sənaye inkişaf ehtiyatları tükənməkdən hələ uzaqdır. Bu, ilk növbədə dövlətin və cəmiyyətin dayanıqlı inkişafı ilə diktə olunur və ölkədə ərzaq, enerji, nəqliyyat, müdafiə və s. təhlükəsizlik növlərini təmin edən bazanın mövcudluğunu tələb edir. Nəhayət, aqrar sektora, tikinti və müasir sənaye sahələrinə investisiyanın cəlb olunması sosial inkişafla, ən başlıcası isə yoxsulluğun azaldılması, məşğulluq problemləri və bununla bağlı bəzi məsələlərin həllində özünü doğruldur. Buna görə də dövlət ilk olaraq, cəmiyyətin dayanıqlı yüksəlişi baxımından yanaşaraq regionların sosial-iqtisadi inkişafına dair iki proqramın həyata keçirilməsinə çoxmilyardlıq yatırım qoydu. Üçüncü regional proqram isə ardıcıl şəkildə həyata keçirilməkdədir.

Həmin bu amillər indi texnoparkların, biznes-inkubatorların, sənaye məhəllələrinin yaradılmasında, aqrar sektorun, elektroenergetikanın, kommunal və nəqliyyat infrastrukturlarının inkişafında nəzərə alınır.

Söhbət, həm də neft-qaz ixrac kəmərlərinin, Bakı-Tiflis-Qars də-





mir yolu dəhlizinin, Xəzərdə yeni beynəlxalq dəniz limanının, altı müasir hava limanının tikintisinə dövlətin yatırımından gedir. Elə buradaca yeni elektrostansiyaların tikintisinə, ölkədəki ATS-lərin tamamilə rəqəmsallaşdırılmasına, qaz və su infrastukturlarının köklü şəkildə yenidən qurulmasına, minlərlə kilometr uzunluğunda avtomagistralların çəkilməsinə çoxmilyardlıq sərmayə qoyuluşunu xatırlatmağımız yerinə düşər. Bu cür investisiya proqramlarını həyata keçirmədən daxili və xarici yatırımların cəlb edilməsi üçün sonradan infrastruktur bazasının yaradılması mümkün olmazdı.

Bu uzunömürlü, məqsədyönlü proqram nəinki əhəmiyyətli büdcə vəsaitlərinin, həm də dövlət ehtiyat fondlarında strateji yığımların cəlb edilməsini doğruldur. Xüsusilə də, hər il bütün dövlət vəsait qoyuluşunun təxminən yarısı təkcə nəqliyyatın inkişafına yönəldilirdi. Belə siyasətin səmərəsi qeyri-neft sektorunun dinamik inkişafı ilə təsdiqlənir.

Qeyri-neft sektorunun inkişaf tempi 8-9 faizə çatır ki, bu da ÜDM-in artım göstəricilərini iki-üç dəfə qabaqlamış olur. Ölkədə yaxın onillikdə ÜDM-in ikiqat artırılmasında neft sektoru üstün yer tutur, əsas rol oynayır.

Bizim hesablamalara görə, artıq yaxın illərdə Azərbaycanın ümumdaxili məhsulunun həcmi 100 milyard dollara çatacaq. ÜDM neft sektorunun hesabına çoxalıb artacaq.

Ölkəmizdə investisiya mühitinin yaxşılaşması üzrə ardıcıl siyasət yeridilir. Azərbaycan uzun illərdir ki, iqtisadiyyatın rəqabət qabiliyyəti və investorlar üçün cəlbedicilik dərəcəsinə görə MDB-də qabaqcıl dövlətlərdən sayılır.

Bu, Davos Ümumdünya İqtisadi Forumunun reytinq cədvəlləri, bir sıra agentliklərin nüfuzlu beynəlxalq strukturlarının qiymətləndirmələri ilə təsdiqlənir.

**Azərbaycanda valyuta ehtiyatlarının dinamikası**




***Diaqram 6***

Əgər axırıncı iki onillikdə ölkə iqtisadiyyatına qoyulan 150 milyard dollardan təqribən yarısı xarici kapitalın payına düşürsə, onda deyə bilərik ki, həmin qiymətləndirmələr, reytinq özünü tam şəkildə doğrultmuşdur.

Təkcə 2013-cü ildə investisiya həcmi rekord həddə - 28 milyard dollara çatdı. Bunun da 17,5 mlrd. dolları daxili sərmayə hesabına idi. Bu parametrlər üzrə də bizim ölkəmiz postsovet məkanında ilk yerlərdən birini tutur.

İş adamlarına yardım və sərmayədarların cəlb edilməsi məqsədi ilə ölkədə azad sahibkarlıq fəaliyyəti üçün lazımi hüquqi baza yaradılıb. İqtisadiyyat sahələrinin dəstəklənməsi, kiçik və orta sahibkarlığın stimullaşdırılması üzrə dövlət proqramları həyata keçirilir. Biznesin elektron qeydiyyatı üçün "Bir pəncərə", "Elektron hökumət" interaktiv portalı, sahibkarlıq subyektlərinin yoxlanması üzrə mərkəzləşdirilmiş dövlət reyestri kimi formalar uğurla gerçəkləşdirilir.

Dövlət tərəfindən göstərilən xidmətlərin sadələşdirilməsi və daha sürətlə aparılması baxımından "Asan xidmət"in fəaliyyəti son dərəcə sərfəlidir və s.

Qeyd etmək lazımdır ki, dövlətin, iqtisadiyyatın əsas investoru kimi ilk mərhələdəki üstün rolu özünü tamamilə doğrultdu. Dünyanın Çin, Türkiyə kimi uğurla inkişaf edən bir çox dövlətləri bu yolla gedirlər. Azərbaycanda özəl sektor on il bundan əvvəl yaransa da, genişmiqyaslı infrastruktur və sənaye təşəbbüslərinin həyata keçirilməsi üçün hələ kifayət qədər vəsaitə malik deyildi. Bu günsə özəl şirkətlərin ölkədəki birgə istehsal payı 80 faizi ötür. Hazırda sənaye layihələrinin kifayət qədəri özəlləşdirilmiş mənbələrdən maliyyələşir. Yəni, ölkədəki iş yerlərinin dörddə üçündən çoxunu özəl sektor təmin edir və bu pay daim artmaqdadır. Eyni zamanda, iş qabiliyyətinə malik əhalinin əksər hissəsi gənclərdir. Üstəlik, doğum sayının dinamik artımı dövlətdən məşğulluq problemlərinə daim diqqət yetirməyi tələb edir. Dövlət qeyri-xammal




Diaqram 7



Prezident İlham Əliyev Gəmiqayırma Zavodunun açılışında

Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri və xərcləri, mln. manat




Diaqram 8



**Sumqayıt Texnologiyalar Parkı**

sahəsi üzrə ixracatın genişləndirilməsi və idxaləvəzetmə vəzifələrilə yanaşı, qeyri-neft sektoru, həm də sosial məsələləri, yeni iş yerlərinin yaradılmasını da həll etməlidir. Burda da əsas ağırlıq bütün sahələrdən qabaq, özəl sektorun üzərinə düşür.

Prezident İlham Əliyev özəl bölməyə hərtərəfli dəstək verilməsini iqtisadi strategiyamızın əsas parametri kimi qiymətləndirib.

Sahibkarlığa Dəstək Milli Fondunun (SDMF) və Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) xətti ilə maliyyələşdirmə, güclü aqrolizinq strukturunun yaradılması, kənd təsərrüfatı istehsalçılarına maddi yardım göstərilməsi, texnoparklardakı sərmayədarlara uzunmüddətli imtiyaz və üstünlüklərin verilməsi və s. bu kimi, hələ siyahısı tamamlanmayan stimullar vasitəsi ilə dövlət özəl bölməyə investisiya cəlb etməkdədir.

Bunun sayəsində də artıq ölkədə güclü emal və yeyinti sənayeləri yaradılıb. Respublikamızda istehlak olunan ərzağın ümumi həcminin beşdə dördünü məhz həmin sənaye sahələri təmin edir.

Verilən trendin dəstəklənməsi məqsədi ilə ölkədə informasiya-kommunikasiya texnologiyası üzrə inkişaf Fondu yaradıldı. Onun vəsaiti hesabına biznes-inkubatorlarda star-tap layihələrinin maliyyələşdirilməsinə başlandı. Həmçinin, yüksək texnologiyalar parkı, regional innovasiya zonaları üzrə digər başqa elementlər də formalaşdı.

2013-cü il fevralın 8-də Azərbaycan Beynəlxalq Kosmik Klubun üzvü oldu. Azərbaycan peyk qruplaşması yaratmaq yolu ilə gedir. 2015-ci ildə yer səthini müşahidə edən aşağı orbitli peyk, 2016-cı ildə isə ikinci telekommunikasiya peyki orbitə buraxıldı. Azərbaycan hökuməti yaxın illərdə İKT sahəsinin inkişafına, bütövlükdə, 3,5 milyard dollar həcmində büdcə vəsaiti ayırıb. Kosmik sənayenin inkişafına sərf olunacaq xeyli investisiya bu sahədə daha böyük uğurlara təkan verəcəkdir.

Alternativ enerji texnologiyaları mənimsənilir. Lokomotiv və gəmi-





***Azərbaycan və Ermənistan iqtisadiyyatına sərmayə qoyuluşu barədə müqayisəli məlumatlar (mlrd. dollarla)***




***Diaqram 3***

qayırmanın inkişafı üçün güclü istehsal obyektləri yaradılır. Müasir neft-kimya sahəsi formalaşdırılır və s. Bu qəbildən olan işlərin kapitallaşmasında özəl şirkətlərə məxsus payın artacağı, hətta zaman-zaman dövlətin iştirakını üstələyəcəyi də gözlənilir.

Xarici investisiyanın yüksək texnologiyalar sahəsinə cəlb edilməsinə gəldikdə isə, biz bu gün perspektivli layihələrə ünvanlı yatırımların qoyuluşunda maraqlıyıq. Təkcə maliyyə məsələləri deyil, həm də texnologiya transferi, iqtisadiyyatın elmtutumlu sahələri üçün kadr hazırlığı kimi məsələlər də diqqət mərkəzindədir.

Bu gün Cənubi Qafqazın ÜDM-in 75 faizindən çoxu Azərbaycanın payına düşür. Respublika iqtisadiyyatına qoyulan yatırımların həcmi Ermənistanın uyğun göstəricisini 10 dəfə üstələyir.

Dövlətin investisiya siyasəti, milli istehsalçıların maraqlarının qorunması, bütövlükdə isə bilavasitə iqtisadi təhlükəsizliklə bağlıdır.

Dünya təcrübəsi göstərdi ki, dövlətin daimi dəstəyi ilə kiçik və orta sahibkarlığın ardıcıl inkişaf etdiyi ölkələr özlərinin geri qalmış regionlarını qısa bir müddət ərzində çiçəklənən diyara çevirə biliblər. Yaddan çıxarmayaq ki, qloballaşmanın ardıcıl tərəfdarları sayılan ABŞ, Almaniya və inkişaf etmiş qeyri ölkələr bu gün öz fermerlərini, kiçik biznes və müəssisələrini, qeyri-tarif mexanizmlərindən eləcə də necə deyərlər, "havadarlığın, qəyyumçuluğun" digər növlərindən geniş istifadə etməklə hərtərəfli şəkildə dəstəkləyirlər.

Bu gün dinamik inkişaf edən müasir güclü bir dövlət kimi Azərbaycanın yenidən dünya qarşısında qürurla dayanacağına artıq heç kimin şübhəsi yoxdur.

**Akademik Ziyad Səmədzadə**



*Balaxanı Sənaye Parkı*




*Zavod Baku Steel Company*





## RR GROUP OF COMPANIES

PEŞƏKAR KOMANDAMIZLA, MÜŞTƏRİ YÖNÜMLÜ SİYASƏTİMİZLƏ
İNŞAAT, TİCARƏT VƏ LOGİSTİKA
SAHƏSİNDƏ SİZƏ ƏN ETİBARLI BİZNES TƏRƏFDAŞIYIQ



*Azərbaycan xalqına sülh, əmin-amanlıq və aydın səma arzulayırıq!*

**Web: www.rrgroup.az; Email: info@rrgroup.az**

RR Group of Companies biznesin müxtəlif sahələrində - tikinti, ticarət və logistikada uğurlu investisiya layihələrini reallaşdırır. Şirkətlər qrupu fəaliyyətini Azərbaycanla yanaşı, Türkiyə, Macarıstan və Gürcüstanda davam etdirir, ölkəmizi xaricdə layiqincə təmsil edir.
RR Group of Companies Bakıda və regionlarda yaşayış binalarının, tikintisi, istehsal müəssisələrinin qurulması, Dünya Bankının infrastruktur layihələrinin icrası, habelə ticarət və logistika sahəsində bir çox uğurlu layihələrə imza atmışdır.
Çalışdığımız hər bir sahədə biznesin effektiv idarə olunması, müasir korporativ idarəetmə standartlarının tətbiqi, milli dəyərlərimizin qorunması fəaliyyətimizin prioritet istiqamətlərindəndir.
Dövlətimizin özəl sektor müəssisələrinə yaratdığı geniş imkanlardan maksimum yararlanaraq fəaliyyətimizi, Azərbaycanın inkişafına dəstək verməsi üçün gücümüzü tam səfərbər etmişik.

# DİNAMİK VƏ KEYFİYYƏTLİ İNKİŞAFIN UĞURLARI

*Sumqayıt Texnologiyalar Parkı Azərbaycan Respublikasının artan iqtisadi qüdrətinin göstəricisidir*

*İlham ƏLİYEV*

***Ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaradılır***

Müasir istehsal infrastrukturuna malik sənaye parkının yaradılması ölkədə sənaye sahələrinin inkişafının, ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsini, habelə istehsal sahələrinin və onun innovasiya istiqamətinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilmişdir. Sənaye parklarının yaradılması, həmçinin ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi öncül vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir. Ölkədə sənaye parklarının yaradılması bir sıra dövlət proqramlarında, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 24 aprel 2013-cü il tarixli 865 nömrəli Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir. Qeyd olunan Fərmanla müəyyən edilmişdir ki, sənaye parkı - sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir.

**Qabaqcıl texnologiyaların inkişafına töhfə - Sumqayıt Kimya Sənaye Parkı**

Ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanı ilə Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Sumqayıt Kimya Sənaye Parkının ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələrinin yaradılması nəzərdə tutulmuşdur. Sumqayıt Kimya Sənaye Parkının ərazisi 295,62 hektar təşkil edir. Sumqayıt Kimya Sənaye Parkının artıq 9 rezidenti var və bu rezidentlər tərəfindən sənaye parkına 1,1 milyard dollardan çox investisiyanın qoyulması, həmçinin 2200 iş yerinin yaradılması gözlənilir.

Parkın sənaye zonasında kimya sənayesi, tikinti



sənayesi və digər sənaye sahələri üzrə müəssisələrin – parkın rezidentlərinin fəaliyyət göstərməsi üçün böyük imkanlar yaradılır.

MDB məkanında analoqu olmayan layihə –

**Sumqayıt Texnologiyalar Parkı**

Azərbaycanda qeyri-neft sahəsinin inkişafı strateji vəzifə kimi qarşıya qoyulmuşdur. Ölkə hökuməti istehsal sektorunu hər cəhətdən işə salmağa, biznesə innovasiyalar tətbiq etmək arzusunu aşılamağa çalışır. İqtisadiyyatda həm birbaşa dövlət investisiyaları, həm də sahibkarların fəal işə stimullaşdırılması yeni vüsət alır. Buna parlaq misal kimi biznesin və dövlətin birgə səyi nəticəsində yaranmış unikal texnologiyalar parkını göstərmək olar.

Bu gün Azərbaycanda və regionda texnoparklara bariz nümunə Sumqayıt Texnologiyalar Parkıdır. Son illər Sumqayıt sanki yenidən doğulmuşdur. Alüminium zavodu işə düşmüş, onun ardınca digər istehsal sahələrində iş canlanmışdır. Çox qısa zaman kəsiyində regionda unikal istehsal kompleksi – Sumqayıt Texnologiyalar Parkı tikilmişdir. MDB məkanında analoqu olmayan layihə - Sumqayıt Texnologiyalar Parkı XX əsrin 70-ci illərindən etibarən ümummilli lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində bugünkü uğurlu iqtisadiyyatımızın inkişafının bünövrəsini qoymuşdur. Prezident İlham Əliyevin səy və baca-



Azərbaycan innovasiyalı iqtisadi vasitələri uğurla tətbiq etmək üçün real perspektivlərə malikdir. Bu innovasiyalı iqtisadi vasitələr iqtisadiyyatın bütün sektorlarının inkişafı və sosial-iqtisadi problemləri daha səmərəli həll etmək üçün əlavə vasitələrin meydana gəlməsi, onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün stimul ola bilər. Dünya təcrübəsi göstərir ki, texnoparkların və xüsusi iqtisadi zonaların yaradılması rəqabətqabiliyyətliliyi və inkişafın gələcək perspektivlərini artırır. Çin, Türkiyə, BƏƏ, Cənubi Koreya, Polşa və başqa ölkələr iqtisadi inkişaflarının müxtəlif dövrlərində xüsusi iqtisadi zonalar və texnoparklar yaratmaqla sahibkarlığın fəallığı, istehsal fəaliyyəti, elmi-texniki tədqiqatların səviyyəsini artırmağa nail olmuşlar ki, bu da bütövlükdə ölkə iqtisadiyyatının inkişafının sürətləndirilməsinə müsbət təsir göstərmişdir.

rıqları nəticəsində bir çox iqtisadi islahatlar həyata keçirilmişdir və nəticədə fərdi sahibkarlar üçün çox əlverişli şərait yaradılmışdır ki, Sumqayıt Texnologiyalar Parkı kimi nəhəng, çoxşaxəli və respublika sənayesini inkişaf etdirən müəssisə formalaşmışdır. STP regionda texnoparkların yaradılmasında pioner olmaqla, həm də məhsullarının fərqli çeşidləri ilə seçilən, regionda analoqu olmayan ixtisaslaşmış zavodlar kompleksidir. Regionda nadir layihə olan STP Azərbaycanın həm daxili, həm də xarici bazarının tələbatını tam ödəmək qabiliyyətinə qadirdir. Həqiqətən, indi sumqayıtlılar həm öz doğma şəhərləri, həm də regionda analoqu olmayan Sumqayıt Texnologiyalar Parkı ilə fəxr edə bilərlər. Bu gün STP Azərbaycan sənayesində özünün çoxçeşidli zavodları ilə layiqli sözünü deyir.

# 25 İLLİK MÜSTƏQİLLİK DÖVRÜMÜZÜN UĞURLU BİR SAHİBKARLIQ NÜMUNƏSİ

Mətanət A®

Müstəqilliyimizin 25 illik tarixində ölkəmizdə güclü sahibkarlar təbəqəsi formalaşmış və ölkəmiz regionun ən sürətlə və dinamik inkişaf edən ölkəsinə çevrilmişdir. Məhz müstəqillik dövründə müxtəlif istiqamətlərdə iqtisadiyyatın inkişafı və sürətlə gedən yenidənqurma işləri ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində bir çox sahələrdə olduğu kimi sahibkarlıq sahəsində də dirçəlişə səbəb oldu. Bu iqtisadi inkişafı sürətləndirmək üçün bir sıra dövlət proqramları qəbul olundu. Bununla da ölkəmizə cəlb olunan xarici investisiya ilə yanaşı, daxili imkanlar hesabına yeni istehsal və sənaye müəssisələri yaranmağa başladı. Neft və qaz sektoru ilə yanaşı, qeyri-neft sektorunun da inkişafı perspektivdə duran əsas hədəf kimi qarşıya qoyuldu. İnşaat sektorunda canlanma yaşandı, dövlət dəstəyi ilə yeni sahibkarlıq müəssisələri fəaliyyətə başladı. İqtisadiyyatın sürətli inkişafı nəticəsində yeni tələbatlar ortaya çıxdı. Bu tələbatlar tikinti sektorunda da özünü göstərdi. Belə ki, 2000-ci ilə qədər inşaat sektorunda istifadə olunan qarışıqlar, yapışdırıcılar, boyalar və s. əsasən xaricdən idxal olunurdu. Bu, təmir və tikintinin baha başa gəlməsinə və köhnə metodların tətbiqinin qalmasına səbəb olurdu. Keçid dövrü adlanan bu zaman kəsiyində artıq yerli istehsal müəssisələrinin və sənaye komplekslərinin yaradılmasına ehtiyac yarandı.




Dövlətin sahibkarlığa verdiyi dəstək nəticəsində müstəqilliyimiz dövründə bir çox istehsal müəssisəsi yaranmağa başladı. Belə bir şəraitdə inşaat sektorunda yaranan tələbatların ödənilməsi üçün təcrübəli sahibkar Elxan Bəşirovun rəhbərliyi altında 2000-ci ildə "Mətanət A" şirkətinin əsası qoyuldu və Qafqazda ilk dəfə olaraq quru inşaat qarışıqları zavodu fəaliyyətə başladı. Şirkət innovativ məhsullarını nano və smart texnologiyalara əsaslanan zavodlarında istehsal edir. Hazırda şirkət böyük istehsal gücünə malik 4 yeni zavodun inşasına da başlamışdır: Qazaxda yerləşən, illik istehsal gücü 50 min ton olan Əhəng zavodu, Qaradağda yerləşən, illik istehsal gücü 8 milyon kv.m. olan Alçıpan-gips karton zavodu, Zənginləşdirilmiş kvars qum zavodu, Mineral yun zavodu. Bu yeni zavodların açılması ilə 1500 yeni və 500 mövsümi iş yerlərinin açılması nəzərdə tutulur. Həmçinin, yeni zavodların işə başlaması Abşeron, Qaradağ, Qobustan, Daşkəsən, Goranboy və Qazax rayonlarında yardımçı istehsal sahələrinin də yaradılmasına imkan verəcək.







## İNNOVASİYA VƏ TEXNOLOJİ LİDERLİK

Sevindirici haldır ki, bu gün ölkəmizdə müxtəlif sektorlarda fəaliyyət göstərən müəssisələrimiz də müasir texnologiyaların istifadəsinə üstünlük verir. Bu texnologiyalar sayəsində istehsal olunan məhsullar dünya standartlarına uyğun olmaqla yanaşı, istehlakçıların da yerli məhsullara olan inam və rəğbətinin formalaşmasına dəstək olur. Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə elmi-texniki tərəqqinin inkişafı innovasiya sahibkarlığı ilə bağlıdır. Lakin innovasiya sahibkarlığı böyük məbləğdə vəsait tələb etdiyindən, adətən, iri müəssisə və təşkilatlar innovasiya sahibkarlığı ilə məşğul ola bilirlər. Elmi tədqiqatların aparılması və yeniliklərin cəmiyyətə mənimsədilməsi öz-özlüyündə böyük məbləğlər tələb etməkdədir ki, bu məbləğləri də yalnız böyük şirkətlər ödəyə bilər. Hal-hazırda respublikamızda innovasiya sahibkarlığından bir çox iri müəssisələr geniş istifadə edir. "Mətanət A" şirkəti də inşaat sektorunda qabaqcıl yerlərdən birini tutmaqla istehlakçıların rəğbətini qazanmış və bir çox uğurlar əldə etmişdir. İnşaat materiallarının istehsalı sektorunda 17 ildir uğurla fəaliyyət göstərən "Mətanət A" şirkəti öz fəaliyyəti müddətində hər zaman innovatorluq ənənəsi ilə fərqlənmiş və öndə olmuşdur. Bu gün təkcə Azərbaycanda deyil, yaxın qonşu ölkərdə - Rusiyada, Gürcüstanda, Türkmənistanda, Qazaxsıtanda, Ukraynada, İranda, Türkiyədə özünə auditoriya toplamış şirkətin əldə etmiş olduğu uğurların təməlində innovasiyalar və müasir texnoloji liderlik hədəfləri durmaqdadır.

## ETİBARLI TƏRƏFDAŞLIQ

"Mətanət A" şirkəti hər zaman korporativ münasibətlərin qorunması və inkişaf etdirilməsi istiqamətində fəaliyyətini davam etdirməkdədir. Bu münasibətləri biznes tərəfdaşlığı, sosial tərəfdaşlıq olmaqla 2 əsas istiqamətə ayırmaq mümkündür. 17 il ərzində şirkətdə həyata keçirilən bütün tərəfdaşlıq modelləri bir neçə dəyişilməz kriteriyaya əsaslanır: etibarlılıq, dürüstlük, prinsipiallıq, keyfiyyət və güvən. "Mətanət A" şirkəti bütün tərəfdaşlarının güvəninə dəyər verərək, onlarla dürüst davranaraq, keyfiyyətli xidmət göstərməkdə prinsipiallığını davam etdirərək etibar qazanmışdır. Ölkəmizin qabaqcıl şirkətləri ilə çoxsaxəli müqavilələr imzalamaqla ölkə iqtisadiyyatının dinamik bir parçasına çevrilən şirkət son illərdə ölkəmizdə aparılan tikinti-quruculuq işlərində də öz imzasını atmışdır. Bir çox strateji və dövlət əhəmiyyətli obyektlərin tikintisi və təmiri zamanı podratçı şirkətlərlə bağlanılmış müqavilələr uğurla icra edilmiş, eyni zamanda, istehsal olunan məhsulların realizasiyası istiqamətində respublika daxilində və xaricində minlərlə müştəri ilə ticari müqavilələr bağlanmışdır. Bütün bunlar "Mətanət A" şirkətinin etibarlı tərəfdaş kimi qəbul edilməsinin və bu markaya - Azərbaycan brendinə olan güvənin göstəricisidir. İnanırıq ki, şirkətin daxili bazarda qazandığı uğur qədər qısa müddətdə region ölkələri, həmçinin bütün dünya tikinti materialları istehsalçıları içərisində keyfiyyətli Azərbaycan brendinin bütün dünyada nüfuz qazanmasında mühüm rolu olacaqdır.



# Təravətin ünvanı:



*"...İqtisadiyyatımızın böyük hissəsi ilk illərdə neftlə, qazla bağlı idi. Bu gün isə biz neftdən və qazdan əldə etdiyimiz mənfəəti iqtisadiyyatımızın digər sektorlarına yatırmaqla ölkəmizin inkişafını dayanıqlı edirik".*

*İlham ƏLİYEV*

FRESCO supermarketlər şəbəkəsi Azərbaycan bazarında 2010-cu ildən fəaliyyət göstərən Azeri Retail şirkətinin ticarət şəbəkəsinə daxildir.

Avropa keyfiyyət standartlarına cavab verən FRESCO Azərbaycan bazarında əlçatan və tələbkar istehlakçı üçün keyfiyyətli brend kimi tanınan supermarketlər şəbəkəsidir.

FRESCO mağazalar şəbəkəsi Avstriyanın EMSA Capital İnvestisiya Fondunun sərmayəsi ilə yaradılmışdır və fəaliyyət göstərdiyi qısa müddətdə həm alıcıların rəğbətini qazanmış, həm də ölkə iqtisadiyyatına öz töhfəsini vermişdir.

Azərbaycan paytaxtının bir çox sakinlərinin sevdiyi FRESCO supermarketlər şəbəkəsi alıcılara Azərbaycanda istehsal olunmuş və xaricdən idxal olunmuş məhsulların geniş çeşidini təqdim edir.

FRESCO müasir Avropa standartlarından geri qalmayan, hətta bəzi aspektlərdə onu qabaqlayan ən yeni pərakəndəçilik texnologiyalarının tətbiqi ilə yaradılıb.

FRESCO Azərbaycana xarici sərmayə cəlb olunması, dünyanın müxtəlif ölkələrindən olan şirkətlər və iş adamları ilə səmərəli əlaqələr yaradılması sahəsində səylərini artırmaqdadır.

Hər bir şirkətin uğur əldə etməsi üçün onun güclü bir idarəçiyə ehtiyacı vardır. FRESCO supermarketlər şəbəkəsi (Azəri Retail MMC) kollektivi də öz gənc rəhbəri – şirkətin baş direktoru iqtisadiyyat üzrə fəlsəfə doktoru, Eyyubov Kamran Yusif oğlu ilə uğura doğru əmin addımlarla irəliləyir. Onun fəaliyyəti dövründə Azəri Retail şirkəti daha da güclənmiş, öz xidmət məntəqələrinin sayını artırmış, yeniliklərə və bir çox uğurlara imza ataraq, respublika ərazisində FRESCO brendini bir marka olaraq tanıtmışdır.

FRESCO adlı brendin daha da təkmilləşdirilməsi istiqamətində peşəkar komanda durmadan çalışır. Ən öndə olan məqsəd isə hər bir Azərbaycan istehlakçısına yüksək xidmət nümayiş etdirməkdir. Bununla bərabər, müştəri məmnuniyyəti də bu komandanın ən mühüm şüarıdır. Yüksək keyfiyyət, gülərüz və xüsusi təlimlər keçmiş peşəkar işçi heyəti alıcıların FRESCO supermarketlər şəbəkəsinə rəğbətini artırır. Rəqabətqabiliyyəti yüksək olan bu supermarketlərin əsas missiyası müştəriləri məmnun etmək, onlara daha müasir və daha güvənli alış-veriş üçün şərait yaratmaqdır.





Yeni Bakı bulvarı

# Bakıda Asiya İnkişaf Bankı rəhbərlər Şurasının 48-ci illik iclasinin açıq sessiyası keçirildi



*Sessiyanın açılışında çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın coğrafi mövqeyi, qeyd-şərtsiz, ölkəmizin inkişafına təsir göstərib. Qərblə Şərqin, Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan əsrlərlə multikultural dəyərlərin hakim olduğu bir məkandır. Biz öz tariximizlə, ənənələrimizlə fəxr edirik. Biz müasir Azərbaycanın bütün millət və dinlərdən olan insanların sülh, əmin-amanlıq içində yaşadigi tolerant ölkə kimi inkişafına inanırıq.*

*Prezident İlham Əliyev qeyd etdi ki, "qara qızıl" adlanan neftin insan kapitalına çevrilməsi bizim dövlət siyasətimiz olub və bizim iqtisadiyyatımız heç bir dövrdə bu günkü qədər diversifikasiya edilməmişdi. Bizim məqsədimiz dayanıqlı, neftin əsas amil olmadığı belə iqtisadiyyat yaratmaqdır. O, yalnız maliyyə ehtiyatlarını artırmağa xidmət etməlidir. Bu, bizim üçün siyasi və iqtisadi təhlükəsizlik məsələsidir, həm də öz növbəsində, dünyanın maliyyə bazarında gözlənilməz hadisələrdən sığortalanmağı ifadə edir.*



# GƏNCƏ AVTOMOBİL ZAVODU: ƏNƏNƏLƏR VƏ YENİLİKÇİLİK

O "KAMAZ" avtomobillərinə əsas sifarişçilərin sırasında Azərbaycanın müxtəlif dövlət strukturlarının, sənaye şirkətlərinin, iri şəhər bələdiyyələrinin, tikinti idarələrinin, yükdaşıma müəssisələrinin olacağına əminliyini bildirdi. Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi və "KAMAZ" ASC-nin ikitərəfli uzunmüddətli münasibətlərində prioritet istiqamət Azərbaycanda istehlakçıların "KAMAZ" avtomobillərinə yüksək, "Avro - 4-5" ekoloji səviyyəli xidmətin təminatı, həmçinin onların dəqiq və müntəzəm surətdə orijinal ehtiyat hissələri ilə təchiz olunmasıdır.

Tatarıstan və Azərbaycanı qədim dostluq münasibətləri birləşdirir. Bu da Gəncə Avtomobil Zavodunda "KAMAZ" avtomobillərinə məxsus yığım xəttinin açılması kimi bir layihənin həyata keçirilməsinə imkan yaratdı.

Tatarıstan Respublikasının Prezidenti vəzifəsini müvəqqəti yerinə yetirən Rüstəm Minnixanov Gəncə şəhərində bunu bəyan etdi. O, Azərbaycan rəhbərliyinə və avtomobillərin yığım xəttinin açılışı üzrə hazırlığa rəhbərlik etmiş Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Eyyubova dərin minnətdarlığını bildirdi.

Rüstəm Minnixanov söylədi ki, "KAMAZ" ASC-nin layihəsi bu istehsal xəttinin açılmasında maraqlı olanların hər biri, eləcə də digər istehsalçılar üçün yaxşı nümunə olmalıdır. O, bu gün Azərbaycan Respublikası rəhbərliyinin, ölkənin dinamik inkişafı, vətəndaşların həyat səviyyəsini daha da yüksəltmək üçün hər şeyi etdiyinə əminliyini bildirdi.

Gəncə Avtomobil Zavodu İB Müşahidə Şurasının sədri Xanlar Fətiyev öz növbəsində qeyd etdi ki, "KAMAZ" avtomobillərinin yığılması zavod üçün əlamətdar hadisədir. Sonra o, indiyə qədər toplanmış təcrübələrdən bəhs etdi. Söylədi, hazırda Gəncə Avtomobil Zavodu istənilən texnikanı buraxmağa hazırdır. Məhz bunun sayəsində 2015-ci ilin ötən dövrü ərzində burada müxtəlif təyinatlı 500 ədəd "MAZ" avtomobili, "Avro-4" standartına uyğun gələn, 21 kubmetr tutumlu, 50 ədəd "Haller" markalı kommunal maşınlar, 1400 ədəd müxtəlif modelli "Belarus" traktorları istehsal olunub.





Əldə olunan təcrübə "KAMAZ" avtomobillərinin də yığılmasına imkan yaradır. Müqaviləyə əsasən, hələlik 1500 ədəd "KAMAZ" avtomobilinin yığılması planlaşdırılıb.

Həm də üçüncü ölkə bazarına çıxmaq Gəncə Avtomobil Zavodu üçün başlıca vəzifələrdən biridir. Düzdür, Azərbaycan bazarı heç də məhdud deyil. Lakin zavodun istehsal gücü respublikadakı satış həcmi və imkanlarından artıqdır.

Zavod az sayda olsa da, minik avtomobil və traktor zavodlarının Gəncədə yığılan avtomobil və traktorlarını üçüncü ölkələrə göndərib. Belə bir inkişafa "KAMAZ"la da çatmağı planlaşdırırıq.

Avtomobillərin yığım xəttinin açılışında Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Eyyubov, "KAMAZ" ASC-nin baş direktoru Sergey Koqoqin, Tatarıstan Respublikasının Azərbaycandakı daimi nümayəndəsi Alfred Zakirov və başqaları iştirak edirdi.

Tədbirdə çıxış edənlər - nəqliyyat naziri Ziya Məmmədov, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirdilər ki, xarici iqtisadi əlaqələrin möhkəmləndirilməsi Azərbaycan iqtisadiyyatında prioritetə çevrilib. Onlar xüsusi olaraq vurğuladılar ki, hər iki ölkə prezidentləri üçün bu məsələ çox böyük əhəmiyyət kəsb edir.

Gəncə Avtomobil Zavodunda "KAMAZ" avtomobili üçün yığım konveyerinin açılışı çıxış edənlər tərəfindən sahənin inkişafına göstərilən diqqət və qayğının nəticəsi kimi qiymətləndirildi.

Biz elektroenerji sahəsində ciddi islahatlar aparmışıq. "Azərişıq" strukturu yaradılıb. "Azərişıq" "Bakıelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin bazası əsasında quruldu. Onun əsas məqsədi bölgələrin enerji təchizatını Bakı səviyyəsinə qaldırmaqdır. "Bakıelektrikşəbəkə"nin son illər Bakı şəhərində uğurlu fəaliyyətinin şahidi oluruq. Artıq "Barmek" Azərbaycanı hansı vəziyyətə saldı?! "Bakıelektrikşəbəkə" "Barmek"dən təhvil alanadək təsərrüfat nə vəziyyətdə idi?! - bir çoxları o günləri çoxdan unudub. Ancaq biz hamımız o qaranlıq gecələri yaxşı xatırlayırıq. Yəqin ki, gənc nəsil bunu xatırlamır, elə yaxşı ki, xatırlamır. Rayonlarda hələ görüləsi işlər çoxdur. İndi biz böyük enerji sistemi - elektrostansiyalar qurmuşuq. Axırıncı illərdə bizim tərəfimizdən yaradılmış enerji potensialı, bütün Sovet dövrü ərzində mövcud olandan daha çoxdur. Görün, nə qədər elektrik stansiyası tikilib?! Əgər onlar olmasaydı, onda bizim indiki iqtisadi, sənaye inkişafımız heç cürə mümkün olmazdı.

Azərbaycanda alternativ hidroelektrik stansiyalar da tikildi, əsas qaz elektrostansiyaları da qurulub. Əminəm ki, "Azərişıq" yaxın zamanlarda bizim şəhər və rayonların da enerji təchizatını Bakıdakı səviyyəyə çatdıracaqdır.









Bakı şəhərinin gözəl mənzərəsinə açılan beşulduzlu "Fairmont" oteli

# TANAP QAZ KƏMƏRİ LAYİHƏSİNƏ START VERİLDİ



***Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan:***

*"TANAP öz marşrutu və məqsədi ilə layihələr arasında xüsusi yer tutur və mühüm əhəmiyyətə malikdir. Həmçinin, bu layihə hansısa layihənin alternativi deyil. Ona bənzər, ona alternativ olan heç bir layihə yoxdur.*

*Bu kontekstdə, həqiqətən də, xüsusi, fərqli olan "Cənub qaz dəhlizi" bütün mərhələlərdə tamamilə həyata keçiriləndən sonra biz Avropa ilə Xəzər bölgəsi arasında möhkəm əlaqə quracağıq. Bünövrəsini qoyduğumuz TANAP - 1850 kilometr uzunluğunda və mənim dostlarımın qeyd etdiyi kimi, 10 milyard dəyərindəki boru kəməri bu missiyaya tamamilə layiq layihədir.*

*Arzu edirik ki, bu marşrutla, mərhələ-mərhələ gücü 16 mlrd. kubmetrdən 22 milyard, sonra isə 36 mlrd. kubmetrə çatdırılacaq təbii qazın nəql edilməsinə, inşallah, təyin edilmiş vaxtda, 2018-ci ildə başlansın. Bizim planımız belədir. Trans Anadolu qaz kəmərinin - TANAP-ın bünövrəsinin qoyulması münasibəti ilə sizi təbrik edirəm! Sizi hörmət və ehtiramla salamlayır və deyirəm: Allah sizi qorusun!"*

***Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvili:***



*"Türkiyə və Azərbaycan kimi dost və qardaş ölkələrin dəstəyi olmasaydı, bütövlükdə Gürcüstanın uğurları mümkün deyildi. Regional nöqteyi-nəzərdən biz xoş niyyətlərlə öz münasibətlərimizi, əlaqələrimizi davam etdiririk. Bunu təkcə enerji mənbələri məsələlərinə deyil, həm də digər sahələrə aid etmək olar. Bu gün biz gələcəyə doğru, xalqlarımızın, ölkələrimizin firavanlığı istiqamətində daha bir addım atırıq. Bu boru kəməri "Şahdəniz"in ikinci mərhələsi kimi çox əhəmiyyətlidir. "Şahdəniz" bizim regionun, Avropanın, bütün qitənin enerji təhlükəsizliyi baxımından çox mühümdür, vacibdir. Enerji təhlükəsizliyi də həmçinin regionun sabitliyi baxımından çox mühüm əhəmiyyətə malikdir. Bu layihələrə qoşulmaq, belə beynəlxalq layihələrdə iştirak etmək, bunların çərçivəsində əməkdaşlıq etmək Gürcüstanın iqtisadiyyatı üçün vacib əhəmiyyətə malikdir".*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:***



*"Bu gün tarixi bir gündür - TANAP layihəsinə start verilir, onun bünövrəsi qoyulur. Bu, enerji layihəsidir. Bu, enerji təhlükəsizliyi layihəsidir. Ancaq, ilk növbədə bu layihə türk-Azərbaycan birliyinin, qardaşlığın layihəsidir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra, məhz qardaş Türkiyə bizi müstəqil dövlət kimi tanıyan birinci ölkə oldu. O gündən bu günə qədər biz irəliyə doğru bir yerdə hərəkət edirik, bir-birimizə dəstək veririk, bir-birimizin uğurlarına sevinirik, həmişə bir-birimizə dayaq dururuq.*

*İndiyə qədər Türkiyə və Gürcüstanla birlikdə təşəbbüs kimi*
*irəli sürdüyümüz Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi bütün layihələr uğurlu olub. Həmçinin,*
*Bakı-Tbilisi-Qars da uğurla başa çatmaqdadır. Buna görə də "Cənub qaz dəhlizinin" və onun çox mühüm*
*hissəsi olan TANAP-ın da belə uğurlu olacağına mənim heç bir şübhəm yoxdur.*
*Mən TANAP layihəsinin təməlinin Novruz bayramı ərəfəsində axır çərşənbədə atılmasında böyük bir rəmzi*
*məna görürəm. Biz milli ənənələrimizə bağlıyıq, onlara sədaqətliyik, öz gələcəyimizi də milli dəyərlər*
*üzərində qururuq. Həmçinin, bizim qapımız bütün dünyanın üzünə açıqdır. Bu gün bura toplaşanlar, müxtəlif*
*ölkələrdən gəlmiş qonaqlar bizim əziz dostlarımızdır. Biz bu işləri bir yerdə yerinə yetiririk və birlikdə də*
*yerinə yetirəcəyik.*



# GÜCLÜ ORDU DÖVLƏT TƏHLÜKƏSİZLİYİNİN QARANTIDIR

Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu, hər bir ölkə üçün belə olmalıdır. Çünki hər bir ölkə özünü müdafiə etməlidir. Xüsusilə, müharibə şəraitində yaşayan ölkələr üçün bu, çox böyük əhəmiyyətə malik olan məsələdir. Azərbaycan müharibə şəraitində yaşayır. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatmışdır. Bizim ordumuz hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü istənilən yolla bərpa etsin. Uzun illərdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həllini tapmır. Uzun illərdir ki, bu ədalətsizlik davam edir. Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış torpaqları işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Xalqımıza qarşı Xocalı soyqırımı törədilmişdir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini müdafiə edir. Bütün mötəbər beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı qərar və qətnamələrini qəbul etmişlər. Ancaq Ermənistan beynəlxalq hüquq normalarına məhəl qoymur və işğal davam edir. Əfsuslar olsun ki, danışıqlar nəticə vermir. Belə olan halda, əlbəttə ki, ordu quruculuğuna böyük ehtiyac vardır.

Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşamış, yaratmışdır. Bu gün də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, dünya birliyi ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Bugünkü Ermənistan da tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. İrəvan xanlığı, Göyçə, Zəngəzur mahalları bizim tarixi diyarlarımızdır. Azərbaycan dövləti və xalqı Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəkdir. Biz çalışacağıq ki, məsələ tezliklə









həllini tapsın. Məsələnin həlli, əlbəttə ki, siyasi yollardan keçir.
Danışıqlar prosesi hələ də davam edir. Ancaq güclü ordumuz, güclü potensialımız mövqeyimizi möhkəmləndirir. Bizim mövqeyimiz tarixi ədalət üzərində qurulubdur. Çünki bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Azərbaycan torpağı kimi qalacaqdır. Bizim mövqeyimiz beynəlxalq hüquq normaları tərəfindən dəstəklənir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi vardır ki, erməni işğalçı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir.
Bizim mövqeyimiz güclü ordu ilə tamamlanır. Bu məqsədlə son illər ərzində ordu quruculuğuna çox böyük diqqət göstərilmişdir. Ordumuz inkişaf edir. Bu inkişaf daimi prosesdir. Mən hərbi hissələrə tez-tez gedirəm, vəziyyətlə tanış oluram və görürəm ki, ordumuzun döyüş qabiliyyəti artır. Nizami ordumuz vardır. Ordumuzun peşəkarlığı artır. Bütün cəmiyyətdə olduğu kimi, orduda da vətənpərvərlik ruhu yüksək səviyyədədir. Orduda xidmət edənlərin mütləq əksəriyyəti gənclərdir. Mən çox şadam ki, Azərbaycan gəncləri vətənpərvərlik ruhunda tərbiyə alırlar. Orduda xidmət edənlər Vətəninə, xalqına bağlı olan, Vətənini sevən insanlardır. Bu amillər ordumuzu daha da gücləndirir. Eyni zamanda, son illər ərzində ordumuzun texniki təchizatında da çox böyük inkişaf vardır. Son illər ərzində ən müasir texnika, silah-sursat alınmışdır. Son illər ərzində alınan və Azərbaycanda istehsal olunan texnikanın bir hissəsi bugünkü paradda nümayiş etdiriləcəkdir. Burada mövcud texnikanın sadəcə olaraq cüzi bir hissəsi göstəriləcəkdir.
Azərbaycan son illər ərzində hərbi məqsədlər üçün çox böyük vəsait xərcləmişdir. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim hərbi büdcəmiz 163 milyon dollar idi, keçən il bu rəqəm 3,6 milyarda, bu il isə 3,7 milyard dollara çatmışdır. Yəni, bu, özlüyündə onu göstərir ki, ordu quruculuğu prioritet məsələdir. Büdcəmizin ən böyük xərcləri orduya sərf olunur.







Bu da təbiidir. Biz son illər ərzində ən müasir texnikaları almışıq. XXI əsrdə müharibələr daha çox texnologiyalar, biliklər üzərində qurulacaqdır. Bu, zəmanənin tələbidir. Azərbaycanın son illər ərzində əldə etdiyi silahlar müasir silahlardır.
Yüksək dəqiqliyə və çox böyük məhvetmə gücünə malik olan silahlardır. Son illərdə yüzə yaxın döyüş və nəqliyyat helikopteri alınmışdır. Onlarla döyüş təyyarəsi, hava hücumuna qarşı ən müasir qurğular alınmışdır. Bu zirehli maşınlar, ən müasir tanklar, ən müasir artilleriya qurğuları düşmənin istənilən nöqtəsini məhv etməyə qadirdir. Bu proses davam etdirilir. Növbəti illərdə də hərbi xərclər ümumi büdcəmizdə üstünlük təşkil edəcəkdir. Müqayisə üçün deyə bilərəm ki, yoxsul Ermənistanın bütün büdcəsi iki milyard dollara yaxındır. Yəni, ancaq hərbi məqsədlər üçün istifadə olunan vəsaitimiz Ermənistanın bütövlükdə bütün xərclərindən təxminən iki dəfə çoxdur.
Güclü Azərbaycan gücsüz Ermənistan ilə istənilən dildə danışa bilər. Biz sadəcə olaraq bölgədə, regionda sabitliyi qorumaq üçün hələ ki, danışıqlar yoluna üstünlük veririk. Çünki Azərbaycan bölgədə sabitləşdirici ölkədir. Azərbaycan bölgədə çox böyük nüfuza malik olan bir ölkədir. Azərbaycanın razılığı olmadan bölgədə heç bir təşəbbüs, heç bir layihə icra edilə bilməz. Ona görə sabitliyi qorumaq, məsələni sülh yolu ilə həll etmək üçün biz hələ ki, siyasi yollara üstünlük veririk.
Ancaq sirr deyil ki, Azərbaycan gündən-günə güclənir, Ermənistan gündən-günə zəifləyir. Bizim iqtisadi gücümüz müqayisəedilməz dərəcədə artmışdır. Düşməni istənilən istiqamət üzrə bir neçə dəfə, bəzi istiqamətlər üzrə 10 dəfədən çox üstələyirik və bu fərq getdikcə böyüyəcəkdir. Çünki bizim açıq-aydın gələcəyimiz, perspektivlərimiz, inkişaf yolumuz vardır. Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Son 10 il ərzində dünyada iqtisadi inkişaf baxımından Azərbaycan kimi inkişaf edən ikinci ölkə yoxdur. Bu amillər, - bir daha demək istəyirəm, tarixi amillər, beynəlxalq hüquq normaları, siyasi amillər və iqtisadi-hərbi gücümüz, - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində, ədalətli həll edilməsində öz sözünü deyəcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Dağlıq Qarabağda, digər işğal edilmiş torpaqlarda, Xankəndidə, Şuşada Azərbaycan bayrağı dalğalanacaqdır.
Eyni zamanda, biz yerli istehsala da böyük diqqət göstəririk. Son 8 il ərzində Azərbaycanda yerli hərbi istehsal inkişaf etmişdir, çoxlu hərbi zavodlarımız vardır. Bu zavodlarda 750 adda məhsul istehsal edilir. Biz bütün növ patronları istehsal edirik. Tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar, minaatanlar, aviasiya bombaları, zirehli maşınlar, snayper tüfəngləri, pilotsuz təyyarələr – bütün bunlar Azərbaycanda istehsal olunur. Gələcəkdə yerli istehsalın gücləndirilməsi ilə bağlı bizim böyük planlarımız vardır. Biz artıq çox güclü hərbi sənayeyə malikik. Azərbaycan məhsulları dünya sərgilərində nümayiş etdirilir və eyni zamanda, bizim ixrac imkanlarımız da artmaqdadır. Bu, onu göstərir ki, istənilən vəzifə öz həllini tapa bilər. Təki iradə, düşünülmüş siyasət olsun. Biz həm xaricdən ən müasir hərbi texnika alırıq, eyni zamanda, daxili istehsalı da gücləndiririk və gücləndirməliyik.
Hərbiçilərin sosial müdafiəsi məsələləri də uğurla həllini tapır. Mən dünən hərbi hospitalın yeni korpusunun açılışında iştirak etmişəm, iki gün bundan əvvəl hərbiçilərin maaşları qaldırılmışdır. Artıq orduda 20 il qüsursuz xidmət etmiş hərbiçilərin məişət problemləri də həllini tapmaqdadır. Bu kateqoriyadan olan hərbiçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Artıq 200-ə yaxın mənzil verilmişdir və bu proses gələcək illərdə daha da geniş vüsət alacaqdır. Yəni, hərbiçilərin sosial-məişət problemləri həllini tapmaqdadır. Bir daha demək istəyirəm ki, Azərbaycan dövləti ordu quruculuğuna çox böyük əhəmiyyət verir. Bu, bizim başlıca vəzifəmizdir və gələcək illərdə bu proses daha da sürətlə gedəcəkdir. Bizim gücümüz bizim

birliyimizdədir. Azərbaycan müstəqil dövlət kimi böyük zirvələrə çata bilmişdir, dünya miqyasında çox böyük nüfuza malikdir. Biz dünyanın ən mötəbər təşkilatına - BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq və bu təşkilatda öz mövqeyimizi müdafiə edirik. Azərbaycan nəinki regionda, dünya miqyasında çox etibarlı tərəfdaşa çevrilmişdir. Bizim xarici siyasətimizlə bağlı olan bütün təşəbbüslərimiz sülhə, əmin-amanlığa, beynəlxalq əməkdaşlığa istiqamətləndirilibdir.

Eyni zamanda, Azərbaycanda daxili sabitlik mövcuddur. Bu da inkişaf üçün başlıca amildir. Azərbaycanda xalq ilə iqtidar arasında birlik vardır. Bizim bütün təşəbbüslərimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Azərbaycanda iqtisadi inkişafla bağlı çox böyük işlər aparılmışdır. Beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir. Hətta böhranlı illərdə - hələ ki, bu böhran dünyada davam edir, - Azərbaycan inkişaf edir, iqtisadiyyat inkişaf edir.

İqtisadiyyatımızın bütün sahələri inkişaf edir. Bu ilin beş ayında qeyri-neft sektorumuz 11 faiz, ümumi iqtisadiyyat təxminən 5 faiz artmışdır. Azərbaycanda işsizlik, yoxsulluq problemləri aradan qaldırılır, böyük infrastruktur layihələri icra edilir. O cümlədən, bütün hərbi şəhərciklər bərpa edilir və qarşıya vəzifə qoyulmuşdur ki, növbəti iki il ərzində bir dənə də təmirsiz hərbi hissə, hərbi şəhərcik və hərbi baza olmasın. Müvafiq göstərişlər verilmişdir, vəsait ayrılmışdır və bu proses uğurla gedir. Yəni, biz bütün istiqamətlər üzrə öz fəaliyyətimizi uğurla, inamla aparırıq. İnsanların rifah halı yaxşılaşır, ölkənin nüfuzu artır, iqtisadiyyat, sənaye inkişaf edir və Azərbaycan çox dinamik şəkildə qabağa gedir.

Azərbaycan sübut edib ki, azad, müstəqil ölkə kimi yaşaya, müstəqilliyini, öz seçimini qoruya bilər. Bizim güclü siyasi iradəmiz, güclü iqtisadiyyatımız, güclü ordumuz vardır. Ordu dövlətçiliyi, bizim seçimimizi, müstəqil siyasətimizi qoruyur. Xalq isə ordunu qoruyur və qorumalıdır.

Mən həmişə deyirəm ki, güclü dövlətin güclü ordusu olmalıdır. Hesab edirəm ki, Azərbaycan qısa müddət ərzində güclü dövlətlərin sırasına daxil edilibdir. Biz indi böyük layihələri icra edirik, həm ölkəyə, həm başqa ölkələrə böyük investisiyalar qoyuruq. Bir daha demək istəyirəm ki, biz beynəlxalq müstəvidə çox böyük nüfuza malikik. Əlbəttə ki, Azərbaycan Ordusu bu gün nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır - həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təchizata görə. Əminəm ki, Azərbaycan gücləndikcə ordumuz da güclənəcəkdir. Ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir. Mən Ali Baş Komandan kimi bundan sonra da ordu quruculuğuna, ordunun inkişafına öz dəstəyimi verəcəyəm.

Mən əminəm ki, Azərbaycan qarşıda duran bütün vəzifələri uğurla icra edəcəkdir. Bu gün demək olar ki, Dağlıq Qarabağ problemindən başqa heç bir məsələ həll olunmamış qalmır. Bütün istiqamətlər üzrə inkişaf, konkret siyasət, proqram və gözəl nəticələr vardır. Əminəm ki, biz münaqişənin həllində də istədiyimizə nail olacağıq, tarixi ədaləti bərpa edəcəyik, doğma torpaqlarımıza qayıdacağıq! Bunun başqa yolu yoxdur! Tarixin inkişafı, tarixin gedişatı, dünyada gedən proseslər, güclənən Azərbaycan, zəifləyən, yoxsullaşan Ermənistan – bütün bunlar reallıqdır və bu reallıqları biz yaratmışıq, öz siyasətimizlə, öz iradəmizlə. Biz Ermənistanı bundan sonra da bütün beynəlxalq və regional layihələrdən təcrid edəcəyik. Azərbaycanı bundan sonra da gücləndirəcəyik. Güclü dövlətimiz bu münaqişənin həllində öz sözünü deyəcək və Azərbaycan Ordusu Ali Baş Komandanın əmrini icra edəcəkdir.

Eşq olsun Azərbaycan Ordusuna!

Yaşasın Azərbaycan!

**Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 95-ci ildönümü münasibətilə keçirilən təntənəli hərbi paradda prezident İlham Əliyevin nitqindən**





Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin diqqəti və qayğısı nəticəsində regionun ən güclü ordusuna çevrilib. Ordumuzun silah arsenalında yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir və dəqiq məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası var. Şəxsi heyətin döyüş ruhu və qələbə əzmi gündən-günə artır.

Düşmənin mövqelərimiz istiqamətində dəfələrlə təxribat xarakterli əməliyyatlar keçirmək cəhdi ayıq-sayıq əsgərlərimiz tərəfindən elə ilk andaca alınıb. Bu, həmişə belə olub və gələcəkdə də bu cür olacaqdır. Ermənilər itkilərini ciddi cəhdlə gizlətməyə çalışırlar. Amma biz işğal olunmuş ərazilərdəki vəziyyətdən tam məlumatlıyıq. Müxtəlif mənbələrdən, o cümlədən elə düşmənin daxilindən əldə etdiyimiz məlumatlara görə, Ermənistanda və işğal olunmuş ərazilərdə vəziyyət həddən artıq acınacaqlıdır. Düşmən ordusunda əsgər çatışmazlığı elə bir həddə çatıb ki, erməni tərəfi postlarda keşik çəkməyə mülki şəxsləri yerləşdirir. Bundan əlavə, hərbi əməliyyatlara müxtəlif ölkələrdən, eyni zamanda, Yaxın Şərq regionundan - Livandan, Suriyadan olan muzdluları cəlb edir. Azərbaycan əsgəri erməni xalqına qarşı deyil, Ermənistanın cinayətkar, kriminal hərbi siyasi-rejiminə, onun əlləri günahsız dinc əhalinin qanına bulaşmış rəhbərliyinə qarşı müharibə aparır.



*General-polkovnik Zakir Həsənov, Azərbaycan Respublikasının müdafiə naziri*




Silahlı Qüvvələr Ali Baş Komandanın hər bir əmrinə daim hazırdır və Azərbaycan əsgəri xalqın və dövlət rəhbərliyinin etimadını doğruldacaq.

Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin yeganə çıxış yolu erməni silahlı birləşmələrinin birdəfəlik və qeyd-şərtsiz ərazilərimizi tərk etməsidir. Torpaqlarımızın işğaldan azad olunmasının digər alternativi isə güc tətbiq edilməsidir. Düşmən bunu anlamalı, dərk etməli və səbrimizi sınağa çəkməməlidir.

Silahlı Qüvvələrin şəxsi heyətinin üzərinə düşən yeganə vəzifə isə düşməni darmadağın etməyə hər an hazır olmaqdır. Biz buna hazırıq və bütün qoşun növlərində döyüş hazırlığının gücləndirilməsi, şəxsi heyətin peşəkar səviyyəsinin artırılması və döyüş əzminin yüksəldilməsi məqsədilə daim keçirilən döyüş atışlı təlimlər, məşqlər qələbə gününün uzaqda olmadığına sübutdur.

# Hərbiçilərimiz istənilən döyüş tapşırığını tam və professionallıqla yerinə yetirməyə qadirdir



*General-polkovnik Ramil Usubov,*
*Azərbaycan Respublikasının Daxili İşlər Naziri*

Zati-aliləri İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ictimai-siyasi həyatın bütün sahələrində böyük uğurlar əldə edilmiş, xalqımız və dövlətimiz üçün taleyüklü sayılan layihələr reallaşdırılmışdır. Respublikamızın iqtisadi və hərbi potensialı, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmiş, sosial tərəqqiyə xidmət edən mükəmməl proqramlar müvəffəqiyyətlə icra olunmuşdur. Yüzlərlə yeni müasir məktəb, tibb müəssisələri, idman kompleksləri, mədəniyyət ocaqları tikilmiş və bu işlər davam etməkdədir. Daxili qoşunlar yarandığı gündən şərəfli bir yol, beynəlxalq təcrübəyə əsaslanan böyük inkişaf mərhələsi keçən, ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş Daxili İşlər Nazirliyinin Daxili Qoşunları da nümunəvi nizam-intizamı olan hərbi quruma çevrilmişdir. Hərbi qulluqçuların Qarabağ cəbhəsində olduğu kimi, ölkədə cinayətkarlığa qarşı mübarizədə, sabitliyin və ictimai asayişin təmin edilməsində, o cümlədən kütləvi iğtişaşların qarşısının alınmasında, respublikanın ayrı-ayrı bölgələrində silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, habelə təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında mühüm rolu danılmazdır. Qoşunlarda mövcud olan stabil mənəvi-psixoloji mühit daim qorunub saxlanılır və günbəgün möhkəmləndirilir, onun maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətinin xidmət şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi sahəsində kompleks tədbirlər görülür. Son dövrlər müasir tibbi avadanlıqları olan hərbi hospital, regionlarda hərbi qulluqçuların ailələri üçün yaşayış binaları tikilib istifadəyə verilmiş, bütün hərbi hissələr və şəhərciklər beynəlxalq standartlar səviyyəsində qurulmuşdur. Bu gün hərbiçilərimiz istənilən döyüş tapşırığını tam və professionallıqla yerinə yetirməyə qadirdir.











# ELÇİN QULİYEV: ƏRAZİ BÜTÖVLÜYÜMÜZ BƏRPA OLUNACAQ

18 avqust 1919-cu il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ölkənin sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edib.

Qanuna əsasən, Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin tərkibində Azərbaycanın ilk Sərhəd Qoşunları dəstəsi yaradılıb.

Sovet dövründə Sərhəd Qoşunları Dövlət Təhlükəsizlik Komitəsinin strukturu kimi mövcud olub. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra da sərhəd xidməti bir müddət Milli Təhlükəsizlik Nazirliyinin tərkibində fəaliyyət göstərib.

Dövlət başçısının 2002-ci il 31 iyul tarixli fərmanı ilə isə Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsinin əsasında Dövlət Sərhəd Xidməti yaradılıb. Həmin fərmanla Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı təyin edilib.

Ölkə prezidentinin 2000-ci il 16 avqust sərəncamı ilə avqustun 18-nin Azərbaycanda Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunması qərara alınıb.

Bu gün Azərbaycan sərhədçiləri sərhədlərimizin toxunulmazlığını təmin edərək, beynəlxalq terrorizmə, qeyri-leqal miqrasiyaya, qaçaqmalçılığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizə aparır.

Bu gün Azərbaycanın quru və su sərhədləri bütövlükdə ciddi nəzarət altındadır və sayıqlıqla qorunur.

Bu barədə Azərbaycan Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, Sərhəd Qoşunları komandanı general-polkovnik Elçin Quliyev "Azərbaycan" qəzetinə müsahibəsində bildirib.







DSX rəisinin sözlərinə görə, Dövlət Sərhəd Xidmətində quruculuq, inkişaf, təkmilləşdirmə prosesləri uğurla davam edirsə, deməli, sərhədlərimizin mühafizəsinin səviyyəsi də yüksələn xətlə davam edir: "Relyefindən, iqlimindən, şəraitindən asılı olmayaraq, Azərbaycanın quru və su sərhədləri bütövlükdə ciddi nəzarət altındadır və sayıqlıqla qorunur. Sərhəd xətti boyunca çoxsaylı yeni sərhəd məntəqələrinin, sərhəd dəstələrinin, qarnizon komplekslərinin istifadəyə verilməsi, ən müasir texniki vasitələrin istismarı sərhədlərimizin mühafizəsi işinin səviyyə və etibarlılığını artırmışdır".

E.Quliyev qeyd etmişdir ki, bu gün hər bir Azərbaycan sərhədçisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməkdən qürurludur və dövlət sərhədlərinin toxunulmazlığı naminə şərəflə xidmət edir: "Azərbaycan Sərhəd Mühafizəsi öz gələcəyinə nikbinliklə baxır. Bu nikbinlik Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeritdiyi müdrik siyasətə və onun rəhbərliyi altında əldə edilən taleyüklü qələbələrə əsaslanır".

Elçin Quliyev demişdir: "Milli Ordumuzun döyüş ruhu, yenilməzliyi bütün qoşun növlərində özünü göstərir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ən müasir silah və hərbi texnika ilə təchiz edilən Azərbaycan Silahlı Qüvvələri aprel ayında ermənilərin təxribatına cavab olaraq düşmənin alınmaz hesab etdiyi mövqeləri, dislokasiya yerlərini, komanda-dayaq məntəqələrini, qərargahları qısa müddət ərzində darmadağın edib: "Azərbaycan əsgərinin şücaəti və döyüş əzmi Ermənistan hərbi-siyasi rejimini sarsıtdı və düşmən məğlubiyyətin qaçılmazlığını qəbul etmək məcburiyyətində qaldı. Əminik ki, ən qısa müddətdə xalqımız böyük zəfər gününü bayram edəcək, ərazi bütövlüyümüz bərpa olunacaq və bütün sərhəd xətti boyu şanlı dövlət bayrağımız dalğalanacaqdır".



# Çanaqqala döyüşlərindəki qələbənin 100 illiyinə həsr olunmuş təntənəli mərasim











Təntənəli mərasimdə 21 dövlətin başçısı, 70-dən çox ölkənin rəsmi şəxsləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdi.

Çanaqqala döyüşü Birinci Dünya müharibəsi dövründə Osmanlı dövləti ilə Antanta dövlətləri arasında baş verib. Antanta dövlətləri üzüləri Osmanlının paytaxtı İstanbulu tutmaq, Bosfor-Dardanel boğazına sahib çıxmaq niyyətində idilər. Ancaq düşmən türk xalqının dəmir iradəsini qıra bilmədi. Səkkiz ay davam edən döyüşlərdə ağır itkilərə məruz qalan, məğlubiyyətə uğrayan Antanta dövlətləri geri çəkilməyə məcbur oldular. Məhv edilmək təhlükəsi ilə üz-üzə qalan ölkənin möhtəşəm zəfəri ilə başa çatan bu döyüş Çanaqqala Qələbəsi kimi tarixə düşdü. Bu qanlı mübarizədə 250 min nəfərdən artıq türk əskəri şəhid oldu. Elə bir o qədər də hərbiçi itirən Antanta dövlətləri Çanaqqala döyüşünü hərbi fəlakət kimi qiymətləndirir. Çanaqqala yaxınlığındakı tarixi qələbənin qazanılmasında Azərbaycan türklərinin də payı var. Döyüşlərdə üç min nəfərdən artıq soydaşımız öz həyatını qurban verib.

# Dinlərarası dialoq - mədəniyyətlərin yaxınlaşmasında bir özül kimi

2014-cü il sentyabr ayının 26-da Moskvada, Patriarxlığın və Sinodun Danilov monastrındakı iqamətgahında bütün Rusiyanın və Moskvanın Patriarxı Kirill Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə ilə görüşdü. Patriarx Kirill bütün Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədrini mehribanlıqla qarşıladı və onunla görüşmək imkanından şad olduğunu bildirdi.

Bütün Rusiyanın və Moskvanın Partiarxı Kirill söylədi ki, "Rus Pravoslav Kilsəsinin tərəfdaşları arasında Siz və Sizin rəhbərlik etdiyiniz təşkilat xüsusi yer tutur". Sonra o qeyd etdi ki, axırıncı on ildə Qafqaz Müsəlmanları Ruhani İdarəsi ilə Moskva Patriarxlığı arasında müşahidə olunan fəal dialoq insanlara mənəvi dəstək tapmaqda, onların qəlbindəki Allah eşqini, inamı yaşatmaqda, xalqlarımız üçün daha xeyirli, daha artıq iş görməkdə, qarşılıqlı həmrəylik nümayiş etdirməkdə böyük rol oynayır və bu cəhətdən biz Sizinlə həmişə ümumi dil tapırıq.

Şeyxülislam cavab nitqində böyük rus xalqına qardaş olmuş və olaraq da qalan Azərbaycan xalqı haqda dediyi xoş sözlərə və onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə Patriarx Kirillə öz təşəkkürünü bildirdi.

Dinlərarası əməkdaşlığın inkişafına yetirdiyi diqqətə görə və anadan olmasının 65 illiyi münasibəti ilə Rus Pravoslav kilsəsinin rəhbəri Kirill Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadəni "I dərəcəli Müqəddəs Knyaz Danil Moskovski" ordeni ilə mükafatlandırdı.







# BİR DƏQİQƏLİK SÜKUT!

Hər hansı bir faciəvi hadisə zamanı həlak olan insanların xatirəsi rəmzi olaraq, belə anılır. Mərasim iştirakçıları ayağa qalxır və səssiz-sözsüz onların xatirəsi yad edilir. Nitq söylənilmir və heç kəs kəlmə kəsib danışmır. Bir dəqiqəlik sükut, adətən, bir dəqiqədən də az çəkir. Avstraliyalı jurnalist Eduard Corc Xani 1919-cu ilin mayında barışıq günü, Birinci Dünya müharibəsində həlak olanların xatirəsini belə bir sükutla yad etməyi vacib saydı. O, "The Times" qəzetinə yazdığı məktubda 5 dəqiqəlik anım sükutunun mənasını izah elədi. Ancaq 5 dəqiqə sürən sükut uzun hesab edildi. Eyni zamanda, elə güman edildi ki, onun üçün bir dəqiqə də həddən artıq qısadır. O səbəbdən iki dəqiqəlik anma sükutu münasib sayıldı.



# HEYDƏR ƏLİYEV FONDUNUN VİTSE-PREZİDENTİ LEYLA ƏLİYEVA: XOCALI HƏQİQƏTLƏRİNDƏN BÜTÜN SİVİL BƏŞƏRİYYƏT XƏBƏRDAR OLMALIDIR!

Erməni silahlı birləşmələri hələ XX əsrin əvvəllərində Azərbaycan əleyhinə terror müharibəsi aparmağa başlamışdı. Həmin vaxtdan neçə onilliklər ötüb keçdi. SSRİ dağılandan sonra müstəqillik qazanan Ermənistan özünün təcavüzkar siyasətinin ən başlıca vasitəsi kimi terrorizmə dövlət səviyyəsində dəstək verdi.

Erməni terrorçu-quldur birləşmələri Azərbaycanın qədim, dədə-baba torpaqları olan Dağlıq Qarabağı və onunla həmsərhəd 7 rayonu dinc əhaliyə amansız qəddarlıqla işgəncə verə-verə işğal etdilər.

Həmin hadisələrin hər biri öz vandalizmi, qeyri-insaniliyi ilə seçilirdi. Xocalı soyqırımı isə Qarabağ müharibəsinin ən qanlı faciəsi oldu.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının dəstəyi ilə silahsız, əliyalın, müdafiəsiz qalmış Xocalı şəhərinin üzərinə yeridi. Bir gecənin içində Xocalı yer üzündən silindi. 613 nəfər, (106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla) vəhşicəsinə öldürüldü. 487 nəfər əlil və şikəst oldu. Əksərini qoca və qadınların, uşaqların təşkil etdiyi 1275 nəfər mülki şəxs əsir götürülərək, ən ağlasığmaz işgəncələrə, təhqirlərə düçar olundular. 8 ailə tamamilə məhv edildi. 24 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirdi. 150 nəfərin, o cümlədən də 68 qadının və 26 uşağın taleyi barədə indinin özünədək heç bir məlumat yoxdur. 56 nəfər ağlasığmaz işgəncələrlə qətlə yetirildi.

Ümummilli lider Heydər Əliyev 1994-cü il mart ayının 1-də Xocalı faciəsi haqda xüsusi fərman imzaladı. Ulu öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli fərmanı ilə mart ayının 31-i "Azərbaycanlıların soyqırımı günü" elan edildi.

Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və bu qəddar aksiyanın obyektiv qiymət alması istiqamətində ilk addımlar Heydər Əliyev Fondu tərəfindən atıldı. Fondun səyləri nəticəsində dünyaya erməni faşizminin bu ağlasığmaz vəhşilikləri barədə yetərincə məlumat çatdırıldı.





2008-ci ilin aprel ayında İslam Konfransı Təşkilatı Gənclər İdarəetmə Şurasının Küveytdə keçirilən VI sessiyasında Heydər Əliyev Fondu Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva həmin Forumun sivilizasiya və mədəniyyətlər arası dialoqu üzrə baş koordinatoru seçildi.

Bu da İKT Gənclər Forumunun diqqətini Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi məsələsinə yönəltməkdə mühüm rol oynadı.

Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il may ayının 8-də "Xocalıya ədalət" təbliğat kampaniyasına start verildi. Kampaniya Xocalı soyqırımı həqiqətlərinin yayılmasına, bu faciənin Azərbaycan xalqına qarşı aparılmış soyqırımı kimi tanınmasında mühüm addım sayılmalıdır.

Xocalı faciəsinə həsr olunmuş tədbirlər Avropanın, Asiyanın, Afrikanın, Şimali və Cənubi Amerikanın 70-dən artıq ölkəsində keçirilir. Bu tədbirlər çərçivəsində etiraz aksiyaları, müxtəlif ölkələrin dövlət struktur və parlamentləri qarşısında piketlər, həmçinin seminarlar, konfranslar, dünyanın ən qabaqcıl universitetləri arasında gənclərin iştirakı ilə fleş-moblar təşkil edildi. Bu faciəyə həsr olunmuş xüsusi kitablar nəşr edildi, məxsusi filmlər çəkildi.

"Xocalıya ədalət" təbliğat kompaniyasının sayəsində bu faciə dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən soyqırımı kimi tanındı.

XX əsrdə bəşəriyyət əleyhinə törədilmiş ən dəhşətli cinayətlərdən birinin rəmzinə çevrilmiş amansız faciədən artıq 25 il ötür. Xocalı haqqındakı həqiqətə, o gecənin hadisələrinə ədalətli qiymətin verilməsi bu gün bütün bəşəriyyətə, mədəni ictimaiyyətə olduqca vacibdir: - Bir daha heç vaxt, heç yerdə təkrar olunmaması üçün!

# FƏLAKƏTLƏRİN QARŞISINI ALMAQ NAMİNƏ ƏMƏKDAŞLIQ

Rusiya Fövqəladə Hallar Nazirliyi Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə müxtəlif yöndə əməkdaşlığı uğurla davam etdirir, həmçinin azərbaycanlı həmkarları ilə fövqəladə vəziyyətlərin ləğvi və xəbərdarlıq sistemlərini təkmilləşdirmək sahəsində daim təcrübə mübadiləsi aparır. Eləcə də, baş verən hər hansı fəlakətlə mübarizədə idarələr bir-birinə yardım göstərir.

2013-cü ilin avqust ayında Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin başçılıq etdiyi rəsmi nümayəndə heyətinin tərkibində Rusiya FHN-in rəhbəri Vladimir Puçkov da Azərbaycana gəlmişdi. İşgüzar səfərin gedişində V.Puçkov Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərovla görüşdü.

Hər iki ölkə prezidentinin iştirakı ilə Rusiya və Azərbaycan Fövqəladə Hallar nazirlikləri arasında 2015-ci ilə qədər əməkdaşlığın kompleks planı hazırlandı. Vladimir Puçkov 2010-cu ildə Rusiyada baş vermiş meşə torfu yanğınlarının söndürülməsinə vaxtında göstərilən köməyə, həmçinin 2012-ci ildə Krasnodar diyarındakı daşqınlar zamanı Bakıdan gətirilən yardıma (ərzaq məhsulları və içməli su) görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinə öz təşəkkürünü bildirdi. Bu yardım zərərçəkmiş insanların hərtərəfli təminatında çox vacib, əhəmiyyətli rol oynadı.

Fövqəladə hallar barədə xəbərdarlıq, belə halları aradan qaldırmaq üzrə müxtəlif kadrların hazırlanmasında Azərbaycan Respublikasına kömək Proqramı 2012-ci ilin dekabrında başa çatdı. Bu proqram Rusiya-Azərbaycan hökumətlərarası razılaşmaya əsasən, 2010-cu ildə həyata keçirilməyə başladı. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təchizatı məqsədi ilə Bakıya təlim-məşq ləvazimatları, laborator avadanlıqlar və texnika, tədris-metodiki ədəbiyyat gətirildi.

Proqramın həyata keçirilməsi inteqrasiya prosesinin davamı və təbii fəlakətlərin, qəzaların qarşısının alınması, bunlar haqda xəbərdarlıq, həmçinin nəticələrin aradan qaldırılması üzrə rus Azərbaycan sistemlərinin birgə fəaliyyətinin nə qədər vacib olduğunu göstərdi.

Proqramın gerçəkləşdirilməsi çərçivəsində Azərbaycan Fövqəladə Hallar Nazirliyi Akademiyasının qurulmasına metodiki kömək göstərildi. Tədris fənləri proqramlaşdırıldı. Auditoriyaların xüsusi avadanlıqlar ilə təchizatı üzrə plan tərtib olundu. Bakıda qısamüddətli səyyar tədris kursları təşkil edildi. Həmin kurslarda Rusiya FHN-in təlimçi və müəllimləri xüsusi fənlər üzrə açıq dərslər keçdilər. Azərbaycan mütəxəssisləri də Rusiya FHN-in təhsil müəssisələrində nazirliyin təlim baza və poliqonlarından istifadə etməklə, analoji kurslar keçirdilər. Bütün bunlardan sonra Azərbaycan FHN-in Akademiyası və Rusiya FHN-in təhsil mütəxəssisləri arasında birgə elmi fəaliyyət barədə razılaşma imzalandı və həmin razılaşma üzrə ali məktəblərdə müvafiq işlər görüldü.

Rusiya FHN Mülki Müdafiə Akademiyasının bazasında "Fövqəladə halların aradan qaldırılması və xəbərdarlığı üzrə kadr hazırlığının aktual məsələləri" mövzusunda Rusiya-Azərbaycan birgə elmi konfransı keçirildi. İki ölkənin ali məktəbləri arasında sistemli şəkildə kursant mübadiləsi aparıldı. Azərbaycanda və Rusiyada birgə çöl toplanışları da bu qəbildəndir.

Azərbaycan ərazisində birgə təlimlərin də keçirilməsi nəzərdə tutulur. Təlim-Xəzər dənizindəki fövqəladə hallar zamanı aparılacaq fəaliyyətin mükəmməl işlənilməsi, məşq xarakteri daşıyır.

Görüşün gedişində Azərbaycan FHN-in rəhbəri, general-polkovnik Kəmaləddin Heydərov xilasedicilərin hazırlığı və texniki təchizatında eləcə də xilasetmə potensialının təkmilləşməsində Azərbaycana köməyin, bu təcrübənin davam etdirilməsi barədə təşəbbüs irəli sürdü.

Rusiya FHN-in rəhbəri Vladimir Puçkov öz növbəsində həmkarının təşəbbüsünü dəstəkləyərək belə söylədi:

"Yeni proqramın işlənib-hazırlanması üçün Rusiya tərəfindən işçi qrupu yaradılacaq. Biz fövqəladə halları aradan qaldırmaqda, qarşılıqlı fəaliyyətin səviyyəsini yüksəltməkdə və yeni texnologiyadan faydalanmaqda Azərbaycana kömək etməyə həmişə hazırıq!".



*Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə Rusiya Federasiyası Fövqəladə Hallar Nazirliyi arasında əməkdaşlıq haqda müqavilənin imzalanma mərasimi*



# ONLARIN RƏYİ CƏMİYYƏTDƏ HƏMİŞƏ EHTİRAMLA QARŞILANIR

***1990-cı ildə yaradılmış Azərbaycan Ağsaqqallar Şurası öz fəaliyyəti müddətində şərəfli yol keçmişdir. Şura bu gün ölkəmizdə vətəndaş cəmiyyəti təsisatları arasında xüsusi yer tutur. Ağsaqqallar həmişə hörmət və nüfuz sahibi olmuşlar. Xalqın ən yaxşı adət və ənənələrini qoruyub saxlayan, nəsildən-nəslə ötürən ağsaqqallardır. Və bu təsadüfi deyil, belə ki, qədim dövrlərdən Azərbaycanda ağsaqqalları həmişə ehtiramla qarşılamışlar. Əbəs yerə atalar sözündə deyilməyib ki - "Allahsız yerdə otur, ağsaqqalsız yerdə oturma!"***

Respublika Ağsaqqallar Şurasına Milli Məclisin deputatı Fəttah Heydərov rəhbərlik edir. Onun rəhbərliyi altında ağsaqqallar gənc nəslin vətənpərvərlil ruhunda tərbiyəsində, cəmiyyətin milli-mənəvi dəyərlərinin formalaşmasında iştirak edir, cəbhəyanı rayonlara səfərlər təşkil edirlər. Şura həmçinin, müntəzəm olaraq respublikanın müxtəlif guşələrində şəhidlərə həsr olunmuş tədbirlər keçirir, aztəminatlı və fiziki qüsurlu insanlara köməklik göstərir. Ağsaqqallar Şurası ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, bu və ya digər hadisələrə milli maraqlar mövqeyindən münasibətini bildirir. Məsələn, Fəttah Heydərov 1992-ci il fevralın 26-da ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında rəy bildirərkən qeyd etmişdir ki, həmin dövrdə Azərbaycan ağsaqqalsız qalmış, cəmiyyətdə fikir ayrılığı yaranmış və düşmən bundan məharətlə istifadə etmişdi: "bir müddət keçdikdən sonra xalqın təkidi ilə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldi və qan tökülməsinin qarşısını aldı. Qısa müddət ərzində Azərbaycan güclü dövlətə çevrilməyə başladı. Bu gün Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı güclü və müstəqil dövlətə çevirmişdir. Məhz bu səbəbdən Azərbaycan xalqının ədalətli mövqeyi bütün dünyada qəbul edilir".

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kursunu dəstəkləyən ağsaqqallar qeyd edirlər ki, son illər Azərbaycan dünyanın sürətlə inkişaf edən dövlətinə çevrilmiş, dövlət başçısının həyata keçirdiyi tədbirlər sayəsində əldə edilən uğurları vurğulayırlar. Onların fikrincə, bu gün Azərbaycanda ağsaqqalların ictimai-siyasi fəallığını təmin etmək üçün hər cür şərait yaradılmışdır. Onların rolu, xüsusilə gənc nəslin tərbiyəsində yüksək qiymətləndirilir.





# GİZLİ ARXİVLƏR SİRLƏRİ AÇIR

Rudolf İvanovun XX əsrin əvvəllərində Rus ordusunda xidmət etmiş general Maqsud Əlixanovun həyatından, hərbi xidmətlərindən və zəngin publisistikasından bəhs edən "General Maqsud Əlixanov: şərəf və faciə" (2013-cü il) və "Dağıstan dağlarında" (2005-ci il) adlı oçerklərində Azərbaycan tarixinə dair son dərəcə maraqlı, zəngin materiallar öz əksini tapıb. Bununla yanaşı, Rudolf Nikolayeviçin elmi yaradıcılığında Azərbaycan mövzusu, tarixi hadisələrə bu günün mövqeyindən yanaşma daha qabarıqdır.

Müəllif on ildən artıqdır ki, tarixi hadisələrin iştirakçısı olmuş Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini araşdırır, həqiqəti əks etdirən dolğun məlumat və mətnlər üzərində çalışır. Rudolf İvanov müasir dövr rus Azərbaycanşünaslığının ən görkəmli nümayəndələrindən biridir.

Bizim fikrimizcə, fədakar alim nümunəsi sayılmağa layiq professor Rudolf Nikolayeviç İvanovu Rusiya Azərbaycanşünaslıq elminin banisi hesab etmək olar. Onun elmi yaradıcılığının xarakterik xüsusiyyətləri nadir arxiv mənbələrindən daim istifadə etmək işindəki peşəkarlığı və yüksək obyektivliyidir. Rudolf İvanovun arxiv mənbələrindən fəal istifadəsini isə sübut etmək heç də çətin deyil.

Rusiya arxivlərinin fondlarında Azərbaycanda baş vermiş tarixi hadisələrə və ayrı-ayrı tarixi şəxsiyyətlərə aid qovluqların titul səhifələrində Rudolf İvanovun bu materiallara üz tutması barədə qeydlər var.

Elmi ictimaiyyətin üzünə açıq olan sənədlərlə yanaşı, R.İvanov tədqiqatçılara yalnız xüsusi icazə ilə verilən yüzlərlə siyasi və hərbi-tarixi sənədləri də elmi ictimaiyyətə çatdırmağa çalışır.

Rudolf İvanovun tarixi şəxsiy-



*Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın yazıçı Rudolf İvanovla görüşü*






yətlərə həsr olunmuş monoqrafiyaları çox mühüm, sanballı əsərlər kimi tanınmaqla yanaşı, həm də etibarlı mənbə sayılır. Onun tədqiqatları tarixi salnamələr olaraq, istifadə zamanı faktoqrafik, statistik və bioqrafik materiallar kimi böyük əhəmiyyət kəsb edir. Bu əsərlər yeni tədqiqat işlərinin aparılması üçün açıq arxiv rolunu oynayır.

Mübaliğəsiz demək olar ki, Azərbaycan və Rusiya arxivlərindən əldə olunmuş, R.İvanovun yazdığı əsərlərin özülünü təşkil edən nadir tarixi sənədlər geniş ictimaiyyətin ixtiyarına verildi.

Rudolf İvanovun qazandığı və gəldiyi nəticələrin miqyasına nəzər yetirib deyə bilərik ki, o, az qala bütöv bir elmi-tədqiqat institutunun işini görmüş.

Bu mənada R.İvanovun əsərləri Rusiya arxivləri ilə Azərbaycan alimləri arasında salınmış möhkəm körpü rolunu oynayır. Uzun illərin elmi fəaliyyəti sayəsində qurulan bu körpü elmi əməkdaşlığa uğurla xidmət edir və Azərbaycan-Rusiya münasibətlərinin real tarixinin öyrənilməsi üçün etibarlı zəmin timsalındadır.

"Əlahəzrətin general-adyutantı" (2006-2008-ci illər) monoqrafiyasında rus-yapon müharibəsində, Birinci Dünya müharibəsi cəbhələrində alay komandiri kimi döyüş yolu keçmiş əfsanəvi Qafqaz Atlı diviziyasının ("Vəhşi diviziya"nın) əsasını qoymuş general-leytenant, general-adyutant Hüseynxan Naxçıvanskinin tərcümeyi-halı təsvir olunub.

Onun əyilməzliyini, sadiqliyini, ərliyini sübut edən canlı və konkret faktlar gətirilib.

"Sovet İttifaqı naminə..." (2007, 2008, 2009-cu illər) monoqrafiyasını isə general Cəmşid Naxçıvanskinin şanlı və faciəvi taleyinin ədəbi-tarixi epopeyası adlandırsaq, səhv etmərik.

Nəhayət, "Kəlbəli xan Naxçıvanski. Zəmanəsi və irsi" kitabı məşhur generallar sülaləsinə həsr olunmuş silsilənin axırıncı kitabıdır.

Bundan başqa, Rudolf İvanov "Təcavüz" kitabını yazır (2009-cu il). Kitabda arxiv sənədlərinin dili ilə XX əsrdə Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda aparılmış repressiyanın tarixi dərslərindən söhbət açılır.

Azərbaycana həsr edilmiş, özünün tarixi və siyasi əhəmiyyətinə görə seçilən bu fundamental əsərlərdən sonra yeni tədqiqatlara başlayan R.İvanovun böyük siyasətçi və dövlət xadimi, görkəmli yazıçı Nəriman Nərimanov haqqında "Ölümcül toqquşma" adlı bir kitab yazması heç də təsadüfi deyildi.

Bizim fikrimizcə, bu kitab Azərbaycanda gedən hərbi-tarixi və sosial-siyasi proseslərin iki əsrlik tarixinin məntiqi sonluğudur.



Rudolf İvanovun axırıncı kitabının qəhrəmanı Nəcəf Nərimanov 1940-cı ildə Kiyev Hərbi Məktəbini bitirmişdir. Böyük Vətən müharibəsi dövründə Stalinqrad və Cənub cəbhələrində vuruşub. II qvardiya mexanikləşdirilmiş korpusun 58-ci əlahiddə qvardiya batalyonunda tank təmiri üzrə taqım komandiri idi.

Nəcəf Nərimanovun komandiri olduğu taqım bütövlükdə 105 maşına qulluq edirdi. Qvardiyada baş leytenant-texnik Nəcəf Nərimanov 1943-cü ilin sentyabr ayının 10-da Ukraynanın Volnovax şəhəri yaxınlığında qəhrəmancasına həlak oldu.

8 mart 1944-cü il tarixli, №161-li əmrlə ölümündən sonra, Nəcəf Nərimanov 1-ci dərəcəli Vətən müharibəsi ordeni ilə təltif edildi.

(Müdafiə nazirliyinin Mərkəzi Arxivini materiallarına əsasən)





"Ölümcül toqquşma" kitabında Sovet hakimiyyəti dövründə Azərbaycan SSR XKS-nin Zaqafqaziya Federasiyasının SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri işləmiş N.Nərimanovun (N.Nərimanov bütün bu vəzifələri tutan ilk şəxs idi) bu vəzifələrdəki fəaliyyəti və həyatının son illəri diqqətə çatdırır.

Məlum olduğu kimi, Azərbaycan sovet elmində həmin tarixi dövr haqda çox yazılıb. Ancaq o da bəllidir ki, təkcə N.Nərimanovun deyil, ümumən Sovet dövlət və siyasi xadimlərinin fəaliyyəti barədə əsl həqiqətləri arxiv sənədlərinə əl yetməməsi səbəbindən geniş ictimaiyyətə axıracan çatdırmaq mümkün olmayıb.

Nəriman Nərimanov və onun müasirləri barədə Rusiyanın və Azərbaycanın arxivlərində qorunan sənədlərə uzun illər ərzində yalnız "xüsusi icazə" ilə girmək mümkün idi. Bu da tədqiqatçıların işini xeyli çətinləşdirirdi.

**Akademik İsa Həbibbəyli,**
**AMEA-nın vitse-prezidenti,**
**Milli Məclisin deputatı**

***Nəriman Nərimanovun Bakıdakı heykəli***



# Müharibənin bütün ağırlıqlarını zərif çiyinlərinə götürmüş qadınlar ən yüksək hörmətə layiqdirlər




Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi Respublika Veteranlar Şurası ilə birlikdə 2015-ci il aprel ayının 23-də "1941-1945-ci illər Böyük Vətən müharibəsində qadınların rolu" mövzusunda elmi-praktik konfrans keçirdi. Şanlı Qələbənin 70 illiyinə həsr olnmuş konfransda "İgid oğullarla bir cərgədə" adlı ensiklopedik toplunun təqdimatı da oldu.

AMEA-nın prezidenti Akif Əlizadə bildirdi ki, 2015-ci il fevral ayının 15-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "1941-1945-ci illər müharibəsində Qələbənin 70 illiyinə hazırlıq və bayram edilməsi üzrə tədbirlər Planı" təsdiqləndi.

Böyük Vətən müharibəsi illərindən bəhs edən A.Əlizadə neft-kimya elminin banilərindən biri, akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə kimyaçı alimlərin faşizm üzərindəki tarixi Qələbəyə verdikləri əvəzsiz töhfələri xatırlatdı.

Akademik A.Əlizadə Böyük Vətən müharibəsində Azərbaycanın mərd oğulları ilə yanaşı, qadın və qızlarımızın da qəhrəmanlığından söz açmaq, onların cəbhədə qorxu bilmədən vuruşduqlarını, arxa cəbhədə isə, demək olar ki, faşizm üzərində qələbənin qazanılmasında müstəsna rol oynadıqlarını qeyd etdi.

Müasir dövrdə ölkəmiz yenidən müharibənin dəhşət və ağrı-acıları ilə üz-üzə dayanmış oldu. Qadınlarımız kişilərlə yanaşı Azərbaycan torpaqları uğrunda erməni işğalçıları ilə mərdliklə vuruşdular. Onlardan bir çoxu şəhid oldu. 400 min nəfərdən çox qadın, 3 mindən yuxarı uşaq doğma yurdlarından qaçqın düşdü, məcburi köçkünə çevrildilər.

Çiyinlərinə müharibənin ağırlığı düşmüş qadınlarımız bütün çətinliklərə baxmayaraq, işləməyə, təhsillərini artırmağa, evə-ailəyə qayğı göstərməyə, bir sözlə, cəmiyyətdə fəallıq göstərməyə özlərində güc-qüvvə tapdılar.

"İgid oğullarla bir cərgədə" adlı ensiklopedik toplunun müəllifi, tanınmış yazıçı-publisist Sabir Gəncəli Azərbaycanda yaşayan, Böyük Vətən müharibəsi illərində istər öndə, istər arxa cəbhədə mərdlik nümunəsi göstərən qadınların şücaətindən danışdı.

Kitabda Azərbaycanımızın 600 min nəfərdən çox oğul və qızlarının düşmənlə müharibədə göstərdiyi fədakarlıq nümunəsi öz əksini tapmışdır.

Tədbirdə çıxış edənlər - Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə, Ombudsman Elmira Süleymanova, Respublika Veteranlar Şurasının sədri, general-mayor Dadaş Rzayev müharibənin bütün məhrumiyyətlərini, ağrı-acılarını zərif çiyinlərində daşımış, qələbənin qazanılmasında əvəzsiz rol oynamış, cəbhədə və arxada qəhrəmanlıq nümayiş edirmiş qadınların əməyinə yüksək qiymət verdilər.

Vətənin azadlığı uğrunda vuruşaraq şəhid olmuş oğul və qızlarımızın əziz xatirəsi qəlbimizdə əbədi olaraq yaşamaqdadır. Onların şərəfli həyat yolu gənc nəsil üçün ən parlaq örnəkdir.



# XATIRLAYIRIQ, FƏXR EDİRİK! BÖYÜK VƏTƏN MÜHARİBƏSİ VETERANLARI İLƏ GÖRÜŞ

Cəbhənin yanacaqla təmin edilməsində və faşizm üzərində qələbənin qazanılmasında böyük şöhrət tapmış, məşhurlaşmış Bakı bu gün Böyük Vətən müharibəsindəki Qələbənin 70 illiyini qeyd edir.
Bu şanlı tarixi günün ildönümü ərəfəsində Bakı şəhər İcra Hakimiyyətində Böyük Vətən müharibəsi veteranları ilə görüş keçirildi.
Bakı şəhər İcra Hakimiyyətinin başçısı, professor Hacıbala Abutalıbov İcra hakimiyyəti binasının foyesində veteranları qarşılayaraq onlara gül dəstələri təqdim etdi.
Sonra görüş zalda, çay süfrəsi arxasında davam etdi. İlk olaraq Respublika Veteranlar Şurasının sədri, general-mayor Dadaş Rzayevə söz verildi. O, Bakı şəhəri İcra hakimiyyətinə veteranlara göstərilən qayğıya görə öz dərin minnətdarlığını bildirərək söylədi ki, bu qayğının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Hazırda isə bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. D.Rzayev ölkənin ictimai-siyasi həyatında veteranların iştirakından, həmçinin gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində atılan mühüm addımlardan danışdı. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev veteranlara daim diqqət göstərir, onlardan öz qayğısını əsirgəmir. Dadaş Rzayev veteranlar adından bu qayğı və diqqətə görə Ali Baş Komandana öz minnətdarlığını bildirdi. Onu da qeyd etdi ki, Böyük Vətən müharibəsindəki Qələbəyə həsr olunmuş yubiley tədbirləri davamlı olaraq, respublikanın hər bir bölgəsində keçirilməkdədir.









*Bakı şəhər İcra Hakimiyyətinin başçısi Hacibala Abutalibov veteranlarla birlikdə*



Hər il Qələbə günü ərəfəsində respublikanın bütün guşələrində Böyük Vətən müharibəsi veteranları ilə görüşlər keçirilir. Belə bir görüş respublika paytaxtinin Nəsimi rayonunda da oldu. Bu görüşü Nəsimi rayon İcra Hakimiyyəti Respublika Veteranlar Şurası ilə birgə təşkil etmişdi.

Bu tədbir həm də Böyük Vətən müharibəsi iştirakçıları Nəsimi rayon Veteranlar Şurasının sədri Sübhi Həziyevin, Məmməd İmanovun, Əhəd İbrahimovun və İsmayıl Fərəcovun anadan olmalarının 90 illik yubileylərinə həsr olunmuşdu.

Görüş başlanmazdan əvvəl tədbir iştirakçıları Böyük Vətən müharibəsində və Qarabağ uğrunda döyüşlərdə həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Nəsimi rayonu İcra Hakimiyyətinin başçısı Nəsib Mahamalıyev qeyd etdi ki, bu gün ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edən müharibə veteranlarının şərəfinə keçirilən bu cür tədbirlər gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında çox böyük rol oynayır və misilsiz əhəmiyyət kəsb edir.





Bakı şəhəri Nəsimi rayonunda veteranlarla görüş





Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr veteranları Şurasının sədri, general-mayor Dadaş Rzayev onu da söylədi ki, Azərbaycan dövlətində veteranlar daim xüsusi diqqət və qayğı əhatəsindədir. Bu diqqət və qayğının özülü ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Bu siyasəti davam etdirən Prezident İlham Əliyev Böyük Vətən müharibəsi iştirakçılarına və onların ailələrinə xüsusi diqqət göstərir, onların problemlərinə qayğı ilə yanaşır.

Yubilyarlara qiymətli hədiyyələr, fəxri fərman və təbrik məktubları təqdim edildi. Tədbirdə həmçinin Sübhi Həziyevin həyat və döyüş yolundan bəhs edən videoçarx da nümayiş etdirildi.





Bakının Nəsimi rayonunda veteranlarla görüş

Yaranmış xeyirxah ənənələrə uyğun olaraq hər il Qələbə günü ərəfəsində Səbail rayon İcra Hakimiyyəti nümayəndələrinin və rayon ictimaiyyətinin veteranlarla görüşü keçirilir. Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov Azərbaycan xalqının Böyük Vətən müharibəsindəki misilsiz rolundan bəhs etdi. Azərbaycan övladlarının Moskva, Leninqrad, Sevastopol, Stalinqrad, Kiyev və b. şəhərlər uğrunda gedən amansız döyüşlərdə, Qafqazın müdafiəsində, Berlinin alınmasında igidliklə vuruşduqlarını, qəhrəmanlıq nümunəsi göstərdiklərini bir daha nəzərə çatdırdı.




Bu gün Azərbaycan özünün keçmişi, xüsusən də, Böyük Vətən müharibəsindəki həlledici roluna görə fəxr etməkdə haqlıdır. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev müharibə veteranlarına xüsusi qayğı göstərir, bu sahədə üzə çıxan problemlərlə yaxından maraqlanırdı. Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi tədbirlərin sayəsində son illər veteranların sosial müdafiəsi gündən-günə artmaqdadır.

Faşizm üzərindəki Qələbənin 70 illiyi ərəfəsində rayonun mədəniyyət müəssisələrində - muzeylərdə, kitabxanalarda, sərgi salonlarında müxtəlif tədbirlər, sərgilər, görüşlər keçirildi. Müharibə qəhrəmanlarının abidələri ucaldılmış parklarda abadlıq, təmir işləri aparıldı.




***Bakının Səbail rayonunda Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədova ucaldılmış abidə***



***Səbail rayonunda veteranlarla görüş***



Xalqımızın ən sevimli bayramı, Novruz ərəfəsində Səbail rayonu İcra Hakimiyyətinin nümayəndələri Tərtər rayonundakı hərbi hissədə oldular. Bakıdan gəlmiş qonaqlar əsgərlər üçün yaradılmış şəraitlə yaxından tanış olduqdan sonra səngərlərə, döyüşçülərimizin yanına gedib qarşı tərəfin mövqelərini müşahidə etmək imkanı da əldə etdilər.

Səbail rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov düşmənlə üz-üzə, mərd-mərdanə dayanaraq, Vətən qarşısındakı borclarını yerinə yetirən əsgərlərimizi bayram münasibəti ilə təbrik etdi.

O, bu çətin və şərəfli xidmətlərində əsgərlərimizə uğurlar arzuladı. Xalqımızın onların hər biriylə qürur duyduğunu dedi. Həm də Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa olunacağına əminliyini vurğuladı.

Sonra mədəniyyət və incəsənət ustalarının iştirakı ilə konsert oldu.



*Bakı şəhəri Səbail rayonu İcra Hakimiyyəti nümayəndələrinin Tərtər rayonundakı hərbi hissənin əsgər və zabitləri ilə görüşü*











*"İnterfaks-Azərbaycan" agentliyinin verdiyi xəbərə görə, faşizm üzərindəki Qələbənin 70 illiyi münasibəti ilə İsmayıllı rayonunun İcra Hakimiyyətində Böyük Vətən müharibəsi veteranları ilə görüş keçirildi.*

*Tədbirdə veteranlarla yanaşı, rayon ictimaiyyətinin nümayəndələri də iştirak edib. Bir-birini əvəz edən çıxışlar zamanı Böyük Vətən müharibəsi veteranları ilə belə görüşlərin gənc nəslin hərbi vətənpərvərlik və milli-mənəvi ruhda tərbiyə olunmasında oynadığı roldan bəhs edilib.*

*İsmayıllı rayonunun 6010 nəfər sakini Böyük Vətən müharibəsinin iştirakçısı olub. Onlardan 4008 nəfəri geri qayıtmayıb. Bir qismi həlak olub, bir qismi də itkin düşüb. Hazırda sağ qalan 21 nəfər müharibə veteranı rayonun ictimai həyatında fəal iştirak etməkdədir.*



*İsmayıllı rayonu İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov Böyük Vətən müharibəsi veteranları barədə ürək sözlərini deyir*









Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq. Müstəqilliyimizin bərpa edildiyi ilk illərdə ədalətsizcəsinə ləğv edilən Qələbə bayramını yenidən bizə məhz Heydər Əliyev qaytardı. Böyük Vətən müharibəsinin ön cəbhəsində və arxa cəbhədə düşmən üzərindəki qələbəni öz iradə, igidliyi bahasına yaxınlaşdıran insanlara daim həssas münasibət bəsləyən ümummilli liderin bərqərar etdiyi ənənələr bu gün də Prezident İlham Əliyev tərəfindən yeni məzmunla inkişaf etdirilir. Bu hal biz veteranları sevindirməyə bilməz. Hər il Qələbə günü ərəfəsində ölkə prezidentinin veteranlarla görüşü ürəkdən gələn əsl bayrama çevrilir.

Müharibə illərində faşizm üzərində Qələbənin qazanılmasında Azərbaycan müstəsna rol oynadı. Bakı neftçiləri gecə-gündüz çalışaraq artıqlaması ilə cəbhəni yanacaqla təmin edirdi.

Böyük Vətən müharibəsində 7 min nəfərə yaxın lerikli iştirak edib. Onların 30%-i geri qayıtmayıb. Biz Azərbaycanın qəhrəman övladları ilə fəxr etməkdə haqlıyıq. Ənənəvi olaraq hər il iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun memorial kompleksinin və abidəsinin önünə tər çiçəklər düzürük.

Prezident İlham Əliyev bayram ərəfəsində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının yeni inzibati binasını açdı. Gənc nəslin vətənpərvər ruhda böyüdülməsi üçün geniş imkanlar yaradılıb. Beləliklə, Böyük Vətən müharibəsi iştirakçıları bu gün Azərbaycan cəmiyyətinin fəxri üzvləri sayılırlar.

Biz, Lerik rayonunun müharibə veteranları və arxa cəbhənin əməkçiləri Prezident İlham Əliyevə bizə göstərdiyi daimi diqqət və qayğıya görə öz dərin təşəkkürümüzü bildirir, ona Azərbaycanın müstəqilliyi, çiçəklənməsi naminə göstərdiyi hərtərəfli fəaliyyətində yeni-yeni, daha böyük uğurlar arzulayırıq!

***Hidayət BƏŞİROV,***
***Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası Lerik rayon təşkilatının sədri***

# Təhsil sisteminin əsas məqsədi Vətəni müdafiə etməyə hazır olan layiqli vətəndaşın yetişdirilməsidir



Dünyada əlverişsiz iqtisadi proseslərin davam etdiyi, qonşu regionlarda silahlı münaqişələrin və qanlı terror aktlarının baş verdiyi bir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində ölkəmizdə sabitlik qorunub saxlanılır, iqtisadi islahatlar getdikcə dərinləşir, dövlətimizin gücü və beynəlxalq nüfuzu durmadan artır.

2016-cı ilin doqquz ayı ərzində Azərbaycanın təhsil sisteminin inkişafı davam etdirilib, mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verib. Son bir il ərzində Təhsil Nazirliyi tərəfindən 2500 şagird yerlik 10 məktəb binası və ailə tipli 1 kiçik qrup evi inşa edilib, 6 internat məktəbində, 2 peşə liseyində, 2 kollecdə, 1 ali məktəbin tədris korpusunda əsaslı təmir, 468 məktəbdə isə əsaslı və cari təmir işləri aparılıb. Cari ilin 9 ayında bütün mənbələr hesabına ümumilikdə ölkə üzrə 29 məktəb tikilib, 485-i təmir edilib.

Cari ildən etibarən 44 rayonu əhatə edən azkomplektli və qəzalı vəziyyətdə olan kənd məktəbləri modul tipli məktəblərlə əvəzlənəcək. Məlumdur ki, məktəbəhazırlıq mərhələsi uşaqların gələcək təhsil nailiyyətlərində müstəsna əhəmiyyət daşıyır. 2014-cü ildə Bakıda pilot layihə kimi başlanan məktəbəhazırlıq qruplarının fəaliyyəti bu ildən ümummilli proqrama çevrilib. Nazirlər Kabinetinin müvafiq qərarı ilə cari ildə ölkə üzrə 5 yaşına çatmış uşaqların 55 faizinin məktəbəhazırlığa cəlb edilməsi nəzərdə tutulur. 2020-ci ilədək bu rəqəmin 90 faizə çatdırılması planlaşdırılır ki, bu da dünyanın ən inkişaf etmiş ölkələrinin səviyyəsinə bərabərdir.

Ümumi təhsilin keyfiyyət göstəricilərində üç il ardıcıl olaraq müsbət dinamika təmin olunur. Belə ki, 2012-ci illə müqayisədə bütün imtahan fənlərindən müsbət qiymət almış IX sinif məzunların sayı 50 faizdən 2016-cı ildə 67 faizədək artıb. Bu artım ölkə üzrə əksər rayonlarda, xüsusən əvvəlki dövrdə davamlı olaraq aşağı nəticələr göstərən bölgələrdə də qeydə alınıb.

Bu irəliləyişlər özünü qəbul imtahanlarında da büruzə verir. Belə ki, 200-dən çox bal toplayan abituriyentlərin mütləq sayı 34 min 475 nəfər təşkil edib ki, bu da ötən ilki göstəricidən təxminən 4 faiz, 2014-cü ildəki göstəricidən isə 9 faiz artıqdır. Son 3 ildə 500-dən çox bal toplayanların sayı 19 faiz, 600-dən çox bal toplayanların sayı isə 32 faiz artıb. 2016-cı ildə mülki ali təhsil müəssisələrinə bütün ixtisas qrupları üzrə rekord sayda – 35 min 304 nəfər tələbə qəbul edilib. Bu göstərici ötən illə müqayisədə 2 min 235 nəfər və ya 6,7 faiz çoxdur. Qəbul olanların sayının yüksəlməsi məktəb təhsilinin keyfiyyətinin və vətəndaşlarımızın şüurunda təhsilin bir dəyər kimi əhəmiyyətinin artdığını təsdiqləyir.

Bu il iqtisadiyyatımızın bütün sahələrində idxalın yerli istehsalla əvəz olunması barədə tapşırığın icrası olaraq, məktəblilərə paylanılan 261 adda 6 milyon 623 min nüsxədə dərsliklərin hamısının nəşri ölkəmizdə həyata keçirilib. Eyni zamanda, son üç ildə təhsil müəssisələrinin büdcədənkənar gəlirlərinin 60 faiz artırılmasına nail olunub.





Azərbaycanın yeni iqtisadi modeli ölkənin insan kapitalının keyfiyyətinin yüksəldilməsi yolu ilə milli iqtisadiyyatımızın rəqabət qabiliyyətinin artırılmasını tələb edir. Yeni təhsil klasterlərində yaradılacaq onlarla yeni ixtisas iqtisadi subyektlərlə və müəssisələrlə sıx əlaqədə fəaliyyət göstərməlidir. Ölkənin dayanıqlı inkişafına cavab-deh müvafiq dövlət qurumları ilə birgə təhsil proqramlarını və prosesini bölgələrimizin tələbatına uyğunlaşdırmaq məqsədilə işçi qruplarının yaradılmasını təklif edirik. Gəncə, Sumqayıt, Mingəçevir və Lənkəran dövlət universitetləri və onların tabeliyində olan digər təhsil müəssisələrinin bu sahədə prioritetliyini xüsusi qeyd etmək lazımdır. Regional universitetlərin inkişaf strategiyalarının yerləşdikləri bölgələrin sosial-iqtisadi inkişafı ilə uzlaşdırılması və prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə cəlb edilməsi həmin ali məktəblərin həm məzunlarının işlə təminatı, həm də gələcək fəaliyyətlərinin möhkəm elmi bünövrəsi kimi çıxış edəcək.

İqtisadiyyatın şaxələndirilməsi şəraitində peşə təhsili sisteminin yenidən qurulması, bu sahədə çevik idarəetmənin təmin edilməsi, işəgötürənlərin tələblərinə cavab verən peşəkarların hazırlanması məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılıb.

Sentyabrın 14-də IT STEP akademiyasının açılışı ölkəmizdə informasiya texnologiyaları sahəsində ilk peşə-ixtisas təhsili ocağının yaranması ilə yadda qaldı. "Maksimum təcrübə, minimum nəzəriyyə" prinsipi əsasında təşkil olunan bu müəssisə təhsil sahəsində dövlət-özəl sektor tərəfdaşlığının nümunəsidir.

Bu il ilk dəfə olaraq Bakı və Gəncə şəhərlərində yerləşən peşə təhsili müəssisələrinə şagirdlərin qəbulu prosesində şəffaflığı və vətəndaşların rahatlığını təmin etmək məqsədi ilə Təhsil Nazirliyi və "ASAN xidmət" arasında əməkdaşlıq çərçivəsində "ASAN peşə" layihəsi reallaşdırılıb.

Ölkəmizin ali təhsil sistemində də institusional dəyişikliklər davam etdirilib. Regionların sosial-iqtisadi inkişafı proqramına uyğun olaraq, yeni istehsalat və xidmət sahələrinin ixtisaslı kadrlara ehtiyacını təmin etmək məqsədilə Qazaxda Bakı Dövlət Universitetinin, Zaqatalada isə Azərbaycan Dövlət İqtisad Universitetinin filialları təsis olunub. Digər ali məktəbimiz - Azərbaycan Dövlət İqtisad Universiteti "QS" beynəlxalq reytinq agentliyinin hazırladığı Şərqi Avropa və Mərkəzi Asiya regionunun universitetlərinin reytinqində 30 ölkənin iqtisadyönümlü universitetləri arasında dördüncü yeri tutub.

Təhsil sisteminin əsas məqsədi Vətəninin mənafelərini anlayan və müdafiə etməyə hazır olan layiqli vətəndaşın yetişdirilməsindən ibarətdir.

Azərbaycan bu illər ərzində bir çox sınaqlardan keçib. Onlardan sonuncusu bu ilin aprelində oldu. Düşmən təxribatı bizim üçün - bütün Azərbaycan xalqı, rəşadətli silahlı qüvvələrimiz, hər bir vətəndaş üçün növbəti ciddi imtahan idi. Xalqımız bu imtahandan alnıaçıq çıxdı. Düşmənə və bütün dünyaya göstərdi ki, tarixi torpaqlarımızın azad edilməsi qaçılmazdır, döyüş meydanında da, dinc həyatda da, olimpiya stadionlarında da Azərbaycan bayrağını yüksəklərə qaldıran gənc nəslimiz yetişib. Bu işdə Azərbaycan müəlliminin də danılmaz xidmətləri var. Yalnız milli dəyərlərə və ənənələrə sadiq, savadlı vətəndaş Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində və inkişaf etdirilməsində iştirak etməyə qadirdir.

> *"Təhsil sahəsində səviyyə ən yüksək zirvədə olmalıdır".*
>
> *İlham Əliyev*

**Mikayıl Cabbarov,**
**təhsil naziri (İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxışından).**

















# Unudulmaz məktəb illəri




Geyimimiz, hüququmuz bir idi,
Şagird idi hamımızın adı da.
Elə bil ki, boyumuz da eyniydi,
Aman Allah, nə xoşbəxtdik biz onda.

Bir müəllim töhmətiydi dərdimiz.
Bir töhmətdən için-için yanırdıq.
Hələ onda bilmirdik ki, bunu biz
Bir gün necə həsrət ilə anarıq.

Dünya hələ bizim üçün nağıldı,
Min arzuyla alışırdıq, yanırdıq.
Özümüzü biz hamıdan ağıllı,
Özümüzü nə bəxtəvər sanırdıq.

Məktəb illəri,
Ömrümün ən şirin, duyğulu, qayğısız günləri.
Hər anı bir ömrə bərabər, sehirli günləri,
Ən təmiz arzulu günləri.
Məktəb illəri,
Ömrümün ən şirin, duyğulu, qayğısız günləri.
Hər anı bir ömrə bərabər, sehirli günləri,
Ən təmiz arzulu günləri.

Hələ onda bu dünyanın şərindən,
Yalanından xəbərimiz yox idi.
Qəm-qüssəmiz, kədərimiz bir damcı,
Hələ onda sevincimiz çox idi.

Yazılanı bir silgi ilə pozmaq da,
Bizim üçün nə asandı, nə asan.
Xəbərsizdik ömrümüzə biz hələ,
Tale yazan pozulmayan yazıdan.

Dünya hələ bizim üçün nağıldı,
Min arzuyla alışırdıq, yanırdıq.
Özümüzü biz hamıdan ağıllı,
Özümüzü nə bəxtəvər sanırdıq.

Məktəb illəri,
Ömrümün ən şirin, duyğulu, qayğısız günləri.
Hər anı bir ömrə bərabər, sehirli günləri,
Ən təmiz arzulu günləri.
Məktəb illəri,
Ömrümün ən şirin, duyğulu, qayğısız günləri.
Hər anı bir ömrə bərabər, sehirli günləri,
Ən təmiz arzulu günləri.

Məktəb illəri,
Ömrümün ən şirin, duyğulu, qayğısız günləri.
Hər anı bir ömrə bərabər, sehirli günləri,
Ən təmiz arzulu günləri.
Məktəb illəri,
Ömrümün ən şirin, duyğulu, qayğısız günləri.
Hər anı bir ömrə bərabər, sehirli günləri,
Ən təmiz arzulu günləri.
Ən təmiz arzulu günləri.
Ən təmiz arzulu günləri.

**Musiqi: Aygün Səmədzadə**
**Sözlər: Kəmalə Abiyeva**

# Bakı Dövlət Universiteti Böyük Vətən müharibəsi illərində

Bütövlükdə, ölkəyə böyük fəlakətlər, dağıntılar, məhrumiyyətlər və bəlalar, çətinliklər gətirmiş Böyük Vətən müharibəsi, o vaxt Bakı Dövlət Universitetinin fəaliyyətinə də ağır zərbə vurdu. Təhsil prosesi çox çətin şəraitlə qarşılaşdı.

Müharibənin birinci günü, 1941-ci il iyun ayının 22-də Bakı Dövlət Universitetinin rektoru Cəbrayıl Ağaəli oğlu Ələsgərov o vaxt indiki İstiqlaliyyət küçəsində yerləşən universitet binasının qarşısında müəllim və tələbələrin mitinqini təşkil etdi. Rektor mitinq iştirakçılarına bildirdi ki, mitinq bitər-bitməz, dərhal yaxınlıqdakı hərbi komissarlığa gedib, könüllü cəbhəyə göndərilmək üçün müraciət etsinlər.

Rektorun bu addımı müəllim və tələbələrə də çox təsirli bir çağırış idi. Qəlblərində vətənpərvərlik hissi coşub-daşan müəllim və tələbələrin çoxu cəbhəyə getmək arzusunu bildirdilər.

Universitetin 1940-1941-ci il məzunlarının, demək olar ki, hamısı bir nəfər kimi ön cəbhəyə yollandılar.

Müharibə dövründə Bakı Dövlət Universitetindən 1385 nəfər orduya çağırıldı. Onlardan 159 nəfəri müəllim, 23 nəfəri aspirant, 1141 nəfəri isə tələbə idi. Onlar döyüşün ön sıralarında orduda, partizan dəstələrində, Avropada, Milli Müqavimət Hərəkatı sıralarında vuruşdular. Cəbhəyə getməyənlər isə arxada özlərinin fədakar əməyi ilə fərqləndi.

Müharibənin ən ağır illərində, 1941-1944-cü illərdə universitetin rektoru Şamil Rəhim oğlu Əliyev oldu.

1941-ci ilin avqustunda universitetin bütün fakültələrində tibb bacısı kursları açıldı. 1942-ci ilin mayında isə universitetdə 32 nəfərdən ibarət qeyri-nizami hərbi dəstə, həmçinin 68 nəfərdən ibarət qadın batalyonu yaradıldı.

Bakı Dövlət Universitetinin kollektivi ölkənin müdafiə fondunun yaradılmasında, cəbhədəkilər üçün isti pal-paltarın yığılmasında da fəallıq göstərdilər.

Müharibənin yaratdığı çətinliklərlə bağlı universitetin tədris planında dəyişikliklər aparıldı. Şərait nəzərə alınaraq universitetdəki təhsil müddəti 3-4 ilə endirildi. 1942-1943-cü tədris ilindəsə yenidən 5 ilə qaldırıldı.

Müharibə başlayandan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutu və onun qiyabi şöbəsi Bakı Dövlət Universiteti ilə birləşdirildi. Xalq Təsərrüfatı İnstitutu universitetin iqtisadiyyat, Bədən Tərbiyəsi İnstitutu isə bədən tərbiyəsi fakültələrinə çevrildi. Bu birləşmələrin nəticəsində Bakı Dövlət Universiteti xeyli genişləndi. 1943-1944-cü tədris ilinin birinci yarısında isə universitetdə geoloji coğrafiya fakültəsi də açıldı.

Cəbhədəki ölüm-dirim mübarizəsi təkcə silah gücünə aparılmırdı. İdeoloji cəbhədə də şiddətli mübarizə getməkdə idi. Universitet ziyalıları bu cəbhədə Vətənə sədaqətlə, inamla, doğrudürüstlüklə xidmət göstərirdi.





## Böyük Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin rektorları



*C.A.Ələkbərov (1907-1941) 1937-1941-ci illərdə rektor olub*



*Ş.R.Əliyev (1912-1969) 1941-1944-cü illərdə rektor olub*



*A.İ.Qarayev (1910-1968) 1944-1968-ci illərdə rektor olub*

İdeoloji cəbhənin generalı sayılan Səməd Vurğun tez-tez universitetin qonağı olur, müəllim və tələbələrlə birlikdə döyüşçülərlə görüşmək üçün ön cəbhəyə yollanırdı.

Amansız müharibənin universitetin fəaliyyətinə ağır zərbə endirməsinə baxmayaraq, onun kollektivi bu sınaqdan ləyaqətlə çıxdı. Məhz bu ağır illərdə universitetin alimləri beynəlxalq əhəmiyyətli ixtiraların müəllifləri oldular. Buna parlaq misal hərbi aviasiya sənayesində mühüm rol oynayan akademik Y.Məmmədəliyevin donmayan sürtkü yağlarının ixtirası idi. 1944-cü ilin



*Müharibə ilə əlaqədar universitet müəllimlərinin əksəriyyəti qadınlardan ibarət idi. Buna baxmayaraq, universitetin fəaliyyəti əvvəlki kimi davam etməkdə idi*

əvvəllərində Azərbaycan SSR və Azərbaycan KP MK(b) XKS tarix və şərq xalqları dillərinin öyrənilməsinin gücləndirilməsi haqqında qərar qəbul etdi. Bu qərar əsasında 1943-44-cü illərdə universitetin filologiya fakültəsində şərqşünaslıq şöbəsi fəaliyyətə başladı. Beləliklə, 1943-44-cü illərdə universitetdə 10 fakültə, 49 kafedra fəaliyyət göstərirdi. Əsas fakültələr bunlar idi: fizika-riyaziyyat, kimya, biologiya, tarix, filologiya, hüquq və geoloji coğrafiya.

O illərdə universitet bir-birindən 2 km məsafədə olan 7 binada yerləşirdi. 1943-cü ildə universitetin qiyabi pedaqoji fakültəsinin bazasında qiyabi şöbə yaradıldı. İlk mərhələdə qiyabi şöbəyə filologiya, tarix, hüquq, biologiya, geoloji coğrafiya, fizika-riyaziyyat, kimya fakültələri və filologiyanın şərqşünaslıq şöbəsi daxil idi. Bütövlükdə, fakültələrdə 230 qiyabiçi tələbə təhsil alırdı. Bunların arasında Gürcüstan, Ermənistan, Türkmənistan, Özbəkistan və digər respublikaların nümayəndələrinə rast gəlmək mümkün idi.

Əslinə qalsa, 1940-cı illəri universitet tarixinin yüksəliş dövrü kimi qiymətləndirmək olar. Zəhmətsevərlik, səbatlılıq, vətənpərvərlik, fədakarlıq o dövrün insanlarına xas olan xüsusiyyətlər idi. Məhz həmin məziyyətlər, professor-müəllim heyətinin tələbələr arasında yaratdığı sağlam mənəvi mühit, yeni-yeni istedadların üzə çıxmasına və elmdə yüksək nəticələrin qazanılmasına əsl zəmin yaratmış oldu.

Bakı Dövlət Universitetində yarandığı ilk gündən təhsil prosesinə də, elmi fəaliyyətə də eyni dərəcədə diqqət yetirilirdi. 1920-ci ildə universitetin nəzdində Elmi Cəmiyyətin yaradılması da təsadüfi deyildi.



*Azərbaycan şair və yazıçıları universitetdə görüş zamanı (1944-cü il)*

Müharibə illərində Bakı Dövlət Universitetində Məmmədağa Şirəliyev, Mir Cəlal Paşayev, Həmid Araslı, S.C.Hüseynov, Əbdüləzəl Dəmirçizadə, Məmməd Arif Dadaşzadə, Zülfəli İbrahimov, Əliqulu Fərəcov, Zahid Xəlilov, Aleksandr Makovelski, Heydər Hüseynov, Mirəli Qaşqay, Mikayıl Rəfili və b. tanınmış elm və mədəniyyət xadimləri elmi-pedaqoji fəaliyyətlə məşğul olurdular.

1943-cü ildə universitetin Elmi Şurası əməkdar elm xadimi, professor S.C.Hüseynovun "Qazma sularından yod alınmasının yeni yolları" və filologiya elmləri doktoru, professor M.Şirəliyevin "Azərbaycan dilinin ləhcələri" əsərlərini Stalin mükafatına təqdim etdi.

Ölkəmizdə elmi-pedaqoji kadrların hazırlandığı ən böyük təhsil ocağının, Bakı Dövlət Universitetinin keçdiyi şərəfli yol milli özünüdərk və milli şüurun, maarifçi səviyyənin yüksəlməsi uğrunda mühüm vəzifəni yerinə yetirdiyini və bundan sonra da həmin missiyanı gerçəkləşdirməkdə davam edəcəyini sübuta yetirmiş oldu.

Azərbaycanda ali məktəb sisteminin yaradılmasında müstəsna rol oynamış Bakı Dövlət Universiteti indinin özündə Prezident İlham Əliyevin elm və təhsil xadimləri qarşısında qoyduğu strateji vəzifələrin yerinə yetirilməsinə dəyərli töhfələr bəxş etməkdədir.

Təsadüfi deyil ki, bu təhsil ocağının işinə yüksək dəyər verən Prezident İlham Əliyev demişdir: "Çox fərəhlidir ki, Bakı Dövlət Universiteti bütün bu illər ərzində Azərbaycanın təhsil sahəsində özünün aparıcı rolunu qoruyub saxlamağı bacarıb və bu gün də həmin rolu daha da gücləndirilib. Bu da universitetdə çox zəngin ənənələrin və böyük potensialın olduğuna daha bir sübutdur".



# BAKI DÖVLƏT UNİVERSİTETİ – 90

*Bakı Dövlət Universitetinin çox gözəl və böyük tarixi vardır. 1919-cu ildə təsis edilmiş universitet 90 il ərzində Azərbaycanın hərtərəfli inkişafında çox mühüm rol oynamışdır. Bakı Dövlət Universiteti Azərbaycan müstəqilliyini əldə edəndən bir il sonra Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən təsis edilmişdir. Bu çox düşünülmüş və uzaqgörən bir addım idi. O vaxt ölkəmiz çox gənc idi. Buna baxmayaraq, əhalinin maarifləndirilməsi, Azərbaycanda savadsızlığın aradan qaldırılması və intellektual potensialın gücləndirilməsi üçün universitetin yaradılması çox mühüm hadisə olmuşdur. Bildiyiniz kimi, Azərbaycan Xalq Cümhuriyyəti iki il yaşadı, onun ömrü uzun olmadı, iki ildən sonra süqut etdi. Ancaq Bakı Dövlət Universiteti yaşadı. Düzdür, o zamanın müəyyən ideoloji çərçivələri daxilində fəaliyyət göstərmişdir. Ancaq buna baxmayaraq, Bakı Dövlət Universiteti Azərbaycanın inkişafı, Azərbaycanda təhsilin inkişafı, elmi potensialın gücləndirilməsi üçün çox mühüm rol oynamışdır. Bu rol bu gün də davam edir.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***







# Böyük Qələbənin yubileyi: nəsillərin canlı xatirəsi

Bakı Slavyan Universiteti 2000-ci il iyun ayının 13-də M.F.Axundov adına Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun bazasında yaradılıb. Universitetdə Slavyan xalqlarının dillərini öyrənmək üzrə ixtisaslı kadrlar, filoloq-pedaqoqlar hazırlanır. Tələbələr rus, çex, polyak, bolqar, slovak, ukrayna, yunan dili və ədəbiyyatı, eləcə də bu ölkələrin tarixi, mədəniyyəti, beynəlxalq münasibətləri, iqtisadiyyatı, coğrafiyası üzrə ixtisaslaşırlar.

Universitet Beynəlxalq Kadrlar Akademiyasının, Qara dəniz hövzəsi ölkələrinin universitetləri assosiasiyasının, Rus dili və ədəbiyyatı müəllimlərinin beynəlxalq assosiasiyası (RDƏMBA), Avropa universitetləri assosiasiyasının (Maqna Charta Universitatum) üzvüdür.

Universitet Rusiya, Ukrayna, Rumıniya, Bolqarıstan, Fransa, Yunanıstan, Çexiya, Polşa və Slovakiya ilə tələbə mübadiləsi üzrə müqavilə bağlayıb. 2001-ci ilin oktyabrında universitetdə Ukrayna mədəni-maarif mərkəzi yaradıldı. Onun nəzdində isə Ukrayna bazar günü məktəbi fəaliyyət göstərir.

2006-cı ildə Bakı Slavyan Universiteti ilə M.Qorki adına Ural Dövlət Universiteti arasında tərəfdaşlıq barədə müqavilə imzalandı. Universitetin 2007-ci ildə Moskva Pedaqoji Universiteti ilə əməkdaşlığa dair müqaviləsi də var. 2009-cu il sentyabr ayının 1-də Bakı Slavyan Universiteti ilə Almaniyanın Bonn Universiteti arasındakı birgə layihə çərçivəsində almaniyalı tələbələrin rus və Azərbaycan dillərini öyrənməsi üçün yay məktəbləri də açıldı.

Azərbaycanda akkreditə olunmuş müxtəlif ölkələrin səfirləri Slavyan Universitetində yaradılmış "Səfir saatı" klubunda öz ölkələrinin mədəniyyəti, tarixi, iqtisadiyyatına dair məruzələrlə, müntəzəm olaraq çıxış edirlər. Universitet MDB işləri üzrə Rusiya Federal Tərəfdaşlar Təşkilatları sırasına daxildir.

2015-ci il aprel ayının 2-də Bakıda "Böyük Qələbənin yubileyi: nəsillərin canlı xatirəsi" adlı beynəlxalq konfrans keçirildi.

MDB Beynəlxalq Humanitar Əməkdaşlıq Fondunun dəstəyi və Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər üzrə şöbə müdirinin müavini Ərəstun Mehdiyevin sədrliyi ilə "Şimal-Cənub" Politoloji Mərkəzinin keçirdiyi forumda Azərbaycan, Rusiya, Belarus, Qazaxıstan, Tacikistan və Özbəkistanın tarixçi alimləri, Böyük Vətən müharibəsi iştirakçıları, ictimai təşkilatların nümayəndələri, o cümlədən, Belarus Milli Akademiyası Tarix İnstitutunun direktoru Vyaçeslav Daniloviç, Qırğızıstan Perspektiv Tədqiqatlar Mərkəzinin prezidenti, fəlsəfə elmləri doktoru Sergey Masaulov, Rusiya Federasiyası Federal Şurasının Sosial Siyasət Komitəsinin sədr müavini Lyudmila Kozlova, Tacikistan Elmlər Akademiyası Tarix İnstitutunun Ən yeni tarix şöbəsinin müdiri Abdulla Qafurov iştirak edirdilər. Özbəkistan Elmlər Akademiyası Tarix İnstitutunun Müasir tarix və beynəlxalq araşdırmalar şöbəsinin müdiri Rövşən Nəzərov, AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşları Cəbi Bəhramov, İradə Bağırova, İlqar Niftəliyev, Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Böyük Vətən müharibəsi veteranları, başqa ölkələrdən gəlmiş digər nümayəndələr, tarixçilər, politoloq və jurnalistlər konfrans iştirakçıları arasında idi. Bakı Slavyan Universitetinin o vaxtki rektoru, filologiya elmləri doktoru, professor Asif Hacıyev konfrans iştirakçılarını salamladı.

Tədbirdə çıxış edən Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər üzrə şöbə müdirinin müavini Ərəstun Mehdiyev söylədi:

"Alman-faşist qoşunlarının güclü hücumları qarşısında şərəflə da-








***Ərəstun Mehdiyev, Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər üzrə şöbə müdirinin müavini***

yanaraq ölüm-dirim döyüşlərində igidlik nümunəsi göstərərək bəşəriyyəti XX əsrin bəlasından, faşizm taunundan xilas etmiş İttifaq respublikalarının vətəndaşları üçün Qələbə günü xüsusi məna, əhəmiyyət kəsb edir..."

Daha sonra Ərəstun Mehdiyev çıxışına davam edərək dedi: "Biz, həmçinin keçmiş ittifaq respublikalarında, o cümlədən Ermənistanda Njde Qareqin və başqa nasist cinayətkarların və onların tərəfdarlarının qəhrəman kimi təqdim olunmasına qarşı çıxırıq. Onların ətrafında qəhrəmanlara xas şöhrət parıltısının yaradılması naminə hətta Rusiyada mövcud olan resursların müəyyən hissəsindən də istifadə edilir".

Konfrans iştirakçıları keçmiş İttifaq respublikalarının faşizm üzərində Qələbədəki rolundan, qazanılan Qələbənin tarixi əhəmiyyətindən və insanların taleyinə onun təsirindən danışdılar.

Müharibə tarixinin qorunub saxlanılması, onun gələcək nəsillərə ötürülməsi, kütləvi-informasiya vasitələrində, elmi əsərlərdə çox vaxt Böyük Vətən müharibəsi tarixinin təhrif edilməsi, saxtalaşdırılması və bu kimi başqa məsələlər konfransın müzakirəyə çıxardığı əsas mövzulardan idi.



Konfransın iki plenar sessiyasında "Böyük Vətən müharibəsindəki Qələbə bizim ümumi nailiyyətimizdir", "Böyük Vətən müharibəsi insanların taleyində", "Bizim hamımız Böyük Vətən müharibəsindəki Qələbənin varisləriyik", "Azərbaycan igidləri 1941-1945-ci illər Böyük Vətən müharibəsində", "Azərbaycan qadınları. Onların Böyük Vətən müharibəsindəki qələbəyə bəxş etdiyi töhfələr", eyni zamanda, "Nasizmlə mübarizədə neftçıxarma mərkəzi kimi Bakının rolu" mövzusunda məruzələr dinlənildi.



***Lyudmila Kozlova, Rusiya Federasiyası Federal Şurası sosial siyasət komitəsinin sədr müavini***

Rusiya Federasiyasının Federal Şurasında sosial siyasət komitəsinin sədr müavini Lyudmila Kozlova qeyd etdi ki, Rusiyada Böyük Qələbə haqqında həmişə deyilib və indi də deyilir ki, bu, Sovet İttifaqının, ona daxil olmuş respublikaların müştərək Qələbəsidir.

L.Kozlova sonra bildirdi ki, "Əgər biz həqiqətən müstəqil olmaq istəyiriksə və əgər istəyiriksə ki, bizim fikrimizlə hesablaşsınlar, indi də bir yerdə olmalı, bir-birimizə dayaq durmalı, kömək etməliyik".

Lyudmila Kozlova həm də onu xatırlatdı ki, Böyük Vətən müharibəsində müttəfiqlərimizin, o cümlədən ABŞ və Böyük Britaniyanın bizə köməyini də heç cürə danmaq olmaz.

Senator, həmçinin onu da qeyd etdi ki, aralarında müxtəlif millətlərin nümayəndələri olan müharibə veteranlarına, arxa cəbhədə çalışmış əmək adamlarına Azərbaycan xalqının və Azərbaycan Prezidentinin münasibəti, həqiqətən, rəğbətə layiqdir.

Konfrans çərçivəsində o dövrün hadisələrinə gənc nəsildə marağın artırılma yolları və hərb tarixinin, bununla bağlı xatirələrin yaddaşlara ötürülmə və qorunma mexanizmləri barədə geniş söhbət açıldı.

"Biz, sanki eyni rahatlığa malik böyük bir evin müxtəlif mənzillərində yaşayırıq. Tarixi hadisələrə fərqli baxışları yumşaltmaq, daha doğrusu, aradan qaldırmaq yolunda ilk növbədə gənclərin təfəkküründə bu məsələyə dair eyni fikri formalaşdırmaq lazımdır", - deyə Lyudmila Kozlova bildirdi.

Parlamentari hesab edir ki, hazırda gənclərin ağlı, şüuru uğrunda çox ciddi mübarizə gedir. L.Kozlova əmindir ki, "Böyük Vətən müharibəsinin Vətəni birgə qorumuş xalqların ümumi dərdi, yarası, həm də qürur mənbəyi olduğunu gənc nəslin əxz etməsi vacibdir. Müharibə və onun tarixi xatirəsi yaddaşlara hopan, postsovet məkanında yaşayan xalqların həmişə çox qüdrətli həmrəylik mənbəyi olub, bundan sonra da olacaq".

"Böyük Vətən müharibəsinə verilən ədalətsiz qiymət bu gün də təəssüf və peşmançılıq doğurur".

Bu sözləri Bakıda keçirilən "Böyük Qələbənin yubileyi: nəsillərin canlı xatirəsi" adlı konfransda Qazaxıstan prezidenti yanında Strateji Tədqiqatlar İnstitutunun baş elmi işçisi, siyasi elmlər doktoru Yuri Buluktayev deyib. O, qeyd etdi ki, Böyük Vətən müharibəsində Sovet İttifaqındakı bütün xalqların və millətlərin nü-



***Yuri Boluktayev, siyasi elmlər doktoru (Qazaxıstan)***

mayəndələri, o cümlədən Qazax xalqı da vuruşub. Müharibənin ilk günündən Qazaxıstan Vətənin müdafiəsinə qalxdı. Respublikanın minlərlə sakini cəbhəyə yollandı. Y.Buluktayevin sözlərindən:

"500 nəfərə yaxın qazaxıstanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Biz tariximizi və bu müharibədə xalqlarımızı Qələbəyə aparan o keşməkeşli, çətin yolları həmişə xatırlayır, yadda saxlayırıq".

Politoloq o fikirdədir ki, son vaxtlar sosial şəbəkələrdə Böyük Vətən müharibəsinə ədalətsiz, haqsız qiymət verilməsinə tez-tez rast gəlinir. Yazırlar ki, Sovet İttifaqı bu müharibədə məğlub edilsə idi, daha yaxşı olardı. Guya onlar bunu Avropanın tərkibində yaşamaq arzusu ilə izah edirlər.

Belarus Milli Akademiyası Tarix İnstitutunun direktoru Vyaçeslav Daniloviç Böyük Vətən müharibəsi tarixinin saxtalaşdırılması cəhdlərinə qarşı yönəlmiş tədbirlərdən danışdı:

"Sovet xalqının bu qanlı çarpışmadakı qələbəsinə kölgə salmaq, onun əhəmiyyətini azaltmaq cəhdlərinin tüğyan etdiyi belə bir vaxtda bu cür forumların keçirilməsi, şübhəsiz ki, həddindən artıq vacibdir".





***Vyaçeslav Daniloviç, Belarus Milli Akademiyası Tarix İnstitutunun direktoru***

Azərbaycanlılar Qələbənin qazanılmasına ölkənizin hansı töhfələr verdiyini çox yaxşı bilirlər. Ona görə Bakını qəhrəman şəhər hesab etməkləri təbiidir və həqiqətən də, belədir.

Rusiya Federasiyası İctimai Palatasının üzvü, politoloq-tədqiqatçı Veronika Kraşeninnikova qeyd etdi ki, 3-cü reyxin ən qüdrətli hərbi gücü üzərindəki Qələbə xalqların birliyi sayəsində mümkün oldu. Böyük Qələbənin xatirəsi bizim ümumi yaddaşımızdır. Keçmiş Sovet İttifaqının bütün xalqları Böyük Vətən müharibəsi cəbhələrində və arxada mərdliklə vuruşdular, fədakarcasına çalışdılar. Sovet Ordusuna lazım olan yanacağın 80 faizini Azərbaycan təmin edirdi. Sözsüz ki, burada, arxada işləmək olduqca vacib idi.

Böyük Vətən müharibəsində bütün xalqların göstərdiyi qəhrəmanlıq yaddaşı gələcəkdə qorunacaq sülhün rəhnidir.

Respublika Veteranlar Şurası Bakı şəhər bölməsinin sədr müavini, istefada olan 1-ci dərəcəli kapitan, hərbi jurnalist, Böyük Vətən müharibəsindən bəhs edən 70 kitabın müəllifi Aleksandr Qritçenko Azərbaycanın Böyük Vətən müharibəsində qəhrəmancasına iştirakından və əvəzsiz rolundan danışdı.

A.Qritçenko xüsusilə nəzərə çatdırdı ki, Azərbaycanda heç vaxt Böyük Vətən müharibəsi tarixinin saxtalaşdırılmasına yol verilməyib. Veteran çıxışını aşağıdakı sözlərlə tamamladı: "Ümummilli lider Heydər Əliyev veteranlara həmişə böyük diqqət və qayğı ilə yanaşıb. Prezident İlham Əliyev hər il Qələbə günü veteranlarla görüşür, onlarla birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə güllər düzür".



***Veronika Kraşeninnikova, Rusiya Federasiyası İctimai Palatasının üzvü, tədqiqatçı-politoloq***

# MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ ARTAN XƏTT ÜZRƏ İNKİŞAF EDİR



Azərbaycan-Rusiya əlaqələrinin tarixinə kiçik bir ekskursiya etsək, görərik ki, müstəqilliyimiz bərpa olunduqdan sonrakı ilk illərdə ölkələrimiz arasında münasibətlər o qədər də asan olmayıb. Lakin Azərbaycanın ümummilli lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra vəziyyət yaxşılığa doğru dəyişməyə başlayıb. Məhz 1993-cü ilin yayından müstəqil Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyev Rusiya ilə dostluq münasibətlərinin qurulmasında mühüm rol oynadı, ölkələrimiz arasında strateji tərəfdaşlığın əsaslarını qoydu. Cənab Vladimir Putinin 2000-ci ildə Rusiya prezidenti seçilməsi Azərbaycan-Rusiya münasibətlərinə yeni nəfəs verdi. İki ölkənin liderləri zamanın sınağından çıxmış tarixi əlaqələri bərpa edə, stabil, dinc qonşuluq münasibətləri qura bildilər. Bu münasibətlər prezidentlərimizin səyləri nəticəsində dinamik şəkildə inkişaf etməkdə davam edir. Müasir mərhələdə Azərbaycan-Rusiya münasibətləri artan xətt üzrə inkişaf edir.

Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "ikitərəfli münasibətlərimizdə təcili olunması tələb olunan hansısa məsələ yoxdur". Bu gün Azərbaycan və Rusiya strateji tərəfdaşdır. Son illər ərzində birgə səylərimiz nəticəsində hər iki tərəf üçün mühüm olan bir sıra məsələlər üzrə optimal, qarşılıqlı qəbul olunan və hər iki tərəfin xeyrinə həll yolları tapa bilmişik. Dövlət sərhədi barədə müqavilə imzalanıb, Samur transsərhəd çayının mühafizəsi və rasional istifadəsi məsələsi həll olunub, Xaçmaz rayonunun iki kəndində yaşayan Rusiya vətəndaşları ilə bağlı situasiya nizamlanıb. Qeyd etmək istəyirəm ki, Xəzərin statusu ilə bağlı Moskva, Bakı və Astananın mövqelərinin yaxınlaşması prosesi faktiki olaraq başa çatıb. Bu, perspektivdə bütün Xəzəryanı ölkələr arasında konsensusun əldə olunmasını təmin edə bilər.

Biz Rusiya rəhbərliyinə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində verdiyi aktiv dəstəyə görə dərindən minnətdarıq. 155 ölkənin dəstəyi ilə Azərbaycanın bu posta seçilməsi ölkəmizin beynəlxalq arenada artan rolunu göstərən əsl tarixi hadisədir. İqtisadi-ticarət əlaqələrinin əsas parametrləri ikitərəfli münasibətlərin pozitiv inkişaf tendensiyalarını təsdiqləyir: "1996-cı ildən Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığa dair hökumətlərarası komissiya fəaliyyət göstərir. Komissiyanın mütəmadi iclasları keçirilir, burada iqtisadi-ticarət tərəfdaşlığının prinsipial məsələləri müzakirə olunur, bu sahəyə dair konkret təkliflər işlənib hazırlanır. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşı olub və olmaqdadır. MDB ölkələri ilə ticarət dövriyyəmizin 50 faizdən çoxu Rusiyanın payına düşür. Ötən il iki ölkə arasında ticarət dövriyyəsinin həcmi rekord həddə çataraq 2 milyard 828 milyon dollar təşkil edib. Başqa sözlə desək, ticarət dövriyyəsinin həcmi 2010-cu illə müqayisədə 47,4 faiz artıb. Bu, əlbəttə ki, bizi sevindirməyə bilməz. Deməli, qarşıda daha yaxşı perspektivlər var".

Rusiyanın 70-dən artıq regionu Azərbaycanla əməkdaşlıq edir.

**Ramiz Mehdiyev, Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik**





Mədəniyyətlərarası dialoq üzrə Ümumdünya Forumunun toplanış mərkəzi kimi Bakının seçilməsi təbii və məntiqlidir. Çünki Bakı tarixən, ta qədimdən bəri nəqliyyat, ticarət yollarının kəsişdiyi məkanda yerləşdiyindən özünə bir çox mədəniyyətləri çəkib və onlardan çox şeyi əxz edib.

Heç təsadüfi deyil ki, son bir neçə ildə Bakıda çoxsaylı beynəlxalq festivallar, böyük mədəniyyət bayramları keçirildi. Məsələn, dahi bakılı Mistislav Rastropoviçin xatirəsinə həsr olunmuş festival, muğam festivalı. Bütün bunlar Bakıya xas, Bakıya bağlı olan hadisələrdir. İstər peşəkar siyasətçilər və ya iqtisadçılar, istərsə də Bakıya üz tutan ən adi turistlər, yaxud humanitar sahəni təmsil edən nümayəndələr olsun, son illərdə bir nəfər görmədim ki, Bakıdan qayıdandan sonra burada gördüklərinə heyran qaldığını bəyan etməsin. Özü də bu, sadəcə dadlı Azərbaycan mətbəxi, bizim qonaqpərvərliyimizlə və ya təbiət mənzərələri, gəzib-görməli yerlərlə bağlı komplimentar heyranlıq deyil.

Məhz görülən konkret işlər insanlarda böyük təəssürat yaradır. O işlər ki, Azərbaycana gələn hər bir kəs onu öz gözü ilə görür, inşa edilmiş yeni evlər, binalar, yollar, çox güclü təsir bağışlayır. Bütün bunlar xoş təəssürat yaratmaya bilməz. Axı, dünyada heç nə təsadüfən baş vermir...

**Mixail Qusman,**
**ITAR-TASS Agentliyi Baş direktorunun birinci müavini**



*Qusman Mixail və Qusman Yuliy*






# Beynəlxalq Humanitar Forum multikulturalizm meydançasıdır

2014-cü ilin oktyabrında Heydər Əliyev Mərkəzində, artıq ənənəyə çevrilmiş IV Bakı Beynəlxalq Humanitar Forumu keçirildi. Forum iki gün davam etdi. Bu ikicə gün ərzində səkkiz "dəyirmi masa" təşkil edildi.

Azərbaycan Prezidenti, Forumun həmsədri İlham Əliyev tədbiri açaraq söylədiyi nitqində dünya ictimaiyyətinin Dağlıq Qarabağ münaqişəsinə biganəliyini, ədalətsiz yanaşdığını da qeyd etdi:

"Burada biz ikili standartla qarşılaşırıq. Bir sıra hallarda biz BMT qətnamələrinin bircə günün ərzində yerinə yetirilə bildiyini görürük, bizə çatanda isə 20 ildir ki, BMT-nin qətnamələri yerinə yetirilmir. Bütün bu müddət ərzində BMT Təhlükəsizlik Şurası və bir çox beynəlxalq təşkilatlar tərəfindən çoxlu sayda qərarlar qəbul edilib, hamısı da kağız üzərində qalıb"... Prezident İlham Əliyev onu da əlavə etdi ki, region üçün ən böyük təhlükə olan bu münaqişənin beynəlxalq hüquq çərçivəsində tezliklə həll olunması Qafqazda sabitlik və təhlükəsizlik şəraitində dövlətlərarası əməkdaşlığa münbit zəmin yaratmış olardı.

Müasir dünyada Asiyanın da, Avropanın da baxışlarını, nəzər nöqtələrini dürüst dəyərləndirən Prezident İlham Əliyev Azərbaycanın müstəsna rolunu bir daha vurğuladı.

Prezident dedi:

"Dünyada gedən proseslər belə tədbirlərin keçirilməsinə zərurət yaradır. Bu gün dünya obyektiv humanitar təhlilə ehtiyac duyur. Azərbaycanda heç bir zaman milli-dini zəmində qarşıdurmanın olmaması faktı dövlətin gücünü və cəmiyyətin həmrəyliyini bir daha sübut edən böyük nailiyyətimizdir. Bu məsələdə Azərbaycanın müsbət, başqalarına örnək olası təcrübəsi var və biz yeri gəldikcə öz müsbət töhfələrimizi dünyaya bəxş edirik...".

Bakıya səfərə gələn Rusiya Federasiyası Federal Şurasının sədri Valentina Matviyenko Forumun həmsədri, Rusiya Prezidenti Vladimir Putinin Foruma göndərdiyi məktubu oxudu.

Rusiya Federasiyası Prezidentinin məktubunda deyilir: "Bu möhtəşəm beynəlxalq tədbirin nüfuzu ildən-ilə artır. Bu dəfə Rusiya və Azərbaycan dövlət başçılarının rəhbərliyi altında keçirilən Forum dünyanın onlarla ölkəsindən gəlmiş görkəmli siyasətçiləri, alim və ziyalıları bir yerə toplayıb. Sizin Forumun gündəliyi daha rəngarəng, daha müxtəlif, daha dolğundur. Onun birləşdirici xarakteri, iştirakçıların elm, təhsil, mədəniyyət və incəsənət sahəsində qarşılıqlı əməkdaşlığın daha da dərinləşməsinə ümumi can atmaları və bu baxımdan çalışmaları dəyişməz olaraq qalır.

Əminəm ki, Forumdakı məzmunlu və faydalı müzakirələr, yeni ideyalar, təşəbbüslər real fəaliyyətdə layihələrdə, təcrübədə öz əksini tapacaq, gerçəkləşəcək, xalqlar arasında mehriban qonşuluğun və qarşılıqlı anlaşmanın, inamın, etibarın möhkəmləndirilməsinə yardım göstərəcəkdir..."

Valentina Matviyenko isə özlüyündə diqqəti Forumun nüfuzunun get-gedə artmasına çəkdi. O, qeyd etdi ki, bu forumu qeyri-formal olaraq "İntellektual Davos" adlandıranlar hardasa haqlıdırlar.



*Valentina Matviyenko,*
*Rusiya Federasiya Şurasının sədri*

Rusiya Federasiya Şurasının sədri belə hesab edir ki, "Forumun əhəmiyyəti, xüsusən də indiki beynəlxalq şəraitdə dünya çapında keçirilən mühüm iqtisadi tədbirlərdən heç də geri qalmır. Əlbəttə, bunun özü də bir qanunauyğun nəticədir".

Xatırladaq ki, vaxtilə Rusiya və Azərbaycan prezidentləri tərəfindən təşəbbüs kimi irəli sürülən Bakı Beynəlxalq Humanitar Forumunun məqsədi bütün bəşəriyyətin maraqlarını əks etdirən, geniş əhatəli məsələlər üzrə dialoqların aparılmasıdır. Bunun üçün hər il dünyanın müxtəlif guşələrindən siyasətin, mədəniyyət və elmin ən seçilmiş nümayəndələri Bakıya toplaşırlar. Onların söylədiyi fikirlər, gəldiyi nəticələr beynəlxalq qurumlar, eləcə dövlət rəhbərləri üçün də məsləhət, tövsiyə xarakterlidir.

Azərbaycanda tarixən formalaşmış, uğurla inkişaf etdirilən sivilizasiyalar, mədəniyyətlər və dinlərarası zəngin əməkdaşlıq ənənələri planlaşdırma və proseslərin idarəolunma sahəsində müasir innovasiyaların dayanıqlı yüksəlişi, XXI əsrdə bəşəriyyətin rastlaşdığı qlobal humanitar böhranların, çoxsaylı problemlərin müzakirə edildiyi bir müstəviyə çevrilmə faktını qabaqcadan müəyyənləşdirmiş oldu.

Forumun işində dünyanın 60 ölkəsindən 500-ə qədər görkəmli ictimai və dövlət xadimi, alimlər, o cümlədən 14 nəfər Nobel mükafatı laureatı, vətəndaş cəmiyyəti və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdi.

Məlumdur ki, BMT-nin təşəbbüsü ilə irəli sürülmüş, 190 ölkə və 23 beynəlxalq təşkilat tərəfindən qəbul edilmiş "gələcəksiz inkişaf", "bərabərliksiz inkişaf" neqativ halların aradan qaldırılmasına yönəlmiş, minilliyin proqramı məqsədlərinə, eləcə də 2015-ci ildən sonrakı dövrə hesablanmış tərəqqinin müxtəlif aspektləri sırasındadır.

Sabit, dayanıqlı inkişaf həmçinin "Azərbaycan-2020 - gələcəyə baxış" İnkişaf Konsepsiyasının da əsas hədəfidir.

Forum çərçivəsində keçirilən "dəyirmi masada" iştirakçılar Azərbaycanda sabit inkişafın planlaşdırılması, idarə olunması, sosial istiqamətdə əldə olunan yüksək nailiyyətlər barədə çoxsaylı çıxışlar etdilər. Həmin uğurlar Forumun yekununda qəbul edilmiş məramnamədə humanitar inkişaf sahəsində mühüm amillər kimi öz əksini tapmışdır.



*İrina Bokova, YUNESKO-nun Baş direktoru*



# AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI ASC

*Böyük Vətən müharibəsində həlak olmuş bütün həmvətənlərimizin xatirəsi önündə baş əyirik. Biz doğma Azərbaycan tarixinin həmin şanlı səhifələri ilə, haqlı olaraq, qürur duyur, fəxr edirik. 1945-ci ilin Qələbə müjdəli 9 mayı hər il bizdən getdikcə uzaqlaşır. Lakin Azərbaycan xalqının Böyük Vətən müharibəsi illərində ön və arxa cəbhələrdə göstərdiyi şücaət və onunla bağlı xatirələr qədirbilən nəsillərin qəlbində daim yaşayacaq!*





# M.V.Lomonosov adına MDU-nun Bakı filialı - tərəqqi yolunda

A-yeddi ildən çoxdur ki, filologiya elmləri doktoru, professor Nərgiz Paşayevanın rəhbərlik etdiyi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı fəaliyyət göstərir.

"...Filialın açılması təkcə təhsil baxımından deyil, həm də çox mühüm ictimai-mədəni humanitar əhəmiyyətə malik, olduqca vacib dövlətlərarası, hadisədir" AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Nərgiz Paşayeva sözlərinə belə davam etdi: ***"Bakıda Filialın yaranma ideyası bir az bundan əvvəl ortaya çıxdı. Layihə lap tez gerçəkləşdi. Prezident İlham Əliyevin bu işdə çox böyük əməyi var. Məhz onun şəxsi təşəbbüsü və dəstəyi sayəsində bu ideya uğurla başa çatdı"***.

MDU-nun Bakı filialı inteqrasiya əlaqələrinin, xüsusən də, Azərbaycanla Rusiya arasında humanitar əməkdaşlığın inkişafına əvəzsiz töhfələr bəxş edir.

Müasir təhsil müəssisəsi çox sürətlə dəyişən dünyada gənc nəsli həyata hazırlamalıdır. Təhsilin ən ümdə vəzifəsi nəinki vətəndə, eləcə onun hüdudlarından kənarda ixtisaslı kadrlara, mütəxəssislərə olan tələbatı yeni tədris metodları ilə kreativ, yaradıcı şəkildə uyğunlaşdırmaqdır.

Yeni prinsiplər və texnologiya dövrü ilə, hər şeydən öncə, fəlsəfi, humanitar və mənəvi cəhətdən ayaqlaşmaq vacibdir.

MDU Bakıya dərs deməyə gələcək müəllimlərin, eləcə də ölkə pedaqoqlarının yüksək peşəkarlığına, tələbələrimizin müasir tələblər baxımından keyfiyyətli təhsil almalarına təminat verir.

Bakı filialı Moskva Universiteti ilə sıx sürətdə bağlıdır. Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixindən başqa, qalan bütün fənlərin tədrisi MDU-nun professor-müəllim heyəti tərəfindən aparılır. Dərslər MDU elmi şurasının təsdiqlədiyi proqram üzrə keçilir.

Bakı filialı hər iki tərəfi qarşılıqlı surətdə zənginləşdirir - mədəni-elmi əlaqələri bərpa edərək, Rusiya və Azərbaycan alimlərinin birgə çalışmaları üçün geniş üfüqlər açır.









***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və M.V.Lomonosov adına MDU-nun rektoru Viktor Sadovniçi MDU Bakı filialının açılışında***



***MDU Bakı filialının tələbələri fəxri qonaqlarla***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Bakı filialının açılışındakı nitqindən:

"Ən başlıcası, bu gün biz MDU-nun Baki filialının simasında Azərbaycanda dünya səviyyəli ali təhsil müəssisəsini görürük. Çünki MDU dünyanın aparıcı təhsil müəssisələrindən biri Rusiyada zəngin ənənələri olan qabaqcıl təhsil ocağıdır. Yüksək təhsil səviyyəsinə gəldikdə isə, əlbəttə, bu filialın harada yerləşməsindən asılı olmayaraq, MDU-nun qoruyub-saxladığı standartlar mövcuddur.

Mənim bildiyim qədər, MDU-nun Bakı filialında da təhsil ən yüksək səviyyədədir. İstərdim bu gözəl gündə, MDU-nun rektoru, bizim böyük dostumuz Viktor Antonoviç Sadovniçə, MDU-nun Bakı filialının rektoru Nərgiz Paşayevaya, həmçinin əslində sıfırdan başlayaraq, bir neçə il ərzində müasir təhsil müəssisəsi yaratmış bütün yerli və moskvalı müəllimlərə təşəkkürümü bildirim.

Dediyim kimi, filial bir neçə ildir ki, fəaliyyət göstərir. Bu il birinci buraxılış oldu. Amma nəticələr artıq göz qabağındadır. Mənim fikrimcə, yaxın illərdə biz filialı bitirən məzunların Azərbaycandakı faydalı fəaliyyətinə də şahidlik edəcəyik".

***MDU-nun Bakı filialının rektoru, filologiya elmləri doktoru Nərgiz Paşayeva:***



"MDU-nun Bakı filialı insani münasibətlərin, elmlər, millətlər və əlbəttə ki, dövlətlərarası əlaqələrin inkişafı baxımından yüksək missiya yerinə yetirir. Bu istiqamətdə görülən işlər, xalqın mütərəqqi ziyalıları, ictimai xadimləri, görkəmli maarifçi və alimləri tərəfindən ötən əsrlərdə Azərbaycanda bünövrəsi qoyulmuş tarixi ənənələrin davamıdır. Bizim ali məktəbə də bu nöqteyi-nəzərdən baxmaq lazımdır.

Bu gün Azərbaycan regionda inkişaf etmiş, tolerant bir dövlətdir. Bu, həqiqətən də, uzun sürən bir tarixi prosesdir. Hələ XII əsrdə Azərbaycanda dahi Nizami xalqlar dostluğunu, bütün irqlərə aid insanların bərabərliyini tərənnüm edirdi. Bünövrəsiz, ənənəsiz, birdən-birə heç nə baş vermir.

Rus dilinin öyrənilməsi təkcə Azərbaycan üçün deyil, postsovet respublikalarının hər biri üçün əhəmiyyətlidir. Rus dilini bilmək təkcə uzun bir tarixi zaman kəsiyində tərkibində olduğumuz nəhəng bir dövlətin dili olduğundan önəmli deyil. Bu, iqtisadi-siyasi gümanlar səbəbindən də izah oluna bilməz. Rus dilinə yiyələnmədən, biz özümüzü dünyadakı ictimai, mədəni və elmi-tərəqqi barədə məlumat almaq imkanlarından məhrum etmiş olardıq".





# Azərbaycan inkişafını uğurla davam etdirir



***Əli Həsənov, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi***

Cənab İlham Əliyev 2003-cü ildə Azərbaycanın Prezidenti seçildikdən sonra ümummilli lider Heydər Əliyevin siyasi kursunu, milli inkişaf siyasətini dönmədən və uğurla davam etdirmişdir.

Ötən illər ərzində Prezident İlham Əliyev ölkəmizin geosiyasi vəzifələrinə və inkişaf ehtiyaclarına uyğun fəaliyyət konsepsiyasını və strategiyasını, dövlətin daxili və xarici siyasətinin prioritetlərini, istiqamət və vəzifələrini düzgün müəyyənləşdirmiş, respublikamızı beynəlxalq və regional münasibətlər sistemində

Müstəqil dövlət tariximizin 25 illik dövrünün milli dəyərini müəyyən edən ən başlıca amillər, ilk növbədə Azərbaycanın bir dövlət olaraq tam formalaşması, özünü təmin edən iqtisadiyyata, maddi, mənəvi və insan resurslarına, milli-vətəndaş birliyinə, əhali tərəfindən dəstəklənən vahid inkişaf kursuna, daxili sabitliyə, güclü ordu və müdafiə potensialına malik olması və bütün bunlara söykənərək qlobal səviyyədə tam müstəqil daxili və xarici siyasət yürütməsi hesab oluna bilər.

Müstəqil dövlət quruculuğu zamanı Heydər Əliyevin əsasını qoyduğu yeni neft strategiyası və digər transmilli enerji-nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi, sözün həqiqi mənasında, Azərbaycanı geoiqtisadi cəhətdən dünyanın aparıcı dövlətləri və şirkətləri üçün cəlbedici tərəfdaş etdi. Beləliklə, ölkənin əlverişli geoiqtisadi dəyəri yalnız neft-qaz sektoru ilə məhdudlaşmadı, yürüdülən düzgün iqtisadi inkişaf strategiyası ümumilikdə Azərbaycanı Avrasiyanın iqtisadi, siyasi və sosial-mənəvi cəhətdən dinamik inkişaf edən bir ölkəsinə, dövlətlərarası əlaqələrdə ciddi geosiyasi aktora çevirdi.

fəal təmsil etmişdir. Uğurlu geosiyasi idarəçiliyin nəticəsi olaraq ötən dövrdə Azərbaycanın xarici aləmlə səmərəli əməkdaşlığı daha da möhkəmlənmiş, dünya siyasətinə təsir gücü olan böyük dövlətlərlə, beynəlxalq və regional qurumlarla tərəfdaşlıq münasibətləri inkişaf etmiş, ölkənin nüfuzlu xarici alyanslarda, beynəlxalq qurumlarda iştirakı təmin edilmişdir.

Müasir dünyada geoiqtisadi dəyər həm də ölkədə yürüdülən iqtisadi, siyasi, sosial, milli və s. siyasətin xarakteri və effektivliyi ilə ölçülür. Azərbaycan özünün pozitiv inkişaf meyillərini - iqtisadiyyatın liberallaşdırılması, Qərblə iqtisadi əlaqələrini və liberal iqtisadiyyat mexanizmlərini inkişaf etdirilməklə yanaşı, həm də ölkə daxilində sabit vətəndaş birliyinin, multikultural mühitin yaradılması istiqamətində mühüm nailiyyətlər qazanmışdır. Əlverişli coğrafi məkanda yerləşən Azərbaycan dünyada zəngin multikultural dəyərlərə, tolerantlıq ənənələrinə malik olan və müxtəlif dinlərin yanaşı mövcud olduğu çoxmillətli, çoxkonfessiyalı dövlət kimi tanınır.



*Ədalət Muradov,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru*

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqı çox çətin istiqlal yolu keçərək, öz birliyini və ölkəmizin milli dəyərlərini qorumağı bacardı. Belə ki, bu özülə güvənərək dövlət institutlarını möhkəmləndirdik, sosial-iqtisadi dəyişmələrin, islahatların geniş miqyasda davam etdirilməsi üçün iqtisadi bünövrə, yarada bildik. Ən başlıcası isə, indi biz özümüzü şərəfli əmək ənənələrinə, zəngin tarixə malik, vahid Azərbaycanın vətəndaşları kimi hiss edirik.

Ölkəmiz üçün əlamətdar olan bu gündə Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi adından sizi əziz bayram, Qələbə günü münasibəti ilə təbrik edirəm. Müharibə veteranlarına, arxa cəbhədə gecə-gündüz bilmədən zəhmət çəkən Qələbə gününü yaxınlaşdıran insanlara öz təşəkkürümü bildirirəm!

Qeyd etmək lazımdır ki, Böyük Vətən müharibəsi iştirakçıları arasında təhsilini başa vurmadan, elmi tədqiqatlarını yarımçıq qoyub cəbhəyə getmiş müəllimlərimiz, tələbələrimiz az olmayıb. Burada qalanlar isə dəzgah arxasında dayanaraq, rahatlıq bilmədən Qələbə naminə fədakarlıqla çalışıblar.

Biz sizinlə fəxr edirik! Qürur duyuruq ki, on minlərlə azərbaycanlı faşizmlə qəhrəmancasına vuruşaraq qalib gəlib! Bizim sülh, əmin-amanlıq içində yaşamaq haqqımızı qoruyub-saxlayanların hamısına hörmət və ehtiramımı, dərin minnətdarlığımı bildirirəm!





Zaman sovet xalqının Qələbəsini tarixin yaddaşından silmək iqtidarında deyil

Böyük Vətən müharibəsinin başa çatmasından bizi 70 ildən çox bir dövr ayırır. 9 May bütün veteranlar üçün ən əziz və həyəcan doğuran bir bayramdır.

Ötən illər ərzində bizim həyatımızda çox şeylər dəyişib. Elə dünyanın özü də dəyişib. Lakin zaman o dəhşətli və müqəddəs müharibənin faciəvi, qəhrəmanlıqla dolu anlarını yaddaşlardan silmək iqtidarında deyil. Döyüş meydanlarında təkcə Avropanın deyil, bütün bəşəriyyətin taleyi həll olunurdu.

SSRİ respublikalarından Belarus, birinci olaraq onun üzərinə yönəlmiş minlərlə ton aviabombaların zərbələrinə məruz qaldı. Həmin zərbələr, faşistlərin Şərq cəbhəsindəki ən qüdrətli üç hərbi qruplaşmasından biri olan "Mərkəz" ordu qrupuna aid zirehli tank diviziyalarının yolunu təmizləyirdi.

Müharibənin başlanğıcında Belarusda düşmənə göstərilən inadlı müqavimət almanların Moskva üzərinə sürətli hücum planını pozdu. Lakin işğalçıların qarşısını almaq mümkün olmadı. 1941-ci il sentyabr ayının əvvəlində Belarus tamamilə işğal olundu.

Nasistlər Belarus torpağında özlərinin üsul-idarəsini yaymaq vasitəsi kimi qanlı terror və soyqırım siyasətini seçdilər. Alman qayda-qanunlarına cüzi şəkildə boyun əyməmək güllələnmə ilə cəzalanırdı. 380 min nəfər insan əsir alınaraq, məcburi şəkildə Almaniyaya aparıldı. Onların da, demək olar ki, tən yarısı yollarda, düşərgələrdə məhv olub getdi. Belarus ərazisində 260 ölüm düşərgəsi, yüzlərlə gettolar yaradıldı.

Almaniya rəhbərliyi «Ost» planına əsasən, Belarus xalqının dörddə üç hissəsini qırıb-çatmağı və ya Şərqə köçürməyi, yerdə qalanını isə qul kimi işlətməyi planlaşdırırdı.

Lakin, Belarusiyanı diz çökdürə bilmədilər. Mil-yondan artıq Belaruslu Sovet ordusu sıralarında mərdliklə döyüşərək, Vətənin müdafiəsinə qalxdı. 1941-1945-ci illərdəki Böyük Vətən müharibəsi Belarus Respublikası üçün sadəcə qəhrəmanlıq tarixi deyil. Bu, özünün hər dörd nəfərindən birini itirmiş bir xalqın faciəsidir. Bu, yerlə-yeksan edilmiş, daşı-daş üstə qalmayan şəhər və kəndlər, od vurulmuş meşələr, məhv edilmiş mədəni və tarixi abidələrdir.

Möhtəşəm Belarus partizan hərəkatının tarixi təcrübəsi, onun strategiyası və taktiki gedişləri indiki dövrdə də öz aktuallığını itirməyib.



Müharibə başlayandan bir il sonra Bularusiyadakı partizan dəstələrində 50 minə yaxın döyüşçü vardı. Ümumiyyətlə, müharibə illərində Belarusda düşmən arxasında 1100-dən artıq partizan dəstəsi fəaliyyət göstərirdi. Partizan ordusunun dəstə və briqadalarda qeydə alınmış 374 min nəfər döyüşçüsü vardi. Bunlarin arasinda keçmiş SSRİ-də yaşayan 70-ə yaxın millətin nümayəndəsi vardı. Xalq qisasçılarının sıralarında dörd min nəfərə yaxın xarici antifaşist, o cümlədən 3 min polyak, 400 slovak və çex, 235 yuqoslav, 70 macar, 60 fransız, 31 belçikalı, 24 avstriyalı, 16 holland, 100-ə qədər alman və Avropa xalqlarının digər nümayəndələri döyüşürdülər.

1942-ci ilin may ayının 30-da Sovet Silahlı Qüvvələrinin Ali Baş Komandanlığının Qərargahı yanında partizan hərəkatının Mərkəzi qərargahı yaradıldı.

1942-ci ilin noyabrında Əlahiddə Belorus toplantısı bazasında döyüşçü kadrların hazırlanması məqsədi ilə Belorus partizan məktəbi yaradıldı.

Məktəbdə eyni vaxtda 170-dən 200-ə qədər kursant məşğul olurdu. Respublikanın ərazisində partizan diyarları, zavodları yaradıldı. Bu diyarlar, zonalar xalq qisasçılarının nəzarəti altında idi. Bir çox iri şəhər, rayon mərkəzi və qarnizonlar partizanlar tərəfindən daim blokadaya alınırdı. 1943-cü ilin axırına yaxın respublika ərazisinin 59%-i partizanların nəzarəti altında idi. 20-dən çox partizan zonası mövcud idi.

Yerli sakinlər partizanlara çox böyük yardım edirdilər. Müharibə illərində 400 min nəfərdən çox yerli sakin partizan dəstələrinin ehtiyatında idi.

Belarus partizanları 1941-ci ilin iyun ayından 1944-cü ilin iyuluna kimi 500 min alman-faşist işğalçısını və onların əlaltılarını məhv etmiş, yaralamış və əsir götürmüşdülər. Düşmənin 948 qərargahı dağıdılmışdı, 11.128 eşalonu, 34 zirehli qatarı, 305 təyyarəsi, 1355 tankı, 18700 avtomobili, 938 silah-sursat anbarı partladılmışdı.

Sovet İttifaqının Şərq rayonlarına köçürülmüş milyon yarımdan çox Belaruslu öz əməkləri ilə cəbhəyə kömək edir, var qüvvələri ilə Qələbənin əldə olunmasına çalışırdılar.





Dünyada heç bir ölkə faşist işğalının ağırlığını, məşəqqətini bu cür hiss etməmişdi. Eyni zamanda faşistlər də heç yerdə belə güclü, qarşısıalınmaz partizan hərəkatı ilə rastlaşmamışdı.

Birbaşa hərbi əməliyyat sahəsindən uzaqlarda olmasına baxmayaraq Azərbaycan da Böyük Vətən müharibəsindəki qələbəyə müstəsna töhfələr verdi. Respublika ərazisində var gücü ilə neft yataqlarını ələ keçirməyə çalışan alman qoşunlarını dəf etməyə qadir olan 87 qırıcı batalyon, 1124 özünümüdafiə və 15 min nəfərlik heyətə malik hava hücumundan müdafiə dəstələri yaradıldı.

Arxa cəbhənin əməkçiləri ağır müharibə illərində gecə-gündüz ara vermədən çalışırdılar. Cəbhədəki hər beş təyyarədən, tankdan və avtomobildən dördü Bakının istehsal etdiyi benzinlə doldurulurdu.

Müharibənin birinci ilində Bakı neftçiləri hasilatı rekord səviyyəyə çatdırdılar. Azərbaycanda 23,482 milyon ton neft hasil olundu. Bakının neft sənayesi tarixində o vaxtacan bu miqdarda neft emal olunmamışdı. Bu, bakılıların igidliyi, hünəri və o dövrün "Hər şey cəbhə üçün, hər şey Qələbə üçün" çağırışına layiqli cavabı idi.

Belarus xalqı öz xilaskarının hamısını yaxşı xatırlayır, Sovet ordu sıralarında, partizan dəstələrində, Belarus torpağında faşist işğalçıları ilə vuruşmuş qardaş Azərbaycan xalqını da yaddan çıxarmayib, igid övladlarını da ehtiramla yad edir.

Azərbaycan xalqının igid oğulları Belorus torpağında düşmənlə mərdanə vuruşmuş, sözün əsl mənasında, şücaət göstərmişlər. Biz iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun, Sovet İttifaqı Qəhrəmanı, Belarus şəhəri Mogilyovun fəxri vətəndaşı, polkovnik Aslan Vəzirovun, adı Minsk şəhərinin küçələrindən birinə verilmiş Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin mərdanəliyi qarşısında baş əyirik! Qürur hissi ilə qeyd edək ki, Bakıda Belarus Respublikası səfirliyinin yeni binasının yerləşdiyi küçə də Nəcəfqulu Rəfiyevin adını daşıyır.

Eyni zamanda, müharibə illərində Belarus torpağını müdafiə etmiş və onu 1943-1944-də azad etmiş minlərlə azərbaycanlı döyüşçünün ruhu önündə baş əyirik. Onların xatirəsi əbədidir.





Qəhvəyi vəbadan xilas olmaq üçün xalqımız milyona yaxın övladını qurban verib. Elə bir o qədər də döyüşçü, komandir, partizan və məxfi fəaliyyət göstərən insan Belarusun azad edilməsi uğrunda həlak olub. Üç milyon mülki əhali və hərbi əsir faşistlər tərəfindən məhv edildi. Belarus hər üç nəfərindən birini itirdi. Hitlerçilər 200 şəhər və qəsəbəni, 9 mindən çox kəndi dağıdıb, yerlə-yeksan etdilər.

İşğalçılara qarşı mübarizədə kütləvi igidlik və mərdliyə görə Belarusun paytaxtı Minsk də daxil olmaqla, keçmiş Sovet İttifaqının 12 şəhərinə "Qəhrəman şəhər" adı verildi. Brest qalası isə "Qəhrəman qala" adlandı.

Çoxsaylı obelisklər, abidələr, memorial komplekslər, şöhrət kurqanları müharibə qurbanlarının, eləcədə xalq şücaətinin şahididir. Belarusda onların sayı təqribən 9 mindir. Faşizm üzərindəki böyük qələbədə Belarus xalqının xidmətlərini nəzərə alan, 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının yaradılması məqsədi ilə çağırılmış beynəlxalq konfrans BMT-nin təsisçi ölkələri sırasına müstəsna olaraq Belarusun da daxil olunması haqda qərar qəbul etdi. Böyük Vətən müharibəsinin nəticələri Belarus üçün fövqəl dərəcədə ağır oldu. Mütəxəssislərin rəyinə görə, bu müharibədə Belarusa digər Avropa ölkələrindən daha çox ziyan dəydi.

Belə ki, sənaye və energetik gücünə görə respublika 1913-cü il səviyyəsinə endi. İşğalçılar 100.465 sənaye istehsal binalarını yandırıb dağıtdılar. 10.338 sənaye müəssisəsi bütün iri elektrostansiyalar (müharibəyə qədər olanların 85%-i) da daxil olmaqla məhv edildi və ya Almaniyaya daşındı.

10 min kolxoz, 92 sovxoz, 316 maşın-traktor stansiyası, 1200 min kənd binası, o cümlədən 421 min kolxozçunun yaşayış evi viran edildi. Mədəniyyət, elm, təhsil müəssisələri barbarcasına, plânlı şəkildə talan edildi.

Müharibə illərində Belarusda mövcud 12294 məktəbdən 8825-i dağıdıldı. Maddi ziyan nə qədər böyük idisə, insanların həlak olması itkilərin ən ağrılısı idi.





Qələbə Belarus xalqına yenidən misilsiz ruh və qüvvət verdi. Müharibənin başa çatmasından dərhal sonra maşınqayırma nəhənglərinin, Minsk avtomobil və traktor zavodlarının tikintisinə başlandı. Artıq 1950-ci ilin əvvəlində Belarus sənayesi müharibəyə qədərki səviyyəyə çatdı. Sonrakı illər xalqı nəinki müharibə xarabalığından təmizlədi, hətta onu inkişaf etmiş bir respublikaya çevirdi. Bu isə əsl mənada əmək qəhrəmanlığı idi.

Müasir istehsal proseslərini bərpa etməkdə bütün Sovet xalqlarının Belarusa köməyini heç cürə unutmaq olmaz. Rusiyadan, Ukraynadan, Azərbaycandan və başqa respublikalardan gəlmiş yüksək ixtisaslı kadrlar Beloruslularla bir kollektivdə, çiyin-çiyinə çalışaraq, ölkə sənayesində möhkəm bünövrə qurdular. Bu gün Belarus çox güclü iqtisadiyyata, inkişaf etmiş elm və mədəniyyətə, dünyada ən yaxşı təhsil sistemlərindən birinə malik sabit və firavan bir ölkədir.

Ölkədə ardıcıl olaraq sülhsevər siyasət yeridilir. Belarus özünün xarici təhlükəsizliyini, hər şeydən öncə, siyasi vasitələrlə təmin edir. Belarus hətta müdafiə xarakteri daşıyan hərbi doktrina elan etmişdir. Belarus ilk dəfə Baltik dənizindən Qara dənizədək və Avropanın mərkəzində nüvəsiz məkan yaratmaq ideyasını irəli sürmüşdür.

Belarusun dünyadakı dövlətlərin heç biri ilə nə mübahisəsi, nə də ziddiyyəti var. Biz ardıcıl olaraq, ata-babalarımızın, qələbə çalanların vəsiyyət etdikləri kimi sülh və mehriban qonşuluq siyasəti aparırıq. Bizim torpaqlarda yüzdən artıq xalqın və millətin, 26 dini konfessiyanın nümayəndəsi mehriban ailə kimi yaşamaqdadır.

Onların hamısı Belarusun bərabərhüquqlu vətəndaşlarıdır və beloruslarla eyni hüquqlardan yararlanırlar.

Bizim əsas vəzifəmiz öz torpaqlarımızın təhlükəsizliyini qorumaq, ən başlıcası isə xalqımızın rifah halını, güzəranını yüksəltməkdir.

Dünya əhalisinin cəmi 0,19 faizini, ərazisinin isə ancaq 0,14 faizini təşkil edən, özünün karbohidrogen ehtiyatlarına malik olmayan respublika bu gün dünya üzrə ağır yüklü avtomobil istehsalının 30 faizini emalın isə 20 faizini təmin edir. Kənd təsərrüfatı maşınlarının, eləcə ərzaq məhsullarının iri istehsalçısı kimi tanınır.

Belarus əhalisi öz məşğulluğuna görə dünyada ən yaxşı göstəricilərdən birinə malikdir. İşsizliyin səviyyəsi isə burada Şərqi Avropa və MDB ölkələri ilə müqayisədə çox az - 1 faizdən də aşağıdır.

## VƏZİROV ASLAN FƏRHAD OĞLU (1910-1988)



### *Bakıdan Elbayadək*

Bərdə rayonunun Zümrüdxaç kəndində anadan olub. Müharibə onu doğma kəndindən uzaqlarda, Rumıniya ilə həmsərhəd olan Çernovtsı şəhərində haqladı. O, müdafiə döyüşlərinin ağırlığını, geri çəkilməyin acısını dadmağa məcbur oldu. Lakin o, heç vaxt öz soyuqqanlılığını və qələbəyə inamını itirmədi. Xüsusi tapşırığın yerinə yetirilməsində göstərdiyi şəxsi igidliyə görə o, 1941-ci il dekabr ayının 15-də Qırmızı Bayraq ordeni ilə təltif olundu. Aslan Vəzirov müharibənin son gününü də, Qələbəni də Almaniyanın şimalında, Vismar şəhərində qarşıladı. Onun briqadası Omskdan, Minskdən, Varşavadan, Şərqi Prussiyadan düşmənin müdafiəsini yara-yara keçib gəlmişdi.

Aslan Vəzirova 1945-ci il iyun ayının 29-da Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Rusiya Federasiyası Kalininqrad vilayətinin Mamonovo şəhərindəki hərbi hissələrin birində onun büstü qoyulub. Belarusda, Mogilyov şəhərinin Pervomayski küçəsindəki 8 nömrəli binanın fasadında adına xatirə lövhəsi asılıb. Həmin şəhərin Kosmonavtlar və Lazarenko küçələri kəsişən yerindəki bağda Aslan Vəzirovun abidəsi ucaldılıb.

Aslan Vəzirov uzun illər Azərbaycan Ovçular və Balıqçılar Cəmiyyətinə başçılıq edib. Yarandığı gündən Sovet Veteranlar Komitəsinin Bakı bölməsinin sədri olub. Azərbaycan Ali Sovetinin deputatı seçilib.

Bizim köhnə tərəfdaşlarımızın dəstəyi olmadan belə nəticələri təkbaşına əldə etmək mümkün olmazdı. Bizim üçün heç də asan olmayan bir dövrdə Bakının misilsiz köməyini Belarus xalqı heç vaxt unudan deyil. Öz növbəmizdə biz də Azərbaycana kənd təsərrüfatı və avtomobil texnikasının, optik cihazların yığılmasında gücümüz çatan köməyi göstərir, çalışıb əlimizdən gələn hər şeyi edirik ki, bütün layihələr həyata keçirilsin.

Prezidentlər İlham Əliyevin və Aleksandr Lukaşenkonun şəxsi təşəbbüsləri sayəsində Azərbaycan və Belarus xalqlarının sınaqdan çıxmış dostluğuna güvənən ölkələrimiz arasındakı münasibətlər strateji dostluq və əməkdaşlıq səviyyəsinə qaldırılıb. Əməkdaşlıq ruhu ölkələrimiz arasındakı qarşılıqlı münasibətlər sisteminin canına hopub. Biz birbirimizə təkcə tarixi yaddaşla bağlı deyilik. Belaruslarları və azərbaycanlıları qonaqpərvərlik, xoşniyyətlilik, tolerantlıq kimi milli-mənəvi xüsusiyyətlər birləşdirir.

Belarusun və Azərbaycanın dinamik inkişafı, birbirimizə daha da yaxınlaşmaq, iqtisadiyyatın qarşılıqlı surətdə tamamlanması, müasir dövrün əsas problemlərinə ortaq baxış, sosial siyasətin bənzərliyi beynəlxalq arenada dəstək üçün çox güclü təkan oldu.

Bugünkü mövqe baxımından tam məsuliyyətlə demək olar ki, Belarus Cənubi Qafqazda Azərbaycanın simasında özünə çox etibarlı bir dayaq nöqtəsi qazanıb.

Belarus da öz növbəsində, Avropanın mərkəzində Azərbaycan üçün həmin funksiyanı yerinə yetirməkdədir.

Belarus və Azərbaycan xalqı öz qəhrəmanlarına çox böyük hörmət və ehtiramla yanaşır. Bizim ölkəmizdə veteranların daha rahat şəraitdə ömür sürmələri üçün mümkün olan bütün tədbirlər görülür.

Şəxsən Belarus prezidenti və hökuməti sayəsində son illər respublikada müharibə veteranları və əlillərin sosial müdafiəsində aydın və dəqiq sistem yaradılıb. Bu sistem təqaüdlərin artırılmasını, sosial xidmətləri, veteranlara tibbi və sağlamlığın qorunma xidmətlərini əhatə edir.

Sizi, Azərbaycan Respublikasının bütün vətəndaşlarını böyük bayram, Sovet xalqinin faşizm üzərindəki Qələbəsinin 70 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm! Sizə möhkəm cansağlığı, firavanlıq, uzun ömür arzulayıram.

***Nikolay Paskeviç,***
***Belarus Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri***









***Eldar Quliyev,***
***Azərbaycan Kooperasiya Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor***

*Azərbaycan xalqının Böyük Vətən müharibəsində Qələbənin qazanılmasına bəxş etdiyi töhfələr misilsizdir. Soydaşlarımızın cəbhədəki igidliyi, qəhrəmanlığı və üstəgəl arxa cəbhədə Azərbaycan xalqının neft hasilatında, cəbhəyə lazım olan məhsulların istehsalında göstərdiyi şücaət, həqiqətən, tarixi əhəmiyyətə malikdir.*
*Sizin qarşınızda baş əyirik, əziz veteranlar! Bu gün bizim sıralarımızda olmayanların əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq! Gənc nəslə sülh, əmin-amanlıq, məhəbbət və yeni-yeni uğurlar, xoş arzular diləyirik!*







*Belorus Respublikasının Azərbaycandakı səfirliyinin yeni binası rəmzi olaraq Bakıda, Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin adını daşıyan küçədə tikilib.*





# Sizin igidliyiniz ölməzdir!



## RƏFİYEV NƏCƏFQULU RƏCƏBƏLİ OĞLU (1915-1970)

***Onun adı Minskdəki küçəyə verilib***

Nəcəfqulu Rəfiyev Ordubad şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1937-ci ilədək fəhləlik edən Nəcəfqulu hərbi məktəbə daxil olur. Müharibənin dördüncü günü artıq tank batalyonu komandiri olaraq faşistlərlə döyüşə gedir.

N.Rəfiyev bir çox döyüşlərdə fərqlənir. Onun zəhmli döyüş taktikası Jitomir, Xarkov rayonlarında, Belarus torpaqlarında faşistləri əzib məhv edir... Göstərdiyi igidliyə görə 1944-cü il sentyabr ayının 26-da Nəcəfqulu Rəfiyevə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Doğma vətənində isə ona büst qoyuldu. Ordubaddakı küçələrdən biri də onun adını daşıyır. Belarusun paytaxtı Minskdə də M. Rəfiyevin adına küçə və xatirə lövhəsi var.

Nəcəfqulu Rəfiyev həm də 1969-cu ildə Belarusun Qlusk şəhərinin fəxri vətəndaşı seçilib.



## RÜSTƏMOV ƏMİR MƏMMƏD OĞLU (1909-1984)

Rüstəmov Əmir Məmməd oğlu 5 dekabr 1909-cu ildə Şuşada anadan olub.

Sovet hərbi xadimi, mühəndis qoşunları general-mayoru (1955).

1940-cı ildən Sov.İKP üzvü. Kiçik yaşlarından ailəsi ilə birlikdə Aşqabada köçmüşdür. İnşaat texnikumunu bitirdikdən sonra (1931) SSRİ Baş Pambıqçılıq Komitəsinin Tacikistan SSR tikinti terstində mühəndis işləmişdir. 1932-ci ildən Sovet Ordusunda xidmət etmişdir. 1937-ci ilə qədər Orta Asiyada müxtəlif hərbi dəstələrin tərkibində basmaçıların qalıqlarına qarşı mübarizə aparmışdır. 1941-ci ildə V.V.Kuybışev adına Hərbi Mühəndislik Akademiyasını bitirmişdir. 1942-43-cü illərdə Rostov altında, Qafqaz uğrunda gedən vuruşmalarda fəal iştirak etmişdir. Böyük Vətən müharibəsindən sonra Quru qoşunlarının mühəndislik xidməti qərargahı əməliyyat şöbəsinin rəisi təyin olunmuşdur. 1952-ci ildə K.J.Voroşilov adına Hərbi Akademiyanı bitirmişdir. Almaniyada sovet qoşunları qrupunun tərkibində ordu mühəndis qoşunlarının rəisi (1952-56), Sibir Hərbi Dairəsi mühəndis qoşunlarının rəisi (1956-66), V.V.Kuybışev adına hərbi Mühəndislik Akademiyasında kafedra rəisi (1966-69) işləmişdir. 1969-cu ildə ehtiyata buraxılmışdır. Qırmızı Bayraq, Qırmızı Ulduz ordenləri və medallarla təltif olunmuşdur.

# POLAD BÜLBÜLOĞLU – MÜĞƏNNİ, BƏSTƏKAR, NAZİR VƏ DİPLOMAT

Məşhur bəstəkar, müğənni, ictimai xadim, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu 2015-ci ilin fevral ayının 4-də 70 illik yubileyini qeyd etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Polad Bülbüloğlunun yubileyində iştirak etmək üçün Bakıya gəlmiş bir qrup mədəniyyət və incəsənət xadimləri ilə görüşdü.

Prezident İlham Əliyev görüşdə iştirak edən qonaqları salamlayaraq, mədəniyyət və incəsənət xadimlərinin belə tədbirlərdə iştirakini müsbət hal kimi, qiymətləndirdi. Prezident dedi:

"Bizi Polad Bülbüloğlu ilə 40 ildən artıqdır ki, dostluq əlaqələri birləşdirir. Demək olar ki, 40 ildir bir-birimizi tanıyırıq. O vaxtlar mən yeniyetmə idim, Polad Bülbüloğlu isə məşhur müğənni və bəstəkar idi. Mənim valideynlərim Polada səmimi münasibət bəsləyirdilər. Mən də həmişə ona belə münasibət bəsləmişəm.

...Polad Bülbüloğlunun yaradıcılığı xalq yaradıcılığıdır. Onun yaradıcılığının kökləri Azərbaycan tarixinin ən dərin izlərinə gedib çıxır".

Prezident İlham Əliyev onu da qeyd etdi ki, yubilyar, hamının sevdiyi, mahir ifaçı kimi yaddaşlarda qalmış, böyük sənətkar Bülbülün ailəsində dünyaya göz açıb. Dövlət başçısı bildirdi ki, on il bundan əvvəl görkəmli sənətkar "İstiqlal" ordeninə layiq görülüb. Bütövlükdə, Azərbaycanda multikulturalizmə və tolerantlığa xüsusi diqqət yetirilir. Bu amillər ölkənin uğurlu inkişafında heç də az rol oynamır.

Sonra SSRİ xalq artisti İosif Kobzon çıxış etdi:

"Dünən biz Poladın çox gözəl baletinə tamaşa etdik. Artıq ikinci dəfədir ki, onun baletinə baxıram. Məndə belə bir duyğu yaranıb ki, bu musiqi dərin, milli köklərə söykənir. Bunu Sizin unudulmaz atanız da həmişə qeyd edirdi. Polad Azərbaycandan qidalanır. Onun üçün Azərbaycan mənbədir, anadır, həmişə ehtiram göstərdiyi xalqdır. Polad da xalqını Rusiyada layiqincə təmsil edir. Həqiqətən də, o, hərtərəfli istedadlı insandır. Həqiqətən də, Polad respublikanın sərvətidir. Bizdə "Respublikanın sərvəti" adlı veriliş var. Polad isə deyərdim ki,









*Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə görüşü*

respublikasının milli sərvətidir. Çox şadam ki, Siz, böyük Azərbaycanın Prezidenti kimi Polada belə dəyərli münasibət bəsləyirsiniz. Mən gənc dostumu təbrik edirəm.

Sağ olun ki, Siz gözəl xanımınızla bu tədbirə gəldiniz. Sizin xanımınız və onun xeyirxahlığı haqqında da bizim çox gözəl məlumatımız var. Sağ olun ki, mədəniyyətə bu cür gözəl münasibət bəsləyirsiniz. Hər dəfə Bakıya gələndə şəhərin göz qabağında bu cür dəyişməsi bizi heyran edir. Söhbət təkcə gözəl, uca binalardan getmir. Söhbət həm də küçələrin təmizliyi, həmçinin sakinlərin gözlərindən yağan saflıq, onların Azərbaycanın qonaqlarına olan səmimi münasibətindən gedir.

Biz dostumuz Polad və Azərbaycana görə çox xoşbəxt və məmnunuq. Mədəniyyətə, xalqa göstərdiyiniz ehtirama görə Sizə minnətdarıq. Bildiyimizə görə, burada belə bir deyim var ki, neft kapitalı insan kapitalına çevrilib. Buna görə biz çox sevinirik. Hamınız sağ olun. Azərbaycan Prezidentinə minnətdarıq".

Daha sonra, Rusiya prezidentinin beynəlxalq mədəni əlaqələr üzrə xüsusi nümayəndəsi Mixail Şvidko, Rusiyanın əməkdar artisti Bari Alibasov, Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Sereteli, SSRİ xalq artisti, bəstəkar Yevgeni Doqa, SSRİ xalq artisti Lyudmila Ryumina, TÜRKSOY-un baş katibi Dyusen Kassinov, Tacikistanın xalq artisti Curabəy Muradov, SSRİ Dövlət Mükafatı laureatı Andrey Dementyev çıxış etdilər.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanda incəsənətə, incəsənət adamlarına və mədəniyyət xadimlərinə həmişə hörmət və rəğbətlə yanaşıblar. Prezident gələcəkdə də belə görüşlərin davam etdiriləcəyinə, bunların mədəni əlaqələrin daha da möhkəmləndirilməsinə təkan verəcəyinə əminliyini bəyan etdi.



# Nikita Mixalkov: Bakıda olmağıma çox şadam

Azərbaycan və Rusiyanın mədəni həyatında bir çox təmas nöqtələri mövcuddur. Sənətin bir çox sahələrində birgə layihələrin həyata keçirilməsi buna əyani sübutdur. Rusiya Kinematoqrafçılar İttifaqının sədri Nikita Mixalkovun Azərbaycana səfəri səmərəli əməkdaşlığın davamıdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşü zamani Nikita Mixalkov bildirdi ki, Azərbaycana səfərindən çox məmnundur. O, filmlərində bəzi epizodların Bakıda çəkilməsini razılıqla xatırlayaraq, Bakının bu vaxta qədər görünməmiş inkişafına şahid olduğunu söylədi.

Prezident İlham Əliyev söhbət əsnasında bildirdi ki, Rusiya Kinematoqrafçıları İttifaqının sədri, kinorejissor Nikita Mixalkovun Azərbaycana səfəri iki ölkə arasındakı mədəni əlaqələrin inkişafına, yəqin ki, təsir göstərəcəkdir .Dövlət başçısı həmçinin qeyd etdi ki, ölkəmizdə mədəniyyətin, o cümlədən kinematoqrafiyanın inkişafına dövlət səviyyəsində qayğı göstərilir. Eyni zamanda, Azərbaycan mədəniyyətinin dünya səviyyəsində təbliğinə də ardıcıl diqqət yetirilir.

Görüşdə iki ölkə arasında mədəniyyət, kinematoqrafiya sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı bəzi məsələlər barədə də fikir mübadiləsi aparıldı.

Həmin gün "Nizami" kino mərkəzində N.Mixalkovun Azərbaycan kino xadimləri ilə görüşü keçirildi. Görüşdə Azərbaycan Kinematoqrafçıları İttifaqının sədri, xalq artisti Şəfiqə Məmmədova, xalq artistləri Eldar Quliyev, Oqtay Mirqasımov, eləcə də gənc rejissor və aktyorlar iştirak edirdilər.







# Tanı, xatırla, fəxr et...

***Vətənin müdafiəsinin möhkəmləndirilməsinə və faşizm üzərində qələbənin qazanılmasına mühüm töhfələr vermiş həmyerlilərimiz***



## NİKOLAY KONSTANTİNOVİÇ BAYBAKOV (1911-2008)

Dövlət xadimi, Sosialist Əməyi Qəhrəmanı (1981), Lenin Mükafatı laureatı (1963) N.Baybakov 1932-ci ilin yanvarından Bakının neft mədənlərində mühəndis işləyib. Sementin yüksək təzyiq altında su qatlarına vurulma üsulunu işləyib hazırlayıb. Həmin üsul yaxşı nəticələr verdiyinə görə buna "Baybakov metodu" da deyiblər.

1935-ci ildə hərbi xidmətə çağırılıb. Uzaq Şərqdə, Ordu sıralarında xidmət edib. 1937-ci ilin yanvar ayından Bakıda, "Leninneft"də böyük mühəndis, sonra baş mühəndis, 1938-ci ilin martından isə trest rəisi vəzifəsində çalışıb.

1938-ci ilin avqustundan Kuybışev (Samara) şəhərindəki "Şərqnefthasilat" birliyinin rəhbəri vəzifəsinə keçirilir. 1939-cu ildə SSRİ Yanacaq Sənayesi Xalq Komissarlığının Şərq Baş neft hasilatı İdarəsinin rəisi vəzifəsinə, 1940-cı ildə SSRİ neft sənayesi Xalq Komissarının müavini vəzifəsinə irəli çəkilib. Həmin Komissarlıqda hərbi hissə və müəssisələrin yanacaqla təminatı üzrə qərargaha rəhbərlik edib.

1942-ci ildə Dövlət Müdafiə Komitəsinin gizli tapşırıqla lazım gələrsə, Qafqaz regionundakı neft quyularının və neft emalı müəssisələrinin məhvi üzrə səlahiyyətli nümayəndəsi təyin edilir.

Düşmənin yaxınlaşdığı ərəfədə bütün qiymətli avadanlıqlar sökülüb ölkənin Şərq rayonlarına daşınacaqdı. Az debitli quyular təcili şəkildə sıradan çıxarılmalıydı. Neftlə zəngin quyuların istismarı davam etdiriləcək və ən axırıncı məqamda partladılacaqdı.

1944-cü ilin noyabr ayından N.Baybakov SSRİ neft sənayesi Xalq Komissarı, 1946-cı ilin mart ayından SSRİ-nin cənub və qərb rayonları üzrə neft sənayesi naziri, 1948-ci ilin dekabrından isə SSRİ neft sənayesi naziri vəzifəsinə təyin edildi.

1957-ci ilin may ayından Rusiya Sovet Federativ Sosialist Respublikası Dövlət Plan Komitəsinin sədri, RSFSR Nazirlər Soveti sədrinin müavini vəzifəsini daşıdı.

1958-ci ildə Krasnodar vilayəti Xalq Təsərrüfatı Şurasının, 1963-cü ildən isə Şimali Qafqaz Xalq Təsərrüfatı Şurasının sədri vəzifəsini tutub. Həmin il SSRİ Dövlət Plan Komitəsi yanındakı neft-kimya sənayesi Dövlət Komitəsinin sədri - SSRİ naziri vəzifəsinə təyin edilib.

1965-ci ilin oktyabrında SSRİ Nazirlər Soveti sədrinin müavini, SSRİ Dövlət Plan Komitəsinin sədri vəzifəsinə təyin edilib.

1993-cü ildən Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinə sədrlik edib.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu ilin 7 martında görkəmli elm, mədəniyyət və ictimaiyyət xadimlərinə Azərbaycan hökumətinin yüksək mükafatlarının (bunu qəzetlərdən götürmək olar) təqdim olunma mərasimindəki nitqi



*"Bakılı sadə bir oğlan hakimiyyətin ən ali zirvəsinə qalxdı. SSRİ Nazirlər Soveti sədrinin müavini, Dövlət Plan Komitəsinin sədri və başqa məsul vəzifələri tutdu", - Polad Bülbüloğlu sözlərinə belə başladı.*
*Daha sonra əlavə etdi:*
*"O, Bakıda işə ən kiçik vəzifədən başladı. Onu "Stalin narkomu" adlandırırdılar və həmin dövrün bütün çətinliklərinə baxmayaraq, Baybakov rəhbər vəzifələrdə qalmağı bacardı. Mən onunla "Rusiya-Azərbaycan" Dostluq Cəmiyyətinə başçılıq etdiyi zaman tanış oldum. O, iki suveren dövlət, Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin möhkəmləndirilməsi üçün çox işlər gördü. Bizim tədbirlərdə fəal iştirak edirdi. Məsləhətlər verirdi. Özünün ahıl yaşında belə da çox gözəl, sərrast çıxışlar edirdi. Əsl örnək idi.*
*Bu qüdrətli, güclü şəxsiyyət öz həyatını parlaq şəkildə yaşadı. Onun ömür yolu gələcək nəsillər üçün bənzərsiz nümunədir. Hamımız fəxr edirik ki, Baybakov bizim bakılıdır!"*









## BORİS LVOVİÇ VANNİKOV
## (1897-1962)

Dövlət xadimi. Üç dəfə (1942, 1949, 1954) Sosialist Əməyi Qəhrəmanı adını ilk alanlardan biri. Bakıda yəhudi neftçi ailəsində dünyaya gəlib. İbtidai məktəbi bitirəndən sonra neft mədənlərində fəhlə işləyib. Sonra yol tikintisində, zavodda çilingər kimi çalışıb.

1918-ci ildə Bakı Politexnik Məktəbini, 1926-cı ildə isə Moskva Ali Texniki Məktəbini bitirib. 1918-1919-cu illərdə Qızıl Ordu sıralarında qulluq edib. 1920-ci ildə Bakıda, sonra isə Tiflisdə gizli fəaliyyətlə məşğul olub.

1920-ci ildə yenidən artıq bolşevik hakimiyyətinin nəzarətində olan Bakıya qayıdıb. O, burada RSFSR Fəhlə-Kəndli Nəzarəti Xalq Komissarlığının əməkdaşı kimi çalışıb. 1920-ci ildə Moskvaya gedib. 1921-ci ildə baş müfəttiş, 1924-cü ildən RSFSR Fəhlə-Kəndli Nəzarəti Xalq Komissarlığının iqtisadi müfəttişlik idarəsinin müdir müavini olmaqla N.E.Bauman adına Moskva Ali Texniki Universitetində təhsil alıb. 1930-1933-cü illərdə Kənd təsərrüfatı maşınqayırma Baş idarəsinin rəis müavini, avtotraktor şöbəsinin rəisi işləyib. 1933-1936-cı illərdə artıq o, Tula Silah Zavodunun direktorluğuna göndərilib. 1936-cı ildə Permə-Maşınqayırma Zavoduna direktor təyin edilib. 1936-1937-ci illərdə SSRİ Müdafiə Sənayesi Xalq Komissarlığının tank-artilleriya Baş İdarəsinin, 1937-ci ildə isə həmin komissarlığın tank idarəsinin rəisi vəzifələrində çalışıb. 1937-ci ilin dekabrında SSRİ müdafiə sənayesi Xalq Komissarının müavini vəzifəsinə keçirilib. 1939-cu ilin yanvarından 1941-ci ilin iyununa qədər Xalq Komissarı vəzifəsində çalışıb. 1941-ci ilin iyun ayının 7-də həbs edilib. Onun yerinə isə Leninqraddakı "Bolşevik" Zavodunun direktoru Dmitri Fyodoroviç Ustinov təyin edilib.

1941-ci il iyul ayının 20-də dərhal həbsdən azad edilib və Silah-Sursat Xalq Komissarının müavini vəzifəsinə gətirilib.

1942-ci il fevral ayının 16-da SSRİ Silah-Sursat Xalq Komissarı vəzifəsində D.F.Ustinovla birgə işləyərək Fəhlə-Kəndlı Qızıl Ordusunun və Hərbi-Dəniz Donanmasının müxtəlif növ silahla, minaatanlarla, sursatla təmin edilməsi sahəsində fəaliyyət göstərib. Müharibə illəri ərzində Sovet qoşunları silah-sursat sarıdan heç vaxt korluq çəkmədi.

B.Vannikov 1945-1953-cü illərdə SSRİ-də atom bombasının yaradılması, sonra isə nüvə silahının istehsal olunmasında mühüm rol oynayıb.

Bu layihədə iştirak edənlərin fikrinə görə, hələ müharibə dövründə öz yüksək insani keyfiyyətləri ilə seçilən B.L.Vannikov SSRİ Atom sənayesinin yaradıcısı adına ən layiqli namizəd idi. O, atom layihəsi üzrə xüsusi Komitədə L.P.Beriyanın müavini idi. Layihədəki mühəndis-texniki işlərə cavabdeh olmaqla bərabər, bir sıra vəzifələri də yerinə yetirirdi.

1945-ci ilin noyabr ayının 30-da 817 (müasir "Mayak") və 813 nömrəli (müasir "UEXK") zavodların tikiləcəyi yerlər üzrə təkliflər təsdiqləndi. Sənədləri B.L.Vannikov, İ.V.Kurçatov, İ.K.Kikoin, A.P.Zavenyagin, N.A.Borisov imzalamışdı.

Həmçinin, B.L.Vannikov, N.A.Borisov və Ə.İ.Əlixanovdan ibarət komissiya tərəfindən SSRİ Elmlər Akademiyasının 3 nömrəli laboratoriyasının (müasir İTEF) yaradılması barədə SSRİ Xalq Komissarları Sovetinin qərar layihəsi işlənib hazırlandı.

1953-1958-ci illərdə SSRİ orta maşınqayırma sənayesi nazirinin birinci müavini vəzifəsində çalışan B.Vannikov həm də atom silah istehsalına rəhbərlik edirdi.

Hidrogen bombasının yaradılması işlərinə bacarıqla rəhbərlik etdiyinə görə B.Vannikov 1954-cü ildə üçüncü dəfə Qızıl Ulduz medalına layiq görüldü.



# KƏRİM ABBASƏLİ OĞLU KƏRİMOV (1917-2003)

Azərbaycanın Sovet dövrünün mühəndis-alimi, artilleriya general-leytenantı. Stalin, Lenin dövlət mükafatları laureatıdır.

25 ilə yaxın Kosmosa Uçuşların idarə olunması üzrə Dövlət Komissiyasına rəhbərlik edib. Kərim Kərimov Sovet Kosmik proqramının bünövrəsini qoyan, onu inkişaf etdirən, Sovet kosmonavtikasının əsas simalarından biri sayılırdı.

Kərim Kərimov 1917-ci il noyabr ayının 14-də Bakıda anadan olub. Atası Abbasəli Kərimov mühəndis-texnoloq idi.

Onun Azərbaycan Sənaye İnstitutunu bitirməsi Böyük Vətən müharibəsinin başlanması ilə eyni vaxta düşdü. Kərim Kərimov Səmərqəndə köçürülmüş Topçuluq Akademiyasına qəbul olundu. 1943-cü ildə "Minaatanların hazırlanması sexi" mövzusunda diplom işi müdafiə edən K.Kərimov SSRİ Baş Silahlanma İdarəsinin Dövlət qəbulu sisteminə xidmətə göndərildi. O, Moskva zavodlarında "Katyuşa" tipli qvardiya minaatan qurğularının və mərmilərin qəbulu ilə məşğul olurdu.

Nümunəvi xidmətinə görə "Qızıl Ulduz" ordeninə layiq görülən K.Kərimov müharibədən sonra 20 il SSRİ Müdafiə Nazirliyi aparatında çalışdı. Raket texnikası üzrə tanınmış mütəxəssislərin bir çoxu kimi K.Kərimov da 1946-cı ildə Almaniyaya, Nordhauzenə göndərildi. Burada onlar "FAU-2" ballistik raketin "qalıqları" ilə yaxından tanış oldular.

K.Kərimova "Don" radioölçü sisteminin tətbiqinə görə Stalin mükafatı verildi.

İnsanın kosmosa ilk dəfə idarə olunan uçuşla göndərilməsində yaxından iştirakına görə Kərim Kərimov Lenin Ordeni ilə təltif edildi.

1960-cı ilin sentyabrında o, raket silahlanması üzrə Baş İdarənin rəisi təyin olundu. 1964-cü ildə isə yeni yaradılmış Mərkəzi Kosmik Vasitələr İdarəsinə rəhbərlik etmək ona tapşırıldı.

"Molniya-1", "Meteor" və "Zenit" aparatlarının idarə olunması K.Kərimova həvalə edildi. Məhz "Zenit" raket-kosmik kompleksinin tətbiqinə görə Kərim Kərimov Lenin mükafatına layiq görüldü.

1965-ci ildən o, ümumi Maşınqayırma Nazirliyində bilavasitə raket-kosmik sahəsində işlərin təşkili ilə məşğul olan 3-cü Baş İdarənin rəhbəri təyin olundu. Həmin vəzifədə qalmaqla Kərim Kərimov 1966-cı ildən idarə olunan uçuşlar üzrə Dövlət Komissiyasının sədri oldu. V.P.Mişin, V.P.Qluşko, Y.P.Semyonov müxtəlif vaxtlarda onun müavinləri olublar.

İki pilotsuz kosmik aparatın ("Kosmos-186" və "Kosmos-183") orbitə uğurla birləşdirilməsinə görə Kərim Kərimova general-leytenant rütbəsi verildi.

Kərim Kərimovun bu sahədəki fəaliyyəti, təbii ki, heç də problemsiz və rahat olmayıb. Kosmonavtlardan V.Komarov, V.Volkov və V.Patsayevin uçuşda həlak olması ona ömürlük vicdan ağrısı qazandırır. Onun rəhbərlik etdiyi Dövlət Komissiyasının 25 illik fəaliyyəti ərzində dəfələrlə mürəkkəb vəziyyətdən çıxmaq, fəlakət və qəzaların səbəblərini araşdırmaq, bəzən də risk tələb edən çətin qərarlar qəbul etmək ehtiyacı yaranırdı.

Axı, risk etmədən kosmosa yiyələnmək, onun sirlərinə bələd olmaq mümkün deyil. Kərim Abbasəli oğlu Kərimov bütün bu sınaqların hamısından uğurla keçdi. 1979-cu ildə isə SSRİ Dövlət Mükafatı aldı.

1975-ci ildə Uçuşların idarəsi üzrə Dövlət Komissiyasının sədri vəzifəsində qalmaq şərtilə K.Kərimova Mərkəzi Elmi-Tədqiqat Maşınqayırma İnstitutunun direktor müavini vəzifəsi həvalə olundu.

1975-ci ildə "Soyuz-Apollon" Sovet-Amerika birgə uçuşuna hazırlığa rəhbərlik ona tapşırıldı.

1987-ci ildə "Mir" orbital kompleksinin kosmosa çıxarılması və istismarı ilə bağlı xidmətinə görə Kərim Kərimov Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü.

O, kosmik gəmilərin heyətlərini kosmosa şəxsən özü yola salırdı. Yerə enişdə də tapşırığın yerinə yetirilməsi barədə ilk hesabat ona verilirdi.

Kütləvi informasiya vasitələrində adı çəkilməzdi. Telereportajlarda isə, ani olsa da, yalnız kürəyi görünərdi. Adı, soyadı, şəxsiyyəti çox ciddi şəkildə gizli saxlanılırdı.

Dövlət Komissiyası sədrinin kimliyi ancaq 1987-ci ilin yayında, SSRİ-də yenidənqurma başlayanda "Sovetskaya Rossiya" və "Pravda" qəzetlərində açıqlandı.

O, 1991-ci ildə, 74 yaşında istefaya çıxdı. Amma kosmonavtikadan ayrılmadı. Uçuşları idarəetmə Mərkəzində məsləhətçi kimi çalışdı.

Kərim Kərimov 1995-ci ildə AMEA-nın fəxri üzvü seçildi. Təəssüf ki, bu gün o, bizimlə deyil.



*Kərim Kərimov: Kosmosa yolunuz açıq olsun!*



*Kərim Kərimov akademik A.Mehtiyevlə birlikdə*





*2013-cü il fevral ayının 8-də, Bakı vaxtı ilə saat 1:35-də Azərbaycanın ilk telekommunikasiya peyki "Azərspeys-1" orbitə çıxarıldı. BMT-nin uyğun komitəsində Azərbaycan kosmik dövlətlər siyahısına daxil edildi. Bununla bağlı olaraq kosmosdan dinc məqsədlərlə istifadə edəcəyi barədə Azərbaycan öz üzərinə öhdəlik götürdü.*





# SALMANOV FƏRMAN QURBAN OĞLU (1931-2007)

Həmvətənimiz Fərman Salmanov geologiya sahəsində, xüsusən də, Qərbi Sibirin şelf, eləcə də duzlu dəniz sularının qalın qatları altında gizlənən neft və qaz yataqları üzrə nəhəng mütəxəssis və təkzibedilməz nüfuz sahibidir.

O, Tümenin şimalındakı Megion, Ust-Balık, Surqut, Pravdinsk, Fyodorovsk, Urenqoy, Yamburq, Bovanenkovsk və bir çox başqa rayonlarda 150-yə yaxın nadir, iri neft-qaz yataqlarını ya ilk olaraq kəşf edib, ya da kəşfinin yaxından iştirakçısı olub.

Fərman Salmanovdan bəhs edərkən öncə qeyd edək etmək lazımdır ki, o, Azərbaycan xalqının ləyaqətli oğludur. Kimin ağlına gələrdi ki, Şəmkirin Morul kəndindən, tanınmış Salmanovlar nəslindən olan sadə bir yeniyetmə gedib Sibiri fəth edəcək!

"Rossiyskaya qazeta"ya müsahibəsində F.Salmanov ötənləri belə xatırlayır:

"Mən səkkizinci sinifdə oxuyurdum. SSRİ neft sənayesi naziri Nikolay Baybakov bizə, Şəmkirə gəlmişdi. Yaşıdlarıma nisbətən mən rus dilində yaxşı danışırdım. Buna görə də yüksək qonağa məktəbimiz barədə məlumat verməyi mənə tapşırdılar. Görüşün axırında Baybakov məndən soruşdu ki, gələcəkdə sən kim olmaq istəyirsən? Mən də cavab verdim ki, neftçi. O da mənim seçimimi təriflədi və dedi ki, "neft ölkəmizin gələcəyidir".

Bu görüş tale yoluma işıq saldı. İnstitutu bitirəndən sonra məni Bakıya işə göndərəndə N.Baybakova məktub yazıb, ondan Sibirə göndərilməyimi xahiş etdim. Nəticədə, məni Moskvaya çağırdılar. Oradan da Kuzbasa göndərdilər. Hətta yol pulumu da verdilər.

1955-1957-ci illərdə Fərman Salmanov Plotnikovsk və Qryarnensk neft-qaz kəşfiyyatı ekspedisiyalarının rəisi vəzifəsində işlədi (Kemerovo və Novosibirsk vilayətləri).

Kuzbasda neft axtarışının səmərəsiz olduğunu



Tarixi an - Fərman Salmanov N80-li neft quyusunun borusunu açır (17 may 1964-cü il, yerli vaxtla saat 18:06)

*1960-cı illərdə Surqut artıq neft-qaz hasilatı mərkəzinə çevrilmişdi. Sonrakı illərdə rayon ərazisində 30-a yaxın yeni yataqlar da kəşf olundu. 1964-cü ilin yazında Ust-Balık neft yataqlarının istismarına başlanıldı və bir aydan sonra neftlə dolu ilk barj artıq Omsk neft emalı zavoduna göndərildi.*
*1950-ci illərin ortalarında F.Salmanovun rəhbərliyi ilə 30 geoloji-kəşfiyyatçı ailəsi Surqut torpağında məskən saldı. Sonrakı illərdə neft və qaz yataqlarının fəal işlənməsi get-gedə geniş vüsət aldı.*
*1965-ci il iyun ayının 25-də Surqut dairə tabeliyindəki şəhər statusunu aldı. 70-ci illərin ortalarında isə keçmiş fəhlə qəsəbəsi böyük bir şəhərə çevrildi. Həmin illərin axırında neft-qaz sənayesi sahəsində islahatlar aparıldı və Neftçıxarma idarələri güclü istehsalat birliklərinə çevrildi. Həmin birliklərin tərkibinə onlarla müəssisə cəlb edildi. "Surqutneftqaz" Səhmdar Cəmiyyəti hasilatın həcminə görə iri neft şirkətləri arasında 2008-ci ilin reytinq cədvəlində 7-ci yeri tutdu.*
*Hazırda "Surqutneftqaz" hər il 60 milyon tondan çox neft və milyard kubmetrə yaxın qaz hasil edir. Bu gün Surqut - Tümen vilayətinin və bütövlükdə Xantı-Mansi muxtar dairəsinin ən iri sənaye və mədəniyyət mərkəzlərindən biridir. Eyni zamanda, Surqut Rusiya Federasiyası neft-qaz sənayesinin strateji mərkəzidir.*

hesab edən F.Salmanov 1957-ci ilin avqustunda öz geoloji kəşfiyyat qrupunu gizlicə Surquta apardı. Çünki orada neftin olduğuna əmin idi.
Bu hərəkətinə görə Fərman Salmanovu işdən çıxarıb məhkəməyə vermək istədilər. Ancaq bu da onu işdən soyutmadı. F.Salmanov qazmanı davam etdirdi.
Sonralar F.Salmanov xatırlayırdı:
"Yaman hay-küy qalxdı. Biz rabitəni kəsmişdik, axı! Məni vəzifədən çıxarmaq istədilər. Amma necə oldusa, işdə saxladılar.
Əvvəl arvad-uşaqla vağzalda qaldıq. 1961-ci il mart ayının 21-də, Azərbaycan xalqının, o cümlədən mənim də sevimli bayramım olan Novruz bayramı günü Megion kəndində neft fantan vurdu. Mən tullanaraq var gücümlə çığırırdım: «Biz qalib gəldik»...
F.Salmanov öz opponentlərinə eyni məzmunlu məktublar göndərdi.
"Hörmətli yoldaş, Megiondakı 2180 metr dərinliyindəki 1 nömrəli quyudan neft fontan vurdu! Aydındımı?!
Hörmətlə, Fərman Salmanov".
Ust-Balık rayonundakı ikinci quyu da fontan vurandan sonra F.Salmanov rəhbərliyə belə bir radioqram yolladı:
«Quyu necə lazımdırsa coşub-daşır».
N.S.Xruşşova isə belə məzmunlu bir teleqram vurdu:
"Məsələ belədir, mən nefti tapdım! Salmanov!"
Fərman Salmanovun Sibir dastanı 30 ildən çox çəkdi. Bu müddətdə o, kiçik texnikdən böyük geoloqa, ordan da pillə-pillə qalxıb Surqut ekspedisiyasının "Baştümengeologiya" İdarə rəisliyinə qədər yüksəldi. 1987-ci ildə Moskvaya köçdü. 1987-ci ildən 1991-ci ilədək SSRİ geologiya nazirinin birinci müavini vəzifəsində çalışdı. 1992-ci ildə "Rospan" şirkətini yaratdı. "Neftqaz geologiyası" adlı elmi-texniki jurnalın baş redaktoru oldu.
"İTERA" neft-qaz şirkəti direktorlar şurası sədrinin müşaviri, sonra da "Cənubneftqaz" şirkəti direktorlar şurasının sədri kimi fəaliyyət göstərdi.
Əminliklə demək olar ki, F.Salmanov bütün xəyallarını, arzu və istəklərini gerçəkləşdirə bildi.
Xatirəsini əbədiləşdirmək üçün onun Bakıda, Moskvada, Surqutda, Salexardda, Xantı-Mansidə abidə və büstləri ucaldıldı.
Amma ən uca, ən möhtəşəm abidəni o, öz əməlləri ilə doğma xalqının qəlbində ucaltdı!
Azərbaycan xalqı dünya sivilizasiyasına töhfələr vermiş, özünün bənzərsiz milli koloritini, milli mənliyini qoruyub saxlamış övladları ilə daima fəxr edir, qürur duyur.



***Rusiyanın Xantı-Mansiysk şəhərində Fərman Salmanova qoyulmuş abidə (Memar Cəmaləddin Bek oğlu Kadırov, Azərbaycanın xalq rəssamı Salhab İsa oğlu Məmmədov, Azərbaycanın Əməkdar rəssamı Əli Əziz oğlu İbadullayev).***





# ORUCOV SABİT ATA OĞLU
## (1912-1981)

Sovet dövlət xadimi, ölkənin yanacaq-enerji kompleksinin banilərindən biri, Sosialist Əməyi Qəhrəmanı.

Sabit Orucov SSRİ qaz sənayesi naziri (1972-1981), Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü (1967), Lenin (1970) və Stalin mükafatları laureatı olub.

1939-cu ildə "Azneftkombinat"ın "Orconikidzeneft" trestində işləyib. Sonra 1-ci mədənin müdir müavini, 9-cu mədənin müdiri, trest rəhbəri, daha sonra "Azneft" birliyinin rəis müavini, "Stalinneft" və "Buzovnaneft" trestlərində rəis vəzifələrində çalışıb.

O, 28 yaşında ikən Qırmızı Əmək Bayrağı ordeni alıb və Moskvaya, Stalinlə görüşə dəvət olunub.

Müharibə başlayanda S.Orucov fəhlə çatışmadığına görə qoca və qadınlara, uşaqlara müəyyən sənətlər öyrədən kurslar təşkil edib. Bu kursları bitirənlər cəbhəyə getmiş kadrları əvəzləyirdi. S.Orucovun səyi ilə altı ay ərzində trestin işini bərpa etmək mümkün olub.

S.Orucov 1943-cü ildə dissertasiya müdafiə etdi.

Bakının Novxanı kəndində doğulan Sabit Orucov neftçi idi. Yüksək vəzifələrdə o cümlədən Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, SSRİ Neft Sənayesi nazirinin birinci müavini vəzifələrində çalışıb.

Tale onu sonradan qaz sənayesi sahəsinə gətirdi. O, ömrünün sonunadək bu sahəyə rəhbərlik edib. Daha doğrusu, SSRİ qaz sənayesi naziri oldu (1972-1981) və bu vəzifədə çox məhsuldar çalışdı.

O, Sovet qaz sənayesini yeni iqtisadi relslər üzərinə çıxarmaq uğrunda çox işlər görüb, nazirlikdə islahatlar aparmaq yönündə qəti addımlar ataraq, onun qüdrətli, qabaqcıl bir sistemə çevrilməsinə nail olub. Bunun nəticəsində vahid qaz təchizatı sisteminin yaradılması daha da sürətləndi. S.Orucovun yaratdığı bu sistem indinin özündə də dünyada qabaqcıllardan biri sayılır.

***"1970-ci illərdə Sovet qaz sənayesi öz inkişafına görə bu əfsanəvi nazirə borcludur. Onun rəhbərliyi altında vahid qaz təchizatı sisteminin möhkəmləndirilməsi, qaz sənayesi avadanlıqlarının təzələnməsi, Tümen, Orenburq vilayətlərində, Orta Asiyada iri karbohidrogen yataqlarının kəşfi, istismara buraxılması sahəsində çox böyük işlər görülüb.***

***Sabit Ata oğlu Orucovun gördüyü işlər Rusiyanın Azərbaycanın və digər keçmiş sovet respublikalarının iqtisadi inkişafında mühüm rol oynayıb".***

*Aleksey Miller,*
*"Qazprom"un idarə heyətinin sədri*



***Şəkildə, sağdan birinci Sabit Orucov, soldan üçüncü isəViktor Çernomırdindir***



***Şəkildə sağdan sola: Sabit Orucov, Aleksey Kosıgin, Viktor Çernomırdin***

## Hərb tariximizin görkəmli simaları



# SƏMƏDBƏY MEHMANDAROV (1855-1931)

Səmədbəy Mehmandarov 1855-ci il oktyabr ayının 18-də Lənkəranda anadan olub. İbtidai təhsilini Bakıda gimnaziyada alıb. 1873-cü il sentyabr ayının 1-də Leninqradda, Konstantinovsk Hərbi Məktəbində yunker kimi xidmətə başlayıb, 1876-cı ildə podporuçik, 1877-ci ildə poruçik rütbələrini alıb. 1890-cı ildən isə kapitan rütbəsini qazanıb.

Səmədbəy 1891-ci ilin may ayının 21-də İkinci dərəcəli müqəddəs Stanislav ordeni ilə təltif edilir. 1898-ci ilin yanvar ayının 1-də podpolkovnik rütbəsini alır. 1901-ci il yanvarın 31-də çinlilərə qarşı aparılan əməliyyatlarda fərqləndiyinə görə ən yüksək sərəncamla polkovnik, həmin ilin oktyabr ayının 22-də isə yaponlara qarşı hərbi əməliyyatdakı uğurlarına görə S.Mehmandarov general-mayor rütbəsini alır.

1908-ci il iyul ayının 13-də ən ali sərəncamla S.Mehmandarova general-leytenant, 1915-ci il mart ayının 23-də isə artilleriya generalı rütbəsi verilir. 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının elan edilməsindən sonra S.Mehmandarov Demokratik Cümhuriyyətdə xidmətə dəvət olundu.

Nazirlər Şurasının 1918-ci il 1 noyabr tarixli qərarı ilə Hərbi Nazirlik yaradıldı və nazir portfeli də Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə təqdim olundu. Topçu generalı S.Mehmandarov isə Hərbi Nazirin köməkçisi təyin edildi. 1918-ci il dekabr ayının 25-də general Səmədbəy Mehmandarova Hərbi Nazirlik tapşırıldı. Onun birbaşa rəhbərliyi altında Azərbaycan Milli Ordusu yaradıldı.

1920-ci il aprel ayının 28-də XI Qızıl Ordu Azərbaycanı işğal edənə qədər o, Cümhuriyyətin hərbi naziri vəzifəsini yerinə yetirirdi.

1921-ci il iyul ayının 18-də o, Azərbaycan Şura hökuməti qoşunları qərargahında yenidən qulluğa götürüldü. 1924-cü ildən 1928-ci ilədək Azərbaycan Komandirlər Məktəbində dərs dedi. O, Bakı qarnizonu hərbi-elmi cəmiyyətinin üzvü idi. Azərbaycan Hərbi-Dəniz Qüvvələri Komissarlığında müşavir kimi çalışırdı.

Qırmızı Bayraqlı Qafqaz Ordusunun İnqilabi Şurası 8 fevral 1928-ci il tarixdə Səmədbəy Mehmandarova fərdi dövlət təqaüdü təyin edilməsi barədə məsələ qaldırdı.

Səmədbəy Mehmandarov, eyni zamanda, 1924-1927-ci illərdə hərbi sahədə aparılan genişmiqyaslı islahatların, görülən tədbirlərin fəal iştirakçısı idi.

1 iyun 1928-ci il tarixlində SSRİ Hərbi İnqilabi Şurasının əmriylə o, Qızıl Ordu sıralarından tərxis edildi.

Səmədbəy Mehmandarov dövrünün ən görkəmli şəxsiyyətlərindən biri olmaqla, hərb tariximizin də görkəmli bir nümayəndəsidir. O, rus dilindən başqa, osmanlı türkcəsini və Fars dilini də mükəmməl bilirdi.





## Hərb tariximizin görkəmli simaları

# ŞANLI AZƏRBAYCAN GENERALLARINDAN BİRİ

***Çar Rusiyası ordusunun artilleriya generalı. Azərbaycan Demokratik Respublikası dövründə milli ordunu yaradanlardan biri. Sovet dövlətinin hərbi xadimi Əliağa Şıxlinski (1865-1943) əsl peşəkar sərkərdə yolu keçib. O, Azərbaycanın qədim, hərbi şöhrəti və igidliyi ilə tanınan Şıxlılar nəslindəndir.***



O, 1886-cı ildə Peterburqdakı artilleriya məktəbini bitirmişdi. Hərb elmlərini dəqiq mənimsəməsi, top-yaylım atəşi yarışlarında qazandığı uğurlara görə ona podporuçik rütbəsi verilir və Qafqazda yerləşən 39-cu topçu briqadasında xidmətə göndərilir.

Ə.Şıxlinski sərkərdəlik şöhrətini rus-yapon müharibəsinin (1904-1905-ci illər) gedişində qazandı. Port-Arturun müdafiəsində göstərdiyi igidlik və hərbi məharət çar ordusu ali komandanlığının diqqətini özünə çəkdi.

1905-ci il sentyabrın 28-də Əliağa Şıxlinski ali sərəncamla 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif edildi. Mükafatlandırma sənədlərində deyildiyi kimi, "1904-cü il oktyabr ayının 13-dən 17-dək 3 nömrəli istehkamın qüvvəcə üstün olan düşməndən uğurlu artilleriya müdafiəsinə görə" bu mükafata layiq görülüb.

Müharibədən sonra Əliağa Şıxlinski topçuluq məktəbində dərs dedi. "Çar əsgərləri" zabit məktəbinin rəis müavini işlədi. Həmin illərdə artilleriyaya dair hərbi-elmi vəsaitlər, dərsliklər yazdı. Onun "Divizyon miqyasında top manevrlərinin təşkili üzrə təlimat", (1913-1916-cı illərdə) üç dəfə nəşr olunan "Səhra və dağ artilleriyaları üçün tapşırıq və məsələlər toplusu" "Cəbhədə səhra toplarından istifadə olunması" (1910) və "Polkovnik Ə.Şıxlinskinin artilleriya zabitləri məktəbində oxuduğu mühazirələrin yekunu" hərbi-elmi vəsaiti isə Peterburqda və Luqada çap olundu.

Əliağa Şıxlinskinin "Şıxlinski üçbucağı", "Şıxlinski düsturu" adlı artilleriya kəşfləri ötən əsrin əvvəllərində dərsliklərə salınaraq, təkcə Rusiyanın deyil, Avstriyanın, Fransanın, Norveçin,

İsveçin və başqa ölkələrin hərbi məktəblərində tədris edilirdir.

Ə.Şıxlinski Fransanin "Fəxri legion" ordeni ilə təltif edilmişdir. Qeyd edək ki, "Şıxlinski üçbucağı" manevri ilə ilk dəfə olaraq toplardan gözlə görünməyən hədəflərə atəş açmaq mümkün olub. Bu, artilleriya sahəsində bir sıra dəyərli yeniliklərdən yalnız biridi.

1914-cü ilin avqustunda Birinci Dünya müharibəsi başlayanda Ə.Şıxlinski Petroqradın artilleriya müdafiəsinə rəis təyin edildi. Alman qoşunları şəhərə hücum məqsədi ilə Baltik sahillərinə çıxmağa can atırdı. Ə.Şıxlinskinin hərbi məharəti sayəsində bunun qarşısı alındı.

1915-ci ilin yanvarında Ə. Şıxlinski Şimal-Qərb cəbhəsi qərargahına çağırıldı. Ona ağır artilleriya qoşunlarının döyüş hazırlığına rəhbərlik tapşırıldı. O vaxtdan ta müharibə qurtarana qədər Ə.Şıxlinski orduda məsul vəzifələrdə qulluq edib. Şimal-qərb cəbhəsi baş komandanı yanında artilleriya hissəsi üzrə generalı, 1915-ci ildən Ali Baş Komandan yanında Qərb cəbhəsi artilleriya müfəttişi kimi fəaliyyət göstərib. 1917-ci ilin sentyabrında isə general-leytenant Ə.Şıxlinski 10-cu ordunun komandanı təyin edilib.

Bununla da, Ə.Şıxlinskinin döyüş taktikası təkcə artilleriya sahəsində deyil, ümumqoşun komandanlığı xətti üzrə də etiraf edildi və yüksək qiymətləndirildi.





Rusiyada 1917-ci ildə Oktyabr çevrilişi baş verdikdən sonra Ə.Şıxlinski doğma Vətəninə-Azərbaycana qayıtdı. 1918-ci ilin avqust-sentyabr aylarında Osmanlı sərkərdələri Ənvər paşa və Nuru paşa ilə birlikdə Bakının, Azərbaycan torpağının bolşevik-daşnak quldur birləşmələrindən azad olunmasında yaxından iştirak etdi. Ə.Şıxlinski Azərbaycan Demokratik Respublikası dövründə milli silahlı qüvvələrin yaradılması işində əvəzsiz, ölçüyəgəlməz xidmətlər göstərdi. Milli korpusun komandanı kimi, yeni milli ordunun və hərbi nazirliyin layihələri məhz onun tərəfindən hazırlanmışdı.

Azərbaycanın birinci hərbi naziri general Səmədbəy Mehmandarov, onun müavini isə Ə.Şıxlinski oldu.

Əfsanəvi general Sovet hakimiyyəti illərində Azərbaycanda hərb elminin inkişafı naminə yorulmadan fəaliyyət göstərdi.



# Davud Paşayev - atom donanmasını xilas edən Rusiya qəhrəmanı



1995-ci ilin fevral ayında Kremldə Davud Hüseyn oğlu Paşayevə Rusiya Federasiyasının Qəhrəmanı adının verilməsi barədə təqdimat imzalandı. Milliyyətcə azərbaycanlı olan Davud Paşayev Rusiyanın bütün sualtı atom sənayesini, sözün əsl mənasında, dağılmaqdan xilas etdi.

Davud Paşayev müasir Rusiyanın istehsalat rəhbərlərindən birincisi və hələlik yeganəsidir ki, ali dövlət rütbəsinə, Rusiya Qəhrəmanı adına layiq görülüb.

Onun Rusiyanın birinci prezidenti Boris Yeltsinin əlindən «Ulduz» aldığı il, bəlkə də, ölkənin gəmiqayırma sənayesi tarixinin ən çətin, ən ağır ili sayıla bilərdi. Hər şey - sahə əlaqələri, konstruktor və istehsalat bazaları göz qabağındaca dağılırdı. Fəhlələr aclıq çəkirdilər. Pul yox idi. "Sevmaş"da fəhlə və mühəndislər direktorun soyadı ilə adlanan "paşayevka" ödəniş talonu ilə ailələri üçün ərzaq alırdılar. Aldıqlarının üstündə iki "buxanka" çörək də verilirdi.

Bu, elə bil dünən idi. "Sevmaş"ın "ac" vaxtında (heç bir şişirtməsiz) Davud Paşayev bir fikrin üstündə möhkəm dayandı: «Dərhal dördüncü nəsil, ən yeni sualtı dayağın tikintisinə başlanılsın». Özü də zavodun hesabına. Xəzinədəki pul isə heç fəhlələrin əməkhaqqına çatmırdı. Direktorun bu addımını, özünü belə aparmasını qəhrəmanlıq, uzaqgörənlik adlandırmasaq, yəqin ki, yanılarıq. Direktor kifayət qədər sərt və qərarlı idi.

Doğrudan da, sualtı qayıq donanmasını xilas etmək üçün bu qətiyyət vacib idi və indi bu, hamının da etiraf etdiyi həqiqətdir ki, sualtı donanmanı yalnız və yalnız Paşayev xilas etdi.

Rusiyanın gələcək qəhrəmanı 1940-cı il iyul ayının 19-da Moskva vilayətində, Volokolamsk








rayonunun Ostaşevo kəndində dünyaya gəlib. Onun atası Hüseyn Kazım oğlu Paşayev ixtisasca zootexnik, həm də aqronom idi. Hüseyn kişi Azərbaycanda Qazax rayonunun Daşsalahlı kəndində anadan olmuşdu. Onun atası Səməd Vurğunun mənsub olduğu məşhur Vəkilovlar nəslindən idi.

Hüseyn Paşayevin ailəsində dörd uşaq böyüyürdü. Ailə başçısı onlarda elmə, biliyə həvəs oyadırdı, zəhmətkeşlik və məsuliyyət hissi aşılayırdı. Sonradan uşaqların hamısı yaxşı təhsil aldı. İxtisaslı mütəxəssislər kimi yetişdilər.

Hüseynin böyük oğlu Qorkidəki politexnik institutunu bitirdi. Bakı Məişət Kondisionerləri zavodunun konstruktor bürosuna rəhbərlik etməyə başladı. Hər iki qızı - Nina və Pəri, ailə ənənələrinə uyğun olaraq (Vəkilovlar arasında həkimlər çoxdur) tibb üzrə xüsusi təhsil aldılar.

Kiçik oğlu Davud Paşayev isə Karintorf məktəbini gümüş medalla bitirib, Ural Politexnik İnstitutuna daxil oldu. Energetika fakültəsinin yeni, atom enerjili qurğuların layihələşdirilməsi





Rusiya Prezidenti Vladimir Putin "Sevmaş"ın baş direktoru Davud Paşayevlə birlikdə

və istismarı ixtisası üzrə ilk məzunlardan biri oldu.

D.Paşayevin Stapel təhvilvermə istehsalında rəis müavini, sonra isə rəis vəzifələrinə təyinatı onun işini daha da gərginləşdirdi. O, atom sualtı qayıqlarının sınağı və tərkibi işlərinə cavabdeh idi. D.Paşayev 1986-cı ildə "Sevmaş"a baş mühəndis təyin edildi. Bu təyinat elə bir vaxta düşdü ki, "Akula", "Antey", "Bars" kimi üçüncü nəsil atom qayıqları artıq yaradılmışdı. Həmin istiqamətdə uğurları nəzərə alan zavod kollektivi D.Paşayevi baş direktor vəzifəsinə seçdi. "Sevmaş"ın tarixində ilk dəfəydi ki, rəhbər yuxarıdan təyin edilmir, kollektivin özü tərəfindən seçilirdi.

Ondan əvvəlki baş direktorların işindəki uğurların kökündə dövlət dəstəyi, Hərbi Dəniz Donanmasının gücü, qüvvəti dayanırdı.

Təzə işə başlayan direktorun qismətinə isə dövlət sifarişlərinin maliyyə təminatında kəskin şəkildə azalma, ayrılan vəsaitin işçilərin əməkhaqqına belə çatmaması, stapellərdə gəmi gövdələrinin "donub" qalması, hökumət başçılarının bir-birini əvəzləməsi və başqa digər problemlər düşdü.

O, fəaliyyəti ərzində çox sınaqlardan keçdi. Radiasiya şəraitində saatlarla qalmalı oldu. Sualtı qayıqların təhvil-təslim komandasının tərkibində dəniz dibindəki sınaqlarda bilavasitə iştirak etdi. Həyatının böyük qismini su altında keçirdi.

O, işində həddən artıq məsuliyyətli idi. Onun qrafikində, necə deyərlər, nöqtə boyda boş yer yox idi. İş üçün canını oda yaxırdı.





Bütün bunların nəticəsində Davud Paşayev Rusiya Dövlət Atom Gəmiqayırma Mərkəzinin (RSDAGM) prezidenti təyin edildi, Sankt-Peterburq Mühəndislik Akademiyasının həqiqi üzvü seçildi.

Elə o vaxtdan da D.Paşayev müəssisənin idarəçiliyindəki bəzi işləri müavininə həvalə etdi. Özü isə səylərini İctimai Palatada Rusiya atom gəmiqayırmasının inkişaf problemlərinə yönəltdi. O, eyni vaxtda iki komissiyada çalışmağa başladı.

Davud Paşayev 2006-cı ildə elm və texnologiya sahəsində gerçəkləşdirilən layihələrə, üç nəsil sualtı qayıqların yaradılmasına görə dövlət mükafatı aldı.

Çox mənalı və faydalı ömür yolu keçən Davud Paşayev 2010-cu ildə 70 yaşında vəfat etdi. Severodvinsk şəhər rəhbərliyi şəhərin ən gözəl meydanlarından birinə onun adının verilməsini qərara aldı.

İlin istənilən vaxtında onun məzarını tər çiçəklər bəzəyir.





# Müslüm Maqomayev - antifaşist himninin ən mahir ifaçısı

Müslüm Maqomayev görkəmli estrada və opera müğənnisidir. O, SSRİ-nin, Azərbaycan SSR-in xalq artisti, Çeçen-İnquş Muxtar Respublikasının əməkdar artistidir.

Onun 45 qramofon valı 15 kompakt diski işıq üzü görüb.

Qeyri-adi, ecazkar səsi ilə yanaşı, boyu-buxunu, yaraşığı, səliqəsi, ətrafa işıq saçan qara gözləri və baxışları ilə bütün tamaşaçıların diqqətini özünə çəkirdi.

19 yaşında gənc vokalçı Helsinkidə keçirilən gənclər festivalında çıxış etməklə xeyli məşhurlaşdı. 1963-cü noyabr ayının 10-da P.İ.Çaykovski adına Konsert Salonunda ilk solo konsentindən sonra artıq o, estrada səhnəsində bir ulduz kimi parladı.



*Bakıda, Fəxri Xiyabanda Müslüm Maqomayevin məzarüstü abidəsi*








*Müslüm Maqomayevin xatirəsinə ucaldılmış abidə (Moskva)*

# Buhenvald harayı



"Buhenvald harayı" Sovet antifaşist mahnısıdır. 1958-ci ildə bəstələnib. Sözlərini A.Sobolev yazmışdı, musiqisi V.Muradelinindir. Bu mahnının bənzərsiz ifaçısı Müslüm Maqomayevdir. "Buhenvald harayı" M.Maqomayevin ifasında, sözün əsl mənasında, antifaşist himninə çevrildi.

Sovet dövründə Böyük Vətən müharibəsinə həsr olunmuş istənilən rəsmi konsert mütləq həmin mahnı ilə açılar, yaxud da onunla bağlanardı. Bu, nəinki Sovetlərin ən məşhur antifaşist mahnısı idi, hətta belə demək mümkünsə, sadəcə bir mahnı deyil, bütövlükdə, müəyyən bir epoxanın mahnısı idi!...

"Buhenvald harayı" faşist həbs düşərgələrində saxlanan məhbuslar haqqında ən populyar mahnıdır.

Amma mahnının sözlərinə diqqət yetirəndə onun təkcə əsir düşərgələrində əzab çəkənlərə deyil, həm də "diri-diri yandırılmış Belarus sakinlərinə, "atom burulğanına düçar olunmuş" Xirosima və Naqasakidəki insanların xatirəsinə həsr olunduğunu görürük.

**Buhenvald - (Buchen Wald - fıstıq meşəsi (alm.) - bu dəhşətli söz Almaniya ərazisində yerləşən ən iri əsir düşərgəsindən birinin adıdır. Bu ölüm düşərgəsi 1937-ci ilin iyul ayından 1945-ci ilin aprelinə qədər mövcud olub. Həmin müddət ərzində Buhenvaldda 56 min nəfər insan həlak olub.**

**Düşərgədəki insanlar üzərində ağlasığmaz, dəhşətli, qeyri-insani tibbi təcrübələr aparılıb. Nəticədə, məhbuslar keyləşdirilib və qətlə yetirilib.**

**İkinci Dünya müharibəsindən 12 il sonra bu müdhiş əsir düşərgəsinin ərazisində "Buhenvald" xatirə kompleksinin açılışı oldu.**

Zaman durmadan irəli getməkdədir. Getdikcə də Böyük Vətən müharibəsini bizdən daha da uzaqlaşdırır. Müslüm Maqomayevin ifa etdiyi "Buhenvald harayı" isə indiyə kimi unudulmayıb, heç vaxt unudulmayacaq da. Yazıldığı dövrdə olduğu kimi, yenə də insanları faşizmlə, onun hər cür təzahürləri ilə mübarizəyə səsləməkdədir. Və onu Müslümdən yaxşı oxuyan yoxdur!





Люди мира, на минуту встаньте!
Слушайте, слушайте: гудит со всех сторон –
Это раздается в Бухенвальде
Колокольный звон, колокольный звон.
Это возродилась и окрепла
В медном гуле праведная кровь.
Это жертвы ожили из пепла
И восстали вновь, и восстали вновь!
И восстали,
И восстали,
И восстали вновь!

* * *

Сотни тысяч заживо сожженных
Строятся, строятся в шеренги к ряду ряд.
Интернациональные колонны
С нами говорят, с нами говорят.
Слышите громовые раскаты?
Это не гроза, не ураган –
Это, вихрем атомным объятый,
Стонет океан, Тихий океан.
Это стонет,
Это стонет
Тихий океан!

* * *

Люди мира, на минуту встаньте!
Слушайте, слушайте: идут со всех сторон –
Это раздается в Бухенвальде
Колокольный звон, колокольный звон.
Звон плывет, плывет над всей землею,
И гудит взволнованно эфир:
Люди мира, будьте зорче втрое,
Берегите мир, берегите мир!
Берегите,
Берегите,
Берегите мир!




I Baku

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİ TARİXİN YADDAŞINDA

